AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI

ƏLİ HƏSƏNOV

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ İNKİŞAF VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN ƏSASLARI

- **MİLLİ İNKİŞAF VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN ƏSASLARI**
- **MİLLİ MARAQ VƏ MİLLİ TƏHLÜKƏSİZLİK ÖLÇÜLƏRİ**
- **TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ DAXİLİ VƏ XARİCİ SİYASƏT STRATEGİYASI**
- **BEYNƏLXALQ VƏ REGİONAL TƏHLÜKƏSİZLİK SİYASƏTİ**
- **GEOSİYASİ STATUSU, FƏALİYYƏT KODEKSİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ**
- **ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏ ONUN MİLLİ TƏHLÜKƏSİZLİYƏ TƏSİRİ**

Bakı- 2016

Elmi redaktoru: **Elçin Əhmədov**
siyasi elmlər doktoru

Rəyçilər: **Musa Qasımlı**
tarix elmləri doktoru, professor

Hikmət Məmmədov
siyasi elmlər doktoru

Ə.M.HƏSƏNOV. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, "Zərdabi LTD", 2016, 700 s.

Azərbaycanda dövlət müstəqilliyinin bərpa edilməsindən sonrakı iyirmi beş illik müddət ərzində milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları, məqsəd və vəzifələri, başlıca istiqamətləri və mexanizmləri sistemli şəkildə tədqiq olunur, ictimai-siyasi, sosial-iqtisadi, hərbi-sərhəd, nəqliyyat-tranzit, ərzaq, informasiya, ekologiya və s. sahələrində həyata keçirilən təhlükəsizlik fəaliyyətinin geniş politoloji təhlili aparılır, ölkənin milli, regional və beynəlxalq təhlükəsizlik sahəsində yürütdüyü siyasətin, təhlükəsizlik sahəsində həyata keçirilən tədbirlərin, daxili və xarici fəaliyyətin elmi-nəzəri aspektləri araşdırılır, milli təhlükəsizlik strategiyasının formalaşması, həyata keçirilməsi, praktiki nəticələri və səmərəlilik dərəcəsi geosiyasi cəhətdən qiymətləndirilir.

Monoqrafiyada ayrıca olaraq Azərbaycan Respublikasının geosiyasi kodunun, təhlükəsizlik sahəsində milli və xarici siyasət konsepsiyasının hazırlanması, milli maraq çərçivəsinin müəyyənləşməsi və təmin edilməsi kimi çoxsaylı hərbi-geostrateji və geosiyasi məsələlər təhlil olunur, dövlətin gələcək inkişaf perspektivləri, təhlükəsizlik sahəsində dünyanın və regionun geosiyasi güc mərkəzləri ilə münasibətləri, Xəzərin enerji resurslarının istismarı və dünya bazarlarına çıxarılması, Şərq-Qərb, Simal-Cənub nəqliyyat-kommunikasiya dəhlizləri və s. transmilli layihələrin təhlükəsizliyinin təmin edilməsinin vacib aspektləri araşdırılır.

Monoqrafiyanın faktiki materialları, müddəaları və nəticələri həm elmi-nəzəri, həm də praktiki əhəmiyyət daşıyır. Ondan gələcək tədqiqat işlərində, mövzu üzrə dərslik, dərs vəsaiti və ümumiləşdirilmiş əsərlərin yazılmasında, universitetlərdə və xüsusi ali məktəblərdə təhlükəsizlik kursu üzrə mühazirələrin tərtib edilməsi və seminar məşğələlərində, Azərbaycan Respublikası XİN, DTX, MN və digər nazirlik, xüsusilə xarici siyasət məsələləri ilə məşğul olan qurumların praktiki fəaliyyətində, kütləvi informasiya vasitələrində, təbliğat işlərində və s. sahələrdə istifadə etmək olar.

ISBN 978 9952 504 25 5

© Həsənov Ə.M., 2016
© "Zərdabi LTD" MMC, 2016

MÜNDƏRİCAT

Giriş 7

I FƏSİL
Azərbaycan Respublikasının müasir milli inkişaf siyasəti: xarakteristikası, əsas vəzifələri və tələbləri 45
§ 1.1. Milli inkişaf siyasətinin formalaşması, əsas mərhələləri və xarakterik xüsusiyyətləri 47
§ 1.2. Milli inkişaf siyasətinin əsas prinsipləri, vəzifələri və tələbləri 66

II FƏSİL
Azərbaycanın milli təhlükəsizlik siyasəti: milli maraqlarının əsas parametrləri, geosiyasi kodu və təhlükəsizlik perspektivləri 79
§ 2.1. Milli təhlükəsizlik siyasəti: formalaşması, əsas ölçüləri və mexanizmləri 79
§ 2.2. Təhlükəsizlik mühitinin formalaşması və beynəlxalq imicin qazanılması 86
§ 2.3. Milli maraqlar və onun çərçivəsi: milli təhlükəsizliyə təhdidlər 89
§ 2.4. Milli təhlükəsizliyin təmin olunmasının əsas vasitələri və ehtiyatları 96

III FƏSİL
Azərbaycanın milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri ... 103
§ 3.1. Hərbi təhlükəsizlik siyasəti 103
§ 3.2. Sərhəd təhlükəsizliyi siyasəti 115
§ 3.3. Milli enerji təminatı və təhlükəsizliyi siyasəti 133
§ 3.4. Geoiqtisadi müstəqillik və təbii ehtiyatların təhlükəsiz istifadəsi siyasəti 149
§ 3.5. İctimai-siyasi, sosial, etnik və milli insan ehtiyatlarının təhkükəsiz istifadəsi və idarə olunması siyasəti 158
§ 3.6. Ərzaq təminatı və təhlükəsizliyi siyasəti 170
§ 3.7. İnformasiya təhlükəsizliyi siyasəti 180
§ 3.8. Ekoloji təhlükəsizlik siyasəti 211

IV FƏSIL
Beynəlxalq təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasət strategiyası 227
§ 4.1. Beynəlxalq təhlükəsizlik sistemi: formalaşması, hüquqi əsasları, mahiyyəti, geosiyasi ölçüləri və tələbləri 227
§ 4.2. Beynəlxalq təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasət strategiyası və fəaliyyəti 240
§ 4.3. Azərbaycanın geosiyasi kodu və geosiyasi fəaliyyət kodeksi 262

V FƏSİL
Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsinin hərbi-geostrateji münasibətləri və Azərbaycanın regional təhlükəsizlik siyasəti 271
§ 5.1. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik mühiti: regional bloklaşma reallıqları və proqnozları, hərbi-geostrateji güclərin təsnifatı 271
§ 5.2. Rusiyanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə yanaşması, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Azərbaycanın təhlükəsizlik maraqları 289
§ 5.3. ABŞ, NATO və Avropa İttifaqının Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yürütdüyü regional təhlükəsizlik siyasəti və Azərbaycanın hərbi-geostrateji maraqları 309
§ 5.4. Rusiya, ABŞ, NATO və Avropa İttifaqı arasındakı münasibətlərin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə təsiri 345
§ 5.5. Türkiyənin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik arxitekturasına yanaşması, Azərbaycanın geostrateji təhlükəsizlik maraqları 365
§ 5.6. İranın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizliyinə yanaşması, Azərbaycanın hərbi təhlükəsizlik maraqları 379

§ 5.7. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional maraqlar sistemində Ukraynanın hərbi-geostrateji mövqeləri: Təhlükəsizlik sahəsində Azərbaycan-Ukrayna münasibətlərinin xarakteristikası 397
§ 5.8. Gürcüstanın Cənubi Qafqaz və Qara dəniz hövzəsinin təhlükəsizlik arxitekturasına yanaşması və hərbi-geostrateji mövqeyi..... 417
§ 5.9. Təhlükəsizlik sahəsində Azərbaycan-Gürcüstan və Türkiyə arasındakı regional tərəfdaşlığın əsas şərtləri və tələbləri 424
§ 5.10. Cənubi Qafqazın regional təhlükəsizliyi və Ermənistanın qonşu dövlətlərə qarşı əsassız ərazi iddialarının geosiyasi nəticələri 434
§ 5.11. Azərbaycanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yürütdüyü regional təhlükəsizlik siyasəti 446

VI FƏSİL
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Cənubi Qafqazın əsas təhlükəsizlik problemi kimi: beynəlxalq, regional, yerli maraqlar və Azərbaycanın ərazi bütövlüyü məsələsi 467
§ 6.1. Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri haqqında 468
§ 6.2. XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və sovet rəhbərliyinin ermənipərəst Qafqaz siyasəti..... 472
§ 6.3. Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı və münaqişənin BMT Təhlükəsizlik Şurasında müzakirəsi..... 477
§ 6.4. ATƏT-in Minsk qrupunun yaradılması, münaqişəsinin həlli istiqamətində vasitəçilik səyləri, münaqişə tərəflərinin mövqeyi və ümumi nəticələr..... 479
§ 6.5. Digər beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi və Azərbaycanın diplomatik fəaliyyətinin nəticələri 495

Əlavələr

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası 507
Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu ... 548
Milli Təhlükəsizlik Konsepsiyasının təsdiq edilməsi
haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 575
Azərbaycan Respublikasının Hərbi Doktrinası 577

İstifadə edilmiş mənbə, ədəbiyyat və informasiya resursları 609
Резюме 651
Summary 657

GİRİŞ

Beynəlxalq münasibətlərin subyekti olaraq hər bir dövlətin dünyadakı nüfuzu və imici onun həyata keçirdiyi milli inkişaf və təhlükəsizlik siyasəti ilə bilavasitə bağlıdır. Milli inkişaf və təhlükəsizlik siyasəti ölkənin siyasi, iqtisadi, sosial və mənəvi inkişafının, xarici aləmdən qaynaqlanan təhlükələrə qarşı müqavimət gücünün, səmərəli dövlət idarəçiliyinin, ölkədaxili sabitliyin**,** vətəndaşların milli ideyalar, məqsədlər, amallar ətrafında birləşməsi, ictimai-siyasi həyatda iştirakı vəziyyətinin və s. daxili məsələlərin əsas göstəricilərindən biri kimi çıxış edir.

Məlum olduğu kimi, SSRİ dövründə Azərbaycanın ayrıca nə milli inkişaf, nə də ki, təhlükəsizlik siyasəti mövcud deyildi. Digər müttəfiq respublikalar kimi onun da inkişafı və təhlükəsizliyinin əsasları, təminatı və s. məsələlər SSRİ çərçivəsində, vahid dövlət məkanında, ümumi siyasi-iqtisadi və ideoloji yanaşma və amillərlə müəyyən olunur, bu sahə üzrə əsas problemlər ittifaq dövlətinin kompleks maraqları çərçivəsində həll edilirdi.

SSRİ-nin dağılması, dünya sosializm sisteminin süqutu, çoxsaylı ölkələrin bir siyasi sistemdən digərinə keçidi, yeni yaranmış müstəqil dövlətlərin beynəlxalq münasibətlərə qoşulması və s. hadisələr planetimizdəki əvvəlki siyasi, iqtisadi, geosiyasi və hərbi-geostrateji vəziyyəti ciddi şəkildə dəyişdi.

Bütün bu transmilli proseslər digər postsovet respublikalarında olduğu kimi Azərbaycan dövləti qarşısında da öz *milli inkişaf və təhlükəsizlik siyasətinin formalaşdırılması, təhlükəsizlik sahəsində milli strategiyanın yaradılması və həyata keçirilməsi vəzifəsini* irəli sürdü.

1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin, onun nəzəri və praktiki əsaslarının formalaşdırılması, müstəqil dövlətin həyati maraqları çərçivəsinin müəyyənləşdirilməsi və təmin olunması, milli təhlükəsizliyin mexanizmlərinin, ehtiyatlarının yaradılması, cəmiyyətin sosial-iqtisadi, siyasi və mənəvi təməlinin yeni dəyərlər və prinsiplər əsasında qurulması və b. vəzifələr dövlət siyasətinin xüsusi istiqamətinə çevrilərək, ümumi dövlət quruculuğu prosesinin təxirəsalınmaz və vacib məsələlərindən birini təşkil etdi. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizliyi qarşısında dayanan həmin dövrün əsas vəzifələrini şərh edən ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, müstəqil dövlət taleyin xalqımıza bəxş etdiyi dəyərli töhfə və əvəzsiz milli sərvət idi. Lakin müstəqilliyin qorunması, ölkənin milli inkişafının və təhlükəsizliyinin təmin edilməsi ondan qat-qat çətin idi, ölkə rəhbərliyindən, hər bir vətəndaşdan xüsusi səy, məsuliyyət və iradə tələb edirdi. Yeni tarixi şərait Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, demokratik, hüquqi və dünyəvi dövlət qurulması, ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, ölkənin və onun əhalisinin inkişafının, təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi vəzifələr qoyurdu. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüs daxili və xarici siyasətin

həyata keçirilməsini, ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.[1]

1993-cü ildən başlayaraq Prezident Heydər Əliyevin rəhbərliyi ilə *özündə müstəqil dövlət maraqlarını və beynəlxalq dəyərləri, ümumi təhlükəsizlik normalarını və milli postulatları əks etdirən - şəxsiyyətin, cəmiyyətin, dövlətin təhlükəsizliyinin əsas vəzifələrini, istiqamətlərini və prioritetlərini ehtiva edən yeni milli inkişaf və təhlükəsizlik siyasəti formalaşdırıldı, sonrakı dövrdə müxtəlif inkişaf mərhələlərindən keçərək təkmilləşdirildi və həyata keçirilməyə başlandı*. Keçən iyirmi ildə Azərbaycanda milli inkişaf və təhlükəsizlik sahəsində müəyyən qanunlar yazılıb, konsepsiyalar, doktrinalar, xüsusi dövlət proqramları qəbul edilib, çoxsaylı praktiki addımlar atılıb və işlər görülüb. Hazırda bütün bu işlərin öyrənilməsi, ümumiləşdirilməsi, dəyərləndirilməsi və həyata keçirilən siyasətin effektivliyinin qiymətləndirilməsi, ölkənin milli inkişaf və təhlükəsizlik strategiyasının elmi-nəzəri cəhətdən təhlil olunması ehtiyacı yaranıb ki, bu da ölkə siyasətşünasları qarşısında bir çox aktual vəzifələr qoyur.

Müasir dünyanın beynəlxalq və regional təhlükəsizlik sistemi, planetin ictimai-siyasi, iqtisadi, mədəni-mənəvi inkişaf meyilləri özünəməxsus xüsusiyyətləri və dinamikası ilə fərqlənir. Bütün bunlar müstəqilik yolu ilə irəliləyən Azərbaycanın milli inkişafına, daxili və xarici vəziyyətinə, dövlət təhlükəsizliyinə ciddi təsir göstərir.

[1]Bax: Əliyev H.Ə. Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. Müstəqilliyimiz əbədidir. Elektron külliyyat. http://heydaraliyev. preslib.az

Bundan başqa, üçüncü minilliyin başlanğıcından beynəlxalq münasibətlərin və dünya siyasətinin vahid prinsiplərinin pozulması, getdikcə daha açıq formada fərqli standartlar əsasında formalaşması və idarə edilməsi, iqtisadi və siyasi münasibətlərin praqmatik sisteminin təşəkkül tapması, nəhəng transmilli korporasiyaların dünyadakı aşkar hegemonluğunun və ölkədaxili proseslərə təsirinin artırması, mütərəqqi texnologiyalara əsaslanan informasiya cəmiyyətlərinin yaranması və milli sədləri aşması və s. proseslər də milli dövlətlərin inkişafı və təhlükəsizliyinə ciddi təsir göstərir. Bütün bu hadisələrin səbəbləri, mahiyyəti, inkişaf perspektivləri və ölkələrin mili inkişafına, təhlükəsizliyinə təsiri məsələlərinin öyrənilməsi Azərbaycan üçün də mühüm elmi-nəzəri və siyasi aktuallıq kəsb edir.

Keçən əsrin sonlarına yaxın SSRİ-nin və dünya sosializm sisteminin süqutu, planetar səviyyədə mövcud olan ideoloji qarşıdurmanın "birqütblü hegemonluq siyasəti" ilə əvəzlənməsi, müstəqil dövlətlərə təsiretmənin daha cəlbedici vasitələrinin işə salınması və s. ilə beynəlxalq münasibətlərdə yeni standartların bünövrəsini qoydu.

Bundan başqa, postsovet məkanınının özündə də müstəqillik əldə etmiş dövlətlərin milli inkişaf və təhlükəsizlik sahəsində yürütdükləri fərqli siyasət Avrasiyanın və dünyanın geosiyasi reallıqlarına, təhlükəsizlik sistemlərinə təsirsiz ötüşmədi. Qeyd etdiyimiz faktların əksəriyyəti həm də qlobal və regional təhlükəsizlik sistemində, onun anlayışlarında, strukturunda bəzi ciddi dəyişikliklər yaratdı. Məsələn, SSRİ-nin dağılması ilə bir çox nəzəri-hüquqi terminlərdə olduğu kimi, geosiyasət və geostrategiya sahəsində də, milli təhlükəsizliyik və onun təmin

olunması ilə bağlı o dövrə qədər mövcud olan yanaşmalarda da ciddi fərqlər meydana çıxdı. Məlum olduğu kimi, "təhlükəsizlik", "milli təhlükəsizlik", "dövlət təhlükəsizliyi" və s. kimi anlayışlar mürəkkəb siyasi-sosial hadisə olaraq həm subyektiv, həm də konkret-tarixi xarakter daşıyır. Bu anlayış "təbiət-insan-cəmiyyət-dövlət-xarici aləm" sistemində hər bir ölkənin beynəlxalq hüquq normaları və öz milli maraqları çərçivəsindəki fərdi yanaşmasına və qarşılıqlı təsir etmə, münasibət yaratma və s. hərəkətlərə söykənir. Dövlətin təhlükəsizlik siyasətinin əsas məqsədi xarici aləmlə təmas zamanı ölkənin həyati əhəmiyyətli milli maraqlarını (subyektiv yanaşma əsasında müəyyən olunmuş - Ə.H.) qorumaq və yüksək səviyyədə təmin etməkdən ibarət olduğu üçün, hər bir ölkənin milli maraqları, milli təhlükəsizliyi və planetar nüfuzu həm beynəlxalq hüququn subyekti kimi dünyada nəzərə alınır, beynəlxalq qurumlar tərəfindən qorunur, həm də dövlətin özünün daxili-xarici ehtiyatlarının, mexanizmlərinin köməyi ilə təmin olunur. Hazırda təzahür etmə miqyasından və məkan amilindən asılı olaraq, beynəlxalq təhlükəsizlik sistemi əvvəlki dövrdə olduğu kimi, sosializm və kapitalizm düşərgələrinin ideoloji qarşıdurması çərçivəsində deyil, milli, regional və qlobal olmaqla üç fərqli məkan ölçülərini və ayrılıqda hər bir dövlətin fərdi təhlükəsizlik səviyyəsini özündə əks etdirir. Təhlükəsizliyin bu tipologiya üzrə təsnif olunmasına planetin, ayrı-ayrı regionların və dövlətlərin hərbi-geostrateji və geosiyasi təhlükəsizlik mühitinin xarakteristikası, birlikdə və ayrılıqda hərbi blokların, müxtəlif ölkələrin dünya təhlükəsizlik siyasətində rolu, milli dövlətlərin ərazi suverenliyi amili və s. kimi təhlükəsizlik məsələləri də təsir göstərir. Müasir təhlükəsizliyin müxtəlif səviyyə-

lərdə təsnif olunmasına baxmayaraq, onun təminatı fikrimizcə, qlobal miqyaslı vahid iyerarxik təhlükəsizlik sisteminin fəaliyyət göstərməsini tələb edir. Lakin etibarlı təhlükəsizliyin təmin edilməsinə nail olmaq üçün bu sistem beynəlxalq, regional və milli səciyyəsindən asılı olmayaraq, hər bir səviyyənin özünəməxsus xüsusiyyətlərini, təhlükə mənbələrini, vasitələrini və mexanizmlərini nəzərə almaqla fəaliyyət göstərməlidir. Müasir beynəlxalq təhlükəsizlik sisteminin bu cəhətlərini və xüsusiyyətlərini nəzərə alaraq, Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin beynəlxalq, regional və milli səviyyələrinin əsas cəhətlərini, hər səviyyə üzrə hədəflərini, prioritetlərini və istiqamətlərini müəyyənləşdirmək vəzifəsi müasir dövrdə xüsusi aktuallıq və əhəmiyyət daşıyır.

Azərbaycanın milli, regional və beynəlxalq təhlükəsizliyin bərqərar olunmasına yönəlmiş xarici siyasət strategiyasının əsas vəzifələrindən biri *ölkənin dinc şəraitdə inkişafı, suveren dövlət hüquqlarının qorunması, dünya birliyi və beynəlxalq münasibətlərin subyektləri ilə qarşılıqlı əlaqələrinin yaradılması və milli maraqlarının təmin edilməsindən* ibarətdir. Müstəqil dövlət olaraq hər bir ölkənin dünya birliyində tutduğu mövqe və qazandığı nüfuz onun beynəlxalq, regional və milli səviyyələrdə reallaşdırdığı *təhlükəsizlik siyasətinin çevikliyindən və səmərəliliyindən* asılı olur. Buna görə də ölkənin milli təhlükəsizliyinin bütün səviyyələrdə təmin olunması ilə bağlı xarici siyasət fəaliyyətinin öyrənilməsi, qarşıda dayanan məqsəd və vəzifələrin elmi-konseptual baxımdan araşdırılması Azərbaycan siyasətşünaslığında xüsusi aktuallıq kəsb edir.

Azərbaycanın Avropa və Asiyanın nəqliyyat-kommunikasiya xətlərinin kəsişmə nöqtəsində, geosiyasi, hərbi-geostrateji

və geoiqtisadi cəhətdən əhəmiyyət kəsb edən, enerji qaynaqları ilə zəngin məkanda – Avrasiyada yerləşməsi onun milli inkişafına, beynəlxalq, regional və milli təhlükəsizlik siyasətinin əsas vəzifələri, istiqamətləri və mexanizmlərinin müəyyənləşməsinə həlledici təsir göstərir. Bununla bağlı, həm də Xəzər hövzəsi və Cənubi Qafqazın hərbi-strateji və təhlükəsizlik sisteminin formalaşmasında Azərbaycanın yürütdüyü milli, regional və beynəlxalq təhlükəsizlik siyasəti xüsusi rol oynayır. Məlumdur ki, bu istiqamətdə həyata keçirilən milli siyasətin əsas istiqamətlərindən biri ölkənin regionda gedən əksər geosiyasi və geoiqtisadi proseslərdə fəal iştirakının təmin edilməsi və bütün sahələr üzrə milli maraqlarının qorunmasıdır. Son iki əsrə yaxın müddət ərzində Cənubi Qafqaz və Xəzər hövzəsi Rusiyanın geosiyasi təsiri və nəzarəti altında olmuş, bu ölkə üçün xüsusi hərbi-geostrateji əhəmiyyət daşımışdır. Sovet İttifaqının dağılmasından sonra Cənubi Qafqaz və Xəzər hövzəsində nisbi "geosiyasi boşluğun" yaranması bu məkanda bir müddət etnik separatizmə, milli qarşıdurmalara və dezinteqrasiya proseslərinə təkan vermişdir. Bu regiona nəzarət Avrasiyanın daha geniş ərazilərini təsir dairəsində saxlamağa imkan verdiyindən, Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsi müxtəlif beynəlxalq "güclərin", böyük dövlətlərin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının kəsişdiyi məkana çevrilmişdir. Bundan başqa, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz həm də transkontinental enerji, nəqliyyat-kommunikasiya əlaqələndiricisi və beynəlxalq enerji təhlükəsizliyi sisteminin təsiredici mərkəzlərindən biri kimi çıxış etməyə başlamışdır. Hazırda regionda hərbi-geostrateji, enerji, geoiqtisadi, diplomatik və s. sahəsində iki əsas ölkə – Rusiya və ABŞ; bir neçə

digər geosiyasi aktor- Avropa Birliyi, regionun və dünyanın böyük ölkələri və s. öz milli maraqlarını reallaşdırmağa çalışır. Odur ki, bu məkanda hərbi-geostrateji güclərin təsnifatının aparılması, təhlükəsizlik mühitinin formalaşmasına, hər bir dövlətin milli təhlükəsizlik siyasətinə təsir göstərən amillərin, regionda maraqları olan dövlətlərin və beynəlxalq güclərin hərbi, enerji, informasiya və iqtisadi təhlükəsizlik strategiyalarının, geosiyasi proseslərin mümkün inkişaf ssenarilərinin araşdırılması elmi-nəzəri və praktiki cəhətdən getdikcə aktuallaşır və əhəmiyyət kəsb edir.

Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin başlıca məqsədlərindən birini *ölkənin pozulmuş ərazi bütövlüyünü bərpa etmək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq, Cənubi Qafqazda davamlı sülh yaratmaq və s.* təşkil edir. Dağlıq Qarabağ münaqişəsinin həlli və bölgədə sülhə nail olunması təkcə Azərbaycanın milli inkişafının və təhlükəsizliyinin yolunu açmır, həm də bütöv regionun sosial-iqtisadi inkişafına, dünyada etibarlı sülhün və təhlükəsizliyin möhkəmlənməsinə təsir göstərir. Buna görə də Azərbaycan Respublikası Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn verdiyi imkanlar çərçivəsində aradan qaldırılması üçün fəal və ardıcıl siyasət aparır. Münaqişənin əsl mahiyyətinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, ermənilərin işğalçılıq siyasətinin ifşa edilməsi, ATƏT-in Budapeşt və Lissabon sammitlərində onun həlli prinsipləri və mexanizmləri ilə bağlı beynəlxalq sənədlərin qəbul edilməsi, BMT, ATƏT, İslam Konfransı Təşkilatı (2011-ci ildən İslam Əməkdaşlıq Təşkilatı- Ə.H.), Avropa Şurası və Avropa Parlamenti kimi təşkilatların problemin həllinə aid qətnamələrinin, çağırış-

ları və müvafiq qərarlarının verilməsi və s. həmin fəal siyasətin nəticəsi kimi dəyərləndirilə bilər. Lakin, Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: Ermənistan tərəfindən Azərbaycanın ərazilərinin işğal edilməsi faktı Azərbaycanın milli maraqları əleyhinə yönəlmiş akt olmaqla yanaşı, həm də bütün bölgədə sülhə və sabitliyə qarşı ən ciddi təhlükə olaraq qalır. İyirmi ildən çox vaxt keçməsinə baxmayaraq, Ermənistan hələ də Azərbaycanın işğal altında olan torpaqlarının qeyd-şərtsiz boşaldılması haqqında BMT qətnamələrininin heç birinə məhəl qoymur, öz işğalçı siyasətini, danışıqlar prosesində qeyri-konstruktiv mövqeyini davam etdirir ki, bu da Dağlıq Qarabağ münaqişəsinin həllini yubadır.[2] Göründüyü kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin doğurduğu milli və regional vəziyyətin öyrənilməsi, yaranmış problemlərin həlli yolları və perspektivlərinin araşdırılması həm Azərbaycanın milli inkişaf və təhlükəsizliyi, həm də regional və beynəlxalq sülhün, təhlükəsizliyin təmin olunması kontekstində xüsusi aktuallıq kəsb edir.

Məlumdur ki, hər bir dövlətin milli inkişaf strategiyasında onun *siyasi, iqtisadi, hərbi, sərhəd, enerji, nəqliyyat, ərzaq, informasiya, ekologiya və digər həyati sahələrinin təhlükəsizlik tələbləri də öz əksini tapır.* Göstərilən sahələrdə elmi-nəzəri cəhətdən dövlətin rəsmi təhlükəsizlik siyasətinin əsas prinsiplərinin, məqsəd və vəzifələrinin, rastlaşdığı problemlərin araşdırılması və qiymətləndirilməsi, müvafiq elmi-praktiki tövsiyələrin verilməsi Azərbaycan siyasətşünaslığının qarşısında duran ən vacib məsələlərdən biridir. Çünki, hər bir ölkədə yürü-

[2] Bax: İlham Əliyev. Koreya Respublikasının "Diplomacy" jurnalına müsahibəsi // "Azərbaycan" qəz., 25 aprel 2012. N89.s.2.

dülən milli inkişaf və təhlükəsizlik siyasətinin praktiki səmərəlilik dərəcəsini, real nəticələrini, gələcək perspektivləri və hədəflərini öyrənməklə həm də milli inkişaf və təhlükəsizlik sistemi arasındakı qarşılıqlı əlaqələrin elmi-konseptual mənzərəsini və dinamikasını müəyyənləşdirmək mümkündür.

Qeyd etmək lazımdır ki, hər bir müstəqil dövlət kimi *Azərbaycanın da sərhədlərinin təhlükəsizliyi və ərazi bütövlüyünün təminatı təkcə ölkənin siyasi təhlükəsizliyinin və suverenliyinin əsas məkan çərçivəsini yaratmır, həm də onun milli identikliyinin və milli birliyinin formalaşması arealını müəyyənləşdirir.* Dünya ölkələrinin tarixi təcrübəsindən məlumdur ki, *ərazi bütövlüyünün və milli birliyin pozulması, milli identikliyin zədələnməsi ayrı-ayrı xalqların suverenliyinin və milli varlığının itirilməsinə səbəb olmuşdur. Öz daxilində birləşərək ərazisini, dövlətçiliyini və milli maraqlarını qoruya bilməyən xalqlar, müstəqil daxili və xarici siyasət aparmaq qabiliyyətinə malik olmayan dövlətlər zaman-zaman suverenliklərini itirmiş və tarix səhnəsini tərk etmişlər. Milli inkişaf və təhlükəsizlik siyasətinin effektivliyi, ölkənin xarici aləmdən qaynaqlanan təhlükələrə qarşı müqavimət gücü və s. məsələlər də təkcə dövlətin milli iqtisadiyyatının inkişaf səviyyəsi, hərbi gücü ilə deyil, həm də dövlətdaxili ictimai-siyasi sabitliyin, cəmiyyətin milli-vətəndaş birliyinin, dövlətçilik təfəkküründün vəziyyəti ilə ölçülür.*

Azərbaycanın milli inkişaf və təhlükəsizliyinin təmin olunmasında və bu sahə üzrə dövlət siyasətinin müəyyənləşməsində *vahid milli ideyanın - azərbaycançılığın formalaşdırılması və rəsmi dövlət siyasəti səviyyəsinə qaldırılması mühüm əhəmiyyətə malik olmuşdur.* Xüsusən dövlət müstəqilliyi-

nin bərpası və möhkəmləndirilməsi, ölkədə milli-mənəvi dəyərlərin qorunub saxlanılması və inkişafı, dünya azərbaycanlılarının müstəqil dövlətçilik amalı ətrafında birləşdirilməsi və s. sahələrdə bu ideya ötən müddət ərzində əvəzsiz rol oynamışdır. *Azərbaycanın milli identifikasiya kodunun böyük tarixi-mədəni ənənələrə, dərin etnik və polietnik köklərə söykənməsi onun milli ideologiyasının sabit vəziyyətini təmin edir və dayanıqlığını artırır.* Bu keyfiyyətinə görə azərbaycançılıq ideyası müasir dövrdə həm milli adət-ənənələrin, mənəvi dəyərlərin qorunmasında həlledici vasitəyə çevrilir, həm mənəvi həyatın modernləşmə yolu ilə dünya sivilizasiyasının qabaqcıl nümunələrinin əxz edilməsinə şərait yaradır, həm də müstəqil dövlət kimi ölkənin dinamik inkişafına təkan verir, onun beynəlxalq mövqelərinin möhkəmlənməsinə xidmət edir. Milli birlik və vahid ideya ətrafında səfərbərolunma gücü Azərbaycanın həm də daxildə vətəndaş cəmiyyəti institutlarının potensialının artmasına, regional və beynəlxalq təhlükəsizlik sahəsində dünya dövlətləri ilə əməkdaşlığına, strateji tərəfdaş ölkələrlə qarşılıqlı münasibətlərinin inkişafına və s. müsbət təsir göstərir. Bütün bunları nəzərə alaraq, yerli siyasətşünaslıqda azərbaycançılıq ideyasının milli inkişaf və təhlükəsizlik siyasətinə, onun effektivliyinə təsiri məsələsinin araşdırılması mühüm elmi və siyasi aktuallıq kəsb edir.

Oxuculara təqdim olunan bu monoqrafiyanın əsas tədqiqat obyektini Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin konseptual əsasları, tədqiqat predmetini isə ölkənin milli inkişaf və təhlükəsizlik siyasəti, milli maraq ölçüləri, milli, regional və beynəlxalq təhlükəsizlik sahəsində reallaşdırdığı fəaliyyətin xüsusiyyətləri, daxili və xarici siyasət

strategiyası, Dağlıq Qarabağdakı davakar separatçı rejimin və Ermənistan dövlətinin Azərbaycana ərazi iddiası və açıq işğalçılıq siyasəti nəticəsində bölgədə yaranmış münaqişə, ermənilərin Azərbaycanın və bütövlükdə Cənubi Qafqazın təhlükəsizlik mühitinə yaratdığı problemlər və s. məsələlər təşkil edir.

Monoqrafiyada əsasən aşağıdakı vəzifələr qarsıya məqsəd kimi qoyulmuşdur:

1. Azərbaycanın milli inkişaf siyasətinin formalaşması və həyata keçirilməsinin mərhələlərinin, xarakterik xüsusiyyətlərinin, bu siyasətin nəzəri, hüquqi və praktiki əsaslarının, əsas vəzifə və tələblərinin öyrənilməsi;

2. Ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanda formalaşdırılan və həyata keçirilən, milli inkişafın və dövlətçiliyin əsas sütunlarından sayılan birləşdirici ideyanın – azərbaycançılığın dövlət siyasəti səviyyəsinə qaldırılması və milli dövlət quruculuğu prosesindəki tətbiqi məsələlərinin, siyasi inkişafla bağlı əsas prinsiplərinin təhlil olunması;

3. Azərbaycanın milli maraq ölçüləri və milli təhlükəsizlik siyasətinin əsaslarının, prinsip, məqsəd və vəzifələrinin, xarakterik xüsusiyyətlərinin, təminat mexanizmlərinin elmi-nəzəri cəhətdən təhlil edilməsi, ölkənin hərbi, sərhəd, iqtisadi inkişaf, insan ehtiyatlarının idarə edilməsi, maliyyə, enerji, ərzaq, nəqliyyat, tranzit-dəhliz, infrastruktur, informasiya, ekoloji və s. sahələrin təhlükəsizliyi vəziyyətinin, yürüdülən praktiki təhlükəsizlik siyasətinin səmərəlilik dərəcəsinin, real nəticələrinin, gələcək perspektivləri və hədəflərinin öyrənilməsi, milli inkişaf və təhlükəsizlik sisteminin elmi-konseptual mənzərəsinin müəyyənləşdirilməsi və müvafiq praktiki tövsiyələrin verilməsi;

4. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası və Hərbi Doktrinasının geosiyasi və politoloji təhlilinin aparılması, milli maraqların və təhlükəsizliyin qorunması sahəsində bu sənədlərdə qarşıya qoyulan strateji məqsədlərin, taktiki vəzifələrin, eləcə də milli inkişaf strategiyası ilə təhlükəsizlik sistemi arasındakı qarşılıqlı əlaqələrin öyrənilməsi;

5. Beynəlxalq təhlükəsizlik sisteminin əsas tələbləri və geosiyasi ölçüləri fonunda, bütün səviyyələrdə Azərbaycanın milli təhlükəsizliyinin təmin olunması ilə bağlı reallaşdırılan daxili və xarici siyasət fəaliyyətinin, qarşıda dayanan məqsəd və vəzifələrin araşdırılması, ölkənin geosiyasi kodu və geosiyasi fəaliyyət kodeksinin elmi-konseptual baxımdan əsaslandırılması, təhlil olunması və müvafiq praktiki tövsiyələrin hazırlanması;

6. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik mühitinin formalaşmasına, yerli və xarici dövlətin milli təhlükəsizlik siyasətinə təsir göstərən amillərin, maraqlı dövlətlərin və beynəlxalq güclərin, geosiyasi aktorların hərbi, enerji, informasiya və iqtisadi təhlükəsizlik strategiyalarının, geosiyasi proseslərin mümkün inkişaf ssenarilərinin tədqiq edilməsi, bölgənin təhlükəsizlik mühiti, hərbi bloklaşma reallıqları, hərbi-geostrateji güclərin təsnifatı fonunda Azərbaycanın regional təhlükəsizlik maraqları və siyasətinin elmi-nəzəri və praktiki cəhətdən araşdırılması və praktiki tövsiyələrin verilməsi;

7. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda Rusiyanın, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının, NATO-nun, ABŞ və Avropa Birliyinin hərbi-geostrateji maraqları və

regional təhlükəsizlik siyasətini, bu siyasətin Azərbaycanın hərbi-geostrateji maraqlarına təsiri məsələlərinin öyrənilməsi;

8. Türkiyə, İran və digər bölgə ölkələrinin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə yanaşması və bu əsasda Azərbaycanın regional təhlükəsizlik maraqları və regional təhlükəsizlik siyasətinin şərh edilməsi;

9. Cənubi Qafqazın əsas təhlükəsizlik məsələsi hesab olunan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi köklərinin tədqiqi, problemin yaranması və sonrakı inkişafında beynəlxalq, regional və milli maraqların araşdırılması, münaqişənin doğurduğu beynəlxalq və regional problemlərin təhlil edilməsi, Azərbaycanın işğalın nəticələrinin aradan qaldırılması və öz ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində beynəlxalq, regional və ölkə daxili fəaliyyətinin şərh edilməsi, münaqişənin həlli istiqamətində beynəlxalq təşkilatların rolu və fərqli maraqlarının cərəyan etmə xüsusiyyətlərinin tədqiq edilməsi və s.

Problemin öyrənilmə dərəcəsi. Azərbaycanda milli inkişaf və təhlükəsizlik siyasəti indiyə qədər nə beynəlxalq, nə də ölkə siyasətşünaslığında ayrıca elmi araşdırma mövzusu olmamış və bəhs olunan sahə üzrə sistemli, kompleks tədqiqat işi qeydə alınmamışdır. Lakin bu sahənin ayrı-ayrı sahələrini, Azərbaycanda milli inkişaf və təhlükəsizliklə bağlı reallaşdırılan fəaliyyəti, yürüdülən dövlət siyasətini, praktiki tədbirləri əks etdirən çoxsaylı mənbələr, rəsmi materiallar, ölkə rəhbərliyinin və digər ali vəzifəli şəxslərin çıxışları toplanmışdır.

Bundan başqa mövzu üzrə indiyə qədər bir çox xarici və yerli müəlliflərin məqalələri və kitabları çap olunmuş, bəzi hadisələrin xronikası tərtib edilmişdir. Düzdür, həmin mənbə

və tədqiqatlarda Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti, bu siyasətin elmi-nəzəri, praktiki əsasları, prinsipləri, xüsusiyyətləri və istiqamətləri, milli inkişaf strategiyası və təhlükəsizlik siyasəti arasındakı qarşılıqlı əlaqələr, onların birbirinə təsiri və s. məsələlər ayrıca bir tədqiqat obyekti kimi ortaya qoyulmamış və sistemli araşdırmaya cəlb edilməmişdir. Lakin bu problemin ayrı-ayrı aspektləri üzrə bəzi tədqiqat əsərləri yazılmışdır.

Müstəqillik illərində Azərbaycanın milli inkişafı və təhlükəsizlik siyasətinin müxtəlif aspektlərinin, xüsusən də milli inkişafın öyrənilməsi baxımından aparılan elmi araşdırmalar sırasında akademik Ramiz Mehdiyevin əsərləri xüsusi əhəmiyyət kəsb edir. Onun bu məsələnin ayrı-ayrı problemlərinə həsr edilmiş çoxsaylı kitab və məqalələri tədqiqat obyektinə və mövzuların geniş spektrinə görə siyasətşünaslar tərəfindən yüksək qiymətləndirilir.

R.Mehdiyevin geniş informasiya yüklü siyasi-fəlsəfi əsərlərində ölkənin milli inkişafı və təhlükəsizlik siyasətinin formalaşması və həyata keçirilməsinin nəzəri- praktiki məsələləri öz əksini tapmış, ayrı-ayrı illərdə bu sahədə görülən işlər, həyata keçirilən dəyişikliklər təhlil edilmiş və əhəmiyyətli elmi-praktiki tövsiyələr verilmişdir. Bundan başqa, müəllifin monoqrafiyalarında müstəqil dövlət quruculuğu və müasir dünyada cərəyan edən qlobal geosiyasi proseslər kontekstində Azərbaycan dövlətinin milli inkişafının müxtəlif məsələləri təhlil olunmuş, planetar transformasiyaların Azərbaycan dövləti və cəmiyyətinin mövcud reallıqlarına təsiri, milli inkişaf strategi-

yasının istiqamətlərinin müəyyənləşməsində rolu ilə bağlı bir çox elmi fikirlər irəli sürülmüşdür.[3]

R. Mehdiyevin "Azərbaycanın inkişaf dialektikası" (Bakı, 2000) əsəri Azərbaycan Respublikasının keçdiyi inkişaf yolunun dialektikasına, həmin dövrün xarakterik xüsusiyyətlərinə və s. məsələlərə həsr edilmişdir. Kitabda Azərbaycanda Xalq Cümhuriyyəti dövründən başlayaraq sovet hakimiyyəti illəri də daxil olmaqla, müstəqillik dövrünün ictimai-siyasi prosesləri, respublikada milli inkişaf siyasətinin formalaşması və həyata keçirilməsinin tarixi şəraiti, dövlət quruculuğu, demokratikləşmə və modernləşmə kimi daxili siyasət məsələləri təhlil edilmişdir. Bu əsər milli inkişafın əsaslarını əks etdirməklə bərabər, həm də problemin elmi-siyasi mənzərəsini açmaq baxımından önəm daşıyır.

R. Mehdiyevin digər əsərləri də Azərbaycanın milli inkişaf siyasətinin öyrənilməsində mühüm rol oynayır. Bu baxımdan onun "2005-ci il parlament seçkiləri: ilkin təhlil" (Bakı, 2006), "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" (Bakı, 2006) və s. əsərlərini qeyd etmək olar.

R. Mehdiyevin tədqiqatlarında Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycanın inkişafının əsas sütunlarından sayılan birləşdirici millli ideyanın – azərbaycançılığın siyasi gündəmə gətirilməsi, 90-cı ilərdə rəsmi dövlət siyasəti səviyyəsinə qaldı-

[3]Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası. Bakı, Azərbaycan MEN, 2000; Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, XXI –Yeni Nəşrlər Evi, 2003; Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri – keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı, XXI – Yeni Nəşrlər Evi, 2005; Mehdiyev R. Yeni siyasət. 2 cilddə. Bakı, Şərq–Qərb, 2008; Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı, Şərq-Qərb, 2008 və s.

rılması, milli dövlət quruculuğu prosesindəki tətbiqi məsələlərinə toxunulur, Heydər Əliyevin dövlət quruculuğu təlimi və siyasi irsi təhlil olunur, Azərbaycanda formalaşan və həyata keçirilən milli inkişaf siyasətinin ideya-siyasi mənzərəsi, əsas mərhələləri, xüsusiyyətləri və fərqli aspektləri tədqiq edilir.

Müstəqillik dövründə Azərbaycanın sosial-iqtisadi tərəqqisinin və həyata keçirilən hüquqi-demokratik islahatların Heydər Əliyevin strateji dövlətçilik və idarəçilik xəttinin tərkib hissəsi kimi araşdırılması və həmin milli inkişaf siyasətinin Prezident İlham Əliyev tərəfindən 2003-2011-ci illərdə davam etdirilməsi, bu siyasi xəttin keyfiyyətcə yeni səviyyəyə qaldırılması məsələləri R. Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" (Bakı, 2005), "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" (Bakı, 2006), "Demokratiya yolunda: irs haqqında düşünərək" (Bakı, 2007) və s. əsərində təqdim edilir. [4] Bu əsərlərdə həm də müasir dünyanın transmilli inkişafı və qloballaşması fonunda Azərbaycanın milli inkişafı, cərəyan edən ictimai-siyasi və sosial-iqtisadi proseslərin mahiyyəti izah edilir, ölkənin milli inkişaf perspektivləri ilə bağlı bəzi tövsiyələr verilir.

R. Mehdiyevin "Yeni siyasət: inkişafa doğru", (2 cilddə, Bakı, 2008), "Modernləşmə xətti yenə də gündəmdədir" (Bakı, 2008) və s. əsərlərində Azərbaycanın milli inkişaf tarixi, keçid dövrünün qanunauyğunluqları və özünəməxsus xüsusiyyətləri, müasir sosial-iqtisadi və siyasi həyatın bəzi özəllikləri təhlil

[4]Bu haqda daha ətraflı bax: S.Xəlilov. Akademik Ramiz Mehdiyevin elmi-fəlsəfi fəaliyyəti haqqında // Ramiz Mehdiyev. Biblioqrafiya. Bakı, Şərq-Qərb, 2009, s. 87-64; Ə.Həsənov. Akademik Ramiz Mehdiyevin elmi yaradıcılığı haqqında //Yenə orada, s.157-161.

olunur, dünyada "soyuq müharibə"nin başa çatması ilə yaranan yeni dünya nizamının doğurduğu proseslər, müstəqillik yolu tutmuş müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın gələcək inkişafı, ictimai-siyasi perspektivləri və s. araşdırılır, gənc dövlətlərin inkişaf yollarına dair müəllif mülahizələri irəli sürülür.

Azərbaycanın milli inkişaf siyasətinin və müstəqillik illərində həyata keçirilən dövlət quruculuğunun fəlsəfi-siyasi təhlili tədqiqatçı alim Səlahəddin Xəlilovun əsərlərində də geniş şərh olunur. Xüsusən, müstəqilliyin möhkəmlənməsi və milli dövlət quruculuğu, davamlı inkişafın təmin olunmasında Prezident Heydər Əliyevin reallaşdırdığı milli ideyaların, milli-siyasi təşkilatlanma, milli-mənəvi özünüdərk proseslərinin aktual problemlərinin elmi-nəzəri təhlili onun yaradıcılığında mühüm yer tutur.

Heydər Əliyevin milli inkişafla bağlı fikir dünyası, dövlətçilik təlimi və ideyaları, əməli fəaliyyətinin dövlət və dövlətçiliklə, azərbaycançılıqla bağlı məqamları S. Xəlilovun "Lider, dövlət, cəmiyyət" adlı fundamental əsərində xüsusi elmi tədqiqata cəlb edilir. Bu əsər Azərbaycanın milli inkişafının mahiyyəti və Heydər Əliyevin milli dövlətçilik fəlsəfəsinin öyrənilməsi sahəsində çox sanballı bir tədqiqat hesab oluna bilər. Əsərdə müstəqillik illərində həyata keçirilən böyük siyasi, iqtisadi, sosial və mədəni-mənəvi quruculuq proseslərinin ümumi aspektləri tədqiq olunur, Heydər Əliyevin rəhbərliyi ilə reallaşdırılan dövlət siyasətinin əsasında dayanan başlıca prinsiplər ümumiləşdirilir və elmi şəkildə öyrənilir. Əsərdə həm də Heydər Əliyevin dövlətçilik irsinin öyrənilməsi fonunda, Azərbaycanda yeni cəmiyyət quruculuğu, milli dövlətçilik

və milli ideologiya məsələlərinin elmi-nəzəri tədqiqinə geniş yer verilir.[5]

Azərbaycanın milli inkişafının bəzi tarixi aspektlərinin öyrənilməsi, müstəqillik illərində Prezident Heydər Əliyevin formalaşdıraraq həyata keçirdiyi milli inkişaf siyasətinin ayrı-ayrı tərəflərinin tədqiqi tarixçi alim Yaqub Mahmudovun yaradıcılığında da mühüm yer tutur. Onun "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" və s. əsərlərində müstəqillik illərində Azərbaycan dövlətinin inkişaf siyasətinin formalaşması və həyata keçirilməsinin ayrı-ayrı həlledici məqamları, Prezident Heydər Əliyevin milli dövlətçilik baxışları, qurtuluş mübarizəsi və tarixi dirçəliş konsepsiyası, yürütdüyü daxili və xarici siyasətin xüsusiyyətləri və s. kimi məsələlər geniş əks olunmuşdur. Y. Mahmudovun Azərbaycanın milli inkişafı və Heydər Əliyevin bu sahədəki xidmətlərinin araşdırılması ilə bağlı yazdığı əsərləri fərqləndirən ən mühüm amil və yenilik onunla şərtlənir ki, müəllif bütün bəhs olunan məsələləri Azərbaycanın beş minillik dövlətçilik tarixinin ümumi mənzərəsi fonunda sistemli şəkildə öyrənir və vacib nəticələrə gəlir.[6]

Milli təhlükəsizlik probleminin bir çox ümumi siyasi, hüquqi və etnik-milli aspektləri, xüsusən Azərbaycan Respublikasında milli dövlət quruculuğu prosesinin təhlili, mövcud Konstitusiya quruluşunun formalaşması və inkişafının xarakteristikası, ölkədaxili sosial-siyasi, ictimai, milli-etnik vəziyyətin təhlili, daxili sabitliyin yaradılması və qorunub saxlanmasının

[5]Xəlilov. S. Lider, dövlət, cəmiyyət. Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2001.
[6]Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, "Təhsil" nəşriyyatı, 2002.

zərurəti və qanunauyğunluqları, milli inkişafın və təhlükəsizliyin digər bir çox aspektləri siyasətşünas alimlər Əlikram Tağıyev və Mahir Şükürovun yaradıcılığında da mühüm yer tutmuş və öz geniş həllini tapmışdır.[7]

Tədqiqatçı alim Musa Qasımlı öz yaradıçılığında daha çox Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyasının əsasında dayanan milli maraqlar və regional təhlükəsizlik məsələlərinə diqqət yetirir, ölkənin xarici siyasətinin konseptual əsaslarının müəyyənləşməsində milli inkişaf maraqlarının və vəzifələrinin təsirini araşdırır. Bundan başqa, müəllif xüsusi olaraq Azərbaycanın milli inkişaf məsələlərini, görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin hələ SSRİ dövründə müstəqil dövlətçilik baxışlarının, milli inkişaf dünyagörüşünün formalaşması və müstəqilliyə nail olduqdan sonra bu ideyaların həyata keçirilməsi və s. problemləri geniş şərh edir.[8]

Tədqiqatçılardan Hicran Hüseynova Azərbaycanın milli inkişaf və regional təhlükəsizlik məsələlərini Avropaya inteqrasiya fonunda öyrənir və ölkənin Avropa strukturlarına qoşulmasını zəruri edən bir çox ilkin şərtləri, o cümlədən milli maraqlardan irəli gələn bəzi mühüm vəzifələri təhlil edir.[9]

Azərbaycanın milli inkişaf yolunun və Heydər Əliyevin dövlətçilik irsinin tarixi və siyasi aspektlərinin araşdırılması baxımından İradə Hüseynovanın "Müstəqil Azərbaycan dövlə-

[7]Tağıyev Ə.,Şükürov M. İki əsrin qovşağında Azərbaycan: milli və millətlərarası problemlərin həlli yolunda. Bakı, Adiloğlu, 2004.

[8]Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, "Gənclik" nəşriyyatı, 1996; Qasımlı M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, "Mütərcim" nəşriyyatı, 1997. Qasımlı M. Heydər Əliyev-istiqlala gedən yol. Bakı, "BDU" nəşriyyatı, 2006.

[9]Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində (1991-1997). Bakı, Nurlan, 1998.

tinin qurucusu" adlı monoqrafiyası da milli tarixşünaslıqda əhəmiyyətli yer tutur. Müəllif Azərbaycanın son 35 illik ən yeni tarixinin, ümummilli lider Heydər Əliyevin milli dövlətçilik sahəsində həyata keçirdiyi fəaliyyətin geniş mənzərəsini yaratmış, prezident kimi 1993-cü ildən sonrakı dövrdə reallaşdırdığı daxili və xarici siyasəti, ictimai-siyasi sabitliyin bərqərar olması, iqtisadi, sosial-siyasi və mənəvi inkişafla bağlı ardıcıl islahatların aparılması, Azərbaycanı dünya siyasətinin mərkəzinə çevirməsi, yeni neft strategiyasının və digər transmilli enerji, nəqliyyat-kommunikasiya layihələrinin işlənib hazırlanması, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin həll edilməsi və s. sahədə nümayiş etdirdiyi fəaliyyəti geniş işıqlandırmışdır.[10]

Azərbaycanın müstəqillik dövrünün daxili ictimai-siyasi proseslərinin öyrənilməsi və mahiyyətinin dərk olunması, milli inkişaf siyasətinin bəzi konseptual nəzəri və praktiki aspektlərinin, xüsusən 1993-2003-cü illərdə Heydər Əliyevin xilaskarlıq və prezidentlik fəaliyyətinin, milli dövlət quruculugu sahəsində həyata keçirdiyi qətiyyətli dövlət siyasətinin qavranılması baxımından tədqiqatçılardan Abutalib Səmədovun, Aydın Mirzəzadənin və Məmməd Əlizadənin əsərləri də müəyyən elmi-nəzəri və siyasi əhəmiyyət kəsb edir. Hər üç müəllif Azərbaycanın ən yeni tarixinin ayrı-ayrı məqamlarını, ictimai-siyasi həyatında baş verən hadisələrin təfərrüatını və mahiyyətini, ölkənin milli inkişaf siyasətinin formalaşdırılması və həyata keçirilməsi sahəsində Prezident Heydər Əliyevin xidmətlərini, onun milli dövlət quruculuğu siyasətinin prinsip və

[10]Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı,"Təhsil" nəşriyyatı, 2004.

xüsusiyyətlərini, daxili və xarici siyasətinin real nəticələrini və s. məsələləri şərh edir, bəhs olunan sahə üzrə çoxsaylı əsaslandırılmış fikir və mülahizələr irəli sürürlər.[11]

Azərbaycanın milli təhlükəsizlik siyasətinin bəzi ümumi aspektlərinin öyrənilməsi baxımından tədqiqatçılardan Adil Rəcəblinin əsərləri[12] də müəyyən elmi-nəzəri əhəmiyyət kəsb edir. Onun monoqrafiyasında milli maraqlar və beynəlxalq təhlükəsizlik məsələləri nəzəri cəhətdən şərh edilir, Azərbaycanın milli təhlükəsizlik siyasətinin əsasları ilə bağlı ümumi xarakterli bir çox elmi mülahizələr irəli sürülür və araşdırılır.

Xəzər hövzəsi və Qafqaz regionunda XXl əsrin əvvəllərində mövcud ümumi geosiyasi vəziyyəti, bölgənin hərbi-geostrateji və siyasi mənafeləri uğrunda həyata keçirilən beynəlxalq, regional və yerli rəqabət mübarizəsi, Xəzər hövzəsinin enerji resursları, transmilli geoiqtisadi layihələri və digər maraq dairələri uğrundakı müasir hədəflər və s. məsələlər tədqiqatçı alimlər Pərvin Darabadinin və Nurulla Əliyevin əsərlərində də öz əksini tapmışdır.[13]

Azərbaycan Respublikasının sabit inkişafı və təhlükəsizliyi problemlərinin bəzi aspektləri Cənnətxan Eyvazovun əsərində

[11]Səmədov.A Azərbaycanın qurtuluş tarixi. 4 cilddə. Bakı, "Ozan" nəşriyyatı 2002-2004; Səmədov.A. Böyük xilaskar. Bakı, "Ozan" nəşriyyatı, 2004; Mirzəzadə A. Azərbaycan, zaman, inkişaf. Bakı, "Azərbaycan" nəşriyyatı, 2008; Əlizadə M. Milli müdrikliyin Heydər Əliyev zirvəsi. Bakı, 2006 və s.

[12]Раджабли А. Национальные интересы и международная безопасность (анализ внешнеполитического поведения). Баку, изд-во "Kitab aləmi", 2004; Раджабли А. Теория национальной безопасности, Баку, БСУ, 2005.

[13]Дарабади П. Кавказа и Каспий в мировой истории и геополитике XXl века. Москва, 2010; P.Q.Darabadi,N.A.Əliyev. Xəzər bölgəsində geosiyasi rəqabət və Azərbaycan. Bakı, BAHDM, 2001 və b.

də tədqiq olunur.[14] Müəllif Xəzər hövzəsi və Cənubi Qafqaz bölgəsində cərəyan edən beynəlxalq, regional və yerli hərbi-geostrateji maraqlar dairəsini, Azərbaycanın bu şəraitdəki təhlükəsiz inkişafını şərtləndirən siyasi, iqtisadi və hərbi amilləri göstərir, milli və regional təhlükəsizliyinin müasir vəziyyətini araşdırır, Azərbaycanın bu sahədəki strategiyasını təqdim və şərh edir. Müəllifin tədqiqata cəlb etdiyi Azərbaycanın regional və milli təhlükəsizliyi probleminin bəzi aspektləri - hal-hazırkı regional vəziyyəti, milli təhlükəsizliyinin özünümüdafiə və müttəfiqlik prinsiplərinin uzlaşdırılması üzərində qurulması strategiyası və s. məsələlər ciddi elmi və siyasi yükə malikdir.

Tədqiqatçı alimlərdən A. Piriyevin "Siyasi strategiya və milli təhlükəsizlik" adlı monoqrafiyasında daha çox dünya dövlətlərinin siyasi strategiyasının əsas istiqamətləri və milli təhlükəsizlik problemləri araşdırılır. Müəllif Azərbaycanın daxili və xarici siyasət strategiyasının, milli təhlükəsizliyinin müxtəlif tərəflərini də şərh edir.[15]

Bundan başqa, tədqiqatçılardan İ. Rzayevin Azərbaycanın iqtisadi təhlükəsizliyinin xarici iqtisadi əsaslarına dair əsərində beynəlxalq iqtisadi əlaqələrin inkişaf meyilləri öyrənilir və bu meyillərin fonunda ölkənin iqtisadi təhlükəsizliyinə yaranan əsas təhdidlərin müəyyənləşdirilməsinə cəhd edilir. Müəllif həmçinin beynəlxalq nəqliyyat layihələrinin ölkə iqtisadiyyatının inkişafında və milli təhlükəsizliyin təmin olunmasında

[14]Эйвазов Дж. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, «Нурлан». 2004

[15]Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı, BDU nəşriyyatı, 2005.

oynadığı rolla bağlı kifayət qədər maraqlı elmi mülahizələr irəli sürür.[16]

Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti üzrə siyasətşünas alimlərdən E. Əhmədovun, E. Aslanovun, S. Qaraşovanın, A. Güləliyevanın, G. Quliyevanın, D. Həşimovun və başqalarının elmi tədqiqat işlərində[17] dünyada, Avropada və Cənubi Qafqazda cərəyan edən qloballaşma prosesləri, transmilli geosiyasət və s. məsələlərin kontekstində Azərbaycanın milli inkişaf strategiyasının formalaşmasının, milli təhlükəsizliyinin təmin olunmasının ayrı-ayrı aspektlərinə toxunulur, müasir dünyada cərəyan edən fərqli geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlara uyğun olaraq yürüdülən daxili və xarici siyasətin, xarici aləmlə əməkdaşlığın prinsipləri, beynəl-

[16] Рзаев И.Б. Внешнеэкономические аспекты национальной безопасности Азербайджана. Автореф. дисс. на соискание уч.степ. к.э.н., М., 2006.

[17] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998; Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1998-2011). Bakı, "Letterpress", 2012; Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı, "Letterpress", 2013; Асланов Э. Глобализация и стратегия национального развития. Автореф. дисс. на соиск. учен. степ. к. полит. наук, Баку, 2007; Гарашова С. Геостратегические интересы России и США на Южном Кавказе. Автореф. дисс. на соиск. учен. степ. к. полит. наук., Баку, 2007; Güləliyeva A. Azərbaycan Respublikasının Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında iştirakı. Siyasi elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2007; Quliyeva G. Azərbaycan yeni geosiyasi münasibətlər sistemində. Siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2010; Həşimov. D. Siyasi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi kimi (Azərbaycan Respublikasının materialları əsasında). Siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2010 və b.

xalq inteqrasiyada iştirakın mənfi və müsbət çalarları, milli inkişaf strategiyasının prioritet istiqaməti və s. problemlərin şərhi verilir.

Tədqiqatçılardan C. Xəlilov, G. Əliyev, K. Allahverdiyev və N.Niyazovun əsərlərində Azərbaycanın milli təhlükəsizlik fəaliyyətinin müxtəlif aspektlərinə - milli mənlik şüurunun müstəqil dövlət quruculuğunda və milli təhlükəsizliyin təmin edilməsindəki roluna, milli təhlükəsizliyin etno-siyasi tərəflərinə nəzər salınır, respublikanın etno-siyasi həyatının əsas amilləri, milli təhlükəsizliyə yönəlik etno-siyasi təhdidlərin konfiqurasiyası və parametrləri öyrənilir, Azərbaycanın hərbi, sərhəd və informasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən işlərə və s. məsələlərə toxunulur. Bundan başqa, bu əsərlərdə Cənubi Qafqazın təhlükəsizlik mühitinin formalaşmasına və yerli ölkələrin milli təhlükəsizliyinə təsir göstərən təhdidlərə diqqət yetirilir, Azərbaycanın regionda sülh və sabitliyin təmin olunması istiqamətində apardığı siyasətin əsasları təhlil olunur.[18]

Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin ayrı-ayrı aspektlərinin öyrənilməsində, xüsusən də Heydər Əliyevin bu sahədəki xidmətlərinin tədqiq olunmasında çox

[18]Xəlilov C. Milli təhlükəsizliyin təmin olunmasında milli mənlik şüurunun rolu. Siyasi elmlər namizədi alimlik dərəcəsi almaq üçün avtoreferat. Bakı, 2003; Əliyev G. Cənubi Qafqazda geosiyasi maraqlar və Azərbaycanın sülh diplomatiyası. Siyasi elmlər namizədi alimlik dərəcəsi almaq üçün avtoreferat. Bakı, 2009; Аллахвердиев К. Этнополитическая безопасность: императив и парадигма эпохи глобализации. Баку, «Элм», 2009; Ниязов Н. Основные векторы политики военной безопасности Азербайджанской Республики в 1994 – 2010 годы. СПб ГУ, 2010.

önəmli rol oynayan 2004-cü ildən başlayaraq Yeni Azərbaycan Partiyası tərəfindən hər il nəşr olunan elmi-nəzəri və siyasi məqalələr toplusunu xüsusi qeyd etmək lazımdır. Bu toplularda ölkənin yüksək rütbəli dövlət və hökumət rəhbərləri, mərkəzi və yerli icra strukturlarının, qanunvericilik və məhkəmə orqanlarının vəzifəli şəxsləri, qabaqcıl elm və təhsil nümayəndələri 1993-2011-ci illərdə Azərbaycanda həyata keçirilən milli inkişaf və təhlükəsizlik siyasətinə, Heydər Əliyevin dövlət quruculuğu təliminə və bəhs olunan problemin digər aspektlərinə həsr olunmuş elmi-analitik məqalələrlə çıxış etmişlər. Həmin toplular dövlət idarəçilik sahəsində bilavasitə iştirak edən şəxslərin məsələyə nəzəri və praktiki yanaşmasını əks etdirir, dissertasiyanın mövzusu üzrə çox böyük elmi və mənbəşünaslıq əhəmiyyəti kəsb edir.[19]

Bundan başqa, mövzunun öyrənilməsində "Azərbaycan" qəzetinin təşəbbüsü ilə 2011-ci ildə dərc olunmuş "İnkişafın Azərbaycan modeli" adlı məqalələr toplusunu da qeyd etmək lazımdır. Bu topluda dərc olunan məqalələrdə Azərbaycanın 1994-2010-cu illər üzrə ictimai-siyasi, iqtisadi-sosial, mənəvi inkişafının xarakterik xüsusiyyətləri, özünəməxsus modeli və əsas istiqamətləri şərh olunur, çoxsaylı faktiki materiallar təqdim edilir.[20]

Bəhs olunan mövzu üzrə monoqrafiya müəllifinin də 1995-2015-ci illəri əhatə edən bir çox əsərləri – iri həcmli monoqrafiyaları, dərslikləri və dərs vəsaitləri, elmi-siyasi məqalə-

[19]Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. 8 cilddə. Bakı, "Azərbaycan" nəşriyyatı, 2004-2011.
[20]İnkişafın Azərbaycan modeli. Bakı, 2011.

ləri işıq üzü görmüşdür[21]. Bu əsərlərdə:

- Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin formalaşması, həyata keçirilməsi və əsas nəticələri;
- təhlükəsizlik sahəsində daxili və xarici siyasət strategiyasının formalaşması, xarakteristikası, əsas vəzifələri, prinsip və istiqamətləri;
- 1993-cü ildən başlayaraq ölkədə həyata keçirilən milli, regional və beynəlxalq təhlükəsizlik siyasətinin əsasları, mahiyyəti, nəticələri və perspektivləri;
- Azərbaycanın milli inkişaf və təhlükəsizlik sahəsində xarici dövlətlərlə, beynəlxalq geosiyasi aktorlarla və region ölkələri ilə ikitərəfli və çoxtərəfli münasibətləri;
- beynəlxalq və regional təhlükəsizlik siyasətinin əsas istiqamətlərindən olan NATO, KTT, ABŞ, Rusiya, Türkiyə, Avropa dövlətləri və başqa ölkələrlə əməkdaşlığı və qarşılıqlı münasibətləri;
- hərbi-geostrateji sahədəki ikitərəfli və çoxtərəfli əlaqələrin qurulması və inkişafı;
- hərbi və təhlükəsizlik sahəsindəki əməkdaşlığın möhkəmləndirilməsi və dünya təhlükəsizlik sisteminə in-

[21] Həsənov Ə. Azərbaycan – ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (1991–1997). Bakı, "Azərnəşr", 1997; Həsənov. Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991–1996). Bakı, Elm nəşriyyatı, 1998; Həsənov. Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycan Respublikasının xarici siyasəti. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005; Həsənov Ə.. Geosiyasət. Bakı, "Aypara-3", 2010; Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, Letterpress, 2011; Гасанов А. Политика национального развития и безопастности Азербайджанской Республики. Баку, "Zardabi LTD" MMC, 2014; Гасанов А. Современные международные отношения и внешняя политика Азербайджана. Баку, "Zardabi LTD" MMC, 2013; Həsənov Ə. Azərbaycanın geosiyasəti. Bakı, "Zərdabi LTD" MMC, 2015;

teqrasiya və s. problemlər araşdırılır və elmi-siyasi şərhlər verilir.[22]

[22] Həsənov Ə. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti (Regional təhlükəsizlik) //Heydər Əliyev irsi və Azərbaycanın davamlı inkişaf strategiyası. Bakı, 2006. s.59-76; Həsənov Ə. Heydər Əliyev Azərbaycanın xarici siyasət strategiyasının yaradıcısıdır //Heydər Əliyev yolu: Azərbaycan inkişafın yeni mərhələsində. Bakı, 2007. s.351–367; Həsənov Ə. Heydər Əliyevin dövlət quruculuğu təlimi //Heydər Əliyev və Azərbaycan. Bakı, 2008. s.391–401; Həsənov Ə. Heydər Əliyevin xarici siyasətində nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsi //Heydər Əliyev ideyaları XXI əsrdə. Azərbaycanın inkişaf yolu. Bakı, 2009. s.326–342; Həsənov Ə. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti: əsas məqsədləri, vəzifələri və icra mexanizmləri //Heydər Əliyev və inkişafın Azərbaycan modeli. Bakı, 2010. s. 32-48; Həsənov Ə. Azərbaycanın müasir geosiyasi inkişafı: mövcud vəziyyət və perspektivlər // "Geostrategiya" jurnalı, Bakı, mart, 2011, s.10-20; Həsənov Ə. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinə konseptual yanaşma // "Geostrategiya" jurnalı, Bakı, iyul, 2011, s. 3-7; Həsənov Ə. Heydər Əliyev və Azərbaycanın müasir geosiyasi inkişafı // Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası. Bakı, 2011, s.31-43; Həsənov Ə. Heydər Əliyevin geosiyasi təlimi: XXl əsrdə Azərbaycanın əsas geosiyasi vəzifələri və perspektivləri // "Geostrategiya" jurnalı, Bakı, aprel 2011. s.3-18; Həsənov Ə. Heydər Əliyev və Azərbaycanın milli inkişaf siyasəti: xarakteristikası, əsas vəzifələri və tələbləri.// "Azərbaycan" qəzeti, Bakı, 13 dekabr 2011; Həsənov Ə."Xəzər hövzəsinin karbohidrogen resursları və Avropanın enerji təhlükəsizliyi //"Ekovitrin" aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 148, aprel 2012. s. 66-71; Həsənov Ə. Xəzər-Qara dəniz hövzəsi ölkələrinin enerji ixracı siyasəti və Azərbaycanın neft strategiyası // "KobiEfor" aylıq sənaye və iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 151, aprel 2012. s. 62-65; Həsənov Ə. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik mühiti: hərbi qruplaşma reallıqları və proqnozları, geostrateji güclərin təsnifatı. "Qara Dəniz Hövzəsi və Cənubi Qafqaz Ölkələrinin Regional Təhlükəsizlik Arxitekturası"adlı Beynəlxalq Konfransda məruzə, İstanbul, 26 mart 2012-ci il // "VATAN" gündəlik qəzeti, Türkiyə, İstanbul, 29 mart 2012. s.8; Həsənov Ə. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik mühiti və Azərbaycanın hərbi-geo-strateji problemləri //"Ekovitrin" aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 149, may 2012. s. 60-64; Həsənov Ə. Heydər Əliyev və Azərbaycanın 20 illik milli inkişaf strategiyası: xarakteristikası, əsas vəzifələri və tələbləri // Azərbaycan 2020: inkişafın yeni hədəfləri. Bakı, SBS, 2012. s.51-65, və s.

Hazırkı monoqrafiyada Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin formalaşmasının konseptual əsasları, tarixi şərtləri, məqsəd və vəzifələri, müasir dünya və regionun hərbi-geostrateji və təhlükəsizlik mühitindən irəli gələn tələblərə və çağırışlara uyğun olaraq həyata keçirilməsi xüsusiyyətləri və nəticələri kimi məsələlər daxil edilmişdir. Monoqrafiyada mövzu üzrə bəzi ümumiləşmiş xarici ədəbiyyatdan, geosiyasi tədqiqatlardan istifadə edilmiş, xüsusən, beynəlxalq və milli geosiyasi tədqiqatların nəzəri və metodoloji əsaslarının araşdırılmasında bütün dünyada tez-tez istifadə olunan klassik və müasir Avropa, Amerika, Rusiya, Türkiyə, Çin, Yaponiya və s. kimi geosiyasət məktəblərini təmsil edən tanınmış siyasətşünasların elmi yaradıcılığı, siyasətşünaslıq elmində mühüm yer tutan və mütəmadi tətbiq olunan realizm, siyasi idealizm, modernizm, "transnasionalizm", millətçilik, "neomarksizm" və s. kimi elmi-nəzəri cərəyanların nümayəndələrinin ümumiləşmiş nəzəri-metodoloji monoqrafiyaları, kollektiv əsərləri və s. öyrənilmişdir.

Monoqrafiyada həmçinin, Azərbaycanın beynəlxalq və regional təhlükəsizlik siyasəti ilə bağlı məsələlərin bəzi aspektlərininə həsr olunmuş Rusiya, Türkiyə, ABŞ və Avropa ölkələrini təmsil edın tədqiqatçıların araşdırmalarından geniş istifadə olunmuşdur. Bu əsərlərdə dünyanın və Avrasiya regionunun ümumi təhlükəsizliyi, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın hərbi-geostrateji mühitinin araşdırılması, bölgədəki geosiyasi proseslərin tədqiqi fonunda və konteksində, həm də ümumi formada Azərbaycanın milli inkişaf və təhlükəsizlik məsələlərinə toxunulmuşdur. Həmin əsərlərdə, Cənubi Qafqazda gedən geosiyasi və hərbi-geostrateji proseslər, mövcud regional münaqişələr və etnik separatizm, regionun təhlükəsizlik

mühitinin müxtəlif parametrləri üzrə ayrı-ayrı dövlətlərin geosiyasi maraqları, beynəlxalq və regional təşkilatların hərbi-geostrateji siyasəti və s. məsələlər də təhlil olunur.

Geosiyasət üzrə məşhur rus alimləri də Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geosiyasi konfiqurasiyası çərçivəsində Rusiya və Azərbaycanın milli və regional təhlükəsizlik maraqları ilə bağlı məsələlərə geniş toxunmuş və bir çox elmi mülahizələrlə çıxış etmişlər. Onların əsərlərində[23] Cənubi Qafqaz regionunun beynəlxalq münasibətlər sistemindəki yeri və rolu, bölgənin etnosiyasi və siyasi-institusional strukturu,

[23]Гаджиев К.С. Геополитика Кавказа. М., Международные отношения, 2003; Гаджиев К.С. «Большая игра» на Кавказе. Вчера, сегодня, завтра. М., Международные отношения, 2010; Жильцов С.С, Зонн И.С, Ушков. М.И. Геополитика Каспийского Региона. М., 2003; С.Гриневецкий, С.С. Жильцов, И.С. Зонн. Черноморский Узел. М., Международные отношения, 2007; Дугин А.Г. Основы геополитики. М., 1997; Дугин А.Г. Евразийский путь. М., 2002; Кузнецова С.И. Проблемы региональной и государственной безопасности в Центральной Азии и на Кавказе //Центральная Азия и Кавказ. 2001, №1; Дунаева Е.В. Новые повороты каспийской дипломатии//Ближний Восток и современность. М., 2001. Гинзбург В. Раздел ресурсов Каспийского моря: участники, интересы, проблемы // Центральная Азия и Кавказ. 2003, № 5; Гушер А. Геополитическая ситуация в Закавказье // Азия и Африка сегодня. 2003, № 10; Жильцов С.С. Каспийский регион как геополитическая проблема современных международных отношений (90-е годы XX века). М., Российский университет дружбы народов, 2004; Малышева Д. Б. Россия и Каспийский регион: проблемы безопасного развития. М., ИМЭМО РАН, 2002; Малышева Д. Центральная Азия и Южный Кавказ: региональная безопасность в эпоху нового миропорядка // Центральная Азия и Кавказ. 2004, №2; Панин В.Н. Современное состояние геополитических процессов на Кавказе// Актуальные проблемы безопасности в условиях конфликтогенной ситуации на Юге России. Краснодар, 2007; Архитектура евроатлантической безопасности. М., Экон-Информ, 2009 və s.

regional təhlükəsizlik problemləri, bölgə ölkələrinin dünyada cərəyan edən beynəlxalq hərbi-geostrateji məsələlərə reaksiyası və s. məsələlər xüsusi tədqiq olunur. Müəlliflər modernləşmə və konservatizm, inteqrasiya və dezinteqrasiya proseslərinin, ərazi mübahisələri zəminində yaranan etnik-milli münaqişələrin və s. amillərin region dövlətlərinin milli təhlükəsizliyinə təsirini də şərh edirlər.

Rus alimi V.Şoroxov öz əsərində Azərbaycanın milli maraqlarının və təhlükəsizliyinin, xüsusilə enerji təhlükəsizliyinin təmin olunması məqsədilə yürütdüyü tarazlaşdırılmış xarici siyasətin prioritetlərini izah edir. Müəllifin fikrincə, bu siyasət Xəzər neftinin Qərb marşrutu üzrə nəql olunmasında və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində mühüm əhəmiyyət daşıyır.[24]

Azərbaycanın iqtisadi, enerji, nəqliyyat və s. sahələrdə milli təhlükəsizlik maraqları, geosiyasi mövqeyini möhkəmləndirməsi istiqamətində apardığı siyasətin müxtəlif tərəflərinin təhlili öz əksini rus tədqiqatçılarından həmçinin A.Fyodorov, A.Yazkov, S.Çernyavski, D.Bukin, M.Qusayev, Z. Qabiyeva və başqa siyasətşünasların araşdırmalarında tapır. Onlar beynəlxalq nəqliyyat-kommunikasiya layihələrinin Azərbaycan iqtisadiyyatının inkişafındakı rolundan, Xəzər dənizinin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması və s. geoiqtisadi təhlükəsizlik məsələlərindən, Cənubi Qafqaz və postsovet məkanında cərəyan edən dövlətlərarası münasibətlərdən, xüsusən Rusiya ilə Azərbaycan arasındakı hərbi-geostra-

[24] Шорохов В. Нефть и политика Азербайджана. М.,1997

teji münasibətlər fonunda Azərbaycanın milli inkişaf və təhlükəsizlik problemlərinə yanaşması və s. məsələlərdən yazırlar.[25]

Qeyd etmək lazımdır ki, bu istiqamətdə elmi araşdırmaların obyektini, həmçinin Azərbaycanın uzaq xarici və region ölkələri ilə təhlükəsizlik sahəsindəki münasibətləri, SSRİ-nin süqutundan sonra Cənubi Qafqazda yaranmış hərbi-geostrateji və geosiyasi vəziyyət, dünyanın aparıcı dövlətlərinin regiondakı hərbi-təhlükəsizlik mənafeləri və s. kimi məsələlər də təşkil edir. Bundan başqa, Azərbaycanın milli maraqlarının və milli təhlükəsizliyinin təmin olunması yönündə apardığı siyasətin xüsusiyyətləri və s. məsələlər də həmin əsərlərdə şərh olunur, ABŞ, Rusiya, Türkiyə, İran kimi dövlətlərin Azərbaycanın regional təhlükəsizlik siyasətinə münasibəti ilə bağlı şərhlər verilir.

ABŞ-ın Xəzər regionunda reallaşdırdığı geosiyasətin və hərbi-geostrateji kursun prioritetləri, onun Azərbaycanın regional təhlükəsizlik maraqlarına təsiri və s. məsələlər xarici rusdilli tarixşünaslıqda S.Çernyavski, A.Korneyev, A.Kojixov,

[25]Федоров А.Ю. Каспийская нефть и международная безопасность (аналитический доклад по материалам международной конференции) М.,1996; Языкова А.А. Государства Закавказья и Россия. М., «ЭПИКОН», 1998; Россия и Закавказье: реалии независимости и новое партнерство. М.,2000; Чернявский С.И. Азербайджан и Турция: стратегическое партнерство. В кн.: "Независимый Азербайджан: новые ориентиры". М.,2000; Букин Д.В. Значение Каспийского региона в мировом энергетическом балансе и национальные интересы России. М.,2000; Гусаев М. Россия и США на Южном Кавказе: перспективы сотрудничества или соперничества? // Центральная Азия и Кавказ. 2003, Габиева З.Ф. Стратегия внешней политики России в Каспийском регионе (мотивы, цели, задачи). Автореф. дисс, к.п.н. М.,2005; Маркедонов С. Азербайджан в "большой игре" на Кавказе // Европейская безопасность: события, оценки, прогнозы. М.,2005; Российско-Азербайджанские отношения на современном этапе развития: проблемы и перспективы. М., 2011 və s.

A.Qeqelaşvili və digər tədqiqatçıların da ümumi-nəzəri aspektdə yazılmış əsərlərində təhlil olunur.[26] Onlar "Soyuq müharibə"dən sonrakı dövrdə Cənubi Qafqazın təhlükəsizlik mühitini təhlil edərək, regiondakı çoxvektorlu geosiyasi rəqabətin yaranması səbəblərini izah edirlər.

Rus tədqiqatçılarından İ. Bolqovanın əsəri bəhs olunan məsələ üzrə daha diqqətəlayiqdir. Müəllif öz tədqiqat işində Avropa İttifaqının, o cümlədən digər beynəlxalq təşkilatların Cənubi Qafqaz dövlətlərinin hər biri ilə bağlı həyata keçirdiyi təhlükəsizlik siyasətinin oxşar və fərqli cəhətlərini təhlil edir, bu aspektdə Azərbaycanın milli inkişaf və regional təhlükəsizlik siyasətinə dair bir sıra elmi fikirlər irəli sürür.[27]

---

[26]Чернявский С. Кавказская стратегия Вашингтона// Международная жизнь, 1999 №1; Матяш В.И. Россия и США в Каспийском регионе - XXI век: проблемы и перспективы // Дип. академия МИД России, Ин-т актуал. межд. проблем. М.,2001; Корнеев А.В. Каспийская нефть и интересы США // США-Канада: экономика, политика, культура, 2002, № 12; Бардин М.Г. Каспийский регион: национальные отношения и международные политические интересы //Вопросы национальных и федеративных отношений. М.,2002; Кожихов А. Ближний Восток и Каспий в энергетической стратегии США // Центральная Азия и Кавказ, 2002, № 6; Гушер А. Стратегия США в Каспийском регионе // Азия и Африка сегодня, 2003, №5; Жильцов С.С. Геополитика Каспийского Региона. М., 2003; Гушер А. Геополитическая ситуация в Закавказье (национальные интересы и безопасность России) //Россия и мусульманский мир, 2005, № 1; Черноус В.В. Кавказ в системе евразийской безопасности: от биполярности через атлантизм к глобальной безопасности // Кавказский регион: пути стабилизации: Материалы международной научной конференции // Отв. ред. Ю.Г. Волков. Ростов н/Д., 2004; Гегелашвили А. Политика Вашингтона в государствах Южного Кавказа и Центральной Азии // США и Канада: экономика, политика, культура, 2007, № 5 və s.

[27]Болгова И.В.Политика ЕС в Закавказье и Центральной Азии: истоки и становление. М., 2008.

Bundan başqa, MDB ölkələrini təmsil edən bəzi tədqiqatçıların əsərlərində Azərbaycanın milli təhlükəsizlik siyasətinin vəzifələri, məqsədi və mahiyyəti onun beynəlxalq və regional təşkilatlarla münasibətləri hərbi-geostrateji və təhlükəsizlik sahəsindəki əməkdaşlıq kontekstində araşdırılır.[28] Bu əsərlərdə həm də ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, MDB, KTT və digər hökumətlərarası siyasi, iqtisadi və hərbi blok və təşkilatların regiondakı təhlükəsizlik maraqları şərh olunur, onların Cənubi Qafqaz dövlətləri içərisində Azərbaycanla bağlı yürütdüyü siyasətin əsas istiqamətləri və mexanizmləri öyrənilir.

Azərbaycanın milli inkişafı və təhlükəsizlik siyasətinin bəzi məsələləri Türkiyə tədqiqatçılarının və siyasətşünaslarının yaradıcılığında da əksini tapmışdır. Onların əsərlərində Cənubi Qafqazın geosiyasi mühitinin formalaşmasında ABŞ, Avropa Birliyi ölkələri və Türkiyənin rolu, Azərbaycanın milli və regional təhlükəsizlik siyasətinin Avrasiyanın ümumi təhlükəsizliyinə təsiri və s. məsələlərə xüsusi diqqət yetirilir, ABŞ, Qərb dövlətləri, Rusiya və Türkiyənin regional geosiyasi, geoiqtisadi

[28]Страны бывшего СССР и европейская безопасность. М., Международные отношения, 1994; Евстигнеев В.Р. Реинтеграция постсоветского пространства и опыт Западной Европы. М., ИМЭМО РАН, 1994; Чернявский С. Южный Кавказ в планах НАТО // Международная жизнь, 1998, № 9; Сысоев Б. В. Политические проблемы европейской безопасности. Автореф.дис. кандидата полит. наук. М., 1999; Прейгер Д. Экономические интересы ГУУАМ в лабиринтах Великого шелкового пути // Центральная Азия и Кавказ, 2001, № 3; Гушер А. Южный Кавказ, Америка, НАТО //Азия и Африка сегодня, 2005, № 10; Дегоев В.В. Кавказ и Большая Европа // Аналитические записки. Кавказ: реалии против соблазнов. М.,2005, №9; Наджафов Э. Н. Южный Кавказ: тернистый путь к безопасности. М., Научная книга, 2005; Баранов А.В. Взаимодействие акторов региональных политических процессов в постсоветской России. М., 2007 və s.

və hərbi-geostrateji maraqları ilə bağlı müxtəlif elmi mülahizələr irəli sürülür.[29]

Bundan başqa, adı çəkilən Türkiyə siyasətşünaslarının monoqrafiya və məqalələrində Azərbaycanın Avrasiya təhlükəsizlik məkanındakı yeri və rolu, Cənubi Qafqaz və Xəzər hövzəsinin təhlükəsizliyinin təmin olunması, bölgənin enerji resurslarının dünya bazarlarına nəql olunması ilə bağlı beynəlxalq aləmin geosiyasi və geoiqtisadi maraqları, qloballaşma proseslərinin bu regiondakı ölkələrin milli inkişaf və təhlükəsizlik strategiyasının formalaşmasına təsiri və s. məsələlər də ümumi formada əksini tapmışdır. Bəhs olunan tədqiqatların bəzilərində isə daha çox postsovet dövründə Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın hərbi-geostrateji məsələləri, beynəlxalq və bölgə dövlətlərinin geosiyasi və təhlükəsizlik məna-

[29]Dedeoğlu Beril. Uluslararası Güvenlik ve strateji. İstanbul, Derin, 2003; Demir Ali Faik. Türk dış politikası perspektifinden Güney Kafkasya. İstanbul, Baglam, 2003; Gürsoy Barıs. Soğuk savaştan günümüze asimetrik tehdit. İstanbul, Kültür Sanat Yayıncılık, 2005; Karabayram Fırat. Rusya Federasyonu'nun Güney Kafkasya Politikası. Ankara, Atılım Üniversitesi, 2007; Kasım Kamer. Uluslararası güvenlik sorunları. Ankara, ASAM, 2004; Levent Şen. Turkiye ve Guney Kafkasya gercegi: Soğuk Savaş sonrası Türkiye'nin Güney Kafkasya politikası. Ankara, Ürun Yayınları, 2009; Öymen Onur. Ulusal çıkarlar: küresellesme cağında ulus-devleti korumak. Istanbul, Remzi Kitabevi, 2005; Yılmaz Hasan, Kaşıkçı Nihat. Tarihin Sıkıştığı Coğrafya: Kuzey ve Güney Kafkaslar. Ankara, Elips kitap, 2006; İrfan Ülkü. Bağımsızlıktan sonra Azerbaycan. İstanbul, Doğan Kitapçılık, 2000; Yaşar Kalafat. Güney Kafkasya: sosyal antropoloji araştırmaları. Ankara, 2000; Osman Nuri Aras. Azerbaycan'ın Hazar ekonomisi ve stratejisi. İstanbul, Der Yayınları, 2001; Cemilli Elnur. ABD'nin Güney Kafkasya politikası. İstanbul, Kültür Sanat Yayıncılık, 2007; Kafkasya'da etnik çatışmalar və Türkiye açısından bölgenin önemi. Sakarya Üniversitesi, 2007; Türk dış politikası persfektifinden Güney Kafkasya. İstanbul, Bağlam Yayınları, 2003; Cem Oğuz.Türkiye-Azerbaycan ilişkileri ve Ermenistan faktörü. YT Yayınları, 2010 və s.

feləri ətrafında cərəyan edən transmilli və yerli xarakterli proseslər şərh olunur.

Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti, xüsusən beynəlxalq və regional təhlükəsizlik sahəsindəki fəaliyyəti Qərb tədqiqatçılarının əsərlərində daha çox Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın ümumi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji vəziyyətinin xarakteristikası, bölgənin zəngin təbii ehtiyatlarının Qərb marşrutu üzrə nəqlinin təminatı, regional geosiyasi mühitə təsir göstərən digər transmilli və yerli amillərin fonunda araşdırılır. Bu araşdırmalarda müəlliflər regionun fərdi və ümumi maraqlar çərçivəsi, regional, beynəlxalq və milli təhlükəsizlik konfiqurasiyasından çıxış edərək, Cənubi Qafqaz dövlətləri arasındakı hərbi-geostrateji münasibətlərə də toxunur və müxtəlif proqnozlar verilirlər.[30]

[30]Allison Graham T. U.S. policy on Caspian energy development and exports:mini-case and illustrative paradigm. Cambridge, MA: Harvard University, 2001; Central Asia and the South Caucasus: reorientations, internal transitions, and strategic dynamics: conference report. Washington, D.C: National Intelligence Council, 2000; Crandall Maureen S. Energy, Economics, and Politics in the Caspian Region: Dreams and Reality. Westport, Praeger Security International, 2006; Croissant Cynthia. Azerbaijan, oil and geopolitics. NY: Science Publishers, 1998; De Wall Thomas. The Caucasus: an introduction. Oxford University Press, 2010; Robert E. Ebel, Rajan Menon. Energy and conflict in Central Asia and the Caucasus. Lanham, MD: Rowman & Littlefield Publishers, 2000; Hooman Peimani. Conflict and security in Central Asia and the Caucasus. Santa Barbara, Calif: ABC-CLIO, 2009; Nation R. Craig. Russia, the United States and Caucasus. Strategic Studies Institute, 2007; Michael P. Croissant, Bülent Aras. Oil and geopolitics in the Caspian Sea Region. Greenwood Publishing Group, 1999; Security sector governance in Southren Caucasus: challenges and visions / Study Groups, Regional Stability in Southern Caucasus. Geneva Centre for the Democratic Control of Armed Forces, 2004; The Baku-Tbilisi-Ceyhan Pipeline: Oil Window to the West / Edited by S. Frederick Starr and Svante E. Cornell. Washington, D.C: Central Asia – Caucasus Institute, 2005 və s.

Tanınmış ABŞ politoloqu Zbiqnev Bjezinski Qərb dövlətlərinin Xəzər dənizi hövzəsi və Orta Asiyanın zəngin enerji resurslarına çıxışı üçün Azərbaycanın mühüm əhəmiyyət daşıması ilə bağlı dəyərli mülahizələr irəli sürür.[31]

Digər ABŞ tədqiqatçısı A.Koenin araşdırmaları isə Azərbaycanın milli maraqlardan çıxış edərək Xəzər dənizinin karbohidrogen ehtiyatlarının qərb marşrutu üzrə nəql olunması yönündə həyata keçirdiyi regional təhlükəsizlik siyasətinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.[32]

Tədqiqatın mənbəşünaslıq bazası. Monoqrafiyada tədqiq olunan məsələlərin təhlili geniş mənbəşünaslıq bazasına söykənir. Bu mənbələr sırasında ilk növbədə Azərbaycanın milli inkişafı və təhlükəsizlik siyasətinin əsas prinsiplərini, vəzifə və istiqamətlərini müəyyən edən ölkə Konstitusiyasını, bu sahə üzrə qəbul olunmuş qanunları, müxtəlif dövlət proqramlarını, Milli Təhlükəsizlik Konsepsiyasını, Hərbi Doktrinanı və s. rəsmi sənədləri qeyd etmək lazımdır. Bundan başqa, Azərbaycan Respublikasının daxili və xarici siyasətinin formalaşmasında, milli təhlükəsizlik platformasının müəyyən olunmasında ulu öndər Heydər Əliyevin mühüm fəaliyyətini nəzərə alaraq, onun müxtəlif çıxış və nitqləri, müsahibə və məktubları

[31]Бжезинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. М., Международные отношения, 2002.

[32]Коэн А. США, страны Центральной Азии и Кавказа: проблемы и перспективы взаимоотношений // Центральная Азия и Кавказ, 2000, № 2; Его же. Причина для беспокойства: последние тенденции российской политики на Южном Кавказе // Центральная Азия и Кавказ, 2001, №2; Его же. США: задачи в сфере защиты безопасности каспийских углеводородов от посягательств Ирана // Центральная Азия и Кавказ, 2002, №1.

problemin öyrənilməsində qiymətli mənbə kimi tədqiqata cəlb edilmişdir. [33]

Eyni zamanda, 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti kimi ölkənin milli inkişafı və təhlükəsizliyi məsələlərində həlledici rol oynayan İlham Əliyevin çıxışları, nitqləri, çoxsaylı müsahibələri, fərman və sərəncamları əsərin əsas mənbələrindən birini təşkil etmişdir.[34]

Monoqrafiyada milli inkişaf və təhlükəsizlik kimi konkret siyasi proseslərin araşdırılması siyasətşünaslıq elmində qəbul olunmuş və digər sosial-siyasi, humanitar elmlərin də tətbiq etdiyi *tədqiqat metodlarından- sistemli yanaşma, struktur-funksional, antropoloji, tarixi və siyasi təhlil, deduktiv, induktiv, ümummətiqi, normativ-dəyər və s.* metodlarından istifadə edilmişdir.

[33]Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı: Azərnəşr, 1997-2015-ci illər.
[34]Bax: Əliyev İ.H. İnkişaf – məqsədimizdir. I-XXVI kitablar. Bakı: Azərnəşr, 2008-2016-cı illər.

I FƏSİL
AZƏRBAYCAN RESPUBLİKASININ MÜASİR MİLLİ İNKİŞAF SİYASƏTİ: XARAKTERİSTİKASI, ƏSAS VƏZİFƏLƏRİ VƏ TƏLƏBLƏRİ

Hər bir dövlətin daxili və xarici vəziyyətini, milli maraq dairələrini və onların təminatını, beynəlxalq aləm və region ölkələri ilə münasibətlərinin taktikasını, vəzifələrini, yollarını, vasitələrini və ehtiyatlarını, onu əhatə edən geosiyasi subyektlərin hərəkətlərini və buna müvafiq olaraq geosiyasi davranışını müəyyən edən **Milli İnkişaf Strategiyası** olur. Bu strategiya ölkənin həyata keçirdiyi praktiki daxili və xarici siyasətin, ölkədaxili ictimai-siyasi, milli-etnik, sosial-dini sabitliyin, yaxın və uzaq ölkələrlə geosiyasi münasibətlərin davamlı, təhlükəsiz inkişafını təmin edən əsas vasitədir.

Milli İnkişaf Strategiyası bir-biri ilə eyni statusda və dəyərdə olan **milli inkişaf** və **milli təhlükəsizliyin** (daxili və xarici) əsas ölçüləri və tələblərini əks etdirir, hər iki sahə üzrə ayrıca konsepsiyanın yaradılması və həyata keçirilməsini bir vəzifə kimi qarşıya qoyur.

Milli İnkişaf Strategiyası ölkənin xarici aləmdən qaynaqlanan geosiyasi, geoiqtisadi və hərbi-geostrateji vəziyyətini, daxili iqtisadi, ictimai-siyasi və mənəvi inkişafını, spesifik xüsusiyyətlərini və s. məsələləri nəzərə almaqla, ümumən:

- milli inkişafın və digər strateji vəzifələrin hərtərəfli elmi tədqiqini, əsaslandırılmasını, onların təmin olunması yollarının, vasitə və ehtiyatlarının tapılmasını;
- ölkənin milli inkişaf və təhlükəsizlik konsepsiyasının hazırlanması və bu əsasda praktiki siyasətinin formalaşdırılmasını, onun əsas vəzifə və tələblərinin müəyyən edilməsini;
- ölkənin milli inkişafı və təhlükəsizlik mühitinin – müstəqillik, ərazi bütövlüyü, suveren idarəçilik, hərbi-strateji və sərhəd təhlükəsizliyinin, iqtisadi, siyasi, sosial-mədəni, informasiya, ekoloji inkişafın vacib tələblərinin öyrənilməsi və təmin edilməsi taktikasının hazırlanmasını;
- daxili və xarici siyasətin əsas tələblərinin, daxili miqrasiya, təbii ehtiyat, əmək insan və s. resurslarının səmərəli istifadəsi, qorunması, tənzimlənməsi və idarə edilməsi kimi vacib geosiyasi vəzifələrin əsaslandırılması və təminatı yollarının təklif edilməsini;
- ölkənin milli inkişafının və milli təhlükəsizlik mühitinin davamlı sabitliyinin, bu sahədə yürüdülən dövlət siyasətinin səmərəliliyinin, dayanıqlığının və müvəffəqiyyətinin təmin edilməsini;
- dövlətin və ictimai həyatın milli, hərbi, sərhəd, iqtisadi, sosial, informasiya, ekoloji, ərzaq, enerji, nəqliyyat-kommunikasiya kimi həyati əhəmiyyət kəsb edən strateji sahələrində praqmatik milli inkişaf və təhlükəsizlik maraqlarının əsaslandırılması və təmin edilməsini;
- hərbi və sərhəd təhlükəsizliyi Doktrinasının hazırlanmasını;

- milli maraq ölçülərinin, milli təhlükəsizlik siyasətinin, onun əsas vəzifələrinin müəyyən olunması və mexanizmlərinin yaradılmasını;
- iqtisadi, enerji, resurs, ərzaq, nəqliyyat, infrastruktur, ekologiya, informasiya kimi sahələrin milli strategiyasının, təhlükəsizlik konsepsiyasının hazırlanması və həyata keçirilməsini;
- ölkənin geosiyasi kodunun, beynəlxalq və regional təhlükəsizlik sahəsində müvafiq xarici siyasət konsepsiyasının yaradılmasını və s. ehtiva edir.

§ 1.1. Milli inkişaf siyasətinin formalaşması, əsas mərhələləri və xarakterik xüsusiyyətləri

Azərbaycanın müstəqillik yolu, milli inkişafı və dövlət quruculuğu prosesi bir sıra mühüm daxili və xarici amillərlə şərtlənir. Azərbaycan xalqı özünün siyasi, iqtisadi, mədəni-intellektual potensialından və SSRİ-nin dağılması ilə əlaqədar yaranan əlverişli tarixi şəraitdən istifadə edərək, 1991-ci ildə öz milli iradəsini ortaya qoydu, yenidən istiqlal haqqına qovuşaraq, müstəqil dövlətini bərpa etdi və BMT üzvü olan müstəqil dövlətlər sırasına qoşuldu. Bu hadisə Azərbaycan xalqının indiyə qədər malik olduğu ən böyük tarixi nailiyyət hesab olunur. Müasir dünyada 5000-dən artıq xalq və millət mövcud olsa da, BMT iqamətgahında bayrağı dalğalanan müstəqil dövlətlərin sayı 200-dən çox deyil.

Müstəqillik tarixinin araşdırılması ümummilli lider Heydər Əliyevin belə bir əsaslı fikrini təsdiq edir ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunub saxlanılması, yaşadılması, daimi və əbədi edilməsi bundan da çətindir. O, 1993-cü ildəki müraciətlərindən birində qeyd edirdi ki,

“Azərbaycan xalqının əsrlər boyu qəlbində yaşatdığı, həsrətini çəkdiyi günlər gəlib çatmışdır. Müstəqilliyi qazanmaq, dövlətin tam müstəqil olmasına nail olmaq üçün xalqımız çətin yollardan keçmişdir. Ancaq müstəqilliyi qorumaq, əldə saxlamaq, möhkəmləndirmək, dövlətin tam müstəqilliyinə nail olmaq, vətəndaşlara müstəqil dövlət şəraitində layiqli həyat şəraiti təmin etmək daha çətindir”.[35]

Dünya təcrübəsi və Azərbaycanın dövlətçilik tarixinin qısa təhlili göstərir ki, müstəqilliyə qovuşmaq, milli dövlət yaratmaq və onu yaşatmaq üçün üç əsas şərtin olması vacibdir. Bunlar:

- müstəqillik üçün mövcud daxili və xarici şəraitin yetişməsi;
- müstəqillik qazanmaq, onu qorumaq və yaşatmaq üçün xalqın milli iradəsinin ortaya qoyulması və vahid milli məqsəd ətrafında birləşməsi;
- həmin dövr üçün millətin vahid milli ideyasının və iradəsinin daşıyıcısı rolunu oynayan, insanları səfərbər edərək öz arxasınca aparmaq gücünə və qabiliyyətinə malik, cəmiyyətin əksər təbəqələrinin qəbul etdiyi milli liderin olmasından ibarətdir.

Bəşər tarixində bu və ya digər xalqın və ölkənin müstəqilliyi üçün lazımi tarixi şəraitin yetişməsi ayrı-ayrı dövrlərdə müxtəlif forma və məzmunda özünü büruzə vermiş və bəhs olunan mövcud zaman və məkanın spesifik ölçüləri, əlverişli daxili və xarici amilləri və s. ilə ölçülmüşdür.

Milli iradə ortaya qoymaq və milli məqsəd uğrunda birləşmək bütün məkan və zamanlarda, bir qayda olaraq, ölkə

[35]Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı: Azərnəşr, 1997-2015-ci illər.

əhalisinin tam əksəriyyətinin "birlik, vahidlik və qətiyyətlilik" əmsalı hesab olunmuşdur.

O ki, qaldı tarixdə, millətlərin və dövlətlərin həyatında vahid, birləşdirici liderin, şəxsiyyətin oynadığı rola, bununla bağlı dünya siyasətşünaslığında fərqli yanaşmalar mövcuddur. Bu məsələdə ən inandırıcı siyasi yanaşma metodunu geosiyasi ədəbiyyatda "Biheviorist metod" tərəfdarları irəli sürür və əsaslandırırlar.[36]

Siyasətşünaslar şəxsiyyətin (liderin) xalqların və toplumların milli "özünü müəyyənetməsi" və ya milli kimliyi, milli dövlət quruculuğu və milli inkişafındakı tarixi rolunun ölçü meyarlarını onun mövcud zaman və məkan çərçivəsindəki milli ideya və milli iradə daşıyıcısı kimi çıxış etməsi, bu missiyanı icra etmək gücünə və keyfiyyətinə, geniş və hərtərəfli qlobal dünyagörüşə malik olması, yerli, regional və beynəlxalq geosiyasi mühitdən yetərincə baş çıxarması və nəhayət, cəmiyyətin ictimai dəstəyini qazanması ilə müəyyənləşdirirlər.

Müstəqilliyə qovuşmaqla Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti birdən-birə yaranmamış və bir neçə mərhələdən keçərək, tədricən formalaşmışdır. Siyasi ədəbiyyatda bəzi xarakterik xüsusiyyətlərinə görə, Azərbaycanın müstəqil

[36]Bu metoddan geosiyasətdə ilk dəfə ABŞ siyasətçisi, sonralar isə prezident seçilmiş Vudro Vilson 1880-ci ildə istifadə etmişdir. Həmin geosiyasi metoda görə, bu və ya digər hadisəni qiymətləndirərkən "tam aydın, dəqiq və birmənalı bilik və təcrübəyə əsaslanaraq qərar vermək lazımdır". V.Vilson hesab edirdi ki, həm daxili siyasətdə, həm də geosiyasətdə bütün hadisələrin əsasında lider (şəxsiyyət) dayanır və əsas rolu da məhz o oynayır. V.Vilson konkret zaman və məkan çərçivəsində xalqların, millətlərin və digər insan birliklərinin əsas maraq və mənafe dairəsinin, fəaliyyət və istəklərinin ifadə və təmin olunması yolları və vasitələrinin tapılmasını da məhz onların "liderlərinin dünyagörüşü və qabiliyyəti" ilə əlaqələndirirdi.

dövlət quruculuğu və milli inkişafını bir neçə mərhələyə bölürlər.

Birinci mərhələyə Azərbaycanın 18 oktyabr 1991-ci ildə müstəqillik haqqında Konstitusiya Aktını qəbul etməsindən başlayaraq 1993-cü ilə - Heydər Əliyevin hakimiyyətə gəlməsinə qədərki dövrü aid edirlər.

1980-ci illərin sonu, 1990-cı illərin əvvəlində SSRİ-nin süqutunun qarşısıalınmaz prosesə çevrilməsi, beynəlxalq aləmdə yaranan əlverişli tarixi şərait, bölgədə cərəyan edən mərkəzdənqaçma meyillərinin vüsət alması, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin həllində o zamankı sovet rəhbərliyinin ermənipərəst mövqeyi, ermənilərin yaranmış boşluqdan bəhrələnərək Azərbaycan torpaqlarını bir-birinin ardınca işğal etməsi və s. hadisələr Azərbaycanda əvvəlcə kortəbii xalq hərəkatına, 1990-cı ildən sonra isə artıq məqsədləri aydın olan milli-azadlıq hərəkatına rəvac verdi. Həmin vaxt ölkənin müstəqilliyinin elan olunması və müstəqil dövlət qurulması üçün tələb olunan ilk iki şərt tam yetişmişdi.

Bəhs olunan dövrdə SSRİ-nin ali siyasi rəhbərliyində yaranan böhranlı vəziyyət və Moskvada yaşanan siyasi qarşıdurmadan istifadə edən bir çox keçmiş müttəfiq respublikalar, o cümlədən Azərbaycan öz müstəqilliyini elan etdi. Lakin həmin dövrdə həm ölkəni, həm də xalq hərəkatını idarə edənlərin, dövlət qurumlarının aydın milli inkişaf konsepsiyasının olmaması, respublikaya rəhbərlik edən şəxslərin müstəqillik və milli dövlət iradəsinin zəifliyi, qeyr-prinsipial və səriştəsiz iqtisadi, ictimai-siyasi və mənəvi siyasət yürütməsi, ölkədə sabitliyi və qanunçuluğu bərpa edə bilməməsi, siyasi mübarizənin milli-vətəndaş qarşıdurması müstəvisinə keçməsi, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının işğal edilməsi və

yerli əhalinin qaçqın-köçkünə çevrilməsi, iqtisadi, siyasi, sosial-mənəvi böhranın getdikcə dərinləşməsi və s. Azərbaycanı ciddi təhlükə ilə üz-üzə qoydu, əhalinin gələcəyə, müstəqil dövlətçiliyə inamını sarsıtdı.

1991-ci ildə Azərbaycan SSRİ-nin keçmiş kommunist ideologiyasından birmənalı imtina etsə də, xalqı səfərbər edən, onun kimliyini, yaratdığı dövlətin xarakterini, milli-mənəvi dəyərlərini qoruyub saxlayacaq və yönəldəcək yeni milli sistem və ideya ortaya qoyulmadı. Keçmişin bütün qalıqlarından, o cümlədən elmi, intellektual, mənəvi, ictimai dəyərlərindən kütləvi surətdə imtina meyli Azərbaycanda sözün həqiqi mənasında ciddi bir ideoloji boşluq yaratdı. Əlbəttə, cəmiyyətin ideyasızlaşdırılması meyli bir tərəfdən, keçmiş kommunist rejiminə nifrətdən qaynaqlanırdısa, digər tərəfdən, 1991-ci ildən 1993-cü ilin ortalarına qədər Azərbaycanı idarə edənlərin aydın məqsəd və məramının yoxluğundan, idarə etdikləri dövlətin və xalqın siyasi, iqtisadi, mədəni, mənəvi inkişafı haqqında dolğun təsəvvürə malik olmamasından irəli gəlirdi.

Bu dövrdə Azərbaycanın milli azadlıq hərəkatı və müstəqil dövlət quruculuğu prosesinə rəhbərlik etmək iradəsinə, gücünə və qabiliyyətinə malik, əhalinin əksəriyyəti tərəfindən qəbul edilən və dəstəklənən milli liderə olan ehtiyac açıq-aşkar özünü göstərməyə başlayır. Belə lider 1990-ci ildən Naxçıvan əhalisinin iradəsi ilə Azərbaycan Ali Sovetinə deputat və 1991-ci ildənsə Muxtar Respublikanın Ali Məclisinə sədr seçilən, faktiki olaraq Naxçıvan əhalisinin xilaskarına çevrilən Heydər Əliyev oldu. 1993-cü ildə xalqın tələbi ilə, o, hakimiyyət dairələri tərəfindən Bakıya dəvət olundu. İyunun 15-də Ali Sovetin sədri, oktyabrın 3-də isə ölkə prezidenti seçilərək, yenidən Azərbaycanın siyasi sükanı arxasına keçən Heydər Əliyev öl-

kənin milli inkişafının üçüncü əsas şərtini - vahid lider tələbini təmin etdi.

Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə ölkənin milli inkişafının yeni - **ikinci mərhələsi** başlandı. Tədqiqatçıların fikrinə görə, bu mərhələdə Azərbaycanın milli inkişaf siyasətinin, gələcək ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi inkişafının əsası qoyuldu, daxili və xarici siyasətinin məqsəd və vəzifələri, prinsip və xüsusiyyətləri, əsas istiqamətləri və prioritetləri müəyyən edildi.[37]

Heydər Əliyevin Azərbaycanın gələcək müstəqil milli inkişafı ilə bağlı siyasi dünyagörüşü və konseptual yanaşması ilk dəfə hələ SSRİ dağılmamışdan qabaq - 1991-ci ilin əvvəllərində Azərbaycan parlamentinin tribunasından səsləndirdiyi fikirlərdə öz əksini tapmışdır. Azərbaycanın yeni şəraitdəki inkişafı ilə bağlı onun həmin dövrdə parlament müzakirələrində səsləndirdiyi fikirlər, təklif və mülahizələr, mütəxəssislərin fikrincə, müstəqilliyə doğru uzanan yolda rastlaşılan yeganə rasional, praqmatik və uzaqgörən fəaliyyət nümunəsi idi.[38]

Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin milli inkişafı ilə bağlı praktiki addımları - ictimai-siyasi, sosial-iqtisadi, mədəni-mənəvi inkişafının məqsəd və vəzifələrinin müəyyən edilməsi, ölkə həyatının bütün sahələrində keçmiş sosialist normalarından imtina edilməsi və yeni prinsiplərə söykənən dövlət quruculuğu proseslərini həyata keçirməsi, milli dövlətin əsas atributlarının yaradılması və s. də SSRİ-nin dağılmasından bir qədər əvvəl, 1991-cü ilin sentyabr ayında Naxçıvan MR Ali Məclisinə sədr seçilməsi ilə başlamış və

[37]Bax: Mehdiyev R.Ə. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı, 2006.
[38]Bax: Mehdiyev R.Ə. Yeni siyasət: İnkişafa doğru. 1 kitab, Bakı, 2008. s.28-29

1993-cü ildənsə Azərbaycan Respublikasının Prezidenti kimi davam etdirilmişdir.

Müstəqil Azərbaycan dövlətinin sükanı arxasına keçəndən sonra Heydər Əliyev ölkənin milli ruhlu, qlobal düşüncəli və dövlət təfəkkürlü vətəndaşlarını, bütün sağlam qüvvələri öz ətrafına toplayaraq, dövlətin gələcək iqtisadi, ictimai-siyasi və sosial-mənəvi inkişafının prinsiplərini, məqsəd və vəzifələrini müəyyənləşdirdi, onun keçmiş sosialist ictimai-siyasi və iqtisadi sistemindən yeni hüquqi dövlət quruluşuna, azad bazar iqtisadiyyatı və çoxmülkiyyətli iqtisadiyyata, demokratik normalara və siyasi plüralizmə əsaslanan vətəndaş cəmiyyəti modelinə keçidinin konseptual əsaslarını yaratdı və 1995-ci ildə qəbul olunmuş ölkə Konstitusiyasına daxil etdi.

Heydər Əliyevin milli inkişaf siyasətinin xarakterik əlamətlərindən biri də, onun bütün milli resursları, maddi və mənəvi sərvətləri səfərbər edərək, ölkənin ümumi iqtisadi inkişafına yönəlməsi taktikasında idi. Bu məqsədlə, Heydər Əliyev 1994-cü ildə dünyanın aparıcı ölkələrini təmsil edən transmilli neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz resurslarının birgə işlənməsi və sərbəst yollarla dünya bazarlarına ixrac edilməsini hədəfləyən "Əsrin müqaviləsi"ni imzalamağa nail oldu. Bu müqavilə Azərbaycanın yeni neft strategiyasının əsasında dayanaraq, bir tərəfdən, ölkənin milli inkişafı üçün lazımi maddi resursların əldə edilməsi və istifadəsi yollarını müəyyənləşdirdi, digər tərəfdənsə onun beynəlxalq aləm üçün geosiyasi və geoiqtisadi əhəmiyyətini artıraraq, dünyaya inteqrasiyasını şərtləndirdi. "Əsrin müqaviləsi"ndən başlayaraq, Azərbaycan transmilli dünyanın və qlobal dünya iqtisadiyyatının bir hissəsinə çevrildi, ölkənin inkişaf etdirilməsi, bazar iqtisadiyyatı mexanizmlərinin formalaşdırılması, sahibkarlığın və özəl sektorun yaranması, fəal sosial si-

yasətin yürüdülməsi üçün həm daxildə, həm də xaricdə əlverişli şərait yarandı. Azərbaycan dövləti və vətəndaşları, ictimai-siyasi və iqtisadi institutlar dünya ölkələrinin iqtisadi, maliyyə və texnoloji imkanlarından istifadə etmək imkanı qazandılar.

Heydər Əliyevin milli inkişaf siyasətinin əsasında hüquqi dövlət, demokratik inkişaf və siyasi plüralizmə əsaslanan cəmiyyətin yaradılması dayanırdı. Bu istiqamətdə 1993-cü ildən həyata keçirilən tədbirlər, atılan ən mühüm addımlar – milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, azad, plüralist cəmiyyət quruculuğu, qeyri-hökumət strukturlarının və müstəqil mətbuatın yaradılması ilə bağlı görülən çoxsaylı işlər, 1995-ci ildə demokratik normaları özündə əks etdirən yeni Konstitusiyanın qəbulu, çoxpartiyalı sistemin bərqərar olması, onun əsasında ilk parlament seçkilərinin keçirilməsi və demokratik parlamentin yaradılması, mətbuat və informasiya üzərindən bütün dövlət tənzimləyici mexanizmlərinin yığışdırılması və senzuranın ləğvi və s. həm milli inkişafı sürətləndirdi, həm də ölkənin dünyadakı demokratik imicini formalaşdıraraq, beynəlxalq ictimaiyyəti onunla daha geniş əməkdaşlığa ruhlandırdı. Bir neçə il ərzində hüquqi dövlət quruculuğu istiqamətdə reallaşdırılan məqsədyönlü siyasət ölkənin ictimai-siyasi, iqtisadi, mənəvi-ideoloji və sosial həyatını kökündən dəyişdi, vətəndaş cəmiyyəti institutlarının yaradılması və inkişafına təkan verdi, ölkədaxili münasibətləri Avropa standartlarına uyğunlaşdırdı ki, bu da 2001-ci ildə Azərbaycanın Avropa Şurasına daxil olması, Avropa Birliyi ilə tərəfdaşlıq münasibətləri yaratması, dünyanın demokratik təsisatlarına inteqrasiyası və s. ilə nəticələndi.

Heydər Əliyevin milli inkişaf siyasətində ədalətli cəmiyyət və sosial yönümlü dövlət, ölkə vətəndaşlarının sosial-

iqtisadi və mənəvi tələblərinin dolğun təminatı, sosial rifahının yaxşılaşdırılması, mövcud maddi resursların ölkə daxilində insan potensialının inkişafına yönəldilməsi prinsipi də mühüm yer tuturdu. Sosialyönümlülük, ümumiyyətlə, onun həyatı boyu yürütdüyü siyasətdə daimi prinsip olmuş, rəhbərlik etdiyi dövlətin imkanları əhalinin rifah halının yaxşılaşdırılmasına xidmət etmişdir. Bununla bağlı, Heydər Əliyev vurğulayırdı ki, "xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır".[39] Məhz Heydər Əliyevin təməlini qoyduğu fəal sosial siyasətin nəticəsidir ki, 20 ildə ölkədə yoxsulluğun səviyyəsi dəfələrlə aşağı salınmış, əhalinin pul gəlirləri və həyat səviyyəsi dayanmadan yüksəlmiş, sosial-iqtisadi vəziyyəti yaxşılaşmışdır.

Heydər Əliyevin milli inkişaf siyasəti Azərbaycanın Cənubi Qafqaz və Xəzər hövzəsi, Avrasiya bölgəsi və dünyadakı regional və beynəlxalq addımlarını, mövqelərini, onun dünya birliyinə inteqrasiyasının prinsipial xəttini, əsas məqamlarını dəqiq müəyyən etmişdir. Onun beynəlxalq və regional xarici siyasət kursu Azərbaycanın geosiyasi maraqlarına müvafiq olaraq, həm region ölkələri ilə, həm də dünya dövlətləri ilə münasibətlərin praqmatik, ölçülüb-biçilmiş, düşünülmüş və balanslı siyasi strategiyasını formalaşdırmışdır. Xüsusən, Azərbaycanın malik olduğu enerji resurslarının, Qərblə Şərqi birləşdirən nəqliyyat-kommunikasiya imkanlarının və digər geosiyasi əhəmiyyətli üstünlüklərinin istifadəsində Heydər Əliyevin yürütdüyü prinsipial kurs, tətbiq etdiyi optimal yanaşma dünya dövlətləri içərisində Azərbaycanın güclü milli və regional faktora çevrilməsini, beynəlxalq aləmlə uğurlu inteqrasiyasını və əksər geosiyasi aktorlarla qarşılıqlı-faydalı əməkdaşlığını şərt-

[39]Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı: Azərnəşr, 1997-2015-ci illər.

ləndirmişdir. Heydər Əliyev tərəfindən düzgün təməli qoyulmuş xarici siyasət kursu 2011-ci ol oktyabrın 24-də Azərbaycana dünyanın 150-dən çox ölkəsinin dəstəyini qazandırmış və BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsinə şərait yaratmışdır. Bu addım, həm də keçən müddətdə Heydər Əliyevin uzaqgörən siyasətinin ağıllı, səriştəli və dönmədən həyata keçirilməsinin nəticəsi idi.

Göründüyü kimi, Azərbaycan Prezidenti kimi Heydər Əliyevin 1993-2003-cü illərdə irəli sürdüyü ideya və fikirlər, iqtisadi, siyasi və sosial-mənəvi sahədə reallaşdırdığı kurs və praktiki tədbirlər milli inkişaf siyasətinin formalaşması və həyata keçirilməsinin ikinci mərhələsində ölkədə bir ictimai-siyasi sistemdən digərinə keçidin, yeni demokratik cəmiyyətin və ictimai həyat normalarının əsaslarını yaratmışdır. Bu siyasət bütün keçid dövrü ərzində imperiya və sosializm sistemindən azad olaraq müstəqillik yolu tutmuş, lakin region və dünya güclərinin üst-üstə düşməyən, kəsişən maraqları ilə üz-üzə qalmış, getdikcə qloballaşan dünyada öz yerini axtaran, milli maraqlarını və təhlükəsizliyini qorumağa çalışan gənc Azərbaycan dövləti üçün praktiki fəaliyyət proqramına çevrilmişdir.

Heydər Əliyevin milli inkişaf siyasəti həm də uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiqində mühüm, səfərbəredici funksiya yerinə yetirmiş, dövlət strukturlarının rəsmi və praktiki fəaliyyətinin, həyata keçirilən iqtisadi-siyasi, hüquqi və sosial-mənəvi proqramların əsasında dayanmışdır. Çünki, Azərbaycana rəhbərlik etdiyi dövrdə, o, təkcə müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi, onun müstəqilliyinin dönməzliyinin təmin olunması və dövlətçilik atributlarının formalaşdırılması ilə deyil, mütəxəssislərin fikrinə görə, həm də, Azər-

baycan xalqının dövlətçilik ənənələrinin qədim köklərinin üzə çıxarılması və müasir tarixi dəyərlərlə birləşdirilərək milli şüurun bərpa olunması sahəsində əvəzsiz rol oynamışdır.[40]

Heydər Əliyev yeni şəraitdə etnik mənsubiyyəti xüsusi qabartmadan birləşdirici **azərbaycançılıq ideyasının** – ümumvətəndaşlıq, Azərbaycana mənsubluq, Vətənə bağlılıq, Azərbaycan dilinə və mədəniyyətinə sevgi, dövlətin sevinci və kədəri, dəyərləri və problemləri qarşısında ümumi və bərabər məsuliyyət hissi daşımaq kimi yeni konfiqurasiyanın - Azərbaycanın müstəqil dövlətçiliyi üzərində qurulmuş milli inkişaf siyasətinin ideoloji əsaslarını ortaya qoydu. Həm də xüsusi qeyd olunmalıdır ki, Heydər Əliyev daxili siyasətində vətəndaşların vahid amal və məqsəd ətrafında birləşdirilməsi istiqamətində addımlarını etnik-milli müstəvidən dövlətçilik və vətənpərvərlik müstəvisinə ustalıqla və mükəmməl formada keçirərək, respublikanın əsas vətəndaşları olan türk kökənli çoxluqla digər milli azlıqların, etnik qrupların birliyinə nail ola bildi. Bu baxımdan, tədqiqatçı alim Səlahəddin Xəlilovun fikri ilə razılaşmamaq mümkün deyil ki, Heydər Əliyev milli ideologiyamızın əsasını müəyyənləşdirməklə bərabər, bilavasitə onun həyata keçirilməsini də təmin edirdi ki, bu da onun dövlət başçısı olmasından əlavə, həm də milli lider kimi üzərinə götürdüyü missiyaya necə böyük məsuliyyətlə yanaşmasına dəlalət edirdi.[41]

Heydər Əliyev Azərbaycanda əksər vətəndaşları vahid amal, ideya və məqsəd ətrafında birləşdirəcək milli ideologiya məsələsini ümumdövlət səviyyəsinə qaldırıldı. Bir faktı xüsusi vurğulamaq lazımdır ki, başqa sahələrdə olduğu kimi, milli-

[40]Bax: Xəlilov S.S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi // Heydər Əliyev və Azərbaycan. Bakı, 2008. s.571
[41]Bax: Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001, s. 87

ideoloji baxışlar sisteminin formalaşması prosesində də Azərbaycan Xalq Cümhuriyyətinin varislik prinsipi saxlanıldı və vaxtilə məhz onun birləşdirici ideya kimi irəli sürdüyü "azərbaycançılıq" ideologiyasına müraciət edildi. Milli ideologiya Azərbaycanın tarixi keçmişi, onun millət və xalqlarının adət-ənənələri, dövlətçiliyinin dünəni, bu günü və gələcəyi ilə sıx şəkildə əlaqələndirildi. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşlarının, ölkənin istiqlaliyyətini dəstəkləyən insanların vahid dövlətçilik ətrafında birləşdirilməsi üçün ciddi iş aparıldı. Cəmiyyətdə hakim olan istiqlal arzusu, azərbaycançılığın müstəqil ölkənin bütün əhalisinin ali ideologiyasına çevrilməsi, ümummilli birliyin təmin olunması zərurəti tezliklə ictimai-siyasi, elm, yaradıcı və digər ziyalı dairələrinin gündəminə çıxarıldı. Azərbaycançılıq ideyasına tamamilə yeni məzmun verildi və bu ideya ölkənin milli-etnik xüsusiyyətlərinə, müasir inkişafının tələblərinə və dünyanın yeni şəraitinə uyğunlaşdırıldı. Bütün bunları nəzərə alaraq, Heydər Əliyevi həm də müasir azərbaycançılıq ideologiyasının - dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan yeni milli təlimin banisi hesab etmək olar.[42]

Heydər Əliyev azərbaycançılıq ideyasını bütöv bir xalqın – bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin vahid **milli birlik platformasına** çevirdi. Əgər Heydər Əliyevə qədər bu ideya əsasən etnolinqvistik, etnoqrafik, ədəbi, mədəni-estetik, fəlsəfi və mənəvi dəyər kimi mövcud idisə, onun dövründə ciddi sosial-siyasi məzmun kəsb edərək ümumi və

[42]Bax: Mehdiyev R.Ə. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi //"Azərbaycan" qəzeti, 26 may 2011-ci il.

birləşdirici ideyalar sisteminə - dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevrildi.[43]

Heydər Əliyev üçün azərbaycançılıq ideologiyasının mahiyyətini təşkil edən əsaslardan biri milli-mənəvi dəyərlərin - ana dilinin və milli mədəniyyətin, tarixi keçmişimizdən bizə irs qalmış milli varlığımızın, azərbaycanlıları tanıdan və fərqləndirən bütün atributların qorunması və inkişaf etdirilməsi idi.

Heydər Əliyev Azərbaycanı müasir, inkişaf etmiş, xalqın maddi - mənəvi tələbatını təmin edə bilən, daxili həyatı sabit, milli birliyə qovuşmuş bir dövlət kimi görmək istəyirdi. Bununla bağlı o, qeyd edirdi ki, bizim milli ideologiyamızın konsepsiyası tarixi keçmişimizi, milli adət-ənənələrimizi, dilimizi, dinimizi və mədəniyyətimizi əks etdirmək və yaşatmaqla bərabər, həm də bu dəyərləri müasir dünyanın qazandığı yeniliklər və təcrübə əsasında zənginləşdirməyə və inkişaf etdirməyə xidmət etməlidir. *"Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"*.[44] Bu ifadələr ümummilli liderimizin milli-mənəvi dünyasını, vətəndaşlıq mövqeyini göstərən, öz milli köklərinə bağlılığını sübut edən və həm də böyük milli səfərbəredici gücü olan tarixi bir bəyanat idi. Müasir Azərbaycanın mürəkkəb və taleyüklü tarixi dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini üzərinə götürmüş Heydər Əliyevin yaratdığı müstəqil dövlət və onun milli inkişaf strategiyası ölkəmizin bugünkü varlığının və gələcək geosiyasi inkişafının əsasını təşkil edir.

[43]Daha ətraflı bax: Vəliyeva S.M. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi. Məsələnin qoyuluşuna dair. Bakı, 2002

[44]Bax: Dünya Azərbaycanlılarının I Qurultayında Heydər Əliyevin nitqi - 2001-ci il 9-10 noyabr // Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı, 2002, s. 25

Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi, Heydər Əliyevin indiyə qədər toplanmış nəzəri-siyasi irsi müstəqil Azərbaycan dövlətinin əsasları və milli inkişafı haqqında zəngin mənbəşünaslıq bazası, bitkin bir təlim hesab olunur. Bu təlimin bir çox tezisləri 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı onun ölkə ziyalılarına ünvanlanmış müraciətində, həmin partiyanın yeni qəbul edilmiş məramnaməsində, digər hissəsi isə 1993-2003-cü illərdə onun prezidentlik fəaliyyəti dövründə qəbul edilmiş ayrı-ayrı dövlət proqramlarında, səsləndirdiyi fikir və mülahizələrdə, çıxışlarında, ortaya qoyduğu nəzəri-siyasi ideyalarda öz əksini tapmışdır. Mütəxəssislərin fikrinə görə, Heydər Əliyevin dövlət həyatının müxtəlif sahələri və yürüdülən siyasətin ayrı-ayrı məqamları ilə bağlı söylədiyi fikirlər, səsləndirdiyi tezislər, əslində, Azərbaycanın vahid milli inkişaf konsepsiyası, milli ideologiyası, müasir Azərbaycanın sosial idealı, milli-fəlsəfi dünyagörüşüdür, ölkənin real gerçəkliyinin, ictimai-siyasi və mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl elmi-nəzəri sistem və dövlət quruculuğu təlimidir.[45] Heydər Əliyevin ayrı-ayrı çıxışlarında dövrün ictimai-siyasi xarakteristikası, Azərbaycanda həyata keçirilən müstəqil dövlət quruculuğunun tələbləri, şərtləri və yolları, regionumuzda və beynəlxalq aləmdə baş verən hadisələr və geosiyasi proseslərin xüsusiyyətləri və onların Azərbaycanın daxili, regional və beynəlxalq vəziyyətinə təsiri, 1990-cı ilin əvvəllərində ölkənin düçar olduğu iqtisadi-siyasi böhranın təhlili, mövcud vəziyyətdən çıxış yolları və s. kimi taleyüklü strateji məsələlər özünün həqiqi cavabını tapmışdır.

[45]Bax: Xəlilov S.S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi // Heydər Əliyev və Azərbaycan. Bakı, 2008, s. 571-582.

Heydər Əliyevin milli inkişaf siyasətinin əsas xarakterik xüsusiyyətlərindən biri Azərbaycanda daxili inkişafın təkamül yolunun seçilməsi, bütün sahələrdə - hüquqi dövlət quruculuğu, bazar iqtisadiyyatına, çoxmülkiyyətçiliyə və azad rəqabətə keçid, demokratiya və siyasi plüralizmin yaradılmasında inqilabi yanaşmadan qaçması və təkamül prinsipini tətbiq etməsi idi. O, öz çıxışlarında daim vurğulayırdı ki, dövlət həyatında heç nəyə birdən-birə nail olmaq mümkün deyil. Nə iqtisadi, siyasi, sosial-mədəni inkişafa, nə də ki, demokratiya, vətəndaş cəmiyyəti və siyasi plüralizmə bir-iki gündə çatmaq olmaz. Bunun üçün uzunmüddətli ciddi təşkilati işlər görülməlidir, milli inkişaf resursları səfərbər edilməlidir, daxili idarəçilikdə, insanların şüurunda dəyişiklik edilməlidir. Bütün bunları heç bir inqilabla etmək mümkün deyil, bunu yalnız təkamül yolu ilə, tədricən həyata keçirmək olar**.**[46]

Göründüyü kimi, Heydər Əliyevə görə milli inkişafa təkamül yolu ilə, ciddi və uzunmüddətli praktiki işlərlə yanaşı, həm də milli şüurun formalaşması yolu ilə nail olmaq mümkündür. Heydər Əliyev qeyd edirdi ki, bir ölkədə hətta inqilabi dəyişikliklər belə köhnə sistemi dərhal dəyişdirmir, onu yeni bir sistemlə əvəz etmir, inqilab köhnəni vurub dağıdır, ancaq ondan fərqli sistem yaratmaq üçün müəyyən vaxt və illər lazımdır.[47]

Heydər Əliyevin milli inkişaf sahəsində atdığı addımların, həyata keçirdiyi tədbirlərin əvvəlcədən elmi-siyasi təhlili, onun müsbət və mənfi tərəflərinin ölçülüb-biçilməsi, nəticələrinin proqnozlaşdırılması, ardıcıl və məqsədyönlü olması da siyasət-

[46]Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı: Azərnəşr, 1997-2015-ci illər.
[47]Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı: Azərnəşr, 1997-2015-ci illər.

şünasların diqqətini cəlb etmişdir. Bu xüsusiyyət özünü, xüsusən, Azərbaycanın daxili və xarici siyasətinin, milli təhlükəsizliyinin, hərbi quruculuğunun proqramlaşdırılması və yerinə yetirilməsində, iqtisadi-siyasi və sosial proqramların qəbulunda göstərmişdir.

Mütəxəssislər Heydər Əliyevin dövlətçilik və milli inkişaf nəzəriyyəsinin ən böyük yeniliklərdən biri kimi, onun sosial sistemləri dağıdıb yenidən vaxt və qüvvə sərf etmədən, öz daxili enerjisi hesabına dəyişdirərək, proseslərin təbii gedişini istiqamətləndirmək taktikasını xüsusi qeyd edirlər. Bu taktikanı reallaşdırarkən əsas məsələ mürəkkəb proseslərə müxtəlif rakurslardan yanaşmaq qabiliyyəti idi. Heydər Əliyevin milli inkişaf siyasətində ictimai davranış və əxlaq normaları cəmiyyət üçün kənar təsirlər vasitəsilə deyil, məhz daxildən - ictimai şüurun həmahəng formada yetişməsi yolu ilə tətbiq olunurdu.[48]

Heydər Əliyev müstəqillik dövrünün 1993-2003-cü illəri əhatə edən keçid mərhələsində Azərbaycanın milli inkişaf siyasətinin həm nəzəri əsasını qoydu, həm də onu praktiki şəkildə reallaşdıraraq dövlət müstəqilliyinin dönməzliyini təmin etdi.

Heydər Əliyevin milli inkişaf təlimi Azərbaycandakı bütün sonrakı proseslərin təməlində dayanır və bundan sonra da dayanacaqdır. Onun Azərbaycan xalqının dövlətçilik ənənələrinə söykənərək 1993-cü ildə müəyyənləşdirdiyi siyasi kurs, əsasını qoyduğu demokratik və hüquqi dövlət idarəçiliyi forması 1995-ci ildə qəbul olunmuş yeni Konstitusiyaya daxil edilmiş və 2003-cü ilə qədər ulu öndərin özü tərəfindən həyata keçirilmişdir. Təsadüfi deyil ki, 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Heydər Əliyevin

[48]Bax: Xəlilov S.S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi // Heydər Əliyev və Azərbaycan. Bakı, 2008, s. 571-582.

müəyyənləşdirdiyi və 1993-2003-cü illərdə həyata keçirdiyi milli inkişaf siyasətinin heç bir alternativi olmadığını, bu strateji inkişaf kursunun bundan sonra da dönmədən davam etdiriləcəyini birmənalı şəkildə bəyan etmişdir.[49]

Göründüyü kimi, Heydər Əliyevin dövlətçilik kursu və milli inkişaf siyasəti, xüsusən onun təməl prinsipləri, nəzəri-siyasi məsələləri bütün keçid dövrü üçün Azərbaycanın əsas inkişaf strategiyası olmuş, 2003-2011-ci illərdə dövrün, zamanın və respublikanın müasir inkişafının yeni tələbləri də əlavə olunaraq, Prezident İlham Əliyev tərəfindən dönmədən həyata keçirilmişdir.

Hazırda Azərbaycan Respublikası bir çox sahələrdə, xüsusən, iqtisadi sferada keçid dövrünü başa vurmuşdur. Respublikanın sonrakı onilliyini hədəfə alan yeni inkişaf konsepsiyasının yaradılmasına ciddi ehtiyac yaranmışdır. Heç kimdə şübhə yoxdur ki, yeni inkişaf konsepsiyası da Azərbaycanın milli inkişafının Heydər Əliyev tərəfindən müəyyən olunmuş əsas təməl prinsiplərini mütləq şəkildə nəzərə alacaq və davam etdirəcəkdir.

Mütəxəssislər hesab edir ki, Heydər Əliyev dühasının fövqəladəliyi həm də onda idi ki, o, təkcə öz dövrünün nəbzini tutmaqla məhdudlaşmadı, ölkənin ictimai-siyasi, sosial-iqtisadi inkişafının birinci fazasından uğurla çıxarmaq missiyasını başa vurdu və bununla kifayətlənməyərək, vaxtında ikinci fazanın təməl daşını qoydu, bu mərhələdə ölkəyə rəhbərlik edə biləcək yeni siyasi güc mərkəzini yaratdı... Bəzi qonşu ölkələrdən fərqli olaraq Azərbaycan yeni iqtisadi sistemin üstqurumu kimi ortaya çıxan siyasi dünyagörüşü və yeni siyasi lideri müxalifətdə

[49]Bax: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları //http://files.preslib.az/site/ialiyev/2003

deyil, iqtidar partiyasının içərisində yetişdirdi. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyevin siyasi kursunu davam etdirməklə yanaşı, həm də onu yeni şəraitin tələblərinə uyğun surətdə, yaradıcılıqla inkişaf etdirir.

Hazırda respublika öz inkişafının keçid dövrünü başa vuraraq, sosial-iqtisadi, mənəvi və s. sahədə yeni mərhələyə qədəm qoymaqdadır. Keçən illərdə Azərbaycan bütün sahələr üzrə Heydər Əliyevin milli inkişaf siyasətini uğurla həyata keçirərək, nəzərə çarpacaq nailiyyətlər qazanmışdır. İctimai-siyasi həyatın demokratikləşməsi, vətəndaş cəmiyyəti quruculuğunun, siyasi plüralizmin getdikcə dərinləşməsi, iqtisadi həyatın liberallaşması, sahibkarlıq institutlarının yaradılması və sahibkar təşəbbüskarlığına söykənən iqtisadiyyat modelinin bərqərar olması, iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsi və s. göstəricilər Azərbaycanın gələcək inkişafı üçün geniş imkanlar açmışdır. Müşahidə olunan dayanıqlı inkişaf həm də hakimiyyət qarşısında yeni, uzunmüddətli Milli İnkişaf Konsepsiyasının yaradılması və həyata keçirilməsi vəzifəsini irəli sürmüşdür.

Azərbaycanın ictimai, siyasi, iqtisadi, mədəni həyatının bütün sahələrində əldə etdiyi uğurlar Prezident İlham Əliyevə qarşıdakı dövrdə Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-ideoloji transformasiyasının yeni mərhələsinin təməlini qoymaq və milli inkişafın növbəti on ilinin vəzifələrini müəyyənləşdirmək imkanı yaratmışdır. Azərbaycan dövləti bütün sahələrdə nail olunan müvəffəqiyyətlərlə kifayətlənməyərək, Qərbin inkişaf etmiş ölkələrinin standartları səviyyəsinə yüksəlməyi və müasir bir ölkəyə çevrilməyi hədəfə almışdır.

Yeni mərhələnin əsas hədəfi, bir tərəfdən əldə olunmuş iqtisadi, siyasi, sosial və mədəni nailiyyətləri möhkəmləndirmək, ölkəni müasir tələblər səviyyəsinə qaldırmaq, digər tərəf-

dən isə gələcək liberal, çoxşaxəli, rəqabətədavamlı, dinamik və innovasiya yönümlü milli iqtisadiyyatın formalaşdırılması, iqtisadi və insan resurslarının düzgün istifadə edilməsi, ictimai və sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi, sosial sahədə optimal, səmərəli və ədalətli inkişaf modelinin yaradılması, əhalinin rifahının qabaqcıl beynəlxalq standartlara çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında tətbiqi istiqamətlərin inkişaf etdirilməsi, ictimai həyatın bütün sahələrində yeni nailiyyətlərin əldə olunması və s. ibarət olmalıdır.

Azərbaycanın gələcək milli inkişaf siyasətinin əsas və uzunmüddətli perspektivləri ilə bağlı vahid konsepsiyanın hazırlanması, strateji inkişafın gələcək istiqamətlərinin, prinsip və vəzifələrinin müəyyənləşdirilməsi müasir Azərbaycan dövlətinin qarşısında dayanan əsas vəzifələrdən biri hesab olunur. 29 noyabr 2011-ci ildə «Azərbaycan 2020: gələcəyə baxış» Milli İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin xüsusi Sərəncamı məhz bu məsələni qarşıya vəzifə kimi qoyur. Sərəncamda qeyd olunur ki, son dövrdə Azərbaycan Respublikasında milli dövlət quruculuğu istiqamətində həyata keçirilən islahatlar, reallaşdırılan çoxsaylı xüsusi dövlət proqramları və s. ölkə həyatının bütün sahələrində müsbət nəticələrin əldə olunmasına şərait yaratmışdır. Bu illər ərzində, xüsusilə son onillikdə Azərbaycanda makroiqtisadi sabitliyə, dinamik iqtisadi artıma nail olunmuş, yoxsulluğun azaldılmasında və əhalinin sosial rifahının yüksəldilməsində ciddi uğurlar qazanılmışdır.

Ölkə prezidenti bu sərəncamda Azərbaycanın perspektiv inkişafının əsas hədəf və istiqamətlərinin müəyyən edilməsi məqsədi ilə müvafiq dövlət orqanlarının, elmi təşkilatların və yüksək ixtisaslı mütəxəssislərin iştirakı ilə, 2020-ci ilədək dövrü əhatə edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Kon-

sepsiyasının hazırlanmasını Administrasiyası qarşısında mühüm bir vəzifə kimi qoymuşdur.

Sərəncamda həmçinin yeni Milli İnkişaf Konsepsiyasının yaradılması sahəsində qabaqcıl dünya təcrübəsindən yararlanmaq, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və digər beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq etmək kimi tapşırıqlar verilmiş, bu işdə vətəndaş cəmiyyəti təsisatlarının iştirakının, habelə layihənin açıq müzakirəyə çıxarılması üçün müvafiq tədbirlərin görülməsinin vacibliyi qeyd edilmişdir.[50]

Beləliklə, bu gün Azərbaycanda ümummilli lider Heydər Əliyevin irsi, müəyyən etdiyi milli inkişaf siyasəti yaşayır və ardıcıl olaraq, yaradıcı surətdə, müasir dövrün tələbləri, reallıqları nəzərə alınmaqla uğurla davam etdirilir.

§ 1.2. Milli inkişaf siyasətinin əsas prinsipləri, vəzifələri və tələbləri

Milli inkişafın bilavasitə dövlətin daxili ictimai-siyasi, sosial-iqtisadi və beynəlxalq vəziyyəti ilə bağlı olduğunu nəzərə alsaq, müstəqilliyini bərpa etdiyi gündən Azərbaycanın qarşısında dayanan əsas vəzifələrdən biri öz Milli İnkişaf Konsepsiyasını və ona uyğun olaraq dövlətin praktiki fəaliyyət strategiyasını yaratmaq, daxili-xarici siyasətini, onun istiqamətlərini, prioritetlərini və hədəflərini müəyyənləşdirmək, milli dövlət quruculuğu prosesinin həyata keçirilməsi mexanizmlərini formalaşdırmaq və təmin etməkdən ibarət idi.

Azərbaycanın milli inkişaf siyasətinin konseptual əsaslarını, başlıca prinsiplərini, strateji vəzifə və tələblərini də müstəqil dövlətin qurucusu Heydər Əliyev müəyyənləşdirmiş,

[50]Bax: "Azərbaycan" qəzeti, 30 noyabr 2011-ci il.

1993-2003-cü illərdə dönmədən həyata keçirmişdir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

Güclü dövlət və səmərəli idarəçilik

Siyasətşünaslıq elmində milli inkişafın əsas tələblərindən biri güclü dövlətin qurulması, müvafiq ölçüləri ilə onun iqtisadi, siyasi, sosial-mənəvi əsaslarının yaradılması, ölkənin siyasi sisteminin və dövlət idarəçiliyinin səmərəli və ahəngdar işinin təmin edilməsi hesab olunur.

Mütəxəssislər hesab edir ki, Heydər Əliyevin milli inkişaf siyasətində güclü dövlət prinsipi həmişə önəmli yer tutmuşdur. Onun dövlət quruculuğundakı əsas xidmətlərindən biri məhz ölkənin bütün sağlam qüvvələrini, əksər vətəndaşları, ictimai-siyasi dairələri səfərbər edərək güclü dövlət strukturu yaratmasında, müstəqilliyin, daxili ictimai-siyasi sabitliyin real təminatçısı ola biləcək dinamik dövlət maşını qurmasında idi.

Səmərəli və güclü dövlət, səmərəli dövlət idarəçiliyi anlayışını – siyasi ədəbiyyatda təkmil mərkəzi və yerli idarəetmə mexanizmi, sabit ictimai-siyasi həyatı, işlək və hamı tərəfindən əməl olunan qanunları, ədalətli cəmiyyəti olan, insanların etimadını qazanan, ehtiyaclarını dəyərləndirən, qabiliyyətinə görə hər kəsi ictimai-siyasi, iqtisadi və mədəni proseslərə cəlb edən, milli və vətəndaş birliyinə söykənərək, siyasi-hüquqi idarəçilik institutu funksiyasını yerinə yetirən ölkələrə aid edirlər.

Bundan başqa, müasir dövrün tələbləri çərçivəsində güclü və səmərəli dövlət həm də azad, ədalətli, demokratik dəyərlərin bərqərar olduğu, siyasi plüralizm və siyasi fəaliyyət azadlığının hökm sürdüyü, bütün vətəndaş hüquqlarının dolğun təmin edildiyi cəmiyyətlərə şamil edilir.

Azərbaycanda Heydər Əliyevin formalaşdırdığı milli inkişaf siyasətinin əsas prinsiplərindən sayılan sabit və güclü mərkəzi dövlət idarəetmə sisteminin qurulması, həm də yuxarıda sadalanan əksər vəzifə və tələblərə əməl edilməsini nəzərdə tuturdu. Bundan başqa, güclü dövlət və səmərəli dövlət idarəçiliyi ölkənin vahid mərkəzdən idarə edilməsini, mərkəzi icra hakimiyyəti orqanları ilə regional və yerli idarəçilik strukturları arasında möhkəm rabitənin yaradılmasını da ehtiva edirdi.

İctimai-siyasi sabitliyin yaradılması və qorunması

Azərbaycanın milli inkişafının mühüm şərtlərindən və amillərindən biri kimi, Heydər Əliyev daxili ictimai-siyasi sabitliyin yaradılması, davamlı olaraq təmin edilməsi və qorunması vəzifəsini irəli sürürdü. Heydər Əliyev daim vurğulayırdı ki, ictimai-siyasi həyatı sabit, iqtisadiyyatı güclü və vətəndaş birliyi olan dövlətlər hər şeyə qadirdir.[51]

Dünya siyasətşünasları dövlətin həyatında ictimai-siyasi sabitliyi milli inkişafın ən vacib daxili vəzifəsi hesab edir və cəmiyyətlərin sağlam həyat tərzini, ictimai həyat normalarının dönməzliyini, sabit idarəçiliyi, qanunçuluğu, vətəndaş birliyi və milli həmrəyliyi, ölkənin regional geosiyasi və beynəlxalq təhlükəsizlik vəzifələrinin dolğun və davamlı təminatını məhz dövlətin daxili ictimai-siyasi həyatının sabitliyi və iqtisadiyyatının dinamik inkişafı ilə əlaqələndirirlər.

Heydər Əliyev 1993-cü ildən etibarən Azərbaycanda dövlət quruculuğu sahəsində həyata keçirdiyi bütün tədbirlərdə ilk növbədə daxili ictimai-siyasi sabitliyin qorunması, milli-və-

[51]Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı: Azərnəşr, 1997-2015-ci illər.

təndaş birliyinin və iqtisadi inkişafın təmin edilməsi vəzifələrini irəli sürür, dövlətin zəruri ehtiyaclarının və əhalinin sosial-iqtisadi tələbatının ödənilməsi kimi məsələləri daim diqqətdə saxlayırdı.

İctimai-siyasi sabitliyin yolu o dövrdə Azərbaycanda güclü dövlət, sosial ədalət və milli həmrəyliyə söykənən daxili siyasətin yürüdülməsindən, milli inkişaf maraqlarının bütün ictimai-siyasi dairələrin, milli-etnik qrupların düşüncəsinə hakim kəsilməsindən keçirdi. Odur ki, Heydər Əliyev ölkədə sosial ədalətin yaradılmasını, hər bir vətəndaş üçün bərabər hüquq və azadlıqların tanınmasını, hüquqi normalar və qanunçuluğun möhkəmləndirilməsini, ölkədaxili mənfi hallarla ciddi mübarizə aparılmasını, demokratiya və siyasi plüralizm prinsiplərinin cəmiyyətdə geniş tətbiq edilməsini, dövlət idarəçiliyinin, hakimiyyətin fəaliyyətinin şəffaflaşdırılması və möhkəm ümumxalq hakimiyyətinin formalaşdırılmasını Azərbaycanın daxili ictimai-siyasi həyatının əsas prinsipləri kimi elan edərək, onlara dönmədən əməl olunmasını tələb edirdi.

Çevik iqtisadi siyasətin yürüdülməsi və iqtisadi inkişafa nail olunması

Dünyada hər bir ölkənin əsas göstəricisi və gücü ilk növbədə onun iqtisadi vəziyyəti ilə ölçülür. Müasir iqtisadçılar iqtisadi inkişafın ən təkmil forması, dinamik və davamlı inkişafa ən çox şərait yaradan modeli kimi azad sahibkarlığa söykənən bazar iqtisadiyyatı modelini qəbul edirlər.

Heydər Əliyev hakimiyyəti dövründə Azərbaycanın iqtisadi inkişaf siyasətinin əsas vəzifələri və prinsipləri müəyyən edildi və dönmədən həyata keçirilməyə başlandı. Bu prinsiplər birincisi, milli inkişaf resurslarının və mövcud iqtisadi imkan-

ların düzgün dəyərləndirilməsi, səfərbər və idarə edilməsini, ikincisi, ölkədə azad sahibkarlığın formalaşması, bazar iqtisadiyyatı mexanizmlərinin yaradılması və inkişafını, üçüncüsü, isə qabaqcıl dünya iqtisadiyyatına inteqrasiya xəttinin dönmədən həyata keçirilməsini nəzərdə tuturdu.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə 1993-cü ildən Azərbaycanda başlanmış milli inkişaf resurslarının səfərbər edilməsi və inkişafa yönəldilməsi, sahibkarlığın, mülkiyyət çoxnövlüyünün və müxtəlifliyinin dəstəklənməsi, liberal bazar iqtisadiyyatı istiqamətində iqtisadi və sosial islahatların həyata keçirilməsi, Avropanın qabaqcıl və inkişaf etmiş ölkələri ilə hərtərəfli iqtisadi əməkdaşlıq və tərəfdaşlıq xəttinin yürüdülməsi bir tərəfdən ölkənin dinamik və davamlı inkişafının əsasını qoydu, digər tərəfdənsə onun gələcəyi ilə bağlı dünyada nikbin ovqat yaradaraq, beynəlxalq aləmlə iqtisadi inteqrasiyasını sürətləndirdi.

Vətəndaş birliyi və cəmiyyətin bölünməzliyi prinsipi

Dünya siyasət elmində dövlətin gücü və qüdrəti təkcə onun əhalisinin sayı, iqtisadi, hərbi gücü, böyük və kiçik əraziyə, təkmil və səmərəli dövlət hakimiyyətinə malik olması, yaxud özünü sosial-iqtisadi cəhətdən təmin etməsi, xarici aləmdən minimal asılılığı və s. ilə deyil, həm də ölkədaxili milli-vətəndaş birliyinin vəziyyəti, ölkənin ərazisində yaşayan əhalinin milli, dini və sosial mənsubiyyəti, vətəndaşların dövlətçiliyə bağlılıq dərəcəsi, dövlətçilik təfəkküründün səviyyəsi, dövlətin idarə olunmasında, ölkənin iqtisadi, sosial, mədəni həyatındakı iştirakı, idarə edənlərlə idarə olunanların, dövlət qurumları ilə xalqın yekdilliyi ilə ölçülür. Bu anlamda hər bir dövlətin xarici və daxili təhlükələrə qarşı müqaviməti, ictimai-

siyasi həyatının dayanıqlılığı və yekdilliyi həm də vətəndaşlar arasındakı bağlılıqdan, vətəndaşlarla dövlət arasındakı birliyin vəziyyətindən asılıdır.

Təcrübə göstərir ki, o ölkələrdə ki, vahid vətəndaşlıq prinsipi üzrə milli-etnik, dini və sosial ayrı-seçkiliyə yol verilmir, ölkə vətəndaşlarının sosial, dini, milli ehtiyacları maksimum dərəcədə təmin edilir, milli-mənəvi dəyərləri qorunur - orada ictimai-siyasi həyat sabit, vətəndaş birliyi möhkəm olur, daxili həyatda milli-etnik, dini qruplar arasında sülh və tolerantlıq hökm sürür. Əksər inkişaf etmiş dünya ölkələrində bu sahədə həyata keçirilən mütərəqqi milli, sosial siyasət və praktiki fəaliyyət həmin ölkələrin milli inkişafının və dövlət strategiyasının vacib daxili elementi hesab olunur. Çünki ölkədaxili milli və sosial birliyin yaradılması, vətəndaş sülhünə nail olunması, əsassız siyasi, etnik, sosial qarşıdurmalar nəticəsində yaranan gərgin daxili sosial-siyasi vəziyyətin aradan qaldırılması ölkənin həm qüdrətini, həm də xarici geosiyasi müdaxilələlərə qarşı müqavimət gücünü artırır.

1990-cı illərin əvvəllərində Azərbaycan cəmiyyətində yaranan ciddi milli, dini və vətəndaş qarşıdurması göstərdi ki, vətəndaş birliyinin qorunması və davamlı təmin olunması ölkənin strateji inkişaf və təhlükəsizlik siyasətinin ən əsas tələblərindən biridir. O dövrdə Azərbaycanda yaşayan müxtəlix xalqlar və etnik qruplar, sosial-dini təbəqələr, dövlət idarəçilik sistemində işləyən məmurlar, milli elita və sadə vətəndaşlar, ictimai-siyasi dairələr, hakimiyyət uğrunda mübarizə aparan qüvvələr arasında etnik, siyasi və digər xarakterli qarşıdurma halları yaranmışdı. Bu da bilavasitə ölkənin milli inkişafını sarsıtmağa xidmət edirdi. Ən təhlükəlisi isə ondan ibarət idi ki, hakimiyyətə iddialı olan bəzi dairələr bilərəkdən, yaxud anlamadan milli inkişaf maraqları fonunda deyil, öz şəxsi siyasi iddiaları çərçivə-

sində hərəkət edərək, hakimiyyətə gəlmək yolunda ictimai-siyasi və milli-etnik qarşıdurmalardan bəhrələnirdilər. Bu da müvafiq olaraq, Azərbaycanın milli maraqlarını ayrı-ayrı siyasi düşərgələr arasında parçalayıb, xüsusi təhlükəli vəziyyət yaradırdı.

Həmin dövrdə siyasi sükan arxasına keçən Heydər Əliyevin ilk müraciətlərindən biri: "Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır. Respublikanın ərazisində yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalı... bütün demokratik prinsiplər, insan hüquqlarının müdafiəsi, siyasi plüralizm, söz azadlığı, vicdan azadlığı, dini etiqad azadlığı, millidini mənsubiyyətindən asılı olmayaraq vətəndaşların hüquqi bərabərliyi təmin edilməlidir"- çağırışı oldu.[52]

Heydər Əliyev milli və vətəndaş birliyi ideyasının reallaşdırılması və qorunmasını, mili adət-ənənələrin, tarixi və mənəvi dəyərlərin yaşadılmasını, ümumbəşəri dəyərlərlə zənginləşdirilməsini respublikada vahid milli kurs kimi həm dövlət orqanlarından, həm də siyasi, ictimai, elmi və geniş ziyalı institutlarından tələb edirdi. Odur ki, həm vətəndaş birliyi ideyası, həm də ölkənin insan ehtiyatlarından düzgün istifadə olunması, hər bir vətəndaşın özünü dövlətinə və dövlətçiliyinə bağlı hesab etməsi, dövlətin isə hər bir vətəndaşa xidmət göstərməsi amalı müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyasına salındı.

Mütəxəssislər hesab edir ki, o illərdə Heydər Əliyev Azərbaycan vətəndaşlarının etnik milli duyğularını nəzərə almaqla,

[52]Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı: Azərnəşr, 1997-2015-ci illər.

həm də məqsədyönlü şəkildə ictimai-siyasi özünüdərk hisslərinin, vətəndaşlıq və vətənpərvərlik duyğusunu formalaşdırılması kimi ciddi bir dövləti funksiyanı yerinə yetirərək, bütün ölkə vətəndaşlarını azərbaycançılıq platformasında birləşdirmişdir. Onun həmin dövrdə səsləndirdiyi "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!.., yaxud,- "Vətən birdir və hamı bu Vətən üçün çalışmalıdır!" çağırışı bu sahədəki fəaliyyətin əsas göstəricisi hesab oluna bilər.[53]

Milli iradəli, sağlam əqidəli vətəndaşların tərbiyə edilməsi və vahid milli ideya ətrafında birləşdirilməsi

Siyasət elmində dövlətin gücünü və geosiyasi qüdrətini həm də onun vətəndaşlarının milli və dövlətçilik iradəsi, lazım gələndə öz dövləti və dövlətçiliyi ətrafında səfərbərolunma bacarığı ilə qiymətləndirirlər. Buna misal olaraq tarixdə XVll əsrin əvvəllərində, rus dövlətçiliyinin xarici basqınlar nəticəsində ciddi təhlükə qarşısında qaldığı zaman xalqın içərisindən çıxmış Minin və Pojarski adlı iki sadə vətəndaşın çağırışına səs verən on minlərlə vətənsevərin öz dövlətçiliyini qoruması və yaşatmaq əzmi nümayiş etdirməsini, yaxud XX əsrin əvvəlində Osmanlı imperiyasının dağılmasının qaçılmaz olduğu dövrdə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə səfərbər olunan və ayağa qalxan türk xalqının ölüm-dirim müharibəsində Türkiyəni biabırçı süqutdan xilas etməsini və s. nümunə göstərmək olar. Tarixdə xalqların milli iradəsi və əzminin geosiyasi güc resursu kimi özünü göstərməsi və neçə-neçə dövlətləri iflasdan xilas etməsi halları yetərincə baş vermişdir.

[53]Bax: Xəlilov S.S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi // Heydər Əliyev və Azərbaycan. Bakı, 2008, s. 583

Azərbaycanda milli iradə və vətəndaş əzmkarlığından geosiyasi güc və milli müqavimət vasitəsi kimi ilk dəfə Heydər Əliyev istifadə etmişdir. O, öz xalqını səfərbər edərək, onun milli iradəsinə söykənərək ölkəni çoxsaylı ciddi xarici və daxili təhlükələrdən, sarsıntılardan və məhvolmadan xilas etmişdir.

Heydər Əliyev qeyd edirdi ki, hər hansı dövlətin gücü heç də onun böyüklüyü, yaxud kiçikliyi ilə ölçülmür. Əgər ölkənin vətəndaşı gördüyü işin ona, ailəsinə və xalqına gətirəcəyi xeyri əvvəlcədən anlayır və ədalət prinsipi ilə zəhmətinin bəhrəsini alırsa, həmin ölkə vətəndaşları daha ideyalı, əzmli və iradəli, belə ölkələr isə daha güclü, qüdrətli və əzəmətli olurlar.[54]

Millətini və xalqını sevən, dövlətçiliyi yolunda hər bir şücaətə və fədakarlığa hazır olan, milli mənəvi dəyərləri qoruyan və yaşadan, ana dilini bilən və sevən, təhsilli, ədalətli, vətəni və xalqı üçün gərəkli, təşəbbüskar, qlobal və azad düşüncəli, iradəli, fəal mövqeli, ölkədaxili və beynəlxalq proseslərdən yetərincə baş çıxara bilən Azərbaycan vətəndaşı nümunəsi Heydər Əliyevin dövlət təlimi və milli ideyasında mühüm yerlərdən birini tuturdu.

Heydər Əliyev milli vətənpərvərlik hissinin yaradılması və inkişaf etdirilməsini, gənclərin vətənpərvərlik tərbiyəsini təkcə dövlət orqanlarının deyil, həm də ümumxalq işi kimi dəyərləndirirdi. O, dəfələrlə vurğulayırdı ki, hamımızın ümumi vəzifəmiz xalqımızda, yetişən gənc nəsil arasında vətənpərvərlik, torpağa, millətə sədaqət, Vətəni sevmək və yolunda şəhidliyə hazır olmaq hisslərini tərbiyə etmək, formalaşdırmaq və inkişaf etməkdən ibarətdir. [55]

[54]Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı: Azərnəşr, 1997-2015-ci illər.
[55]Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı: Azərnəşr, 1997-2015-ci illər.

Heydər Əliyev milli-vətəndaş birliyini, hərtərəfli inkişaf etmiş, iradəli və əzmkar vətəndaş idealını çox bacarıqla və ustalıqla ümumazərbaycançılıq ideyası ilə bağlayaraq, vahid amala doğru yönəltməyi bacarırdı. Tarixi təcrübə sübut edir ki, güclü birləşdirici ideyası olan insan birlikləri (xalqlar, millətlər, dini icmalar və s.) bu cür ideyaları olmayanlara həmişə qalib gəlmişlər. Müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafında, əbədi yaşadılmasında, geosiyasi dayanıqlığının və xarici aləmə qarşı müqavimət gücünün artırılmasında həmişə, xüsusən də tariximizin yeni dövründə birləşdirici, vahid milli ideyanın tapılması və onun əsasında milli iradənin formalaşdırılması, ölkə vətəndaşlarını səfərbər edən, beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında birləşdirən milli ideologiyanın yaradılması ciddi siyasi vəzifə kimi qarşıda dayanmışdır. XlX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycanın maarifçi ziyalıları, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin qurucuları və nəhayət, 1990-cı illərdə Heydər Əliyev azərbaycançılıq ideyasına müraciət edərək onu milli və birləşdirici təlimə çevirməyə çalışmışlar. Məhz son mərhələdə, Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinə rəhbərliyi dövründə - **azərbaycançılıq ideyası** məzmunca tamamlanaraq və zənginləşdirilərək, yeni konfiqurasiyada rəsmi dövlət siyasəti səviyyəsində ölkə vətəndaşlarının və bütün dünya azərbaycanlılarının birləşdirici və səfərbəredici milli ideyası statusuna qaldırıldı.

Heydər Əliyev azərbaycançılıq ideologiyasını müəyyən edərkən həm də beynəlxalq aləmdə cərəyan edən hadisələri, müasir dünya siyasətinin, qloballaşan və transmilliləşən dünyanın inkişaf meyillərini nəzərə alırdı. Əlbəttə, qloballaşan dünyada ölkələrin milli sədlərini, milli-mənəvi dəyərlərini, vətəndaşların milli maraqlarını qorumaq o qədər də asan olmur.

Transmilli şirkətlər və onların arxasında duran fövqəldövlətlər kiçik ölkələrin milli inkişaf yolunu və maraqlarını, milli-mənəvi dəyərlərini qorumasını və digər addımlarını çox qısqanclıqla qarşılayırlar. Heydər Əliyev bu reallıqları nəzərə alaraq bir tərəfdən, azərbaycançılıq ideologiyasını ümumbəşəri dəyərlər fonunda formalaşdırır, digər tərəfdən isə dövlət quruculuğu proseslərində xarici təsirləri milli ideologiya süzgəcindən keçirirdi.

Balanslı xarici siyasət və davamlı inkişaf

Mütəxəssislər hesab edir ki, Heydər Əliyevin milli inkişaf siyasətində əsaslandığı və keçid dövrü üçün dövlət quruculuğunda nəzərə alınmasını tələb etdiyi əsas vəzifələrdən biri balanslı xarici siyasət və tarazlı daxili inkişaf prinsipi idi. Məhz onun hakimiyyəti illərində Azərbaycanın xarici aləm üçün kəsb etdiyi maraqlar dairəsi, geosiyasi, geoiqtisadi və hərbi-geostrateji əhəmiyyəti elmi-siyasi cəhətdən öyrənildi və dəyərləndirildi, beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda üst-üstə düşən, kəsişən maraqlar dairəsi müəyyənləşdirildi, dövlətlərarası münasibətlərin və təhlükəsizlik mühitinin vəziyyəti, tələbləri, prinsipləri, beynəlxalq hüququn təsir gücü və dairəsi, dünyanın böyük dövlətlərinin, regionun aparıcı ölkələrinin və beynəlxalq təşkilatların Cənubi Qafqaz və Azərbaycanla bağlı yürütdüyü siyasət, yarana biləcək təhlükələr və s. məsələlər praqmatik formada təhlil edildi və balanslı xarici siyasət kursu formalaşdırıldı.[56]

[56]Daha ətraflı materiallara bax: Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti: əsas məqsədi, vəzifələri və icra mexanizmləri //Heydər Əliyev və inkişafın Azərbaycan modeli. Bakı, 2010, s.32-48

1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında Heydər Əliyev qeyd edirdi ki, "respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yürüdülməsidir... Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Bunun üçün dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmalı və inkişaf etdirməliyik, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməliyik".[57]

Azərbaycan dövləti Heydər Əliyevin rəhbərliyi altında 1993-cü ildən başlayaraq, müstəqil dövlət kimi dünya sistemindəki məxsusi yerini, beynəlxalq münasibətlər sahəsində təmsilçiliyinin strateji məqsədlərini və taktiki vəzifələrini, xarici aləmlə əlaqələrinin, xarici təhlükəsizlik siyasətinin konturlarını, prioritetlərini müəyyən etdi və özünün tarazlaşdırılmış xarici siyasət kursunun taktikasını müəyyənləşdirdi.

Heydər Əliyev, Azərbaycanın daxili ictimai-siyasi, iqtisadi, mənəvi, milli-etnik və dini həyatının tarazlı inkişaf modelini yaratmaqla yanaşı, həm də həlli prinsiplərini ortaya qoydu. Mütəxəssislərin fikrinə görə, Heydər Əliyev ölkə daxilində ümumi ahəngi pozmadan, etik-milli və milli-siyasi aspektlər arasında optimal nisbəti nəzərə almaqla, dövlətin təkamül yolu ilə inkişafına ciddi zəmin yaratdı və dövlətçilik probleminin ən əlverişli həlli yolunu ortaya qoydu. [58]

[57]Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, s. 16

[58] Bax: Xəlilov S.S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi // Heydər Əliyev və Azərbaycan. Bakı, 2008, s. 571-582

Heydər Əliyev həm Azərbaycanın dövlət idarəçiliyinin qurulmasında, ölkədaxili ictimai-siyasi və milli-vətəndaş birliyinin yaradılmasında, sabitlik və qanunçuluğun bərqərar olmasında, iqtisadi, sosial, mədəni və s. islahatların aparılmasında tarazlı inkişafın, həm də respublikanı əhatə edən region və dünya dövlətləri ilə qarşılıqlı-faydalı münasibətlərin yaranmasında balanslı siyasətin pozulmasına heç zaman yol vermədən, Azərbaycanın fərqli daxili və xarici maraqlar müstəvisində öz müvazinətini lazımi səviyyədə qoruyub saxlanmasını təmin etmişdir.

II FƏSİL
AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ: MİLLİ MARAQLARININ ƏSAS PARAMETRLƏRİ, GEOSİYASİ KODU VƏ TƏHLÜKƏSİZLİK PERSPEKTİVLƏRİ

§ 2.1. Milli təhlükəsizlik siyasəti: formalaşması, əsas ölçüləri və mexanizmləri

XX əsrin sonlarında dövlət müstəqilliyinin bərpa edilməsi Azərbaycana dövlət quruluşunda əsaslı dəyişikliklərin həyata keçirilməsi, yeni sosial-iqtisadi və ictimai-siyasi münasibətlərin formalaşması və s. daxili siyasət məsələləri ilə yanaşı, həm də davamlı olaraq öz təhlükəsizliyinin qayğısına qalmaq kimi daimi bir məsuliyyət gətirdi.

Müstəqil dövlətçilik maraqlarının təmin edilməsi tələbləri, yeni geosiyasi aktorlarla birbaşa ünsiyyətin yaradılması, tamamilə fərqli təhlükəsizlik mühitinə daxil olması, iqtisadi, ictimai-siyasi münasibətlərin demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı yoluna çıxması və s. yeniliklər digər postsovet respublikalarında olduğu kimi, Azərbaycanda da şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinə dair yeni-yeni yanaşmaların, proqram və konsepsiyaların yaradılması zərurətini ortaya çıxarmışdır. Bütün bunlar Azərbaycan dövlətindən ölkənin milli vəzifə və tələblərinə uyğun, yeni prinsiplərə

söykənən **Milli Təhlükəsizlik Konsepsiyasının** (MTK) formalaşdırılmasını tələb etmişdir.

Azərbaycan Respublikasının müstəqilliyə qovuşduğu 1991-ci ildən milli təhlükəsizliyinin əsas məqsədləri, milli maraq çərçivəsinin müəyyən edilməsi və təmin olunması, milli təhlükəsizlik siyasətinin vəzifələri, mexanizmləri, metod və vasitələrinin tapılması və s. haqqında müxtəlif dövlət qurumları səviyyəsində, akademik dairələrdə və ictimai-siyasi institutlarda rəsmi və qeyri-rəsmi müzakirələr başlandı. Əlbəttə, milli inkişaf strategiyasının, milli maraq dairəsinin, ölkənin təhlükəsizliyinin əsaslarının müəyyən olunması və lazımi səviyyədə təşkili, onun təhlükəsizlik çərçivəsinin, geosiyasi kodunun yaradılması və milli təhlükəsizlik siyasətinin həyata keçirilməsi kimi mühüm dövlət vəzifələrinin həlli yenicə müstəqillik qazanmış və milli təhlükəsizlik sistemi hələ kifayət qədər möhkəmlənməmiş bir dövlət üçün düşünüldüyü kimi də asan iş deyildi. **Ölkənin milli inkişaf və təhlükəsizlik siyasətinin konseptual əsasları, mahiyyəti, əsas istiqamətləri, həyata keçirilmə yolları və mexanizmləri ilə bağlı dövlət qurumlarında və cəmiyyətdə əsaslandırılmış yanaşmalar və təsəvvürlər olduqca səthi idi. Sistemsiz və səriştəsiz aparılan təhlükəsizlik siyasətinin uğur qazanması çox çətin idi.** Xüsusən də nəzərə alınsa ki, 1991-1992-ci illərdə bu respublikada mürəkkəb və çətin vəziyyət yaranmışdı, ərazilərinə Ermənistanın təcavüzü ilə yanaşı, Azərbaycanın daxilində ictimai-siyasi sabitlik pozulmuşdu, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və ölkə daxilində hakimiyyət uğrunda mübarizəyə başlamışdı. Təbii ki, müxtəlif silahlı dəstələrin iştirakı ilə aparılan hakimiyyət mübarizəsi kimi hallar Azərbaycanın milli inkişafı və təhlükəsizliyinin təmin olunmasına da öz mənfi təsirini göstərirdi.

Yalnız 1993-cü ildən ölkə səviyyəsində xüsusi istiqamət kimi, vahid prinsiplərə söykənən milli inkişaf və təhlükəsizlik siyasəti həyata keçirilməyə başladı. Azərbaycanın milli inkişaf və təhlükəsizliyinin nəzəri və praktiki məsələləri geniş ictimai-siyasi və elmi müzakirəyə çıxarıldı, onun konseptual əsasları müəyyən edildi. Həmin dövrdən etibarən bu siyasət müstəqil dövlət quruculuğu proseslərinin bütün sahələrini əhatə edərək, milli inkişafın və dövlət idarəçiliyinin əsas vasitələrindən birinə çevrildi.

Azərbaycanın milli təhlükəsizlik fəaliyyəti ilk 5-6 ildə əsasən təcili və təxirəsalınmaz işlərdən - ölkədə dərin ictimai-siyasi və sosial-iqtisadi böhranın doğurduğu daxili və xarici təhdidlərin qarşısının alınmasından, vətəndaş qarşıdurmasının dayandırılmasından və ölkə miqyasında dövlət idarəçiliyinin yaradılmasından ibarət idisə, sonrakı illərdə, xüsusən, 1998-ci ildən başlayaraq *dövlətin xarici və daxili təhlükəsizliyinin milli sisteminin yaradılması* sahəsində ardıcıl konseptual siyasi xəttə çevrilmişdir.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin nəzəri əsasları müstəqil dövlətimizin banisi Heydər Əliyevin 1993-2003-cü illərdəki ayrı-ayrı çıxışlarında öz əksini tapmışdır. Lakin bütövlükdə ölkənin Milli Təhlükəsizlik Konsepsiyasının ərsəyə gəlməsi və təhlükəsizlik siyasətinin tam formalaşdırması üçün Azərbaycan hökumətinə xeyli vaxt lazım olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev ölkənin milli maraqları ilə bağlı dövlət siyasətini formalaşdırarkən bir çox iqtisadi, siyasi, ideoloji, coğrafi, mədəni və digər amilləri, daxili siyasi maraqları, müxtəlif sosial-siyasi qüvvələrin manevrlərini, beynəlxalq aləmin mümkün reaksiyalarını, ulu öndərin təhlükəsizliklə bağlı zəngin nəzəri irsini nəzərə alaraq, ölkə vətəndaşla-

rının milli iradəsini və dövlətin ali təhlükəsizlik maraqlarını rəhbər tutmuşdur.

2004-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi **"Milli təhlükəsizlik haqqında"** Qanun qəbul etmişdir. Bu Qanun özündə Ümummilli lider Heydər Əliyevin milli təhlükəsizlik təliminin əsas prinsiplərini, məqsəd və vəzifələrini əks etdirməklə yanaşı, həm də ölkənin Milli Təhlükəsizlik Konsepsiyasının yaradılmasını şərtləndirmişdir. Həmin il Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Milli Təhlükəsizlik Konsepsiyasının (MTK) hazırlanması üzrə işçi qrupu yaradılmış, layihə üzərində iş başlanmış, qısa müddətdə yekunlaşdırılaraq ölkə Prezidentinin 2007-ci il 23 may tarixli Sərəncamı ilə təsdiq olunmuş və fəaliyyət üçün əsas götürülmüşdür.

Milli Təhlükəsizlik Konsepsiyası ölkənin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində uzunmüddətli strateji vəzifə və prioritetləri özündə əks etdirən konseptual sənəd hesab olunur. Konsepsiyada Azərbaycanın gələcəkdə hərbi və sərhəd doktrinasının, xarici siyasət və təhlükəsizlik strategiyasının, iqtisadi, ekoloji, informasiya və digər həyati əhəmiyyət kəsb edən sahələrin təhlükəsizliyi siyasətinin formalaşdırılmasının vahid prinsipləri müəyyən olunmuş, hər bir sahə üzrə ayrıca təhlükəsizlik konsepsiyasının hazırlanması tövsiyə edilmişdir. [59]

Giriş, dörd bölmə və yekun müddəalardan ibarət olan MTK-da XXI əsrdə ölkənin milli maraqlarının təmin olunması ilə bağlı hakimiyyət strukturlarının bəzi fəaliyyət istiqamətləri müəyyən edilmiş və milli təhlükəsizlik sahəsində dövlət siyasətinin normativ-hüquqi bazası öz əksini tapmışdır.

[59]Daha ətraflı bax: Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti: əsas məqsədləri, vəzifələri və icra mexanizmləri //Heydər Əliyev və inkişafın Azərbaycan modeli. Bakı, 2010, s. 32 -48

Təhlükəsizlik siyasətinin əsas məqsəd və vəzifələri

Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsasını *dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşu və milli maraqlarının, vətəndaşların hüquq və mənafelərinin təmin edilməsi, onların daxili-xarici təhlükələrdən və təhdidlərdən qorunması* təşkil edir.

Milli təhlükəsizliyin **əsas obyektlərinə** *dövlət* – onun müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu, milli ərazilərionun bütövlüyü və təhlükəsizliyi, *vətəndaşlar* – onların hüquq və azadlıqları, *cəmiyyət* – onun maddi və mənəvi dəyərləri daxildir.

Milli təhlükəsizliyin **əsas subyektlərinə** isə insanların, cəmiyyətin və dövlətin təhlükəsizlik maraqlarının və tələbatlarının təmin edilməsi məqsədi ilə yaradılmış *dövlət hakimiyyəti orqanları, hərbi və təhlükəsizlik institutları* aid edilir.

Milli təhlükəsizlik siyasətinin birinci ali məqsədini *Azərbaycanın dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, vətəndaşların hüquqlarının, cəmiyyətin milli və vətəndaş birliyinin, ölkənin sabit inkişafının tələb etdiyi ən ümdə dövləti vəzifələr və onların təminatı yolları, mövcud milli ehtiyatların bu işə səfərbər edilməsi proqramı və bəhs olunan sahədə məsuliyyətli dövlət idarəçiliyinin yaradılması* təşkil edir.

Hər bir dövlət kimi, Azərbaycan da *xaricdən müdaxilə olmadan öz dövlət idarəçiliyini yaratmaq, ölkənin strateji inkişaf yolunu seçmək, konstitusiya quruluşunun, daxili həyatının, cəmiyyətin və hər bir vətəndaşın təhlükəsizliyini, əhalinin firəvan həyatını təmin etmək, milli - vətəndaş birliyini və ictimai-siyasi sabitliyi qorumaq və s. kimi strateji vəzifələr* həyata ke-

çirir. Bu vəzifələrin reallaşdırılması onun milli təhlükəsizlik siyasətinin **ikinci əsas məqsədini** təşkil edir.

Milli təhlükəsizlik siyasəti beynəlxalq hüquq normalarına, ölkə konstitusiyasına, daxili qanunlara və prinsiplərə, insanların, cəmiyyətin və dövlətin maraqları arasında tarazlığın gözlənməsinə, həmin tərəflərin qarşılıqlı məsuliyyətinə əsaslanmalıdır. Mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycan Respublikası müstəqilliyə qovuşduğu andan *hüquqi və dünyəvi dövlət, demokratik cəmiyyət və siyasi plüralizm yolunu öz inkişafının və konstitusiya quruluşunun əsası elan edərək, bölgə ölkələri ilə sülh və mehriban qonşuluq şəraitində, dünyanın qabaqcıl siyasi, iqtisadi və təhlükəsizlik sistemləri ilə bərabərhüquqlu əməkdaşlıq etmək və bu strukturlara inteqrasiya olunmaq xətti* yürüdür. Bu vəzifələr Azərbaycandan həm öz daxili təhlükəsizliyini təmin edən, həm də regionun və dünyanın güc mərkəzləri, geosiyasi aktorları, transmilli strukturları ilə münasibətlərə dair xüsusi düşünülmüş və ardıcıl həyata keçirilən Milli Təhlükəsizlik Konsepsiyasının reallaşdırılmasını tələb edirdi. Bu konsepsiyanın yaradılması və ondan irəli gələn məsələlərin həlli ölkənin **milli təhlükəsizlik siyasətinin üçüncü əsas məqsədini və vəzifəsini** təşkil edir.

Azərbaycanın xarici siyasətinin və geosiyasi hədəflərinin müəyyənləşməsində milli təhlükəsizlik məsələləri aparıcı yer tutur və onun əsas prioritetlərini təşkil edir. Bundan irəli gələrək, *ölkənin milli təhlükəsizliyinin təmin olunması, suverenliyinin və ərazi bütövlüyünün qorunub saxlanması, dünya birliyində nüfuzunun möhkəmlənməsi* onun həm xarici siyasətinin, həm də milli təhlükəsizliyinin **prioritet istiqamətlərindən və məqsədlərindən** hesab olunur.

Milli təhlükəsizlik siyasəti təkcə ölkənin məxsusi maraqlarının təmin edilməsinə deyil, həm də yerləşdiyi regionda və

dünyada təhlükəsizlik mühitinin yaxşılaşmasına xidmət göstərməlidir. Bu anlamda Azərbaycanın **təhlükəsizlik siyasətinin məqsəd və istiqamətləri sırasına** sabit, ədalətli və demokratik dünya mühiti naminə beynəlxalq proseslərə müsbət təsir göstərmək, dövlətlər arasında bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinə töhfə vermək, milli mənafelərin təmin olunması məqsədilə dövlətlərlə və dövlətlərarası birliklərlə üst-üstə düşən ortaq maraqlar tapmaq və bunun əsasında ikitərəfli, çoxtərəfli tərəfdaşlıq münasibətləri formalaşdırmaq kimi məsələlər də daxildir.

Müasir beynəlxalq aləmdə Azərbaycanı dinamik inkişaf edən, insan hüquq və azadlıqlarını qoruyan, sosial yönlü siyasət yürüdən, bazar iqtisadiyyatı və liberal biznes mühiti qaydalarına hörmətlə yanaşan, sabit iqtisadi, siyasi, sosial, milli, dini və vətəndaş cəmiyyətinə malik olan, tam müstəqil xarici siyasət yürüdən demokratik bir dövlət kimi tanıtmaq yolu ilə onun vətəndaşlarının və xaricdə yaşayan azərbaycanlıların hüquqlarını müdafiə etmək və s. milli maraqları reallaşdırmaq mümkündür. Deməli, **ölkənin müsbət beynəlxalq imicinin formalaşdırılması vəzifəsi də milli təhlükəsizlik və xarici siyasətin əsas məqsədlərindən** hesab olunur.

Təbii ki, müasir dünyada baş verən fundamental və dinamik dəyişikliklər Azərbaycan Respublikasından və onun vətəndaşlarının maraqlarından yan keçmir. Buna görə də Azərbaycanın **milli təhlükəsizlik və xarici siyasəti həm də beynəlxalq aləmdə baş verən hadisələrin axarını, transmilli qloballaşma prosesinin xüsusiyyətlərini nəzərə almalı və bu sahədə mövcud olan bütün vasitələrdən istifadə etməlidir.** Məsələn, Azərbaycan hesab edir ki, XXI əsrdə beynəlxalq münasibətlərin tənzimlənməsinin və münaqişələrin həllinin əlaqələndirmə mərkəzi BMT olmalıdır. Odur ki, ölkəmiz BMT-nin bey-

nəlxalq aləmdə baş verən siyasi və iqtisadi dəyişikliklərə məqsədyönlü şəkildə uyğunlaşdırılması məqsədi ilə, bu beynəlxalq təşkilatda səmərəli islahatların aparılmasını daim dəstəkləməlidir. Yaxud da, Azərbaycan bir çox nüfuzlu beynəlxalq və regional təşkilatların üzvü kimi dünyanın aparıcı dövlətləri ilə münasibətləri inkişaf etdirir, dünya iqtisadiyyatına və siyasətinə sürətlə inteqrasiya olunur, Cənubi Qafqaz regionu ilə bağlı beynəlxalq münasibətlərin formalaşmasına həlledici təsir göstərir. Eyni zamanda, ölkəmiz həm milli, həm də beynəlxalq təhlükəsizliyin təmin olunması üçün hüquq bərabərliyi, qarşılıqlı hörmət və faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan sabit dünya nizamının mövcud olmasına çalışır. Çünki bu halda dünya birliyinin hər bir üzvünün siyasi, hərbi, iqtisadi, informasiya, humanitar və digər sahələrdə etibarlı və bərabər təhlükəsizliyini təmin etmək mümkündür.

§ 2.2. Təhlükəsizlik mühitinin formalaşması və beynəlxalq imicin qazanılması

Hər bir ölkənin milli təhlükəsizlik siyasətinin səmərəliliyi və müvəffəqiyyəti ölkənin təhlükəsizlik mühiti və beynəlxalq imicindən asılıdır. Dövlətin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqlarının təminatı, davamlı inkişafı, vətəndaşlarının sosial-siyasi hüquqlarının və rifah halının təmin olunması və milli-mənəvi dəyərlərinin qorunmasına təsir edən əsas amillər məhz təhlükəsizlik mühitini və beynəlxalq imici müəyyən edir.

Azərbaycan müstəqil bir dövlət olaraq, beynəlxalq hüququn subyekti kimi müasir dünyanın bir hissəsidir, BMT, ATƏT, Avropa Şurası, İƏT, MDB, GUAM, EKO, TDB və digər beynəlxalq və regional təşkilatların üzvüdür. O, siyasi,

sosial-mədəni baxımdan nüfuzlu beynəlxalq strukturlara hərtərəfli inteqrasiya xətti yürüdür və çoxsaylı beynəlxalq konvensiyalara qoşulmuşdur. Bütün bunlar həm ölkənin təhlükəsizlik mühitinə, həm də beynəlxalq imicinin müəyyənləşməsinə bilavasitə təsir göstərir.

Azərbaycan coğrafi və geosiyasi əhəmiyyəti olan bir regionda yerləşir. Onun malik olduğu geosiyasi, geoiqtisadi və geostrateji mövqe də, yürütdüyü daxili və xarici siyasət kimi dünyanın və regionun aparıcı dövlətlərinin maraqlarına toxunur və onların diqqətindən kənarda qalmır. Bu reallıq həm bölgənin, həm də ölkənin daxili təhlükəsizlik mühitinə birbaşa təsir göstərir. ABŞ və Qərbi Avropanın böyük ölkələri, regionun Rusiya, Çin, Türkiyə, İran kimi dövlətləri və digər geosiyasi aktorlar Cənubi Qafqazda, Orta Asiyada və bütövlükdə Avrasiyada öz maraqları çərçivəsində fəal geosiyasət reallaşdırırlar. Bu da Azərbaycanın həm regional, həm də beynəlxalq maraqlarından yan keçmir.

Azərbaycanın hərbi-geostrateji durumu, bu sahədə yürütdüyü siyasət və atdığı addımlar həm Qərbin, xüsusilə ABŞ, AB və NATO-nun, həm də Rusiya, İran və Çin kimi region ölkələrinin diqqət mərkəzində olur. Regionun Rusiya, İran və Türkiyə kimi güclü ölkələri ilə həmsərhəd olması, dünyada və bölgədə tarazlaşdırılmış xarici siyasət aparması, heç bir hərbi-strateji bloka üzv olmaması, əksər ölkələrlə tərəfsiz əməkdaşlıq etməsi və s. geosiyasi addımları da onun təhlükəsizlik mühitinə və beynəlxalq imicinə təsirsiz ötüşmür. Bu mənada Azərbaycanın müstəqillik illərində davamlı olaraq yürütdüyü dinc tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq siyasəti ona "regionda geosiyasi gərginliyi azaldan və bərabərhüquqlu əməkdaşlıq mühiti yaradan konstruktiv dövlət" imici qazandırmışdır. Bu amil dünya birliyində ölkəmizi etibarlı tərəfdaş ki-

mi tanıtmış, Xəzər hövzəsi və Cənubi Qafqazda onun reallaşdırdığı transmilli layihələrə diqqəti artırmış və bölgədəki geosiyasi roluna ciddi maraq yaratmışdır.

Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına malik olması və öz milli sərvətlərindən insanların rifahı, dünyada sülhün və iqtisadi inkişafın təmin olunması naminə istifadə etməsi, bəşəriyyətin XXl əsrdə artan enerji və nəqliyyat-kommunikasiya ehtiyaclarını təmin etmək məqsədi güdən nəhəng transmilli layihələrin əsas təşəbbüskarı kimi çıxış etməsi onun müsbət beynəlxalq imicinin formalaşmasına xüsusi təsir göstərmiş və dünyanın əsas güc mərkəzlərinin diqqət mərkəzinə çıxarmışdır. "Əsrin müqaviləsi" çərçivəsində 1994-cü ildən etibarən çoxsaylı xarici şirkətlərlə birlikdə Xəzər dənizində özünün zəngin neft və qaz yataqlarının istismarına başlaması Azərbaycana ABŞ, Böyük Britaniya, Fransa, Norveç, Türkiyə, İtaliya, Yaponiya, Rusiya, Səudiyyə Ərəbistanı kimi dövlətlərlə və çoxsaylı nəhəng transmilli şirkətlərlə ortaq tərəfdaşlıq münasibətləri qazandırmışdır.

Bütün bunlarla yanaşı, Azərbaycanın bir çox əhəmiyyətli enerji, nəqliyyat-kommunikasiya və tranzit yükdaşıma layihələrində (Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Avropa-Qafqaz-Asiya nəqliyyat-kommunikasiya dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu və s.) iştirak etməsi onun regiondakı geoiqtisadi əhəmiyyətini artırmaqla yanaşı, həm də beynəlxalq enerji-nəqliyyat təhlükəsizliyinin təmin olunmasında mühüm rolu olan ölkələrdən birinə çevrilməsinə şərait yaratmışdır. Məsələn, mərkəzində Azərbaycanın dayandığı TRACECA layihəsinin Hindistandan və Çindən başlayaraq Portuqaliya və İspaniyaya qədər böyük bir coğrafi ərazidə yerləşən Avropa və Asiya dövlətlərini, Cənub-Şərqi Asiyadan Avropa İttifaqına qədər nüfuzlu iqtisadi güc mərkəzlərini əhatə

etməsi və ən əlverişli marşrutla birləşdirməsi regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasına böyük töhfə oldu. Lakin Azərbaycanın yerləşdiyi əhəmiyyətli coğrafi mühit ona mühüm geosiyasi üstünlüklər və arzu olunan tərəfdaş imici qazandırmaqla yanaşı, həm də ciddi rəqiblər yaratmış, onu bir sıra özünəməxsus təhlükəsizlik problemləri və təhdidləri ilə üzləşdirmişdir.

§ 2.3. Milli maraqlar və onun çərçivəsi: milli təhlükəsizliyə təhdidlər

Azərbaycan Respublikasının əsas inkişaf prioritetləri ilk növbədə onun milli maraqlarının formalaşması və təmin olunması ilə bağlıdır. Müasir dövrdə ölkələrin milli inkişaf tələbləri onların daxili və xarici siyasətini, sosial-iqtisadi və siyasi-hüquqi inkişafının vəzifələrini və səviyyəsini, coğrafi və geosiyasi mövqeyini, milli-tarixi ənənələrinin qorunması və inkişaf etdirilməsini, dövlətin suverenliyinin və milli təhlükəsizliyinin təmin olunmasını və s. çoxsaylı vəzifələrin həyata keçirilməsini tələb edir. Bütün bunlar öz əksini geosiyasət elminin **"milli maraq"** kateqoriyasında tapır.

Milli maraqlar öz məzmununa görə ictimai maraqlardan bir qədər fərqlənir. Belə ki, ictimai maraqlar dövlətin daxili siyasətini müəyyənləşdirən qanunlar sistemi ilə bağlıdır və onunla tənzimlənir. Milli maraqlar isə əsasən dövlətin xarici siyasət sahəsinə aiddir və beynəlxalq aləmlə təmasda onun rəsmi fəaliyyətinin əsasını təşkil edir. Lakin bu fərqlərə baxmayaraq, hər bir ölkənin ictimai və milli maraqları bir-birini tamamlayır. Çünki həm beynəlxalq aləmin və ölkələrarası münasibətlərin təsiri ictimai maraqlardan yan keçmir, həm də milli maraqlar ölkədəki sosial-iqtisadi vəziyyətdən, ictimai-siyasi

sabitlikdən və mənəvi-əxlaqi mühitin sağlamlığından bilavasitə asılı olur. Keçid dövrünü yaşayan ölkələrdə isə ictimai və milli maraqlar arasındakı qarşılıqlı təsir və birbaşa bağlılıq özünü daha qabarıq şəkildə büruzə verir. Bütün bu formulları Azərbaycan Respublikasına da şamil etmək olar.

Azərbaycanın daxili siyasətində vətəndaşların əsas maraqlarını hakimiyyət qurumları, ictimai-siyasi təşkilatlar və digər yerli strukturlar ifadə edirsə, milli maraqları beynəlxalq aləmdə əsasən Azərbaycan dövləti və onun müvəkkil etdiyi qurumlar həyata keçirir.

Azərbaycan Respublikasının **milli maraq çərçivəsi** dünya ölkələrinin yuxarıda sadalanan universal təhlükəsizlik ölçülərini nəzərə almaqla yanaşı, həm də məxsusi təhlükəsizlik təhdidlərindən qaynaqlanan bəzi xarakterik xüsusiyyətləri ilə seçilir.

Azərbaycanın milli təhlükəsizliyinin bu gün üçün **ən əsas problemi və hərbi-geostrateji vəzifəsi** *illərdir uzanan və hələ ki sonu görünməyən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq, ölkənin pozulmuş ərazi bütövlüyünü və suveren dövlət hüquqlarını bərpa etmək, regionda sülhü və dinc əməkdaşlıq mühitini təmin etməkdən ibarətdir.* Ölkənin xarici aləmlə bütün təmaslarında, ikitərəfli və çoxtərəfli münasibətlərində bu problemin müzakirəsi və beynəlxalq hüquq normaları çərçivəsində həlli məsələsi daim diqqət mərkəzində saxlanılır. Bu problem 20 ildən artıq bir dövrdə nəinki təkcə Azərbaycana, onun müstəqil dövlət quruculuğu prosesinə, vətəndaşlarının sabit həyat şəraitinə ciddi zərbə vurmuş, eyni zamanda regionda (Qafqaz, Xəzər-Qara dəniz hövzəsində) dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələri pozmuş, ölkələri və xalqları qarşıdurmaya sürükləmiş, onların bir-biri ilə və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstər-

mişdir. Hazırda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həm Cənubi Qafqazda, Avrasiya və Avropada, həm də bütövlükdə qlobal dünyada həllini gözləyən ən çətin və mürəkkəb problemlərdən biri hesab olunur.

Azərbaycanın milli təhlükəsizliyinin həyati əhəmiyyət kəsb edən **ikinci əsas məsələsi** *malik olduğu təbii sərvətləri, karbohidrogen və enerji ehtiyatlarını (xüsusən Xəzər dənizinin Azərbaycana aid olan milli sektorunda istehsal olunan neft və təbii qazı) xarici müdaxilə olmadan, özünün müəyyən etdiyi xarici tərəfdaşlarla birgə işləmək, təhlükəsiz və əlverişli yollarla dünya bazarlarına çıxarmaq və əldə olunan gəliri ölkənin inkişafına və digər ehtiyaclarına yönəltməkdən ibarətdir.*

Azərbaycanın milli maraq çərçivəsinə həmçinin:

- Ermənistanın işğalçılıq siyasətinin doğurduğu nəticələrin aradan qaldırılması, yurdundan didərgin salınmış qaçqın və məcburi köçkünlərin geri qaytarılması və əzəli torpağında məskunlaşdırılması;
- işğalın bir daha təkrarlanmaması üçün zəruri təhlükəsizlik tədbirlərinin görülməsi, o cümlədən milli ordunun lazımi hərbi hazırlıq vəziyyətinə gətirilməsi;
- Azərbaycan xalqının milli birliyinin və varlığının, əsrlər boyu formalaşmış adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin, dilinin, dininin qorunması, yaşadılması və ümumbəşəri dəyərlər hesabına zənginləşdirilməsi;
- ölkədə hüquq normaları və qanunçuluğun, insan hüquq və azadlıqlarının dönmədən təmin olunması, mövcud ictimai-siyasi sabitliyin, vətəndaş cəmiyyəti normalarının, tolerant etnik və dini mühitin qorun-

ması və inkişaf etdirilməsi, separatçılığın, siyasi, etnik və dini ekstremizmin aradan qaldırılması;

- dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təmin edilməsi, onların vətənpərvərlik hisslərinin gücləndirilməsi və azərbaycançılıq ideyası ətrafında birləşdirilməsi, dünyada yaşayan soydaşlarımızın milli və vətəndaş hüquqlarının təmin edilməsi və s. təxirəsalınmaz vəzifələr daxildir.

Məkan əlamətlərinə görə Azərbaycanın milli maraq çərçivəsinə:

- ölkənin öz sərhədləri daxilində təzahür edən;
- regional münasibətlərdə, qonşu ölkələrlə təmasda, beynəlxalq məkanda və ya hər hansı hökumətlərarası təşkilatlar çərçivəsində təmsil olunan maraqlar daxildir.

Milli maraqlar **əsas** və yaxud **ikinci dərəcəli, daimi,** yaxud **əvəzlənən, uzunmüddətli**, yaxud **qısamüddətli** maraqlara ayrılır.

Əsas və daimi milli maraqlar bir çox mühüm geosiyasi parametrlərinə - dövlətin beynəlxalq münasibətlər sistemindəki yeri və roluna, nüfuzu və hərbi gücünə, özünün suverenliyini qoruyub saxlamaq və vətəndaşlarının təhlükəsizliyini təmin etmək qabiliyyətinə və s. görə müəyyənləşir.

Azərbaycanın milli maraq çərçivəsi **onun geosiyasi parametrlərinə, dövlətin iqtisadi, hərbi gücü və resurs imkanlarına uyğun olaraq** formalaşır. Bu amil özündə millətin təkamül mərhələsini, iqtisadi, siyasi, sosial, milli-psixoloji və digər amillərin mürəkkəb kombinasiyası ilə reallaşan tarixi inkişaf prosesini ehtiva edir. Göstərilən amillər eyni zamanda həm də Azərbaycan xalqının milli iradəsini, milli dövlət quruculuğu və

tarixi təcrübəsinin məzmununu və xarakterini əks etdirir. Bu halda milli maraqlar ictimai-tarixi fenomen kimi çıxış edir, xalqın identikliyi ilə sıx qarşılıqlı əlaqə yaradır.

Milli təhlükəsizliyə təhdidlər

"Milli təhlükəsizlik" anlayışı və "təhlükəsizlik təhdidləri" terminindən ilk dəfə 1904-cü ildə Amerika alimlərinə məxsus geosiyasi ədəbiyyatda istifadə olunmuşdur. "Milli təhlükəsizlik" termini sonrakı illərdə dünya geosiyasət elmində bir çox dəyişikliklərə məruz qalmışdır. Əvvəlcə bu anlayışa daxili məzmun daşıyan məsələlər - *əmlakın, şəxsiyyətin və dövlətin mühafizəsi aid edilirdisə, sonradan bu sıraya beynəlxalq və milli təhlükəsizlik məsələləri də əlavə olunmuşdur.* 1986-1987-ci illərdən etibarən dünya siyasətşünaslığında milli təhlükəsizliyə *insanların, cəmiyyətin və dövlətin daxili və xarici təhdidlərdən qorunmasını təmin edən inteqral anlayış kimi* yanaşılmağa başlandı.

Azərbaycanın qanunvericilik və normativ-hüquqi aktlarına müvafiq olaraq*, milli təhlükəsizlik insanların, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli mühüm maraqlarının, həmçinin milli dəyərlərin və həyat tərzinin daxili və xarici təhdidlərdən etibarlı müdafiəsidir*. Milli təhlükəsizlik sistemi ilə milli təhlükəsizliyin təmin olunması sistemi öz məzmununa görə bir-birindən fərqlənir. Birincisi, maraq və təhdidlərin qarşılıqlı təsiri prosesini əks etdirən funksional nəzəri (konseptual) sistemdirsə, ikincisi, milli təhlükəsizliyin təmin olunmasının praktiki məsələlərini həll etməyi nəzərdə tutan orqanlar, vasitələr, müxtəlif təşkilatlar (institusional) sistemidir.

Qeyd etməliyik ki, maraqların həyata keçirilməsi ilə bağlı fəaliyyət zamanı geosiyasi aktorlar - fərdlər, sosial qruplar və

dövlətlər arasında bəzi obyektiv ziddiyyətlər meydana çıxır. Həmin ziddiyyətlər çoxsaylı fəaliyyət sahələrindən və konkret şəraitdən asılı olaraq müxtəlif formalarda təzahür edir. Bir-birinə zidd maraqların (daxili yaxud xarici) toqquşması əvvəl potensial, sonra isə real təhdidlər yaradır. Lakin maraqların üst-üstə düşən və paralellik təşkil edən digər növləri də olur. Bunlar isə öz məzmununa görə müsbət münasibətlərin formalaşmasına şərait yaradır, ictimai və beynəlxalq münasibətlərdə qarşılıqlı anlaşmaya nail olmaq üçün baza rolunu oynayır.

Təhdidlərin aşkar edilməsi və aradan qaldırılması, milli təhlükəsizliyin təmin olunması müvafiq qurumlardan bu məsələlərə vaxtında reaksiya verilməsini, insanların, cəmiyyətin və dövlətin maraqlarının müdafiəsinin lazımi səviyyədə, məsuliyyətlə təşkil olunmasını tələb edir.

Azərbaycanın milli təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlər müəyyən təsnifat üzrə qruplaşdırılır. Bu təsnifat təhdidlərə qarşı, onların konkret xüsusiyyətlərini nəzərə almaqla, təşkilati tədbirlər görməyə lazımi imkanlar yaradır. Təsnifatın əsasında təhlükə mənbəyinin yerləşdiyi məkan, təhdidin formalaşma səviyyəsi, xarakteri və s. dayanır.

Təhdidlər təhlükə mənbəyinin harada yerləşməsindən asılı olaraq **daxili** və **xarici təhdidlərə** bölünür. Əgər təhdidlər xarici dövlətdən və onun vətəndaşlarından gəlirsə, onlar xarici təhdidlər adlanır. Təhdidlərin mənbəyi dövlətin daxilində və onun vətəndaşları ilə bağlıdırsa, onlara daxili təhdidlər deyilir.

Formalaşma səviyyəsinə görə təhdidlər **potensial** və **real təhdidlərə** ayrılır. Potensial təhdidlər özündə təhlükənin yaranmasını, onun ilkin şərtlərinin formalaşmasını, zərər yetirmək imkanlarını ehtiva edir. Real təhdidlər isə artıq formalaşmış hadisədir və onun zərər yetirməsi üçün bir və yaxud bir neçə amil çatışmır. Real təhdidlər yaranan zaman milli təhlü-

kəsizliyi təmin etmək sisteminin qarşısında təhdidin kəskinliyini azaltmaq və onu aradan qaldırmaq üçün lazımi tədbirlər görmək vəzifəsi dayanır.

Təhdidlər xarakterindən asılı olaraq **təbii, antropogen** və **sosial** təhdidlərə bölünür. Təhdidlərin bu cür növlərə ayrılması daha kəskin təhdidləri məqsədyönlü şəkildə aşkarlamağa, onların qarşısını vaxtında almağa, milli təhlükəsizliklə bağlı fəaliyyətin səmərəliliyini artırmağa imkan verir.

Ümumi təhlükəsizlik prinsiplərinə, təhdidlərin növünə, miqyasına, onların təhlükəsizlik obyektlərinə təsir vasitələrinə görə Azərbaycanın təhlükəsizlik konsepsiyasında müasir dövrdə milli təhlükəsizliyinin üzləşdiyi təhdidlər sırasına aşağıdakı məsələlər aid edilir: [60]

- Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər;
- qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyalarının yerinə yetirilməsinə qarşı yönəlmiş fəaliyyət;
- separatçılıq, etnik, siyasi və dini ekstremizm;
- terrorçuluq və kütləvi qırğın silahlarının yayılması;
- regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlıq;
- ölkəmizin enerji infrastrukturuna qarşı fəaliyyət;
- xarici siyasi, hərbi və ya iqtisadi asılılıq;
- iqtisadi qeyri-sabitlik;
- peşəkar insan ehtiyatlarının çatışmazlığı;

[60] Bax: http://e-qanun.az

- regional hərbiləşdirmə;
- ekoloji problemlər.

Təhdidlərin bu cür bölgüsü milli təhlükəsizliyin təmin olunması sisteminin təşkilində və onun əsas fəaliyyət istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynayır.

§ 2.4. Milli təhlükəsizliyin təmin olunmasının əsas vasitələri və ehtiyatları

Azərbaycanın milli maraq və milli təhlükəsizliyinin təmin edilməsi birbaşa onun daxili və xarici maraqlarının düzgün müəyyənləşdirilməsi və təmin olunması mexanizmlərinin yaradılmasından asılıdır. Ölkənin milli təhlükəsizlik maraqları və onun çərçivəsi müəyyənləşdirilərkən konkret zaman - SSRİ ilə ABŞ arasındakı "soyuq müharibə" dövründən və birincinin dağılmasından sonra yaranmış "müasir dünya nizamı" adlandırılan beynəlxalq münasibətlər sistemindəki mühüm dəyişikliklər və dünya geosiyasi məkanındakı indiki qüvvələr nisbətindən irəli gələn xarakterik xüsusiyyətlər nəzərə alınır.

Milli maraqların məzmunu, çərçivəsi və ölçüləri cəmiyyətin dəyərlərini özündə əks etdirən **"milli idealla"** müəyyənləşir. Ümumi şəkildə götürdükdə, millətin və xalqın ən mühüm "idealını" ilk növbədə özünüqoruma, özünüyaşatma və davamlı inkişaf (yeniləşmə, təkmilləşmə və s.) maraqları təşkil edir. Məsələn, Azərbaycan öz milli təhlükəsizliyinin çərçivəsini və təmin edilməsi mexanizmlərini 1992-1995-ci illərin "özünüqoruma və özünüyaşatma" vəziyyətindən 1996-cı ildə başlanan "davamlı inkişafa qədərki" keçid dövrünün dinamikasında yarada bilmişdir.

Milli maraq çərçivəsi **milli vəzifələrin əhəmiyyətinə və dərəcəsinə görə** sıralanır və tez-tez istifadə olunan **"həyati**

əhəmiyyətli maraqlar" ifadəsində öz əksini tapır. Qeyd etmək lazımdır ki, bu ifadə dünyanın əksər dövlətlərinin normativ-hüquqi sənədlərində xüsusi yer tutur. Məsələn, Rusiyanın "Federal təhlükəsizlik haqqında" Qanununda, Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasında və s. sənədlərdə "həyati əhəmiyyətli mühüm maraqlar" anlayışı öz əksini tapmışdır. Bu sənədlərdə həmin anlayış altında fövqəladə dərəcədə vacib olan, millətin təhlükəsizliyi və özünüyaşatma idealı ilə bağlı məsələlər nəzərdə tutulmuşdur. Rusiya Federasiyasının adı çəkilən qanununda həyati əhəmiyyətli mühüm maraqlara "milli tələbatlar məcmusu" kimi baxılır. Onların da reallaşdırılması insanların, cəmiyyətin və dövlətin mövcudluğunu, mütərəqqi inkişaf imkanlarını etibarlı şəkildə təmin edir.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında göstərilir ki, milli maraqlar xalqımızın fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur və aşağıdakılardan ibarətdir:

- dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;
- Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının aşılanması;
- vətəndaş cəmiyyətinin formalaşdırılması, əsas insan hüquq və azadlıqlarının təmin olunması;
- demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmin edilməsi yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi və əhalinin təhlükəsizliyinin qorunması;
- beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizliyə, sabitliyə töhfə vermək üçün

beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi;

- bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədi ilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;
- təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, təhsil, elmi və texnoloji potensialın artırılması yolu ilə xalqımızın gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;
- milli özünəməxsusluğun və dünya azərbaycanlıları arasında həmrəyliyin möhkəmləndirilməsi;
- xalqımızın mədəni-tarixi irsinin, mənəvi dəyərlərinin qorunması və ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi;
- özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialın inkişaf etdirilməsi və s.[61]

Milli təhlükəsizlik ölçüləri

Milli təhlükəsizliyin təmin olunması müasir dövrdə istənilən dövlətin daxili və xarici siyasətinin prioritet vəzifəsi hesab olunur. Milli təhlükəsizlik ölçüləri və milli maraq çərçivəsi texniki tərəqqinin və qlobal inkişafın dönməz xarakter aldığı XX əsrin sonlarına qədər daha çox *ölkələrin müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun və suveren dövlət idarəçiliyinin birbaşa xarici hücumlardan, hərbi müdaxilələrdən, cəmiyyət həyatına və şəxsiyyətə qarşı qəsdlərdən,*

[61] Bax: http://e-qanun.az

xəfiyyə fəaliyyətindən və s. təhdidlərdən qorunması kimi başa düşülürdüsə, qloballaşmanın vüsət aldığı və ölkələrarası sərhədlərin şəffaflaşdığı müasir dövrdə bu anlayışa həm də:

- regional münaqişə və transmilli cinayətkarlıq, nəzarətsiz ərazi və mütəşəkkil silahlı dəstələrdən qaynaqlanan təhdidləri;
- dövlətdaxili ictimai həyatın (cəmiyyətin) milli, dini, sosial tarazlığının və ölkənin demoqrafik mühitinin pozulmasını və qanunsuz miqrasiyanı;
- dövlətlərin iqtisadi, siyasi, sosial, ərzaq, enerji, ekoloji, nəqliyyat, maliyyə, milli valyuta təhlükəsizliyinə və makroiqtisadi mühitinə müdaxiləni və xarici aktorlardan asılı vəziyyətə düşməsini;
- ölkələrin informasiya-kommunikasiya sistemlərinə, ictimai rəyyaratma, ideoloji və mətbuat vasitələrinə total xarici, transmilli müdaxiləni və geosiyasi təsir-etməni;
- transmilli beynəlxalq terrorizmi, kütləvi qırğın və digər silahların nəzarətdənkənar yayılmasını, narkotik maddələrin ticarətini və digər milli təhlükəsizlik sahələrini aid edirlər.

Geosiyasi ədəbiyyatda milli təhlükəsizliyin XXl əsrdəki əsas ölçülərinin qloballaşmanın səviyyəsi və mövcud ölkənin transmilli dünyaya inteqrasiyasının dərinliyi ilə bağlı müəyyənləşəcəyi göstərilir. Sərhədlərin şəffaflaşması ilə mal dövriyyəsi və ticarətin, pul, texnologiya və informasiya innovasiyalarının transmilliləşməsi dövlətlərin öz geoməkanlarını qorumaq işini getdikcə çətinləşdirir. Bir çox ölkələr artıq əvvəlki kimi, sərhəd maneələri yaratmaqla yerli bazarın təhlükəsizliyini təmin etmək, dünyanın əsas transmilli şirkətlərinin,

arzuolunmaz ideologiyaların, təbliğat-informasiya materiallarının onun ərazisinə daxil olmasının qarşısını almaq iqtidarını itirməkdədir. Bu vəziyyət getdikcə milli adət-ənənələrin, mənəvi dəyərlərin itirilməsinə, ənənəvi həyat tərzinin pozulmasına və kosmopolit mühitin formalaşmasına, ictimai, siyasi və sosial həyatın standartlaşmasına səbəb olur. Bu da ölkənin milli varlığını bilavasitə təhlükə qarşısında qoyur. Bundan başqa, əsas məqsədi gəlir götürmək olan transmilli şirkətlər ölkələrin təbii sərvətlərini və sağlam ekoloji mühitini vəhşicəsinə istismar edir, təbiətini korlayır, sabit və tarazlı inkişafını pozaraq xammal mənbəyinə çevirir, əhalisini gələcək iqtisadi, sosial, ekoloji və s. geosiyasi, geostrateji və geoiqtisadi təhlükələrlə üz-üzə qoyurlar. Bütün bunlar və qloballaşmanın dövlətlərin milli maraqlarının təmin olunması yolunda yaratdığı digər müasir problemlər hər bir ölkədən milli maraqlarını və milli təhlükəsizliyini təmin etmənin xüsusi strategiyasını yaratmağı və onu dönmədən həyata keçirməyi tələb edir.

Milli maraqların və milli təhlükəsizliyin təmin olunması üçün dövlət öz sərəncamında olan bütün maddi və mənəvi vasitələrdən, daxili və xarici ehtiyatlardan - iqtisadi, siyasi, ideoloji, diplomatik və s. mexanizmlərdən istifadə edir.

Milli təhlükəsizliyin təmin olunması ölkənin sabit və davamlı inkişafında strateji əhəmiyyət daşıyır, ictimai həyatın bütün sahələrini əhatə edən dinamik dəyişikliklər prosesinə mühüm təsir göstərir.

Milli təhlükəsizliyinin təmin olunması üçün dövlət özünün həm **daxili ehtiyatlarından**, həm də **xarici siyasət vasitələrindən** (siyasi, iqtisadi, hərbi, təbliğat, informasiya və s.) istifadə edir. Xarici siyasi fəaliyyətin əsas vasitəsi ilk növbədə rəsmi diplomatiya qurumları hesab olunur. Diplomatiya xüsusi institutların timsalında və beynəlxalq hüquqa uyğun olan çox-

saylı metod və vasitələrin köməyi ilə dövlətin rəsmi xarici fəaliyyətini təşkil edir və ona rəhbərliyi həyata keçirir.

Dövlətin malik olduğu iqtisadi vasitələr qarşıya qoyulan məqsədlərə nail olmaq üçün iqtisadi ehtiyatlardan istifadə etməyi və xarici iqtisadi imkanlardan bəhrələnməyi nəzərdə tutur. Çünki dövlət güclü iqtisadiyyata və maliyyə mənbələrinə malik olmaqla, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirə bilər. Hərbi vasitələrə ordunu, onun sayını, silahlanmanın keyfiyyətini və silahlı qüvvələrdə mənəvi əhval-ruhiyyəni ehtiva edən dövlətin hərbi qüdrəti aiddir.

Xarici siyasətin təbliğat və informasiya vasitələrinə isə bütün müasir informasiya vasitələrinin fəaliyyəti və xarici diaspora qurumlarının imkanları daxildir. Bu vasitələr Azərbaycan dövlətinin milli maraq və təhlükəsizliyinin təmin olunmasında, dünya birliyindəki nüfuzunu yüksəltməsində, özünə çoxsaylı tərəfdarlar qazanmasında və onlarla qarşılıqlı faydalı əməkdaşlıq yaratmasında böyük əhəmiyyətə malikdir.

Təhlükəsizliyin təmin edilməsində ən çox istifadə olunan daxili ehtiyatlar və siyasət vasitələrinə dövlət orqanları və qeyri-hökumət strukturları, siyasi partiyalar, vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri, milli elita və s. daxildir. Dövlət bu qurumların hər biri ilə xüsusi iş aparır və onların bəzi tələbatını ödəməklə, imkanlarından milli təhlükəsizliyin təmin olunması istiqamətində istifadə edir.

Milli təhlükəsizliyin daxili şərtləri sırasına dövlətin ali orqanlarının ölkədə konstitusiya normalarını, qanunçuluğu, ictimai-siyasi sabitliyi, demokratiyanı və hüquqi dövlət maraqlarını dönmədən təmin etməsi, milli-vətəndaş birliyinə nail olması, tolerant mühit yaratması, elmi, təhsili, sosial həyatı inkişaf etdirməsi, milli-mənəvi dəyərləri qoruması, iqtisadi, mənəvi, sosial tərəqqiyə nail olması və s. daxildir.

Azərbaycanın təhlükəsizlik siyasəti daxili sabitlik və sərhəd təhlükəsizliyinin təmin olunması, ölkədaxili miqrasiya, enerji, nəqliyyat təhlükəsizliyi, fövqəladə halların idarə edilməsi, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi, informasiya təhlükəsizliyi və s. məsələlərin də daim diqqətdə saxlanılmasını tələb edir.[62]

[62] Bax: http://e-qanun.az

III FƏSİL
AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

§ 3.1. Hərbi təhlükəsizlik siyasəti

Azərbaycan Respublikasının *milli təhlükəsizlik siyasətinin əsas vəzifə və istiqamətlərindən biri ölkə ərazisinin və əhalisinin birbaşa xarici hərbi müdaxilələrdən, hər hansı təhdidlərdən qorunması, dövlətin hərbi təhlükəsizliyinin təmin olunması və suveren hakimiyyət səlahiyyətlərinə xarici müdaxilələrin qarşısının alınmasından ibarətdir.* Ölkə hərbi sahədə milli maraqların təmin edilməsi məqsədi ilə özünün hərbi təhlükəsizlik siyasətini formalaşdırır. Bu siyasətin məqsədi, əsas istiqamətləri və prinsipləri öz əksini ümumu şəkildə milli təhlükəsizlik konsepsiyasında, daha geniş və əhatəli şəkildə isə hərbi təhlükəsizlik konsepsiyası və hərbi doktrinada tapır.

Azərbaycanın hərbi təhlükəsizlik konsepsiyasının yaradılması və ona müvafiq hərbi doktrinasının qəbulu silahlı qüvvələrin hərbi taktikasının müəyyən olunması və ölkənin müdafiə qabiliyyətinin möhkəmlənməsində əsas amillərdən biri hesab olunur. **Hərbi Doktrina** *vətəndaşların, cəmiyyətin və suveren dövlət hakimiyyətinin xarici hərbi basqınlardan, hər hansı təhlükə və təhdidlərdən qorunması taktikasını* müəyyənləşdirir.

Azərbaycanın müstəqilliyə qovuşduğu ilk illərdə onun ərazi bütövlüyünün və suveren hüquqlarının işğalçı Ermənistan qoşunları tərəfindən pozulması, torpaqlarının iyirmi faizinin işğal olunması, bir milyona yaxın dinc əhalinin qaçqın və məcburi köçkünə çevrilməsi ölkə rəhbərliyini hərbi təhlükəsizliklə bağlı təcili tədbirlər görməyə sövq etdi. Cənubi Qafqaz və Xəzər hövzəsinin təhlükəsizliyi ilə bağlı regionun və dünyanın aparıcı dövlətlərinin, kollektiv təhlükəsizlik strukturlarının fərqli geosiyasi maraqlar nümayiş etdirməsi və regional münaqişələrə münasibətdə ikili standartlara yol verməsi Azərbaycanın milli və hərbi təhlükəsizliyinin təmin edilməsi və ümumiyyətlə, təhlükəsizlik sahəsində xarici siyasət fəaliyyətini xeyli çətinləşdirirdi. Odur ki, mütəxəssislərin fikrincə, 1994-2010-cu illərdə Azərbaycanda hərbi təhlükəsizlik siyasətinin formalaşdırılması, milli ordu quruculuğunun həyata keçirilməsi, regionda və dünyada Ermənistanın hərbi təcavüzünü pisləyən və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən siyasi və hərbi müttəfiqlərin axtarılması, xarici siyasət və milli təhlükəsizlik strategiyasının yaradılması və s. təxirəsalınmaz tədbirlərinin görülməsi milli fəaliyyətin ən vacib məsələləri sırasına çıxarılmışdır.[63]

Məlumdur ki, dünyanın hər bir dövləti öz hərbi vəziyyətinə, geosiyasi əhatəsinə, milli təhlükəsizliyinə uyğun olaraq, hərbi konsepsiya və doktrina yaradır. Hərbi təhlükəsizliklə bağlı dövlətin rəsmi mövqeyini ifadə edən belə sənəd bir çox ölkələrdə müxtəlif adlar altında təsdiq olunur: məsələn, Rusiya, Belarus, Qazaxıstan, Azərbaycan və digər postsovet dövlətlərində "Hərbi Doktrina", ABŞ-da "Milli Təhlükəsizlik Strate-

[63] Ниязов Н.С. Основные векторы политики военной безопасности Азербайджанской Республики в 1994-2010 годы. Санкт-Петербург, 2010, с. 4-5

giyası", NATO hərbi ittifaqında "Strateji Konsepsiya", Çin Xalq Respublikasında "Müdafiə Doktrinası" və s. adlanır.

Azərbaycanın Hərbi Doktrinasında ölkənin hərbi təhlükəsizliyinə təhlükə və təhdidlərin vaxtında aşkarlanması və qarşısının alınması, səmərəli müdafiə və hərbi təhlükəsizlik sisteminin yaradılması, onun cəlb olunduğu müharibə və regiondakı mövcud silahlı münaqişələrin aradan qaldırılması, hər cür silahlı təcavüzün dəf edilməsi, ölkənin dünyadakı mövcud hərbi-strateji və təhlükəsizlik bloklarına münasibəti və s. məsələlərlə bağlı dövlətin rəsmi mövqeyi əks olunmuşdur.

Doktrinanın hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və digər normativ-hüquqi aktları, Milli Təhlükəsizlik Konsepsiyası, həmçinin ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir. Doktrinada qeyd olunur ki, Azərbaycanın müdafiə qüdrətinin artırılması, ordu quruculuğu və hərbi siyasəti ölkənin milli maraqlarının qorunmasını nəzərdə tutur, milli ehtiyatlara əsaslanır, beynəlxalq hüquq normaları, regionun və dünyanın mövcud təhlükəsizlik vəziyyəti ilə uzlaşır. Hərbi siyasət bütün ölkələrlə dinc yanaşı yaşamaq, digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və müstəqilliyinə hörmət etmək, onların daxili işlərinə qarışmamaq, mövcud dövlət sərhədlərinin toxunulmazlığı və dəyişməzliyi prinsiplərinə söykənir.

Doktrinada Azərbaycanın hərbi siyasətinin əsas məqsədi kimi *ölkənin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, xarici hərbi təcavüzlərin qarşısının alınması və dəf edilməsi üçün silahlı qüvvələrin döyüşə və səfərbərliyə hazır vəziyyətdə saxlanması və s.* məsələlər göstərilir.

Sənəddə vurğulanır ki, Azərbaycan dünyada mövcud olan heç bir hərbi blokun, yaxud kollektiv təhlükəsizlik birliyinin üzvü deyil və hələlik bu mövqeyini dəyişməyi məqsədəuyğun

hesab etmir. Buna baxmayaraq, ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi və milli ordunun gücləndirilməsi tələbi onun bu cür bloklarla hərbi və texniki əməkdaşlığını, təcrübə mübadiləsini, regional və beynəlxalq manevrlərdə, sülhyaratma missiyalarında birgə iştirakını zəruri edir. Odur ki, Azərbaycan ordusu neçə illərdir bir çox digər postsovet respublikaları ilə yanaşı, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində müştərək layihələrdə yaxından iştirak edir. Doktrinada *Azərbaycanın hərbi-strateji ehtiyatlarının ordu quruculuğuna səfərbər edilməsi, onun güclü müdafiə qüdrətinin yaradılması, eyni zamanda silahlı qüvvələrin hərbi-texniki və kadr potensialının gücləndirilməsi taktikası ölkənin müdafiə təhlükəsizliyinin mühüm amili kimi* dəyərləndirilir.

Qeyd etmək lazımdır ki, müdafiə təhlükəsizliyi anlayışı hərbi təhlükəsizlik anlayışından daha geniş məzmun daşıyır. Belə ki, birinci anlayışda yalnız ölkənin hərbi deyil, həmçinin iqtisadi, siyasi, mənəvi gücü və qüdrəti, informasiya infrastrukturu, sosial vəziyyəti və digər amillər nəzərə alınaraq, dövlətin ümumi təhlükəsizliyinin təmin olunması nəzərdə tutulursa, ikinci anlayış milli təhlükəsizliyin məhz hərbi vasitələrlə təmin olunmasını ifadə edir.

Hərbi Doktrinada Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasəti aparması, təcavüzkarlıq hərəkətlərini bu gün də davam etdirməsi Azərbaycanın milli təhlükəsizliyinə mənfi təsir göstərən əsas amil hesab olunur. Sənəddə vurğulanır ki, hazırda Azərbaycanın işğal olunmuş əraziləri beynəlxalq nəzarətin hər hansı formasından kənarda qalmışdır. Həmin ərazilərdə "Avropada adi silahlı qüvvələr haqqında" 1990-cı il Müqaviləsinin və "Etibarın möhkəmləndirilməsi və təhlükəsizlik tədbirləri üzrə danışıqlar haqqında" 1999-cu il Vyana sənədinin inspeksiya fəaliyyəti ilə əhatə olunmayan, hesabı aparıl-

mayan və nəzarət edilməyən silah-sursat və hərbi texnika toplanmışdır. Həmçinin bu ərazilərdə insan hüquqlarının müdafiəsi ilə bağlı milli və beynəlxalq mexanizmlər öz fəaliyyətini itirmiş, insan alveri, narkotik və psixotrop maddələrin qeyri-qanuni istehsalı və dövriyyəsinə münbit şərait yaranmış, silah ticarəti üzrə tranzit marşrutları formalaşmış, qanunsuz silahlı birləşmələr və terrorçular üçün bazalar yaradılmışdır. Ermənistanın həmin ərazilərdə qeyri-qanuni məskunlaşdırmanı davam etdirməsi onun təcavüzkar niyyətlərindən hələ də əl çəkmədiyini göstərir. Ermənistan tərəfindən işğal edilmiş ərazilərin müvəqqəti olaraq Azərbaycan Respublikasının hakimiyyət orqanlarının nəzarətindən kənarda qalması regionda sülhün və sabitliyin bərqərar olmasına da mənfi təsir göstərir.[64]

Yuxarıda qeyd edilənlərlə yanaşı, doktrinada Azərbaycanın hərbi təhlükəsizliyinə təsir göstərən digər xarici amillər də sadalanır. Məsələn, Xəzər dənizinin Azərbaycan Respublikasına aid hissəsində karbohidrogen yataqlarının istismarı və dünya bazarlarına çıxarılması, ölkəmizin əhəmiyyətli geosiyasi məkanda yerləşməsi, beynəlxalq sülhyaratma və terrorçuluqla mübarizə əməliyyatlarında fəal iştirakı onun təhlükəsizlik mühitinə ciddi təsir edən amilə çevrilmişdir.

Hərbi təhlükəsizliyin təmin edilməsi sahəsində Hərbi Doktrinada öz əksini tapmış başlıca vəzifələrindən biri ölkənin müstəqilliyini və ərazi bütövlüyünü, konstitusiya quruluşunu, milli maraqlarını hərbi, siyasi və digər təhdidlərdən qorumaqdan ibarətdir.

Hərbi Doktrinada Azərbaycanın hərbi təhlükəsizliyinə təsir göstərən təhdidlər xarici və daxili olmaqla iki qrupa bölünür.

[64] Bax: Azərbaycan Respublikasının Hərbi Doktrinası. http://e-qanun.az

Xarici hərbi təhdidlərə:

- Azərbaycanın 20% ərazisinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılması;
- qonşu dövlətlər tərəfindən ona qarşı əsassız ərazi iddialarının irəli sürülməsi;
- ölkənin daxili siyasi və sosial-iqtisadi vəziyyətinin gərginləşdirilməsinə, sabitliyin pozulmasına yönəldilmiş separatçı və dini-ekstremist hərəkətlər;
- dövlət sərhədinin hərbi birləşmələr və silahlı dəstələr tərəfindən pozulması, sərhəd mübahisələrinin kəskinləşməsi;
- digər dövlətlər tərəfindən ölkə ərazisinə göndərmək üçün qanunsuz silahlı qrupların və terrorçuların hazırlanması;
- dövlət sərhədlərinin və ərazi sularının bilavasitə yaxınlığında hərbi bazaların yaradılması, qoşun qruplaşmalarının cəmləşdirilməsi, silahların artırılması və digər hərbi iştirakın gücləndirilməsi ;
- ölkənin daxili işlərinə hər hansı mümkün kənar hərbi müdaxilə;
- qonşu ölkələrin dövlətlərarası münaqişələrdə iştirakı;
- müxtəlif xarici dairələrin təsiri altında nüvə və digər kütləvi qırğın silahı növlərinin yayılması və s. daxildir.

Daxili hərbi təhdidlərə:

- ölkə qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin və yaxud qrupların yaradılması cəhdləri;
- terrorçu, dini-ekstremist və separatçı təşkilatların daxili sabitliyin və ölkənin ərazi bütövlüyünün pozulmasına yönəldilmiş qanuna zidd əməlləri;

- konstitusiya quruluşu əleyhinə qəsdlər, dövlət hakimiyyəti və idarəetmə orqanlarının təşkilati strukturunun dağıdılması və ictimai-siyasi sabitliyin pozulmasına yönəldilmiş cəhdlər;
- hərbi təhlükəsizliyə təhdid yaradan mütəşəkkil cinayətkarlıq və digər qanuna zidd fəaliyyət;
- təxribat, terror aktları və digər qanunazidd əməlləri həyata keçirmək üçün istifadə oluna bilən silah-sursatın, partlayıcı maddələrin və digər vasitələrin ölkə ərazisində qanunsuz toplanması və dövriyyəsi;
- hərbi əhəmiyyətli və mühüm dövlət obyektlərinə, kommunikasiya qurğularına və informasiya infrastrukturuna qarşı silahlı hücumlar, təxribatlar və s. aiddir.

Azərbaycanın hərbi təhlükəsizliyinin təmin olunması, eyni zamanda ölkə ətrafında əlverişli daxili və xarici geosiyasi şəraitin yaradılması dövlətin düzgün hərbi-geostrateji və müdafiə siyasəti ilə sıx bağlıdır. Ölkənin hərbi-geostrateji və müdafiə siyasəti onu əhatə edən dövlətlərin geosiyasi davranışı və bundan irəli gələn regional hərbi-siyasi şəraitlə, bölgənin geostrateji inkişaf meyilləri, mövcud regional və beynəlxalq təhlükəsizlik blokları arasındakı münasibətlərlə də sıx bağlıdır. Odur ki, bütün bu amillərin və şərtlərin nəzərə alınması, bəhs olunan proseslərin təhlili və müvafiq taktikanın yaradılması da Hərbi Doktrinanın əsas vəzifələri sırasına daxildir. Azərbaycanın Hərbi Doktrinası bu mənada həm də ölkəyə qarşı yönəlmiş, yaxud yarana biləcək real və potensial hərbi təhlükələr və təhdidləri kompleks şəkildə araşdıraraq müvafiq hərbi təhlükəsizlik və müdafiə taktikası irəli sürür.

Doktrinada ölkənin müdafiə siyasətinin əsas məqamlarından biri kimi, "Ermənistanın onun ərazisinin bir hissəsini işğal

etməsi, sülh yolu ilə geri qaytarmaqdan imtina etməsi, buna görə də Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü, hərbi güc tətbiq etmə də daxil olmaqla, bütün lazımi vasitələrlə bərpa etmək hüququnu özündə saxlaması" faktı vurğulanır.[65]

Hərbi Doktrinada Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə yol verməyi qeyd olunur. Lakin hərbi-siyasi şəraitdə əsaslı dəyişikliklər baş verdiyi halda, Azərbaycan Respublikası ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə, yaxud digər formada xarici hərbi iştiraka müvəqqəti icazə verilməsi halını da istisna etmir.

Bu sənəddə ölkənin müdafiə siyasətini təşkil edən məsul dövlət orqanlarının, cavabdeh qurumların və Silahlı Qüvvələr komandanlığının səlahiyyətləri də əksini tapmışdır. Bu səlahiyyətlərə uyğun olaraq onların həyata keçirdikləri tədbirlər, o cümlədən silahlı qüvvələr və başqa silahlı birləşmələrin qarşısında qoyduqları vəzifələr, hərbi səfərbərlik elan etmək, səfərbərliyin səviyyəsini, döyüş hazırlığı dərəcəsini müəyyən etmək və s. məsələlər - "dinc dövr", "real təhdid dövrü" və "müharibə (silahlı münaqişə) dövrü" adlanan üç şərti təhlükəsizlik şəraiti əsasında müəyyənləşdirilir.

Dinc dövrdə həmin tədbirlər ölkənin müdafiə qabiliyyətini möhkəmləndirmək, mümkün təhdidlərin qarşısını almaq və potensial düşməni öz bədxah əməllərindən, yaxud təcavüzkar hərəkətlərdən çəkindirmək məqsədi daşıyır. Dinc dövrdə müdafiə siyasəti çərçivəsində əsas tədbirlərin aşağıdakı sahələr üzrə həyata keçirilməsi nəzərdə tutulur:

[15] Azərbaycan Respublikasının Hərbi Doktrinası. http://e-qanun.az

- dövlət sərhədlərinin mühafizəsi və onların toxunulmazlığının təmin edilməsi;
- ikitərəfli və çoxtərəfli hərbi-siyasi əməkdaşlığın gücləndirilməsi və beynəlxalq təhlükəsizliyə töhfə verilməsi;
- dövlət orqanlarının, ölkə iqtisadiyyatının, əhali və ərazinin müdafiəyə hazırlanması;
- müdafiə və döyüş potensialının, silahlı qüvvələrin və başqa silahlı birləşmələrin yüksək döyüş qabiliyyətinin, səfərbərlik hazırlığının zəruri səviyyədə saxlanılması;
- mülki müdafiə tədbirlərinin həyata keçirilməsi və s. [66]

Dinc dövrdə silahlı qüvvələrin əsas vəzifələri sırasına Azərbaycana qarşı silahlı təcavüzə hazırlığın vaxtında aşkarlanması, ölkəmizə yönəlmiş hər hansı təcavüzə qarşı kifayət qədər güc və çəkindirmə vasitələri potensialının yaradılması, qoşunların döyüşə hazırlığı kimi əsas vəzifələr də daxildir. Əslində, gələcəkdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nəticələrindən asılı olmayaraq bu ölkənin "monoetnik dövlətçiliyi, etnik təmizləmə və ərazi ekspansiyasını öz siyasətinin tərkib hissəsi kimi davam etdirməsi" və s. kimi addımları göstərir ki, Azərbaycan ona qarşı öz müdafiə qabiliyyətini daim yüksək səviyyədə saxlamalıdır.

Hərbi Doktrinada Azərbaycanın hərbi təhlükəsizliyi real təhdidə məruz qaldığı zaman ölkənin müdafiə siyasəti çərçivəsində aşağıdakı sahələr üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- Azərbaycana qarşı real silahlı hücum təhlükəsi yarandıqda ölkənin, əhalinin və ərazinin, eləcə də silahlı

[66] Azərbaycan Respublikasının Hərbi Doktrinası. http://e-qanun.az

qüvvələrin və başqa silahlı birləşmələrin müdafiəyə hazır vəziyyətə gətirilməsi;

- ölkəmizin ərazi bütövlüyünün pozulmasına, onun konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönəldilən hərəkətlərin aradan qaldırılması və s. [67]

Real təhdid dövründə bütün silahlı birləşmələrin vəzifə və tapşırıqları, eləcə də onların silahlı qüvvələrlə qarşılıqlı fəaliyyəti əvvəlcədən tərtib edilmiş plan əsasında müəyyən olunur.

O ki qaldı müharibə dövründə həyata keçirilən tədbirlərə, Hərbi Doktrinada bu, ilk növbədə düşmənə ciddi hərbi zərbələr endirməklə onu silahlı münaqişəni davam etdirməkdən imtinaya və Azərbaycan Respublikası üçün əlverişli şərtlərlə sülhə, siyasi tənzimləməyə məcbur etmək məqsədi daşıyır. Müharibə dövründə hərbi təcavüzü dəf etmək və ölkəni, əhalini, ərazini qorumaq məqsədi ilə müdafiə siyasəti çərçivəsində həm də aşağıdakı tədbirlərin görülməsi nəzərdə tutulur:

- Azərbaycan Respublikası ərazisinin qorunması üzrə hərbi fəaliyyətin həyata keçirilməsi;
- təcavüzün dəf edilməsi üçün zəruri olan qüvvə və vasitələrin səfərbər olunması, müdafiə sahəsində hərbi, siyasi, diplomatik, informasiya, iqtisadi və digər tədbirlərin həyata keçirilməsi;
- beynəlxalq təşkilatlar və bütün dövlətlər tərəfindən təcavüzkarın qınanmasına və təcrid edilməsinə nail olunması və s.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üçün təcavüzkara strateji təzyiqin artırılması, zəruri olduqda hərbi güc tətbiq etməklə münaqişənin qısa zamanda həlli üçün qoşun qruplaşmaları potensialının lazımi

[67] Azərbaycan Respublikasının Hərbi Doktrinası. http://e-qanun.az

səviyyəyə çatdırılması müharibə dövründə silahlı qüvvələrin əsas vəzifələri sırasında dayanır. Bu dövrdə silahlı qüvvələrin və başqa silahlı birləşmələrin əsas vəzifələrinə Doktrinada:

- cəbhəboyu ərazilərdə döyüş xidmətinin aparılması və qoşun qruplaşmalarının təcavüzün dəf edilməsinə daim hazır vəziyyətdə saxlanılması;
- sərhədyanı silahlı münaqişələrin lokallaşdırılması və zərərsizləşdirilməsi;
- ölkə ərazisinə daxil olmuş təcavüzkarın qoşun qruplaşmalarının və onun əməliyyat ehtiyatlarının darmadağın və məhv edilməsi üzrə döyüş əməliyyatlarının aparılması;
- əhalinin, iqtisadi obyektlərin və infrastrukturun mühafizəsi və s. daxildir.

Silahlı təcavüzün dəf edilməsi vəzifələrinin icrası Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının əmr və göstərişlərinə uyğun olaraq həyata keçirilir. Silahlı Qüvvələrin birləşmələri Hərbi Doktrinada müəyyən edilmiş potensial və real hərbi təhdidlərin konkret istiqamətlərinə uyğun olaraq yerləşdirilir.

Azərbaycan dövləti öz təhlükəsizlik mühitini, real və potensial hərbi təhdidləri, eləcə də ümumi hərbi-strateji vəziyyəti nəzərə alaraq, Silahlı Qüvvələrinin strukturunu formalaşdırır və idarə edir. Bu sahədə iş aparılarkən zəruri hərbi qabiliyyətin yaradılması və saxlanılması, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının nəzarəti altında olmaqla, hərbi rəhbərliyin mərkəzləşdirilməsi və vahidliyi, qarışıq (könüllü və çağırış üzrə) sistemə uyğun olaraq komplektləşdirmə, daim döyüşə və səfərbərliyə hazır vəziyyətin saxlanılması və s.

prinsiplər əsas götürülür. Mütəxəssislərin fikrincə, ölkənin siyasi və hərbi rəhbərliyinin ciddi fəaliyyətinin nəticəsi olaraq hazırda Azərbaycanda müasir döyüş sistemləri və silahlarla təmin olunmuş, taktiki, hərbi, fiziki və mənəvi cəhətdən əksər hərbi və döyüş vəzifələrini yerinə yetirməyə hazır olan, məxsusi zabit korpusuna malik, dəqiq strukturlaşdırılmış və öz komandir heyətinin tapşırıqlarını icra etməyə hazır olan həqiqi müasir və peşəkar ordu yaradılmışdır.[68]

Bundan başqa, Azərbaycanın hərbi təhlükəsizliyinin səmərəli təmin edilməsi məqsədi ilə silahlı qüvvələrin, eləcə də bu sahədə yaxından iştirak edən dövlət orqanlarının hərbi, iqtisadi-texniki və s. ehtiyaclarının ödənilməsi üçün ümumi təchizat siyasəti həyata keçirilir. Bu siyasətdə silahlı qüvvələrin və hərbi təhlükəsizliyin təmin edilməsində iştirak edən dövlət orqanlarının müdafiə təyinatlı məhsullara olan ehtiyacını əks etdirən Dövlət Müdafiə Sifarişi Proqramının hazırlanması və icrası mühüm yer tutur.

Azərbaycanın yerləşdiyi Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsində dövlətlərin ümumi hərbi təhlükəsizliyini təmin edən iki sistem – Rusiyanın rəhbərlik etdiyi Kollektiv Təhlükəsizlik Təşkilatı (KTMT), ABŞ və onun Avropa müttəfiqlərinin yaratdığı Şimali Atlantika Hərbi Alyansı - NATO bloku, eyni zamanda müstəqil olaraq təhlükəsizliyinin qeydinə qalan İran kimi ölkələr mövcuddur. Yaxın illərdə NATO-ya qoşulmaq Azərbaycan üçün qeyri-real görünür. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına qoşulmaq isə onun şərtləri və təminatları (əslində təminatsızlığı) çərçivəsində Azərbaycanın mənafelərinə uyğun deyildir. Belə şəraitdə, kənar təsir və təzyiqlərdən qorunmaq, öz hərbi təhlükəsizliyini

[68] Ниязов H.C. Göstərilən əsəri, s.7

və suveren hüquqlarını təmin etmək, xarici hərbi müdaxilələrin qarşısını almaq üçün hansısa formada beynəlxalq təminatın qazanılması vəzifəsi ölkənin xarici siyasət prioritetlərindən birinə çevrilmişdir. Müasir dünyanın əksər dövlətlərində olduğu kimi, Azərbaycanın da siyasi və hərbi təhlükəsizlik maraqları ölkə rəhbərliyindən mövcud beynəlxalq təhlükəsizlik sistemləri ilə münasibətlərin yaradılması, yeni-yeni siyasi və hərbi müttəfiqlərin, tərəfdaşların və dostların qazanılması, milli ordunun hərbi ehtiyaclarını təmin etmək məqsədi ilə ən qabaqcıl texniki, müdafiə təchizat sisteminin yaradılması və yaxud alınması, ictimaiyyətdə, milli orduda hərbi vətənpərvərlik, özünə və qələbəyə inam hissinin gücləndirilməsi və s. kimi təxirəsalınmaz strateji məsələlərin həllini tələb edir.

§ 3.2. Sərhəd təhlükəsizliyi siyasəti

Azərbaycan kimi çox da böyük olmayan, lakin kifayət qədər əhəmiyyətli geoməkan xarakteristikası ilə seçilən ölkələrin milli və hərbi təhlükəsizliyi təkcə onların sərhədləri daxilində - məxsusi ərazilərində həyata keçirilən tədbirlərlə məhdudlaşa bilməz. Dövlətin xarici aləmlə sərhədlərinin möhkəmliyi, sərhədətrafı rayonların geosiyasi xarakteristikası - sərhəd yaxınlığında baş verə biləcək yerli, regional və transmilli cinayətlər, etnik, sosial münaqişələr və digər gözlənilə biləcək təhdidlər, yerli əhalinin milli, sosial, dini mənsubiyyəti və geosiyasi baxışları və s. **Sərhəd Təhlükəsizliyi Konsepsiyasına** (STK) müvafiq olaraq öncədən təhlil olunmalı, proqnozlaşdırılmalı və milli təhlükəsizlik doktrinasında əksini tapmalı, bu sahədə müvafiq hərbi və təhlükəsizlik qurumlarının fəaliyyəti əlaqələndirilməlidir. Azərbaycanın müharibə vəziyyətində olduğu Ermənistanla, çox mühüm geosiyasi yükü olan İranla, hərbi-geo-

strateji önəm daşıyan Rusiya ilə (Dağıstan və dəniz sərhədləri nəzərdə tutulur), tranzit əhəmiyyətli layihələrin həyata keçirildiyi ərazilərdə və Ermənistana bitişik rayonlarda Gürcüstanla sərhəd təhlükəsizliyi məsələləri daimi və xüsusi diqqət tələb edir.

Azərbaycanın təhlükəsizlik maraqları həmçinin onun sərhədləri kənarında həyata keçirilən çoxsaylı beynəlxalq və regional xarakterli geosiyasi, geoiqtisadi və hərbi-strateji tədbirlərin, ölkələrarası münasibətlərin izlənməsini və təhlil edilməsini, Cənubi Qafqaz və Xəzər hövzəsində reallaşdırılan əlaqələrin (Rusiya-İran, Rusiya-Ermənistan, Rusiya-Türkmənistan, Rusiya-Gürcüstan, Ermənistan-İran, Ermənistan-Gürcüstan, İran-Rusiya, İran-Türkmənistan, İran-Türkiyə, Türkiyə-Rusiya, Türkiyə-Ermənistan, Türkiyə-Gürcüstan və s.) qiymətləndirilməsini və müvafiq addımların planlaşdırılmasını tələb edir.

XXl əsrdə getdikcə vüsət alan qloballaşmanın yeni tələbləri çərçivəsində hər bir dövlət kimi, Azərbaycan da özünün milli təhlükəsizlik məsələlərini yenidən təhlil edərək, onu müasir texniki vasitələrin yaratdığı reallığın, dövrün və zamanın tələblərinə uyğunlaşdırmalıdır. Planetin qlobal inkişafı bütün ölkələrin sərhədlərini şəffaflaşdırmış, müxtəlif transmilli iqtisadi, siyasi, sosial, hərbi-strateji, informasiya və s. strukturların ölkələrin ərazisinə giriş-çıxışını asanlaşdırmış, milli iqtisadi, siyasi, sosial, informasiya, mənəvi və ekoloji maraqların qorunması imkanlarını çətinləşdirmişdir.

Naxçıvan MR ərazisinin geostrateji vəziyyəti nəzərə alınmadan, Azərbaycanın geoməkanının yığcam və bütöv məkan xarakteristikasına malik olmasına baxmayaraq, onun xarici ölkələrlə sərhədləri və sərhədətrafı yaşayış məntəqələrinin, burada yaşayan əhalinin xarakterik xüsusiyyətləri, sərhədlərin relyefi və texniki vəziyyəti ölkənin geosiyasi, geoiqtisadi və hərbi-strateji təhlükəsizliyinə xarici müdaxilələri istisna etmir.

Müasir elmi-texnoloji nailiyyətlərin bir çox ölkələrin xarici kəşfiyyat strukturları üçün yaratdığı yüksək texniki imkanlar nəzərə alınsa, o zaman Azərbaycan kimi əhəmiyyətli geoməkana malik ölkələrin öz ərazilərinin təhlükəsizliyinə nəzarət etməsinin getdikcə çətinləşməsinin şahidi ola bilərik.

Qonşu dövlətlərlə - İran, Rusiya, Gürcüstan, Ermənistan, Türkmənistan, Türkiyə və Qazaxıstanla sərhədətrafı ərazilərin əhalisinin milli və sosial tərkibi, Azərbaycan dövlətçiliyinə və xalqına münasibəti məsələsi də geosiyasi, geostrateji təhlükəsizlik anlamında ciddi əhəmiyyət kəsb edir. Bu sırada Gürcüstanın Azərbaycanla həmsərhəd Borçalı, Rusiyanın Dağıstan bölgələrində, əsas sərhədboyu yaşayış məntəqələri və kəndlərdə məskunlaşan əhalinin milli-sosial və dini mənsubiyyətinin, mövcud tərkibinin, sosial-dini istiqamətlərinin öyrənilməsi, bu ərazilərdə informasiya-təbliğat vasitələrinin hansı ölkə tərəfindən idarə olunması, KİV-lərin təsir dairəsi, sərhədətrafı kommunikasiya vasitələri, ötürücülər, sərhəd xətləri və s. kimi məsələlərin vəziyyəti qarşılıqlı olaraq həm Azərbaycanın, həm də qonşu dövlətlərin milli təhlükəsizliyi ilə bilavasitə bağlıdır.

Sərhədlərin hərbi xarakteristikası və mühafizə vəziyyəti: Azərbaycan Respublikası quru və dənizdə 7 ölkə ilə – Gürcüstan, Rusiya Federasiyası, Ermənistan Respublikası, Türkiyə Respublikası, İran İslam Respublikası, Türkmənistan Respublikası və Qazaxıstan Respublikası ilə həmsərhəddir. Quru sərhədlərinin ümumi uzunluğu 3370.4 km təşkil edir ki, bunun 2657.4 km quru, 713 km isə sahil xəttindən ibarətdir. Sərhədlərin uzunluğu müvafiq olaraq - İran İslam Respublikası ilə 765.0 km, Rusiya Federasiyası ilə 390.3 km, Gürcüstan ilə 480.0 km, Ermənistan Respublikası ilə 1007.1 km, Türkiyə Respublikası ilə 15.0 km təşkil edir.

Azərbaycanın inzibati rayonlarının 32-si bilavasitə qonşu dövlətlərlə sərhəddə yerləşir.

Azərbaycanın İran İslam Respublikası ilə 765.0 km sərhədinin rayonlar üzrə uzunluğu müvafiq olaraq: Astara rayonu (56.0 km), Lerik rayonu (52.0 km), Yardımlı rayonu (75.0 km), Cəlilabad rayonu (86.0 km), Biləsuvar rayonu (68.0 km), İmişli rayonu (14.0 km), Beyləqan rayonu (30.0 km), Füzuli rayonu (45.0 km), Zəngilan rayonu (55.0 km), Cəbrayıl rayonu (65.0 km), Naxçıvan MR - Ordubad rayonu (42.0 km), Culfa rayonu (30.0 km), Babək rayonu (75.0 km) və Şərur rayonu üzrə (72.0 km) təşkil edir.

Azərbaycanın İran İslam Respublikası ilə sərhədinin 132 kilometri Ermənistanın işğalı altındadır.

İranla sərhədlərinin vəziyyəti də təhlükəsizlik baxımından istənilən səviyyədə qənaətbəxş deyildir. Sərhəd xəttindən 117 km dağlıq (meşəlik), 51 km düzənlik ərazilərdən və 597 km çaylar üzrə keçir. Azərbaycanın siyasi və dövlət strukturlarının bu ölkə ilə mehriban dostluq və qonşuluq cəhdlərinə baxmayaraq, qarşı tərəfin bəzi rəsmi və qeyri-rəsmi dairələri, müvafiq strukturları, sərhəd keşikçiləri, bir qayda olaraq, bu məsələyə müəyyən qədər etinasızlıq göstərirlər.

İranla sərhədin mühafizəsinə təsir göstərən mənfi amillər sırasında mütəxəssislər və sərhədçilər:

- qanunsuz sərhəd pozmalarını, sərhəd bölmələrinə silahlı basqınları və təzyiqləri;
- narkotik və silah qaçaqmalçılığı cəhdlərini;
- qanunsuz miqrasiya, dini və ideoloji missionerlik, qanunsuz mühacirlərin sərhədləri pozması və Avropa ölkələrinə tranzit cəhdlərini;
- İran hökuməti tərəfindən nüvə proqramının inkişafı istiqamətində işlərin davam etdirilməsi və Rusiya ilə

bu sahədə əməkdaşlığın Azərbaycan ərazisi vasitəsilə reallaşdırılması, bununla bağlı Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş beynəlxalq qətnamələrə Azərbaycan tərəfindən əməl edilməsinə bu ölkənin kəskin reaksiyası və onun yaratdığı gərginliyi (Rusiyadan İrana göndərilən və atom sənayesində istifadə olunan mallara və texnologiyalara sərhəd baxışı bu ölkənin rəsmilərini daim qıcıqlandırır);

- İrana məxsus üzmə vasitələrinin tez-tez Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sularına qanunsuz daxil olma cəhdlərini;
- sərhəd pozucularına və narkotik daşıyıcılarına köməklik göstərən silahlı və mütəşəkkil bələdçi qrupların fəaliyyətinin davam etməsini və s. göstərirlər.

Bəzi məlumatlara görə, son 7 il ərzində İranla sərhəddə qarşı tərəfin günahı üzündən 100-dən çox silahlı təxribat qeydə alınmışdır. Bunun nəticəsində 6 sərhədçi həlak olmuş, 8-i yaralanmışdır. 2009-cu ildə sərhəddə qaçaqmalçılarla 16 dəfə silahlı toqquşma qeydə alınmışdır.

2009-cu ilin iyun ayının 16-da dövlət sərhədini qanunsuz keçməyə cəhd göstərən terrorçu qrupun zərərsizləşdirilməsi (əməliyyat zamanı 1 sərhədçi həlak olmuş, 2 sərhədçi yaralanmış, 2 terrorçu məhv edilmişdir) və s. kimi təkrarlanan qanunsuz hallar Azərbaycan hökumətinə bu istiqamətdə milli təhlükəsizliyinə tam əmin olmaq imkanı vermir. [69]

İranla sərhəddə baş verən və münaqişə yaradan əsas problemlərdən biri qarşı tərəfdən olan ayrı-ayrı cinayətkar qrupların

[69]Bu rəqəmlər və respublikanın sərhədləri ilə bağlı digər faktlar Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəsmi məlumatlarından götürülmüşdür.

və vətəndaşların mütəşəkkil şəkildə Azərbaycan ərazisini transmilli narkotik ticarətinin marşrutlarından birinə çevirmək cəhdi ilə bağlıdır. BMT-nin Narkotiklərə Qarşı Mübarizə İdarəsinin (UNODK) hesablamalarına görə, hər il Əfqanıstan-İran-Rusiya və Əfqanıstan-İran-Türkiyə marşrutu üzrə on tonlarla heroin və digər narkotik maddələr daşınır. Bunun da bir hissəsi İrandan Mehri və Araz çayı keçidlərindən, Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ və ona bitişik ərazilərindən istifadə etməklə (bu ərazilərdə hətta narkotiklərin geniş istehsalı ilə bağlı da məlumatlar mövcuddur - Ə.H.), Ermənistan-Gürcüstan marşrutu ilə, digər hissəsi isə yenə də İrandan bilavasitə qaçaqmalçılıq yolu ilə Azərbaycana, buradan da Gürcüstan-Türkiyə-Rusiya marşrutu üzrə Şərqə və Qərbə daşınır.[70]

İranla Azərbaycan arasındakı sərhəd təhlükəsizliyinin əsas problemli sahələrindən biri Xəzər dənizinin iki ölkə arasındakı milli sektorlarının ayırıcı xətləri ilə bağlıdır. Dənizin dibinin və səthinin iki ölkənin müştərək su sərhədləri boyunca hələ də delimitasiya edilməməsi və rəsmi şəkildə dövlətlərarası sazişlə təsdiqlənməməsi İranın Azərbaycanın dəniz sərhədlərini tez-tez pozmasına zəmin yaradır. Məlum olduğu kimi, İran neçə illərdir ki, Xəzərin sektor bölgüsü və statusu ilə bağlı heç bir beynəlxalq normaya və dənizin yerli şəraitinə uyğun gəlməyən, özünəməxsus prinsiplərə söykənən təkliflə çıxış edir ki, bunun qəbul edilməsi də qalan dörd ölkə tərəfindən tamamilə mümkünsüz sayılır.[71] Odur ki, İran neçə illərdir ki, birtərəfli qaydada onunla həmsərhəd olan Azərbaycanın milli sektorunda hər hansı iqtisadi fəaliyyətlə məşğul olmağa imkan vermir. Hətta 2001-ci il iyun ayının 23-də bu ölkəyə məxsus iki hərbi

[70]Bax: www.unodc.org

[71]Daha ətraflı bax: Həsənov Ə.M. Xəzərin hüquqi statusu və Azərbaycanın geoiqtisadi maraqları // "525-ci qəzet", 14 noyabr 2010-cu il

təyyarə və hərbi gəmi Azərbaycan sektorundakı "Alov" yatağında BP-AMOKO transmilli şirkətlərinin sifarişi ilə neft-qaz kəşfiyyatı aparan "Geofizik-3" və "Əlif Hacıyev" gəmilərini "suda batırmaq"la hədələyərək ərazidən çıxarmışdır. Bunun ardınca İranın bir ədəd hərbi təyyarəsi Azərbaycanın hava sərhədlərini pozaraq Bakının 90 millik məsafəsinə qədər yaxınlaşmış, yalnız qarşı tərəfin ciddi xəbərdarlığından sonra ölkənin hava sərhədlərini tərk etmişdir.[72]

Göründüyü kimi, İranla Azərbaycan arasındakı qarşılıqlı münasibətlərdə Xəzər dənizinin təhlükəsizlik məsələləri önəmli rol oynayır. Məlum olduğu kimi, Xəzər ölkələri içərisində hövzədə "vahid təhlükəsizlik təşkilatı" yaratmaq ideyasını ilk dəfə 1992-ci ildə İran irəli sürmüşdür. Lakin İran dənizdə milli sektor bölgüsünə dair Rusiya-Qazaxıstan-Azərbaycan razılaşmasına qoşulmayaraq, keçən müddətdə Xəzərin militaristləşdirilməsi işini hamıdan çox davam etdirmiş, hövzədə reallaşdırılan iqtisadi layihələrə mane olmağa çalışmışdır. Bu ölkə hətta Xəzərin dinc məqsədlərlə istifadəsinə dair bir çox hökumətlərarası sazişlərə belə tam əməl etməmişdir.

Hazırda İran Xəzərdə Rusiyadan sonra ən güclü hərbi donanma, hərbi aviasiya və hərbi dəniz qüvvələrinə malikdir. Bəzi məlumatlı mənbələrin açıqlamalarına görə, İranın Xəzərdə yüzdən artıq kiçik və yardımçı hərbi gəmisi mövcuddur ki, onların sırasına: üçü özünün buraxdığı, Şimali Koreya tipli sualtı qayıqlar, ABŞ istehsalı olan köhnə "Salman" hərbi gəmisi və patrul katerləri daxildir. Bütün bunlarla yanaşı, mütəxəssislərin fikrinə görə, İran qısa müddətdə Xəzərdəki hərbi-dəniz qüvvələrinin sayını Fars körfəzindəki potensialından istifadə

[72]Bax: Может ли Россия из-за энергоресурсов развязать войну на Каспийском море? // www.inosmi.ru/ Asia/ 2011/07/12

etməklə 50% artıra bilər.[73] Bundan başqa, bəzi mənbələrin məlumatına görə İran hazırda özünün Xəzər hərbi donanması üçün "Fateh" sinifli, dizel mühərrikli dənizaltı hərbi gəmi sifariş verib və yaxın zamanlarda bu gəmi İslam İnqilabı keşikçiləri Korpusunun (SEPAH-ın) Xəzərdəki bölmələrinin tərkibinə veriləcək. Mövcud dənizaltı gəminin Bəndər-Abbas tərsanəsində eyni layihə üzrə tikilən gəmidən 8 metr daha uzun- yəni 48 metr olacağı gözlənilir. Mənbənin məlumatına görə, İran bundan sonra da yeni-yeni hərbi vasitələrlə özünün Xəzər donanmasını gücləndirmək niyyətindədir.[74] Nəzərə alınsa ki, Azərbaycanın paytaxtı və əsas neft infrastrukturları Xəzərdə və hövzə ətrafında yerləşir, o zaman bölgə ölkələrinin indiyə qədərki əksər sektor bölgüsü təşəbbüsünü dəstəkləməyən İrandan dənizdə qaynaqlanan hərbi-geostrateji təhlükələri nəzərdən qaçırmaq olmaz.

Azərbaycanın Rusiya Federasiyası ilə sərhədləri: quruda Balakən rayonu (49.4 km), Qax rayonu (37.4 km), Zaqatala rayonu (61.0 km), Şəki rayonu (44.6 km), Oğuz rayonu (48.1 km), Qəbələ rayonu (14.7 km), Qusar rayonu (119.0 km) və Xaçmaz rayonu (16.1 km) ərazilərinə düşür. Rusiya ilə sərhəd xəttinin 297.2 kilometri çətin mühafizə olunan dağlıq, 42 kilometri düzənlik, 10.1 kilometri meşəlik ərazilərdən və 41 kilometri Samur çayı üzərindən keçir.

Azərbaycanın Rusiya ilə sərhədlərinin də həm dəniz, həm də quru hissəsi təhlükəsizlik baxımından şəffaf və qismən problemli olaraq qalmaqdadır. Bu sərhədlərdən, xüsusən, Dağıstandan Qusar, Zaqatala və Balakən istiqamətində tez-tez sərhəd pozmaları, silah, narkotik qaçaqmalçılığı və s. kimi qa-

[73]Bax: газ. "Зеркало", 19 июля 2011 г.
[74]Bax: "Bizim dövr" qəzeti, 19 fevral 2014-cü il

nunsuz hallar baş verir. Mütəxəssislərin fikrinə görə, Rusiya ilə Azərbaycanın münasibətlərində son illərdə müşahidə olunan dostluq və tərəfdaşlıq münasibətləri, iki dövlətin siyasi və hökumət rəhbərləri arasında yaranan və inkişaf edən ikitərəfli mehriban qonşuluq əlaqələri bu ölkənin bir çox həmsərhəd vilayətlərinin müvafiq strukturlarının fəaliyyəti ilə heç də həmişə üst-üstə düşmür. Odur ki, Azərbaycanın Rusiya ilə bəzi sahələr üzrə sərhəd təhlükəsizliyi məsələlərinin qarşılıqlı həlli hələ də özünü gözlətməkdədir. Mövcud problemlərin böyük qismi Rusiya Prezidenti Dmitri Medvedevin Bakıya 2-3 sentyabr 2010-cu il tarixli səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə imzaladığı "İki ölkə arasındakı dövlət sərhədlərinin müəyyən edilməsi" haqqında Müqavilə aradan qalxmışdır. Samur çayı üzrə iki ölkənin sərhəd xətlərinin delimitasiyası, çayın Azərbaycan ərazisi kimi tanınması, lakin suyundan müştərək istifadə haqqında əldə olunmuş dövlətlərarası razılıq necə illərdir ki, qonşu Dağıstan vilayətinin bəzi rəhbərlərinin əsassız iddiaları üzündən yaranmış problemləri aradan qaldırmışdır.[75]

Təhlükəsizlik baxımından hazırda Azərbaycanın Rusiya ilə sərhədlərində ən həssas nöqtə Xəzər dənizi olaraq qalır. Məlum olduğu kimi, paytaxtı bilavasitə Xəzər dənizinin sahilində yerləşən yeganə ölkə Azərbaycandır. Bundan başqa, dənizin Azərbaycan sektorunda ən çox kəmərlər, enerji və sənaye infrastrukturları - neft-qaz platformaları, kompressor-nasos stansiyaları və s. qurğular da məhz Azərbaycana və onun tərəfdaşlarına məxsusdur. Bütün bunların mühafizəsi ciddi hərbi donanma və sahil mühafizə sisteminin yaradılmasını tələb edir. Bu gün üçün Xəzər dənizində tam döyüş qabiliyyətli

[75]Bax: "Ekspress" qəzeti, 16 sentyabr 2010-cu il

yeganə hərbi donanmanın Rusiyaya məxsus olduğunu nəzərə alsaq, həmin donanmanın nə zamansa, hansısa Xəzəryanı ölkəyə qarşı istifadə edilməyəcəyinə heç bir real beynəlxalq və regional təminat yoxdur. Doğrudur, 2010-cu ilin noyabr ayında Xəzəryanı ölkələrin Bakıda keçirilən sammitində Xəzərin ümumi təhlükəsizliyinə dair beş ölkə rəhbərlərinin birgə sazişi imzalanmış və dənizin militaristləşdirilməsinin yolverilməzliyi haqqında ümumi razılığa gəlinmişdir. Lakin hətta birgə saziş imzalanandan sonra, verilən məlumatlara görə, Rusiyanın hərbi-dəniz qüvvələrinin baş komandanı bəyan etmişdir ki, Rusiyanın Xəzər hərbi donanması "Cənub" vahid strateji komandanlığı altında tezliklə öz arsenalını daha 16 ədəd yeni hərbi gəmi, bir neçə aviasiya qrupu, işıq sürətli "Yaxont" raketləri ilə təmin edilmiş "Bastion" raket kompleksi və s. silahlarla zənginləşdirəcəkdir.[76] Bundan başqa, bəzi məlumatlara görə, 2014-cü ildə Rusiya Xəzər dənizindəki öz hərbi donanmasını 5 ədəd yeni hərbi gəmi və 10-a qədər hərbi qayıqla daha da gücləndirmək fikrindədir. [77] Mütəxəssislərin fikrincə, Rusiyanın Xəzər dəniz donanmasında malik olduğu və "Uran" raket daşıyıcıları ilə təmin olunmuş "Tatarıstan" və "Dağıstan" hərbi-mühafizə gəmiləri onsuz da Xəzər dənizindəki ən güclü gəmilər hesab olunurdu.

Göründüyü kimi, Rusiyanın Xəzərdəki hərbi-geostrateji imkanları qarşısında istənilən hövzə ölkəsinin, o cümlədən Azərbaycanın dəniz sərhədlərinin, hövzədəki enerji infrastrukturlarının, xüsusən, dəniz sahilində yerləşən paytaxtının təhlükəsizliyinin hər hansı geostrateji təhdiddən və yaxud asılılıqdan tam sığortalanması haqqında fikir söyləmək çətindir.

[76]Bax: Может ли Россия из-за энергоресурсов развязать войну на Каспийском море?// www.inosmi.ru/Asia/ 2011/07/12
[77]Bax: "Bizim dövr" qəzeti, 19 fevral 2014-cü il

Gürcüstan-Rusiya müharibəsinin təcrübəsi göstərdi ki, Rusiya lazım gələndə postsovet məkanında hər hansı hərbi-geostrateji fəaliyyət göstərməkdən çəkinməyəcəkdir.

Rusiya ilə Azərbaycanın quru və dəniz sərhədlərinin mühafizəsinə mənfi təsir göstərən bir çox amillər də mövcuddur. Bunların sırasında, mütəxəssislərin fikrinə görə:

- Rusiya federal strukturlarının vəziyyətin normallaşdırılması istiqamətində bəzi tədbirləri gücləndirməsinə baxmayaraq, Şimali Qafqaz regionunda qanunsuz silahlı dəstələr tərəfindən sərhədyanı ərazilərdə terror aktlarının davam etdirilməsi və ictimai-siyasi vəziyyətin gərgin qalması;
- siyasi münasibətlərin gərginləşməsi səbəbindən Rusiya ilə Gürcüstan arasında diplomatik və nəqliyyat əlaqələrinin kəsilməsi;
- terrorçu, dini ekstremist və digər qanunsuz silahlı qruplar tərəfindən dövlət sərhədinin pozulması cəhdlərinin davam etdirilməsi (2009-cu ilin iyul ayının 18-də Azərbaycanla dövlət sərhədini qanunsuz keçməyə cəhd göstərən terrorçu qrup zərərsizləşdirilmişdir. Əməliyyat zamanı 1 sərhədçi yaralanmış, 1 terrorçu məhv edilmişdir. Bununla yanaşı, külli miqdarda silah-sursat, hərbi geyim və ləvazimatlar aşkar edilmişdir) və s. xüsusi diqqət tələb edir.

Azərbaycan-Gürcüstan sərhədləri: Azərbaycanın Gürcüstanla mövcud olan 480 kilometrlik müştərək sərhədlərinin rayonlar üzrə uzunluğu müvafiq olaraq - Qazax rayonu (11.5 km), Ağstafa rayonu (107.9 km), Tovuz rayonu (33.6 km), Samux rayonu (75.0 km), Qax rayonu (65.7 km), Balakən rayonu (96.0 km) və Zaqatala rayonu üzrə (90.3 km) təşkil

edir. Sərhəd xəttinin 315 kilometri düzənlik ərazidən və 165 kilometri isə çaylar (göllər) üzrə keçir.

Mütəxəssislər – sərhədçilər Gürcüstan ilə sərhədin mühafizəsinə təsir göstərən amillər sırasına:

- Rusiya-Gürcüstan silahlı münaqişəsinin baş verməsi nəticəsində Gürcüstanın sərhədyanı rayonlarında əməliyyat şəraitinin qeyri-sabitliyini;
- Gürcüstanın ermənilər yaşayan hissəsinə Ermənistan tərəfindən ərazi iddialarının getdikcə artmasını;
- Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin fəaliyyətə başlaması ilə yanaşı, Şərqlə Qərbi Avropanı birləşdirən nəqliyyat dəhlizinin yaradılmasını nəzərdə tutan Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə dair üçtərəfli sazişin imzalanmasını və s. aid edirlər.

Azərbaycan-Ermənistan sərhədləri: Azərbaycanın Ermənistanla sərhədləri onun xarici aləmlə sərhədlərinin ən böyük hissəsini təşkil edir. Əksəriyyəti quru olmaqla, bu ölkə ilə sərhədlərin uzunluğu 1007.1 kilometrdir. Həmin sərhədlərin uzunluğu rayonlar üzrə müvafiq olaraq: Naxçıvan Muxtar Respublikası (274.3 km), Qazax rayonu (123.9 km), Ağstafa rayonu (19.7 km), Tovuz rayonu (50.9 km), Gədəbəy rayonu (101.7 km), Daşkəsən rayonu (9.2 km), Kəlbəcər rayonu (125.4 km), Laçın rayonu (128.9 km), Qubadlı rayonu (74.6 km) və Zəngilan rayonu üzrə (98.5 km) təşkil edir. Sərhəd xəttinin 1000.5 kilometri çətin mühafizə olunan dağlıq, 6,5 kilometri isə düzənlik ərazilərdən keçir.

Azərbaycanın Ermənistanla dövlət sərhədinin 733 kilometri işğalçı qüvvələrin nəzarəti altındadır.

Ermənistanla sərhədlərin mühafizəsi və təhlükəsizliyinə təsir göstərən amillər sırasına mütəxəssislər:

- Azərbaycan Respublikasının ərazisinin 20%-nin, o cümlədən Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrinin və Azərbaycan-Ermənistan dövlət sərhədinin 733 kilometrinin Ermənistan silahlı qüvvələri tərəfindən bilavasitə işğal olunmasını, 20 mindən çox vətəndaşın öldürülməsini, 50 mindən çoxunun yaralanmasını və əlilə çevrilməsini, erməni silahlıları tərəfindən dinc insanlara, qadın və uşaqlara, qocalara qarşı törədilmiş Xocalı soyqırımı və digər anti-insani kütləvi cinayət hadisələrini, əhalinin yaşayış məskənlərindən zorla qovulması və məcburi qaçqın-köçkünə çevrilməsini;
- sərhədin bu hissəsində ölkənin milli təhlükəsizliyinə birbaşa qəsd və onun suveren hüquqlarının kobud surətdə tapdanmasını, işğal olunmuş ərazilərdəki bütün yerli infrastrukturların, sənaye, kənd təsərrüfatı və mədəni-sosial mülkiyyətin və obyektlərin dağıdılmasını, bu ərazilərin ekoloji durumuna ciddi zərbə vurulmasını, münbit torpaqların çirkləndirilməsini, qeyri-münbit və şoranlaşmış ərazilərə çevrilməsini, torpaqların narkotik maddələrin becərilməsi və tranziti, ekoloji cəhətdən ziyanlı olan digər fəaliyyətlərin məskəninə çevrilməsini;
- ərazidə cəmlənmiş nəzarətsiz və qeyri-qanuni silahlı qüvvələrin, hərbi texnikanın həm Azərbaycanın torpaqlarına və əhalisinə, həm də bütün bölgənin təhlükəsizliyinə ciddi təhdidə çevrilməsini, regionda daimi təhlükə və geostrateji problemlər yaratmasını;
- faktiki olaraq beynəlxalq hüququn heç bir subyektinə tabe olmayan və bütün beynəlxalq normaların pozulduğu bu məkanda nəzarətsiz hərbi-separatçı rejimin

yaradılmasını və qeyri-qanuni fəaliyyətin davam etdirilməsini, problemin sülh yolu ilə həlli istiqamətində görülmüş işlərin nəticə verməməsini;

- Ermənistan tərəfindən blokada vəziyyətində saxlanılan Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının əsas hissəsi ilə birbaşa nəqliyyat əlaqəsinin pozulmasını və beynəlxalq aləmə yeganə çıxış yolu kimi Türkiyə və İran sərhədlərindən istifadə edilməsini;
- Cənubi Qafqazda həyata keçirilən transkontinental enerji layihələrindən kənarda qalmış Ermənistanın regional inteqrasiya və əməkdaşlıq proseslərinə qarşı daim təxribat törətməsini və pozucu fəaliyyət göstərməsini;
- Gürcüstan ərazisindən çıxarılan Rusiyaya məxsus hərbi texnikanın Ermənistanda və Ermənistanın işğal etdiyi Azərbaycan Respublikası ərazilərində yerləşdirilməsini, bu işğalçı ölkənin hərbi potensialının gücləndirilməsi istiqamətində Rusiya ilə birgə fəaliyyətin davam etdirilməsini və s. aid edirlər.

Azərbaycan-Türkiyə sərhədləri: Azərbaycanın Türkiyə Respublikası ilə sərhədi cəmi 15.0 kilometrdir. Bunun da əksəriyyəti Araz çayı boyunca Şərur-Sədərək rayonları (Naxçıvan Muxtar Respublikası) ərazisindən keçir. Azərbaycan üçün ciddi geostrateji əhəmiyyət kəsb edən və qardaş Türkiyə ilə geosiyasi birliyi təmin edən bu sərhəd sahəsi, bəlkə də ölkənin xarici aləmlə yeganə problemsiz hüdudu hesab olunur.

SSRİ-nin dağıldığı 1991-ci ildən sonrakı dövrdə aparılan ikitərəfli danışıqlara baxmayaraq, ölkənin həm quru, həm də dəniz sərhədlərinin böyük hissəsi **delimitasiya** olunsa da, *Xəzər vasitəsilə İran və Türkmənistanla, quru vasitəsi ilə isə Gürcüstanla sərhədlər tam* **demarkasiya** *olunmamış, yaxud bu*

proses başa çatmamışdır. Ermənistanla müharibə vəziyyəti davam etdiyinə görə onunla hətta sərhəd delimitasiyası da həyata keçirilməmişdir.

2010-cu il sentyabrın 3-də Rusiya Prezidenti Dmitri Medvedevin Azərbaycana rəsmi səfəri zamanı "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında" Müqavilə imzalanmışdır. Həmin sənədlə Azərbaycan və Rusiya sərhədlərinin delimitasiyası prosesi başa çatmışdır. Müqavilə 2010-cu il dekabrın 21-də Azərbaycan Respublikasının Milli Məclisi, 2011-ci il iyunun 17-də isə Rusiya Federasiyasının Dövlət Duması tərəfindən ratifikasiya olunmuşdur.

Azərbaycan-Gürcüstan sərhədlərinin müəyyənləşdirilməsi üzrə dövlətlərarası delimitasiya komissiyasının 2009-cu il 17-18 iyunda Tbilisidə keçirilmiş 10-cu iclasından sonra sərhədlərin 283 kilometri (59%) razılaşdırılmışdır.

Xəzəryanı ölkələrdən *İran və Türkmənistanla Xəzər dənizinin orta xəttinin müəyyən olunması və milli sektorların koordinatları məsələsində Azərbaycanın bir çox problemləri mövcuddur.* Doğrudur, Ermənistan istisna olmaqla, Azərbaycanın hər hansı həmsərhəd dövlətlə indiyə qədər ciddi sərhəd münaqişəsi və yaxud silahlı qarşıdurması (İran hərbi təyyarələrinin və sərhədçilərinin 2001-ci ildə Xəzər dənizinin Azərbaycana məxsus milli sektorunun "Alov" neft yatağında kəşfiyyat-qazma işləri aparan BP mütəxəssislərinə hərbi təzyiq göstərməsi və onları ərazini tərk etməyə məcbur etməsi faktı istisna olmaqla - Ə.H.) mövcud olmamışdır. Lakin Xəzəryanı və Cənubi Qafqaz ölkələri ilə ortaq sərhəd xətlərinin hələ də axıra qədər demarkasiya və delimitasiya edilməməsi ciddi narahatlıq mənbəyi olaraq qalmaqdadır. Bundan başqa, mütəxəssislərin məlumatına görə, 2020-ci ilə qədər Xəzəryanı ölkələrin hərbi dəniz qüvvələrinə və sahil mühafizəsinə bütövlükdə, təxminən 60-a

yaxın hərbi gəmi və kater daxil edəcəyi gözlənilir ki, bu da birbaşa dənizin millitaristləşdirilməsinə dəlalət edəcəkdir. Xəzər sahili ölkələrindən Rusiyanın 18, Qazaxıstanın 7-9, Türkmənistanın 12 və digərlərinin 2020-ci ilə qədər dənizə buraxacağı neçə-neçə hərbi gəmilərin mövcudluğu şəraitində, Azərbaycan rəsmiləri öz ölkələrinin Xəzər dənizindən qaynaqlanan təhlükəsizliyi haqqında ciddi düşünmək məcburiyyətində qalacaqdır.

Azərbaycanın qonşularından **dəniz sərhədlərinin orta xəttinin müəyyənləşməsində** İranla yanaşı, Xəzəryanı ölkələrdən problemli olaraq qalan ikinci dövlət **Türkmənistandır.** SSRİ dağılandan sonra Azərbaycan bu ölkə ilə dəniz sərhədlərinin orta xəttinin və Xəzərdəki bəzi neft-qaz yataqlarının mənsubiyyətinin müəyyənləşməsində bəzi problemlər yaşayır. Artıq yuxarıda qeyd olunduğu kimi, Xəzərin hüquqi statusu "müəyyənləşmədən" və onun milli sektorlarının delimitasiyası, demarkasiyası aparılmadan Azərbaycanın dənizdə həyata keçirdiyi beynəlxalq neft-qaz layihələrinə Türkmənistan da, Rusiya və İrana qoşularaq, rəsmi şəkildə müəyyən etirazlar səsləndirmiş və özünəməxsus iddialar irəli sürmüşdür. Əslində, öz milli maraqlarının ziyanına olaraq Xəzərin hüquqi statusunun müəyyən olunmasını indiyə qədər uzadan iki ölkədən biri məhz Türkmənistandır. Bu ölkə müstəqillik dövrünün ayrı-ayrı illərində xalqlarımızın ortaq din, dil, mədəniyyət və etnik soykökünə malik olmasını, iki ölkənin strateji maraq çərçivələrinin və geosiyasi, geoiqtisadi mənafelərinin üst-üstə düşməsini, bu maraqların onlar arasında strateji tərəfdaşlıq tələb etməsini nəzərə almadan, bəzi məsələlərdə tam anti-Azərbaycan mövqeyi nümayiş etdirmişdir. Lakin Azərbaycan rəhbərliyi bu ölkəni idarə edənlərin nə vaxtsa real gerçəkliyi dərk edərək, Xəzər hövzəsində respublikamızla eyni geosiyasi düşərgədə mövqe

tutacağına ümid bəsləmiş və onların bəzi əsassız bəyanatlarına, qeyri-sağlam hərəkətlərinə göz yummuşdur.

Türkmənistan özünü Xəzər hövzəsi və Orta Asiyada bitərəf dövlət elan edərək, bölgədəki təhlükəsizlik və hərbi-strateji bloklardan uzaq qalacağını bəyan etmişdir. Lakin bu ölkənin Xəzərdə həyata keçirmək istədiyi hərbi-geostrateji siyasət və bu haqda verdiyi bəzi bəyanatlar Azərbaycanı özünün hərbi və iqtisadi təhlükəsizliyi baxımından biganə qoya bilməz. Son dövrlərdə bəzi mənbələrin verdiyi məlumata görə, özünün "təhlükəsizlik maraqlarının təmin olunması"nı əsas gətirərək, Türkmənistan Xəzər dənizində güclü hərbi-dəniz qüvvələri yaratmaq, onu müasir texnika ilə təmin etmək haqqında milli proqram açıqlamışdır. Ölkənin Milli Təhlükəsizlik Şurasının qərarı ilə qəbul edilmiş həmin proqramda Türkmənistanın 2015-ci ilə qədər Xəzər hərbi-dəniz qüvvələri formalaşdırması, dənizdə hərbi-strateji planlar həyata keçirən, öz geoiqtisadi və təhlükəsizlik maraqlarını təmin edən hərbi donanma yaratması nəzərdə tutulmuşdur. Mütəxəssislər son illərdə bu ölkənin Xəzər dənizində yerləşən Türkmənbaşı hərbi-dəniz sərhəd dəstəsinə aldığı "Kalkan M", "Qrif T" tipli, Ukraynadan alınmış onlarla patrul katerlərini, İrandan alınmış 7 sahil-mühafizə hərbi katerini və bir ədəd minadaşıyan gəmini, ABŞ-la hərbi əməkdaşlıq çərçivəsində aldığı "Point Jackson" patrul katerini və digər hərbi-dəniz texnikasını, ölkə rəhbərliyinin səsləndirdiyi çoxsaylı anti-Azərbaycan bəyanatlarını və qeyri-standart hərəkətləri, o cümlədən İranın Xəzərin Azərbaycana məxsus "Alov" yatağına 2001-ci ildə həyata keçirdiyi hərbi müdaxilə nümunəsini və s. nəzərə alaraq, bu proqramı Azərbaycanın təhlükəsizlik maraqlarına bilavasitə təhlükə kimi qiymətləndirmiş və Xəzərdə yeni - "türkmən təhlükəsinin" gələcək geostrateji

konturlarını nəzərdən qaçırmamağı tövsiyə etmişlər.[78] Məlumatlara görə, bu yaxınlarda türkmən hərbi-dəniz donanması Rusiyadan alınmış iki ədəd "Sobol" patrul kateri ilə öz cəbbəxanasını bir qədər də gücləndirmişdir.[79] Bundan başqa, ən son məlumata görə, hazırda Türkmənistan Türkiyə hərbi şirkətlərindən biri ilə iki ədəd yeni gözətçi gəmi istehsal edir ki, onlar da silahlandırılaraq təyinatı üzrə Xəzər dənizinə daxil ediləcəklər.[80]

Türkmənistanın siyasi və hərbi dairələri Xəzərin hərbiləşdirilməsindən narahat olan ölkələrə verdiyi cavabda "bütün bu addımların hər hansı Xəzərətrafı dövlətə qarşı yönəlmədiyini, yalnız ölkənin dəniz sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıdığını" bildirsələr də, mütəxəssislər 2009-cu ilin avqust ayında Türkmənistan rəsmilərinin "Xəzər hərbi-donanması üçün raketlərlə təchiz olunmuş, bütün dəniz akvatoriyasını optik və lokasiya nəzarətində saxlayan müasir hərbi gəmilərin alınması haqqındakı" bəyanatının tamamilə fərqli geostrateji planlardan xəbər verdiyi qənaətindədirlər. Onların fikrinə görə, Türkmənistanın bu addımları Xəzərdə reallaşdırılan əsas transmilli neft-qaz layihələrinin sahibi qismində çıxış edən və bu sahədə Türkmənistanla bir çox problemi olan Azərbaycanı hamıdan artıq narahat etməlidir.[81]

Beləliklə, qloballaşan dünyada sərhəd təhlükəsizliyi məsələlərinin və ölkənin məkan təhlükəsizliyi tələblərinin qısa təhlili göstərir ki, digər xarici ölkələrdə olduğu kimi, Azərbaycanın

[78]Bax: Велиев Е. Каспий остается проблематичной зоной // газ. "Зеркало", 26 января 2010 г.
[79]Yenə orada
[80]Bax: "Bizim dövr" qəzeti, 19 fevral 2014-cü il.
[81]Bax: Велиев Е. Каспий остается проблематичной зоной // газ. "Зеркало", 26 января 2010 г.

da Milli Təhlükəsizlik Konsepsiyasına uyğun olaraq məxsusi sərhəd siyasəti formalaşdırılmalı, bu siyasətinin əsas məsələlərini özündə əks etdirən **Sərhəd Təhlükəsizliyi Konsepsiyası** hazırlanmalıdır. Ölkənin geoməkan xarakteristikası, sərhədlərinin xüsusiyyətləri və təhlükəsizliyi, onun təmin olunması yolları, vasitələri və ehtiyatları ilə bağlı bütün məsələlər həmin sənəddə öz əksini tapmalıdır.

§ 3.3. Milli enerji təminatı və təhlükəsizliyi siyasəti

Azərbaycan Respublikası Cənubi Qafqazın yeganə ölkəsidir ki, zəngin karbohidrogen ehtiyatlarına, inkişaf etmiş yanacaq-energetika infrastrukturuna və özünü tam təmin edən enerji sisteminə malikdir. Ölkənin təkcə milli və regional səviyyədə deyil, həm də dünya enerji sistemində getdikcə həlledici bir vəsiləyə çevrilməsi, transmilli enerji bazarlarında özünəməxsus yer tutması və Avropanın enerji təhlükəsizliyində fəal iştirakı onun regional və planetar geosiyasi, geoiqtisadi mövqeyinin möhkəmlənməsinə xüsusi təsir göstərməkdədir.

Azərbaycanın enerji ehtiyatları həm də milli iqtisadiyyatın bütün sahələrinin dinamik inkişafının əsasını təşkil edir, ölkənin ümumi daxili məhsulunun, əsas maliyyə - iqtisadi göstəricilərinin formalaşmasında həlledici amil kimi çıxış edir. Odur ki, mövcud təbii ehtiyatlardan, yanacaq-enerji potensialından səmərəli istifadə edilməsi siyasəti Cənubi Qafqazın regional geosiyasi və geoiqtisadi vəziyyəti fonunda ölkənin davamlı iqtisadi inkişafının və iqtisadi təhlükəsizliyinin əsas təminatlarından birini yaradır.

Geosiyasi ədəbiyyatda hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyin mühüm tərkib hissələrindən biri

kimi dəyərləndirilir. Enerji təhlükəsizliyi dedikdə, bütün ölkənin, onun vətəndaşlarının, cəmiyyətin, iqtisadiyyatın yanacaq və enerji təchizatı vasitəsi ilə xarici və daxili təhdidlərdən müdafiəsi nəzərdə tutulur. Xarici təhdidlərə geosiyasi, xaricdən qaynaqlanan makroiqtisadi xarakterli problemləri, daxili təhlükəsizliyə isə ölkənin milli enerji sektoru ilə birbaşa bağlı olan məsələləri aid edirlər.

Enerji təhlükəsizliyinin təmin olunmasının əsas prinsipləri aşağıdakılardır:

- strateji və mühüm obyektlərin enerji ilə etibarlı təmin olunması;
- sərf edilmiş yanacaq ehtiyatlarının yerinin doldurulması;
- yanacağın və enerji növlərinin diversifikasiyası (şaxələndirilməsi);
- ekoloji tələblərin nəzərə alınması;
- enerji ehtiyatlarından səmərəsiz istifadənin qarşısının alınması;
- daxili və xarici bazarlarda enerji ehtiyatlarının lazımi gəlir gətirməsi və səmərəli ixrac üçün azad iqtisadi şəraitin yaradılması və s.[82]

Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin əsasları, onun təmin olunması prinsipləri öz əksini "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanan və 1994-cü ildən həyata keçirilən yeni neft strategiyasında tapmışdır. Bundan başqa, Azərbaycanın transmilli və daxili enerji siyasəti, bu sahədə həyata keçirilən tədbirlər, reallaşdırılan vəzifələr və enerji təhlükəsizliyinin təmin olunması ilə bağlı digər məsələlər 2003-2014-cü illərdə qəbul olunmuş bir çox rəsmi dövlət sənədlərində də

[82]Bax: "Energetika haqqında" Azərbaycan Respublikasının Qanunu//www.mie.gov.az/cgi- bin/min/main.cgi.id

əks olunmuşdur. Bunların sırasında "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununu, "Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə" Dövlət Proqramını, "2005-2015-ci illərdə ölkənin yanacaq-enerji kompleksinin inkişafı" Dövlət Proqramını, "Şahdəniz 2" təbii qaz və s. göstərmək olar.[83]

Azərbaycan dövləti hazırda kənar təsirlərdən asılı olmayan milli enerji sektorunun yaradılması və davamlı iqtisadi inkişafının təmin edilməsi məqsədi ilə çevik enerji siyasəti həyata keçirir. Bu siyasətin prioritet vəzifələri *ölkənin təbii enerji ehtiyatlarının qorunması və səmərəli istifadəsi, milli energetika sektorunun inkişafı, əhalinin və iqtisadiyyatın neftə, qaza, elektrik enerjisinə və digər enerji daşıyıcılarına olan daxili tələbatının tam və davamlı təminatı, xarici ölkələrin Xəzər bölgəsindəki beynəlxalq, regional və yerli enerji maraqlarının və təhlükəsizliyinin respublikanın milli maraqları ilə əlaqələndirilməsi, ölkənin enerji təhlükəsizliyindən irəli gələn digər strateji məsələlərin həllindən ibarətdir.*

Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunması məqsədi ilə son illərdə ölkə daxilində bir sıra təşkilati-texnoloji tədbirlər həyata keçirilmiş və bu gün də keçirilməkdədir. Onların sırasına yanacaq-enerji kompleksinin texnoloji bazasının və infrastrukturların modernləşdirilməsi, yanacaq-enerji ehtiyatlarının mənimsənilməsi və istismarının dünya standartları səviyyəsinə qaldırılması, neft-qaz istehsalının ekoloji təmizliyinin və iqtisadi səmərəliliyinin artırılması və s. daxildir. Azərbaycanın enerji təhlükəsizliyi sahəsində həyata keçirdiyi daxili siyasətin əsas vəzifələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

[83]http://e-qanun.az

- yanacaq-enerji kompleksinin müasir tələblərə uyğun inkişafını müəyyənləşdirmək və təmin etmək;
- yanacaq-enerji kompleksinə daxil olan sənaye sahələrinin fəaliyyətində səmərəliliyin artırılması üçün müvafiq elmi-texniki və təşkilati tədbirlər həyata keçirmək;
- enerji ehtiyatlarının istehsalı, emalı, nəqli, saxlanması, uçotu və istehlakı üzrə mütərəqqi texnoloji tədbirlərin həyata keçirilməsini təmin etmək;
- yanacaq-enerji sektorunda sağlam rəqabət mühiti formalaşdırmaq;
- yanacaq-enerji kompleksinin inkişafına cəlb edilən sərmayələrin həcmini artırmaq;
- yanacaq-enerji kompleksində ekoloji təhlükəsizliyi təmin etmək;
- yanacaq-enerji ehtiyatlarının istehlakına görə ödənişlərin daha dolğun yerinə yetirilməsini təmin etmək və s.

Enerji təhlükəsizliyini təmin etmək üçün ötən illərdə Azərbaycan hökuməti həm də xarici siyasət sahəsində, transmilli və regional aləmlə sistemli iş aparmış, bu istiqamətdə aşağıdakı əsas tədbirləri həyata keçirmişdir:

- Xəzərin Azərbaycan sektorunda xarici investorların imkanlarından istifadə etməklə, enerji ehtiyatlarının istehsalı və satışı sahəsində səmərəli fəaliyyətin təşkil edilməsi, dünya yanacaq-enerji bazarında layiqli yer tutmaq üçün rəqabətə davamlı məhsul çıxarılması;
- ölkənin neft-qaz istehsalı və ixracının regional təhlükəsizliyinin təmin edilməsi və bu istiqamətdə beynəlxalq aləmin təminatının alınması;

- Azərbaycanın milli yanacaq-enerji tarazlığının yaradılması və daxili enerji təminatının xarici asılılıqdan çıxarılması;
- enerji sektorunda çevik elmi-texniki və innovasiya fəaliyyətinin təmin edilməsi, dünyada mövcud olan qabaqcıl texnoloji yeniliklərin tətbiq olunması və s.

Azərbaycanın son illərdə nümayiş etdirdiyi dinamik iqtisadi inkişaf ölkənin enerji ehtiyatlarına olan məxsusi tələbatını əhəmiyyətli dərəcədə artırmışdır. Bu isə öz növbəsində iqtisadi baxımdan səmərəli və dinamik inkişaf edən, ekoloji standartlara uyğun, qabaqcıl texnologiyalarla və yüksək ixtisaslı kadrlarla təchiz olunmuş yanacaq-energetika kompleksinin formalaşdırılmasını və modernləşdirilməsini tələb edir.

İqtisadiyyatın və ölkə əhalisinin enerjinin bütün növləri ilə uzunmüddətli və sabit təmin olunması elmi cəhətdən əsaslandırılmış enerji siyasəti ilə sıx şəkildə bağlıdır. Bu siyasətin əsas məqsədi həm də təbii yanacaq-enerji ehtiyatlarından iqtisadiyyatın inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün səmərəli şəkildə istifadə olunmasına yönəlmişdir.

Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunması ölkə səviyyəsində davamlı şəkildə aşağıdakı vəzifələrin həyata keçirilməsini nəzərdə tutur:

- ölkə iqtisadiyyatının və əhalinin uyğun qiymətlərlə enerji ehtiyatları ilə davamlı təmin olunması;
- ölkənin enerji təminatı sahəsində risklərin azaldılması və baş verə biləcək böhran hallarının qarşısının alınması;
- enerji ehtiyatlarından faydalı istifadə olunması və itkilərə yol verilməməsi;

- enerji daşıyıcılarının istehsalı, neft-qaz məhsullarının çıxarılması, emalı və nəqli zamanı itkilərin azaldılması;
- enerji sektorunun potensialından istifadə zamanı səmərəliliyin artırılması;
- müasir texnoloji vasitələrdən istifadə etməklə energetikanın ətraf mühitə texnogen təsirinin azaldılması və s.

Hazırda neft-qaz sənayesi ölkəmizin makroiqtisadi göstəricilərinə, xüsusilə, iqtisadi artım surətinə, sənaye istehsalının, ixracatın və investisiyaların həcminə, büdcə gəlirlərinə böyük təsir göstərməkdədir. Neft-qaz gəlirlərindən qaynaqlanan iqtisadi inkişaf regional infrastrukturların yeniləşməsinə, qeyri-neft sektorunun tərəqqisinə və yeni iş yerlərinin açılmasına güclü stimul verir. Azərbaycan ildə istehsal etdiyi təxminən 28 milyard kub metr qazın yarıdan bir qədər azını, 50 milyon tondan çox neftin beşdə birini daxili ehtiyacların ödənilməsinə, qalanını isə xarici ölkələrə ixraca yönəltmişdir. Hər iki istiqamətdə mövcud vəziyyət ölkənin tamamilə nəzarəti altındadır və xarici geoiqtisadi amillərdən asılılıq, demək olar ki, yox dərəcəsindədir.

Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində indiyədək 71 neft və qaz yatağı istifadəyə verilmişdir. Onlardan 43-ü quruda, 28-i Xəzərdəki milli sektorda yerləşir. Hazırda 54, o cümlədən quruda 36, dənizdə 18 yatağın dövriyyəyə daxil edilməsi ilə bağlı işlər davam etdirilir, 9 yataq isə kəşfiyyat mərhələsindədir. Azərbaycanda yataqların işlənməyə başlanmasından hazırkı dövrədək 1,5 milyard ton neft (kondensatla birlikdə) və 480 milyard kub metrdən artıq qaz hasil edilmişdir, o cümlədən dəniz sahəsindəki yataqlardan 0,5 milyard ton neft (kondensatla birlikdə) və 352 milyard kub metr qaz çıxarılmışdır.

Ölkənin yanacaq-enerji kompleksini daha da inkişaf etdirmək məqsədi ilə neft və qaz hasilatı sahəsində qarşıdakı illərdə aşağıdakı işlərin aparılması nəzərdə tutulur:

- yeni yataqların axtarışı və kəşfiyyatı;
- aşkar edilmiş yataqların tammiqyaslı işlənməyə cəlb edilməsi;
- işlənməkdə olan yataqlarda yeni quyuların qazılması və fəaliyyətsiz quyuların bərpası;
- işlənməkdə olan yataqlar üzrə neftvermə əmsalının artırılması məqsədi ilə yeni texnika və texnologiyaların tətbiqi;
- neft-qaz hasilatı, nəqli və emalı sistemlərinin tikilməsi, yenidən qurulması və modernləşdirilməsi;
- elm və texnikanın nailiyyətlərindən və qabaqcıl təcrübədən geniş istifadə edilməsi və s.

Azərbaycanın enerji təhlükəsizliyinin əsas istiqamətlərindən biri də ölkənin **elektrik enerjisinə** olan daxili ehtiyacının fasiləsiz təmin edilməsindən ibarətdir. Bu məqsədlə son illərdə qarşıya qoyulmuş əsas vəzifələr milli elektrik enerjisi sisteminin yenidən və müasir texniki tələblərə uyğun şəkildə qurularaq Avropa standartları səviyyəsinə çatdırılması, daxili enerji tələbatının tam ödənilməsi və qonşu ölkələrə elektrik enerjisi satışının artırılmasından ibarətdir.

Müstəqillik illərində, xüsusən də 2001-ci ildən başlayaraq Azərbaycanın milli elektrik enerji sistemi, enerji istehsal edən əksər strukturları yenidən qurulmuş, ölkədaxili və Azərbaycanı xarici ölkələrlə birləşdirən magistral elektrik xətləri yeniləşdirilmiş, şəhər və rayonlarda onlarla böyük və kiçik elektrik stansiyaları tikilmişdir. Bu da nəinki ölkənin elektrik enerjisinə olan illik təxminən 18 milyard kvt/saat daxili tələbatını ödəmə-

yə, eyni zamanda qonşu ölkələrə 2 milyard kvt/saata yaxın enerji ixrac etməyə imkan vermişdir.[84]

Azərbaycanın elektrik enerjisi sisteminə hazırda 13 istilik və 6 su elektrik stansiyası (ümumi elektrik istehsalının 90%-i istilik, 10%-i isə su elektrik stansiyalarının payına düşür) daxildir. "Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı"na uyğun olaraq, 2005-2015-ci illərdə respublikada ümumi gücü 3000 meqavata yaxın daha bir neçə elektrik stansiyasının istismara verilməsi nəzərdə tutulmuşdur ki, bu da Azərbaycanın həm daxili enerji təchizatını, həm də ixrac potensialını ciddi şəkildə artıracaqdır.

Azərbaycan özünün elektrik enerjisi təminatı ilə bağlı problemini (generasiya gücünü) həll etsə də, enerji sisteminin dayanıqlığını və etibarlılığını təmin edə biləcək digər sahənin - enerji ötürücü və paylayıcı sisteminin yenidən qurulmasını hələ də başa çatdıra bilməmişdir. Rəsmi məlumata görə, respublikanın enerji sisteminin əsas ötürücü xətlərinin (təxminən 100 min km. ötürücü xətlərinin) çoxu, 200-dən artıq yarımstansiyanın böyük əksəriyyəti sovet hakimiyyəti dövründən qalır və respublikanın etibarlı enerji təhlükəsizliyi tələblərinə cavab vermir. [85]

Azərbaycan Respublikasının enerji siyasətinin əsas vəzifələrindən biri də ölkənin Cənubi Qafqaz və Xəzər hövzəsinin elektrik enerjisi ixrac edən əsas dövlətlərindən birinə çevrilməsidir. Bu məqsədlə, bir tərəfdən, ölkədə elektrik enerjisi istehsalının artırılması, digər tərəfdən həmin enerjinin xarici ölkələrə çatdırılması sisteminin yenidən qurulması və yaxud da

[84]Bax: Azərbaycan energetikası. 2010-cu ilin I rübünün hesabatı. http://www.mie.gov.az/cgi-bin/min/main.cgi?id
[85]Yenə orada

yaradılması nəzərdə tutulur. Hazırda Azərbaycanın elektrik enerjisi sisteminin xarici ölkələrə əsas bağlantıları - Rusiya (330 kv-luq «Dərbənd-Yaşma» xətti), Gürcüstan (500 kv-luq «AzDRES-Muxranis Veli", 330 kv-luq "Ağstafa-Qardabani» xətləri), Türkiyə (154/220 kv-luq «İqdır-Babək» xətti) və İran (230 kv-luq «İmişli-Parsabad», 220 kv-luq «Astara», 132 kv-luq «Araz», 132 kv-luq «Culfa» yüksək gərginlikli hava xətləri və 11 kv-luq kabel xətti) vasitəsilə həyata keçirilir. Ölkənin elektroenergetika sistemində 2003-cü ildən çoxsaylı yeni istilik və su elektrik stansiyalarının tikintisi, mövcud enerji bloklarının müasirləşdirilməsi, alternativ enerji mənbələrindən (kiçik SES-lər, külək, günəş, termal sular və s.) istifadə edilməsi hesabına hazırda fəaliyyətdə olan generasiya güclərinin 2015-ci ildə 6500-7000 meqavata çatdırılması gözlənilir. Bu da həm daxili ehtiyacları tam ödəyəcək, həm də xaricə satılan enerji miqdarını bir neçə dəfə artırmağa imkan verəcəkdir.[86]

Müasir dünyanın inkişaf etmiş ölkələrində ənənəvi enerji mənbələrinin getdikcə tükənməsini və onlardan istifadə zamanı ətraf mühitə külli miqdarda ziyan vurulmasını nəzərə alaraq, ekoloji cəhətdən təmiz alternativ (bərpa olunan) enerji mənbələrindən (su, günəş və külək enerjisi, termal sular, biokütlə enerjisi) istifadəni günü-gündən genişləndirirlər. Bu sahədə ABŞ, Kanada, Almaniya, Finlandiya, Norveç, Danimarka, İspaniya, Yaponiya və Çin daha qabaqcıl mövqe tutur. Qeyd edək ki, inkişaf etmiş ölkələrdə bərpa olunan enerji mənbələrinin payına (su elektrik stansiyaları daxil olmaqla) ümumi istehsal olunan enerjinin 13,5 faizi düşür. Yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da ekoloji cəhətdən təmiz, alterna-

[86]Bax: Azərbaycan energetikası. 2010-cu ilin I rübünün hesabatı. http://www.mie.gov.az/cgi-bin/min/main.cgi?id

tiv (bərpa olunan) enerji mənbələrindən geniş istifadə edilməsinə imkan verir. Bu, istilik elektrik stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaətlə yanaşı, ətraf mühitə atılan zərərli tullantıların miqdarının xeyli azaldılması deməkdir. Ölkənin təbii potensialından istifadə etməklə, alternativ enerji mənbələrinin elektrik və istilik enerjisi istehsalına cəlb olunması elektroenergetikanın inkişafında mütərəqqi dəyişikliklər etməyə imkan yaradır. Külək enerjisi digər alternativ enerji mənbələri olan günəş, hidroenergetika, geotermal və biokütlə enerjisi ilə müqayisədə özünün maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə görə daha sərfəli hesab olunur.

Təcrübə göstərir ki, Azərbaycanın bir çox rayonlarında külək və digər bərpa olunan enerji mənbələrindən istifadə edilməsinin, bu yöndə müasir qurğuların qurulması və tətbiqinin böyük perspektivi vardır. Həmin perspektivi və mövcud imkanları nəzərə alan Azərbaycan hökuməti 2008-ci ildə "Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə" xüsusi Dövlət Proqramı qəbul etmiş və hazırda onun reallaşdırılmasına başlamışdır. Hesablamalara görə, Azərbaycan özünün coğrafi vəziyyətinə, təbii şəraitinə və iqtisadi infrastrukturuna görə 800 MVt-a yaxın illik külək enerji ehtiyatına malikdir. Həmin ehtiyat ildə 2,4 milyard kVt/saat elektrik enerjisinə bərabərdir. Bu isə, öz növbəsində, ildə 1 milyon tona yaxın şərti yanacağa qənaət, ən əsası isə külli miqdarda tullantıların, o cümlədən atmosfer üçün zərərli maddə olan karbon dioksidin qarşısının alınması deməkdir.[87]

Azərbaycanın transmilli dünya ilə enerji tərəfdaşlığı münasibətlərinin yaradılması

[87]Bax: Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı // www.mie.gov.az/cgi-bin/min/main.cgi?id

Keçən müddətdə Azərbaycanın Xəzər dənizində ona məxsus zəngin karbohidrogen ehtiyatlarını dünyanın aparıcı ölkələrinin qabaqcıl şirkətlərilə birgə yeni texnologiya əsasında istehsal etməsi və müstəqil marşrutlarla dünya bazarlarına çıxarması onun enerji təhlükəsizliyinə beynəlxalq dəstəyi artırmış, dünya enerji sistemindəki rolunu yüksəltmişdir. Bütün bunlar ölkənin enerji təhlükəsizliyinin qorunmasına və təmin olunmasına həm də beynəlxalq dəstəyi gücləndirmişdir. Bakı-Tbilisi-Ceyhan əsas neft və Bakı-Tbilisi-Ərzurum qaz ixracı kəmərləri dünya dövlətləri ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq münasibətlərinin yaranmasına və müvafiq olaraq onun iqtisadi cəhətdən inkişaf etməsinə təkan vermişdir.

Lakin Xəzər hövzəsində qlobal enerji layihələrinin reallaşması təkcə Azərbaycanın deyil, həm də bütövlükdə Avrasiya regionunun, beynəlxalq aləmin və transmilli dünyanın enerji təhlükəsizliyinə müsbət təsir etmiş, neft-qaz ixracı sahəsində uğurlu beynəlxalq tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət göstərmişdir. Azərbaycanın ciddi səyləri nəticəsində Xəzər bölgəsinin zəngin enerji ehtiyatlarından səmərəli istifadə, onun üzərində transmilli nəzarətin təmin olunması, neftin və qazın təhlükəsiz marşrutlarla dünya bazarlarına çatdırılması sistemi yaranmışdır ki, bu da qloballaşan dünyanın geosiyasi müstəvisində təkcə Azərbaycanın deyil, həm də bütöv Xəzər bölgəsinin geoiqtisadi rolunu artırmışdır. Azərbaycan Avropanın müasir enerji təhlükəsizliyi sistemində mühüm yer tutaraq yeni-yeni transmilli layihələrin hazırlanması və həyata keçirilməsində arzuolunan və etibarlı tərəfdaşa çevrilmişdir. Həmin tərəfdaş ölkələrlə birgə reallaşdırılan layihələr, çəkilən neft və qaz kəmərləri ona öz ixrac və təchizat marşrutlarını şaxələn-

dirməyə, əhalinin iqtisadi, sosial və s. tələbatlarını daha dolğun ödəməyə lazımi imkanlar yaratmışdır.

Xəzər hövzəsindən hasil edilən neft və təbii qazın Qara, Aralıq və Baltik dənizlərinin limanlarına, ətraf regionlara, habelə Mərkəzi Avropaya çatdırılması üçün transmilli enerji ixracının şaxələndirilməsi siyasətini həyata keçirən Azərbaycan hazırda çoxvariantlı ixrac marşrutlarının və kəmərlərinin yaradılmasına çalışır. Bu onun müstəqil enerji siyasətini və ixrac təhlükəsizliyini təmin etməklə yanaşı, həm də regionun neft-qaz ölkələrinin maraqlarına, Avropanın enerji təhlükəsizliyinə xidmət edir.

Azərbaycan bu gün regionda kənardan heç bir enerji asılılığı olmayan, bütün sahələr üzrə öz enerji tələbatını daxili imkanları hesabına tam ödəməyə qadir olan iki ölkədən biridir. Hazırda onun həyata keçirdiyi enerji siyasətinin məqsədi ölkənin dünya bazarlarına çıxış imkanlarını daha da artırmaqdan və dünya ölkələri üçün alternativ enerji mənbəyi yaratmaqdan ibarətdir. Son illərdə dünya enerji satışı bazarında çəkisini və rolunu xeyli dərəcədə gücləndirməsi Avropa dövlətlərinin Azərbaycanla əməkdaşlığa marağını daha da artırmışdır. Hazırda Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaması dünyanın inkişaf etmiş dövlətləri və aparıcı beynəlxalq təşkilatlar tərəfindən birmənalı şəkildə etiraf olunur.

2006-cı ilin noyabrında Brüsseldə "Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması həm Azərbaycanın, həm də Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyinə mühüm töhfə oldu. 2007-ci ilin may ayında Krakov şəhərində təşkil olunmuş enerji sammiti bu sahənin təhlükəsizlik məsələlərinin Avropa üçün getdikcə daha qlobal səciyyə daşıdığını, mühüm geosiyasi reallıqlarla şərtləndiyini

növbəti dəfə təsdiqlədi. Polşa, Azərbaycan, Gürcüstan, Litva və Ukrayna prezidentlərinin, eləcə də Qazaxıstanın dövlət nümayəndələrinin iştirak etdiyi bu sammitdə enerji sahəsində yeni subregional inteqrasiya modeli yaratmağın vacib olduğu vurğulandı. Sammit çərçivəsində müzakirə olunmuş Odessa-Brodı-Qdansk marşrutu Qara dənizə çıxarılan neftin Baltik dənizi sahilinə çatdırılmasını, oradan Avropa və dünya bazarlarına daşınmasını nəzərdə tutur. 2007-ci ilin oktyabrında Litvanın paytaxtı Vilnüs şəhərində "Vilnüs enerji təhlükəsizliyi konfransı - 2007: məsul tərəfdaşlar üçün məsul energetika" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak edən dövlətlər Xəzər dənizinin karbohidrogen ehtiyatlarının Avropa bazarlarına daşınması üçün milli şirkətlərin iştirakı ilə yeni konsorsiumun – "Sarmatiya"nın yaradılması barədə razılığa gəlmişlər. Bu konsorsiumun əsas məqsədi Azərbaycan, Gürcüstan, Ukrayna və Polşanın ərazisindən keçməklə, Xəzər dənizindən Avropaya və beynəlxalq bazarlara gedən daşınma sistemlərinin reallaşdırılmasını təmin etməkdən ibarətdir. Tədqiqatçıların fikrincə, belə bir konsorsiumun yaradılması Avropa Birliyinin enerji təhlükəsizliyi maraqlarına tam cavab verir. 2008-ci il noyabrın 13-14-də Bakıda keçirilən enerji sammitində Nabukko qaz layihəsinin reallaşmasında Azərbaycanın əsas söz sahibi olduğu bir daha aydınlaşdı.

Azərbaycan dövlətinin neft-qaz kəmərlərini şaxələndirməsi təkcə ölkənin enerji təhlükəsizliyinə xidmət etmir, eyni zamanda transmilli enerji ixracının daha səmərəli və məqsədyönlü təşkilinə müsbət təsirini göstərir. Hazırda Azərbaycan nefti üç istiqamət üzrə - Bakı-Tbilisi-Ceyhan vasitəsi ilə Aralıq dənizinə və dünya bazarlarına, Bakı-Supsa və Bakı-Novorosiysk xətləri vasitəsilə Qara dəniz limanları və Avropa bazarlarına çıxarılır. Növbəti layihə kimi, Bakı-Supsa xəttinin Odessa-

Brodı-Plotsk-Qdansk marşrutu ilə Şərqi Avropaya qədər uzadılması nəzərdə tutulur. Bu məqsədlə "Sarmatiya" adlı müştərək şirkətin təsis edilməsi də prosesin yaxın perspektivdə sürətlənəcəyinə dəlalət edir. Bundan sonra Xəzər dənizinin enerji ehtiyatlarının nəqli üçün Avropa bazarlarına əlavə marşrutların reallaşdırılması yönündə əməli addımlar atılması nəzərdə tutulur.

Bu gün Xəzər hövzəsindən neftin və qazın dünya bazarlarına çatdırılması yollarının şaxələndirilməsi ABŞ və Qərb dövlətlərinin geosiyasi maraqlarına da tam cavab verir. Onlar Avropa bazarlarına neft göndərilməsi üçün Avrasiya neft nəqli dəhlizi sistemində Odessa-Brodı neft kəmərinin işə salınmasını, bölgənin karbohidrogen ehtiyatlarının etibarlı və təhlükəsiz nəqli üçün Xəzər-Qara dəniz və Xəzər-Baltik dənizi Enerji Tranziti Məkanının yaradılması təşəbbüslərini davam etdirməyi vacib sayırlar. Bundan başqa, Qərb tərəfdaşları hesab edirlər ki, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Avropa bazarlarına nəqli regional əməkdaşlığın daha da möhkəmlənməsinə əhəmiyyətli dərəcədə təsir göstərir, dünyada enerji ehtiyatlarının hasilatçı, istehlakçı və tranzit ölkələrinin qarşılıqlı faydalı maraqlarını təmin edir. Bu dövlətlər Azərbaycanın Avropa və dünyanın enerji bazarlarına alternativ marşrutlar axtarma və ixracı şaxələndirmə siyasətini, Nabukko da daxil olmaqla, Gürcüstan, Türkiyə, Rumıniya, Bolqarıstan və s. kimi etibarlı, qeyri-asılı tranzit ölkələrinin ərazisi ilə yeni-yeni neft və qaz ixracı marşrutlarının yaradılması səylərini dəstəkləyirlər.

Qərbin Azərbaycanı özünün enerji təhlükəsizliyinin əsas təminatçılarından biri kimi qəbul etməsi Avropa İttifaqı - Azərbaycan əlaqələrini strateji səviyyəyə yüksəltmişdir. Bunun nəticəsidir ki, yuxarıda qeyd edildiyi kimi, 2006-cı il noyabrın 7-də Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında

enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair xüsusi Anlaşma Memorandumu imzalanmışdır.

Azərbaycan qazını Avropa bazarlarına çatdıracaq Türkiyə-Yunanıstan qaz kəmərinin 2007-ci il noyabrın 18-də istismara verilməsi ölkəmizlə Avropa İttifaqı arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın, həmçinin enerji tranzitinin yeni istiqamətini yaratmışdır. Bu kəmər Azərbaycan, Türkiyə və Yunanıstan üçün böyük geosiyasi əhəmiyyət daşımaqla bərabər, həm də enerji sahəsində bölgədə yeni transmilli iş birliyinin əsasını qoyur.

Türkiyə-Yunanıstan qaz kəmərinin işə salınması ilə Avropa İttifaqı - Azərbaycan əməkdaşlığı bəhrəsini verməyə başlayır. Yunanıstan Avropa İttifaqının üzvü olaraq enerji sahəsində Azərbaycanla əməkdaşlıq edir. Yaxın gələcəkdə bu əməkdaşlığa digər Avropa İttifaqı ölkələrinin də qoşulacağı gözlənilir. Çünki bu məsələ enerji təhlükəsizliyinin təminatı baxımından ilk növbədə Avropa İttifaqına daxil olan dövlətlərin geosiyasi maraqlarına cavab verir. Artıq kəmərin Yunanıstandan İtaliya sərhədlərinə qədər uzanması barədə sənəd də imzalanmışdır.

Bundan başqa, 2010-cu ilin aprel ayında Buxarestdə, sentyabr ayında isə Bakıda Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstanın dövlət və hökumət başçılarının imzaladıqları müqaviləyə uyğun olaraq, AGRİ layihəsi çərçivəsində Azərbaycan qazının boru vasitəsi ilə Gürcüstanın Qara dəniz limanlarına çatdırılması, sonra sıxılaraq gəmilər vasitəsi ilə Rumıniya ərazisinə daşınması və oradan da Macarıstana, Bolqarıstana və digər Avropa ölkələrinə nəqli marşrutu yaradılmışdır. Bu marşrutla və 2012-ci ildə Azərbaycanla Türkiyə arasında inşası və ixrac şərtləri razılaşdırılmış Trans-Anadolu (TANAP) qaz kəməri vasitəsilə gələcəkdə Avropa ölkələrinə ildə, təxminən 20 -30 milyard kubmetr maye qazın ixracı nəzərdə tutulur.

Nəzərə alınsa ki, Azərbaycan Bakı-Tbilisi-Ərzurum qaz kəməri vasitəsilə 2005-ci ildən Türkiyə və Gürcüstana, Bakı-Mozdok və Bakı-Astara kəmərləri ilə 2009-cu ildən həm də qonşu Rusiya və İrana qaz ixrac edir, o zaman xarici bazarlara sərbəst çıxmaq və öz qazını müstəqil şəkildə ixrac etmək istiqamətində Azərbaycanın enerji təhlükəsizliyi tam təmin olunubdur.

2013-cü ilin dekabr ayında Bakıda dünyanın aparıcı neft-qaz şirkətləri və bir çox Avropa ölkələri ilə "Şahdəniz-2" layihəsi üzrə təbii qazın istehsalı, bölüşdürülməsi və ixracı üzrə yekun investisiya qərarının imzalanması isə XXl əsrdə nəinki təkcə Azərbaycanın, o cümlədən Avropa və dünyanın enerji təhlükəsizliyinin təmin edilməsində önəmli rol oynayacaqdır. "Şahdəniz-2" layihəsi Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsinə xidmət etməklə Trans-Anadolu və Trans-Adriatik qaz boru kəmərlərinin tikintisi ilə bağlı planların reallaşmasına təkan verəcək, Avropaya yeni qaz dəhlizi açacaq.[88]

Avropa ölkələri və aparıcı şirkətlərlə enerji sahəsindəki mövcud tərəfdaşlıq münasibətləri Azərbaycana özünün böyük qaz ehtiyatlarını dünya enerji bazarlarına çıxarmaq imkanı yaradır. Mütəxəssislərin fikrinə görə "Mərhələ-2" çərçivəsində işlənilməsi planlaşdırılan "Şahdəniz"in əlavə ehtiyatlarından, bu yaxınlarda Xəzərdə kəşf edilmiş "Abşeron" və "Ümid" yataqlarının, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundakı dərin qaz ehtiyatlarının, olduqca perspektivli "Şəfəq-Asiman", "Babək", "Zəfər-Məşəl" və başqa strukturların potensialından tam istifadə ediləcək.

[88]Bax: "Azərbaycan" qəzeti, 19 dekabr 2013.

§ 3.4. Geoiqtisadi müstəqillik və təbii ehtiyatların təhlükəsiz istifadəsi siyasəti

Bütün dövrlərdə hər bir dövlətin *regional geoiqtisadi siyasətinin* əsas vəzifəsi ilk növbədə ölkənin *geoiqtisadi müstəqilliyini, təbii ehtiyatlarını və iqtisadi təhlükəsizlik maraqlarını* təmin etməkdən ibarət olmuşdur. Geoiqtisadi təhlükəsizlik maraqları anlayışı siyasi ədəbiyyatda *ölkənin milli iqtisadiyyatının inkişafı və təhlükəsizliyinin təmin olunması, iqtisadi həyatının arzuolunmaz xarici təsirlərdən qorunması və ətraf aləmdən geoiqtisadi asılılığının aradan qaldırılması* kimi təqdim olunur.

Məlum olduğu kimi, dövlətlər daxili inkişaf siyasətlərini formalaşdırarkən ilk növbədə özlərinin malik olduğu iqtisadi, sosial və əmək ehtiyatlarını təhlil edir, onların səmərəli istifadəsinin yollarını düşünür, ölkə əhalisinin yaşayışı, sosial – iqtisadi təminatında mühüm əhəmiyyət kəsb edən məsələləri müəyyənləşdirir və həlli ilə bağlı milli strategiya hazırlayaraq həyata keçirirlər. Dövlətin əsas elmi-tədqiqat və idarəçilik institutları ölkənin və əhalinin iqtisadi və sosial tələbatını, iqtisadi inkişafın daxili və xarici amillərdən asılılıq dərəcəsini öyrənir, iqtisadi müstəqilliyi və təhlükəsizliyi təhdid edən, yaxud iqtisadi inkişafa mane olan halları araşdırır, proqnozlaşdırır və həlli yollarını təklif edirlər.

Müstəqilliyinin ilk illərində Azərbaycanın iqtisadi həyatında cərəyan edən total böhran və hərc-mərclik, demək olar ki, respublika səviyyəsində iqtisadi idarəçilik sisteminin tam pozulmasına, əhalinin sosial-iqtisadi tələbatlarını təmin edən müəssisələrin fəaliyyətinin dayanmasına səbəb olmuşdu. Bundan başqa, milli iqtisadi strategiyanın yoxluğu, postsovet ölkələri arasında təsərrüfat - nəqliyyat əlaqələrinin pozulması

və s. nəticəsində keçmiş SSRİ məkanındakı bazarlara məhsul ixrac edən müəssisələr öz işini dayandırmış, qarşılıqlı iqtisadi əlaqələr kortəbii şəkil almışdı. Bütün bu hallar müvafiq olaraq, respublikanın sənaye müəssisələrinin bütövlüklə iflic olmasına və fəaliyyətini dayandırmasına, ölkədə total işsizliyin yaranmasına gətirib çıxarmışdı. Daxili bazara işləyən müəssisələrdə mitinqlər, siyasi çəkişmələr və digər aksiyalar nəticəsində istehsal prosesi və işin ahəngi pozulmuşdu. Belə vəziyyət həmin dövrdə respublikanın bütün sahələrini bürümüş korrupsiya və rüşvətxorluq, milli əmlakın talanması və digər mənfi hallar da daxil olmaqla, Azərbaycanı qaçılmaz sosial – iqtisadi böhrana sürükləyərək, milli iqtisadiyyatı iflic vəziyyətinə salmışdı.

Bundan başqa, respublikanın sovet hakimiyyəti dövründə yaradılmış milli iqtisadi və sənaye potensialı – zavod və fabriklərin qiymətli avadanlıqları sökülərək dəmir qırıntıları qismində xarici ölkələrə satılmış, milli iqtisadiyyatın texnoloji bazası məhv edilmişdi. Azərbaycan iqtisadiyyatının şah damarı hesab olunan neft sənayesində isə işlər daha ağır vəziyyətdə idi. Bu sahəni ələ keçirmiş bir qrup transmilli cinayətkar elementlər ölkənin zəngin neft məhsullarının və onun satışından əldə olunan gəlirlərin milli iqtisadi inkişafa yönəlməsinin qarşısını alır, bu strateji məhsullardan gələn gəlirləri öz maraqları naminə istifadə edirdilər. Vəziyyət o qədər pisləşmişdi ki, Azərbaycanın ÜDM istehsalı SSRİ dövründəki səviyyədən bir neçə dəfə aşağı düşmüşdü.

Fikrimizcə, geoiqtisadi anlamda Azərbaycanın milli inkişafı və iqtisadi maraqlarının təhlükəsiz təminatı həmin dövr üçün bir neçə əsas vəzifəsi var idi. Onları aşagıdakı kimi təsnif etmək olar:

- İlk növbədə, günü-gündən dərinləşən iqtisadi böhranı dayandırmaq, respublika səviyyəsində məqsədyönlü

yaxud kortəbii şəkildə həyata keçirilən iqtisadi dağıntıların qarşısını almaq, ölkənin milli iqtisadiyyatı və vətəndaşların həyati tələbatı üçün yaranmış təhlükələri aradan qaldırmaqdan ibarət idi.

- İkincisi, müstəqilliyə qovuşduqdan sonra Azərbaycanın bəyan etdiyi "açıq ölkə" siyasəti, bazar iqtisadiyyatına keçid, xarici aləmlə iqtisadi inteqrasiya, biznes mühitinin liberallaşdırılması, azad mülkiyyətçilik xəttinin qəbul olunması və s. kimi addımlar bütövlükdə müsbət hal olsa da, bu xətt öz-özlüyündə Azərbaycanın müstəqil iqtisadi inkişafını, iqtisadi və sosial təhlükəsizliyini təmin etmirdi. Bunun üçün, Azərbaycan ilk növbədə ərazisindəki mövcud iqtisadi və əmək ehtiyatlarının düzgün qiymətləndirilməsi, qorunması, səmərəli istifadəsi və faydalı idarə edilməsi strategiyasını müəyyən etməli idi.
- Üçüncüsü, o dövrdə ölkənin iqtisadi maraqları SSRİ tərkibindən ayrılmış region ölkələri ilə əvvəlki iqtisadi-təsərrüfat əlaqələrinin pozulmasını deyil, əksinə, bu əlaqələri saxlamaqla tədricən və düşünülmüş formada dünyanın qabaqcıl iqtisadi sistemlərinə, xüsusən, Avropa İttifaqı sisteminə səmərəli inteqrasiya siyasəti yürütmək tələb olunurdu. Azərbaycanın belə bir sistemə inteqrasiyası onun arzuolunmaz regional geoiqtisadi təsirlərdən xilas olmasına və geoiqtisadi müstəqilliyinə zəmin yarada bilərdi. Bu, həm də Azərbaycanın o dövr üçün böyük ehtiyac duyduğu qabaqcıl dünya texnologiyalarının, xarici investisiya və kapitalın ölkə iqtisadiyyatına cəlb olunmasına və bunun nəticəsində yanacaq-energetika, neft və qeyri-neft sektorunun inkişafının təmin edilməsinə, ölkənin zən-

gin təbii sərvətlərindən, mövcud iqtisadi ehtiyatlarından onun inkişafı naminə daha səmərəli, təhlükəsiz və itkisiz istifadə edilməsinə imkan yarada bilərdi.

Azərbaycanın iqtisadi müstəqilliyi və geoiqtisadi maraqlarının təhlükəsizliyinin bəhs olunan dövr üçün ən uğurlu, səmərəli və faydalı yolu, əlbəttə, ABŞ və Avropa İttifaqı ölkələri, Yaponiya, Çin və s. kimi beynəlxalq güclərlə transmilli əməkdaşlıqdan keçirdi. Uğurlu xarici iqtisadi siyasət yürütməklə bu ölkələrin iqtisadi, maliyyə-texnoloji imkanlarından istifadə etmək, milli iqtisadi inkişafa, geoiqtisadi müstəqilliyə və təhlükəsizliyə nail olmaq mümkün idi. Ölkənin ciddi böhrana düçar edilmiş və dağılmaqda olan iqtisadiyyatını da o dövrdə yalnız xarici iqtisadi strukturların maliyyə-texniki imkanlarından istifadə etməklə qaydaya salmaq olardı.

Bundan başqa, daxili iqtisadi, sosial və digər strukturların fəaliyyətinin bərpası, bütün bu sahələrdə tədrici inkişafa nail olunması və islahatlar yolu ilə iqtisadi fəaliyyətin səmərəliliyinin yüksəldilməsi, onun dünya standartları səviyyəsinə çatdırılması da ilk növbədə Qərblə, dünyanın digər inkişaf etmiş ölkələri ilə faydalı tərəfdaşlıq münasibətlərinin yaradılmasından asılı idi. Çünki həmin dövrdə, malik olduğu zəngin karbohidrogen ehtiyatlarını dövriyyəyə buraxmaq və bu əsasda öz iqtisadi inkişafını təmin etmək üçün Azərbaycana hava və su kimi üç əsas siyasi və maddi resurs lazım idi. Bunlar ilk növbədə:

- milyardlarla ölçülən maliyyə vəsaitindən,
- dənizdə ən qabaqcıl neft-qazçıxarma və daşıma texnologiyasından,
- Xəzər hövzəsində, bütövlükdə Avrasiya enerji sektorunda Azərbaycanla tam bərabərhüquqlu, qarşılıqlı

faydalı əməkdaşlıq istəyinə malik olan xarici dövlət, dövlətlər birliyi və iri transmilli şirkətlərdən ibarət idi.

Belə imkan və ehtiyatlar həmin dövrdə nə Azərbaycanın üzv olduğu Müstəqil Dövlətlər Birliyi ölkələrində, nə üstün regional geosiyasi mövqeləri ilə Azərbaycanı öz ənənəvi təsir zonasında saxlamağa can atan və yeni enerji siyasətində ona rəqib kimi yanaşan Rusiya və İranda, nə də Azərbaycanla əlaqələrdə özünü müttəfiq, tərəfdaş hesab edən, lakin iqtisadi istəyi mövcud imkanlarından qat-qat üstün olan dost Türkiyədə və başqa tərəfdaş ölkələrdə mövcud idi. Odur ki, Azərbaycan tam doğru olaraq bu sahədə özünə tərəfdaş kimi ABŞ və Avropa İttifaqı ölkələrini, Yaponiya və s. inkişaf etmiş dünya dövlətlərini seçdi. Onlar da sonrakı illərdə təsirləri altında olan digər qabaqcıl ölkələri, beynəlxalq maliyyə və texnologiya strukturlarını - Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Ümumdünya Ticarət Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi transmilli maliyyə qurumlarını Azərbaycanın enerji layihələrinə yönəltdilər. Bu addımları mütəxəssislər, müstəqilliyə qovuşduğu andan Azərbaycanın həyata keçirdiyi ən uğurlu xarici iqtisadi fəaliyyət kimi dəyərləndirmişlər.

Bu gün də Azərbaycanın iqtisadi müstəqilliyi və maraqlarının təhlükəsizliyinin əsas təminatlarından biri hesab olunan Qərblə iqtisadi əlaqələrin qurulması və qabaqcıl dünya sisteminə inteqrasiya xətti ölkənin vacib geoiqtisadi vəzifəsi olaraq gündəmdə dayanır. İnkişaf etmiş Qərb ölkələri ilə əlaqələrini müvəffəqiyyətlə davam etdirmək üçün Azərbaycan mütəmadi olaraq özünün Avrasiya məkanında kəsb etdiyi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji əhəmiyyətini, siyasi-iqtisadi perspektivlərini, malik olduğu zəngin enerji ehtiyatlarının dünya ölkələrinə gətirəcəyi əlavə dividentləri lazımi səviyyədə təqdim və təbliğ etməlidir. Çünki yalnız inkişaf etmiş dünyanın

köməyi və davamlı dəstəyi ilə ölkə iqtisadiyyatında başlanmış struktur islahatlarını müvəffəqiyyətlə başa çatdırmaq, dünyanın liberal istehsal, ticarət və biznes məkanına inteqrasiya olunmaq, hərtərəfli dinamik inkişaf yoluna çıxmaq, Cənubi Qafqazın lider dövləti statusunu qoruyub saxlamaq, lazım olan əlverişli beynəlxalq transmilli dəstəyə nail olmaq mümkündür.

Qloballaşmanın vüsət aldığı müasir dünyada Azərbaycan kimi ölkələr özlərinin iqtisadi strategiyaları ilə həm gələcək iqtisadi inkişafı və geoiqtisadi maraqlarının təhlükəsizliyini müvəffəqiyyətlə təmin edir, həm də beynəlxalq transmilli şirkətlərin ölkə ərazisindəki fəaliyyətini milli maraqların qorunması istiqamətinə yönəldirlər. Qloballaşmanın yeni tələbləri çərçivəsində *iqtisadi inkişafın və geoiqtisadi maraqların təhlükəsizliyinin özünü büruzə verən əsas tərəflərindən biri ölkənin mövcud geoməkanının iqtisadi inkişaf səviyyəsini, təsərrüfat funksiyasının dinamikasını və struktur xarakteristikasının digər amillərini nəzərə alaraq, çevik iqtisadi fəaliyyət nümayiş etdirməkdən ibarətdir.* Hər bir dünya ölkəsində olduğu kimi, Azərbaycanın da milli ərazisinin geoiqtisadi dəyəri, başqa keyfiyyətləri ilə yanaşı, həm də onun istifadə olunan və olunmayan təbii ehtiyatları, iqtisadi və əmək ehtiyatları, milli iqtisadiyyatının inkişaf potensialı, işçi qüvvəsinin keyfiyyəti, miqdarı və dəyəri, sənaye müəssisələrinin vəziyyəti, infrastrukturların, tikililərin, əkinçilik üçün yararlı torpaqların və onlardan istifadənin vəziyyəti, əlverişli iqlimi və s. ilə müəyyən olunur.

Bundan başqa, ölkə ərazisinin iqtisadi strukturunun, əmək və işçi ehtiyatlarının, ekoloji, sosial və mədəni inkişaf meyillərinin, əhalinin daimi məşğuliyyətinin, cəmiyyətin milli və ya kosmopolit inkişaf meyilliliyinin elmi və praktiki cəhətdən öyrənilməsi və nəzərə alınması, miqrasiya, demoqrafiya siyasə-

tinin düzgün idarə olunması və s. də iqtisadi təhlükəsizliklə bağlı bəhs olunan amillərə aid edilir.

Digər tərəfdən, *Azərbaycanın malik olduğu geoməkanın mövcud iqtisadi strukturlarının və mexanizmlərinin beynəlxalq iqtisadiyyatla bağlılığı və inteqrasiya imkanları, qapalı və yaxud liberal xarakter daşıması, dövlətin yürütdüyü iqtisadi siyasətin idarə olunmasında rəsmi qurumların və sahibkarların rolu, yerli və transmilli şirkətlərin kapital qoyuluşundakı payları və s. kimi məsələlər də onun iqtisadi müstəqilliyi və təhlükəsizliyi baxımından ciddi önəm kəsb edir*.

Azərbaycanın *əlverişli iqlim şəraitinə, münbit torpaqlara, zəngin maddi ehtiyatlara malik olması, respublikada lazım olduğundan artıq işçi qüvvəsinin mövcudluğu hökumətdən bu sahə ilə bağlı da xüsusi dövlət proqramının və iqtisadi planlaşdırmanın tərtib olunmasını, istehsalın strukturunun və xarakterinin tədqiqini, yerli istehsalın taktikasını, məhsulların reallaşdırılması və satışının təşkil olunmasını və s.* tələb edir. Bütün bu işlərin təşkili ölkənin **İqtisadi İnkişaf Strategiyanın** (İİS) hazırlanması və həyata keçirilməsini zəruri edir.

Azərbaycan neft ölkəsidir və bu amil müvafiq olaraq onun iqtisadi inkişafının əsasını təşkil edir. Ölkənin ümumi daxili məhsul istehsalının, milli gəlirinin və büdcəsinin formalaşması, iqtisadi inkişafının və təhlükəsizliyinin əsası da daha çox neft-qaz amilinə söykənir. Bu faktı mütəxəssislər təbii hal və reallıq kimi qiymətləndirirlər. Lakin eyni zamanda *ölkənin iqtisadi və sosial tələblərinin neftdən asılılığını getdikcə azaltmaq və minimuma endirmək, əmək ehtiyatlarından düzgün istifadə etmək, bütövlükdə ölkənin iqtisadi inkişafını müstəqil şəkildə təmin etmək onun iqtisadi strategiyasının əsas vəzifələrindən* biridir.

Məlum olduğu kimi, 1994-cü ildən başlayaraq Azərbaycanın daxildə və dünyada həyata keçirdiyi yeni neft strategi-

yasının və ölkənin xarici iqtisadi siyasətinin əsas vəzifəsi Xəzər dənizinin ona məxsus olan milli sektorunda mövcud olan karbohidrogen ehtiyatlarının qabaqcıl Qərb texnologiyası və investisiya imkanlarından səmərəli istifadə etməklə çıxarılması, təhlükəsiz yollarla dünya bazarlarına çatdırılması, satışından əldə edilən vəsaitlə ölkənin gələcək inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi, əhalinin iqtisadi və sosial ehtiyaclarının ödənilməsi və sairdən ibarət olmuşdur. Bununla bağlı, həm də Xəzərin sektor bölgüsü, neft-qaz ixrac boru kəmərlərinin çəkilişi və təhlükəsizliyinin təmin olunması, ölkə iqtisadiyyatına davamlı xarici sərmayələrin cəlb edilməsi və səmərəli istifadəsi, dünya neft-qaz bazarında lazımi yer tutmaq kimi çətinliklərin aradan qaldırılması, bu sahədə xarici dövlətlərin imkanlarından maksimum yararlanmaq və s. kimi vəzifələr də bəhs olunan fəaliyyətin əsas prioritetlərindən olmuşdur.

Lakin qeyd etdiyimiz kimi, mütəxəssislər Azərbaycan tipli ölkələrin özünün bütün iqtisadi inkişafını, sosial-mədəni problemlərinin həllini neft amilinin üzərində qurmasını birmənalı mənfi qiymətləndirir və belə ölkələrin gələcək inkişaf perspektivlərinin ürəkaçan olmayacağını proqnozlaşdırırlar. Odur ki, *ölkənin iqtisadi inkişafı və təhlükəsizliyində neft gəlirlərindən asılılığın azaldılması, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafına nail olunması və s.* kimi işlər indiki halda çox ciddi əhəmiyyət kəsb edir, bugünkü və gələcək nəsillərin firəvan həyatının təmin edilməsində önəmli rol oynayır. Bu mənada Prezident İlham Əliyevin "neft gəlirlərindən istifadə etməklə, qeyri-neft sektorunun inkişafının təmin olunması, ölkənin bütün regionlarının infrastrukturlarının yenidən qurulması, əksər sosial-iqtisadi və əmək ehtiyatlarının işə salınması və səmərəli istifadəsi Azərbaycanın iqtisadi inkişaf strategiyasının əsasını təşkil etməlidir" - fikri bu gün və gələ-

cəkdə ölkənin iqtisadi təhlükəsizliyinin mühüm amili olaraq, onun milli təhlükəsizliyinin əsas vəzifələrindən birinə çevrilməlidir.[89]

Müstəqilliyinin ilk illərindən Azərbaycanın rastlaşdığı əsas problemlərdən biri də ölkənin *maliyyə müstəqilliyinin qorunması, milli pulun xarici valyutalardan asılılığının aradan qaldırılması və həyata keçirilən iqtisadi siyasətin maliyyə təminatının dönmədən həll edilməsi* idi. İlk illərdə milli pul vahidi demək olar ki, xarici valyutalardan tam asılı vəziyyətdə idi ki, bu da ölkədə davamlı olaraq iqtisadi, siyasi, maliyyə-kredit böhranı yaradır, Azərbaycanın milli pul vahidinin sabit kursunu pozurdu. Bundan başqa, qeyri-peşəkar makro və mikroiqtisadi fəaliyyət, kredit, investisiya və pul siyasəti də o dövrdə Azərbaycanı xarici kapitalın, ilk növbədə rus rublu və ABŞ dollarının tam təsiri altına salmışdı. İnflyasiya prosesləri ölkənin iradəsindən asılı olmayaraq cərəyan edir, nəzərdə tutulan büdcə, xəzinə və s. proqnozlar mütəmadi olaraq pozulur və iflasa uğrayırdı.

1996-2005-ci illərdə həyata keçirilən məqsədyönlü maliyyə-pul siyasəti və görülmüş ciddi tədbirlər ölkədə mövcud böhranı aradan qaldırdı, inflyasiyanı sabitləşdirdi, büdcə, xəzinə, xarici investisiya qoyuluşu və maliyyə-kredit problemlərini həll etdi. 2005-ci ildə manatın denominasiyası haqqında fərman imzalandı, xəzinəyə iki milyard ABŞ dollarından artıq pul toplandı, neft gəlirlərinin vahid fonda yığılması və istifadəsi strategiyası müəyyən edildi. Bu da ölkənin maliyyə təhlükəsizliyinin təmin edilməsində ciddi dönüşün başlanğıcı oldu.

Azərbaycanın hazırkı iqtisadi və maliyyə siyasətinin əsas prioritetlərindən biri *ölkənin maliyyə təhlükəsizliyinin davamlı*

[89]Bax: "Azərbaycan" qəzeti, 19 yanvar 2010-cu il

olaraq təmin edilməsindən ibarətdir. Ölkənin maliyyə təhlükəsizliyinin təmin olunması, ilk növbədə, xarici valyutaların təsirinin getdikcə azaldılması, sabit daxili maliyyə vəziyyətinin qorunması, xarici kapital və investisiya üçün "əlverişli dövlət imicinin" möhkəmləndirilməsindən ibarətdir. Bundan başqa, maliyyə təhlükəsizliyinin təmin edilməsi mövcud neft gəlirləri və xarici maliyyə imkanlarından istifadə edərək *qeyri-neft sektorunun hərtərəfli inkişafına nail olunması, yeni iş yerlərinin açılması, inflyasiyanın idarə edilməsi, beynəlxalq maliyyə qurumları ilə səmərəli əməkdaşlığın davam etdirilməsi, xarici borcların səviyyəsinin nəzarətdə saxlanılması, Azərbaycanın xarici kapitaldan və neft gəlirlərindən asılılığının getdikcə aradan qaldırılması* kimi vəzifələrin də davamlı şəkildə həyata keçirilməsini tələb edir.

§ 3.5. İctimai-siyasi, sosial, etnik və milli insan ehtiyatlarının təhlükəsiz istifadəsi və idarə olunması siyasəti

Müasir dünyanın müxtəlif ölkələrində baş verən terror hadisələri, dövlət hakimiyyətinə, cəmiyyət həyatına, ölkədaxili sosial və milli-vətəndaş birliyinə qarşı yönəlmiş siyasi təhdidlər, geosiyasi təhlükələr hər bir ölkədə olduğu kimi, müstəqilliyə qovuşduqdan sonra Azərbaycan Respublikasında da daxili sabitliyin, ictimai-siyasi və sosial-etnik təhlükəsizliyinin, milli insan ehtiyatlarının idarə edilməsi və s. kimi ciddi məsələlərin qayğısına qalmaq kimi yeni bir milli vəzifə irəli sürdü. İctimai-siyasi, sosial-etnik təhlükəsizlik və milli insan ehtiyatlarının idarə edilməsi siyasəti *cəmiyyət həyatının sosial-mənəvi və milli-etnik sahələrini də əhatə edərək, ilk növbədə xarici aləmdən qaynaqlanan məqsədyönlü təhdid və təxribatlara, ölkəda-*

xili ictimai-siyasi sabitliyi pozmaq, dövlətin konstitusion quruluşunu sarsıtmaq, cəmiyyəti xaos və qarşıdurmalara sürükləmək cəhdlərinə qarşı kompleks milli tədbirlər sistemidir. Milli təhlükəsizlik sisteminin tərkib hissəsi kimi ictimai-siyasi və sosial təhlükəsizlik siyasəti dünyadakı və bölgədəki ictimai-siyasi münasibətlərin, cəmiyyət həyatını əhatə edən köklü dəyişikliklərin, onların milli təhlükəsizlik maraqlarına təsiri və s. məsələlərin operativ öyrənilməsini və nəzərə alınmasını tələb edir. Bu siyasət cəmiyyətin siyasi sisteminin, bütün insan resurslarının və ölkədəki mövcud sosial-iqtisadi münasibətlərin xarakteri ilə sıx bağı olur. Odur ki, müstəqillik yolu seçmiş ölkələrin, xüsusən də Azərbaycan kimi mürəkkəb geosiyasi əhatəsi və rəngarəng etnik tərkibi olan dövlətlərin ictimai-siyasi və sosial-etnik təhlükəsizlik siyasəti yeni yaradılan sosial münasibətləri, keçid prosesinin, siyasi-iqtisadi sistemin daxili özünəməxsusluğunu, yeni sistemdə özünü göstərən ziddiyyətləri, bütövlükdə milli təhlükəsizlik sistemini təhdid edən digər riskləri mütləq şəkildə nəzərə almalıdır.

Bütün sahələrdə olduğu kimi, Azərbaycanda ictimai-siyasi və sosial təhlükəsizlik siyasətinin formalaşması və dövlət siyasəti səviyyəsində təmin olunması işi də 90-cı illərin əvvəllərində bir qədər təcrübəsiz şəkildə, qeyri-peşəkar formada həyata keçirilmiş, siyasi hakimiyyətsizlik, vətəndaş qarşıdurması, ağır sosial-iqtisadi böhran, səriştəsiz milli-etnik siyasət, sistemsiz dövlət quruculuğu, ölkənin aydın siyasi, iqtisadi və mənəvi inkişaf strategiyasının yoxluğu və s. bu siyasətin uğursuzluğunu şərtləndirmişdir. Həmin uğursuzluqların nəticəsi olaraq o dövrdə əhalinin yaşayış səviyyəsi gündən-günə ağırlaşmış, siyasi idarəçilik ciddi böhrana düçar olmuş, təhsil, səhiyyə, mədəniyyət və digər sahələr öz dinamik inkişafını

sürətlə itirmişdir. Bütün bunlar həmin dövrdə ölkənin siyasi və sosial-etnik təhlükəsizliyi üçün ciddi təhdidlər yaratmışdır.

Məlumdur ki, dövlətin siyasi hakimiyyətinin, ölkənin sosial-ictimai strukturlarının, milli-etnik cəmiyyətlərin və s. daxili institutların fəaliyyətinin səmərəlilik dərəcəsi və dayanıqlığı ictimai-siyasi təhdidlərin müvəffəqiyyətlə dəf edilməsi zamanı ortaya çıxır. Siyasi təhlükəsizliyin təmin olunması əsasən ictimai-siyasi sabitliklə bağlıdır və bu istiqamətdə dövlət hakimiyyətinin apardığı siyasətin uzaqgörənliyindən asılıdır. Bunları nəzərə alaraq, Ümummilli lider Heydər Əliyev 1993-cü ildə vətəndaş müharibəsi təhlükəsi ilə üzləşmiş Azərbaycan cəmiyyətində ictimai-siyasi sabitliyin, qanunçuluğun və vətəndaş birliyinin təmin olunması və qorunub saxlanılmasını dövlət siyasətinin prioritet vəzifəsinə çevirdi və milli təhlükəsizlik maraqlarının əsası kimi müəyyənləşdirdi. Azərbaycanın ictimai-siyasi təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlərin aradan qaldırılmasının əsas və ən mühüm şərtini ictimai-siyasi sabitliyin təmin olunmasında görən Heydər Əliyev o dövrdə bəyan edirdi ki, biz nəyin bahasına olursa-olsun respublikada ictimai-siyasi sabitliyin pozulmasına yol verməyəcəyik, ölkə daxilində anarxiya və xaos yaradılmasına yönəldilmiş hallarla qətiyyətlə mübarizə aparacağıq, Azərbaycanda qanunçuluğu, milli dövlətçiliyi möhkəmləndirmək üçün bütün imkanlarımdan istifadə edəcəyik.[90]

Milli təhlükəsizlik sistemində ictimai-siyasi, sosial-etnik təhlükəsizliyin mahiyyəti, məqsədi və vəzifələri ilə bağlı ümumi istiqamətlər Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında öz əksini tapmışdır. Sənəddə ölkə daxilin-

[90]Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.Birinci kitab: iyun, 1993 – may, 1994 / bur. məsul R. Mehdiyev. Bakı, 1997, s. 183

də qanunun aliliyinin təmin olunması, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi dövlətin əsas daxili idarəçilik funksiyaları kimi təqdim edilir, bu funksiyaları pozmaq cəhdi, separatçılıq, etnik, siyasi və dini ekstremizm kimi hallar milli təhlükəsizliyin mümkün təhdidləri hesab olunur və öz məzununa görə ictimai-siyasi təhlükəsizliyə təhlükə kimi dəyərləndirilir. İctimai-siyasi təhlükəsizlik dedikdə şəxsiyyət, cəmiyyət və dövlətin maraqlarını təmin edən siyasi sistemin, siyasi münasibətlərin və institutların xarici və daxili təhdidlərdən müdafiəsi vəziyyəti başa düşülür.[91]

Milli Təhlükəsizlik Konsepsiyasında Azərbaycan Respublikasının ictimai-siyasi təhlükəsizliyinin təhdidləri sırasına ölkənin konstitusiya quruluşunun sarsıdılması, ictimai-siyasi sabitliyin pozulması, sosial-siyasi qarşıdurmanın qızışdırılması, cəmiyyətdə xaos və münaqişələrin yaradılması, vətəndaşların siyasi hüquq və azadlıqlardan məhrum edilməsi, Konstitusiyanın tələbləri ilə real siyasət arasında uyğunsuzluq, müxtəlif siyasi qüvvələrin toqquşması, qanunun aliliyinin pozulması, vətəndaş cəmiyyətinin dövlət hakimiyyəti institutları üzərində zəif nəzarəti, etnik separatizm və millətçilik, etnik münasibətlərin kəskinləşməsi və s. kimi məsələlər göstərilir.[92]

Azərbaycanın siyasi təhlükəsizliyinin *obyektlərinə*- ölkənin ərazisi, dövlət və ictimai-siyasi institutlar, hakimiyyət strukturları, vətəndaşların və sosial qrupların hüquq və azadlıqları, *subyektlərinə* isə siyasi təhlükəsizliyin təmin edilməsini həyata keçirən orqanlar, cəmiyyət və vətəndaşlar daxil edilir. *İctimai-siyasi təhlükəsizliyin təmin olunması sistemi* özündə ictimai-siyasi təhlükəsizliyinin təmin edilməsi zamanı tətbiq

[91]Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası: //http://e-qanun.az
[92]Yenə orada

olunan bütün vasitələri, metod və üsulları, eləcə də ictimai-siyasi təhlükəsizlik siyasətini birləşdirir. İctimai-siyasi, sosial-etnik təhlükəsizliyin təmin olunması və milli insan resurslarının idarə edilməsi siyasəti əsasən ölkədaxili ictimai institutlar, siyasi vasitələr, milli ehtiyatlar və s. vasitəsilə idarə edilir və təmin olunur. Bu istiqamətdə milli siyasətin formalaşdırılması və həyata keçirilməsi həm də ölkənin siyasi sisteminin mövcud vəziyyətini və inkişaf dinamikasını, dövlətin yerləşdiyi geosiyasi ərazinin ətraf aləmlə (xarici aktorlarla) bağlılıq dərəcəsini, etnik-sosial vəziyyəti və s. məsələləri nəzərə almaqla müşaiyət olunur.

Siyasi təhlükəsizliyin təminatı sahəsində ölkənin dövlət idarəçiliyinin effektivliyinin və cəmiyyət həyatının dayanıqlığının əsas göstəricilərindən biri ictimai-siyasi sabitliyi təmin etmək və cəmiyyətdə vətəndaş həmrəyliyi yaratmaq qabiliyyəti hesab olunur. İctimai-siyasi təhlükəsizlik ehtiyacı həm də ölkə daxilində siyasi fəaliyyət həyata keçirən əksər institutların fəaliyyətlərini yaradıcı-konstruktiv məcraya yönəltməklə, onların öz maraqları çərçivəsində cəmiyyəti böhrana sürükləyə biləcək dağıdıcı qüvvəyə çevrilməkdən çəkindirir. İctimai-siyasi və sosial-etnik təhlükəsizliyin təmin olunması hər bir ölkədə, ilk növbədə xüsusi xidmət orqanlarının səmərəli fəaliyyətinin ölçüsü olmaqla yanaşı, həm də bütövlükdə dövlət hakimiyyətinin apardığı daxili və xarici siyasətin ölkə vətəndaşları tərəfindən dəstəklənməsi səviyyəsinin, ölkənin nüfuzlu ictimai-siyasi institutlarının hakimiyyətə münasibətinin göstəricisi hesab olunur. Geniş mənada götürsək, ictimai-siyasi və sosial-etnik təhlükəsizlik cəmiyyətin siyasi sisteminin sabitliyinin və effektiv inkişafının təmin olunması prosesidir. O, müxtəlif xarakterli təhlükələr, çağırışlar, risk və təhdidlər şəraitində dövlətin və cəmiyyətin dinamik inkişafını təmin etmək qabiliyyətini ifadə

edir. Burada bir məqamı vurğulamaq olar ki, siyasi sistemin xarakteri ictimai-siyasi təhlükəsizliyin təmin edilməsi üsulları və məqsədlərinin formalaşmasına birbaşa təsir göstərir. Məlumdur ki, istənilən dövlətin siyasi təhlükəsizliyinin təmin olunmasında əsas rolu ölkənin siyasi elitasının səviyyəsi və dəyanəti, ali hakimiyyət orqanlarını funksional fəaliyyəti, həmçinin dövlətin təhlükəsizliyin əsas subyektləri hesab olunan güc strukturlarının fəaliyyəti oynayır. Demokratik siyasi sistemin mövcud olduğu dövlətlərdə ictimai-siyasi təhlükəsizliyin təmin olunması prosesində müvafiq hakimiyyət orqanları ilə yanaşı, digər təbəqələr, ictimai təşkilatlar, bütövlükdə vətəndaş cəmiyyəti də yaxından iştirak edir. Bu baxımdan, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasında müvafiq dövlət strukturları ilə bərabər bütöv cəmiyyət iştirak edir, yaranan təhlükələr haqqında rəsmi qurumları xəbərdar edir, dövlətin təhlükəsizliyi, habelə vətəndaşların hüquq və maraqlarının müdafiə olunmasına bütün qanuni vasitələrlə çalışır.[93] Bu isə onu göstərir ki, cəmiyyətin mütərəqqi inkişafının təmin olunması və siyasi sistemin davamlılığına təminat verilməsi dövlətlə vətəndaş cəmiyyəti institutlarının birgə səylərindən çox asılıdır.

Qeyd edək ki, ictimai-siyasi və sosial-etnik təhlükəsizliyin təmin olunmasına təsir göstərən mühüm amillərdən biri də siyasi maraqlardır. Azərbaycanın geosiyasi vəziyyətinin xüsusiyyətləri, təbii resursları, əhalisi və milli tərkibi, sosial-iqtisadi inkişaf səviyyəsi, xarici və daxili təhdidlərin mövcudluğu, dövlət quruluşu, siyasi mədəniyyəti və s. siyasi maraqların formalaşmasında mühüm təsir göstərir. Milli təhlükəsizlik Konsep-

[93]Bax: Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu: http://e-qanun.az

siyasında göstərildiyi kimi, Azərbaycan cəmiyyətinin siyasi maraqları konstitusiya quruluşunun, dövlət hakimiyyəti institutlarının sarsılmazlığında, vətəndaş sülhünün və milli həmrəyliyin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün təmin olunmasında, ictimai-siyasi sabitlikdə, siyasi və dini ekstremizmin meydana gəlməsinə səbəb ola biləcək şəraitin aradan qaldırılmasında və s. ifadə olunur.

Azərbaycanın *sosial təhlükəsizliyinin* təmin olunması milli təhlükəsizlik siyasətinin əsas vəzifələrindən biri kimi, ölkənin dayanıqlı və dinamik inkişafının mühüm amili hesab olunur. Sosial təhlükəsizlik özündə şəxsiyyət, ailə və cəmiyyətin həyati əhəmiyyətli maraqlarının daxili və xarici təhdidlərdən qorunmasını ehtiva edir. Onun obyektini vətəndaşların sosial hüquq və azadlıqlarının (yaşamaq, işləmək, təhsil almaq, istirahət etmək və s.) qorunması təşkil edir.

Nəzərə alınmalıdır ki, cəmiyyətdə sosial təhlükəsizliyin vəziyyəti həm də dolayısı ilə əhalinin yaşayış səviyyəsindən asılıdır. Çünki sosial təhlükəsizliyin təmin olunması yalnız müvafiq hakimiyyət strukturlarının fəaliyyəti ilə məhdudlaşmır, eyni zamanda ölkənin ümumi sosial-iqtisadi inkişaf səviyyəsi ilə birbaşa bağlıdır. Cəmiyyətdə sosial təhlükəsizliyin təmin olunması dövlətin həyata keçirdiyi sosial siyasətin səmərəlilik dərəcəsindən asılıdır. Sosial siyasət nə qədər uğurlu həyata keçirilirsə, sosial təhlükəsizliyin təmin edilməsi səviyyəsi də bir o qədər yüksəlir. Sosial təhlükəsizliklə sosial siyasət arasındakı qarşılıqlı əlaqədən irəli gələn məqsəd və vəzifələr, bu bağlılığın öyrənilməsi və tətbiq edilməsi ehtiyacı və s. məsələlər Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında öz əksini tapmışdır. Sənəddə sosial təhlükəsizlik siyasə-

tinin mahiyyəti və istiqamətləri müəyyənləşdirilərkən ölkənin iqtisadi və sosial inkişaf prioritetləri əsas götürülür.[94]

Mütəxəssislərin fikrinə görə, sosial təhlükəsizlik siyasəti aparılarkən Azərbaycanda sosial-iqtisadi inkişafın mövcud vəziyyətindən çıxış edilməsi təsadüfi deyildir. Çünki son illərdə ölkədə sosial-iqtisadi sahənin mövcud durumu və inkişafı birbaşa sosial təhlükəsizlik siyasəti ilə əlaqələndirilərək, bu sahənin qarşısında dayanan yeni-yeni vəzifələr müəyyənləşdirilmişdir. Azərbaycan hökumətinin sosial siyasəti əhalinin sosial hüquqlarının, davamlı iqtisadi inkişafın təmin olunmasını və s. tələbləri nəzərdə tutan sosial təhlükəsizlik prinsipinə əsaslanmışdır. Sosial təhlükəsizliyin təmin olunması ilə bağlı həyata keçirilən dövlət siyasətinin əsas vəzifələri sırasına: təhlükəsiz və davamlı sosial inkişafın bütün tərəflərini əhatə edən məsələlərin səmərəli həlli; əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi; cəmiyyətdə ifrat təbəqələşmənin qarşısının alınması və orta təbəqənin formalaşdırılması; nəinki bugünkü, həm də gələcək nəsillər üçün ləyaqətli həyat şəraitinin yaradılması və s. kimi vəzifələr daxil edilmişdir.

Beləliklə, göründüyü kimi sosial təhlükəsizlik siyasəti Azərbaycan Respublikasında həyata keçirilən dövlət sosial və milli təhlükəsizlik siyasətinin əsasını təşkil etmişdir. Buna görə də ötən illər ərzində əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, vətəndaşların sosial hüquqlarının təmin olunması istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirilmişdir. Azərbaycan Prezidentinin 2003-cü il 20 fevral tarixli Fərmanı ilə "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və "İqtisadi inkişaf üzrə Dövlət Proqramı" və 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə "2008-

[94]Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası...

2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və "Davamlı inkişaf üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Bu proqramların həyata keçirilməsi nəticəsində Azərbaycanda yoxsulluq səviyyəsi ildən-ilə aşağı düşmüşdür. Məsələn, əgər ölkədə 2003-cü ildə yoxsulluq səviyyəsi 44.7 faiz təşkil edirdisə, 2011-ci ildə bu rəqəm 7.6 faiz olmuşdur.[95]

Bundan başqa, Azərbaycanda yoxsulluq probleminin həll edilməsi əhalinin gəlir səviyyəsinin artırılması ilə yanaşı, sosial sahədə göstərilən xidmətlərin də inkişaf etdirilməsinə stimul vermiş, körpə, uşaq və ana ölümü, ərzaq təhlükəsizliyi və uşaqların qidalanması, yoluxucu xəstəliklərin yayılması, məktəbdə davamiyyət və qeydiyyat səviyyələri, habelə təlim nailiyyətləri kimi göstəricilərin monitorinqinin aparılmasına xüsusi diqqət yetirilmişdir.[96]

Son illərdə aparılan uğurlu iqtisadi siyasət nəticəsində ümumi makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadi artımın davamlılığının təmin edilməsi, sahibkarlığın inkişafı və yeni iş yerlərinin yaradılması əhalinin gəlir əldə etmək imkanlarının artmasına və rifahının əhəmiyyətli dərəcədə yaxşılaşmasına mühüm təsir göstərmişdir. Məlum olduğu kimi, işsizlik yoxsulluğu yaradan əsas amillərdən biridir. Buna görə də əhalinin rifahına məşğulluğun təsiri nəzərə alınaraq yeni iş yerləri yaradılmış, məşğulluq strategiyası həyata keçirilmişdir. Sosial-iqtisadi inkişafın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində əhalinin iqtisadi fəallığı, o cümlədən məşğulluq səviyyəsi artmış və işsizliyin səviyyəsi aşağı salınmışdır.

[95]Yeni tərəqqi illəri : 2003 – 2011. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri, 2011, s. 246

[96]2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı: //http://e-qanun.az

Ölkə vətəndaşlarının sosial rifahının yaxşılaşdırılması, aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədin ilə əmək və pensiya siyasəti sahəsində mühüm addımlar atılmışdır. "2001-ci il iyulun 17-də Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasında Pensiya İslahat Konsepsiyasının təsdiq edilməsi barədə Sərəncamı 2001-2005-ci illəri əhatə etməklə pensiya islahatlarının mərhələlərlə həyata keçirilməsini nəzərdə tuturdu. Konsepsiyaya əsasən 2001-ci ildən başlayaraq "Vətəndaşların pensiya təminatı haqqında" və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarına zaman-zaman əlavələr və dəyişikliklər edilmişdir. Məhz bu dövrdə sığorta pensiya sisteminin müasir standartlara uyğunlaşdırılması istiqamətində zəruri addımlar atılmış, vətəndaşların pensiya təminatında sığorta prinsiplərinin tətbiqinə istiqamətlənmiş tədbirlər həyata keçirilmişdir". [97]

Azərbaycanda hər il yaşa görə əmək pensiyasının baza hissəsi və sosial müavinətlərin məbləği artırılmış, pensiyanın sığorta hissəsi inflyasiyanın səviyyəsinə müvafiq şəkildə indeksləşdirilmişdir. 2011-ci ilin sonuna ölkədə pensiyaçıların sayı 1278 min nəfər olmuşdur. Təyin edilmiş aylıq pensiyaların orta məbləği isə 145.2 manata çatmışdır ki, bu da 2006-cı ilin müvafiq göstəricisindən 3.5 dəfə çoxdur. Bu dövr ərzində yaşa görə pensiyaların orta aylıq məbləği 3.9 dəfə, əlilliyə görə 2.8 dəfə, ailə başçısını itirməyə görə 3.1 dəfə artmışdır. 2011-ci ilin sonuna müavinət təyin olunmuş şəxslərin sayı 306.8 min nəfər, bir nəfərə düşən orta aylıq məbləğ isə 40 manatdır. 2006-cı illə müqayisədə sosial müavinət alanların sayı 18 faiz, bir nəfərə düşən orta aylıq məbləğ 2.3 dəfə artmışdır. 2011-ci

[97]Müstəqil Azərbaycan: 20 il. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri, 2011, s. 31

ildə 125.5 min nəfərə birdəfəlik müavinət ödənilmişdir ki, bu da 2006-cı ilin müvafiq göstəricisindən 24 faiz çoxdur". [98]

2005-ci il oktyabrın 21-də Azərbaycan Prezidentinin "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanunu imzalaması aztəminatlı ailələrin sosial vəziyyətinin yaxşılaşdırılması yönündə atılan mühüm addımlardan biridir. Qanuna uyğun olaraq, 2006-cı il iyulun 1-dən etibarən aztəminatlı ailələrə dövlət tərəfindən ünvanlı dövlət sosial yardımı verilir. 2011-ci ildə 122 min ailənin 547.8 min nəfər üzvünün hər biri orta hesabla ayda 22.95 manat ünvanlı dövlət sosial yardımı almışdır. 2006-cı ilə nisbətən ünvanlı dövlət sosial yardımı alanların sayı 2.5 dəfə, bir nəfərə düşən orta aylıq məbləğ isə 2.7 dəfə artmışdır.[99]

Azərbaycan dövlətinin ictimai-siyasi və sosial-etnik təhlükəsizliyi həm də ölkənin intellektual və işçi qüvvəsindən, insan kapitalından səmərəli istifadə edilməsi, onların faydalı yerləşdirilməsi və düzgün idarə olunmasını tələb edir. Bu anlamda əhalinin məskunlaşdırılması, intellektual və işçi ehtiyatlarının düzgün istifadəsi və idarə edilməsi sahəsində dövlətin xüsusi proqramı olmalıdır.

Qloballaşma şəraitində hər bir ölkənin iqtisadi və sosial inkişafının əsas şərtlərindən birini milli insan ehtiyatlarından düzgün və səmərəli istifadə edilməsi siyasəti təşkil edir. Müasir qlobal və transmilli dünyada böyük, maddi ehtiyatlarla zəngin ərazilərə malik olmaq öz-özlüyündə nə ölkənin iqtisadi siyasi və sosial təhlükəsizliyinin təminatı məsələsini həll edir, nə də onun ciddi və əhəmiyyətli geoməkan xarakteristikasının, xüsusi iqtisadi gücünün, qüdrətinin göstəricisi hesab olunur.

[98]Yeni tərəqqi illəri : 2003 – 2011. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri, 2011, s. 24
[99]Yenə də orada, s. 24

Hər bir məkanın geosiyasi, geoiqtisadi və geostrateji əhəmiyyəti, qeyd olunduğu kimi, həm də onun insan ehtiyatları, bütövlükdə əhalisinin və hər bir vətəndaşının maddi və mənəvi dəyərləri, ölkənin əmək potensialından düzgün istifadənin vəziyyəti, vətəndaşların iqtisadi və sosial səviyyəsi, rifah halı, yaşayış məskənlərinin mövcud infrastrukturlarının müasir tələblərə cavab verməsi və s. ilə ölçülür.

Dövlətin ictimai-siyasi və sosial-etnik təhlükəsizliyinin əsas ölçü meyarlarından biri kimi, həm də mövcud ölkənin öz daxili cəmiyyətinə nəzarət və təsir etməsinin vəziyyəti, sabit milli, dini və sosial cəmiyyət yaratmaq bacarığı və s. çıxış edir. Bu anlamda Azərbaycan ərazisinin xarakteristikası, əhalinin yerləşməsi, sənayenin, kənd təsərrüfatının strukturu, əmək və işçi qüvvələrinin yerləşdirilməsi, ölkə iqtisadiyyatının inkişafı və s. məsələlər milli təhlükəsizlik və milli inkişafla bilavasitə bağlıdır.

Dövlət müstəqilliyi bərpa ediləndən sonra, Azərbaycan hökumətinin öz geoməkan xarakteristikasını lazımi səviyyədə öyrənməsi, onun inkişafı və idarə edilməsi ilə bağlı vahid dövlət siyasəti formalaşdırması, bütün sahələrin xüsusi yanaşma əsasında idarə edilməsi vəzifəsi milli inkişafın və təhlükəsizliyin əsas tələblərindən birinə çevrilmişdir. Xüsusən, ölkənin giriş-çıxış qapısı hesab olunan sərhəd rayonlarının, sərhədboyu ərazilərin, paytaxtın və geosiyasi önəm daşıyan digər məkanların iqtisadi, siyasi, informasiya infrastrukturlarının inkişafına və idarə edilməsinə nəzarət və s. məsələlər dövlətin inkişafı, ictimai-siyasi və sosial-etnik təhlükəsizliyi ilə bilavasitə bağlıdır. Doğrudur, Azərbaycanın mərkəzi icra orqanları ilə yerli idarəçilik qurumları, yerli icmalar və s. idarəçilik institutları arasında hazırda elə bir ciddi problem müşahidə olunmur. Lakin 90-cı illərin hadisələrini və acı təcrübəsini göz önünə gətirsək, xüsusən ölkənin Cənub, Şimal, Qərb bölgələrində

xaricdən qızışdırılan bəzi separatçılıq meyillərini nəzərə alsaq, o zaman bu amilə mütləq şəkildə ciddi diqqət yönəldilməlidir. İctimai-siyasi, sosial-etnik təhlükəsizliyin təminatı tələblərinə görə, hər bir region və rayon mərkəzlə və mərkəzi hakimiyyətlə, ölkənin iqtisadi, sosial, mədəni və ictimai idarəçiliyi ilə ciddi əlaqələndirilməli, əhalinin milli və sosial tərkibi mütəmadi olaraq nəzarətdə saxlanılmalı, rayonlarla mərkəzi şəhərlərin inkişafındakı sosial-iqtisadi fərqlər aradan qaldırılmalıdır.

Azərbaycan dövlətinin ictimai-siyasi və sosial-etnik sahədəki təhlükəsizlik siyasətinin təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, ölkənin daxili həyatında bərqərar olmuş ictimai-siyasi sabitliik və vətəndaş birliyi, siyasi sistemin çevikliyi və demokratik xarakter daşıması, sosial inkişaf sahəsində həyata keçirilən məqsədyönlü siyasət və s. keçən illərdə ölkə əhalisinin əmin-amanlıq şəraitində yaşamasına və günü-gündən rifah halının yaxşılaşmasına xidmət göstərmişdir. İctimai-siyasi və sosial-etnik sahənin inkişafı ilə bağlı həyata keçirilən dövlət siyasəti, maddi və insan ehtiyatların idarə edilməsi məqsədyönlü və müvəffəqiyyətli olmuş və müvafiq sahənin təhlükəsizlik sistemini möhkəmləndirməklə bərabər, bütövlükdə ölkənin milli maraqlarına cavab vermişdir.

§ 3.6. Ərzaq təminatı və təhlükəsizliyi siyasəti

Cənubi Qafqazın ümumi geoiqtisadi vəziyyəti fonundan yanaşdıqda, müstəqilliyə qovuşduğu andan Azərbaycan Respublikasının milli geoiqtisadi təhlükəsizliyinin əsas vəzifələrindən birini ərzaq təhlükəsizliyinin təmin edilməsi təşkil edir. Ölkənin *ərzaq təhlükəsizliyi siyasətinin ali məqsədi əsas ərzaq məhsulları üzrə xarici bazarlardan asılılığın azaldılması, etibarlı daxili və xarici ərzaq təminatı mexanizmlərinin yaradıl-*

ması və qəbul edilmiş beynəlxalq normalara uyğun olaraq, hər bir vətəndaşın lazımi ərzaq məhsulları ilə təchiz edilməsindən ibarətdir.

Ölkənin ərzaq təhlükəsizliyi, o cümlədən vətəndaşların lazımi səviyyədə qidalanmasının təmin edilməsi təkcə daxili strateji vəzifə deyil, həm də beynəlxalq hüquqi tələbdir. Azərbaycan Respublikasının qoşulduğu "Ümumdünya insan hüquqları Bəyannaməsi"ndə, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq Pakt"da, "Uşaq hüquqları haqqında beynəlxalq Konvensiya"da insanların lazımi səviyyədə qidalanma hüququnun təmin olunması məcburi beynəlxalq tələb kimi hər bir ölkələrin qarşısında dayanır.[100]

Son bir neçə ildə dünyada baş verən iqtisadi böhran, əhalinin sayının artması ərzaq məhsullarına olan tələbatın yüksəlməsi, iqlim dəyişkənliyi, su ehtiyatlarının məhdudluğu və digər səbəblərə görə əsas ərzaq məhsullarının dünya bazarlarında nisbi qıtlığı müşahidə olunmuş, qiymətləri artmağa başlamış və hətta bəzi ölkələrdə ərzaq çatışmazlığı real təhlükəyə çevrilmişdir. Dünya ərzaq bazarlarında müşahidə olunan qeyri-sabitlik bütün dünyada olduğu kimi Cənubi Qafqaz və Azərbaycanda da müəyyən məhsullar üzrə ərzaq çatışmazlığı və qıtlığı yaratmışdır. Bu vəziyyət Azərbaycanda bəzi məhsullar üzrə qiymətlərin xüsusi yüksəlməsinə öz təsirini göstərmişdir ki, bu da ölkədə daxili ərzaq bazarının inkişaf etdirilməsi və qorunması, əhalinin ərzaq təminatının idxaldan asılılığının maksimum azaldılması, milli ərzaq ehtiyatlarının yaradılması və s. istiqamətlərdə bir çox kompleks tədbirlərin görülməsini, ərzaq təhlükəsizliyi sahəsində sistemli addımların atılmasını, o cüm-

[100] Права человека. Сборник международных документов. Варшава, 2001, с. 85

lədən xüsusi dövlət proqramının qəbul edilməsini zəruri etmişdir.

Mütəxəssislərin fikrincə, dünyada, o cümlədən Xəzər hövzəsi və Cənubi Qafqaz ölkələrində əhalinin sabit ərzaq təminatının əsas şərtləri makroiqtisadi sabitliyə əsaslanan davamlı inkişafın əldə edilməsi, kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının artırılması qayğısına qalınması, yeni iş yerlərinin açılması, əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan qruplarının gəlirlərinin, minimum pensiya və əmək haqlarının artırılması, ölkə miqyasında ehtiyac meyarı səviyyəsinin yaşayış minimumuna çatdırılması və s. ibarətdir.

Azərbaycanda region ölkələri içərisində hamıdan əvvəl həyata keçirdiyi kolxoz-sovxoz sisteminin ləğv edilməsi və torpaqların özəlləşdirilməsi, davamlı aqrar islahatlar və s. nəticəsində kənd təsərrüfatında nəzərəçarpacaq inkişafa nail olunmuş, adambaşına düşən ərzaq məhsullarının istehsalı xeyli artmışdır. Bu sahədə görülən işlər kənd təsərrüfatının əsas göstəricilərini yaxşılaşdırmaqla yanaşı, ərzaq məhsulları istehsalının strukturunda da müəyyən dəyişikliklərə səbəb olmuşdur. İslahatlar ölkənin əkin strukturuna ciddi təsir edərək, əsas ərzaq məhsulları istehsalının artmasına, daxili və xarici bazarın tələblərinə uyğun formalaşmasına şərait yaratmışdır.

Azərbaycanda son illərdə ərzaq təhlükəsizliyinin təmin edilməsinə, dövlət səviyyəsində torpaqların münbitliyinin artırılmasını, aqrotexniki becərmənin, meliorasiya və su təsərrüfatının inkişafını nəzərdə tutan aqrar siyasətin də mühüm təsiri olmuşdur. Bu məqsədlə ölkənin ərzaq təhlükəsizliyi proqramında bir neçə istiqamət üzrə davamlı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bunlar:

- torpağın münbitliyinin və məhsuldarlığının artırılması, istifadə olunmayan əkinə yararlı torpaqlar hesabına əkin sahələrinin genişləndirilməsi;
- meliorasiya sistemlərinin tikintisi;
- heyvandarlığın sürətli inkişafı;
- bioloji su ehtiyatlarının potensialından intensiv istifadə olunması;
- ərzaq xammalını müasir tələblər səviyyəsində emal edən yeni texnologiyaların tətbiqi;
- aqrar-sənaye və balıq təsərrüfatı komplekslərində innovasion modellərlə işləməyi bacaran kadrların hazırlanması, onların ixtisasının artırılması və sairədən ibarətdir.[101]

Azərbaycanın ərzaq təhlükəsizliyinin prioritet istiqamətlərinə ərzaq məhsulları istehsalının artırılması, əhalinin təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi, ərzaq təminatı sisteminin institusional inkişafına dövlət dəstəyi, sahibkarlıq mühitinin yaxşılaşdırılması sahəsində risklərin idarə olunmasının təmin edilməsi daxildir. Göstərilən istiqamətlər üzrə vəzifələrin yerinə yetirilməsi ölkədə sabit və adekvat ərzaq təklifinin formalaşdırılması, səmərəli istehsal və satış infrastrukturunun yaradılması, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi və s. deməkdir.

Sabit və adekvat ərzaq təklifi, ilk növbədə, aqrar sektorda intensiv təkrar istehsalla, o cümlədən kənd təsərrüfatı məhsulları emalının inkişaf etdirilməsi ilə sıx şəkildə bağlıdır. Ərzaq təklifi kəmiyyətcə qənaətbəxş səviyyədə olmaqla yanaşı,

[101]Bax: "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"; **"**2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı".http://e-qanun.az

keyfiyyətcə də ən müasir tələblərə cavab verməli, ölkə əhalisi ekoloji cəhətdən təmiz məhsullarla təchiz edilməlidir. Bunun üçün ərzağın keyfiyyətinə və təhlükəsizliyinə səmərəli nəzarət sistemi qurulmalıdır. Səmərəli istehsal, saxlanma və satış infrastrukturunun yaradılması da ərzaq təminatı sisteminin ən vacib elementlərindəndir.

Beynəlxalq təcrübə göstərir ki, ərzaq təhlükəsizliyinin ən mühüm cəhətlərindən biri ehtimal olunan risklərin səmərəli şəkildə idarə edilməsindən ibarətdir. Bununla əlaqədar olaraq zəruri həcmdə dövlət ərzaq ehtiyatının yaradılması və onun müasir tələblər səviyyəsində idarə edilməsi vacib məsələdir. Eyni zamanda ərzaq təminatı sisteminin institusional inkişafı diqqət mərkəzində saxlanılmalı, aqrar bölmənin elmi və kadr potensialı gücləndirilməli, sahibkarlığın inkişafı üçün qabaqcıl modellər tətbiq edilməlidir.

Azərbaycanda dayanıqlı ərzaq təminatının əldə olunması sahəsində 1994-cü ildən başlayaraq ardıcıl siyasət yürüdülmüş və səmərəli nəticələr əldə olunmuşdur. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə torpaq islahatları Müstəqil Dövlətlər Birliyi məkanında ilk dəfə Azərbaycanda həyata keçirilmiş, ölkədə kənd təsərrüfatı istehsalçılarına yardım mexanizmləri formalaşdırılmış, beynəlxalq təşkilatlarla birlikdə bu sahədə əhəmiyyətli layihələrin icrasına başlanmışdır. Bunun ardınca Azərbaycan Prezidentinin 2001-ci il 2 mart tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" və 2008-ci il 25 avqust tarixli sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" təsdiq edilmişdir. [102]

[102]Bax: http://e-qanun.az

Bu sənədlər çərçivəsində görülmüş işlər nəticəsində son dövrdə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artmışdır. Azərbaycanda yoxsulluğun azaldılmasına, kiçik və orta sahibkarlığın, eyni zamanda regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarından və digər sənədlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi də əhalinin ərzaq istehlakında yerli məhsulların xüsusi çəkisinin artmasına mühüm təsir göstərmişdir.[103]

Son illər ərzində ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin edilməsi, aqrar sektorun inkişafına stimullaşdırıcı təsir göstərən pul və fiskal siyasətin həyata keçirilməsi, sosial xidmətlərin həcminin və keyfiyyətinin yüksəldilməsinə yönəlmiş büdcə siyasəti, regionlarda infrastruktur təminatının yaxşılaşdırılması və s. kimi tədbirlər daxili ərzaq təhlükəsizliyinin təmin edilməsinə öz müsbət təsirini göstərmişdir. Ölkədə ərzaq təminatının maddi-texniki təchizatı da əvvəlki illərə nisbətən xeyli yaxşılaşdırılmış, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri möhkəmləndirilmişdir.

Əhalinin təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi məqsədi ilə ərzaq məhsullarının istehsalı sahəsində İSO standartlarına uyğun keyfiyyətin idarə edilməsi sistemlərinin tətbiqi və beynəlxalq HACCP (Təhlükəli amillərin təhlili və böhranlı nöqtələrə nəzarət) sisteminə keçid üçün normativ hüquqi baza yaradılmış, ərzaq təhlükəsizliyi ilə bağlı beynəlxalq təcrübə nəzərə alınmaqla milli standartların hazırlanmasına və tətbiqinə başlanılmışdır. Beynəlxalq aləmdə tətbiq edilən "tarladan - süfrəyədək" prinsipi əsasında milli ərzaq istehsalı zəncirinin bütün mərhələlərində müvafiq sahələr üzrə

[103]Bax: "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı". http://e-qanun.az

keyfiyyətə nəzarət mexanizmi işlənib hazırlanmaqda və həyata keçirilməkdədir.

Sahibkarlıq mühitinin yaxşılaşdırılması və ərzaq təminatı sisteminin institusional inkişafı ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Bu amilin əhəmiyyəti nəzərə alınaraq, son illərdə Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı mütərəqqi modellərin tətbiqi genişləndirilir, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı müəssisələrinə ayrılan güzəştli kreditlərin həcmi ildən-ilə artırılır və rəqabətə davamlı məhsul istehsalı üçün lazımi şərait yaradılır.

Rəsmi sənədlərə görə, Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunmasının qarşıda dayanan əsas vəzifələri aşağıdakılardır:

- ərzaq təhlükəsizliyinə daxili və xarici təhdidlərin vaxtında müəyyənləşdirilməsi və qarşısının alınması;
- əhalinin qida məhsulları ilə təmin olunması sisteminə hazırlıq görülməsi;
- qida məhsullarının strateji ehtiyatlarının formalaşdırılması;
- ölkənin ərzaq müstəqilliyinin təmin olunması üçün ərzaq və xammal istehsalının sabit inkişafı;
- hər bir vətəndaşın fəal və sağlam həyat tərzi yaşaması üçün təhlükəsiz qida məhsulları ilə təmin edilməsi və s.[104]

Qeyd etmək lazımdır ki, hər bir ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması onun iqtisadi vəziyyəti ilə sıx bağlıdır. Məhz iqtisadi inkişaf şəraitində hər bir vətəndaşın lazımi qida məhsulları əldə etməsi üçün əlverişli maddi imkanlar yaranır.

[104] Bax: "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"; **"**2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı". http://e- qanun.az/print.php?internal

Ərzaq təhlükəsizliyinin təmin olunması bütün dünyada bir sıra risk və təhdidlərlə müşahidə olunur. Ən mühüm risklər aşağıdakılardır:

- makroiqtisadi risklər (iqtisadiyyatın mühüm sahələrinin xarici iqtisadi konyukturadan asılılığı, ərzaq istehsalı sahələrinə investisiya qoyuluşunun azalması və s.);
- texnoloji risklər (ərzaq məhsulları istehsal edən texnoloji avadanlıqların köhnəlməsi və bunun məhsulun təhlükəsizliyinə mənfi təsir göstərməsi);
- aqroekoloji risklər (əlverişsiz iqlim dəyişiklikləri, fövqəladə texnogen vəziyyət) və s.

Sadalanan bu risklər ərzaq təhlükəsizliyinə təhdidləri formalaşdırır. Bütün bunları nəzərə alan Azərbaycan hökuməti ərzaq təhlükəsizliyi siyasətinin aşağıdakı istiqamətlər üzrə həyata keçirilməsini planlamışdır:

- yoxsulluq səviyyəsinin azaldılması və əhalinin normal qidalanmaya daha çox ehtiyacı olan təbəqələrinin maddi vəziyyətinin yaxşılaşdırılması;
- hamilə qadınların, körpələrin, məktəbəqədər və məktəbyaşlı uşaqların sağlam qida ilə təmin olunmasının təşkili və s.[105]

Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunması mexanizmləri iqtisadiyyata və onun ayrı-ayrı sahələrinə dair normativ hüquqi aktlara müvafiq olaraq müəyyənləşir. Ərzaq təhlükəsizliyinin təmin olunmasına yönəlmiş tədbirlər və mexanizmlər bu sahənin daxili və xarici təhdidlərdən müdafiəsini nəzərdə tutur.

Ərzaq təhlükəsizliyinin təmin olunmasının təşkili və idarə edilməsi sahəsində əsas vəzifələrə dünya ərzaq bazarlarındakı

[105] Yenə orada

dəyişikliklərə ölkə iqtisadiyyatının davamlılığının qiymətləndirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması strategiyasının həyata keçirilməsində dövlət informasiya ehtiyatlarının imkanlarından səmərəli istifadə edilməsi kimi məsələlər də daxildir.

Ərzaq təhlükəsizliyinə nail olmaq üçün Azərbaycan dövləti iki mərhələdən ibarət milli strategiyanın həyata keçirilməsini öhdəsinə götürür:

Birincisi, islahatlar aparıldığı müddətdə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün qısamüddətli və orta müddətli keçid tədbirlərinin tətbiqi. Bu, əsasən, özəl fermer təsərrüfatçılığına və sahibkarlığa dövlət dəstəyinin göstərilməsi nəticəsində təmin edilir.

Bu mərhələdə tədbirlərin aşağıdakı istiqamətlər üzrə aparılması nəzərdə tutulur:

- müvafiq qanunların həyata keçirilməsinə nəzarət;
- gözlənilən ilkin nəticələrin əldə edilməsi üçün lazım olan büdcə ayırmalarının dəqiqləşdirilməsi;
- ərzaq istehsalı sahəsində müvəqqəti vergi güzəştlərinin tətbiqi məsələsinə baxılması;
- qida məhsullarının istehsalı, emalı və satışı üçün kreditlərin alınmasına kömək göstərilməsi;
- qida məhsulları istehsalçılarının ərzaq idxalından müdafiə edilməsi;
- istehlakçıların hüquqlarının təmin edilməsi və s.

İkincisi, Azərbaycanın kənd təsərrüfatında gəlirliliyin və rəqabətə davamlılığın artırılması məqsədi ilə ərzaq təhlükəsizliyi sahəsində uzunmüddətli tədbirlərin həyata keçirilməsi.

Məlum olduğu kimi, bütün dünya ölkələri ərzaq təhlükəsizliyini əsasən kənd təsərrüfatının inkişafı və ərzaq istehlakı vəziyyətinin yaxşılaşdırılması hesabına təmin edirlər. Azərbaycanda bu vəzifəyə nail olmaq üçün ölkə səviyyəsində ərzaq

təhlükəsizliyi ilə bağlı idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, fermer təsərrüfatlarının bazar iqtisadiyyatı tələblərinə cavab verən qurumlara çevrilməsi, ərzaq məhsulları növləri istehsalının inkişafı və kənd təsərrüfatı infrastrukturuna investisiya qoyuluşu kimi məsələlər ön plana çəkilmişdir.[106]

Azərbaycanın ərzaq təhlükəsizliyi siyasətinin əsas istiqamətlərindən birini torpaq ehtiyatlarından istifadənin səmərəsini yüksəltməklə istehsalın artırılması və məhsul bolluğunun yaradılması təşkil edir. İstehsalın səviyyəsinin artması, müvafiq olaraq, xaricdən gətirilən ərzaq məhsullarının yerli məhsullarla əvəz edilməsini nəzərə tutur.

Araşdırmalar göstərir ki, Azərbaycanın bəzi rayonlarının vətəndaşlarında dəmir və yod mikroelementlərinin çatışmazlığı halları müşahidə olunur. Məsələn, xörək duzunda yod çatışmazlığı nəticəsində dağ rayonlarında zob xəstəliyinin yayılması hallarına rast gəlinir. Buna görə də ölkənin ərzaq təhlükəsizliyi siyasətinin əsas məqsədlərindən biri əhalinin tarazlaşdırılmış qidalanmasını təmin etməkdən ibarət olmalıdır.

Bundan başqa, əhalinin tam və normal qidalanmasının yaxşılaşdırılmasına nail olmaq üçün ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarət mexanizminin yaradılması, yerli ərzaq məhsulları istehsalının, emalının və marketinqinin təmin olunması mühüm məsələdir. Bu məqsədlə ərzaq məhsullarının keyfiyyəti və təhlükəsizliyi üzərində nəzarətin artırılması, təhlükəsizlik normalarına uyğun gəlməyən və gömrük orqanları tərəfindən saxlanılan ərzaq məhsullarının məhv edilməsi vacibdir.

[106]Bax: "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"; **"**2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı". http://e-qanun.az/print.php?internal

§ 3.7. İnformasiya təhlükəsizliyi siyasəti

XXI əsrin əvvəllərindən dünyada cərəyan edən əsas geosiyasi proseslərin idarə edilməsi, beynəlxalq münasibətlərin tənzimlənməsi, ölkələrin milli təhlükəsizliyinin təmin olunması və s. məsələlərdə ənənəvi hərbi-geostrateji, coğrafi-ərazi, iqtisadi, siyasi, sosial və s. problemlərlə yanaşı, dövlətlərin informasiya fəaliyyəti və təhlükəsizliyi məsələsi də ciddi müzakirə olunur. Qloballaşmanın vüsət aldığı, virtual informasiya məkanının günü-gündən genişləndiyi, milli informasiya mühitinin pozulduğu, milli dəyərlərin meyarlarının və sədlərinin "universallaşdığı" müasir dünyada beynəlxalq və yerli ictimai rəyin idarə olunması, siyasi proseslərin məqsədli yönləndirilməsi günü-gündən aktuallaşır. Transmilli informasiya siyasəti və milli sərhədləri asanlıqla aşan beynəlxalq təbliğat fəaliyyəti ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına, milli cəmiyyətlərin vəziyyətinə ciddi təsir göstərir.

Hər bir ölkənin informasiya məkanı və informasiya mühiti, informasiya ehtiyatları və texnologiyaları cəmiyyətin sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafının səviyyəsini və dinamikasını müəyyənləşdirir. Geosiyasi ədəbiyyatda "informasiya mühiti" beynəlxalq və yerli sistemyaradıcı amil olmaqla bərabər, bəlli məkanlarda siyasi, iqtisadi, müdafiə, sosial-mənəvi və digər sahələrə müdaxilə edərək, milli təhlükəsizlik sisteminə ciddi təsir göstərən vasitə kimi də dəyərləndirilir. Beynəlxalq və milli idarəetmə qərarlarının səmərəliliyi toplanmış informasiyanın həcmi, onun işlənmə və istifadə sürəti ilə müəyyənləşir. Beynəlxalq, regional və milli münasibətlərin, daxili və xarici sosial-iqtisadi proseslərin idarə olunmasında informasiya siyasəti və təhlükəsizliyinin əhəmiyyəti getdikcə artır.

Müstəqilliyinə nail olduqdan sonra Azərbaycanın milli təhlükəsizliyinin əsas problemlərindən biri ölkənin vahid informasiya siyasətinin formalaşdırılması və təhlükəsizliyinin təminatı, milli informasiya mühitinin yaradılması, qorunması və idarə edilməsi ilə bağlı olmuşdur. 1990-cı illərin əvvəllərində bəzi xarici qüvvələrin sistemli şəkildə həyata keçirdikləri informasiya müdaxiləsi, ideoloji təbliğat fəaliyyəti Azərbaycan ərazisində əhalinin bəzi sosial və milli-etnik təbəqələrində ciddi anti-milli və anti-dövlət meyili formalaşdırmış, müstəqil dövlətin əsaslarına, vətəndaş həmrəyliyi və birliyinə təhlükə yaratmışdı. Xarici dairələr bununla kifayətlənməyərək Azərbaycanın ictimai rəyinə, daxili və xarici siyasətinə təsir göstərmək məqsədi ilə çoxsaylı dini, ideoloji, informasiya və təbliğat şaxələri yaratmış və öz məqsədləri üçün istifadə etmişlər. Belə təxribatçı hərəkətlər ölkədaxili sabitliyin pozulmasına, mərkəzi hakimiyyətin cəmiyyət üzərindəki nəzarətinin itirilməsinə və daxili anarxiyanın yaranmasına yönəlmişdi.

Bundan başqa, həmin dövrdə Azərbaycanın daxili informasiya sistemləri, o cümlədən, informasiya yaratma, ötürmə, ümumiləşdirmə və təhliletmə vasitələri, şəbəkə və xətləri ya iflic olmuş, ya da bütövlükdə xarici ölkələrin nəzarəti altına keçmişdi. Xüsusən, nəzərə alınsa ki, o dövrün bütün informasiya texnologiyaları - telefon, peyk rabitəsi, internet, o cümlədən informasiya ötürmə sistemləri, milli təhlükəsizlik və müdafiə nazirliklərinin istifadə etdiyi digər informasiya vasitələri bütövlükdə xarici ölkələrin və beynəlxalq informasiya güclərinin nəzarəti altında idi, bu halda ölkənin informasiya təhlükəsizliyi sahəsindəki problemləri və boşluqları təsəvvür etmək o qədər də çətin olmaz.

Bütün bunlar və digər proseslər 90-cı illərin birinci yarısında Azərbaycan hakimiyyəti qarşısında *məxsusi informasiya fəaliyyəti və təhlükəsizliyi siyasətinin formalaşdırılması, milli informasiya fəaliyyətinin vahid strategiyasının hazırlanması və həyata keçirilməsi kimi təxirəsalınmaz vəzifələr* qoyurdu. 1993-cü ildən başlayaraq Prezident Heydər Əliyevin rəhbərliyi altında *özündə müstəqil dövlət maraqlarını və beynəlxalq dəyərləri, ümumi təhlükəsizlik normalarını və milli postulatları əks etdirən informasiya fəaliyyəti və təhlükəsizliyi siyasəti həyata keçirilməyə başlandı. Dövlətin informasiya siyasətinin əsas vəzifələri, istiqamətləri, prioritetləri və resursları müəyyən edildi, nəzəri və praktiki əsasları yaradıldı, sonrakı dövrdə müxtəlif inkişaf mərhələlərindən keçərək təkmilləşdirildi və dövlət həyatının bütün sahələrində tətbiq olunmağa başlandı*. Demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas tələbi kimi *söz və məlumat azadlığının təminatı, demokratik və siyasi plüralistik kütləvi informasiya vasitələrinin (KİV) yaradılması, iqtisadi və siyasi müstəqilliyinin təmin edilməsi, beynəlxalq rəqabətədavamlılığının artırılması, informasiya fəaliyyətinin hüquqi-normativ əsaslarının yenidən qurulması və s. bu siyasətin əsas prioritetlərinə* çevrildi. Azərbaycan hakimiyyəti bu istiqamətdə bir çox beynəlxalq təşkilatlarla və inkişaf etmiş demokratik ölkələrlə əməkdaşlıq edərək respublikada azad informasiya mühiti formalaşdırdı, ölkənin informasiya təhlükəsizliyinin təminatı mexanizmlərini bərqərar etdi.

Keçən iyirmi ildə Azərbaycanda milli informasiya siyasəti və təhlükəsizliyi sahəsində müəyyən qanunlar, konsepsiyalar, doktrinalar, xüsusi dövlət proqramları və s. sənədlər qəbul edilib, çoxsaylı praktiki addımlar atılıb və işlər görülüb.

Azərbaycanın dövlət informasiya siyasətinin əsasları: müstəqil kütləvi-informasiya vasitələrinin formalaşdırılması siyasəti və informasiya-kommunikasiya texnologiyalarının inkişafı

Azərbaycanda söz və informasiya azadlığının bərqərar olmasının, azad informasiya mühitinin və müstəqil kütləvi informasiya vasitələrinin yaradılması siyasətinin banisi Ümummilli lider Heydər Əliyevdir. Məhz onun prezidentliyi dövründə ölkədə azad, müstəqil, beynəlxalq rəqabətədavamlı, demokratik milli kütləvi informasiya vasitələrinin formalaşması və hərtərəfli inkişafının təmin edilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirilməyə başlanmışdır. Heydər Əliyevin rəhbərliyi altında ölkədə plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran bütün süni maneələr aradan qaldırılmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş yeni Konstitusiyasında söz, fikir və məlumat azadlığı, hər kəsin məlumat almaq və yaymaq hüququ, KİV üzərində hər hansı senzuranın yolverilməzliyi birmənalı formada təsbit edilmişdir. Ötən əsrin 90-cı illərindən başlayaraq Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması, onun hüquqi-normativ bazasının qurulması, iqtisadi müstəqilliyinin təmin edilməsi üçün geniş imkanlar yaradılmışdır. Azərbaycan Prezidentinin 6 avqust 1998-ci il tarixli Fərmanı ilə Nazirlər Kabineti nəzdində mətbuatda və digər KİV-lərdə dövlət sirlərini mühafizə edən baş idarə

ləğv edilmişdir.[107] Senzuranın ləğvi demokratik cəmiyyət olaraq Azərbaycanın gələcək plüralistik informasiya siyasətinin həyata keçirilməsini şərtləndirmiş və sürətləndirmişdir. Fərmanda nəzərdə tutulan digər tədbirlər müstəqil KİV-in inkişafını, vətəndaşların beynəlxalq hüquq və Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığını təmin etmiş, ölkənin informasiya siyasətini dolğunlaşdırmışdır. Bunun ardınca dövlət informasiya siyasətinin ardıcıllığını təmin etmək məqsədi ilə 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv olunmuş və dövlətin mətbuat üzərində nəzarət funksiyasından imtina edilmişdir. 2003-cü ildə Azərbaycan Jurnalistlərinin I Qurultayında mətbuatın özünütənzimləmə orqanı və dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizamlanması funksiyalarını yerinə yetirən müstəqil Mətbuat Şurası yaranmışdır.

Azərbaycanın müasir informasiya təminatı və təhlükəsizliyi siyasəti hüquqi, təşkilati-texniki və iqtisadi metodlarla təmin olunur. *Hüquqi metodlar* informasiya sahəsində münasibətləri tənzimləyən normativ hüquqi aktların, informasiya təminatı və təhlükəsizliyi ilə bağlı normativ metodiki sənədlərin işlənib hazırlanması və qəbulunu nəzərdə tutur. *Təşkilati-texniki metodlara* informasiya-telekommunikasiya sistemlərinin normal fəaliyyətinə təhlükə yaradan texniki qurğuların, proqramların aşkarlanması və s. daxildir. *İqtisadi metodlar* isə informasiya təminatı və təhlükəsizliyinin təmin olunması sahəsində iqtisadi tədbirlərin görülməsi və onların maliyyələşdirilməsi ilə əlaqədardır.

[107]Bax: "Azərbaycan Respublikasınında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı http://www.e-qanun.az

1999-cu ilin dekabrında İnsan Haqları və Əsas Azadlıqları üzrə Avropa Konvensiyasının əsas tələblərinə uyğunlaşdırılmış "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının yeni demokratik Qanunu qəbul olunmuşdur.[108] 2001-ci il dekabrın 28-də Milli Məclisin yeni redaksiyada qəbul etdiyi həmin Qanun, mütəxəssislərin fikrinə görə, bütün demokratik tələblərə- söz və məlumat azadlığına, KİV-lərin və jurnalistlərin müstəqilliyinə və sərbəst fəaliyyətinə tam təminat verir.

2002-ci ildə Avropa Şurası ilə əməkdaşlıq şəraitində beynəlxalq standartlara tam cavab verən "Televiziya və radio yayımı haqqında" Qanun işlənib hazırlanmış və qəbul edilmişdir.[109] Bunun ardınca, 2003-cü ildə elektron KİV sahəsində fəaliyyətin demokratik normalara uyğun qurulmasını təmin edəcək, TV və Radio sahəsində fəaliyyəti tənzimləyən müstəqil dövlət orqanı- Milli Televiziya və Radio Şurası yaradılmışdır. Şura öz fəaliyyətində yalnız qanuna tabedir.

2004-cü ildə "İctimai Televiziya və radio yayımı haqqında" yeni qanun layihəsi işlənib hazırlanmış və qəbul edilmişdir.[110] Xüsusi qeyd olunmalıdır ki, qanunun hazırlanmasında Avropa Şurasının ekspertləri bilavasitə iştirak etmiş və əksər prinsipial müddəalar onlarla razılaşdırılmışdır.

2004-cü ilin sentyabrından etibarən "Dövlət sirri haqqında" Qanun qüvvəyə minmiş, bir müddət sonra isə Azərbaycan Prezidenti bu kateqoriyaya aid məlumatlar siyahısını təsdiq et-

108 Bax: "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu http://www.e-qanun.az

109 "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu http://e-qanun.az

110110 "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu http://e-qanun.az

mişdir. Bu, əsasən, hərbi sahəyə, dövlətin kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə dair məlumatlardır. Jurnalistlərin informasiya almaq azadlığının tam reallaşdırılması üçün 2005-ci il sentyabrın 30-da Azərbaycan Prezidentinin Sərəncamı ilə "İnformasiya əldə etmək haqqında" yeni Qanun təsdiq olunmuşdur.[111] Qanun layihəsinin hazırlanmasına həm əsas jurnalist təşkilatları, həm də Avropa Şurasının ekspertləri cəlb olunmuşdur. Nəticədə qanun yerli və xarici ekspertlər tərəfindən yüksək qiymətləndirilmiş və hazırda Avropa məkanında ən mütərəqqi qanunvericilik aktlarından hesab olunur. "İnformasiya əldə etmək haqqında" Qanun qəbul edildikdən sonra dövlət orqanlarında ictimaiyyətlə əlaqələr idarələrinin və mətbuat xidmətlərinin formalaşdırılmasına başlanmışdır. Qanunla müəyyən edilmiş bütün informasiya sahibləri, mərkəzi və yerli hakimiyyət qurumları onlara məxsus internet informasiya resusları yaradaraq jurnalistlərin xidmətinə təqdim etmişlər. Hazırda həmin resursların fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təmin edilməsi, qərarların qəbulu və idarəçilikdə ictimaiyyətin iştirakının genişləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqi üçün Azərbaycan Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.[112] Sənəddə İnformasiya əldə edilməsinin asanlaşdırılması, dövlət orqanlarının öz fəaliyyəti barədə ictimaiyyətə müntəzəm məlumat verməsi, normativ hüquqi aktla-

[111]"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu http://e-qanun.az
[112]Yenə orada: http://e-qanun.az

rın vahid elektron bazasının fəaliyyətinin təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi, elektron xidmətlərin təkmilləşdirilməsi, maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində, vergi nəzarəti və yoxlamaları prosesində, mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflığın artırılması, açıq hökumətin təşviqi üçün görülən tədbirlərlə bağlı maarifləndirmənin və əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Müstəqillik illərində Azərbaycanda söz və məlumat azadlığının təmin edilməsi, KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl qərarlar qəbul edilmiş, müvafiq fərman və sərəncamlar imzalanmışdır. 1998-ci ilin sonunda KİV-lərin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə dövlət başçısının Sərəncamı ilə qəzet redaksiyaları əlavə dəyər vergisindən azad edilmişdir. Vergi Məcəlləsində KİV-lərin inkişafının stimullaşdırılması, onların maliyyə durumunun yaxşılaşdırılması və maddi-texniki bazasının gücləndirilməsi üçün sərfəli güzəştlər nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il iyulun 20-də imzaladığı "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" Fərmanla ölkəyə gətirilən qəzet kağızına gömrük rüsumları ləğv olunmuş, qəzetlərə uzunmüddətli və güzəştli kreditlər verilməsi qərara alınmışdır. Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2002-ci il tarixli Sərəncamı ilə Sahibkarlığa Kömək Milli Fondundan KİV sahəsində layihələrin maliyyələşdirilməsi üçün 600 min manat vəsait ayrılmışdır. 2003-cü il yanvarın 9-da Azərbaycan Prezidentinin Sərəncamı ilə qə-

zetlərin "Azərbaycan" nəşriyyatına borcları 3 il müddətinə dondurulmuş, 2006-cı ilin martında isə onların 450 min ABŞ dolları həcmində borcunun dövlət büdcəsi hesabına ödənilməsi qərara alınmışdır.

Qeyd edilməlidir ki, 2000-ci ildən Azərbaycan milli mətbuatının yubileyləri dövlət səviyyəsində qeyd olunur. 2005 və 2010-cu illərdə yüzlərlə jurnalist fəxri adlar və dövlət mükafatları ilə təltif olunmuşlar. Hər il ölkənin aparıcı qəzet redaksiyaları və informasiya agentliklərinə dövlət tərəfindən birdəfəlik maliyyə yardımı ayrılır.

2008-ci il iyulun 30-da Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nı təsdiq etmişdir.[113] Kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin əsas məqsədi vətəndaş cəmiyyəti quruculuğu prosesində KİV-in rolunu nəzərə almaqla fikir, söz və məlumat azadlığını inkişaf etdirmək, kütləvi informasiya vasitələrinin müstəqilliyini dəstəkləmək, redaksiyalara yardım mexanizmini təkmilləşdirmək, informasiya sektorunda yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqini stimullaşdırmaq, cəmiyyət və kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlığı gücləndirmək, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artmasına şərait yaratmaq, sosial müdafiəsini gücləndirmək, dövlət və cəmiyyət üçün prioritet təşkil edən məsələlərin həllində kütləvi informasiya vasitələrinin potensialından səmərəli istifadə etməkdən ibarətdir.

2009-cu il aprelin 3-də Konsepsiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi

[113]Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası http://e-qanun.az

İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmışdır. [114] Fondun əsas vəzifəsi söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi üçün Konsepsiyada nəzərdə tutulmuş müddəaların həyata keçirilməsini, habelə KİV-lərin proqram, layihə və digər tədbirlərini maliyyələşdirməkdir. Fond müstəqil orqandır, onun fəaliyyətinə vətəndaş cəmiyyəti institutlarının təmsil olunduğu Müşahidə Şurası nəzarət edir. 2009-cu ildən sonrakı dövrdə KİV layihələrinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən Fonda 15 milyon manatdan artıq vəsait ayrılmışdır.

Azərbaycan Prezidentinin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında" 2010-cu il 22 iyul tarixli Sərəncamı ilə jurnalistlər üçün yaşayış binasının tikilməsi məqsədi ilə xüsusi vəsait ayrılmışdır. 2013-cü il iyulun 22-də jurnalistlər üçün tikilmiş binanın açılış mərasimi keçirilmiş və 156 KİV əməkdaşına yeni mənzillər paylanmışdır. Elə həmin gün Azərbaycan Prezidentinin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncam imzalamış və jurnalistlər üçün yeni – 240 mənzilli binanın tikintisinə vəsait ayırmışdır.

Bu gün Azərbaycanda dünya standartlarına uyğun azad, plüralist media formalaşmışdır. Dövlət KİV-lərin müstəqil və hərtərəfli inkişafı üçün zəruri şərait yaratmışdır. Azərbaycan dövləti hesab edir ki, kütləvi informasiya vasitələri vətəndaş cəmiyyətinin dinamik inkişafına mühüm təsirə malik güclü vasitədir. Kütləvi informasiya vasitələrinin kəmiyyətinə görə Azərbaycan Respublikası MDB və Şərqi Avropa ölkələri ara-

[114]"Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı http://e-qanun.az

sında lider mövqelərdən birini tutur. Azərbaycanda 5000-ə yaxın KİV müvafiq dövlət orqanında uçota götürülmüş və ya qeydiyyatdan keçmişdir. Təsis edilən KİV-lər müxtəlif siyasi, ictimai mövqeli təşkilatlara, özəl qurumlara və fiziki şəxslərə məxsusdur. Ölkədə 40-a yaxın gündəlik, 200-dən artıq həftəlik və aylıq qəzet nəşr olunur. 80-dən artıq elmi-praktiki, ictimai-siyasi, sosial-iqtisadi məsələləri, uşaq və qadın problemlərini işıqlandıran və əyləncə xarakterli jurnal çıxır. Azərbaycanda 20-yə yaxın informasiya agentliyi ölkədə və dünyada baş verən hadisələrlə bağlı müntəzəm və çeşidli məlumat yayır. Bölgələrdə 100-ə yaxın qəzet və jurnal nəşr olunur.

1998-ci ildən sonra Azərbaycanda yeni özəl televiziya və radio kanalları açılmış, son illər kabel televiziyasının miqyası genişlənmişdir. Hazırda Azərbaycanda 10 ümumrespublika, 1 peyk, 14 regional və 14 kabel televiziyası, 14 radio fəaliyyət göstərir. 2005-ci ildə Azərbaycan Dövlət Televiziyasının bazasında "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır. Elə həmin il ikinci dövlət kanalının bazasında İctimai Televiziya və Radio Yayımları Şirkəti təsis edilmiş və fəaliyyətə başlamışdır. İctimai Televiziyanın maddi-texniki təminatı və real olaraq fəaliyyətə başlaması üçün bütün zəruri tədbirlər görülmüşdür. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il tarixli qərarına əsasən ölkə ərazisində rəqəmsal yayımın tətbiqinə başlanmışdır. 2014-cü il ərzində Azərbaycanda rəqəmsal yayıma keçidin başa çatacağı gözlənilir.

Azərbaycanda 50-dən artıq jurnalist təşkilatı qeydiyyatdan keçmiş, 30-a yaxın təşkilat söz və məlumat azadlığının inkişaf etdirilməsi, mətbuatın iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin hüquqlarının müdafiəsi, KİV-lərin informasiya əldə etmək imkanlarının genişləndirilməsi, cəmiyyətlə

KİV arasında münasibətlərin tənzimlənməsi və digər məsələlərlə aktiv məşğul olur. Ölkədə müstəqilik illərində mətbuat yayımı həyata keçirən müstəqil kommersiya şirkətlərinin sayı artmışdır. Hazırda 23 mətbuat yayımı firması paytaxt və bölgələrdə geniş fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda söz və informasiya azadlığının təmin olunması, müstəqil KİV-lərin inkişafı və beynəlxalq rəqabətədavamlılığının artırılması, medianın maddi texniki bazasının gücləndirilməsi, ölkə jurnalistlərinin peşəkarlığının artırılması və s. sahələrdə həyata keçirilən dövlət siyasəti tezliklə öz müsbət nəticələrini göstərmişdir. Belə ki, 2009-cu ildən bəri jurnalistlərin insanları böhtan və təhqir etmə maddəsi ilə və ümumən yaradıcılıq fəaliyyəti ilə bağlı həbsə alınması faktı qeydə alınmamışdır. Hazırkı şərait Azərbaycanda "diffamasiya haqqında" yeni qanun layihəsinin müzakirəyə çıxarılması və qəbul olunmasını, jurnalistlərin fəaliyyətinin daha da asanlaşdırılması və təhlükəsizliyinin dolğun təmin olunmasını gündəmə gətirmişdir. Ölkə rəsmiləri və mətbuat ictimaiyyəti hazırda inkişaf etmiş demokratik dövlətlərin bu sahədəki təcrübəsini öyrənərək, Azərbaycanda tətbiqi üzərində birgə fəaliyyət göstərir.

Yeni minilliyin başlanğıcından dünyanın müxtəlif ölkələrində, xüsusən də inkişaf etmiş dövlətlərdə İKT-nin inkişafı, qabaqcıl inkişaf texnologiyaları və innovativ iqtisadi münasibətlərə əsaslanan informasiya cəmiyyətinin yaradılması istiqamətində transmilli fəaliyyət bir qədər də güclənmişdir. Bu fəaliyyət yeni minilliyin əsas inkişaf tələbləri və çağırışları kimi BMT-nin müvafiq Sammitinin qərarlarında da öz əksini tapmışdır. Son on ildə Azərbaycanda da ölkənin sabit və dinamik inkişafı, cəmiyyətin sosial-iqtisadi problemlərinin həlli, söz və mətbuat azadlığının təmin edilməsi, milli KİV-in maddi-

texniki bazasının gücləndirilməsi və beynəlxalq rəqabətədavamlılığının artırılması məqsədi ilə *İKT və rabitə sektorunun inkişafına* mühüm əhəmiyyət verilir. İKT-nin inkişafı siyasəti hazırda Azərbaycan dövlətinin fəaliyyətində mühüm yer tutur. Cəmi bir neçə ildə bu sahə üzrə həm milli qanunvericilik, həm də praktiki fəaliyyət xeyli gücləndirilmiş və ciddi nəticələr əldə edilmişdir. Ölkə üzrə informasiya cəmiyyətinin, yeni texnoloji və innovativ biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması dövlət tərəfindən dəstəklənir. Respublikada informasiya təhlükəsizliyinin təmin olunması və informasiya texnologiyalarının inkişafı ilə bağlı milli qanunvericilik bazası xeyli təkmilləşdirilmişdir. "Kütləvi informasiya vasitələri haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Məlumat azadlığı haqqında", "Elektron sənəd və elektron imza haqqında", "İnformasiya əldə etmək haqqında", "Telekommunikasiya haqqında", "Dövlət sirri haqqında" və s. qanunların qəbul edilməsi bunun əyani sübutudur.[115]

Bunlardan əlavə, Azərbaycan Prezidenti tərəfindən "Azərbaycanın inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003–2012-ci illər)", "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" və s. mühüm sənədlər də təsdiq olunmuşdur. Strategiya çərçivəsində "Elektron Azərbaycan - 2005-2008-ci illər" və "Elektron Azərbaycan - 2010-2012-ci illər" dövlət proqramları qəbul olunmuş və icra edilmişdir.[116]

[115] Cm:http://e-qanun.az
[116] Yenə orada

Son illərdə Azərbaycanda İKT-nin sürətli inkişafı ölkə çərçivəsində internetin imkanlarının genişlənməsinə şərait yaratmış və müasir internet şəbəkəsi formalaşmışdır. İKT-nin inkişafı yönündə aparılan məqsədyönlü dövlət siyasətinin nəticəsidir ki, 2008-ci ildə Davosda keçirilən Ümumdünya İqtisadi Forumunun hesabatında Azərbaycan İKT sahəsindəki inkişaf səviyyəsinə görə MDB ölkələri arasında birinci yeri tutmuşdur. Ümumdünya İqtisadi Forumunun hesabatına görə, hazırda ölkə üzrə internet istifadəçilərinin sayı əhalinin 70%-ni təşkil edir. Milli internet provayderinin sayı 40-a çatmışdır. Son illər genişzolaqlı sürətli internet istifadəçilərinin sayı 50 faizə yaxınlaşmışdır ki, bu da ümumdünya orta göstəricisindən 2 dəfə yüksəkdir. 5 ildə internet trafikinin giriş-çıxış həcmi 40 dəfə yüksəlmiş və hazırda 200 GB-dən çoxdur. İnternet xidmətlərindən istifadə haqları region ölkələrindəki tariflərlə uyğunlaşdırılmışdır. Bölgələrdə internet istifadəçilərinin sayı 12-15 dəfə çoxalmışdır. Ucqar kəndləri də nəzərə almaqla Azərbaycanın bütün bölgələrində internetdən istifadə etmək üçün şərait yaradılmışdır. Bu gün 9 milyon əhalisi olan ölkədə 2 milyona yaxın sosial şəbəkə, o cümlədən 1.2 milyon Facebook istifadəçisi vardır. "AZ" domenində qeydiyyatdan keçmiş internet saytlarının sayı 20 minə çatmışdır. Ölkədə 300-ə yaxın xəbər və analitik internet saytı fəaliyyət göstərir və onların sayı durmadan artır.

2011-ci il mayın 23-də "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı[117] imzalanmışdır. Fərmana əsasən, dövlət orqanları öz fəaliyyət istiqamətlərinə uyğun olaraq bütün sahələrdə elektron xidmət-

[117] Yenə orada

lər təşkil etmişlər. Elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında təşkilinin təmin edilməsi məqsədi ilə "www.e-gov.az" vahid elektron hökumət portalı yaradılmışdır. Nazirlər Kabinetinin 2012-ci il 22 oktyabr tarixli qərarı ilə dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin növləri hazırda 417-yə çatdırılmışdır. Bununla yanaşı dövlət orqanları əhaliyə 300-ə yaxın elektron xidməti göstərir.

Azərbaycanda İKT sahəsi son illərdə sürətlə inkişaf edir. Bu illər ərzində İKT-yə ümumi investisiya qoyuluşunun həcmi təxminən 3 milyard ABŞ dolları təşkil etmişdir. Ölkə ərazisində uzunluğu 1161 kilometr olan Trans-Asiya-Avropa (TAE) fiber-optik kabel magistralı çəkilmişdir. Bu şəbəkə daxili ehtiyatlar hesabına daha da genişləndirilmiş, ölkənin digər bölgələri magistral xəttə qoşulmuş və şimal sərhədinə qədər optik xəttin tikintisi təmin edilmişdir.

Azərbaycanda hazırda radio-televiziya proqramlarının peykdən yayımını təmin edən (TV-UP-Link) peyk rabitə stansiyaları ilə yanaşı, xarici ölkələrlə rabitənin təşkili, məlumatların ötürülməsi və qəbulu, internet şəbəkələrinin və daxili korporativ şəbəkələrin yaradılması məqsədi ilə müxtəlif peyklər üzərindən peyk rabitə kanalları (daşıyıcılar) vasitəsi ilə bir neçə peyklə işləyən yerüstü stansiyalar qurulub istifadə edilir. Əhaliyə, o cümlədən ölkə xaricində yaşayan azərbaycanlılara informasiya çatdırmaq üçün İKT-nin imkanlarından geniş istifadə olunur. AzTV, İTV və digər milli televiziya kanalları, televiziya və radio proqramları AZƏRSPACE-1 ilə yanaşı, iki digər peyk üzərindən də Asiya, Avropa və bütün dünya ölkələrinə yayımlanır.

Müasir informasiya cəmiyyətinin yaradılmasına, söz və məlumat azadlığının təminatına, İKT-nin inkişafı və milli informasiya təhlükəsizliyi sahəsində görülən ciddi işlərə baxma-

yaraq, Azərbaycan bir çox göstəricilərə görə hələ də ümumdünya səviyyəsindən geri qalır. Odur ki, ölkədə **informasiya cəmiyyətinin inkişafı,** rabitə və informasiya texnologiyalarının, eyni zamanda "İKT-nin inkişafı üzrə Milli Strategiya"nın qarşısında dayanan vəzifələrin tam yerinə yetirilməsi **hazırda həyata keçirilən dövlət siyasətinin mühüm vəzifələrindən biri hesab olunur. Bu məqsədlə 2 aprel 2014-cü ildə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" nın təsdiq edilməsi haqqında ölkə Prezidentinin Sərəncamı imzalanmış və ölkədə sayca ikinci milli fəaliyyət proqramı qəbul olunmuşdur.[118] Bundan əvvəl qəbul olunmuş Milli Strategiya 2003–2012-ci illəri əhatə edirdi bu sahə üzrə milli fəaliyyət proqramının əsas vəzifə və istiqamətlərini, həyata keçirilməsinin əsas prinsiplərini və prioritetlərini müəyyənləşdirmişdi.**

Cəmiyyət həyatının İKT-nin müasir tələbləri çərçivəsində inkişafı, dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi və şəffaflığının artırılması, yeni-yeni milli informasiya ehtiyatlarının yaradılması və təhlükəsizliyinin təmin edilməsi, müasir elmi biliklərə əsaslanan iqtisadiyyatın inkişafı, bütün sahələrdə yeni texnologiyaların geniş tətbiqinə nail olunması, informasiya təhlükəsizliyi və azadlığının müdafiəsi, qlobal informasiya fəzasına inteqrasiyanın genişləndirilməsi ölkədə informasiya cəmiyyətinə keçidi təmin edəcək fəaliyyətin tərkib hissələridir.

Azərbaycan dövlətinin 2013-cü ildə özünün AZƏRSPACE-1 video-informasiya ötürücü peykini yeraltı orbitə çıxarması və regionda Rusiya, Türkiyə ilə birlikdə kosmik ölkəyə çevril-

[118]Bax: "Azərbaycan" qəzeti, 3 aprel 2014-cü il.

məsi onun həm informasiya fəaliyyəti və təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamış, həm də ölkəyə İKT sahəsində yaxın gələcəkdə böyük uğurlar qazandırmağa şərait yaratmışdır.

Göründüyü kimi, müstəqillik illərində Azərbaycan Respublikasında yeni informasiya fəaliyyətinin təşkili, fikir, söz və məlumat azadlığı sahəsində qazanılmış uğurlar milli dövlət quruculuğu siyasətinin və əldə olunmuş demokratik nailiyyətlərin mühüm tərkib hissəsi olmuşdur. Azərbaycan hökuməti bundan sonra da demokratiyanın inkişaf etdirilməsi sahəsində üzərinə düşən vəzifələri yerinə yetirmək əzmindədir.

İnformasiya təhlükəsizliyi siyasətinin əsasları

Qeyd etmək lazımdır ki, informasiya təhlükəsizliyinə xarici və daxili təhdidlər, onların qarşısının alınması metodları və s. kimi məsələlər milli təhlükəsizliyin bütün sahələri üçün əsasən ümumi xarakter daşıyır. Lakin bu sahələrin (iqtisadi, siyasi, hərbi, sərhəd və s.) hər biri özünəməxsus xüsusiyyətlərə malik olduğuna görə, onların təhlükəsizliyinin təmin olunması metodları bir-birindən fərqlənir.

Azərbaycanda informasiya təhlükəsizliyinin təmin olunması məsələləri yuxarıda adı çəkilən bir çox qanunlarla yanaşı ümumi formada Milli Təhlükəsizlik Konsepsiyasında və Azərbaycan Respublikasının "Milli Təhlükəsizlik haqqında" qanununda da öz əksini tapmışdır. Milli Təhlükəsizlik Konsepsiyasında ölkənin informasiya təhlükəsizliyinə təhdidlər ümumi və qısa formada öz əksini tapmışdır. Konsepsiyada qeyd olunur ki, Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müda-

fiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir.[119]

Konsepsiyada Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması məqsədi ilə ölkədə informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturunun inkişaf etdirilməsi və möhkəmləndirilməsi zərurəti qeyd olunur. Bundan başqa, dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədi ilə obyektiv və mühüm məlumatların toplanması təklif edilir.

Sənəddə ümumi formada ölkənin kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin uzlaşdırılması və səmərəliliyinin artırılması zərurəti, habelə məxfi informasiyanın mühafizə olunmasının koordinasiyasının milli təhlükəsizlik sektorunun əsas məsələlərdən biri olduğu vurğulanır və qeyd edilir ki, Azərbaycan bundan sonra da öz milli kəşfiyyat və əks-kəşfiyyat qabiliyyətini artıracaq, dövlət sirrinə aid edilmiş məlumatların mühafizəsi ilə bağlı fəaliyyətini davam etdirəcəkdir.[120]

İnformasiya təhlükəsizliyi siyasəti "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda da ümumi formada öz əksini tapmışdır. Qanunda Azərbaycan Respublikasının informasiya sahəsində əsas milli maraqları aşağıdakı sahələr üzrə təsnif olunur:

- məlumatların qanuni yolla əldə edilməsi, ötürülməsi, hazırlanması və yayılması kimi vətəndaşların konstitusiya hüquqlarının təmin edilməsi;

[119] Bax: Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası // http://e-qanun.az
[120] Yenə orada

- informasiya ehtiyatlarının qorunması və inkişaf etdirilməsi;
- informasiya məkanının formalaşdırılması və onun qorunmasının təmin edilməsi;
- dünya rabitə və informasiya sisteminə daxil olma.[121]

Qanunun 15-ci maddəsində Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsas sahələri qismində iqtisadi, hərbi, sosial, informasiya, ekologiya, elm, mədəniyyət, mənəviyyat və digər sahələr qeyd olunur.[122]

Azərbaycanın informasiya təhlükəsizliyi sahəsindəki əsas təhdidlər "Milli təhlükəsizlik haqqında" Qanunda aşağıdakı kimi təsnif olunur:

- informasiya texnologiyaları sahəsində geriləmə və dünya informasiya məkanına daxil olmağa maneələrin mövcudluğu;
- informasiya azadlığı əleyhinə yönəlmiş qəsdlər;
- dövlət sirlərinin aşkarlanmasına yönəlmiş qəsdlər;
- digər ölkələr tərəfindən Azərbaycana informasiya təcavüzü, beynəlxalq aləmdə ölkə həqiqətlərinin təhrif edilməsi;
- informasiya sisteminə və ehtiyatlarına qarşı qəsdlər və s. daxil edilmişdir.[123]

Göründüyü kimi, Milli Təhlükəsizlik Konsepsiyası və Milli Təhlükəsizlik haqqında Qanunda informasiya təhlükəsizliyi problemi əsas vəzifə kimi qoyulmur, yalnız ölkənin ümumi milli təhlükəsizliyi fonunda təsnif olunur. İnformasiya təhükəsizliyi ilə bağlı sadalanan təhdidlər də bir qədər ümumi xarak-

[121] Bax: http://www.mns.gov.az/nslawcp1_az.htm
[122] Yenə orada
[123] Bax: http://www.mns.gov.az/nslawcp1_az.htm

ter daşıyır və ölkənin siyasi, iqtisadi, müdafiə, sosial-milli, elm, texnika, mənəvi-əxlaqi və digər sahələr üzrə konkret informasiya təhlükəsizliyi tələblərinə toxunmur. İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, Azərbaycanda da bu sahə üzrə ayrıca İnformasiya Təhlükəsizliyi Konsepsiyasının yaradılmasına ciddi ehtiyac vardır. Həmin Konsepsiyada milli informasiya fəaliyyəti və təhlükəsizliyi siyasətinin hüquqi əsasları müəyyənləşdirilməli, sistemli formada dövlətin informasiya mühitinin təhlükəsizliyinə təhdidlər öyrənilməli, qruplaşdırılmalı və sistemləşdirilməli, təhdidlərin doğura biləcəyi konkret nəticələr proqnozlaşdırılmalı və bu sahə üzrə dövlət qurumlarının praktiki fəaliyyətin effektivliyi ciddi şəkildə təmin edilməlidir. Ümumiyyətlə, mütəxəssislərin fikrinə görə, hər bir ölkədə informasiya təhlükəsizliyinə təhdidlərin vaxtında müəyyənləşdirilməsi və qarşısının alınması milli təhlükəsizliyinin bütövlükdə təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. İnformasiya təhlükəsizliyinə təhdidlərin vaxtında müəyyənləşdirilməməsi siyasi, iqtisadi, müdafiə və digər sahələrdə milli maraqlara ciddi zərbə vurulmasına, cəmiyyətin xaos və qarşıdurmalara sürüklənməsinə, idarəetmə sisteminin iflic olmasına və mənəvi-əxlaqi dəyərlərin aşınmasına gətirib çıxara bilər.

Azərbaycanın informasiya təhlükəsizliyi mühitinin mövcud vəziyyətinin təhlili göstərir ki, şəxsiyyət, dövlət və cəmiyyətin həyati əhəmiyyətli bütün maraqlarının daha yüksək və təkmil səviyyədə qorunması hazırda həm də ölkənin informasiya təhlükəsizliyi siyasətinin əsas məqsədi kimi çıxış etməli, onun dinamik inkişaf səviyyəsinin tələblərinə cavab verməli, milli informasiya resurslarının reyestri yenidən aparılmalı və təkmilləşdirilməli, informasiya təhlükəsizliyinin meyarları və metodları hərtərəfli işlənilməlidir. Mütəxəssislərin fikrinə görə,

müasir dünyada hər bir ölkənin informasiya təhlükəsizliyinin təmin olunması ilk növbədə bu istiqamətdə yürüdülən dövlət siyasətinin prioritet istiqamətlərinin dəqiq müəyyənləşdirilməsindən, informasiya təhlükəsizliyi mühitinin dəqiq, obyektiv, elmi baxımdan düzgün qiymətləndirilməsindən və bu sahədə səmərəli fəaliyyətin təşkil olunmasından asılıdır. Bu baxımdan, hazırda Azərbaycanın informasiya təhlükəsizliyi mühitinə təsir edən əsas amillərin müəyyənləşdirilərək sistemləşdirilməsi və onların ayrıca olaraq İnformasiya Təhlükəsizliyi Konsepsiyasında öz əksini tapması vacibdir.

Milli İnformasiya Təhlükəsizliyi Konsepsiyasında həm də beynəlxalq aləmdə, ölkə daxilində, ictimai-siyasi və sosial-iqtisadi həyatda baş verən proseslərin dövlətin informasiya təhlükəsizliyinə təsiri və bundan irəli gələn vəzifələr öz əksini tapmalıdır. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2011-ci ilin yekunlarına həsr olunmuş illik toplantısında dünya ölkələrinin müasir informasiya-kommunikasiya siyasətinin xarakterik xüsusiyyətlərini, planetimizdə günügündən genişlənən internet resurslarının, transmilli mətbuat-informasiya sistemlərinin beynəlxalq ictimai rəyin formalaşmasındakı mühüm rolunu, dünyada virtual informasiya əlaqələrin bütün milli sərhədləri aşması tendensiyasını və s. məsələləri nəzərə alaraq, müasir dövrdə hər bir ölkənin milli təhlükəsizliyinin əsas istiqamətlərindən biri kimi informasiya təhlükəsizliyinin rolunu xüsusi qeyd etmiş, bu sahədə Azərbaycanda görülməsi vacib olan işlər haqqında danışmışdır. O qeyd etmişdir ki, biz informasiya əsrində, internet və digər informasiya texnologiyalarının inkişafı dövründə yaşayırıq. Azərbaycanda siyasi plüralizm hökm sürür, azad mətbuat, internet və informasiya orqanları fəaliyyət göstərir, əhalinin 50 faizindən çoxu internetdən istifadə edir. İndi hər bir kəndə, hər bir yaşayış

məntəqəsinə genişzolaqlı internet şəbəkəsinin çəkilməsi planlaşdırılır. Lakin, təəssüf ki, qlobal informasiya məkanında internetdən, informasiya vasitələrindən, transmilli mətbuatdan bəzən insanların informasiya ehtiyacını ödəməklə yanaşı, həm də xüsusi təxribat vasitəsi kimi istifadə edirlər, ayrı-ayrı xalqlara, dövlətlərə və insanlara qarşı böhtan kompaniyası aparırlar. Bu təxribatlar, məqsədyönlü kompaniyalar bəzi hallarda açıq, bəzi hallarda gizli aparılır. Əlbəttə, belə şəraitdə ölkələrin informasiya təhlükəsizliyi məsələləri çox aktuallaşır.[124]

Azərbaycanın informasiya təhlükəsizliyi siyasətinə toxunan ölkə başçısı vurğulamışdır ki, hazırda bizə qarşı dünyada sistemli informasiya müharibəsi aparan qüvvələr mövcuddur. Elə ölkələr var ki, orada nəinki hər həftə, hər gün Azərbaycanla bağlı böhtan xarakterli yazılar dərc edirlər. Təbii ki, bu, əlaqələndirilmiş bir antiazərbaycan siyasətidir. Bu işdə ilk növbədə, erməni lobbisinin fəallığını qeyd etmək lazımdır, onlar mütəmadi olaraq Azərbaycanın milli-mədəni dəyərlərini, real inkişafını və həqiqətlərini inkar edərək, onu geridə qalmış, antidemokratik, antixristian ölkə kimi dünyaya təqdim etməyə çalışır.[125]

Ölkə başçısının fikirlərindən göründüyü kimi, İnformasiya Təhlükəsizliyi Konsepsiyasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həyata keçiriləcək informasiya siyasətinin əsas istiqamətləri və bu sahədə qarşıda duran vəzifələr ayrıca əks etdirilməlidir. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, hazırda Azərbaycana qarşı həyata keçirilən informasiya müharibəsində Ermənistan xüsusi canfəşanlıq göstərir. Erməni diasporu müxtəlif ölkələrin informasiya vasitələ-

[124] Bax**:** "Azərbaycan" qəzeti, 17 aprel 2012-ci il.
[125] Yenə orada

rində Azərbaycanın dünyada gündən-günə artan nüfuzuna, siyasi, iqtisadi, mədəni sahələrdə əldə etdiyi uğurlarına kölgə salmağa çalışır. Bu məsələdə ermənipərəst xarici və daxili siyasi dairələr xüsusi aktivlik nümayiş etdirir. Ermənilərin və onlara himayədarlıq edən siyasi dairələrin əsas məqsədi nəyin bahasına olursa-olsun beynəlxalq ictimai rəydə Azərbaycanla bağlı mənfi fikir formalaşdırmaqdır.[126]

Müasir informasiya təhlükəsizliyi sahəsində ölkənin milli maraqlarından irəli gələn bir çox vəzifələrə toxunan Azərbaycan Prezidenti, bütün ölkə rəsmilərini və vətəndaşlarını, dünya azərbaycanlılarını erməni lobbisi ilə informasiya mübarizəsinə daim hazır olmağa səsləmişdir. Onun fikrinə görə, son illər bu sahədə vəziyyət xeyli dərəcədə bizim xeyrimizə dəyişmişdir. Azərbaycanın diaspor qurumları, qeyri-hökumət təşkilatları, xaricdəki səfirliklərimiz, ölkə ictimaiyyəti bu işə öz dəstəyini göstərir. Azərbaycanı dəstəkləyən insanların xarici mətbuat və informasiya vasitələrindəki çıxış imkanları və mövqeləri getdikcə güclənir. Ancaq hələ ki, erməni lobbisi Avropada və başqa dünya dövlətlərində, xüsusən, böyük ölkələrdə kifayət qədər güclü və təsirlidir. Onlar onilliklər, yüzilliklər boyu bu istiqamətdə məqsədyönlü fəaliyyət göstərmiş, ciddi şəkildə təşkilatlanmış, çox aqressiv və mənfi bir şəbəkə yaratmışlar. Azərbaycana qarşı əksər mənfi informasiyaların təkanverici qüvvəsi məhz erməni lobbisidir.[127]

Müstəqillik qazanandan sonra ermənilər xarici ölkələrdə mövcud olan diasporalarının imkanlarından istifadə edərək Azərbaycana qarşı informasiya mübarizəsi aparan böyük bir şəbəkə yaradıblar. Bu şəbəkənin əhatə və təsir dairəsi kifayət

[126] Bax**:** "Azərbaycan" qəzeti, № 82, 17 aprel 2012-ci il.s.4.
[127] Yenə orada

qədər genişdir. Bura müxtəlif ölkələrin aparıcı mətbu orqanlarında çalışan, bəzən öz mənşəyini gizlədərək başqa familiyalarla çıxış edən erməni əsilli jurnalistlər, diasporanın təsiri altında olan xarici mətbuat orqanları, informasiya vasitələri, teleradio kompaniyaları və s. daxildir. Onların Azərbaycan fəaliyyəti məqsədyönlüdür və koordinasiya edilir. Bundan başqa, Azərbaycan əleyhinə dünyada informasiya mübarizəsi aparan digər qüvvələr də mövcuddur ki, bunlar da əsasən erməni lobbisinin təsiri altında olan, onların pulu ilə maliyyələşən bəzi xarici ölkələrin qeyri-hökumət təşkilatları, tanınmış mədəniyyət və ictimai-siyasi xadimləri və s. qüvvələrdən ibarətdir. Onların çoxu açıq şəkildə, bir qismi isə gizli formada erməniləri dəstəkləyir, qondarma "Dağlıq Qarabağ Respublikası"nın yaşaması və tandılmasına səy göstərir, dünyada anti-Azərbaycan təbliğatı aparır. Dünyada anti-Azərbaycan təbliğatının qidalandığı üçüncü mənbə son illərdə bəzi ölkələrdə vüsət almış islamofobiya meyilləri hesab oluna bilər. Bu hal müasir dünyanın hazırda müşahidə olunan ən mənfi reallıqlarından biridir və Azərbaycan da bir islam ölkəsi kimi bu reallıqdan ciddi əziyyət çəkir. Dünyada islamofobiya meyilləri gücləndikcə müsəlman ölkələrinə münasibət də mənfi istiqamətə dəyişir. Hazırda ayrı-ayrı ölkələrdə islamofobiya xəstəliyinə yoluxmuş siyasətçilərin sayı günü-gündən artır və onlar müsəlman ölkələrinə qarşı ciddi bir qüvvəyə çevrilir. Həmin qüvvələr öz müsbət inkişaf tendensiyaları ilə seçilən, müasirliyi, müstəqil siyasəti və s. ilə fərqlənən Azərbaycan kimi müsəlman ölkələrinə qarşı təsirli kompaniya aparırlar. Azərbaycana qarşı informasiya müharibəsi aparan dördüncü qrupa isə sadəcə olaraq Azərbaycanın müstəqil siyasətini qəbul etməyən insanlar, təşkilatlar və ölkələr daxildir. Bu qrupun təmsilçiləri elə hesab edir ki, Azərbaycan kimi kiçik ölkələr müstəqil siyasət yürütməməli,

kiminsə "qanadının altına" keçməlidir. Prezident İlham Əliyev bununla bağlı qeyd etmişdir ki, Azərbaycanın müstəqil siyasətini qəbul etməyən həmin qüvvələr çalışırlar ki, fərqli-fərqli imkanlardan, informasiya texnologiyalarından və s. istifadə edib ölkəmizə qarşı təxribat etsinlər, dünya ictimaiyyətinə müxtəlif yalan, böhtan xarakterli məlumatlar ötürsünlər. Əlbəttə, Azərbaycanın müstəqil siyasəti, hər bir beynəlxalq məsələ ilə bağlı ortaya qoyduğu qəti mövqe dünya birliyində bizim etimadımızı artırır. BMT Təhlükəsizlik Şurasına seçilməsi Azərbaycanın xarici siyasətinin böyük təntənəsi və zəfəridir. Dünyanın 155 ölkəsinin dəstəyini qazanmaq, bizim müstəqil siyasətimizə, müstəqil dövlətimizə böyük inam və etimadın göstəricisidir. Azərbaycan öz müstəqil yolu ilə gedir.

Ölkə başçısı bildirmişdir ki, Azərbaycana qarşı informasiya təxribatları, əfsuslar olsun, təkcə bu faktlarla məhdudlaşmır. Elə qüvvələr vardır ki, bölgədə vəziyyəti qarışdırmaq, Azərbaycanı öz qonşuları ilə üz-üzə qoymaq istəyirlər. Bu işdə də informasiya təxribatlarından istifadə edilir. Biz bütün qonşularla, - Ermənistan təbii ki, istisna olmaqla, - normal, yaxşı dostluq münasibətləri yaratmışıq. Azərbaycan heç vaxt başqa ölkələrin qarşıdurma planlarında iştirak etmir və etməyəcəkdir. Mən bunu hələ prezidentlik dövrümün əvvəlində də demişəm. Azərbaycan qarşıdurma arenasına çevrilməyəcəkdir. Biz heç vaxt imkan verə bilmərik ki, ərazimizdən qonşulara qarşı istifadə edilsin. Belə olan halda, yenə gəlir informasiya təxribatı məsələləri. Mötəbər, dünya səviyyəli mətbu orqanlarında bu istiqamətdə çirkin yalanlar dərc edilir. Sonra bu yalanları təsir altında olan digər mətbu orqanlar yayır. Beləliklə, olmayan hadisələr, proseslər haqqında yalan rəy formalaşdırmağa çalışırlar.[128]

[128]Bax**:** "Azərbaycan" qəzeti, 17 aprel 2012-ci il.

Mütəxəssislərin fikrinə görə, Ermənistanın Hərbi Doktrinası, milli təhlükəsizlik Strategiyası və digər rəsmi sənədlərində milli təhlükəsizik, o cümlədən informasiya təhlükəsizliyi siyasəti ilə bağlı məsələlər Ermənistan və qondarma "Dağlıq Qarabağ Respublikası"nın maraqları kontekstində izah edilir. Bu sənədlərdə Dağlıq Qarabağ münaqişəsinin Ermənistanın milli maraqları çərçivəsində həll edilməsi Ermənistanın milli təhlükəsizliyinin əsas vəzifəsi kimi göstərilir. Buna görə də Azərbaycanın informasiya təhlükəsizliyi Konsepsiyasında Ermənistanın işğalçılıq siyasətinin mahiyyəti ilə bağlı beynəlxalq ictimai rəyin formalaşdırılması və ermənilərin saxta iddialarının ifşası, antiazərbaycan təbliğatının neytrallaşdırılması istiqamətində effektiv siyasətin məqsəd və vəzifələri düzgün müəyyənləşdirilməlidir.

Müasir dövrdə hər bir ölkədə olduğu kimi, Azərbaycanın da informasiya təhlükəsizliyində ölkənin hava-kosmik və peyk informasiya vasitələrinə kənar müdaxilələrin, yerli ictimai rəyi idarə etməyə yönələn pozucu təbliğat kompaniyalarının qarşısının alınması mühüm yer tutur. Mütəxəssislərin fikrinə görə, hazırda Azərbaycanın milli informasiya təhlükəsizliyi sisteminin yaradılması bu istiqamətdə qarşıda dayanan əsas vəzifələrdən biridir. Xüsusən virtual məkanda ölkənin tarixi, mədəniyyəti, iqtisadi və siyasi sistemi, mövcud vəziyyəti və milli təhlükəsizliyi sahəsindəki problemləri, ərazilərinin Ermənistan tərəfindən işğala məruz qalmasını, Dağlıq Qarabağ həqiqətlərini və s. dünya ictimaiyyətinə çatdıran çoxsaylı yerli və xarici məlumat mənbələrinin, veb-saytların və digər elektron informasiya vasitələrinin izlənilməsi, öyrənilməsi və idarə edilməsi günün ən aktual və həllini gözləyən məsələsi hesab edilir. Nəzərə alınsa ki, Ermənistan hökuməti özünün bütün daxili potensialını, o cümlədən dünya erməni diasporasının maddi və ideoloji

resurslarını, intellektual vasitələrini məqsədəyönlü şəkildə antiazərbaycan təbliğatına yönəldib, o zaman qlobal və virtual informasiya məkanında ölkənin ideoloji və informasiya təhlükəsizliyi sahəsindəki mübarizəsinin əhəmiyyətini anlamaq çətin olmaz.

Azərbaycanın informasiya təhlükəsizliyi siyasətinin əsas vəzifələrindən biri həm özünün, həm də tərəfdaş region dövlətlərinin, transmilli informasiya vasitələrinin imkanlarından maksimum bəhrələnərək, beynəlxalq ictimaiyyətə çıxış kanalları və təsir mexanizmləri yaratmaqdan ibarətdir. Mütəxəssislərin fikrinə görə, hazırda ABŞ və digər böyük dövlətlərin mövcud informasiya-kommunikasiya texnologiyaları onlara bütün dünya ərazilərinə geosiyasi, hərbi-strateji və informasiya nəzarəti etmək imkanı verir. Yaxud transmilli peyk, kompüter və informasiya texnologiyaları, mobil telefon şəbəkələri həm beynəlxalq ictimaiyyətin, həm də bilavasitə dövlətlərin əhalisinin lazımi istiqamətə yönəldilməsi və idarə edilməsinin həlledici amilinə çevrilmişdir. Əlbəttə, Azərbaycan tipli dövlətlər dünya informasiya məkanında lazım olan səviyyədə iştirak etmək imkanlarına malik deyildir. Lakin hər bir müstəqil dövlət kimi, Azərbaycanın da milli informasiya siyasətinin formalaşdırılması, ölkənin informasiya məkanının kənar qüvvələrin təsirindən və müdaxiləsindən maksimum qorunması, milli informasiya maraqlarının təmin edilməsi, dünyanın qlobal və virtual informasiya məkanına müxtəlif yollar tapılması, dünya ictimai rəyinə təsir imkanları yaradılması günün vacib vəzifələri sırasına daxildir. Azərbaycanın informasiya təhlükəsizliyinin təmin edilməsi, rəsmi dairələrin və mütəxəssislərin fikrinə görə, bütün ölkə səviyyəsində, vahid konsepsiya və fəaliyyət proqramı əsasında həyata keçirilməli, dövlətin daxili və xarici

informasiya siyasəti, təbliğat və ideoloji işi sistemli formada və bir mərkəzdən idarə edilməlidir.

İnformasiya təhlükəsizliyinin təmin olunmasında hazırda dünyanın böyük dövlətləri kosmik-peyk informasiya və nəzarət mexanizmlərindən geniş istifadə edir, onların vasitəsi ilə dünya ölkələrinə, o cümlədən geosiyasi əhəmiyyət kəsb edən "açar" ərazilərə nəzarətin bütün metod və vasitələrini tətbiq etməyə çalışırlar. Əlbəttə, Azərbaycan o dövlətlərdən deyil ki, dünya ölkələrinin ərazilərinə və strateji hədəflərə kosmik nəzarət həyata keçirsin, hərbi-strateji və peyk-informasiya nəzarətinin müasir texniki imkanlarına malik olsun. Lakin Azərbaycan hərbi-strateji tərəfdaşları vasitəsi ilə milli təhlükəsizliyinin təmin olunması üçün regional əhəmiyyətli lazımi informasiya texnologiyalarından öz məqsədləri üçün istifadə edə bilər.

Müasir dünya geosiyasətində informasiya və təbliğatın beynəlxalq ictimai rəyə təsir imkanlarından geniş danışılır. Hazırda bir ölkənin başqa dövlətin ərazisində mövcud informasiya sistemlərini nəzarət altına alması və yaxud idarə etməsi yalnız onun hərbi və milli təhlükəsizlik məsələlərinə təsirlə yekunlaşmır. Bu, həm də yerli ictimai rəyin kənar təsirlərə məruz qalmasına və idarə edilməsinə, ölkənin idarəçilik sisteminin pozulmasına və iflic olmasına səbəb ola bilər. Mütəxəssislərin fikrincə, xarici texnologiyanın mövcud gücü ilə hazırda ayrı-ayrı ölkələrin daxili idarəçilik sistemləri arasındakı rabitə əlaqələrini nəinki kəsmək və pozmaq, hətta bu sistemə girərək, dezinformasiya yaymaq yolu ilə onların fəaliyyətini yönəltmək və sarsıtmaq mümkündür. Dünyada bəzən ayrı-ayrı qurumlar müasir informasiya kommunikasiya texnologiyalarının imkanlarından istifadə edərək, beynəlxalq internet şəbəkələrində, bu və ya digər ölkələrin ərazilərində və "etibarlı mənbə" adı altında xüsusi dezinformasiya yayır, dövlət qurumlarını, vətəndaş-

ları və bütövlükdə ictimaiyyəti çaşdıran məqsədli fəaliyyət həyata keçirirlər. Bu da həmin ölkələrin daxili sabitliyini, idarəetmə orqanlarının ahəngdar fəaliyyətini pozur ki, nəticədə milli təhlükəsizliyə xarici müdaxilə üçün əlverişli şərait yaranır. Məsələn, bu gün bəzi Qərb dairələrinin elektron kəşfiyyat və xüsusi əməliyyatlar yolu ilə bir çox Şimali Afrika və ərəb dövlətlərində həyata keçirdiyi, dövlətlərin öz vətəndaşları və cəmiyyətləri üzərindəki nəzarətini zəiflətməyə yönəlmiş müəyyən addımları 1992-1995-ci illərdə və digər dövrlərdə müxtəlif qüvvələr tərəfindən Azərbaycanda da həyata keçirilmişdir. Azərbaycanın o dövrkü informasiya və təbliğat vəziyyətinin təhlili göstərir ki, dövlətin informasiya təhlükəsizliyi, demək olar, tamamilə xarici amillərin təsiri altında idi. Milli teleradio və mətbuat vasitələrinin fəaliyyəti zəif olduğundan və bütün ölkə ərazisini əhatə edə bilmədiyindən, o zaman ictimai rəyin formalaşmasında və idarə edilməsində Rusiya, Türkiyə və İranın, habelə beynəlxalq transmilli KİV-lərin rolu açıq-aşkar üstünlük təşkil edirdi.

Beləliklə, göründüyü kimi, Azərbaycan Respublikasının milli təhlükəsizliyi bu gün də ümumölkə səviyyəsində hərtərəfli informasiya təhlükəsizliyinin təmin olunmasından əhəmiyyətli dərəcədə asılıdır. Odur ki, fikrimizcə ölkənin gələcək İnformasiya Təhlükəsizliyi Konsepsiyasında müasir qlobal dünyanın çağırışları, Azərbaycanın sabit, təhlükəsiz və dinamik inkişaf səviyyəsini əks etdirən effektli informasiya təhlükəsizliyi siyasəti və fəaliyyəti öz əksini tapacaq, dövlətin informasiya təhlükəsizliyi siyasətinin əsasları sistemləşdiriləcək, hakimiyyət orqanlarının mövcud sahədəki fəaliyyət istiqamətləri dəqiqləşəcək və qarşıda duran vəzifələr müəyyən olunacaqdır.

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyi sahəsindəki əsas vəzifələrin yerinə yetirilməsi, milli informa-

siya resurslarının qorunması və təhdidlərin qarşısının alınması, bu sahədə effektli tədbirlərin gücləndirilməsi məqsədi ilə son zamanlar dövlət səviyyəsində ciddi fəaliyyət başlanmışdır. Bu tədbirlər sırasında Azərbaycan Respublikası Prezidentinin Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin yaradılması haqqında 26 sentyabr 2012-ci il tarixli və "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" 5 mart 2013-cü il tarixli fərmanlarını qeyd etmək olar.[129]

"İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" fərmanla ölkə başçısı Azərbaycanda informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması, bu sahədə təhdidlərin qarşısının alınması, təhlili və qabaqlanması üçün dövlət və qeyri-dövlət informasiya infrastrukturu subyektlərinin, onların istifadəçilərinin fəaliyyətinin əlaqələndirilməsi, kibertəhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi və idarə olunması, ümummilli hazırlığın və maarifləndirmənin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin bazasında *Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi* yaratmış və onun əsas fəaliyyət prinsiplərini təsdiq etmişdir. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında *Elektron Təhlükəsizlik Mərkəzinin* yaradılması haqqında Fərmanda isə kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını, mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanı, əhalinin, özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara meto-

[129] Bax; http://president.az

diki kömək göstərilməsini təmin edən əlaqələndirici mərkəzin yaradılması təmin edilmişdir.

Adlarından da göründüyü kimi, həm Agentlik, həm də Mərkəz əlaqəli şəkildə:

- Azərbaycanda kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiya edilməsini;
- informasiya sistemlərinin və şəbəkələrinin, kompyuter avadanlıqlarının və onların proqram təminatının, lokal və korporativ informasiya sistemlərinin və ehtiyatlarının təhlükəsizliyinə qarşı yönəldilmiş kiberhücumların, qanunsuz müdaxilələrin, ziyanverici proqramların toplanması, təhlil edilməsi və zərərsizləşdirilməsini;
- mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanın həyata keçirilməsini, kibertəhlükəsizlik sahəsində istifadəçilərin maarifləndirilməsini;
- elektron təhlükələrin qarşısının alınması istiqamətində, o cümlədən istifadəçilərə qarşı istifadə oluna biləcək proqramlar, texniki vasitələr barədə təlimatların hazırlamasını, onlara tövsiyələrin verilməsini, metodiki dəstəyin göstərilməsini təmin edir;
- ümumi internet trafikində qlobal kiberhücumların qarşısını almaq məqsədi ilə milli internet operatoru ilə birlikdə qabaqlayıcı tədbirlərin həyata keçirilməsini;
- kibertəhlükəsizlik üzrə hazırlığı təmin etmək məqsədi ilə ölkədə fəaliyyət göstərən digər aidiyyati qurumlarla qarşılıqlı əlaqənin təmin edilməsini öz üzərinə götürür.[130]

[130] Bax: http://www.cert.az/

Bundan başqa, 10 fevral 2014-cü ildə Respublika Prezidentinin sərəncamı ilə "Azərbaycanda 2014-2018-ci illərdə dövlət sirrinin qorunması sisteminin inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Sərəncamda informasiya sahəsində dövlət sirlərinin və informasiya resurslarının qorunmasının koordinasiyası Milli Təhlükəsizlik nazirliyinə həvalə edilmişdir.[131]

§ 3.8. Ekoloji təhlükəsizlik siyasəti

Son yüzillikdə dünyada elmi-texniki tərəqqinin sürətli inkişafı insan fəaliyyətinin ətraf mühitə təsirinin artmasına və təbiətin həddən artıq istismarına səbəb olmuşdur. Müasir dövrdə Yer kürəsində iqlimin getdikcə istiləşməsi, səhralaşma prosesinin daha geniş əraziləri əhatə etməsi, bioloji müxtəlifliyin kəskin azalması, ətraf mühitin çirkləndirilməsi və s. dünyada qlobal ekoloji problemlərin yaranmasına, müxtəlif xəstəliklərin geniş yayılmasına səbəb olmuşdur. Vaxtında həllini tapa bilməyən və kiçik bir təbiət hadisəsi kimi izah olunan bəzi ekoloji problemlər indi artıq bəşəriyyət qarşısında qlobal, qarşısıalınmaz fəlakətlərlə başa çata biləcək prosesə çevrilmişdir.

Ekoloji təhlükəsizliyin təmin edilməsi *hər bir dövlət üçün öz ərazisində və onun ətrafında təhlükəli ekoloji vəziyyətlərin qarşısının alınması, onların mənfi nəticələrinin maksimum aradan qaldırılması üzrə milli tədbirlər sisteminin yaradılması və həyata keçirilməsini ehtiva edir*. Ekoloji təhlükəsizlik yalnız milli fəaliyyət deyil, qlobal geosiyasi məsələ olduğundan, onun əhatə dairəsi ayrıca götürülmüş bir ölkənin ərazisi, lokal strukturlar və yerli səviyyəli fəaliyyətlə məhdudlaş-

[131] Bax: "Azərbaycan" qəzeti, 11 fevral 2014.

mır. Müasir dünya siyasətinin prinsiplərinə görə, bir ölkənin yaxud regionun iqtisadi-texniki inkişafı, digər dövlətlərin və bütövlükdə Yer kürəsinin ekoloji vəziyyətinin pisləşməsi hesabına təmin oluna bilməz. Belə hal bilavasitə beynəlxalq hüquq normalarına ziddir.

Azərbaycanın ekoloji vəziyyətinə gəldikdə, qeyd etməliyik ki, Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövrü (1918-1920-ci illər) istisna olmaqla, XX əsrin sonlarınadək bu ölkənin əraziləri və təbii qaynaqlarının istismarı, xüsusən də neft sənayesi sahəsi əsasən xarici dövlətlərin və iş adamlarının əlində olmuşdur. 1920-ci illərin əvvəllərindən başlayaraq Azərbaycanın neft-qaz sənayesinin inkişafı SSRİ-nin ittifaq strukturlarının birbaşa rəhbərliyi ilə həyata keçirilmişdir. İttifaq miqyasında bu işə səthi yanaşılması ucbatından ölkə ərazisi, xüsusən, Bakı şəhəri və Abşeron yarımadası bir sıra ciddi ekoloji problemlərlə üz-üzə qalmışdır. Müasir dövrdə Azərbaycanın yaşadığı əsas ekoloji problemlərin çoxu da məhz keçmiş SSRİ-nin enerji ehtiyaclarına uyğun olaraq, uzun müddət Abşeron yarımadasında, Xəzər dənizi və sahil ərazilərdə heç bir ekoloji tələb və nəticələr nəzərə alınmadan həyata keçirilmiş neft-qaz hasilatının acı nəticələrinin aradan qaldırılması ilə bağlıdır. Bakı və Abşeronun neft hasilatı və yanacaq-enerji kompleksinin qurulması ətraf mühitin çirklənməsinin əsas mənbəyi kimi çıxış etmişdir. Bu sahədə ən mühüm ekoloji problem ənənəvi neft çıxarılan ərazilərdə ətraf mühitin neft və neft məhsulları ilə çirklənməsi məsələsi olmuşdur. On illərlə həm ölkənin təbii ehtiyatları, neft məhsulları, faydalı yataqları, çayları, gölləri, torpağı, meşə örtükləri, flora-faunası və s. SSRİ-nin ittifaq nazirlikləri tərəfindən ekoloji nəticələr nəzərə alınmadan, vəhşi-

cəsinə istismar edilmişdir, həm də onun ekologiyasına aradan qaldırılması çox çətin olan zərbələr vurulmuşdur.

SSRİ-nin dağılmasından sonra digər postsovet ölkələri kimi, Azərbaycan da ekoloji təhlükəsizliyinin qeydinə qalmaq, məxsusi milli ərazilərdə ətraf mühitin sağlamlaşdırılması və mühafizəsi ilə bağlı ekoloji siyasət formalaşdırmaq və həyata keçirmək zərurəti ilə üzləşdi. İlk dövrdə məlum iqtisadi, siyasi və sosial böhranla əlaqədar ölkə rəhbərliyi ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində ciddi işlər görə bilməsə də, 1990-cı illərin sonundan başlayaraq, Azərbaycan özünün ekoloji təhlükəsizlik siyasətini formalaşdırmağa başladı. Bu sahənin işi tezliklə ölkənin milli təhlükəsizliyinin əsas istiqamətlərindən biri kimi dəyərləndirilərək, dövlət siyasəti səviyyəsinə qaldırıldı və ekologiya sahəsində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə başlandı.

"Ekoloji təhlükəsizlik haqqında" Qanunda *Azərbaycanın ekoloji təhlükəsizlik siyasətinin əsas məqsədi* - insanın həyatını və sağlamlığını, cəmiyyəti, onun maddi və mənəvi dəyərlərini, ətraf mühiti, o cümlədən atmosfer havasını, kosmik fəza, su obyektləri, yerin təki, torpaq, təbii landşaft, bitki və heyvanlar aləmini təbii və antropogen amillərin təsiri nəticəsində yaranan təhlükələrdən qorumaq kimi xarakterizə edilmişdir.[132]

Bu qanunda və sonrakı dövrdə qəbul olunmuş ekoloji tədbirlər haqqında milli fəaliyyət proqramında Azərbaycan Respublikasının ekoloji təhlükəsizlik sahəsində *dövlət siyasətinin əsas istiqamətləri və vəzifələri* aşağıdakı kimi müəyyən edilmişdir:

[132]Bax:"Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu. http://e-qanun.az

- ölkənin inkişaf strategiyasının formalaşdırılmasında və həyata keçirilməsində ekoloji təhlükəsizliyin üstün qaydada təmin edilməsi;
- ekoloji təhlükəsizliyi ümumdünya, regional və yerli səviyyədə təmin etmək məqsədi ilə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi;
- biosferin və onun bütün komponentlərinin qorunub saxlanılması və ekoloji cəhətdən təhlükəsiz şəraitin yaradılması;
- ölkənin ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda dövlət və yerli özünüidarəetmə orqanlarının uzlaşdırılan ekoloji fəaliyyətinin təmin edilməsi;
- təhlükəli və fövqəladə ekoloji vəziyyətlərin qarşısının alınması, bununla bağlı tədbirlər planının hazırlanması və ardıcıl həyata keçirilməsi;
- ətraf mühitə mənfi təsir edən təsərrüfat və digər fəaliyyət növlərinə nəzarət olunması və s.[133]

Ekoloji təhlükəsizliyin təmin olunması Azərbaycan dövlətinin və müvafiq strukturların qarşısında bir çox cari və strateji vəzifələrin həlli məsələsini qoymuşdur. Bunların sırasına aşağıdakılar daxildir:

- təbii ehtiyatlardan ekoloji cəhətdən təhlükəsiz istifadəyə və təsərrüfat subyektlərinin ekoloji təhlükəsizliyinin tələblərinə əməl edilməsinə nəzarət etmək;
- təhlükəli ekoloji vəziyyətlərin yaranması və genişlənməsinə səbəb olan halları və hadisələri aşkar etmək və proqnozlaşdırmaq;

[133]Bax: "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər Planı". http://e-qanun.az/print.php?internal

- ekoloji təhlükəsizliklə bağlı informasiya təminatını təşkil etmək və həyata keçirmək;
- ekoloji təhlükəsizlik sahəsində əhalinin təlimatlandırılmasını təmin etmək;
- ekoloji təhlükəsizliklə bağlı qanunvericilikdə müəyyən edilmiş vəzifələri həyata keçirmək və s.[134]

Azərbaycanın müstəqillik illərində formalaşdırdığı ekoloji təhlükəsizlik siyasətinin əsas istiqamətlərini respublika ərazisində ekoloji vəziyyətin sağlamlaşdırılması, su ehtiyatlarının çirklənməsinin və torpaqların aşınmasının qarşısının alınması, biomüxtəlifliyin qorunması, yaşıllıqların artırılması, atmosfer havasının mühafizəsi, neft və digər tullantılarla çirklənmiş torpaqların təmizlənməsi, sənaye və məişət tullantılarının idarə olunmasının təkmilləşdirilməsi və s. təşkil edir.

Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə olunması ekoloji təhlükəsizlik siyasətinin vacib istiqamətlərindən biri hesab olunur. Xüsusən, ətraf mühitin antropogen və təbii təsirlər nəticəsində yaranan təhlükələrdən qorunması ölkənin ekoloji təhlükəsizlik siyasəti ilə sıx şəkildə bağlıdır. Lakin bu sahədə uzun illərdən bəri yığılıb qalmış problemləri yalnız ölkənin daxili imkanları hesabına qısa müddətdə həll etmək çox çətindir. Buna görə də ətraf mühitin mühafizəsi işində Azərbaycan hökuməti beynəlxalq, regional, ikitərəfli və çoxtərəfli dövlətlərarası əməkdaşlığın imkanlarından, qoşulduğu beynəlxalq konvensiyalar çərçivəsində həyata keçirilən tədbirlərdən və digər vasitələrdən geniş istifadə edir. Ekoloji təhlü-

[134]Bax: "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər Planı". http://e-qanun.az/print.php?internal

kəsizliyin təmin olunması üçün beynəlxalq konvensiyalara qoşulmaqla, hər bir ölkə həm beynəlxalq tələblərə əməl etmək öhdəliyi götürür, həm də ekoloji siyasətini təmin etmək istiqamətində ciddi beynəlxalq dəstək qazanır. İndiyədək Azərbaycan Respublikası ekologiya sahəsində 20-dək beynəlxalq konvensiyaya qoşulmuş və ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq standartlara cavab verən milli qanunvericilik sistemi yaratmışdır.

Ətraf mühitin mühafizəsi sahəsində qarşıda duran əsas vəzifələrdən biri də Abşeron yarımadasının antropogen təsirlər nəticəsində çirklənmiş ərazilərinin təmizlənməsidir. Abşeronda belə ərazilərin ümumi sahəsi 33,3 min hektardır. Bunun da 10,6 min hektarı neft və neft məhsulları ilə çirklənməyə məruz qalmışdır. Bundan başqa, yarımadada 3325 hektar ərazini əhatə edən, tullantı və lay suları ilə çirklənmiş 200-ə qədər göl və gölməçə mövcuddur.

Ölkə əhalisinin 1/3-nin yaşadığı Bakı şəhəri və Abşeron yarımadasını illərlə toplanmış neft, istehsalat və məişət tullantılarından təmizləmək, ölkənin yanacaq-enerji və sənaye kompleksinin, məişət tullantılarının ətraf mühitə mənfi təsirini məhdudlaşdırmaq, şəhər təsərrüfatını və ətraf aləmin mühafizəsini Avropanın ekoloji normalarına yaxınlaşdırmaq vəzifəsi ölkənin ekologiya sahəsində həyata keçirdiyi ən önəmli layihələrdən biri olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Bakı və Abşeron yarımadasında "İllər, əsrlər boyu neftlə çirklənmiş gölməçələr, yerlər, ekoloji cəhətdən məqbul olmayan mənzərə vardır. Biz son illərdə bu istiqamətdə çox böyük işlər görmüşük. Çünki neft hasilatı Azərbaycanda artıq 200 ilə yaxındır ki, aparılır. Ancaq əfsuslar olsun ki, ekoloji vəziyyətə diqqət lazımi səviyyədə olmamışdır. Ona görə biz ekoloji vəziyyətlə bağlı məsələləri daim diqqət mərkə-

zində saxlayırıq".[135] Son illər bu sahədə mövcud problemlərin aradan qaldırılması üçün dövlət səviyyəsində çox ciddi və bahalı ekoloji təmizlik layihələri həyata keçirilir, neftçıxarmada, neft-qaz və digər sənaye sahələrində ekoloji baxımdan səmərəli və təhlükəsiz istehsal texnologiyaları tətbiq olunur, enerji sektoruna və şəhər təsərrüfatına yönəlmiş investisiya layihələrində ekoloji məsələlərin qoyuluşuna xüsusi diqqət yetirilir.

Bütün ölkə ərazisində, xüsusən Bakı və digər sənaye şəhərlərində dövlət ekoloji ekspertiza sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülür. "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər Planı"na uyğun olaraq, Abşeron yarımadasında və ölkənin digər ərazilərində neftlə çirklənmiş sahələrin təmizlənməsi işlərinə 2007-ci ildən başlanılmış və bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilməkdədir. Belə ki, "Bibiheybət" zonasında 190 hektar torpaq sahəsi bərpa edilmiş və həmin ərazidə yaşıllıqlar salınmışdır. Neftlə çirklənmiş ərazilərin bərpası istiqamətində Suraxanı və Balaxanı ərazilərində də müəyyən işlər görülmüşdür.

Bundan başqa, "Böyük Şor gölünün təmizlənməsi, abadlaşdırılması və şəhər əhalisi üçün istirahət zonası kimi istifadə edilməsinə dair Konsepsiya" və gölün abadlaşdırılması istiqamətində pilot layihə hazırlanmışdır. Abşeron yarımadasında yerləşən göllərin və digər sututarların ekoloji vəziyyətinin sağlamlaşdırılması layihəsi də tərtib edilmişdir. Bu sahədə görülən işlərin səmərəliliyini artırmaq məqsədi ilə son zamanlar ölkə ərazisində bir çox işlər planlaşdırılmış və həyata keçirilməkdə-

[135]Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında İlham Əliyevin nitqi (13 aprel 2014) http://president.az/articles/11475

dir. Onların sırasında təhlükəli tullantıların ətraf mühitə zərərli təsirinin qarşısının alınmasına dair qanunvericiliyə əlavə və dəyişikliyin edilməsini, Gəncə şəhərində təhlükəli tullantılar meydançasının inşasını və mövcud tullantı yerlərinin müvafiq tələblərə uyğun yenidən qurulmasını qeyd etmək olar.[136]

Azərbaycanda ekoloji təhlükəsizlik siyasətinin mühüm vəzifələrindən birini də SSRİ dövründən respublikanın sənaye müəssisələri ərazilərində yığılıb qalmış təhlükəli istehsal tullantılarının zərərsizləşdirilməsi təşkil edir. Bu tullantıların və istehsal qalıqlarının miqdarı və saxlanılma şəraiti ekoloji norma və standartlara cavab vermir, ətraf mühit və insan sağlamlığı üçün ciddi təhlükə mənbəyi hesab olunur. Yaranmış vəziyyətin aradan qaldırılması üçün əsasən Bakı və Sumqayıt şəhərlərindən müxtəlif tərkibli təhlükəli istehsalat tullantıları Təhlükəli Tullantıların İdarə Olunması üzrə Milli Mərkəzə daşınaraq basdırılır. O cümlədən, Sumqayıtda ətraf mühitin ciddi çirklənməsinə səbəb olan 287 min ton civə tərkibli toksiki tullantıların bir neçə il ərzində təhlükəli tullantılar poliqonuna daşınaraq zərərsizləşdirilməsi prosesi 2009-cu ildə başa çatdırılmışdır.

Azərbaycanın şirin su ehtiyatlarının qorunması və səmərəli istifadəsi ekoloji təhlükəsizlik siyasətinin mühüm istiqamətlərindən biridir. Məlum olduğu kimi, Azərbaycanın istifadə etdiyi Kür, Araz, Samur və s. çaylardakı şirin su ehtiyatlarının böyük həcmi (70%) qonşu ölkələrdə - respublika sərhədlərindən kənarda formalaşır. Azərbaycan Respublikası ərazisinin ¾ hissəsi Kür çayının hövzəsinə düşür. Bu çay ölkə əhalisi üçün əsas içməli su mənbəyidir. Qonşu dövlətlər tərəfindən təmiz-

[136]Bax: "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər Planı". http://e-qanun.az/print.php?internal

lənməmiş tullantı sularının Kür və Araz çaylarına axıdılması onun hidrokimyəvi rejiminə və suyun keyfiyyətinə mənfi təsir edir. Belə ki, məsələn, Kür çayının suyunda mis, sink, fenol və neft məhsullarının qatılığı bəzi hallarda normadan 10 dəfələrlə çox olur. Ermənistan və Gürcüstan dövlətlərinin ərazilərindəki su mənbələrinin mövcud kimyəvi, radioaktiv və digər zərərli maddələrlə intensiv çirklənməyə məruz qalması Kür və Araz çaylarının çirklənməsinə səbəb olur. Bu da Azərbaycan əhalisinin içməli su ilə təmin olunmasında ciddi və təhlükəli problemlər yaradır.[137]

Eyni zamanda, Cənubi Qafqaz regionunun həm ətraf mühitinə, həm də içməli su ehtiyatlarına Ermənistan ərazisində seysmik zonada yerləşən və texnoloji baxımdan köhnəlmiş Metsamor Atom Elektrik Stansiyası ciddi təhlükə törədir. Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarında ətraf mühitin qəsdən çirkləndirilməsi, münbit torpaqların aşınması, təbii ehtiyatlardan səmərəsiz istifadə, sənaye və məişət tullantılarının emal olunmadan çaylara axıdılması, ekosistemin məhv edilməsi, ərazilərin flora-faunasının talan edilməsi və səhraya çevrilməsi, genişmiqyaslı yanğınların törədilməsi və s. də ətraf mühitə, bölgənin su ehtiyatlarına, Azərbaycana axan çayların su mənbələrinə ciddi problem yaradır.[138]

Azərbaycan Respublikasının şirin su ehtiyatlarına bir çox yerli təhdidlər də mövcuddur. Bunların sırasında ölkə daxilində su ehtiyatlarının tullantı suları ilə çirkləndirilməsini, içməli su ehtiyatlarının keyfiyyətinin pisləşməsi və antisanitariya hallarının mövcudluğunu, sel və daşqınların intensivliyinin və gücünün artması nəticəsində ölkənin içməli su təsərrüfatında

[137]Bax:www.eko.gov.az
[138]Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. http://e-qanun.az

yaranan problemləri, dağ buzlarının əriməsi və bununla əlaqədar bulaqların qurumasını, qrunt suların səviyyəsinin qalxmasını və s. aid etmək olar.[139]

Son zamanlar əhalinin ekoloji cəhətdən təmiz içməli su ilə təminatına dair Azərbaycan Prezidentinin sərəncam və göstərişləri çərçivəsində təmiz suya ehtiyacı olan yaşayış məntəqələri mərkəzləşmiş şəkildə təhlükəsiz içməli su ilə təmin edilmişdir. 12 rayonun 122-dən çox kəndində başa çatdırılmış işlər nəticəsində indiyədək 224 min nəfər əhali Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə təmin olunmuşdur. Bunun üçün 1300-ə qədər supaylayıcı məntəqə, 600 kilometrdən çox su xətti inşa edilmişdir.

Ekoloji təhlükəsizlik sahəsində Azərbaycanda ciddi narahatlıq doğuran məsələlərdən biri də ildən-ilə Xəzər dənizinin ekoloji vəziyyətinin pisləşməsidir. Xəzər dənizi dünyanın okeanla əlaqəsi olmayan ən böyük qapalı su hövzəsidir. Neft, qaz və digər təbii resursları ilə zəngin olan Xəzər, mütəxəssislərin fikrinə görə, özünün fiziki-coğrafi xarakteristikası və nadir bioresursları ilə dünyanın analoqu olmayan dənizlərindəndir.[140] Ətrafında beş ölkənin müxtəlif sənaye və emal müəssisələrinin fəaliyyət göstərdiyi, neçə illərdir ki, həyata keçirilən neft-qaz sənayesi işlərinin aparıldığı və həddindən artıq çirkləndirilmiş çayların axıdıldığı Xəzər dənizi, həm də mütəmadi olaraq su səviyyəsinin qalxması, ətraf ərazilərin zaman-zaman su altında qalması nəticəsində ətraf yaşayış məntəqələrinin və ölkələrin ciddi ekoloji probleminə çevrilir.

Xəzər dənizinin unikal bioresursları, ilk növbədə dünyada yeganə məşhur nərə balığı və qara kürüsü ilə, strateji neft, qaz

[139]Bax: www.eko.gov.az

[140]Bax: Жилцов С.С.,Зонн И.С.,Ушков А.М. Геополитика Каспийского Региона. Москва, 2004. с.185.

yataqları və s. sənaye potensialı arasında həmişə ziddiyyətli bir vəziyyət yaradır. Məsələ burasındadır ki, dənizə axıdılan şirin sulu çay mənbələrinin yaratdığı və Xəzərdə mövcud olan, təxminən 2900 min ton, 123 növ balıq ehtiyatının yaşaması üçün lazım olan hidrokimyəvi tərkib, sənaye tullantıları nəticəsində yaranan hidrokimyəvi maddələrlə pozulur ki, bu da dənizin bioresurslarının getdikcə azalmasına və məhvinə səbəb olur.[141] Rəsmi məlumatlara görə, son illərə qədər ətraf beş ölkənin dənizboyu yerləşdirilən balıq artırma və emal müəssisələri vasitəsi ilə ildə, təxminən 300 min ona yaxın 25 növ unikal balıq ehtiyatları və min tona qədər qara kürü istehsalı həyata keçirilirdi. 1989-cu ilə qədərki dövrdə ildə SSRİ üzrə 1365 ton, İran üzrə isə 282 tona yaxın qara kürü istehsal edirdi. Bundan başqa, Xəzər həm də, bütün Avrasiyanın və keçmiş SSRİ ərazilərinin, Aralıq dənizi ətrafı ölkələrin quşlarının qışladığı bir su hövzəsidir. Burada, təxminən ildə 10-12 mln. növ quş qışlayır. SSRİ zamanında ildə dənizə 50-60 mln. kürü buraxılırdı ki, bu da dənizdə nərə balığı ehtiyatlarının balanslı saxlanmasına və ovlanmasına şərait yaradırdı.[142]

Hazırda Xəzər dənizinin balıq və kürü ehtiyatları getdikcə tükənir. Bunun əsas səbəblərindən biri dənizin çirklənməsi və onun suyunun biokimyəvi tərkibinin dəyişməsidirsə, digər səbəbi, dənizə buraxılan balıq kürülərinin sayının əvvəlki illərlə müqayisədə dəfələrlə azalması, lakin eyni zamanda Xəzərdə balıq ovlanmasının (xüsusən brakonyerlik və qeyri-qanuni yollarla) bir neçə dəfə artmasıdır. Rusiyanın Federal Sərhəd Xidməti Agentliyinin hesablamalarına görə, təkcə Rusiyada Xəzərdən daşınan qeyri-qanuni kürünün illik dəyəri 125 mln.

[141]Bax: Казанчеев Е.Н. Рыбы Каспийского моря. Определитель.- Москва, 1981. с.168.
[142]Bax: Жилцов С.С.,Зонн И.С.,Ушков А.М. Göstərilən əsəri.. s.186-187.

ABŞ dollarına bərabərdir. Xəzər dənizinə dəyən brakonyerlik zərərinin ümumi miqdarı isə 1,5 mlrd. dollar təşkil edir. Həmin məlumata görə, təkcə Moskvada ildə 37 min ton nərə balığı və kürüsü istifadə olunur.[143]

Mütəxəssislərin fikrincə, Xəzər dənizinin ekoloji vəziyyətinə mənfi təsir göstərən və onun çirklənmə mənbəyi hesab olunan dörd əsas amil mövcuddur. Bunlar: 1) Xəzər dənizində həyata keçirilən sənaye fəaliyyəti; 2) Sahil zonasında reallaşdırılan işlər və onların dənizə təsiri; 3) Suyun qalxması nəticəsində dənizkənarı sahələrin su altında qalması; 4) Xəzərə daxil olan suların və çayların həddən artıq çirklənməsindən ibarətdir.

Xəzər dənizində ekoloji vəziyyətin pisləşməsi dənizin bioehtiyatlarının məhvinə, dənizətrafı təbii və antropogen ekosistemin pozulmasına, ərazidə yaşayan əhalinin sağlamlığının və həyat tərzinin pisləşməsinə, dənizin hədsiz dərəcədə çirklənməsinə səbəb olur. Qeyd etmək lazımdır ki, hələ 1992-ci ildə - SSRİ dağılandan sonra Xəzər dənizinin çirklənməsinin qarşısını almaq və bioehtiyatlarını qorumaq məqsədi ilə Rusiya ərazisindən dənizə axan Volqa və Terek çaylarının hövzəsi həmin ölkənin müvafiq dövlət qurumları tərəfindən "ekoloji fəlakət zonası" elan edilmiş, ərazinin ekoloji cəhətdən təmizlənməsi proqramı tərtib olunmuşdur. Proqramda xüsusi qeyd olunurdu ki, həddən artıq çirkləndirilmiş Volqa çayı Xəzəri ən çox çirkləndirən fəlakət mənbəyidir.[144]

[143]Bax: Сохранение биологического разнообразия в Росии. Проекты главного экологического фонда. "Сохранение биоразнообразия", Москва, 1997, с. 170.

[144]Bax: Государственный доклад «О состоянии окружающей среды Российской Федерации в 1992 году». М., 1993

Xəzər dənizinin çirklənməsinə mənfi təsir göstərən əsas amillərdən biri də neft daşıyan tankerlər, bərə, barj və s. nəqliyyat vasitələridir. Mütəxəssislərin fikrincə, neft daşımalarında istifadə edilən tankerlərin geriyə hərəkəti zamanı başqa dənizlərdən öz boş çənlərinə doldurduqları suyu qayıdarkən Xəzərə boşaltmaları yad mikroorqanizmlərin dənizin suyuna daxil olmasına və onun bioehtiyatlarının məhvinə səbəb olur. Bundan başqa, dənizdə neft məhsullarının qalıqlarının suya buraxılması nəticəsində suyun xüsusi bioloji çirklənməsi də baş verir.

Azərbaycan Xəzərin ekologiyasının qorunması və yaxşılaşdırılması sahəsində hövzə ölkələri içərisində ən fəal siyasət yürüdən və real iş görən ölkə hesab olunur. Əslində, dənizin çirklənməsindən ən çox əziyyət çəkən də bu ölkənin əhalisi, xüsusən, sahildə yerləşən Bakı, Sumqayıt, Lənkəran və b. şəhər və rayonların, yaşayış məntəqələrinin sakinləridir. Ölkə prezidentinin "Xəzər dənizinin çirklənmədən qorunması üzrə bəzi tədbirlər haqqında" 2007-ci il 20 iyun və 2008-ci il 13 iyun tarixli sərəncamlarından və "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair" Milli Strategiya və Fəaliyyət Planından irəli gələn vəzifələrin həyata keçirilməsi nəticəsində, Abşeron yarımadasının Bilgəh, Buzovna, Mərdəkan, Pirşağı, Nardaran, Novxanı və Sumqayıt sahilboyu ərazilərində bataqlaşmış sahələrin və çirkab gölməçələrin əksəriyyəti qurudulmuş, ekoloji tarazlıq bərpa olunmuşdur. Bundan başqa, Abşeron yarımadasında modul tipli sutəmizləyici qurğulardan ibarət 16 stansiya qurularaq, "Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi sistemi" yaradılmışdır. Pirallahıdan Novxanıyadək 86 km məsafədə sahilboyu ərazilərdən gün ərzində təkcə bu stansiyaların gücü ilə 6 min kubmetrdən çox çirkab suyun təmizlənmədən dənizə axıdılmasının

qarşısı alınmış, həmin ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində mühüm nailiyyətlər əldə olunmuşdur.[145]

Azərbaycan ekologiyasının sağlamlaşdırılması və bioloji müxtəlifliyin qorunub saxlanılması ölkənin ekoloji təhlükəsizliyinin mühüm məsələlərindən biridir. Hazırda antropogen amillərin təbii mühitə getdikcə artan mənfi təsiri nəticəsində ölkə ərazisində biomüxtəlifliyin azalması meyli müşahidə olunur. Azərbaycan Respublikasında bioloji müxtəliflik və meşə ekosistemlərinə təhdidlər aşağıdakı kimi dəyərləndirilir:

- köçəri ekstensiv maldarlığın sürətli inkişafı;
- elektrik enerjisinin və təbii qazın fasilələrlə verilməsi nəticəsində meşələrdə ağacların kəsilməsi;
- ekosistemlərin tərkibi və coğrafi yayılmasının dəyişməsi, ziyanvericilərin artması;
- səhra, quraqlıq və yarımquraqlıq ekosistemlərində şəraitin pisləşməsi;
- eroziya proseslərinin, dağlıq ərazilərdə sel, sürüşmə və qar uçqunlarının baş verməsi;
- buzlaqların əriməsi, bulaqların və çayların quruması;
- meşə yanğınlarının artması və s.[146]

Yuxarıda sadalanan təhdidlərin qarşısının alınması üçün "Azərbaycan Respublikasında meşələrin bərpa olunması və artırılmasına dair Milli Proqram", "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı", "Azərbaycan Respublika-

[145]"Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı". http://e-qanun.az/print.php?

[146]"Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı". http://e-qanun.az/print.php?

sında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı" qəbul edilmiş, onların çərçivəsində mühüm ekoloji layihələr reallaşdırılmış və işlər görülmüşdür. Belə ki, 2002-ci ildə xüsusi mühafizə olunan təbiət zonaları ölkə ərazisinin 4,5%-ni təşkil edirdisə, hazırda bu rəqəm 10,1%-ə çatdırılmışdır. Azərbaycanın xüsusi mühafizə olunan təbiət əraziləri sisteminin müasir tələblərə uyğunlaşdırılması, bütün vacib ekosistemlərin və əsas növlərin qorunması, dəhlizlərin və mühafizə zonalarının yaradılması məqsədi ilə son illər yeni 8 milli park, 4 dövlət təbiət qoruğu, 6 yasaqlıq və 3 təbiət abidəsi təşkil edilmişdir. Son 15 ildə meşə ilə örtülü sahələr 989 min hektardan 1 milyon 21 min hektara çatdırılmışdır. Bu da ölkəmizin örtülü ərazilərinin 11,4%-dən 11,8%-ə qədər, yəni 0,4% artması deməkdir.[147] Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2010-cu ilin "Ekologiya ili" elan edilməsi ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində mühüm hadisə oldu. "Ekologiya ili"ndə Azərbaycanda 8 milyon 200 min ağac və kol bitkisi əkilmişdir ki, bunun da 1 milyon 540 mini Bakıətrafı ərazilərin payına düşür.[148]

Son illərdə Azərbaycanda səhiyyə və sağlamlıq sahəsində ekoloji təhlükəsizliyin təmin olunması istiqamətində xüsusi siyasət yürüdülür. Bu siyasətin əsas məqsədi ölkə ərazisində əlverişsiz ekoloji amillərin təsirini azaltmaqla, əhalinin uzunömürlülüyünü təmin etmək, ətraf mühitin ekoloji göstəricilərini yaxşılaşdırmaq, əhalinin sağlamlığında ekoloji riskləri aşağı salmaq, istifadə olunan suyun və havanın keyfiyyətini ekoloji standartlara uyğunlaşdırmaq, əhalini ekoloji baxımdan təhlükə-

[147]Bütün göstərilən faktlar Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi hesabatından götürülmüşdür.
[148] http://president.az/articles/738

siz qida məhsulları ilə təmin etmək, genetik modifikasiya olunmuş qida məhsullarına nəzarəti artırmaq və sairdən ibarətdir.

Müasir dövrdə yaranmış ekoloji və sosial-iqtisadi vəziyyət nəzərə alınaraq, Azərbaycanın ekoloji siyasəti aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və onun mühafizəsinin tənzimlənməsi məqsədilə mütərəqqi üsulların tətbiq edilməsi;
- indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii ehtiyatlardan və tükənməyən alternativ enerji mənbələrindən istifadə olunması;
- qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi və onların həlli yollarının müəyyənləşdirilməsi və s.

Ekoloji təhlükəsizlik sahəsində vəziyyət və aparılan işlərin qısa təhlilindən aydın olur ki, Azərbaycanın davamlı iqtisadi inkişafı ölkənin ekoloji təhlükəsizliyinin təmin olunmasına, ətraf mühitin mühafizəsi və sağlamlaşdırılmasına, əhalinin sağlamlığının təmin edilməsinə, ardıcıl və səmərəli ekoloji təhlükəsizlik siyasətinin yürüdülməsinə və s. vacib həyati məsələlərin həllinə öz müsbət təsirini göstərmişdir. Hər bir ölkədə ekoloji təhlükəsizliyin təmin olunması yönündə atılan addımlar isə ümumdünya səviyyəsində qlobal ekoloji problemlərin həllinə və bütövlükdə bəşəriyyətin sağlam gələcəyinin təmin olunmasına layiqli töhfəsini verir.

IV FƏSİL
BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏT STRATEGİYASI

§ 4.1. Beynəlxalq təhlükəsizlik sistemi: formalaşması, hüquqi əsasları, mahiyyəti, geosiyasi ölçüləri və tələbləri

Bəşəriyyət bugünkü beynəlxalq münasibətlər və təhlükəsizlik sistemini yaratmazdan əvvəl minillərlə davam edən çətin və keşməkeşli bir tarix yaşamışdır. İnsan cəmiyyətləri və birliklərinin sosial-siyasi xarakterindən, insanların maddi və mənəvi tələblərindən, ehtiyaclarının ödənməsi zərurətindən asılı olaraq onlar arasında müxtəlif xarakterli münasibətlər mövcud olmuş, iqtisadi, siyasi və mədəni əlaqələr yaranmış, bəzən uzunmüddətli müharibələr, qanlı döyüşlər yaşanmış, iri dövlətlər, imperiyalar qurulmuş, sonra da iflasa uğramışlar. Bütün bunlara baxmayaraq, planetimizdə həyat davam etmiş, insanlar ən çətin vəziyyətlərə uyğunlaşmağı, müxtəlif çıxış yolları tapmağı, irəliyə doğru inkişaf eməyi bacarmış, yeni-yeni yaşayış məskənləri – kəndlər, şəhərlər, ölkələr salmışlar. Əlbəttə, insanlıq uzun müddət təcrid vəziyyətində, bir-biri ilə əlaqəsiz yaşaya bilməzdi. Odur ki, yaşayış məskənləri həmişə öz aralarında müxtəlif əlaqələrə girmiş, ölkələr və xalqlar bir-biri ilə təmas yaratmış, müharibələr aparmış, barışmış, müəyyən şərt-

lər kəsmiş və gələcək münasibətlər haqqında razılığa gəlmişlər. Bütün bunlar bizim bu gün beynəlxalq münasibətlər və beynəlxalq təhlükəsizlik sistemi kimi xarakterizə etdiyimiz gerçəkliyi şərtləndirmişdir.

Beynəlxalq (kollektiv) təhlükəsizlik üzrə dövlətlərarası hüququn tarixi evolyusiyası da, beynəlxalq münasibətlər sisteminin yaranması prosesi kimi orta əsrlərdən başlayaraq bir çox Avropa ölkələrinin bu sahə üzrə müxtəlif beynəlxalq və regional təşkilatlarda birləşməsi, kollektiv iradəni təcəssüm etdirən "məcburedici hüquqi-normativ sənədlər" yaratması, həmin normaların əvvəlcə konkret olaraq Avropa məkanında, sonra isə müstəməlkəçiliyin vüsət aldığı dövrdə bütün dünyada tətbiq edilməsi yolu ilə baş vermişdir. İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra BMT çərçivəsində kollektiv təhlükəsizlik üzrə vahid beynəlxalq hüquq normaları yaradılana və qəbul edilənə qədərki dövrdə hər bir ölkə öz hərbi potensialına arxalanaraq milli təhlükəsizliyini fərdi yolla təmin etməyə çılışırdı ki, bu da ayrı-ayrılıqda heç bir dövlətin milli və beynəlxalq təhlükəsizliyinə tam zəmanət vermirdi.

Tarixin müxtəlif dövrlərində dövlətlər öz təhlükəsizlik maraqlarını qorumaq məqsədi ilə müxtəlif hərbi-siyasi ittifaqlar, koalisiyalar yaratmağa cəhd göstərmişlər, lakin belə birliklərin heç biri uzunömürlü olmamış, bəlli hadisələrdən sonra dağılmış, bir formadan digərinə keçmişdir. Hər bir dövrün geosiyasi və hərbi-geostrateji inkişafından irəli gələn tələblər və xüsusiyyətlər, təhlükəsizlik sahəsində mövcud olan təhdidlər, risk və çağırışlar öz növbəsində müvafiq yanaşmalar və mexanizmlər tələb edirdi ki, bu da ölkələrin yeni operativ addımlarını şərtləndirirdi. Məsələn İkinci Dünya Müharibəsindən sonra Birləşmiş Millətlər Təşkilatının, ondan bir qədər sonra kapita-

lizm və sosializm düşərgələri arasında başlanan "soyuq müharibə" fonunda NATO və Varşava Müqaviləsi Təşkilatı kimi hərbi birliklərin yaradılması, XX əsrin 70-ci illərində ATƏM-in (ATƏT) meydana gəlməsi və s. buna nümunə ola bilər.

Müasir beynəlxalq təhlükəsizlik sistemi və eyni adlı yeni bir geosiyasi tədqiqat sahəsi yalnız İkinci Dünya Müharibəsindən sonra - 1945-ci ildən sonra formalaşaraq dünya arenasına çıxdı. Birləşmiş Millətlər Təşkilatının yaranması və üzv dövlətlərin bir-biri ilə münasibətlərini tənzimləyən vahid nizamnamənin qəbul olunması geosiyasi ədəbiyyatda, həm də müstəqil tədqiqat obyekti kimi beynəlxalq təhlükəsizlik sahəsinin meydana çıxmasına səbəb oldu.

Keçən dövr ərzində Avropa məkanında Avropa Şurasının, Qərbi Avropa İttifaqının, Avropa Birliyinin yaranması, "tərksilah" və "kollektiv təhlükəsizliyə dair" bir sıra beynəlxalq sənədlərin qəbul edilməsi və s. tədricən Avropada regional təhlükəsizlik və əməkdaşlıq sisteminin meydana gəlməsinə imkan yaratdı. Nəticədə beynəlxalq təhlükəsizlik sistemi ideyası yeni modellər sayəsində daha da inkişaf etdi, Avropa Qitəsi isə, bəzi mütəxəssislərin fikri ilə ifadə etsək "dünyanın təhlükəsizlik laboratoriyası"na çevrildi. Mütəxəssislərin fikrinə görə, bu gün "kollektiv təhlükəsizlik", "qlobal təhlükəsizlik", "kooperativ təhlükəsizlik" "demokratik təhlükəsizlik" və s. kimi konsepsiyalar və anlayışlar bütün dünyada öyrənilir və təhlil edilir, "təhlükəsizliyin bölünməzliyi və vahidliyi" prinsipi isə hamı tərəfindən qəbul edilir.[149]

XX əsrin 90-cı illərinin əvvəllərindən etibarən ənənəvi beynəlxalq təhlükəsizlik məsələlərinə bir çox yeni yanaşmalar

[149] The Organization for Security and Co-operation in Europe (OSCE) (Global Institutions) by David J. Galbreath (Jun 20, 2007), p.65.

meydana çıxmağa başladı. Çünki dünyada ikiqütblü dünya sisteminin və "soyuq müharibə"nin sonu beynəlxalq münasibətlər sisteminin əvvəlki ümumi konfiqurasiyasını da dəyişməyə başlamışdı. Lakin bütün bunlar heç də dünyadakı bəzi ölkələrarası konfliktlərə, xalqlararası münaqişələrə son qoymadı, əksinə regional və lokal münaqişələrin sayının artması ilə müşahidə edildi. 1990-cı illərdən sonra dünya miqyasında müxtəlif etnik-separatçı, milli, dini və digər münaqişələrin sayı kəskin şəkildə artdı. Baxmayaraq ki, bu münaqişələrin çoxu daxili, lokal və regional xarakter daşıyırdı, lakin mahiyyət etibarı ilə onların hər birinin arxasında müxtəlif dövlətlər dayanırdı ki, bu da həmin münaqişələrin regional və beynəlxalq təsirindən xəbər verirdi. Çünki bu tipli lokal münaqişlər son məqamda ayrı-ayrı regionların, o isə öz növbəsində bütün dünyanın təhlükəsizlik mühitinə mənfi təsir göstərir. Məsələn, Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi uzun müddət bəzi erməni və ermənipərəst dünya mətbuatında Azərbaycanın daxili münaqişəsi kimi qələmə verilirdi. Lakin, əslində bu münaqişə başlanğıcdan bir ölkənin (Ermənistanın) digərinə (Azərbaycana) qarşı açıq ərazi iddiaları çərçivəsində həyata keçirdiyi hərbi təcavüz idi. Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi təkcə regionda deyil, bütövlükdə Avropada və dünyada siyasi sabitliyin və beynəlxalq təhlükəsizliyin əsası sayılan "*ərazi bütövlüyünü və milli sərhədlərin toxunulmazlığı"* prinsiplərini kobud şəkildə pozurdu.

Dünyada ikiqütblü dünya sisteminin süqutu "soyuq müharibəni" başa çatdırsa da, göründüyü kimi beynəlxalq münasibətlər sistemində bir çox ərazi-sərhəd problemlərinin, məhəlli və regional münaqişələrin, mütəşəkkil cinayətkarlıq hallarının, kütləvi qırğın silahlarının yayılması təhlükəsinin, dini, etnik

ekstremizm, terrorizm kimi bəşəri təhlükələrin sayının artmasına şərait yaratdı. Bütün bunlar və 2001-ci ilin məlum 11 sentyabr terror hadisəsi beynəlxalq aləmdə yeni, daha çevik təhlükəsizlik modelinin yaradılması zəruriliyini üzə çıxardı, dünyanın aparıcı dövlətlərində təhlükəsizliyin mövcud beynəlxalq birliklər çərçivəsində inkişaf etdirilməsi, təkmilləşdirilməsi ideyasını gündəmə gətirdi.

Beynəlxalq hüquq sahəsindəki mövcud boşluqlar, xüsusilə qəbul olunmuş qərarların icra mexanizminin yoxluğu, hüquqi prinsip və normaların doktrinal interpretasiyaları, "milli maraq" və "milli təhlükəsizlik" kimi anlayışların fərqli interpretasiyası və beynəlxalq iradənin subyektiv mülahizələr nəzərə alınmaqla tətbiqi və s. kimi məsələlər indinin özündə də beynəlxalq təhlükəsizlik sisteminə ciddi problemlər yaradır. Müasir beynəlxalq münasibətlərin qarşısında duran ən mühüm vəzifələrdən biri olan dayanıqlı beynəlxalq sülh şəraitinin yaradılmasını, etibarlı təhlükəsizliyin təmin edilməsini çətinləşdirir.

Hazırda geosiyasi ədəbiyyatda dünya dövlətlərinin ayrı-ayrılıqda milli inkişafı və milli təhlükəsizliyi, onların ölçüləri, təmin olunması dərəcəsi və s., bir qayda olaraq, beynəlxalq və regional müstəvidə cərəyan edən geosiyasi, hərbi-geostrateji və geoiqtisadi vəziyyətin, şəraitin, hadisələrin və dünya təhlükəsizlik mühitinin fonunda dəyərləndirilir.

Beynəlxalq təhlükəsizlik dedikdə, geosiyasətdə ilk növbədə, *beynəlxalq münasibətlər sisteminin və beynəlxalq hüququn müharibə və silahlı münaqişələrdən, dövlətlərarası qarşıdurma və qeyri-sabitlikdən qorunması, dünya sisteminin əsas subyektlərinin - dövlətlərin qarşılıqlı şəkildə tarazlaşdırılmış milli maraq və milli təhlükəsizliyinin təminatı sistemi başa düşülür*.

Beynəlxalq təhlükəsizliyin əsas qayəsi *insanların, cəmiyyətlərin və dövlətlərin təhlükəsizliyinin təmin edilməsindən* ibarət olduğuna görə, bu sistemə həm də *insan həyatına təsir göstərə biləcək mövcud təhlükələrin və təhdidlərin, potensial risklərinin aradan qaldırılması istiqamətindəki kollektiv fəaliyyət normaları və s.* daxildir.

Beynəlxalq təhlükəsizlik əhatə dairəsinə görə **qlobal** (bütün dünyanı əhatə edən), **regional** (planetin bəlli bir regionunda baş verən) və **kollektiv** (bir qrup ölkənin cəlb olunması ilə yaşanan) olmaqla üç qrupa ayrılır. Hər qrupda beynəlxalq təhlükəsizlik dedikdə, müvafiq olaraq ümumdünya, regional və yaxud konkret bir qrup dövlətin ölkələrarası münasibətlərinin, beynəlxalq hüququn və s. birgəyaşayış normalarının böyük və kiçik müharibələrdən, silahlı qarşıdurmalardan, böhran və sabitsizlikdən qorunması, kollektiv səylər vasitəsilə hər bir dünya dövlətinin beynəlxalq hüquqa zidd əməllərdən çəkindirilməsi, yaxud hüququ pozulmuş ölkənin müdafiəsi nəzərdə tutulur.

Beynəlxalq təhlükəsizliklə bağlı dövlətlərin xarici siyasət fəaliyyətinin əsas ölçü meyarlarından birini *əlverişli beynəlxalq təhlükəsizlik mühitinin yaradılması, kollektiv və milli təhlükəsizliyin təminatı təşkil edir*. XX əsrin ortalarından başlayaraq Birləşmiş Millətlər Təşkilatına üzv olan dövlətlər beynəlxalq sistemdə əsasən öz milli maraqlarından çıxış etsələr də, BMT və onun ayrı-ayrı qurumları öz nizamnamələri çərçivəsində **ölkələrin ümumi və ortaq maraqlar sisteminin prinsiplərini hazırlamış və təmin edilməsi mexanizmlərini formalaşdırmışlar.** Beynəlxalq təhlükəsizlik sisteminin mahiyyəti bütün üzv dövlətləri açıq müharibələrdən, xarici hərbi basqınlardan, digər xarici təhlükə və təhdidlərdən qorumaq, şəx-

siyyətin, cəmiyyətin təhlükəsizliyini və dövlətin suveren hüquqlarını kollektiv şəkildə təmin etməkdən ibarətdir.

Beynəlxalq təhlükəsizlik sisteminin əsas prinsipləri BMT Nizamnaməsinə müvafiq olaraq:

- dövlətlərin ortaq təhlükəsizlik maraqlarının tapılması və bu əsasda beynəlxalq sülhün təmin edilməsi;
- ölkələrarası münaqişə və silahlı toqquşmaların aradan qaldırılması və mübahisəli məsələlərin danışıqlar yolu ilə həll edilməsi;
- hər bir dövlətin milli təhlükəsizliyinin beynəlxalq təhlükəsizliklə əlaqələndirilməsi;
- kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması və tətbiqinin qadağan olunması;
- beynəlxalq təhlükəsizliyi təhdid edən etnik separatizm, terrorizm, silah qaçaqmalçılığı, narkotik maddələrin qanunsuz dövriyyəsi və s. kimi hallarla mübarizə;
- bərabər hüquqlar əsasında xalqlararası dostluq münasibətlərinin inkişaf etdirilməsi və ümumi sülhün möhkəmləndirilməsi üçün müvafiq addımların atılması;
- iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində əməkdaşlıq; ölkələrin iqtisadi təhlükəsizliyini təhdid edən hallarla kollektiv mübarizə və s. ibarətdir.[150]

BMT Nizamnaməsində açıq formada qeyd olunur ki, "mövcud nizamnaməyə qoşulmuş dünya dövlətlərinin hər biri bir-birilərinin və eləcə də digər dövlətlərin ərazi bütövlüyünü,

[150]См: Устав Организации Объединенных Наций
http://www.un.org/ru/documents/charter/intro.shtml

sərhədlərinin toxunulmazlığını qəbul etməli, indi və ya gələcəkdə digər ölkələrin sərhədlərini pozacaq hərəkətlərə yol verməməli, digər iştirakçı dövlətlərin sərhədlərini pozaraq onun ərazilərinə iddia etmək və ya onu zəbt etməkdən çəkinməlidirlər."[151]

Dövlətlərin BMT tərəfindən tanınmış ərazi bütövlüyünün qorunması, sərhədlərinin toxunulmazlığı, ölkələrarası münaqişə və silahlı toqquşmaların aradan qaldırılması və mübahisəli məsələlərin danışıqlar yolu ilə həll edilməsi prinsipi ATƏT-in Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə 1975-ci ildə qəbul etdiyi, sonradan müstəqillik əldə etmiş digər Avropa dövlətlərinin, o cümlədən də Azərbaycanın qoşulduğu Helsink Yekun aktında da beynəlxalq hüququn əsas tələblərindən biri kimi təsbit edilmişdir.[152]

Yekun Aktında qeyd olunur ki, "bu sənədə qoşulmuş ölkələr digər ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşmalı və buna uyğun olaraq, BMT Nizamnaməsinin məqsəd və prinsiplərini rəhbər tutmalı, üzv ölkələrin ərazi bütövlüyünü tanımalı, siyasi müstəqilliyini və ya bötövlüyünü heç bir şəkildə pozmamalı, xüsusilə də təhdid və ya bu kimi hərəkətlərdən çəkinməlidirlər."*[153]*

Sənəddə xüsusi vurğulanır ki, "beynəlxalq hüquq normalarını pozan və digər dövlətlərin ərazi bütövlüyünə xələl gətirən işgalçılıq siyasəti beynəlxalq ictimaiyyət tərəfindən heç bir zaman leqal olaraq qəbul edilməyəcəkdir. *"[154]*

[151] Yenə orada
[152] http://www.osce.org/ru/mc/39505?download=true
[153] Yenə orada.
[154] Yenə orada.

Azərbaycan Respublikası və digər postsovet respublikalarının ATƏT-ə üzv qəbul olunduqları 1992-ci ildə imzaladıqları Yekun aktında dövlətlərin ərazi bütüövlüyü və suverenliyinin toxunulmazlığı ilə yanaşı beynəlxalq təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə ümumən 10 əsas prinsip öz əksini tapmışdır. Bunlar:

- Suveren bərabərlik və suverenliyə xas olan hüquqlara hörmət prinsipi;
- Təhdid və ya zor işlətməmək prinsipi;
- Sərhədlərin toxunulmazlığı prinsipi;
- Dövlətlərin ərazi bütövlüyü prinsipi;
- Mübahisələrin dinc yolla həll olunması prinsipi;
- Bir-birinin daxili işlərinə qarışmamaq prinsipi;
- İnsan hüquqlarına və əsas azadlıqlara hörmət prinsipi, o cümlədən düşüncə, vicdan, din və ya əqidə azadlığına hörmət edilməsi prinsipi;
- Xalqların öz müqəddəratını təyin etmə hüququ və bərabər hüquqluğu prinsipi;
- Dövlətlər arasında əməkdaşlıq prinsipi;
- Beynəlxalq hüquq çərçivəsində öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipindən ibarət idi.[155]

SSRİ-nin dağılması ərəfəsində, ideoloji və sinfi qarşıdurmanın ən yüksək mərhələsində baş tutmuş ATƏT-in Paris Zirvə görüşündə – 1990-cı ildə beynəlxalq münasibətlər sisteminin, o cümlədən beynəlxalq təhlükəsizliyin əsas prinsip və normalarını müəyyən edən, "Yeni Avropa üçün Paris Xartiyası" adlı mühüm bir sənəd qəbul olunmuşdur. Bu sənəddə ATƏT qarşısında Avropada "soyuq müharibə"dən sonrakı vəziyyəti,

[155] Yenə orada.

təhlükəsizlik və əməkdaşlıq məsələlərini idarə etmək vəzifəsi qoyulmuşdur.

Paris Xartiyası: "Demokratiya, Sülh və Birlik üçün Yeni Dövr" adlandırılan birinci, "Gələcək üçün istiqamətləndirici prinsiplər" başlıqlı ikinci və "ATƏT-in təşkilatlandırılması müşavirəsi" adlanan üçüncü hissədən ibarət idi. Xartiyanın ikinci hissəsində Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri, bu sahədəki fəaliyyətin əsas prinsipləri öz əksini tapmışdır.

Sənəddə iştirakçı dövlətlər Avropadakı mövcud münaqişələri, suverenlik haqlarına qarşı qəsd hallarını, siyasi və iqtisadi müstəqilliyə təhlükələri və ərazi bütövlüyünə təhdidləri insanlıq üçün ümumi təhlükə mənbələri kimi qiymətləndirmiş və onların qarşısının alınması sahəsində birgə fəaliyyətin əsas istiqamətləri müəyyənləşdirilmişdir.

Paris Xartiyasında iştirakçı dövlətlər birmənalı şəkildə terrorizmin bütün formalarını pisləmiş və ona qarşı həm ikitərəfli, həm də çox tərəfli əməkdaşlıq vasitəsi ilə mübarizə aparmağı əsas prioritet olaraq hədəf götürmüşlər.

Bundan əlavə Paris Xartiyasında iştirakçı dövlətlərə bütün münaqişəli məsələləri sülh yolu ilə həll etməyi, bir-birinə qarşı təhdid və güc istifadəsindən çəkinməyi tövsiyə etmişlər. Xartiyada iştirakçı dövlətlərin üzərinə regionda və dünyada sülh və təhlükəsizliyin qorunması, münaqişələrin sülh yolu ilə və beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində bir sıra vəzifələr də qoyulmuşdur.[156]

Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə ATƏT-in Paris Xartiyası ilə başlayan təşkilatlanma prosesi 1992-ci ildə Helsinkidə, 1994-cü ildə Budapeştdə, 1996-cı ildə

[156]http://www.osce.org/ru/mc/39520?download=true

Lissabonda, 1999-cu ildə İstanbulda keçirilmiş Dövlət və Hökumət başçılarının yüksək səviyyəli Sammitlərində davam etdirilmiş və qəbul edilən sənədlərdə öz əksini tapmışdır.

Bu sammitlərdə Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə yeni mexanizmlər yaradılmış, təşkilatı bölmələr təsis olunmuş və təhlükəsizlik problemlərinin həlli üçün müəyyən ümumi prinsiplər formalaşdırılmışdır. 1994-cü ildə Budapeşt zirvə görüşündə iştirakçılar ATƏM-in müşavirə statusunu qaldıraraq, onu Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələləri üzrə daimi təşkilata (ATƏT) çevirdilər. Bu qərarlarla SSRİ-nin və Yuqoslaviya Sosialist Federativ Respublikasının (YSFR) dağılması ilə ortaya çıxan problem və narazılıqlardan doğan toqquşmaların qarşısını almaq üçün fəaliyyət imkanları genişləndirildi. 1992-ci ildə qəbul edilən Helsinki sənədi ATƏT-ə təhlükəsizlik məsələləri üzrə erkən xəbərdarlıq, silahlı münaqişələrin qarşısını almaq və böhranlı vəziyyətlərin idarə olunması kimi ciddi səlahiyyətlər verdi. Bununla da ATƏT soyuq müharibədən sonrakı dövrdə Avropada sülhün, təhlükəsizliyin və yeni dünya nizamı şəraitində əməkdaşlığın yaradılmasına yardım edə bilən vacib beynəlxalq-regional təşkilatlardan birinə çevrildi.

ATƏT-in təhlükəsizliyin təmin edilməsinə yanaşması hərtərəfli xarakter daşıyır və məsələlərin geniş dairəsi, o cümlədən silahlar üzərində preventiv diplomatiya, etimad və təhlükəsizliyin möhkəmləndirilməsi üzrə tədbirlər, insan hüquqları, seçkilərə nəzarət, eləcədə iqtisadi və ekoloji təhlükəsizlik məsələləri üzrə əməkdaşlığa əsaslanır. ATƏT-in fəaliyyətində iştirak edən bütün dövlətlər bərabər hüquqlara malikdirlər və qərarları konsensus əsasında qəbul edirlər.

ATƏT xüsusi statusa malikdir. Bir tərəfdən ATƏT çərçivəsində qəbul olunan qərarlar hüquqi deyil, daha çox siyasi xarakter daşıyır. Lakin, digər tərəfdən, ATƏT beynəlxalq təşkilatların əlamətlərini özündə birləşdirir: daimi orqanlara, daimi mənzil-qərargaha və qurumlara, daimi ştata, daimi maliyyə ehtiyatlarına və sahələr üzrə bölmələrə malikdir.

Dövlətlərin siyasi öhdəlikləri əks olunmuş əksər ATƏT sənədləri onun həyata keçirilməsi üçün beynəlxalq müqavilə formasına ehtiyac duyur. Belə ki, nə 1975-ci il Yekun Aktı, nə Paris Xartiyası, nə də ki, sonrakı sammitlərdə qəbul olunmuş sənədlər hüquqi mənada beynəlxalq müqavilə deyil və dövlətlər üçün məcburi xarakter daşımır. Lakin, ATƏT-in sənədləri beynəlxalq hüququn mənbələri kimi çıxış edir və onun prinsiplərini müəyyənləşdirir. Mahiyyət etibarı ilə isə, onlar beynəlxalq hüquqi deyil, yalnız siyasi öhdəlik qüvvəsinə malikdirlər.

Bununla yanaşı, ATƏT öhdəliklərinin məcburi hüquqi qüvvəsinin olmaması onların səmərəliliyini azaltmır. Ən yüksək siyasi səviyyədə imzalandıqlarından onlar beynəlxalq hüquq çərçivəsində beynəlxalq müqavilələr qədər yüksək əhəmiyyət daşıyır.

Bu gün ATƏT Avropada NATO və b. hərbi bloklar kimi təhlükəsizlik məsələləri ilə birbaşa məşğul olmasa da, əməkdaşlıq əsasında beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi prosesində aparıcı rol oynayır. Bu istiqamətdə ATƏT öz səylərini digər beynəlxalq və regional təşkilatlarla qarşılıqlı fəaliyyətdə və böyük miqdarda qeyri-hökümət təşkilatları ilə birbaşa əlaqədə həyata keçirir.

Hər bir dövlət üçün beynəlxalq təhlükəsizlik ilk növbədə onun ərazi bütövlüyünü, şəxsiyyət və cəmiyyətin təhlükəsizliyini, suveren dövlət hüquqlarını xarici hərbi müdaxilə və hü-

cumlardan qorumaqdan və ən başlıcası, təhlükəsizliyinə beynəlxalq təminatın verilməsindən ibarətdir. Beynəlxalq təhlükəsizliyin əsas təminatçısı rolunda, göründüyü kimi BMT və onun Təhlükəsizlik Şurası çıxış edir. Təhlükəsizlik Şurasında (TŞ) dünyanın nüvə silahına malik beş dövləti - ABŞ, Çin, Rusiya, Böyük Britaniya və Fransa daimi, daha iki dövləti isə iki ildə bir dəfə dəyişməklə müvəqqəti təmsil olunurlar. Dünya əhəmiyyətli bütün təhlükəsizlik məsələləri TŞ-də müzakirə olunur və qərarlar konsensus yolu ilə qəbul edilir. Hər hansı ölkəyə qarşı kollektiv güc, yaxud digər sanksiya tətbiq etmə, hansısa dövlətin təhlükəsizliyini kollektiv şəkildə qoruma, beynəlxalq sülhməramlı qüvvələr yaratma və müharibə bölgələrinə göndərmə, beynəlxalq təhlükəsizliyi təhdid edən təhlükələrin qarşısını alma və s. məsələlər də TŞ-nin ümumi qərarı ilə həll olunur.

Mütəxəssislər müasir beynəlxalq təhlükəsizlik sistemini həddən artıq qeyri-təkmil, fəaliyyətini isə səmərəsiz hesab edirlər. Onların fikrincə, BMT TŞ-nin qərarvermə prinsipləri və metodları münaqişəli halların qarşısının alınmasında, beynəlxalq və regional təhlükəsizliyə qarşı təhdidlərlə mübarizədə operativ müdaxilə imkanı vermir. Bu qurum həm də öz nizamnamə öhdəliyinə uyğun olaraq, nəinki ayrı-ayrı ölkələrə faktiki təhlükəsizlik, xarici hərbi müdaxilələrdən qorunma və s. sahəsində təminat verə bilmir, hətta özünün yürütdüyü səbatsız, müxtəlif standartlı, prinsipsiz siyasət nəticəsində, məsələn, Ermənistan kimi cırtdan bir ölkəni beynəlxalq hüququn ən əsas normasına tabe etdirə bilmir. Mütəxəssislər bu vəziyyəti onunla əlaqələndirirlər ki, BMT TŞ-nin hazırkı daimi üzvlərini öz milli maraqlarından və onlara bilavasitə aid olan məsələlərdən başqa heç nə düşündürmür.

BMT-nin təhlükəsizlik sisteminin təşkili konsepsiyasının və onun daimi Təhlükəsizlik Şurasının fəaliyyətinin yenidən qurulması ideyası necə illərdir ki, beynəlxalq aləmin gündəliyindədir. Tədqiqatçıların fikrincə, dünyada işğalçılıq siyasəti yürüdən dövlətlərə, beynəlxalq hüquq normaları və beynəlxalq təhlükəsizliyə hörmətsizlik edən, açıq-aşkar meydan oxuyan ayrı-ayrı ölkələrə və onların birliyinə qarşı bütün dünya ölkələrinin kollektiv səyinin birləşdirilməsi və işlək mexanizmi düşünülməyincə, vahid prinsip əsasında bu iş təşkil olunmayınca, dünyada kollektiv təhlükəsizliyin təminatı sahəsindəki hazırkı yarıtmaz vəziyyət davam edəcək və hər ölkə öz təhlükəsizliyini bacardığı şəkildə təmin etməyə çalışacaqdır.

§ 4.2. Beynəlxalq təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasət strategiyası və fəaliyyəti

SSRİ-nin dağılmasının ardından Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsinin fərqli hərbi-geostrateji qruplaşmaları və geosiyasi mövqeləri, kəsişən maraqlar və ziddiyyətli fəaliyyətlər fonunda Azərbaycan dövlətinə öz beynəlxalq regional və milli təhlükəsizlik siyasətini formalaşdırmaq, regionun ümumi təhlükəsizlik məsələləri içərisində məxsusi təhlükəsizlik ölçülərini və meyarlarını müəyyənləşdirmək çox çətin oldu. Çünki SSRİ-nin dağılması ərəfəsində ərazisində etnik separatçılığın qızışdırılması və bu zəmində arzuolunmaz müharibəyə cəlb edilməsi, torpaqlarının Ermənistan tərəfindən işğal olunması və s. onun yenicə başladığı milli dövlət quruculuğunun təxirəsalınmaz daxili iqtisadi, siyasi və sosial problemləri sırasına həm də xarici hərbi müdaxilə və milli təhlükəsizlik kimi məsələləri də əlavə etmişdi. Erməni hərbi birləşmələri qısa zaman

çərçivəsində bəzi xarici dövlətlərin köməkliyi ilə Azərbaycanın 20% ərazisini işğal edərək, milli təhlükəsizliyini ciddi sınaq qarşısında qoymuşdu. BMT-nin bütün tələblərini kobudcasına pozan və qəbul etdiyi qətnamələri icra etməyən Ermənistana qarşı milli müdafiə və beynəlxalq təsiretmə mexanizmlərinin səfərbər edilməsi, işğalın dayandırılması üçün təsirli tədbirlərin görülməsi, bu müstəvidə ölkənin haqlı beynəlxalq mövqelərini müdafiə edən hərbi-siyasi tərəfdaşların, müttəfiqlərin tapılması və onların gücündən istifadə edilməsi ölkə rəhbərlərindən xüsusi düşünülmüş hərbi və milli təhlükəsizlik siyasəti tələb edirdi.

Azərbaycanın xarici təhlükəsizlik siyasəti və bu əsasda yaradacağı təhlükəsizlik strategiyası hərtərəfli düşünülmüş və çoxşaxəli olmalı, riskli və təhlükəli siyasi təşəbbüsləri istisna etməli idi. Ölkənin beynəlxalq mövqeyini möhkəmləndirmək, onu regionun lider dövlətinə çevirmək, ümumi strateji məqsədlər naminə regional təhlükəsizlik layihələrinin bütün iştirakçıları ilə bərabərhüquqlu əməkdaşlıq qurmaq, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağı, ona bitişik ətraf rayonları işğaldan azad etmək və s. bu strategiyanın ana xəttini təşkil edirdi.

Azərbaycanın xarici siyasət strategiyanın formalaşmasına təsir göstərən amilləri iki qrupa ayırmaq olar: *Birinci qrupa* beynəlxalq aləmdə mövcud olan, dövlətin strateji, həyati maraqlarının toxunduğu siyasi, iqtisadi və hərbi amillər daxildir və onlar digər ölkələrin hökumətlərinin, dövlətin mühüm tərəfdaşları və yaxud əleyhdarlarının fəaliyyəti nəticəsində yaranır. Bu amillər dünya siyasətinin əsas subyektlərinin iqtisadi, siyasi və hərbi gücünün nisbəti ilə, eyni zamanda həm qlobal, həm də regional səviyyələrdə beynəlxalq münasibətlərin formalaşması prinsipləri və mexanizmləri ilə müəyyənləşir. *İkinci qrup* amil-

lərə isə Azərbaycanın milli sərhədlərindən kənarda fəaliyyətini şərtləndirən daxili hərəkətverici motivlər aiddir.

Ölkənin geosiyasi, geoiqtisadi və hərbi-strateji maraq dairələrinin, onların fonunda xarici dövlətlər və geosiyasi aktorlarla təhlükəsizlik sahəsində münasibətlərinin konseptual əsaslarının və strategiyasının hazırlanması, beynəlxalq aləmdəki müttəfiqlərinin, tərəfdaşlarının və rəqiblərinin təsnifatının aparılması, onlarla hərbi-geostrateji əlaqələrin xarakterinin müəyyənləşməsi və mümkün proqnozların verilməsi Azərbaycan dövlətindən təhlükəsizlik sahəsində öz *Xarici Siyasət Konsepsiyasının* yaradılmasını tələb edirdi.

Azərbaycan dövlətinin beynəlxalq, regional və milli təhlükəsizliklə bağlı xarici siyasət fəaliyyətinin təhlili göstərir ki, 1991-1993-cü illərin böhranlı dövlət quruculuğu prosesləri, hakimiyyətin rastlaşdığı bütün daxili və xarici problemlər həm də onun təhlükəsizlik siyasətinə və beynəlxalq əlaqələrinə öz mənfi təsirini göstərmişdi. SSRİ-nin və keçmiş sosialist düşərgəsinin ənənəvi təsirindən tezliklə qurtulmaq, milli inkişaf və təhlükəsizliklə bağlı müstəqil daxili və xarici siyasət kursu formalaşdırmaq, onun əsas prioritetlərini, məqsəd və vəzifələrini müəyyən etmək, beynəlxalq təhlükəsizlik siyasəti müstəvisinə çıxmaq və dünya sisteminə qatılmaq yeni və müstəqil dövlət üçün o qədər də asan iş deyildi. Bundan başqa, ərazi iddiası ilə Ermənistanın onun torpaqlarına işğalçı qoşun yeritməsi, birbirinin ardınca ərazilərini zəbt etməsi, əhalisini daimi yaşayış yerlərindən kütləvi şəkildə qovması və s. kimi ağırlaşdırıcı hallar da həmin dövrdə Azərbaycanın təhlükəsizlik sahəsində xarici siyasət fəaliyyətinin formalaşmasını çətinləşdirirdi. Odur ki, müstəqilliyinin ilk illərində ölkənin beynəlxalq təhlükəsizlik sahəsində xarici siyasət kursunda və hökumətin fəaliyyətində bir çox ciddi nöqsanlar buraxılmış, ziddiyyətli, qeyri-

müəyyən və qeyri-ardıcıl qərarlar verilmişdi. Bu da onun həm daxili həyatına və müstəqil dövlət quruculuğu prosesinə, həm də region dövlətləri və beynəlxalq aləmlə münasibətlərinə ciddi təsir göstərmişdi. Azərbaycan uzun müddət xarici aləmlə səmərəli iqtisadi, siyasi, sosial-mədəni əlaqələr yarada bilməmiş, hakimiyyət strukturları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında beynəlxalq informasiya mübarizəsini uduzmuş, ölkənin xarici aləmdən qaynaqlanan milli təhlükəsizlik və geosiyasi vəziyyətini çətin duruma salmışdı.[157]

Azərbaycanın təhlükəsizlik sahəsində praktiki xarici siyasət fəaliyyətinin qurulması və formalaşması, onun əsas vəzifələrinin müəyyənləşdirilməsi Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun dövründə Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqelər qazanması üçün lazımi tədbirlər həyata keçirildi, ölkənin xarici aləm üçün kəsb etdiyi maraqlar dairəsi, geosiyasi və geoiqtisadi əhəmiyyəti düzgün dəyərləndirildi, beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda üst-üstə düşən, kəsişən maraq dairələri müəyyənləşdirildi. Beynəlxalq münasibətlərin və beynəlxalq təhlükəsizlik mühitinin vəziyyəti və yeni tələbləri, dövlətlərarası əlaqələrin prinsipləri, beynəlxalq hüququn təsir gücü və dairəsi, dünyanın böyük dövlətlərinin, regionun aparıcı ölkələrinin və beynəlxalq təşkilatların Cənubi Qafqaz və Azərbaycanla bağlı yürütdüyü, yaxud yürüdə biləcəyi siyasət, yarana biləcək təhlükələr və s. təhlil edildi.[158]

[157]Daha ətraflı materiallara bax: Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, 2005, s. 211-263

[158]Daha ətraflı materiallara bax: Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti: əsas məqsədi, vəzifələri və icra mexanizmləri //Heydər Əliyev və inkişafın Azərbaycan modeli. Bakı, 2010, s.32-48

Prezident Heydər Əliyev daim qeyd edirdi ki, təhlükəsizlik sahəsində Azərbaycanın qarşısında duran əsas vəzifələr, ilk növbədə dövlət müstəqilliyinin qorunması, ərazi bütövlüyünün təmin olunması, əhalinin təhlükəsizliyinin təmin edilməsi və bu sahədə dünyanın və regionun bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələrin yaradılmasından ibarətdir.[159]

Azərbaycan 1993-cü ildən başlayaraq Prezident Heydər Əliyevin rəhbərliyi altında öz praqmatik təhlükəsizlik siyasətini və tarazlaşdırılmış xarici siyasət fəaliyyətini formalaşdıraraq, ilk növbədə müstəqil bir dövlət kimi dünya sistemindəki məxsusi yerini, beynəlxalq münasibətlər sahəsində təmsilçiliyinin strateji məqsədlərini və taktiki vəzifələrini, xarici aləmlə əlaqələrinin, xarici təhlükəsizlik siyasətinin konturlarını, prioritetlərini müəyyən etdi, qabaqcıl xarici ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq, dünya birliyinə hərtərəfli inteqrasiya, ölkənin geosiyasi təhlükəsizliyi ilə bağlı regionda və dünyada mövcud olan təhlükəsizlik sistemləri ilə əməkdaşlıq xəttini müəyyənləşdirdi.

Xarici təhlükəsizlik qurumlarının kəşfiyyat və xəfiyyə mübarizəsi meydanına çevrilmiş, siyasi, hərbi, dini, missioner təşkilatların dərin kök saldığı Azərbaycanın beynəlxalq və milli təhlükəsizlik məsələləri 1993-1995-ci illərdə qaydaya salındı, pozulmuş ərazi bütövlüyünün bərpası, işğalçıların Azərbaycan torpaqlarından çıxarılması, dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, regional və milli təhlükəsizliyin təmin edilməsi kimi vəzifələrin həllində beynəlxalq aləmin, ilk növbədə BMT, ATƏT, NATO və s. kimi nüfuzlu beynəlxalq təşkilatların, böyük ölkələrin dəstəyinin qazanılması yolları axtarılmağa başlandı.

[159] Yenə orada.

Azərbaycan o dövrdə dövlətlərarası əlaqələri pozulmuş və geosiyasi münasibətləri gərginləşdirilmiş iri region dövlətləri – Rusiya və İran, erməni lobbisinin təsiri ilə Azərbaycana qarşı müxtəlif məhdudlaşdırıcı sanksiyalar qəbul etmiş ABŞ, Avropanın nüfuzlu ölkələri olan Fransa, Almaniya, İngiltərə, MDB üzvləri və Orta Asiyanın qonşu respublikaları, dünyanın və regionun başqa dövlətləri ilə təhlükəsizlik sahəsində tərəfdaşlıq münasibətləri yaratdı. Beynəlxalq və regional təşkilatlarla, o cümlədən təhlükəsizlik qurumları ilə əlaqələri intensivləşdirdi, onların imkanlarından ölkənin problemlərinin həlli istiqamətində istifadə etmək üçün tədbirlər həyata keçirdi.

Beynəlxalq təhlükəsizlikdə mühüm əhəmiyyət kəsb edən xarici təbliğat və informasiya fəaliyyətini qaydaya salmaq üçün ölkə daxilində mühüm işlər həyata keçirildi, xarici kəşfiyyat, informasiya və xəfiyyə orqanlarının Azərbaycandakı pozucu informasiya fəaliyyəti nəzarətə götürüldü.

Müstəqil Azərbaycan dövlətinin təhlükəsizlik sahəsində xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri müəyyənləşdirilərək Azərbaycan Respublikasının Konstitusiyasına, xarici siyasətlə bağlı qəbul olunmuş qanunvericilik aktlarına salındı və bu sahədə rəsmi siyasət formalaşdırıldı.

Həmin sənədlərdə beynəlxalq təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasətinin əsas vəzifələri: *müasir dünya sisteminə qatılmaq, dövlətin davamlı inkişafını, suveren dövlət hüquqlarını, ərazisinin və əhalisinin təhlükəsizliyini, dinc və firavan həyatını, milli ehtiyatları üzərində siyasi, iqtisadi və geostrateji nəzarəti təmin etmək məqsədi ilə yerləşdiyi bölgə və dünya dövlətlərinin, digər xarici aktorların imkanlarından səmərəli istifadə etməkdən ibarətdir.* Bu vəzifələrin təmin olun-

ması, eyni zamanda bütün xarici aləmlə, ayrı-ayrı dövlətlərlə, beynəlxalq qurumlarla ikitərəfli və çoxtərəfli siyasi, iqtisadi, hüquqi, mədəni və s. əlaqələrin yaradılması - dövlətin xarici siyasət fəaliyyətinin əsasını təşkil edir.

Yuxarıda bəhs olunan mənbələrdə- BMT-nin Nizamnaməsində, ATƏT-in Zirvə Toplantılarının yekun qərarlarında, o cümlədən Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyalarda, imzaladığı dövlətlərarası əlaqələrə dair müqavilələrdə, reallaşdırdığı çoxtərəfli və ikitərəfli münasibətlərdə öz əksini tapmış beynəlxalq hüquq normalarından çıxış edərək, Azərbaycan dövlətinin təhlükəsizliklə bağlı xarici siyasətinin əsas *vəzifə və istiqamətlərini* aşağıdakı kimi təsnif etmək olar:

- Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarını azad etmək, dövlət müstəqilliyini, suverenliyini və beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü, əhalinin təhlükəsizliyini təmin etmək;
- Azərbaycanın beynəlxalq, regional və milli təhlükəsizlik maraqlarını sistemləşdirmək, onun təmin olunması mexanizmlərini, vasitələrini müəyyənləşdirmək və beynəlxalq, regional təhlükəsizlik sistemi ilə əlaqələndirmək;
- milli təhlükəsizliyin tələblərinə cavab verən beynəlxalq və regional təhlükəsizlik təşkilatları ilə əməkdaşlıq etmək, beynəlxalq təhlükəsizlik tədbirlərində, təhlükəsizliklə bağlı dünyada cərəyan edən beynəlxalq və regional münasibətlərdə fəal iştirak etmək;
- dünya dövlətləri ilə təhlükəsizlik sahəsində bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri yaratmaq,

bu əlaqələrdən ölkənin milli təhlükəsizliyinin təmin olunmasında səmərəli istifadə etmək;

- təhlükəsizlik maraqları Azərbaycanın maraqları ilə uyğun gələn beynəlxalq qurumlarla, ayrı-ayrı dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, respublikanın beynəlxalq və regional təhlükəsizliyinin təmin olunması üçün onların imkanlarından istifadə etmək;
- kənar müdaxilə olmadan respublikamızın seçdiyi demokratiya, azad bazar iqtisadiyyatı və Avropaya inteqrasiya kursu ilə təhlükəsiz irəliləmək, müstəqil daxili və xarici siyasət yürütmək və s. üçün əlverişli, təhlükəsiz beynəlxalq və regional şəraitin bərqərar olmasına çalışmaq;
- əhalinin təhlükəsiz həyatının, dinc yaşayış hüququnun qorunmasına yönəlmiş beynəlxalq normaların həyata keçirilməsinə şərait yaratmaq;
- Cənubi Qafqaz və Xəzər regionunda etnik münaqişələrin, milli qarşıdurmaların və ölkələrarası gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək;
- hər hansı xarici hərbi, siyasi, iqtisadi və s. təhdidlərin, təzyiqlərin və təsirlərin qarşısını alan və ya onları minimuma endirən beynəlxalq təminat mexanizminin yaradılmasına nail olmaq;
- ölkəmizin xarici iqtisadi fəaliyyət təhlükəsizliyinin təmin olunması, milli iqtisadiyyatın şah damarı hesab olunan enerji ehtiyatları istehsalının və ixracının təhlükəsizliyi ilə bağlı beynəlxalq təminatın gücləndirilməsi, Azərbaycanın dünya enerji təhlükəsizliyinin ay-

rılmaz tərkib hissəsinə çevrilməsi və beynəlxalq iqtisadi sistemə inteqrasiya üçün xarici amillərdən bəhrələnmək;

- təhlükəsizlik sahəsində xarici ölkələrlə hərbi-geostrateji, elmi, texniki və informasiya mübadiləsi mexanizmlərini yaradaraq işə salmaq və s.

Müstəqil Azərbaycan dövlətinin təhlükəsizlik sahəsində xarici siyasəti həm də özünəməxsus *səciyyəvi xüsusiyyətləri* ilə seçilir. Bu xüsusiyyət özünü ilk növbədə beynəlxalq hüquq normaları və prinsiplərinə söykənərək sivil dövlətlərarası münasibətlərə hörmət bəsləməkdə, beynəlxalq, regional və dövlətlərarası münaqişələri sülh və danışıqlar yolu ilə həll etməyə çalışmaqda, bütün dünya ölkələrinin suveren hüquqlarına və təhlükəsizlik maraqlarına hörmətlə yanaşmaqda və s. göstərir. Bundan başqa, təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasət fəaliyyətinin xarakterik xüsusiyyətləri sırasına həmçinin onun çevik, praqmatik və tarazlaşdırılmış təhlükəsizlik siyasəti yürütməsini, qonşu ölkələrlə ortaq təhlükəsizlik maraqlarının tapılmasına üstünlük verməsini, dünya təhlükəsizlik mühitinə əhəmiyyətli təsir göstərən böyük dövlətlərlə tərəfdaşlıq münasibətlərinin yaradılmasına çalışmasını, ayrı-ayrı sahələrdə onların təhlükəsizlik maraqları ilə öz strateji mənafelərini uzlaşdırmaq cəhdlərini və s. mühüm cəhətləri də aid etmək olar.

Azərbaycan demokratik və hüquqi dövlət quruculuğu yolu tutduğundan, onun xarici təhlükəsizlik siyasəti həm də açıq və demokratik prinsiplər əsasında qurulmuş, beynəlxalq konvensiyalarda təsbit olunmuş transmilli hüquqi normalara, beynəlxalq təhlükəsizlik təşkilatlarının prinsiplərinə, dünyanın ümumi təh-

lükəsizlik maraqlarına və s. planetar sivil birgəyaşayış qaydalarına uyğunlaşdırılmışdır.

Təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasət *prinsipləri* də özünəməxsus səciyyə daşıyır. Azərbaycan Konstitusiyasında bununla bağlı qeyd edilir ki, "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun qurur". Beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər Azərbaycanın da üzv olduğu BMT və ATƏT-in nizamnamələrində, dünya ölkələrinin qoşulduğu çoxsaylı beynəlxalq konvensiyalarda və digər sənədlərdə öz əksini tapmışdır və həmin təşkilatların üzvü olan bütün dövlətlər üçün məcburi xarakter daşıyır. Bəşər cəmiyyəti bəhs etdiyimiz ortaq təhlükəsizlik prinsiplərini hazırkı beynəlxalq münasibətlər sisteminin və planetar birgəyaşayışın əsas hüquq normasına çevirmək üçün yüz illərlə davam edən, qanlı müharibə və dağıntılarla müşayiət olunan tarixi bir dövr keçmişdir. Odur ki, bütün dünya dövlətləri, beynəlxalq və məhəlli təşkilatlar BMT-nin Nizamnaməsində, beynəlxalq konvensiyalarda, ATƏT-in 1975-ci ildə imzalanmış "Helsinki Yekun Aktında", 1990-cı il "Paris Xartiyasında" və 1999-cu il "İstanbul Xartiyasında" öz əksini tapmış prinsip və normaları istər ayrı-ayrılıqda, istərsə də birgə qorumağa, onlara vicdanla əməl etməyə borcludurlar.

Beynəlxalq hüquq, beynəlxalq təhlükəsizlik normaları və prinsipləri hazırda dövlətlərarası münasibətlər praktikasında hamının qəbul edə biləcəyi, sivil dövlətlərarası münasibətlərin inkişafına və möhkəmlənməsinə bu və ya digər dərəcədə müsbət təsir göstərə biləcək yeni-yeni kollektiv sənədlərlə, müqavilə və maddələrlə zənginləşdirilir. Azərbaycan müstəqillik

illərində bir çox belə birgə sənədə imza atmış, özünün hüquqi fəaliyyət və öhdəlik dairəsini genişləndirmişdir.

Azərbaycanın təhlükəsizlik sahəsində xarici siyasət prinsipləri dünyada yaşanan geosiyasi proseslərin, beynəlxalq və regional təhlükəsizliklə bağlı müasir çağırışların, nüfuzlu beynəlxalq təşkilatların sənədlərində öz əksini tapmış əsas normaların tələbləri çərçivəsində formalaşmışdır. XX əsrin sonlarında Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra dünyada sülh, qarşılıqlı təhlükəsizlik, dostluq və əməkdaşlıq münasibətlərinə birmənalı tərəfdar olduğunu bu sahə üzrə mövcud olan əsas beynəlxalq sənədləri imzalamaqla ortaya qoymuşdur. Azərbaycan 1992-ci ildə BMT-nin Nizamnaməsi ilə yanaşı, həm də ATƏT-in Helsinki Yekun Aktını (1975) imzalamış bu sənəddə öz əksini tapmış 10 əsas prinsipə sadiqliyini nümayiş etdirdi.

Azərbaycan 1993-cü ilin dekabr ayında beynəlxalq və regional təhlükəsizliklə bağlı növbəti mühüm beynəlxalq sənədi - ATƏT-in Paris Xartiyasını imzaladı. Qeyd edək ki, 1990-cı ildə qəbul olunan bu sənəd "soyuq müharibə"dən sonra Avropada beynəlxalq münasibətlər sisteminin formalaşmasında özünəməxsus yer tutur və onu imzalayan dövlətlər ATƏT-in Helsinki Yekun Aktının 10 prinsipinə tam tərəfdar olduğunu və onların praktikada reallaşmasında qətiyyət göstərəcəklərini bir daha bəyan etmişlər.

Bu sənədlərin qəbul edilməsindən sonra dünyada gedən geosiyasi proseslər göstərdi ki, beynəlxalq və regional təhlükəsizliyin təmin olunması məqsədilə yeni mexanizmlərin işlənilib hazırlanması vacibdir və dünyada etibarlı sülhün mövcudluğuna böyük təhdid olan beynəlxalq terrorizm, ekstremizm, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qaçaqmalçılığına

qarşı birgə aparılması zəruridir. Bundan çıxış edilərək, ATƏT-in 1999-cu ildə İstanbulda keçirilən zirvə toplantısında yeni xartiya qəbul olundu və təşkilata üzvü olan dövlətlər Avropada azad, demokratik məkanın formalaşmasına nail olmaq üçün yeni addımlar atmağı qərara aldılar və razılaşdılar ki, əməkdaşlığa əsaslanan təhlükəsizlik platforması qəbul etsinlər. Azərbaycan da ATƏT-in həmin zirvə toplantısında iştirak edərək İstanbul Bəyannaməsinə və Avropa Təhlükəsizliyi Xartiyasına qoşuldu.

Azərbaycanın təhlükəsizlik sahəsində *xarici siyasət fəaliyyətinin prioritetləri* də onun xarici siyasət konsepsiyasının ümumi vəzifələrinə uyğun şəkildə müəyyən olunur. Xarici siyasət konsepsiyası həm də təhlükəsizlik sahəsində ölkənin qarşısında dayanan *uzunmüddətli* beynəlxalq strateji vəzifələrin və ölkə xaricində həyata keçiriləcək *operativ cari* fəaliyyətin planlaşdırılması və təmin olunması metodikasını özündə əks etdirməlidir.

Təhlükəsizlik sahəsində uzunmüddətli xarici fəaliyyət proqramı *dövlətin hərbi gücü, qüdrəti, iqtisadi, siyasi və maliyyə ehtiyatları, dünya siyasətindəki rolu və yerindən asılı olaraq milli təhlükəsizliyinin məqsədləri, beynəlxalq və regional vəzifələri üzərində qurulur*. Bu vəzifələrin ən vacibi və həyati əhəmiyyət kəsb edənləri sırasına *ölkənin müstəqilliyinin qorunmasını, ərazisi və əhalisinin təhlükəsizliyinin, dövlətin suveren hüquqlarının təmin edilməsini, təhlükəsizliklə bağlı beynəlxalq təminatın alınmasını, milli təhlükəsizliyin beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirilməsini, beynəlxalq və regional təhlükəsizlik qurumları ilə tərəfdaşlıq münasibətlərinin yaradılmasını* aid edirlər. Xarici siyasət qurumlarının bu prosesdə əsas vəzifəsi isə qeyd olunan məsələlərin həyata keçirilməsinə

xarici dəstəyin təmin olunması və beynəlxalq aləmin imkanlarının cəlb edilməsindən ibarətdir.

Uzunmüddətli xarici siyasət strategiyası *konkret zaman, məkan və şəraitə uyğun olaraq dövlətlərin təhlükəsizliklə bağlı cari xarici siyasət proqramının hazırlanmasını və yürüdüləcək siyasətin, görüləcək işlərin prioritetlərinin (mövcud zaman və məkan şəraitində reallaşdıracağı birinci dərəcəli vəzifələr) müəyyənləşdirilməsini tələb edir. Əslində, bu sahədəki prioritetlər dövlətin uzunmüddətli xarici fəaliyyətinin tərkib hissəsi, qarşısında duran vəzifələrin daha dəqiqləşdirilmiş, qruplaşdırılmış, təsnifatlaşdırılmış, mövcud məkan və zaman çərçivəsində önə çıxarılmış hissəsidir.*

Ölkənin xarici siyasət prioritetləri kimi, təhlükəsizlik sahəsində ən vacib vəzifələr də dövlətin rəsmi və qeyri-rəsmi institutlarının, vətəndaş cəmiyyətinin və ictimaiyyətin tələb və istəklərinin sintezi nəticəsində formalaşmış ümumi rəy əsasında müəyyən olunur. Ümumi rəyin fəaliyyət proqramına çevrilməsi və milli səviyyədə həyata keçirilməsinin əlaqələndirilməsini dövlət öz institutları, hüquqi və fiziki şəxsləri vasitəsi ilə reallaşdırır.

Beynəlxalq təhlükəsizliklə bağlı aparılan xarici siyasətin əlaqələndirilməsini həyata keçirən əsas institut Xarici İşlər Nazirliyi hesab olunsa da, ölkənin təhlükəsizlik strukturları da bu prosesdə birbaşa iştirak edir. *Təhlükəsizlik qurumları mövcud zaman və məkan çərçivəsində dövlətin təhlükəsizlik mühitini öyrənir, vəzifələri müəyyənləşdirir və müvafiq addımlarını planlaşdırır*. O ki qaldı xarici aləmlə təmasda həmin vəzifələrin reallaşmasına, bu proses artıq XİN-in rəhbərliyi tərəfindən və diplomatik vasitələrlə həyata keçirilir. Beynəlxalq təhlükəsizlik sahəsində milli proqramın hazırlanması prosesində isə

həm xarici və daxili işlər, təhlükəsizlik, hərbi və s. üzrə qurumlar, həm də müvafiq institutlar və aidiyyati mütəxəssislər iştirak edirlər. Birgə hazırlanmış beynəlxalq təhlükəsizlik sənədi dövlətin ali rəhbərliyinə təqdim edilir və həyata keçirilməsi üçün onun sanksiyası alınır. Beynəlxalq təhlükəsizlik siyasətinin reallaşması işində Xarici İşlər Nazirliyi həm dövlətin bütün mövcud ehtiyatlarını və gücünü, həm də ölkə vətəndaşlarının, dövlətə loyal münasibəti ilə seçilən siyasi partiya və ictimai təşkilatların, ayrı-ayrı hüquqi və fiziki şəxslərin imkanlarını səfərbər edir. Bu mənada, xarici siyasət və onun prioritet vəzifələrindən hesab olunan milli təhlükəsizlik məsələlərinin uğurlu həlli, bütövlükdə həm də ölkə daxilində milli və vətəndaş birliyinin vəziyyətindən asılı olur və əslində, belə birliyin yaranmasında stimul kimi çıxış edir. Xüsusən, böhran və müharibə vəziyyətlərində, ölkənin milli təhlükəsizliyi, ərazi bütövlüyü və xalqın həyatı üçün ciddi təhlükə yarandığı məqamlarda insanlarda vətənpərvərlik hisslərinin güclənməsi, maraqların və baxışların yaxınlaşması prosesi baş verir. Bu hisslərdən düzgün istifadə olunan, millətinin istək və arzuları mövcud şəraitə və zamana görə doğru istiqamətləndirilən, real iqtisadi, siyasi, hərbi, demoqrafik və s. imkanları nəzərə alınan ölkələrdə milli təhlükəsizlik vəzifələrini reallaşdırmaq daha asan və davamlı olur. Əks təqdirdə, bütövlükdə millət və onun ən fəal təbəqələri qeyri-real və avantürist yollara sövq olunur. Bu da onun başqa dövlət və xalqlarla ciddi qarşıdurmasına səbəb olur.

Ümumiyyətlə, *dövlətin beynəlxalq təhlükəsizliklə bağlı xarici siyasət fəaliyyətinin uğurlu həlli onun bu sahədəki mövcud ehtiyaclarının, milli ehtiyatlarının və imkanlarının obyektiv və düzgün dəyərləndirilməsindən, istək və arzularının real vəziyyətə uyğunlaşdırılmasından asılıdır.* Çünki beynəlxalq

aləmin mövcud siyasi, iqtisadi, hərbi, demoqrafik, informasiya vəziyyəti, imkanları və şəraiti qlobal proseslərin təsiri altında elə bir vəziyyətə gətirilmişdir ki, nəyin beynəlxalq, yaxud milli maraq dairəsinə uyğun gəlib-gəlməməsini müəyyənləşdirmək xüsusi səriştə və bilik tələb edir.

Ölkənin *xarici siyasət prioritetləri açıq diplomatiyaya aid edilsə də, beynəlxalq təhlükəsizliklə bağlı bir çox məsələlər, bir qayda olaraq, dövlət başçıları, ölkənin təhlükəsizlik şuraları, hərbi, təhlükəsizlik və xarici siyasət idarələrinin fəaliyyətində nəzərə alınmaq üçün hazırlanır.* Həmin prioritetlər haqqında, bir qayda olaraq, açıq danışılmır. Həm xarici siyasət, həm də beynəlxalq təhlükəsizlik sahəsində irəli sürülmüş prioritetlərin əsas istinad qaynağı, dünya ölkələrinin tarazlaşdırılmış ortaq maraqları fonunda hər bir ölkənin milli və dövlət maraqları hesab olunur. *Dövlətlərin beynəlxalq maraq çərçivəsini BMT-nin Nizamnaməsi və digər beynəlxalq hüquq normaları, milli maraq ölçüsünü isə hər bir ölkənin ali qanunu - konstitusiyası müəyyən edir.*

Dövlətin xarici təhlükəsizlik siyasətinin prioritetlərinin düzgün müəyyən olunması və təminatı *hər bir ölkənin milli maraqlarını, onu əhatə edən qonşu və region dövlətlərinin imkan və mövqelərini, dünya siyasəti və beynəlxalq münasibətlərin mahiyyətini və reallıqlarını, planetin birgəyaşayış normalarını müəyyən edən böyük dövlətlərin, beynəlxalq təşkilatların, güc mərkəzlərinin maraq və mənafe çərçivələrini, onlara təsir imkanlarını dəqiq qiymətləndirə bilməsindən asılıdır.*

Hakimiyyət dairələrində ölkənin xarici təhlükəsizlik mühiti və perspektivləri, xarici müdaxilələrdən qorunma gücü, dünya dövlətləri arasında tutduğu yer, geosiyasi mövqeyi və s. haqqında hay-küylü deyil, *real, praqmatik düşüncə* olmalı,

dövlətin mövcud ehtiyatları, dünya dövlətləri üçün kəsb etdiyi iqtisadi, siyasi və mədəni əhəmiyyəti düzgün dərk edilməli, beynəlxalq münasibətlərin vəziyyəti, tendensiyaları, ölkələrin real təhlükəsizlik maraqları nəzərə alınmalıdır.

Xarici təhlükəsizlik siyasətinin əsas prioritetləri

Dövlət müstəqilliyi bərpa olunduğu gündən Azərbaycanın xarici təhlükəsizlik siyasətinin əsas prioritetlərindən *biri dövlət müstəqilliyini qorumaq və möhkəmləndirmək, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalına son qoymaq və Dağlıq Qarabağ münaqişəsini həll etmək, ölkənin beynəlxalq və regional təhlükəsizliyini təmin etmək və bunun davamlı təminatını beynəlxalq təhlükəsizlik sistemi ilə bağlamaqdan ibarət olmuşdur*. Bu prioritet bu gün də xarici təhlükəsizlik siyasətinin və kursunun əsas vəzifələrindən birini təşkil edir. Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 sentyabr 2014-cü ildə NATO-nun İngiltərədə keçirilən sonuncu sammitindəki çıxışında bir daha təsdiq etmişdir. O, Azərbaycanın regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsindəki rolunu qeyd etməklə yanaşı bildirmişdir ki, hazırda Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə ən böyük təhlükə hələ də Azərbaycan ərazisinin iyirmi faizini- Dağlıq Qarabağ və yeddi ətraf rayonu işğal altında saxlayan Ermənistandan qaynaqlanır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirib və bunun nəticəsində 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən

dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Əfsuslar olsun ki, Ermənistan onlara məhəl qoymamaqda davam edir və münaqişə həll olunmamış qalır. [160]

Azərbaycanın dövlət müstəqilliyi yolunda mövcud olan əsas təhlükələr 1995-ci ildən başlayaraq əsasən aradan qaldırılsa da*, beynəlxalq təhlükəsizliyinin təmin olunmasının daimi təminatı məsələsi hələ də açıq qalır. Çünki hələ də ölkə ərazisindən xarici işğalçı ordu çıxarılmamış, onun ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı ilə bağlı beynəlxalq hüquqları təmin olunmamış və təhlükəsizliyinə tam beynəlxalq təminat alınmamışdır.*

Bundan başqa, *Azərbaycanın iqtisadi, siyasi, ekoloji, informasiya, ərzaq və s. təhlükəsizliyinin qorunması istiqamətində də xarici aləmlə işlər davam edir və onların ölkə daxilində reallaşdırdığı transmilli layihələr dövlətin milli təhlükəsizlik maraqlarına uyğunlaşdırılır.*

Azərbaycanın *müdafiə qabiliyyətinin yüksəldilməsi, ordu quruculuğunun müasir standartlara uyğunlaşdırılması və hərbi təhlükəsizliyinin təmin olunması sahəsində xarici ölkələrin imkanlarından istifadə edilməsi də prioritet vəzifə kimi gündəmdə durur.*

Azərbaycanın beynəlxalq təhlükəsizliyinin təmin olunması ilə bağlı *xarici siyasətinin əsas prioriteti sülh yolu ilə Ermənistanla münaqişə vəziyyətindən çıxmaq, Dağlıq Qarabağ problemini həll etmək, işğal altındakı torpaqları geri qaytarmaq, bütün ölkə ərazisində dövlətin suveren hüquqlarını bərpa etmək və sərhədlərinin təhlükəsizliyini təmin etməkdən ibarətdir.* Bu problemlərin həllində Azərbaycanın ədalətli və beynəl-

[160] Bax: AzərTAC-ın xəbər bülleteni, 5 sentyabr 2014-cü il.

xalq hüquqa söykənən mövqeyini dəstəkləyən, həmçinin onun əleyhinə çıxış edən və bitərəf mövqe tutan dövlətlər, beynəlxalq və regional təşkilatlar mövcuddur. Əsas vəzifə, sözsüz ki, mövqelərimizi müdafiə edən ölkələrin sayını artırmaq, xarici siyasət fəaliyyətini gücləndirmək yolu ilə bu ölkələrlə, təşkilatlarla hərtərəfli iş aparmaq və qarşıda dayanan vəzifələrin həllində beynəlxalq dəstəyə nail olmaqdan ibarətdir. Beynəlxalq təhlükəsizlik siyasətinin prioritetləri sırasına, eyni zamanda, dünyada və Cənubi Qafqazda beynəlxalq hüquq normalarına əsaslanan sivil birgəyaşayış normalarının bərqərar olması üçün təsirli tədbirlərin görülməsi, beynəlxalq təşkilatların, xüsusən BMT, ATƏT, NATO kimi qurumların bölgəmizdə sülhün və təhlükəsizliyin təmin edilməsində daha yaxından iştirakına nail olunması və s. məsələlər də daxildir.[161]

Müasir dövrdə Azərbaycan transmilli dünya siyasətində yaxından iştirak edir. Beynəlxalq münasibətlər sistemində baş verən bütün hadisələr və cərəyan edən meyillər dövlətin daxili və xarici vəziyyətinə bilavasitə təsir göstərir. Qloballaşma və dünya siyasətinin transmilliləşməsi, regional inteqrasiya, transmilli demokratikləşmə, liberallaşma və s. kimi proseslərdə ölkənin vahid strateji yanaşma nümayiş etdirməsi və iştirakı bütün dünyada izlənir və qiymətləndirilir. Odur ki, *həm bu istiqamətdə praktik addımların atılması, həm də görülən işlərin beynəlxalq aləmdə düzgün təqdim olunması xarici siyasətin əsas prioritetlərindən birini təşkil edir.* Nəzərə alınsa ki, ABŞ və Avropa İttifaqı dövlətləri müasir dövrdə öz xarici siyasətlərini dünya ölkələrinin demokratik dəyişilməsi üzərində qurur və hər bir ölkə beynəlxalq münasibətlər sistemində demokratik

[161] Daha ətraflı materiallarla kitabın lV və V fəsillərində tanış olmaq olar.

dəyərlərə münasibətinə görə qiymətləndirilir, onda bu işin nə qədər böyük əhəmiyyət daşıdığı məlum olur.

Azərbaycan dövləti dünyada yaşayan bütün azərbaycanlıların istinad yeri, qürur mənbəyi və doğma Vətənidir. Odur ki, ölkə daxilində olduğu kimi, bütün dünya ölkələrində yaşayan azərbaycanlıların**,** onlara məxsus əmlak və mülkiyyətin, soydaşlarımızın milli və vətəndaş haqlarının qorunması da beynəlxalq təhlükəsizlik sahəsində xarici siyasətin prioritet istiqaməti kimi diqqət mərkəzindədir. Xarici ölkələrdə yaşayan azərbaycanlılar eyni zamanda Azərbaycan dövləti üçün dünyanın ayrı-ayrı ölkələrində, regionlarda və bütövlükdə beynəlxalq aləmdə baş verən hadisələrə təsir etmək anlamında xarici siyasət və təhlükəsizlik resursu kimi çıxış edirlər. *Bu resursu qorumaq, imkanlarını artırmaq, bundan azərbaycanlıların hüquqlarının dolğun şəkildə təmin olunmasında və Vətənimizin mənafelərinin qorunmasında düzgün istifadə etmək ən vacib prioritetlərdən biridir.*

Azərbaycanın beynəlxalq təhlükəsizlik sahəsində xarici siyasət prioritetləri sırasına *regional təhlükəsizlik maraqlarının sistemləşdirilməsi və reallaşması istiqamətində görülən vacib işləri də aid etmək olar*. Məsələn, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etməklə yanaşı, Azərbaycan İran, Türkmənistan və Rusiya ilə kəsişən və toqquşan təhlükəsizlik maraqlarının ortaq nöqtəsini tapmaq və əlaqələri daha da yaxşılaşdırmaq, Türkiyə, Ukrayna, Gürcüstanla və strateji maraqları ölkəmizin maraqları ilə üst-üstə düşən digər region ölkələri ilə bu sahədə müttəfiqlik əlaqələrini daha da inkişaf etdirmək, Xəzər dənizinin statusu, TRACECA, Şərq-Qərb enerji-nəqliyyat-kommunikasiya layihələrinin təhlükəsizliyinin

təmin olunmasında onlarla birlikdə çalışmaq kimi vəzifələri də həll etməlidir.

Bundan başqa, *Avrasiya məkanında həyata keçirilən beynəlxalq və regional inteqrasiyada layiqli yerini tutmaq, ölkənin beynəlxalq və milli təhlükəsizlik maraqlarını maksimum təmin etmək vəzifəsi Azərbaycandan xüsusi düşünülmüş və tarazlaşdırılmış təhlükəsizlik siyasəti yürütməyi tələb edir.* Bu siyasət regionda Rusiya başda olmaqla MDB, İran başda olmaqla İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkiyə başda olmaqla Türkdilli Dövlətlər Birliyi, ayrıca Avropa İttifaqı, Çin, ABŞ və başqa ölkələrlə əlaqələr sisteminin çox mürəkkəb və ziddiyyətli məqamlarını nəzərə almalıdır. Azərbaycan həm xarici siyasət, həm də təhlükəsizlik məsələlərində tarazlaşdırılmış regional siyasət yürütməyi xüsusi bir prioritet kimi davam etdirməlidir. Tarazlaşdırılmış regional siyasət ölkənin bugünkü təhlükəsizliyi və müstəqil gələcəyi üçün ən mühüm təminat rolunu oynaya biləcək amildir.

Xarici siyasət konsepsiyasında həm də *ölkənin beynəlxalq təhlükəsizliyi ilə bağlı xarici siyasət fəaliyyətinin təşkili, onun əsas mexanizmləri, xarici siyasət ehtiyatlarının müəyyənləşdirilməsi və istifadəsi taktikası da* əksini tapır. Azərbaycanın xarici siyasət fəaliyyətinin əsasları, mexanizmləri, təşkili, bu fəaliyyətdə iştirak edən mərkəzi və yerli hakimiyyət orqanlarının, qeyri - dövlət aktorlarının səlahiyyətləri, rolu və s. ölkənin konstitusiyasına və digər qanunlarına daxil edilmişdir.[162]

Beynəlxalq təhlükəsizlik sahəsində ölkənin malik olduğu və istifadə etdiyi *əsas resurslar* (ehtiyatlar) anlayışına dövlətin maddi və mənəvi həyatının bütöv varlığı (güc amillərinin

[162] Daha ətraflı bax: Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s. 247- 263

cəmi) daxildir ki, beynəlxalq münasibətlər sistemində dövlət bu ehtiyatlara arxalanaraq öz təhlükəsizlik siyasətini yürüdür və bu sahədə məqsədyönlü fəaliyyəti həyata keçirir.

Xarici siyasət, o cümlədən təhlükəsizlik sahəsində istifadə olunan resursları tədqiqatçılar maddi və qeyri-maddi olmaqla iki qrupa ayırırlar.

Maddi resurslara:

- *coğrafi ehtiyatları* - dövlətin ərazisinin həcmini və geomәkan xarakteristikasını, hərbi-geostrateji mövqeyini, geoiqtisadi dəyərlərini, nəqliyyat kommunikasiyalarına yaxınlığını, bu ərazini əhatə edən xarici aləmin vəziyyətini;
- *demoqrafik ehtiyatları* - əhalinin sayını, milli-etnik tərkibini, artım sürətini, dövlətçilik mövqeyini, sosial vəziyyətini və keyfiyyət göstəricilərini, ölkənin miqrasiya və urbanizasiya meyillərini;
- *iqtisadi ehtiyatları* – ölkənin milli istehsal və təsərrüfat sistemlərinin vəziyyətini, başqa ölkələrdəki müvafiq sahələrlə müqayisədə iqtisadi üstünlüyünü və yaxud geriliyini, öz hərbi sənayesini təmin etmək qabiliyyətini, xarici ölkələrin iqtisadiyyatına təsir etmək imkanları və mexanizmlərini;
- *hərbi ehtiyatları* – ölkənin müdafiə qabiliyyəti və hərbi qüdrətini, sərhədləri xaricində güc tətbiq etmə imkanlarını və s. aid edirlər.

Qeyri-maddi ehtiyatlara:

- *siyasi ehtiyatları* – dövlətin səmərəli siyasi-idarəçilik fəaliyyətini, xarici ittifaqlarda iştirakını, dünya siyasətinə təsir gücü olan dövlətlərlə mövcud münasibətlərini, beynəlxalq siyasi, hüquq və təhlükəsizlik institut-

larında, təşkilatlarında iştirakını və yaxud onlarla əlaqələrini, qlobal və regional siyasətə təsir imkanlarını, səmərəli daxili və xarici siyasət mexanizmlərinə malik olmasını;

- *sosial ehtiyatları* – vətəndaşların daxili birliyinin vəziyyətini, yürüdülən xarici siyasətə münasibətini, dövlət maraqlarının qorunması naminə nümayiş etdirdiyi milli-vətəndaş iradəsini və əzmini;
- *nüfuz ehtiyatlarını* - dövlətin və onun siyasi liderinin beynəlxalq aləmdə təsdiq olunmuş nüfuzunu və onun dünya dövlətlərinin fəaliyyətinə təsir imkanlarını;
- *ideoloji-mədəni ehtiyatları* – başqa dövlətlərin ictimaiyyətinə göstərə biləcəyi intellektual, ideoloji və dini təsirini;
- *informasiya ehtiyatlarını* - qlobal informasiya məkanında iştirakını və ona təsir etmək, dünya informasiya axınını yönəltmək imkanlarını, müstəqil beynəlxalq informasiya ehtiyatlarına malik olmasını;
- *elmi, elmi-texniki və təhsil ehtiyatlarını* – intellektual potensialını və onun inkişaf perspektivlərini, öz iqtisadi, siyasi, hərbi və digər sahələrini ixtisaslı kadrlarla təmin etmək bacarığını və s. aid edirlər. [163]

Bəhs olunan milli resurslar beynəlxalq təhlükəsizliyin əsas məqsəd və vəzifələrinin yerinə yetirilməsinə həm müsbət, həm də mənfi təsir göstərə bilir.

Beynəlxalq münasibətlər və beynəlxalq təhlükəsizlik sisteminin formalaşması və inkişafının ayrı-ayrı dövrlərində ölkələrin xarici siyasət ehtiyatlarının oynadığı rol və onlara müva-

[163]См: Современные международные отношения и мировая политика. Москва, 2004, с.712-713

fiq olaraq formalaşan dövlətlərarası iyerarxik düzüm də dəyişkən olmuşdur. Bir mərhələdə ərazi, hərbi güc, təbii ehtiyatlar və əhalinin sayı mühüm amil kimi çıxış etmişsə, digər mərhələdə iqtisadi, elmi-texniki, informasiya və maliyyə axınına nəzarət daha böyük əhəmiyyət daşımışdır. Qloballaşmanın və transmilli siyasətin təsiri nəticəsində müasir dünya ölkələri xarici siyasət ehtiyatlarının əsas xəttini - təhlükəsizlik mühitinə daha çox təsir göstərən ənənəvi geniş ərazi və çoxsaylı hərbi qüvvəyə malik olmaq uğrunda mübarizələrini, hazırkı dövrdə daha çox transmilli maliyyə, intellektual, informasiya, nəqliyyat-kommunikasiya, enerji ehtiyatlarına və şəbəkələrinə malik olmaq sahəsinə yönəltmişlər.

Azərbaycanın *xarici siyasət və təhlükəsizlik resursları* əsasən respublikamız SSRİ tərkibində olarkən formalaşsa da, ondan müstəqil dövlət maraqlarının reallaşması istiqamətində istifadə edilməsi yalnız 1990-cı illərin əvvəllərində, müstəqilliyə qovuşduqdan sonra başlamışdır.

§ 4.3. Azərbaycanın geosiyasi kodu və geosiyasi fəaliyyət kodeksi

Hər bir müstəqil dövlət kimi Azərbaycanın da **əsas geosiyasi vəzifələrindən** biri *öz milli ərazisi (dövlətin məxsusi coğrafi məkanı) çərçivəsində vahid milli dövlət strukturunu, mərkəzləşmiş dövlət idarəçilik sistemini və suveren dövlət hakimiyyətini yaratmaq, möhkəmlətmək və daimiliyini təmin etməkdən ibarətdir.* Bundan başqa, Azərbaycan dövlətinin geosiyasi vəzifələri sırasına həm də *cəmiyyətin artan sosial-iqtisadi, mənəvi və s. tələbatının, ölkənin xarici və daxili təhlükəsizliyinin dolğun şəkildə təmin edilməsi, əhalinin təbii fəlakətlərdən qo-*

runması, ölkədə milli-vətəndaş həmrəyliyinin yaradılması, tolerantlığın inkişaf etdirilməsi və s. daxildir. Bütün bu vəzifələri həyata keçirmək üçün Azərbaycan onunla həmsərhəd olan qonşu ölkələrlə, qarşılıqlı münasibətlərdə fərqli mövqeyi ilə seçilən ayrı-ayrı beynəlxalq və regional aktorlarla təmasa girməli olur. Respublikanın geosiyasi maraqları bəzən qonşu dəvlətlərinki ilə toqquşa, kəsişə, yaxud üst-üstə düşə bilər. Lakin heç nədən asılı olmayaraq, hakimiyyəti təmsil edən rəsmi və qeyri-rəsmi struktur tarixən formalaşmış beynəlxalq normalara, regional ənənələrə və praktikaya, dərk olunmuş milli və ümumi maraqların qarşılıqlı tarazlığına əsaslanaraq xarici aktorlarla bu və ya digər geosiyasi münasibətlər qurmağa borcludur. Belə münasibətlər sistemi səviyyəsinə görə beynəlxalq, regional və yerli (lokal) olmaqla, hər bir dövlətin müəyyən **geosiyasi kodunu**[164] (statusunu) müəyyənləşdirir və müvafiq fəaliyyət kodeksinin (məcəlləsinin) yaradılmasını tələb edir.

Geosiyasi kod *ölkənin siyasi fəaliyyətindən, hakimiyyətdə olan rəhbərlərinin və əksər əhalisinin ətraf aləmə münasibətindən, geoməkan təsəvvüründən, dərk olunmuş və yaxud iddia olunan milli maraq, milli mənafe dairəsi və onun təmin olunması vasitələrindən, xarici aləmlə ünsiyyət zamanı ölkənin kəsb etdiyi maddi, mənəvi, hərbi, insani dəyərlərdən, xarici aləmdən yarana biləcək geosiyasi təhlükələrə reaksiyasından, müqavimət gücündən, malik olduğu hərbi-texniki vasitələrdən və s. keyfiyyət göstəricilərindən* asılı olaraq müəyyənləşir. Bö-

[164] Dövlətin geosiyasi kodu deyəndə, ilk növbədə onun beynəlxalq aləmdə və regionda qazandığı qeyri-rəsmi status və imicdən söhbət gedir. Hazırda dünyada müxtəlif geosiyasi kod daşıyıcıları - fövqəldövlət, aparıcı ölkə, regional lider, adi dövlət, geosiyasi cəhətdən əhəmiyyətli dövlət, militarist, demokratik, millətçi-şovinist, kosmopolit, işğalçı, sülhsevər və s. statuslu ölkələr mövcuddur.

yüklüyündən və kiçikliyindən asılı olmayaraq, hər bir dövlətin ya tarixən formalaşmış, zaman-zaman ətraf aləmin təsiri ilə dəyişikliklərə məruz qalmış, ya da yeni yaradılmış geosiyasi kodu və buna müvafiq olaraq, xarici aləmlə geosiyasi davranış kodeksi mövcud olur.

Tədqiqatçılar fəaliyyət səviyyəsinə görə, ölkələrin geosiyasi fəaliyyət kodeksini - *yerli, regional və planetar olmaqla,* üç qrupa ayırırlar:

- yerli səviyyəli kodekslər - həmsərhəd ölkələrin geosiyasi statusu, davranışı, bəyan etdiyi, yaxud fəaliyyətindən yaranan, müşahidə olunan geosiyasi məqsəd və vəzifələrinin qiymətləndirilməsi və ona müvafiq addımların atılması haqqında dövlətlərin hazırladığı ümumi xarakterli geosiyasi tövsiyələr toplusudur. Belə kodekslər hər bir ölkənin dövlət və hökumət, müvafiq xarici siyasət, hərbi, təhlükəsizlik, sərhəd və digər strukturlarının rəhbər fəaliyyətlərinin əsasını təşkil edir.
- regional fəaliyyət kodeksləri - öz geosiyasi təsirini təkcə həmsərhəd dövlətlərin deyil, həm də regionun digər ölkələrinin ərazisində yaymaq istəyən regional lider və yaxud belə statusa can atan digər dövlətlərin geosiyasi istəyinə uyğun olaraq yaradılan tövsiyələr toplusudur.
- nəhayət, planetar geosiyasi fəaliyyət kodeksləri o ölkələrdə (məsələn, bu sıraya dünyanın atom silahına malik olan ölkələrini aid etmək olar) yaradılır ki, onlar bütün dünyada geosiyasi maraqlarını təmin etmək gücünə malikdir, beynəlxalq aləmin əksər hadisələrinə fəal müdaxilə edə bilir və planetin istənilən guşəsində geosiyasi fəaliyyətlərini təmin etməyə çalışırlar.

Əlbəttə, hər bir ölkə özünün iqtisadi, siyasi və sosial vəziyyətindən, dövləti idarə edənlərin dünyagörüşü və xarakterindən, əhalinin ətraf aləmə baxışları və münasibətindən çıxış edərək, yerli, regional və beynəlxalq geosiyasi münasibətlərdən, qonşu ölkələrin geosiyasətindən və mövcud məkanda nümayiş etdirdiyi davranışlardan və s. asılı olaraq, özünün məxsusi geosiyasi vəzifələrini müəyyənləşdirir, fəaliyyət kodeksini hazırlayır və onun əsasında da yaxın və uzaq xarici aktorlarla geosiyasi əlaqələr yaradır.

Xəzər hövzəsi və Cənubi Qafqaz r*egionunda mövcud olan irili-xırdalı bütün milli dövlətlərlə və dünyanın qarşılıqlı maraq kəsb edən digər ölkələri ilə tarazlaşdırılmış, xüsusi ölçülüb-biçilmiş geosiyasi, geoiqtisadi və geostrateji əlaqələrin qurulması, kəsişən və üst-üstə düşən regional və beynəlxalq maraqlar sisteminin təhlil olunaraq gündəlik xarici siyasət fəaliyyətində nəzərə alınması ehtiyacı müstəqil Azərbaycan Respublikasının da məxsusi* geosiyasi kodunun müəyyənləşdirilməsi və müvafiq olaraq ölkənin ətraf aləmlə geosiyasi münasibətlərinin, fəaliyyət proqramının hazırlanması vəzifəsini ortaya qoymuşdur.[165]

Azərbaycanın geosiyasi ərazisi Şərqlə Qərbin, Avropa ilə Asiyanın birləşdiyi, islam sivilizasiyasının sərhədlərinin bitdiyi və xristianlığın sərhədlərinin başlandığı mədəni-mənəvi təmas məkanıdır. Bundan başqa, onun ərazisi dünyanın ən əhəmiyyətli geoməkanlarından biri hesab olunur, mühüm nəqliyyat-kommunikasiya dəhlizlərinin kəsişmə nöqtəsində yerləşir və zəngin karbohidrogen ehtiyatlarına malikdir. Əsasən müsəlman əhalisinə malik olan, Şərq və Qərb dəyərlərini özündə birləşdi-

[165] Daha ətraflı bax: Həsənov Ə.M. Azərbaycanın Geosiyasəti. Bakı, 2015, s.120-197.

rən ölkə dünyəvi həyat tərzinə malikdir. Hər bir digər ölkə kimi, geosiyasi statusuna müvafiq olaraq yerli, regional, beynəlxalq maraq çərçivəsini və dairələrini, geosiyasətinin məqsəd və vəzifələrini müəyyənləşdirmək, həmsərhəd ölkələrlə münasibətlərinin xarakterinə uyğun olaraq taktikasını, məxsusi geosiyasi fəaliyyət kodeksini hazırlamaq Azərbaycanın da xarici siyasət, milli təhlükəsizlik və müdafiə qurumlarının vacib vəzifələri sırasına daxildir.

Azərbaycanın geosiyasi kodunun müəyyən olunması onun ərazisinin geosiyasi xarakteristikası, yerləşmə coğrafiyası və əhatəsi (onu əhatə edən xarici aləm) ilə bilavasitə bağlıdır. Geosiyasi anlamda dövlətin ərazisi və əhalisi onun bədəni hesab olunursa, geosiyasi kodu bədənin xarici mühafizəsinin, təhlükəsizliyinin və ətraf aləmlə təmaslarının məqsədyönlü şəkildə hazırlanmış geyimi (qorunma və təhlükəsizliyi planlama proqramı) sayılır.

Geosiyasi, geoiqtisadi və hərbi-geostrateji xarakteristikasına görə, Azərbaycan Gürcüstanla birgə dünyanın mühüm geostrateji məkanlarından biri hesab olunan Qara və Xəzər dənizləri arasındakı beynəlxalq əhəmiyyətli kontinental tranzit-keçid ərazidə yerləşir. Hazırda təxminən ərazisinin 20%-i Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycanın əsas geosiyasi vəzifəsi öz ərazi bütövlüyünü və bu ərazilər üzərində suveren dövlət idarəçiliyini bərpa etməkdən ibarətdir.

Azərbaycan ərazisi, əhalisi və inkişaf perspektivlərinə görə Cənubi Qafqazın ən böyük potensiala malik ölkəsi hesab olunur. Geosiyasi kodunun yaradılması zamanı onun daxili coğrafi və əhali xarakteristikasına söykənən bir çox üstünlükləri mütləq şəkildə nəzərə alınmalıdır. Ölkənin üstün coğrafi və ərazi xarakteristikasına, ilk növbədə, təbii və əmək ehtiyatları-

nın vəziyyətini, zəngin enerji qaynaqlarına malik olmasını, torpaqlarının məhsuldarlığını, sərvətlərdən istifadə olunması vəziyyətini, habelə ölkənin iqlim xüsusiyyətlərini, flora-faunasını və ekoloji ehtiyaclarını aid etmək olar.

Bundan başqa, Azərbaycanın həm də üstün əhali xarakteristikasını - əhalinin təbii artımını, işgüzarlığını, məşğuliyyətini, sıxlığını, bölgələrdə məskunlaşma xüsusiyyətlərini, milli-etnik tərkibini, vətəndaşların dövlətçilik mövqeyini, ölkənin demoqrafik göstəricilərini, miqrasiya, yerdəyişmə prosesləri və onların idarə edilməsi kimi məsələləri də nəzərdən qaçırmaq olmaz.

Geosiyasi təhlükəsizliyin təmin olunmasında məkanların hərbi təhlükəsizliyi ilə yanaşı, hər bir ölkənin iqtisadi-siyasi qüdrətinə, enerji, əmək, texnologiya, innovasiya, informasiya və insan ehtiyatlarının potensialına və inkişafına xüsusi önəm verildiyi müasir dünyada həmin dövlətlərlə, Azərbaycan kimi ölkələr əksər qlobal çağırışlara operativ və adekvat münasibət göstərməli, yerləşdiyi məkanda öz geosiyasi statusunu və müvafiq fəaliyyət taktikasını düzgün müəyyənləşdirməlidir.

Bütün qeyd edilən geosiyasi ölçü meyarları ilə yanaşı, hər bir dövlətin, o cümlədən Azərbaycanın geosiyasi vəziyyətinin müəyyənləşdirilməsində və kodunun hazırlanmasında ən önəmli və həlledici amillərdən biri də **ölkənin geosiyasi əhatəsi** hesab olunur. Azərbaycanın geosiyasi əhatəsində yerləşən və fərqli geosiyasi maraqları, xarakterləri, vəzifələri və fəaliyyətləri ilə seçilən bölgə ölkələrinin sayı 7-dir. Ölkənin həmin dövlətlərlə geosiyasi, geoiqtisadi və hərbi-geostrateji təmas nöqtəsi hesab olunan quru və dəniz sərhədləri mövcuddur. Bunlardan Rusiya, İran, Türkiyə, Gürcüstan və Ermənistan ilə Azərbaycanı quru, Türkmənistan, Qazaxıstan, Rusiya və İranla

isə həm də dəniz sərhədləri birləşdirir.[166] Ölkənin geosiyasi kodunun əsasını da məhz bu dövlətlərlə sərhəd və sərhədboyu ərazilərin xarakteristikası, ərazidaxili əhali göstəriciləri, eyni zamanda ətraf ölkələrin geosiyasi fəaliyyətinin xüsusiyyətləri təşkil edir. Bu mənada, Azərbaycanın geosiyasi kodunun müəyyənləşməsinə təsir göstərən əsas regional və yerli amillər aşağıdakılar hesab oluna bilər:

- Rusiya, Türkiyə və İran kimi iddialı, regional lider statuslu ölkələrlə quru və dəniz sərhədlərinə malik olması və ondan irəli gələn geosiyasi, geoiqtisadi, hərbi-geostrateji və sərhəd-keçid təhlükəsizliyi məsələləri, sərhədboyu yaşayış məskənlərində yaşayan əhaliyə həmin dövlətlərin siyasi, informasiya, dini və s. təsirindən yaranan problemlər;
- Xəzər dənizi vasitəsilə Rusiya, İran və Orta Asiya ölkələri ilə, quru məkanda isə tamamilə fərqli geosiyasi statusa, davranışa, geoiqtisadi, hərbi-geostrateji maraq və mənafeyə malik, Azərbaycana və onun bölgədə reallaşdırdığı transmilli layihələrə fərqli münasibəti ilə seçilən Türkiyə, Gürcüstan və Ermənistan kimi ölkələrlə həmsərhəd olması;
- əhəmiyyətli geosiyasi əraziyə - geosiyasi anlamda "açar məkan" və tranzit-keçid xarakteristikasına malik olması və əksər transmilli aktorların diqqət mərkəzinə çıxması;
- fərqli hərbi-geostrateji blokların sərhədlərində, təhlükəsizlik baxımından həssas regionda yerləşməsi və əhə-

[166] Bu haqda daha ətraflı materialla kitabın sərhəd təhlükəsizliyinə həsr olunmuş bölməsində tanış olmaq olar.

miyyətli strateji ərazi xarakteristikasına - xüsusi hərbi-strateji və coğrafi məkana malik olması;

- zəngin geoiqtisadi, hərbi-geostrateji potensiala (karbohidrogen ehtiyatlarına və İran, Orta Asiya, Rusiya və Cənubi Qafqazın hərbi-geostrateji təhlükəsizliyinə təsir gücünə) malik olan Xəzər dənizi hövzəsində əhəmiyyətli coğrafi mövqedə yerləşməsi;
- regionun və dünyanın geoiqtisadi əlaqələrində istifadə olunan enerji və nəqliyyat dəhlizlərinin mərkəzi hissəsində yerləşməsi və üstün nəqliyyat infrastrukturlarına, inkişaf etmiş kommunikasiyalara malik olması;
- torpaqlarını işğal edən və bundan sonra da ona daim ərazi ekspansiyası təhlükəsi törədən Ermənistan kimi işğalçı dövlətlə həmsərhəd olması;
- ölkənin ərazi bütövlüyünü, geosiyasi uğurlarını, milli inkişafını, demokratik dövlət quruculuğu və ondan irəli gələn bütün rəsmi fəaliyyətini açıq və yaxud gizli şəkildə təhdid edən digər geosiyasi aktorlarla qonşuluğu və s.

Bu amillərin hər biri müəyyən məqamlarda Azərbaycana geosiyasi üstünlüklər qazandırsa da, əksər hallarda ciddi problemlər yaradır və milli təhlükəsizlik sahəsində ona əlavə qayğılar gətirir. Bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da ölkənin geosiyasi vəziyyəti və statusu ilə bağlı məsələlər, yaxın, uzaq geosiyasi ortam, yaxın ətraf və s. davamlı şəkildə öyrənilməli, gündəlik fəaliyyətdə nəzərə alınmalı, yürüdülən rəsmi xarici və daxili siyasət, həyata keçirilən geosiyasi fəaliyyət səbatlı olmalıdır.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanda dünyanın və region ölkələrinin geosiyasi, geoiqtisadi, millimənəvi, ekoloji, informasiya və s. maraqlar sisteminin öyrənil-

məsi və təmin olunması, xarici dövlətlərlə, geosiyasi aktorlarla münasibətlərinin strategiya və taktikasının müəyyənləşdirilməsi və həyata keçirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Lakin yerləşdiyi Avrasiya məkanının yerli, regional və beynəlxalq əhəmiyyətli hadisələrinin dinamik xarakteri ölkənin geosiyasi kodu və fəaliyyət kodeksi üzərindəki analitik və praktik işin mütəmadi şəkildə aparılmasını tələb edir. Çünki bu iş ölkənin **geosiyasi vəziyyəti və geosiyasi təhlükəsizliyi** ilə bilavasitə bağlıdır və dövlətin əsas milli vəzifələrindən hesab olunur. Mütəxəssislər hesab edir ki, geosiyasi kodun yaradılması və fəaliyyət kodeksinin hazırlanması ilə bağlı həyata keçirilən milli siyasətin uğuru, ilk növbədə, geniş elmi-siyasi təhlil əsasında bütün həmsərhəd ölkələrin, dünya güclərinin Cənubi Qafqaz və Xəzər hövzəsində üst-üstə düşən, kəsişən və müvafiq ölkənin nöqteyi-nəzərindən dəyərləndirilən geosiyasi, geoiqtisadi və geostrateji maraqlar sisteminin təhlil olunması və qiymətləndirilməsindən asılıdır.

Azərbaycanın ətraf aləmlə mövcud geosiyasi əlaqələrinin, məkan təmaslarının taktikasının müəyyən olunması, bölgədəki və dünyadakı potensial tərəfdaşlar və rəqiblərin düzgün qiymətləndirilməsi, onların təsir və müdaxilə imkanlarının, bu işdə istifadə edə biləcəyi geosiyasi ehtiyatların və mexanizmlərin obyektiv dəyərləndirilməsi və nəhayət, ölkənin **geosiyasi fəaliyyət konsepsiyasının və proqramının** yaradılması təhlükəsizlik və xarici siyasət fəaliyyəti ilə məşğul olan müvafiq dövlət qurumları qarşısında mühüm vəzifələr qoyur.

V FƏSİL
XƏZƏR-QARA DƏNİZ HÖVZƏSİ VƏ CƏNUBİ QAFQAZ BÖLGƏSİNİN HƏRBİ-GEOSTRATEJİ MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCANIN REGİONAL TƏHLÜKƏSİZLİK SİYASƏTİ

§ 5.1. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik mühiti: regional bloklaşma reallıqları və proqnozları, hərbi-geostrateji güclərin təsnifatı

Avrasiyanın "strateji planetar məkan" kodu daşıyan və mühüm geosiyasi əhəmiyyətə malik olan ərazilərindən biri də Qərb və Şərq əlaqələrində körpü rolunu oynayan Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdır. SSRİ-nin süqutuna qədər bölgənin geosiyasi həyatı tam sabit idi və bu məkanda hər hansı bir dövlətlərarası gərginlik müşahidə olunmurdu. Bunun əsas səbəbi o idi ki, region tam olaraq Sovet İttifaqının təsiri altında idi və Şimali Atlantika Blokunun bu məkanda Türkiyə vasitəsilə öz maraqlarını reallaşdırmağa çalışması heç bir ciddi effekt vermirdi. Həmin dövrdə öz regional siyasətində SSRİ ilə gərginlik yaratmamaq və onunla razılaşdırılmış siyasət yürütməyə üstünlük verən Çin, İran və s. kimi böyük dünya və region ölkələri də Avrasiyanın bu bölgəsində ciddi və müstəqil aktor kimi çıxış etmirdilər.

Sovet İttifaqının süqutundan sonra bölgənin həm geosiyasi, həm də təhlükəsizlik mühitinin xarakteri və meyilləri köklü şəkildə dəyişdi. SSRİ-nin varisi kimi çıxış edən Rusiya artıq bölgədə öz qarşısında dünyanın ABŞ, NATO, Türkiyə və s. kimi rəqib geosiyasi aktorlarını görməyə başladı. Bununla yanaşı, müstəqillik əldə etmiş və beynəlxalq hüququn subyektinə çevrilmiş yeni müstəqil dövlətlər də bölgədə öz milli təhlükəsizlik maraqları çərçivəsində alternativ geosiyasi meyillər nümayiş etdirməyə və siyasət yürütməyə başladılar. Bütün bunlar, müvafiq olaraq, regionun geostrateji münasibətlərini mürəkkəbləşdirdi və beynəlxalq əhəmiyyətini bir qədər də artırdı.

SSRİ-nin dağılmasından sonra bu regionun təhlükəsizlik mühiti tamamilə dəyişdi, yerli hərbi-geostrateji mühitə təsir edən regional və beynəlxalq aktorlararası münasibətlər ciddi kəskinləşdi. Bölgənin böyük ölkələri (Rusiya, Türkiyə, İran), regiondan kənar aparıcı dövlətlər (ABŞ, Avropa Birliyi ölkələri, Çin və s.), regionun digər ölkələri (Ukrayna, Azərbaycan, Gürcüstan, Ermənistan və s), transmilli geosiyasi, geoiqtisadi və hərbi-geostrateji aktorlar (BMT, ATƏT, Avropa İttifaqı, NATO, KTMT, MDB, İKT, TDB, transmilli neft-qaz, nəqliyyat, rabitə şirkətləri və s.) arasında məxsusi və kollektiv maraqlar çərçivəsində yeni münasibətlər formalaşmağa başladı.

Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın Orta Asiya ilə birlikdə əsas geosiyasi əhəmiyyəti son illərdə mütəxəssislər tərəfindən ilk növbədə üç əsas faktorla dəyərləndirilir:

- *birinci,* bölgənin Şərq-Qərb və Şimal-Cənub əlaqələrində bağlayıcı məkan rolunu icra etməsi və mühüm su, quru, hava və dəmir yolları qovşağında yerləşməsi;

- *ikinci,* dünyanın artan enerji tələbatı qarşısında zəngin karbohidrogen ehtiyatlara malik olması;
- *üçüncü,* fərqli sivilizasiyaların və keçmişdə bir-birinə rəqib olan geosiyasi blokların təmas xəttində yerləşməsi.

Bölgənin qeyd olunan transmilli üstünlükləri və cəlbedici xarakteristikası ilə yanaşı, onun yerli geosiyasi vəziyyətini şərtləndirən bir neçə digər amillər də mütəxəssislərin diqqətini cəlb edir. Bu amillərdən b*irincisi,* region ölkələrinin maraqlarından və daxili mühitindən qaynaqlanan, yerli xalqlar və icmalar, onların milli mənafelərinin təminatından doğan beynəlxalq və regional münasibətlər hesab olunur.

Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazı əhatə edən əsas həlledici mübahisələr, mütəxəssislərin fikrinə görə: *region ölkələrinin ərazi bütövlüyü və bəzi dövlətlərin ərazi iddiaları, Xəzər hövzəsinin enerji resursları, neft-qaz ixracı marşrutları və təhlükəsizlik mexanizmlərinə sahib olmaq, Şərq-Qərb nəqliyyat-kommunikasiya və tranzit infrastrukturlarına, region ölkələrinin transmilli siyasi, iqtisadi və hərbi bloklarla münasibətinə təsir etmək istəyi və s.* məsələlər ətrafında cərəyan edir.

Bununla yanaşı, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz Orta Asiya ilə birlikdə özünün beynəlxalq dəyəri, zəngin və əhəmiyyətli geosiyasi, geoiqtisadi və geostrateji resursları ilə yanaşı, həm də müxtəlif yerli *xalqların yaşadığı konkret sivilizasiya meydanı, milli-etnik yaşayış məskəni və coğrafi məkandır.* Hər bir ölkə bölgədə milli maraqlarını təmin etmək məqsədi ilə özünün xarici siyasətini aparır, başqa dövlətlərlə siyasi, iqtisadi, hərbi, mədəni bloklar yaradır, transmilli və regional inteqrasiya proseslərində iştirak edir. Təbii ki, ölkələrin bəzən bir-biri ilə və regionda marağı olan digər dövlətlərlə geosiyasi, hərbi-strateji və geoiqtisadi maraqları toqqu-

şur, dövlətlərarası münaqişələr yaranır ki, bu da nəticə etibarı ilə regionda qruplaşmalara, qarşıdurma və bloklaşmalara rəvac verir.

Bundan başqa, region ölkələrinin beynəlxalq aləmdə baş verən hadisələrə yanaşmaları, öz ölkələri daxilində cərəyan edən qlobal inkişafın yeni çağırışlarına - siyasi plüralizm və vətəndaş cəmiyyəti quruculuğu, iqtisadiyyatın modernləşdirilməsi və liberallaşması, bazar iqtisadiyyatı, azad rəqabət və s. kimi məsələlərə münasibəti bir-birindən fərqlidir. Bu fərqlər də müvafiq olaraq həm bölgənin ümumi geosiyasi vəziyyətinə, həm də ölkələrarası münasibətlərə öz təsirini göstərməkdədir.

Hazırda bir qrup dünya və region ölkəsi bölgədə daha çox Rusiyayönlü siyasət yürüdərək, Qərbin yerli ölkələrlə inteqrasiyasını əngəlləməyə çalışır. Digər qrup ölkə isə iqtisadi, siyasi və hərbi təhlükəsizlik sahəsində daha çox Qərblə inteqrasiyaya üstünlük verərək, öz mənafelərini onunla uzlaşdırmağa çalışır. NATO və onun genişlənməsində, KTMT-nin bölgədəki hərbi-geostrateji planlarında iştirak etmək, Avropa İttifaqı, yaxud Avrasiya İttifaqı ilə dərinləşmiş inteqrasiyaya girmək və s. kimi regional transmilli təşəbbüslərə yanaşmadakı fərqlərə görə yerli ölkələrin bir-biri və beynəlxalq aləmlə geosiyasi münasibətləri formalaşır.

Bölgənin ayrı-ayrı ərazilərində, məsələn, Qara dəniz, yaxud Xəzər dənizi hövzəsində geosiyasi mübarizə daha çox nəqliyyat-kommunikasiya xətləri, ixrac marşrutları, yerli ölkələrin və transmilli infrastrukturların təhlükəsizliyi üzərində qurulubsa, Orta Asiya və Xəzər ətrafında, əksinə, enerji resursları, hərbi-geostrateji yüklü məsələlər, yerli ölkələri təsir dairəsində saxlamaq və onların ərazi bütövlüyü problemi ilə manevr etmək istqamətində aparılır. Bölgənin geosiyasi maraqlar mübarizəsi müstəvisində hər ölkənin öz məxsusi mənafeləri və

müvafiq iddiası var. Regionun mövcud qüvvələr balansı, yerli ölkələr arasındakı münasibətlər və bölgənin sabitliyi kimi həyati məsələlər, əsasən, bəhs olunan aktorlararası münasibətlərdən asılıdır.

Həm regional müstəvidə çıxış edən ölkələr, həm də müxtəlif hərbi-geostrateji bloklar istər kollektiv, istərsə də ayrılıqda yerli ölkələrlə geosiyasi, hərbi-geostrateji xarakterli münasibətlər yaradaraq öz milli maraqlarını təmin etmək, regional təhlükəsizlik sistemlərini genişləndirmək və s. istiqamətində fəaliyyət göstərirlər. Bölgədə yerli ölkələri öz tərəfinə çəkməklə regional alyanslar formalaşdırmağı, onları siyasi, iqtisadi və hərbi cəhətdən dəstəkləməyi, məxsusi siyasi və iqtisadi dayaqlarını yaratmağı, ideoloji, mədəni, informasiya fəaliyyətini gücləndirməyi, bəzi etnik münaqişələri və separatçı meyilləri qızışdırmağı, digər geosiyasi hədəflərini müəyyənləşdirməyi həm bloklar, həm də böyük ölkələr öz regional və beynəlxalq təhlükəsizliyinin təmin edilməsi maraqları ilə əlaqələndirməyə çalışırlar. Lakin XX əsrin sonlarından etibarən dünyada geosiyasi vəziyyət elə sürətlə dəyişir ki, dövlətlər öz dayaq və hədəflərində ardıcıl olaraq çevik dəyişikliklər etmək məcburiyyətində qalırlar. Bəzi ölkələrin cəmi bir neçə il ərzində tamamilə fərqli prinsip və maraqlar əsasında yaradılmış təşkilatlarda təmsil olunması, mütəmadi olaraq öz xarici siyasi kursunu, prioritetlərini və hədəflərini dəyişməsi artıq adi hal almışdır.

Avrasiyanın mürəkkəb və kövrək geosiyasi mühiti bölgədə fəaliyyət göstərən beynəlxalq və regional təşkilatların taktika və strategiyasına da ciddi təsir göstərir və bəzi geosiyasi məsələlər üzrə onların mövqelərinin dəyişməsinə səbəb olur. Məsələn, Rusiya və Çinin hakim olduğu Şanxay Əməkdaşlıq Təşkilatı Avrasiyada hərbi-strateji maraqlarla bağlı 2005-ci ilədək ABŞ-ın Orta Asiyadakı hərbi bazalarının mövcudluğuna

mülayim və anlaşıqlı yanaşırdısa, 2005-ci ildən sonra, öz mövqelərini tam dəyişmiş, sərtləşdirmiş və bunun tam əksinə çıxış etməyə başlamışlar. ABŞ-ın Orta Asiyadakı hərbi bazalarının fəaliyyətinə son qoyulması hal-hazırda bu təşkilatın birmənalı mövqeyi kimi elan edilir.

Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda təhlükəsizlik ölçüləri ilə bağlı bəzi məsələlər üzrə bölgənin kiçik və böyük dövlətlərinin milli maraqları ilə transmilli beynəlxalq maraqlar üst-üstə düşsə də, digər məsələlərdə mənafelər ciddi surətdə toqquşur. Bölgədə müasir transmilli maraqların daşıyıcısı rolunda ABŞ, Avropa İttifaqı dövlətləri və hərbi-geostrateji anlamda onları təmsil edən NATO, ayrıca Çin, Yaponiya kimi böyük və inkişaf etmiş dünya ölkələri, onları təmsil edən qlobal korporasiyalar çıxış edir. Regionun geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının əsas daşıyıcısı qismində isə Rusiya, Türkiyə, İran, Ukrayna, Belarus, Azərbaycan, Özbəkistan, Qazaxıstan və Gürcüstan kimi müstəqil ölkələr çıxış edirlər.

Cənubi Qafqaz və Xəzər hövzəsi dövlətlərinin xarici və təhlükəsizlik siyasəti, ilk növbədə, beynəlxalq güclərin, böyük ölkələrin fərqli məqsədlərlə, yollarla və vasitələrlə regiona müdaxiləsinə və bu məkanda nümayiş etdirdikləri hərbi-geostrateji maraqlara reaksiyadan irəli gəlir. Bölgənin təhlükəsizlik mühitinə təsir göstərən belə güc mərkəzləri sırasına, əsasən, ABŞ-NATO-Avropa İttifaqı, Rusiya, MDB və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT), ayrılıqda İran və Türkiyəni və s. geosiyasi aktorları aid etmək olar. Bu mərkəzlər həm də bütövlükdə bölgənin geosiyasi mühitinin və regional təhlükəsizlik arxitekturasının əsas xarakteristikasını müəyyənləşdirir, ölkələrarası geosiyasi, geoiqtisadi və hərbi-geostrateji bloklaşmaya təkan verirlər.

Mütəxəssislərin fikrincə, Cənubi Qafqazın və Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizlik mühitinin vəziyyəti və dayanıqlılığı, region ölkələrinin beynəlxalq və milli təhlükəsizlik maraqlarının təminatı və s. kimi məsələlər hazırda, əsasən, bölgənin aparıcı ölkəsi olan Rusiyadan, Cənubi Qafqaz və Xəzər hövzəsində qismən həm də Türkiyə və İrandan, eyni zamanda bölgədənkənar ABŞ, Avropa İttifaqı və NATO-dan asılıdır. Bölgənin bütün məsələləri üzrə cərəyan edən hadisələr bu ölkələrin və blokların iqtisadi, siyasi, hərbi maraqlarından qaynaqlanır.

Bir çox tədqiqatçılar Rusiyanın bölgədəki mövqeyini və maraqlarını İran və Ermənistanla eyni blokda təsnif edərək, onları bölgənin əsas hərbi-geostrateji qruplaşmalarından birincisinə, ABŞ, Avropa İttifaqı, NATO və onların bölgədəki tərəfdaşı kimi təqdim edilən Türkiyə, Azərbaycan, Gürcüstan və Ukraynanı isə ikinci hərbi-geostrateji qrupa - təhlükəsizlik xəttinə aid edirlər. Başqa bir qrup tədqiqatçı isə Xəzər-Qara dəniz hövzəsi və Qafqazda bir-birindən asılı və bir-biri ilə əlaqəli olan üç təhlükəsizlik xəttini – Rusiya, İran, NATO-nu fərqləndirir. Bu üç xəttin bir-biri ilə kəsişməsi, onların fikrinə görə, bölgədəki qeyri-sabitliyin və ziddiyyətli təhlükəsizlik mühitinin əsasında dayanır. Bu ziddiyət həm də regional münaqişəyə cəlb olunmuş Azərbaycan-Ermənistan münasibətlərinin "nə daimi sülh, nə də müharibə şəraiti"ndə davam etməsinə şərait yaradır, onların bir-birinə qarşı sürətlə silahlanmasına təkan verir, Dağlıq Qarabağ ətrafındakı sülhyaratma prosesini nəticəsiz edir, münaqişəyə beynəlxalq müdaxilələri gündəmə gətirir. Eyni regional kəsişmə, hazırda Gürcüstanı da zəif və qeyri-sabit vəziyyətdən çıxmağa imkan vermir.[167]

[167]Bax: Greg Hansen, Humanitarian Action in the Caucasus: A Guide for the Practitioners // The Thomas J. Watson Jr. Institute for International Studies, Brown University, USA, P.396/

Lakin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik mühitinə bilavasitə və ciddi təsir göstərən digər amillər də mövcuddur. Bu amillər öz milli təhlükəsizliyini təmin etmək məqsədi ilə həm NATO və Qərblə, həm də Rusiya və KTMT ilə müəyyən məsafə saxlayan, yuxarıda adıçəkilən bütün "təsir qüvvələri" ilə tərəfdaşlıq və əməkdaşlıq meyili nümayiş etdirən *Azərbaycan,* bölgədə Rusiyaya, dünya erməni diasporasına söykənərək Cənubi Qafqazda açıq işğalçılıq siyasəti yürüdən *Ermənistan,* son zamanlar birmənalı şəkildə üzünü Rusiyadan Qərbə və NATO-ya çevirmiş *Gürcüstan və Ukrayna ilə* bağlıdır.

Cənubi Qafqazın və Xəzər-Qara dəniz hövzəsinin təhlükəsizlik mühitinin *növbəti həlledici amili* yuxarıda adı keçən təsir dairələri və hərbi-geostrateji blokların bir-biri ilə münasibətləri, ilk növbədə isə ABŞ-Rusiya, NATO-KTMT münasibətlərinin xarakteri ilə bağlıdır. Bu müstəvidə tərəflərin ortaya qoyduğu açıq və gizli hərbi-geostrateji maraqlarla yanaşı, həmin bloklarla birbaşa və açıq formada bağlı olan müəyyən ölkələrin yürütdüyü hərbi-geostrateji siyasət də həlledici rol oynayır. Bölgədə hər hansı bir ölkənin yürütdüyü istənilən təhlükəsizlik siyasəti, hərbi-strateji sahədə atdığı addım, yaxud nümayiş etdirdiyi geosiyasi mövqe dərhal qarşı tərəfin analoji reaksiyasını doğurur.

Əlbəttə, şübhə yoxdur ki, dünya siyasəti və beynəlxalq təhlükəsizlik sahəsində Rusiya - ABŞ rəqabəti mövcuddur və bu rəqabət müvafiq olaraq həm də Avrasiyanın, xüsusən Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik mühitinə öz təsirini göstərir. Bölgədə İran və Ermənistanı Rusiya ilə, Azərbaycan, Türkiyə, Ukrayna və Gürcüstanı isə ABŞ-la "geosiyasi tərəzinin" bir gözünə qoyan, onların gələcək hərbi-strateji bloklaşmasını proqnozlaşdıran siyasətçü-

nasların da öz əsaslı dəlilləri vardır. Xüsusən, son illərdə Rusiya-Gürcüstan və Rusiya-Ukrayna münaqişəsinin güclənməsi və açıq silahlı qarşıdurmaya keçməsi, Ukraynanın regional proseslərdə nümayiş etdirdiyi açıq qərbyönümlü mövqe, Rusiya-Ermənistan hərbi müttəfiqlik müqaviləsinin 2010-cu ildə daha 49 il müddətinə uzadılması və iki ölkə arasında hərbi müttəfiqliyin möhkəmləndirilməsi kimi regional hadisələr siyasətşünaslara bəhs olunan "geosiyasi bloklaşma" ilə bağlı inandırıcı fikir söyləməyə kifayət qədər əsas verir. Əlbəttə, Rusiya, İran, Ermənistan kimi ölkələrin Cənubi Qafqazdakı geostrateji və hərbi-təhlükəsizlik maraqlarında üst-üstə düşən kifayət qədər ortaq nöqtələr müşahidə olunur ki, onları inkar etmək mümkün deyil. Lakin onların, xüsusən, İranın Rusiya ilə üst-üstə düşməyən və ciddi regional rəqabət yaradan məxsusi geomaraqlarını da nəzərdən qaçırmaq olmaz.

Eyni sözü digər qrup - Qərbin son zamanlara qədər ciddi dəstək verdiyi Türkiyə-Azərbaycan-Gürcüstan-Ukrayna (bəzən Moldova və Özbəkistanı da bu sıraya aid edirlər - Ə.H.) geosiyasi birliyi haqqında da söyləmək olar. Həmin ölkələrin də üst-üstə düşən kifayət qədər ortaq maraqları mövcuddur. Lakin bu maraqların və oxşar geostrateji təhlükəsizlik mənafelərinin onları nə zamansa həqiqi strateji tərəfdaşlığa, yaxud hərbi müttəfiqliyə sövq edəcəyinə, hansısa ciddi təşkilatlanmaya səbəb olacağına heç bir real əsas yoxdur. Bunu Ukraynanın siyasi həyatında və hərbi təhlükəsizliyi sahəsində baş vermiş son dövr hadisələri də sübut edir. Düzdür, məsələn, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu kimi transavrasiya layihələrinin təhlükəsizliyinin təmin edilməsi qərb ölkələrinin, Azərbaycan, Gürcüstan və Türkiyənin strateji müttəfiqliyini şərtləndirən əsas amillərdən birinə çevrilmişdir. Bununla yanaşı, Kiyevin Xəzər neftinin

Odessa-Brodı-Qdansk kəməri vasitəsi ilə Avropa bazarlarına çıxarılması üçün göstərdiyi səylər Ukraynanın qlobal enerji layihələrində aparıcı mövqe tutmağa iddialı olduğunu və Türkiyə ilə bu istiqamətdə rəqib olduğunu göstərir.

Hazırda *bölgənin alternativ enerji, nəqliyyat-kommunikasiya və digər transmilli layihələrin təhlükəsizliyinin təmin edilməsi* regional təhlükəsizliyin ümumi problemlərinin ən həssas məsələsi hesab oluna bilər. Burada bütün məsələlər təkcə region ölkələrinin mövqeyindən deyil, həm də ABŞ-ın nümayiş etdirəcəyi geosiyasi fəaliyyətdən asılı olacaqdır. Bu ölkə, mütəxəssislərin fikrinə görə, gələcəkdə dünyada öz milli maraqlarını və NATO-nun hərbi mənafelərini təmin etməklə yanaşı, bir fövqəldövlət olaraq həm də Cənubi Qafqazdakı beynəlxalq və regional təhlükəsizlik sistemini açıq təhdid edən etnik münaqişə və davakar separatizm hallarına, Ermənistan kimi forpost dövlətlərin qonşularına qarşı yürütdüyü işğalçılıq siyasəti və ərazi iddialarına, BMT-nin Qətnamələrini yerinə yetirməməsinə, beynəlxalq aləmlə "oynamasına" imkan verməməli, bu məsələlərlə bağlı ciddi və prinsipial mövqe müəyyənləşdirməli, özünün beynəlxalq statusuna uyğun fəaliyyət göstərməlidir. Yaxud Qafqazda Gürcüstan- Rusiya, Ukrayna-Rusiya, Ermənistan-Azərbaycan və s. kimi münaqişələrinə ciddi və prinsipial yanaşmalı, yerli ölkələrin ərazi bütövlüyünün, suveren dövlət haqlarının beynəlxalq hüquqa uyğun müdafiəsinə qalxmalıdır.

Bundan başqa, bəzi mütəxəssislərin fikrinə görə, ABŞ Bakı-Tbilisi-Ceyhan və bu kimi transmilli enerji layihələrində geoiqtisadi məqsədlərinə çatandan sonra, bu işdə əsas rol oynayan Azərbaycan və Türkiyəyə diqqəti bir qədər azaldaraq, özünün bütün geostrateji planlarını Gürcüstan və Ukrayna üzərində qurmaqla, onlara ciddi beynəlxalq dəstək və maliyyə-

texniki yardımlar göstərməklə Qara dəniz hövzəsi və Cənubi Qafqazda yeni-yeni strateji mövqelər qazanmağa çalışır.[168] Bu hal müvafiq olaraq, öz geosiyasi və geoiqtisadi maraqlarını təmin etmək üçün Azərbaycan və Türkiyənin digər istiqamətlərə (məsələn, Rusiyaya) üz tutmasına səbəb ola bilər. Nəzərə alınsa ki, Gürcüstan və Ukraynanın Qara dənizdə Türkiyə ilə bərabər malik olduğu strateji mövqeni və daşıdığı geosiyasi önəmi Azərbaycan Xəzər dənizi hövzəsində, Şərq-Qərb əlaqələrində, nəqliyyat-kommunikasiya və enerji daşıyıcıları tranzitində, Mərkəzi Asiya və İrana çıxışda oynayır, o zaman ABŞ-ın bu ölkəyə diqqətsizliyi təkcə Azərbaycanda və dünyada deyil, heç Amerikanın özündə də birmənalı qarşılanmır. Hər halda, Cənubi Qafqazdakı hadisələrə, Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinə və digər münaqişələrə, ölkənin rastlaşdığı beynəlxalq, regional və yerli problemlərə münasibətdə ABŞ-ın bu gün nümayiş etdirdiyi mövqe və göstərdiyi fəaliyyət Azərbaycanı tam qane etmir. Bu da, müvafiq olaraq, Azərbaycanın Xəzər hövzəsi və Cənubi Qafqazın geosiyasi, hərbi-geostrateji məsələlərində ABŞ-a güvənərək birmənalı qərar qəbul etməsinə mane olur.

Təxminən oxşar vəziyyət Rusiya-İran-Ermənistan geostrateji müttəfiqliyinə də aid edilə bilər. Rusiya və İranın bölgədə bəzən nümayiş etdirdiyi birtərəfli fəaliyyət, tez-tez dəyişən iqtisadi və siyasi tələblər, öz tərəfdaşları ilə lazım gələndə ədalətsiz davranış nümayiş etdirməsi və s. onların geosiyasi bloku haqqında birmənalı müsbət rəy söyləməyə imkan vermir. Hazırkı sürətlə dəyişən beynəlxalq münasibətlər fonunda bu

[168]Bax: Aleksandr Raar, Sebastian Riider. Azərbaycanın Qara dəniz-Xəzər hövzəsi regionunda geosiyasi rolu// "Azerbaijan Focus" jurnalı, №1, 2009-cu il, s. 44-46

blok daxilindəki sonrakı hadisələri proqnozlaşdırmaq da çox çətindir.

Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsində Rusiyanın, ABŞ və Avropa Birliyi ölkələrinin, dünyanın digər böyük dövlətlərinin, hərbi-geostrateji və geoiqtisadi aktorlarının yürütdüyü təhlükəsizlik siyasətini şərti olaraq üç dövrə ayırmaq olar.

Birinci dövrdə (1980-ci illərin sonu – 1990-cı illərin ortaları) dünyanın geosiyasi səhnəsinə "Qara və Xəzər dənizləri hövzəsi və Cənubi Qafqaz" adlanan yeni bir geosiyasi region çıxır. Əgər SSRİ dövründə Xəzər dənizini yalnız iki dövlət – Sovet İttifaqı və İran bölüşürdüsə, onun süqutundan sonra hövzədəki ölkələrin sayı beşə çatdı. Yaxud Qara dəniz hövzəsinə o zaman əsasən SSRİ, onun sosialist düşərgəsi üzrə müttəfiqləri - Rumıniya və Bolqarıstan, NATO-nu təmsil edən Türkiyə daxil idisə, yeni dövrdə bu sıra Ukrayna və Gürcüstan kimi yeni geosiyasi aktorlar hesabına bir qədər də genişlənmişdir. Birinci dövrdə Xəzərin enerji ehtiyatlarının həcmi və dünya bazarlarına çıxarılma imkanları, Qara və Xəzər dənizləri hövzəsinin və Cənubi Qafqazın dünya ticarəti və siyasətindəki yeri, planetar əhəmiyyəti haqqında geniş geosiyasi dəyərləndirmələr tam şəkildə aparılmamışdı.

İkinci dövrdə (1990-cı illərin ortalarından başlayaraq 2001-ci ilə qədər) "Xəzərin geosiyasi və hərbi-geostrateji oyunçuları" termini meydana gəldi və region ABŞ, Rusiya, Avropa Birliyi ölkələrinin enerji, təhlükəsizlik, nəqliyyat-tranzit və s. sahələrdə transmilli rəqabət meydanına çevrildi. Bu dövrdə dünyanın aparıcı dövlətləri və geosiyasi aktorları Xəzər dənizinin zəngin neft-qaz və digər karbohidrogen ehtiyatlarına malik olması, Xəzər-Qara dəniz hövzəsinin və Cənubi Qafqa-

zın əlverişli geosiyasi, geoiqtisadi, hərbi-geostrateji və tranzit-keçid regionu rolu oynaması haqqında tam məlumatlı idilər.

Üçüncü dövrdə (XXI əsrin əvvəlindən başlayan) dünyanın aparıcı dövlətlərinin regionla bağlı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarına yeni istiqamətlər əlavə olundu. 2001-ci il 11 sentyabr hadisələrindən sonra dünyada təhlükəsizliklə bağlı təsəvvürlərin və strateji şəraitin dəyişilməsi Xəzər-Qara dəniz hövzəsi, Cənubi Qafqaz və Mərkəzi Asiyada da geosiyasi vəziyyətə müvafiq təsir etdi.

Hazırda Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın hərbi-geostrateji əhəmiyyəti, beynəlxalq əlaqələrin və beynəlxalq təhlükəsizliyin təmin olunmasındakı yeri və rolu kimi geosiyasi məsələlərlə bağlı həm uzaq xarici ölkələri, həm də postsovet məkanını təmsil edən alimlər, strateqlər, geosiyasətçilər arasında fərqli fikirlər və müxtəlif yanaşmalar mövcuddur. Geosiyasi cəhətdən xüsusi əhəmiyyət kəsb edən bu məkanda qlobal, regional və milli təhlükəsizlik maraqlarının uzlaşdırılması taktikası, geosiyasi aktorların fərqli maraqlarının üst-üstə düşən, kəsişən məqamlarının tədqiqi uzun müddətdən bəri mütəxəssislərin və aidiyyati qurumların diqqət mərkəzindədir. Bütövlükdə Avrasiya bölgəsinin, Cənubi Qafqaz və onun əsas strateji ölkəsi hesab olunan Azərbaycanın geostrateji və hərbi problemləri, regional sülh və əməkdaşlığın təmin olunması, münaqişəli məsələlərin həlli yolları və vasitələri, qlobal və yerli maraqların uzlaşdırılması, region dövlətlərinin təhlükəsizlik siyasəti və s. kimi məsələlər son zamanlar təkcə xarici aləmin deyil, Azərbaycan kimi bölgə ölkələrinin də rəsmi dairələrini, mütəxəssislərini və ictimai fikrini ciddi düşündürməkdədir.

Xəzər-Qara dəniz hövzəsi, Cənubi Qafqaz və bütövlükdə Avrasiyanın hazırkı dünya siyasətində oynadığı geosiyasi və hərbi-geostrateji rolu Rusiyanın rəsmi və akademik dairələri ilə yanaşı, ABŞ-ı təmsil edən geosiyasi tədqiqatçılar da çox yüksək dəyərləndirmişlər. Məşhur amerikalı politoloq Zbiqnev Bjezinski yazır ki, qlobal dünyanın gələcək geostrateji, geoiqtisadi və transmilli siyasi maraqları Avrasiyada, xüsusən də Orta Asiya, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda həll olunur. ABŞ siyasətşünası bu bölgəni "dünya siyasətinin taleyinin həll olunduğu böyük şahmat lövhəsi" kimi təqdim edir və ABŞ-ı, Qərb dünyasını öz əsas güclərini bu bölgəyə yönəltməyə, regionun yeni müstəqil ölkələrinə dəstək verməyə, onları Rusiyanın geosiyasi təsir dairəsindən azad edərək, inkişaf etmiş Avropa ölkələri ilə inteqrasiya etdirməyə çağırır.[169] Bjezinskinin fikrincə, Qərb ilk növbədə bölgənin Azərbaycan, Ukrayna, Qazaxıstan, Gürcüstan, Özbəkistan kimi müstəqil siyasət yürüdən dövlətlərinin transmilli geosiyasi və geoiqtisadi layihələrini dəstəkləməli və onların vasitəsi ilə özünün bu bölgədəki strateji mövqelərini gücləndirməlidir.[170]

ABŞ diplomatı, görkəmli ictimai-siyasi xadim Henri Kissincer Avrasiyanın dünya geosiyasətindəki rolundan bəhs edərkən əsas diqqətini Rusiyanın bu bölgədə yürütdüyü siyasətə və onun gələcək mümkün hərbi-geostrateji nəticələrinə yönəltmişdir. Kissincer Rusiyanın "yaxın xaric" hesab etdiyi Orta Asiya və Cənubi Qafqazdakı geostrateji maraqlarının keçmiş SSRİ-nin digər ərazilərindəkindən daha vacib və strateji oldu-

[169]Bax: Бжезинский З. Выбор: мировое господство или глобальное лидерство. М., 2004, с.136-137

[170]Бжезинский З. Великая шахматная доска. Господство Америки и ее геостратегические императивы. М., 1998, с.232-234

ğunu qeyd etməklə yanaşı, onun "bu maraqları qeyri-sivil norma və beynəlxalq hüquqa zidd yollarla təmin etməyə çalışdığına" da işarə etmişdir.[171]

Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizlik strukturu və gələcək perspektivlərini mütəxəssislər iki əsas mövqe ilə bağlayırlar. Bunlardan biri və *birincisi,* bölgədə ən mühüm hərbi-geostrateji təsirə malik olan *Rusiya* və onun nümayiş etdirdiyi regional təhlükəsizlik siyasəti; *ikincisi* isə "Qərb Alyansı" adlandırılan (ABŞ, NATO və Avropa Birliyi üçlüyü) düşərgənin regionda yeritdiyi təhlükəsizlik siyasəti ilə bağlıdır. Mütəxəssislərin fikrincə, SSRİ-nin dağılmasından sonra da (təxminən 1990-cı illərin sonuna qədər-Ə.H.) Rusiya bir müddət bölgə ölkələrinin geoiqtisadi, geosiyasi və hərbi-geostrateji maraqlarını ciddi şəkildə inkar edərək, postsovet məkanında özü üçün rəqabətdənkənar üstün hüquq və şərait tələb edirdi. O zaman Rusiyanın Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsində nümayiş etdirdiyi beynəlxalq və regional təhlükəsizlik siyasətinin kökündə bölgənin həyati əhəmiyyət kəsb edən bütün daxili strateji sahələri - hərbi-geostrateji mexanizmləri, nəqliyyat-kommunikasiya, enerji infrastrukturları və xarici sərhədləri, gömrük-buraxılış sistemləri və s. üzərində SSRİ dövründən mövcud olan vahid təsir imkanlarını qorumaq, özünün yeni nəzarət mexanizmlərini yaratmaq və bütün bu sahələri idarə etmək kimi geosiyasi vəzifələr dayanırdı.

Rus siyasətşünasları Rusiya-ABŞ-NATO-Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsi ölkələrinin gələcək geostrateji bloklaşma fəaliyyətlərini üç əsas amillə əlaqələndirirlər:

[171]Bax: Киссинджер Г. Нужна ли Америке внешняя политика? // Геополитика. Антология. М., 2006, с.562-568

1. Cənubi Qafqazdakı mövcud münaqişələrin (Dağlıq Qarabağ, Abxaziya-Gürcüstan və s.) həllində Moskvanın, Vaşinqtonun, Brüsselin, Ankara və Tehranın nümayiş etdirəcəyi mövqe;

2. Xəzərin gələcək hüquqi statusunun və dənizdə hərbi-strateji təhlükəsizlik məsələlərinin perspektivləri, buna müvafiq olaraq Azərbaycanın hansı hərbi blokla əməkdaşlığa üstünlük verməsi (burada Rusiyanı narahat edən əsas amil gələcəkdə NATO-nun Azərbaycan vasitəsi ilə Xəzər dənizində hərbi iştiraka nail olmaq məsələsidir);

3. Gürcüstan və Ukraynanın gələcək hərbi-strateji seçimi və bu ölkələr ətrafında cərəyan edən hadisələrə yuxarıda adı çəkilən dövlətlərin münasibəti və s.[172]

Tədqiqatçıların fikrincə, hər üç məsələdə Azərbaycanın nümayiş etdirəcəyi geosiyasi mövqe, özünün regional təhlükəsizlik sistemlərdəki iştirakı ilə bağlı qəbul edəcəyi strateji qərar və seçim həlledici rol oynayacaqdır.

2014-cü il ərzində Avrasiyada, xüsusən də Ukraynada baş verən regional geosiyasi proseslər, getdikcə güclənən Qərb-Rusiya qarşıdurması və s. fonunda Xəzər hövzəsininin lokal və beynəlxalq təhlükəsizlik məsələləri üzrə real nəticəsi olan son regional tədbir 29 sentyabr tarixində Rusiyanın Həştərxan şəhərində keçirilən Xəzəryanı dövlət başçılarının lV Sammitində baş tutmuşdur. Sammitdə Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran prezidentləri bir araya gələrək Xəzərin hüquqi statusu, hövzə ölkələri arasında regional təhlükəsizlik və əməkdaşlıq məsələlərini müzakirə etmiş və birgə siyasi bəyanat imzalamışlar. 19 maddədən ibarət olan bu sənəddə

[172]Bax: Каспий не поделили, но объявили безопасной зоной //"Независимая газета", 19 ноября 2010 г.

tərəflərin Xəzər dənizindəki birgə fəaliyyətinin, o cümlədən təhlükəsizlik sahəsindəki fəaliyyətinin bir çox prinsipləri ilk dəfə olaraq öz əks tapmışdır.

Birgə siyasi bəyanatda regional təhlükəsizlik məsələləri ilə bağlı vurğulanır ki, tərəflər hövzə dövlətlərinin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət edərək, bir-birinə qarşı güc tətbiq etməmək, güc tətbiq etməklə hədələməmək barədə razılığa gəliblər.

Bəyanatda hövzədənkənar hərbi blokların və ölkələrin Xəzərə daxil olmasının yolverilməzliyi, hövzə ölkələrindən dənizdəki silahlanma prosesində sabit balansa riayət edilməsi və hərbi təyinatlı obyektlərin inşasının məntiqli və yetərli şəkildə gerçəkləşdirilməsi tələb olunur.

Sammitdə çıxış edən Rusiya prezidenti Vladimir Putin qeyd etmişdir ki, bizim ölkələrin Xəzərdəki birgə əməkdaşlığı regional təhlükəsizliyin möhkəmləndirilməsinə kömək edəcək, terrorizm, ekstremizim, narkotiklərin dövriyyəsi, digər hədələrlə mübarizədə effektivliyi artıracaq, iqtisadi inkişafa əlavə dinamika verəcək, dünya bazarında rəqabətə davamlılığı yüksəldəcəkdir.

Sammitdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bəyan etmişdir ki, 2010-cu ildə Bakıda keçirilmiş III Xəzər Sammiti zamanı Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında birgə sazişin imzalanması qaçaqmalçılıq, icazəsiz ov, qanunsuz miqrasiya, insan alveri, mütəşəkkil cinayətkarlıq və terrorçuluqla mübarizə sahəsində sərhəd xidmətləri və digər dövlət strukturları arasında vacib əməkdaşlıq və qarşılıqlı fəaliyyət mexanizmi yaradıb. Prezident vurğulayıb ki, ötən dövr ərzində Xəzərdə əməkdaşlığın hüquqi bazasının möhkəmləndirilməsi üzrə xeyli iş görülüb: Tərəflər Xəzər dənizində fövqəladə halların xəbərdar edilməsi və nəticələrinin ləğv olunması sahəsində əməkdaşlıq haqqında sazişin razılaş-

dırılmasını başa çatdırıblar və imzalanmasını təklif ediblər. Bu sahədə Xəzəryanı ölkələrin əməkdaşlığının və qarşılıqlı fəaliyyətinin möhkəmləndirilməsi Xəzərdə daha səmərəli və təhlükəsiz fəaliyyətə xidmət edəcək.[173]

Tərəflər bu sənədi beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən BMT Nizamnaməsində təsbit edilən müstəqillik, suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, güc tətbiq etməmək, başqalarının işinə qarışmamaq kimi prinsiplərə əsaslanaraq qəbul ediblər. Tərəflər təhlükəsizliyin hərbi aspekti istisna olmaqla, başqa sahələrdə də əməkdaşlıq etmək niyyətlərini ortaya qoyublar.

Bir çox politoloqların fikrinə görə, təhlükəsizlik sahəsində Xəzər hövzəsi ölkələrinin həm 2010-cu ildə Bakıda, həm də 2014-cü ildə Həştərxan sammitlərində imzaladıqları sənədlərin əsas mahiyyəti həm də (Bakı sammitində "Xəzərdə təhlükəsizlik üzrə əməkdaşlıq haqqında" müqavilə, Həştərxan sammitində isə birgə bəyanat imzalanıb-Ə.H.) Xəzər dənizinin və hövzə ölkələrinin təhlükəsizlik məsələlərini Xəzəryanı dövlətlərin müstəsna hüququ kimi tanıması ilə müəyyən olunur. Həştərxanda müzakirə olunan və imzalanan sənədlərdə Rusiya 4 Xəzəryanı ölkənin üzərinə öhdəlik qoydu. Bəyanatdan sonra regiona aid olmayan ölkələrin hərbi qüvvəsinin hövzəyə daxil olması qeyri mümkün olacaq. Həştərxanda imzalanan bəyanat, təhlükəsizlik sahəsində faktiki olaraq Azərbaycanın NATO və Türkiyə ilə hərbi əməkdaşlığına qarşı yönəlib. Türkiyə NATO-nun regiondakı ən böyük tərəfdaşıdır və Azərbaycanın həm onunla, həm də NATO ilə hərbi əməkdaşlığı Rusiya və İranı narahat etməyə bilməz.[174]

[173]Bax: AzərTAC-ın xəbər bülleteni, 29 sentyabr 2014-cü il.
[174]Bax:"Bizim yol" qəzeti, 29 sentyabr 2014-cü il.

§ 5.2. Rusiyanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə yanaşması, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Azərbaycanın təhlükəsizlik maraqları

Mütəxəssislərin fikrinə görə, Rusiya hazırda bütün mümkün vasitələrlə Qərbin – ABŞ, NATO, Avropa Birliyi, Türkiyə və s. ölkələrin Cənubi Qafqaza, Xəzər-Qara dəniz hövzəsinə və Mərkəzi Asiyaya geosiyasi, hərbi-geostrateji və geoiqtisadi müdaxiləsinin və bu məkanda möhkəmlənməsinin, "NATO-nun Şərqə doğru genişlənmə təhlükəsinin" və bölgə ölkələrinin bu quruma meyillənməsinin qarşısını almaq istiqamətində fəaliyyət göstərir. 2008-ci ildə bu ölkənin Gürcüstanla "Cənubi Osetiya əhalisinin müdafiəsi" məqsədilə apardığı qısamüddətli müharibə göstərdi ki, bu ölkə lazım gələrsə bu istiqamətdə bütün mümkün vasitələrdən istifadə etməklə Cənubi Qafqazda və digər postsovet məkanında öz hərbi-geosiyasi maraqlarını qoruyacaqdır.

2009 və 2010-cu illərdə qəbul etdiyi "Rusiya Federasiyasının 2020-ci ilədək Milli Təhlükəsizlik Strategiyası" və Hərbi Doktrinasında[175] Rusiya "lazım gəldikdə öz təhlükəsizliyini təmin etmək məqsədilə" başqa region dövlətlərinin sərhədləri daxilində "hərbi güc tətbiq etmə hüququ"nu təsbit etmişdir ki, bu da mütəxəssislərin fikrincə, postsovet, xüsusən də Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsinin dövlətləri üçün Rusiyanın hərbi-geostrateji təhlükə mənbəyi olaraq qalmasının göstəricisi hesab olunur. Onların fikrincə, əslində, mövcud yanaşma ilə Rusiya beynəlxalq hüququn müstəqil

[175]Bu sənədlərlə http://nvo.ng.ru və http:// www.rg.ru saytlarında tanış olmaq olar.

ölkələr üçün tanıdığı - "öz inkişafını, daxili və xarici siyasətini, milli təhlükəsizlik məsələlərini sərhədləri daxilində sərbəst müəyyən etmək" və s. kimi hüquqlarına məhəl qoymadan, Avrasiya ölkələrinin NATO təhlükəsizlik sisteminə çıxışını çətinləşdirmək, Qərblə hərbi inteqrasiyasını və bu sahədə hər hansı formada sərbəst siyasət yürüdülməsi prosesini əngəlləmək məqsədini ortaya qoymuşdur. Başqa müstəqil dövlətlərin milli ərazilərini və azad seçimini hər hansı digər bir dövlətin "öz həyati maraqlarına daxil etməsini və məhdudlaşdırmasını", yaxud "bir ölkənin təhlükəsizlik və digər həyati maraqlarının, eyni statuslu başqa müstəqil dövlətlərin müvafiq haqlarının hesabına təmin edilməsini" mütəxəssislər birmənalı şəkildə beynəlxalq hüquqa və BMT Nizamnaməsinə zidd sayırlar.[176]

Rusiyanın Cənubi Qafqazın təhlükəsizlik mühitinə yanaşması və təhlükəsizliklə bağlı bəyan etdiyi planlar müstəqilliyinin ilk on ilində Cənubi Qafqazda yalnız bir dövlət – Ermənistan tərəfindən "tam razılıqla" qarşılanırdı. Bu da onun bölgədəki təhlükəsizlik siyasətinin səmərəli olması üçün kifayət etmirdi. Bölgə ölkələrinin keçən əsrin 90-cı illərində müəyyən mənada Rusiyadan üz döndərərək, regionda və dünyada özlərinə daha etibarlı geostrateji tərəfdaşlar axtarmağa başlaması, Cənubi Qafqazın təhlükəsizlik dairəsinə "bölgədənkənar geosiyasi oyunçular" və güc mərkəzləri cəlb etməsi, tədqiqatçıların fikrinə görə, Rusiyanın bütün postsovet məkanında olduğu kimi, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda da öz "maraqlarını və təsir imkanlarını" qoruyub saxlamaq üçün ənənəvi olaraq daxili münaqişələrdən istifadəyə üstünlük verməsi, açıq, yaxud dolayı yolla davakar etnik separatizmi dəs-

[176]Bax: газ. "Зеркало", 2 сентября 2010 г.

təkləməsi, ölkələrin ərazi bütövlüyünün pozulmasına biganə qalması və s. kimi amillərlə bağlı idi.[177]

ABŞ və Şimali Atlantika Alyansının regiondakı hərbi-strateji nüfuzunun artmasının, mövqelərinin möhkəmlənməsinin və bölgə ölkələrinin bu struktura meyillənməsinin əsas səbəblərindən *biri və birincisi də* məhz Rusiyanın 2000-ci ilə qədər həyata keçirdiyi ikili regional təhlükəsizlik siyasəti ilə bağlı idi.

Rusiyanın Cənubi Qafqaz və Xəzər hövzəsindəki 2001-ci ildən başlayaraq həyata keçirdiyi təhlükəsizlik siyasəti mütəxəssislərin fikrinə görə, daha yumşaq və cəlbedicidir. Bu siyasət "daha praqmatik formada regionun bütün ölkələr ilə hərbi-geostrateji tərəfdaşlıq münasibətləri qurmaq yolu ilə" onları "kənar təsirlər" altına düşməkdən qorumağa yönəlmişdir. Hazırda bu ölkənin bölgədə yürütdüyü geosiyasət və region ölkələrilə qurduğu hərbi təhlükəsizlik sahəsindəki ikitərəfli münasibətlər yaxşılığa doğru xeyli dəyişmişdir. Belə ki, Rusiya bölgə ölkələrinin hərbi-strateji mövqelərini, transmilli mənafelərini, geosiyasi, geoiqtisadi və milli-mədəni hüquqlarını anlaşıqlı qarşılamağa başlamışdır. Siyasətşünaslar Rusiyanın bu addımını, bir tərəfdən, ölkədə baş verən siyasi dəyişiklik və hakimiyyətə Vladimir Putin başda olmaqla daha konstruktiv, praqmatik düşüncəli siyasətçilərin gəlməsi, digər tərəfdənsə, bu dövlətin "bölgənin siyasi, iqtisadi, hərbi və təhlükəsizlik nöqteyi-nəzərindən həm Qərbin, həm də bütöv dünyanın inkişaf etmiş ölkələrinin maraq dairəsinə daxil olması reallığını" qəbul etməsi ilə bağlayırlar.

Məlumdur ki, NATO və Avropa İttifaqı artıq bölgənin sərhədlərinə qədər genişlənmişdir, Yaxın Şərq və Fars körfəzi-

[177]Bax: Dispatch: Russia`s Control of the Nagorno-Karabakh issue. http://www.stratfor.com; Дж.Эйвазов. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, 2004.c.194-146 və.b.

nin ətraf dövlətləri (İraq, Əfqanıstan, Pakistan və b.) tamamilə qərbin təsiri altına keçmişdir. Bölgədə qloballaşma, demokratikləşmə və transmilli siyasət dönməz xarakter almışdır ki, bu da, müvafiq olaraq, əksər bölgə ölkələrindən özlərinin Avrasiya siyasətlərini getdikcə daha praqmatik əsasda qurmağı tələb edir.

Rusiya hazırda Xəzər hövzəsi və Cənubi Qafqazdakı bütün hərbi-geostrateji yüklü məsələləri bir qədər fərqli metod və vasitələrlə, Xəzərdə tarixi rəqibi olan İranın, Cənubi Qafqazda Türkiyənin, həmçinin hər iki məkanda yeni rəqibləri olan ABŞ, NATO və Avropa İttifaqının iştirakı olmadan həll etmək istəyir. Lakin Rusiyanın Xəzərdə 5 hövzə ölkəsinin bir-biri ilə daha konstruktiv mövqedə olmasına söykənən - hövzədə "kənar müdaxilə olmadan" beşliyin birgə təhlükəsizlik missiyasını yaratmaq siyasəti müəyyən nəticə versə də, Gürcüstanla yaranmış problemlər və Ermənistanın işğalçılıq siyasəti, hələ ki, ona Cənubi Qafqazın regional məsələlərini «3+1» formulu – *3 Cənubi Qafqaz ölkəsi və Rusiya formulu* əsasında həll etməyə imkan vermir.

«*Qafqaz dördlüyü*» adlandırılan bu format 90-cı illərin ortalarından geosiyasi müstəviyə çıxarılmış və onun çərçivəsində Cənubi Qafqazın təhlükəsizliyi və s. adlar altında ölkə prezidentləri, təhlükəsizlik şurası sədrləri, dini liderlər və b. səviyyəsində müxtəlif görüşlər və məsləhətləşmələr də keçirilmişdir. Lakin Rusiyanın bölgədə "etnik separatizm və ərazi bütövlüyü" ilə bağlı nümayiş etdirdiyi bəhs olunan bir qədər fərqli mövqeyə görə bu sahədə ciddi irəliləyiş baş verməmişdir.

Geosiyasətçilər hesab edir ki, Cənubi Qafqazdan fərqli olaraq, Xəzər hövzəsinin hərbi-geostrateji və təhlükəsizlik məsələlərində Rusiya daha praqmatik geosiyasət yürüdərək, iyirmi illik "geriçəkilmə geosiyasətinə" son qoymuş və öz hərbi-

geostrateji təsirini bərpa etmək istiqamətində ciddi irəliləyişə nail ola bilmişdir. Rusiya Xəzərdə ən güclü hərbi-dəniz qüvvələrinə, hərbi-geostrateji mövqelərə malikdir və buradakı üstünlüklərini kiminsə xeyirinə məhdudlaşdırmaq, yaxud kiminləsə bölüşmək haqda qətiyyən düşünmür. Odur ki, o, İranın da NATO "təhlükəsindən", yaxud "nə vaxtsa Xəzər ərazisindən ona qarşı hərbi məqsədlər üçün istifadə edilə bilməsi ehtimalından" istifadə edərək, Xəzərin hüquqi statusu məsələsini ciddi qabartmadan, 5 hövzə ölkəsi rəhbərlərini "hər hansı kənar qüvvələrin Xəzərdə hərbi iştirakını və yaxud hövzə ölkələrinin ərazisindən kiməsə qarşı hərbi-strateji istifadəni qadağan edən" Birgə Saziş bağlamağa razı sala bilmişdir. Bu məqsədlə son illərdə Rusiya hövzə ölkələri içərisində "Xəzərin təhlükəsizliyi və ümumi istifadəsi" ideyasını fəal şəkildə təbliğ etmiş, Qara dəniz hövzəsi və müəyyən qədər Cənubi Qafqazda qərb ölkələrinə və Türkiyəyə getdiyi güzəştləri, itirdiyi geosiyasi və geoiqtisadi mövqeləri Xəzərdə bərpa edə bilmişdir.

Xəzəryanı ölkələrin dövlət başçılarının 19 noyabr 2010-cu il tarixli Bakı sammitində Rusiyanın təşəbbüsü ilə Xəzər hövzəsinin təhlükəsizliyi, dənizin hərbiləşdirilməsinin qarşısının alınması və dinc məqsədlər üzrə birgə istifadəsi, enerji resurslarının istismarı, ekoloji vəziyyəti və s. məsələlərlə bağlı Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistan prezidentləri "Xəzərdə təhlükəsizlik sahəsində əməkdaşlığa dair" Saziş və Birgə Bəyanat imzalamışlar.[178]

Göründüyü kimi, Rusiya Xəzər ölkələrini öz təhlükəsizlik dairəsində birləşdirərək, bir tərəfdən, hövzədə İranın və digər ölkələrin silahlanmasına, hərbi-geostrateji sahədə müstəqil hərəkət etməsinə maneçilik törətmiş, digər tərəfdənsə, NATO və

[178]Bax: "Azərbaycan" qəzeti, 19 noyabr 2010-cu il

s. kənar hərbi blokların hansısa yollarla Xəzər hövzəsinə buraxılmasının qarşısını almağa nail olmuşdur. İmzalanmış sənəd bütövlükdə əksər hövzə ölkələrinin milli maraqlarına cavab versə də, hövzənin bir çox təhlükəsizlik məsələləri bu sazişdə də sona qədər öz həllini tapmamışdır. Bu sıraya hövzə ölkələrinin Xəzərdə hərbi-dəniz qüvvələri, sahil hərbi bazaları, digər silah-sursat saxlamaq və onların kvotası məsələlərini; regiondankənar dövlətlərin və hərbi blokların Xəzər hövzəsində, ətraf ölkələrin ərazisində və hava məkanında hərbi iştirakını və onun prinsiplərini; hərbi gəmilərin hövzə ölkələrinin milli sektorundan keçməsi normalarını; dənizin demilitarizasiyası və regional güc balansının saxlanılması və s. məsələləri aid etmək olar.

Mütəxəssislərin fikrinə görə, Xəzər hövzəsi və Cənubi Qafqazda öz praqmatik təhlükəsizlik siyasətini günü-gündən gücləndirən, hərbi iştirakını artıran və onu region ölkələrinin təhlükəsizliyi ilə əlaqələndirməyə çalışan Rusiya, həm də keçən illərdə onun yaratdığı KTMT-yə fərqli münasibət nümayiş etdirən, digər hərbi bloklarla tərəfdaşlıq edən Azərbaycana, Ukraynaya, Moldovaya, Gürcüstana və Orta Asiyanın bəzi dövlətlərinə müəyyən ümidverici siqnallar ötürür. Bütün müsbət işlərin fonunda, Rusiyanın ən çox anlaşılmazlıq yaradan fəaliyyəti Cənubi Qafqazda bir vaxtlar onun da ciddi cəhdi ilə region ölkələrinin "qoşulduğu" və az qala "bu ölkələr üçün beynəlxalq öhdəliklərin əsas tələbi kimi" dəyərləndirilən ATƏT-in "Regional Təhlükəsizlik Məsələləri üzrə" adi silahlara dair Cinah Sazişinə əməl olunmasına münasibəti ilə bağlıdır. Hazırda ATƏT-in bu sazişini heç kim diqqətə çatdırmır. Rusiyanın özü onun tələblərini nəzərə almadan, münaqişə bölgələrinə - Cənubi Osetiya, Abxaziya, Dağlıq Qarabağ və Ermənistana istədiyi qədər qeyri-qanuni hərbi texnika və silah göndərir, hərbi bazalar yaradır və silahlı qüvvələr yerləşdirir. Bundan

başqa, bütün məsələlərdə, xüsusən dənizin su səthində özünə "tam sərbəst hərəkət azadlığı" tələb edən Rusiya digər ölkələrin gəmilərinin Volqa çayı vasitəsilə ətraf sulara məhdudiyyətsiz keçidinə xüsusi maraq göstərmir və s.

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Azərbaycanın hərbi-geostrateji maraqları

1992-ci ildə keçmiş SSRİ-nin mövcud olduğu Avrasiyanın əhəmiyyətli geosiyasi məkanlarına hər hansı xarici və kənar güc mərkəzlərinin daxil olmasının qarşısını almaq üçün Rusiya bəzi keçmiş sovet respublikalarının iştirakı ilə **Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı adlanan**[179] (KTMT) hərbi blok yaratmış və hazırda onu daha da genişləndirmək kursu yürüdür.

Yarandığı gündən KTMT-nin və onun əsas himayədarı olan Rusiyanın Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsindəki regional təhlükəsizlik siyasətinin əsasında bölgə ölkələrini hərbi-təhlükəsizlik sahəsində NATO və Qərbin təsirindən qorumaq, onları vahid hərbi-strateji çətir altında saxlamaqdan ibarətdir. Əvvəllər özünü daha çox müxtəlif bəyanatlar verməklə təs-

[179]KTMT 1992-ci ilin mayında Daşkənddə MDB-yə üzv olan 6 ölkə - Rusiya, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın iştirakı ilə, üzv ölkələrin təhlükəsizliyini təmin etmək məqsədilə, kollektiv hərbi qurum kimi yaradılmışdır. Quruma sonradan Azərbaycan (24 sentyabr 1993-cü il), Gürcüstan (9 dekabr 1993-cü il) və Belarus (31 dekabr 1993-cü il) müşahidəçi qismində qoşuldular. Digər MDB üzvləri - Ukrayna, Moldova və Türkmənistan ümumiyyətlə bu qurumda iştirakdan imtina etdilər. Bir qədər sonra, KTMT-nin prinsipləri, məramı və şərtləri Azərbaycan və Gürcüstanı qane etmədiyindən, hər iki ölkə bu təşkilatla əməkdaşlıqdan imtina etdi, 1999-cu ildən isə qurumda müşahidəçi qismində iştiraklarını da dayandırdı. Eyni addımı az sonra Özbəkistan da atdı, lakin sonradan bu dövlət yenidən KTMT-yə qayıtdı.

diq etdirməyə çalışan və üzv ölkələrin təhlükəsizliyini təmin etmək anlamında heç bir təşkilati strukturu və yaxud hüquqi səlahiyyəti olmayan KTMT, 2003-cü ilin oktyabrından konkret hərbi-siyasi blok adı ilə çıxış edir. Həmin il oktyabrın 7-də MDB-nin Kişinyov sammitində Rusiya, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan prezidentləri Kollektiv Təhlükəsizlik Müqaviləsi (KTMT) Təşkilatının "vahid təhlükəsizlik qüvvələrinin" yaradılması haqda müqavilə imzaladılar.

Bəzi rusiyalı politoloqlar fəaliyyət göstərdiyi 18 il ərzində postsovet regionunda səmərəli kollektiv təhlükəsizlik strukturuna çevrilə bilməmiş "KTMT"-ni "Avrasiya hərbi-siyasi blokunun yaradılması" kimi təqdim edirlər. Lakin müstəqil ekspertlərin fikrincə, KTMT-nin bugünkü fəaliyyəti nə üzv dövlətləri tam qane edir, nə səmərəli bir təşkilat kimi digər ölkələr üçün cəlbedicidir, nə də ki, əksər postsovet ölkələrinin vahid təhlükəsizlik maraqlarına cavab verir. Məsələn, Cənubi Qafqaz və Qara dəniz ətrafı ölkələrindən yalnız Ermənistanın blokda təmsil olunmasına, KTMT-nin tərkibindəki əksər ölkələrin Rusiya ilə mövcud geosiyasi və geoiqtisadi münasibətlərinə, təşkilat daxilindəki real vəziyyətə nəzər salan politoloqlar KTMT-ni vahid bir təhlükəsizlik bloku kimi qəbul etmirlər. Təşkilatın əsas üzvləri olan Rusiya, Belarus, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Ermənistan arasındakı həqiqi dostluq münasibətləri, hərbi maraqların tarazlığı və ortaq təminatı məsələsi də bir çox müstəqil ekspertlərdə ciddi şübhə doğurur. Onların fikrincə, təşkilata üzv olan ölkələr arasında bütün sahələr üzrə mövcud olan geosiyasi, hərbi və iqtisadi ziddiyyətləri gizlətmək mümkün deyildir. Məsələn, Rusiya ilə Belarusun münasibətləri ciddi hərbi-geostrateji müttəfiqlik və tərəfdaşlıqdan çox uzaqdır. Yaxud Orta Asiya ölkələrinin, Belarus və Qırğızıstanın, Rusiya və Tacikistanın, Rusiya və

Özbəkistanın ikitərəfli münasibətlərinin mövcud vəziyyətini, Özbəkistan, Tacikistan, Qırğızıstan arasındakı mübahisəli etnik məsələləri və s. faktları mütəxəssislər KTMT-nin ciddi problemlər yaşamasının göstəricisi hesab edirlər. [180]

Rəsmi Moskva son zamanlar Ukrayna, Azərbaycan, Moldova və Gürcüstanın da bu blokda təmsil olunmasına çalışır. Lakin adı çəkilən hər bir ölkənin bloka qoşulmamasının öz səbəbi mövcuddur. Azərbaycan Respublikasını KTMT-yə qoşmaq istiqamətində göstərilən sonuncu cəhd 2004-cü ilin payızında - MDB dövlət başçılarının Astanada keçirilən sammitində baş vermişdir. Lakin rəsmi Bakı Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə və ölkənin ərazi bütövlüyü bərpa olunmayana qədər özünün regional təhlükəsizlik məsələləri ilə bağlı mövqeyində hər hansı dəyişiklik etməyə, hansısa hərbi bloka qoşulmağa heç bir əsas olmadığını bəyan edərək, KTMT-yə qoşulmaqdan imtina etmişdir.

Cənubi Qafqazın digər ölkəsi - Gürcüstan da dəfələrlə bu hərbi-siyasi bloka üzv olmaq niyyətində olmadığını bildirərək, əksinə, öz ərazisindəki Rusiya hərbi bazalarının ölkədən çıxarılması tələbi ilə çıxış etmiş və sonrakı illərdə buna nail olmuşdur.

O ki qaldı Moldova və Ukraynaya, birincidə hələ kimin və hansı qüvvələrin gələcəkdə ölkənin siyasi taleyini həll edəcəyi qaranlıq qalır. Ukraynada isə sonuncu hakimiyyət dəyişikliyindən sonra bu dövlətin Rusiya ilə geosiyasi münasibətlərini hərtərəfli şəkildə yaxşılaşdırmasına, NATO-ya üzv olmaq fikrindən rəsmi şəkildə imtina etməsinə baxmayaraq, Xarici İşlər Nazirliyi "Kiyevin yaxın zamanlarda hər hansı hərbi bloka

[180]Bax: газ. "Зеркало", 24 сентября 2010 г.

qoşulmaq fikrində olmadığını" bəyan edərək, KTMT-yə üzv olmaq fikrindən uzaq olduğunu bildirmişdir. Bundan başqa, KTMT-nin rəsmi üzvü olan Özbəkistan da neçə illərdir ki, prezident səviyyəsində qurumun sammitlərini boykot edir. Bu da təşkilatın "vahid hərbi-strateji blok olması" fikrini şübhə altına alır.

KTMT-nin 2010-cu ilin dekabrında Moskvada keçirilən sammitində Özbəkistan prezidentinin çox ciddi narazılığı və səsləndirdiyi bəyanat göstərdi ki, hazırda KTMT-yə üzv dövlətlər arasında mövcud olan ziddiyyətli və ayırıcı məqamlar onları birləşdirən və hərbi-geostrateji müttəfiq kimi bir-birinə bağlayan məqamlardan çoxdur. Rusiya son zamanlar çalışır ki, qurumun nizamnaməsinə bəzi dəyişikliklər edərək onu digər üzv dövlətlərin daxili münaqişələrini həll etmək üçün "operativ hərbi təşkilat"a çevirsin və lazım gələndə KTMT-nin ümumi hərbi missiyasından istifadə edərək, üzv dövlətlərin suverenliyi, ərazi bütövlüyü və daxili sabitliyi ilə bağlı yerli və xarici təhlükələrin qarşısını alsın. Məlumatlara görə, Özbəkistan prezidenti İslam Kərimov Moskva sammitində təşkilatın nizamnaməsinə olunan dəyişikliyə etiraz edərək bildirmişdir ki, KTMT-nin əsas vəzifəsi heç də MDB, yaxud KTMT çərçivəsində mövcud olan ölkələrarası və ölkədaxili ziddiyyətləri, münaqişələri nizamlamaq deyil, üzv ölkələri xarici təhlükələrdən qorumaqdan ibarətdir. Özbəkistan prezidenti öz ölkəsinin yeni nizamnamə dəyişikliyinə və KTMT çərçivəsində yaradılacaq hər hansı "operativ kollektiv müdaxilə" qurumuna qoşulmayacağı haqqında ciddi bəyanat vermişdir.[181]

Lakin Özbəkistan və başqa üzvlərin etirazına baxmayaraq, KTMT-yə postsovet məkanında daxili və ölkələrarası münaqi-

[181]Bax: газ. "Зеркало", 14 декабря 2010 г.

şələrə de-yure müdaxilə etmək səlahiyyəti verən dəyişikliklər qəbul edilmişdir.

Mütəxəssislərin fikrincə, Rusiya NATO təcrübəsindən istifadə edərək, KTMT-ni regionun vahid hərbi-strateji təşkilatına çevirmək, bölgədə baş verən əksər hərbi, strateji, siyasi və s. hadisələri öz nəzarəti altında saxlamaq istəyir. Lakin:

- üzv ölkələrin hərbi gücünün, hərbi-geostrateji maraqlarının və bu təşkilata təsir etmə imkanlarının tamamilə fərqli olmasından;
- MDB-nin digər üzv ölkələrinin ayrı-ayrı səbəblərdən bu təşkilatda iştirakdan imtina etməsindən;
- üzv ölkələrin hərbi-siyasi liderlik anlamında vahid məqsədlərinin olmaması və fərqli vəzifələrə xidmət etməsi səbəbindən Rusiya de-fakto bu məqsədlərinə nail ola bilmir.

Bəzi ekspertlər belə düşünür ki, Rusiya KTMT-ni gücləndirmək və onun idarəçiliyini əlində saxlamaqla, həm də hərbi-geostrateji plan kimi Avrasiyada NATO-nun mövqelərinin zəiflədilməsini və öz təsirinin gücləndirilməsini də təmin etmək istəyir. Bundan başqa, onların fikrinə görə Rusiya regionda Qərblə texnologiya, iqtisadi və investisiya baxımından tam yarışa bilməyədiyi üçün heç olmazsa, hərbi-siyasi sahədə bölgədəki üstünlüyünü qorumağa çalışır. Bəzi mütəxəssislər hesab edir ki, əgər ABŞ nə zamansa yenidən, hər hansı postsovet ölkəsini öz hərbi-strateji təsiri altına salmağa cəhd göstərsə, o zaman Rusiya yerli ictimai-siyasi və digər dairələri də işə qoşmaqla, ona sərf edən hakimiyyəti, idarəçilik rejimini müdafiə etmək və yaxud əleyhinə çıxmaqla məqsədlərinə nail olmaq üçün hərəkətə keçəcəkdir.

KTMT-nin gələcək inkişafı və davamlı mövcudluğu ilə bağlı hazırda ortada hər hansı ciddi bir konsepsiya və strategiya

mövcud deyildir. Bunu qurumun ayrı-ayrı dövrlərdə Ukrayna, Azərbaycan, Gürcüstan, Özbəkistan, Moldova, Belarus və başqa postsovet ölkələri ilə bağlı reallaşdırdığı ziddiyyətli geosiyasətin məzmunu və nəticələri də sübut edir. Məsələn, adıçəkilən bu ölkələrdən biri və yaxud hamısı nə zamansa yenidən Qərbə, yaxud onun hərbi strukturlarına üz tutsa, KTMT-nin hansı addımları atacağı, yaxud Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunandan sonra təşkilatın Qafqazda bu iki ölkəyə münasibətinin daha hansı manevrlər üzərində reallaşacağı və s. bu kimi məsələlər nə KTMT-nin, nə də Rusiyanın hazırkı hərbi-geostrateji planlarında öz əksini tapmamışdır.

Hazırda Rusiya əksər postsovet ölkələrini KTMT-yə qoşmaq və onların NATO-ya meyillənməsini önləmək üçün ciddi tədbirlər görür. Qərbin ikili standartlara söykənən tələblərinə o qədər də ciddi reaksiya vermədən, Rusiya Avrasiyanın məqsədəuyğun hesab etdiyi bütün bölgələrində, bütün məqbul vasitələrlə "öz həyati maraqlarını" qorumaqda və geosiyasi təsir mexanizmlərini saxlamaqda davam edir. Son illərdə bu ölkənin bəzi siyasi dairələrinin dilindən "böyük ölkələrin regional maraq dairələrinin və geosiyasi təsir zonalarının" tanınması və qorunması, belə demək mümkünsə, planetar məkanların "Jirinovski sxemi" üzrə, "müxtəlif iri dövlətlərin təsir və maraq dairələrinə bölünməsi", kiçik ölkələrin hüquqlarının nəzərə alınmaması hesabına "böyüklərin təhlükəsizlik maraqlarının dönməz şəkildə təmin edilməsi" və s. kimi beynəlxalq hüquqa zidd çağırışlar səslənməkdədir. Bir faktı qeyd etmək lazımdır ki, "dünyanın maraq dairələri üzrə faktiki olaraq yenidən bölünməsini" rəsmən bəyan edən və "planetin yeni təhlükəsizlik memarlığı" adlanan belə geostrateji plan və mülahizələrə, rəqib hərbi bloklara və ölkələrə meyil göstərən dövlətləri və xalqları müxtəlif iqtisadi, siyasi, sosial və s. təzyiq vasitələri ilə sıxış-

dırmaq cəhdinə bütün böyük ölkələrin timsalında rast gəlmək mümkündür. Tədqiqatçıların fikrincə, son zamanlar bir çox kiçik ölkələrin regiondakı müstəqil geosiyasi amil kimi çıxış etməsinə mane olan əsas səbəblər onların böyük ölkələrdən strateji sahələr üzrə - təhlükəsizlik, enerji, iqtisadi, ərzaq və s. sferalarda asılılığı hesab olunur.

Regional təhlükəsizlik sahəsində Azərbaycanın Rusiya və KTMT arasındakı əməkdaşlığı

Regional təhlükəsizlik müstəvisində məxsusi mənafeləri və iddiaları ilə təmsil olunan Azərbaycan Respublikası özünün bütün geosiyasi məkan xarakteristikası, iqtisadi, siyasi və hüquqi varlığı ilə nəinki təkcə Cənubi Qafqazın, Xəzər-Qara dəniz hövzəsinin, həm də Avrasiyanın, bütövlükdə qlobal dünyanın mühüm geosiyasi, geoiqtisadi və hərbi-geostrateji hədəflərindən biri kimi çıxış edir. Onun beynəlxalq və regional təhlükəsizliyindən, milli maraqlarının qorunmasından və milli təhlükəsizliyinin təmin olunmasından bəhs edərkən Prezident Heydər Əliyev bildirmişdir ki, bir dövlət olaraq Azərbaycanın milli maraqları və təhlükəsizliyi beynəlxalq aləmin, Avropanın, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizliyindən, dünyanın və regionun ümumi maraqlarından ayrıca, təcrid olunmuş şəkildə təmin oluna bilməz.[182] Bütün bunlar göstərir ki, Azərbaycanın beynəlxalq, regional və milli təhlükəsizlik maraqlarının öyrənilməsi və təmin olunması vəzifəsi yerli tədqiqatçılardan həm də bütövlükdə beynəlxalq və regio-

[182]Daha ətraflı bax: Ə.M.Həsənov. Heydər Əliyev və Azərbaycanın regional təhlükəsizlik siyasəti // Heydər Əliyev irsi və Azərbaycanın davamlı inkişaf strategiyası. Bakı, 2006, s. 59-76

nal geosiyasi, hərbi-geostrateji və s. məsələlərin geniş şəkildə araşdırılmasını tələb edir.

Təhlükəsizlik maraqları çərçivəsindən yanaşdıqda, birmənalı şəkildə təsdiq etmək olar ki, Azərbaycanın milli mənafeləri Rusiya ilə rəqiblik deyil, əksinə, bərabərhüquqlu, qarşılıqlı faydalı və strateji tərəfdaşlıq münasibətlərinin yaradılması və inkişafını tələb edir. Xüsusən 2001-ci ildən etibarən, iki ölkənin prezidentləri arasında yaranan qarşılıqlı münasibətlərin yüksək siyasi səviyyəsi müvafiq olaraq dövlətlərarası əlaqələrin bütün sahələrində hərtərəfli əməkdaşlığın və tərəfdaşlığın inkişafını şərtləndirir. Təhlükəsizlik sahəsində regional əməkdaşlığın möhkəmləndirilməsi, iki dövlət arasında transsərhəd təhlükəsizliyi, transmilli cinayətkarlığa qarşı birgə mübarizə, Xəzər dənizi və müştərək quru sərhədlərin təhlükəsizliyi və mühafizəsi, Qəbələ RLS-in istifadəsi kimi məsələlərdə tərəfdaşlıq proseslərinin dərinləşdirilməsi hər iki ölkənin qarşılıqlı mənafelərinə xidmət edir. Bundan başqa, təhlükəsizlik sahəsində çoxtərəfli regional münasibətlərin yaradılması, həm Rusiya, həm də digər bölgə ölkələri ilə sivil ticarət-iqtisadi, investisiya, elmi, mədəni və digər əlaqələrin qurulması Azərbaycanın milli təhlükəsizlik maraqlarına tam cavab verir.

Hazırda Cənubi Qafqazda bitərəf təhlükəsizlik siyasəti yürüdən Azərbaycan həm Rusiya və KTMT, həm də ABŞ və NATO ilə tərəfdaşlıq münasibətləri saxlamağa çalışır. Bu sahədə Rusiya ilə yaranan yeganə problem onun Cənubi Qafqazda Ermənistan kimi militarist bir ölkəyə göstərdiyi hərtərəfli hərbi yardımla bağlıdır. Bəzi mütəxəssislərin fikrinə görə, Rusiyanın hazırkı təhlükəsizlik maraqları "Dağlıq Qarabağı nə Ermənistana vermək, nə də Azərbaycana qaytarmaq" məqsədinə uyğundur. Çünki Moskva bu münaqişədən bəhrələnərək hər iki ölkənin beynəlxalq fəaliyyətini və regional siyasətini öz təsiri

altında saxlamaq istəyir. Onların fikrincə, Cənubi Qafqaz respublikalarındakı mövcud ziddiyyətlərin və münaqişəli halların birdəfəlik həll edilməsi və bu regionda əbədi sülhün bərqərar olması Rusiyanın regional təhlükəsizlik siyasətinin uzunmüddətli məqsədlərinə qətiyyən cavab vermir.[183]

Cənubi Qafqazın Rusiya modeli ilə planlaşdırılan təhlükəsizlik sistemində Azərbaycanı qane etməyən əsas cəhət məhz Rusiyanın bölgədə hamını qane edəcək səmərəli kollektiv təhlükəsizlik mexanizmlərinin yaradılması əvəzinə, Ermənistanla kollektiv təhlükəsizlik və hərbi-strateji müttəfiqlik çərçivəsində Azərbaycanın suveren dövlət hüquqlarına, milli təhlükəsizlik maraqlarına və Cənubi Qafqazın regional güc tarazlığına mənfi təsir göstərən bəzi addımları hesab oluna bilər. Azərbaycanın, əsasında Rusiya və onun yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı dayanan MDB təhlükəsizlik sisteminə qoşulmaqdan imtina etməsinin səbəbi də, ilk növbədə, məhz bu məsələ ilə bağlıdır. Rusiya ilə Ermənistan arasında 1995-ci ildə imzalanmış "hərbi-strateji tərəfdaşlıq haqqında" müqaviləyə uyğun olaraq, Rusiya Ermənistanda öz hərbi-geostrateji maraqlarını və təhlükəsizliyini təmin etmək məqsədilə "25 il müddətinə 102-ci hərbi bazasını saxlamaq və onunla razılaşdırılmış, əlaqələndirilmiş birgə regional təhlükəsizlik, xarici siyasət fəaliyyəti yürütmək" haqqında "dövlətlərarası razılığa gəlmişdir". Mütəxəssislər bu sazişi əslində siyasi, iqtisadi, hərbi gücü və vəziyyəti heç də "bərabərhüquqlu və qarşılıqlı təhlükəsizlik" müqaviləsi imzalamağa imkan verməyən, qeyri-bərabər statuslu iki ölkənin "təhlükəsizlik imitasiyası", Qərbin Cənubi Qafqazda hərbi-geostrateji maraqlarının artması və bölgə ölkələrinin NATO-ya həvəs göstərməsi fonunda

[183]Bax: Dispatch: Russia`s Control of the Nagorno-Karabakh issue…

Rusiyanın "forpostu" olmaqdan başqa heç bir ciddi potensial nümayiş etdirmək qabiliyyəti olmayan Ermənistanın "xarici və təhlükəsizlik maraqlarını müdafiə etmək" adı altında öz suveren dövlət hüquqlarını birtərəfli qaydada güzəştə getməsi kimi qiymətləndirirlər. Onların fikrinə görə, Cənubi Qafqazda Rusiyanın Ermənistana güclü iqtisadi və hərbi yardım göstərməsi, onun işğalçı ordusunu təmənnasız silahlandırması, bir tərəfdən işğalçı ölkənin siyasi rəhbərliyini Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllindən yayındırır, danışıqlarda qeyri-konstruktivliyə təşviq edir, digər tərəfdənsə Azərbaycanın beynəlxalq təhlükəsizlik siyasətinə, regional hərbi-geostrateji seçiminə fərqli təsir göstərir. Odur ki, Dağlıq Qarabağ münaqişəsi hazırda həm Ermənistana, həm də Azərbaycana təsir göstərmək üçün Rusiyanın əlində ciddi bir mexanizmdir.

Əlbəttə, torpaqlarının bir qismi Ermənistanın işğalı altında olan Azərbaycan, ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsi ətrafında sülhyaratma proseslərinə cəlb edilmiş Rusiyanın rəqib ölkə ilə "hərbi-strateji tərəfdaşlığına", bu ölkədə xüsusi hərbi baza saxlamasına və işğalçı erməni ordusunu təmənnasız silah-sursatla təmin etməsinə biganə qala bilməz. Odur ki, Azərbaycan rəsmiləri bu sazişə etiraz edərək Rusiyanın Cənubi Qafqazdakı regional təhlükəsizlik sahəsindəki fəaliyyətinin "bitərəf qalmaq öhdəliyi" ilə bir araya sığmadığını bildirmiş, bu məsələni beynəlxalq aləmin diqqətinə çatdırmışlar.

Rusiya Cənubi Qafqazda yürütdüyü təhlükəsizlik siyasətini və Ermənistan kimi işğalçı dövlətə göstərdiyi hərbi dəstəyi onunla izah etməyə çalışır ki, guya Ermənistanda yerləşən və ona məxsus 102-ci hərbi baza bu ölkəni müdafiə etmək, yaxud hər hansı bölgə dövlətinin təhlükəsizliyini təhdid etmək ücün deyil, yalnız Rusiyanın bölgədəki "hərbi-geostrateji" maraqla-

rını təmin etmək məqsədilə saxlanılır. Hətta öz mövqeyinin inandırıcı görünməsi üçün Rusiyanın bəzi siyasi və hərbi dairələri eyni məzmunlu müqaviləni Azərbaycan və Gürcüstanla da imzalamağa, onlarla da hərbi-strateji müttəfiqlik münasibətləri yaratmağa hazır olduqlarını bildirirlər.

Azərbaycan rəsmiləri dəfələrlə bəyan etmişlər ki, onların ölkəsi Rusiya və KTMT ilə hər hansı ikitərəfli və çoxtərəfli əməkdaşlığın, hərbi-strateji tərəfdaşlığın əleyhinə deyil. Azərbaycanın Rusiya və KTMT ilə əməkdaşlığına bilavasitə təsir göstərən ən əsas məsələ onun pozulmuş ərazi bütövlüyünün bərpası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsindəki fəaliyyətlə bağlıdır. Azərbaycanın torpaqlarını açıq-aşkar işğal edən, Cənubi Qafqazda qonşu ölkələrə qarşı ərazi iddiası irəli sürən, sabit millətlərarası və dövlətlərarası regional mühiti pozan Ermənistanın hərəkətlərinə beynəlxalq hüquqa əsaslanan prinsipial münasibət bildirmək istəməyən, əksinə, işğalçı ölkə ilə hərbi müttəfiqlik edən, Qafqazda mövcud olan digər region ölkələrinin siyasi-hərbi təhlükəsizliyinə, ərazi bütövlüyünə və regional sülhə təminat verməyən qurumla strateji tərəfdaşlıq etmək bu gün üçün mümkün görünmür. Azərbaycan Rusiyanın rəhbərliyi altında yaradılan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə əməkdaşlığın əksər üzv ölkələrin təhlükəsizlik və xarici siyasət suverenliyinin təmin olunmasına maneçilik törətmək deyil, köməklik göstərmək istiqamətində olmasını arzulayır. Əslində, bəhs olunan Rusiya-Ermənistan hərbi müttəfiqlik müqaviləsindən bir az keçməmiş Rusiyanın erməni ordusuna bir milyard dollar dəyərində "təmənnasız" hərbi texnika, silah-sursat bağışlaması ətrafında yaranmış beynəlxalq hay-küy də göstərdi ki, bu ölkənin Cənubi Qafqazdakı hərbi-strateji fəaliyyəti hələ də anlaşılmaz olaraq qalır. Odur ki, Azərbaycan öz regional təhlükəsizliyi ilə

bağlı həm Rusiya, həm ABŞ, NATO və Türkiyə, həm də digər strukturlarla, ayrı-ayrı maraqlı ölkələrlə fərdi tərəfdaşlıq siyasətini davam etdirir.

Rusiya ilə münasibətdə Azərbaycanın həyata keçirdiyi regional təhlükəsizlik siyasəti ona əsaslanır ki, bu ölkə bölgədə həlledici söz sahibidir və bu gün onu Azərbaycanın maraqlarına uyğun siyasət yürütməyə məcbur etmək mümkün deyilsə, deməli, bu ölkənin mövcud siyasətinin verdiyi imkanlardan maksimum bəhrələnərək, Azərbaycanın milli, regional və beynəlxalq təhlükəsizliyi sahəsində qarşıda duran digər milli vəzifələri həyata keçirmək lazımdır. Regional təhlükəsizlik sahəsində Rusiya ilə Azərbaycanın üst-üstə düşən maraqları sırasında, əsasən, onların müştərək sərhədlərə malik olması və həmsərhəd bölgələrdə sabitliyin qorunması, hər ikisinin etnik separatizmdən əziyyət çəkməsi, bir-birinə sabitliklə bağlı yardım etməsi və s. göstərilir. Hər iki ölkə həm də ortaq təhlükəsizlik təhdidlərinə - terrorçuluq, ekstremizm, radikal islam təmayülləri, mütəşəkkil cinayətkarlıq, narkotik qaçaqmalçılığı və silah alveri kimi problemlərə qarşı da birgə mübarizə maraqlarına malikdir. Bu sahədə hər iki ölkənin təhlükəsizlik orqanları sıx və səmərəli əməkdaşlıq edirlər.

Rusiya Cənubi Qafqazda Azərbaycanın NATO və Türkiyə ilə istənilən hərbi-geostrateji əlaqələrini, əməkdaşlıq cəhdlərini ciddi qısqanclıqla qarşılayır. Bu ölkə bütün Qafqaza, o cümlədən də Azərbaycanın suveren ərazisinə "öz milli təhlükəsizlik zonası" kimi baxır və bu əraziyə hər hansı kənar dövlətin hərbi-geosiyasi nüfuzunu qəbul etmir. Bu da iki ölkənin təhlükəsizlik siyasətinin üst-üstə düşməyən məqamları sırasına daxildir. Azərbaycan dövləti bütün bunları nəzərə alaraq NATO-ya üzvlük haqqında indiyə qədər heç bir bəyanat verməmiş və onunla yalnız Rusiyanın özünün də həyata keçirdiyi "hərbi-

geostrateji əməkdaşlıq" əlaqələri yaratmışdır. Azərbaycan eyni zamanda, Rusiyaya və onun yaratdığı KTMT-yə də indiyə qədər "üzvlük formasında" münasibətlərə deyil, yalnız "hərbi təhlükəsizlik sahəsində bərabərhüquqlu əməkdaşlıq" etməyə müsbət cavab vermişdir.

Lakin bir faktı da qeyd etmək lazımdır ki, 1992-2000-ci illərdəkindən fərqli olaraq, Rusiyanın Cənubi Qafqazdakı bugünkü regional təhlükəsizlik siyasətində və Azərbaycanla hərbi-geostrateji münasibətlərində müsbətə doğru ciddi dəyişikliklər hiss olunmaqdadır. Məsələn, indiyədək dəfələrlə sınaqdan keçirilmiş "etnik münaqişələr" taktikasına yanaşmada Rusiyanın mövqeyindəki müsbət dəyişikliklər hələ 1994-cü ildən - Çeçenistan münaqişəsi alovlanandan sonra hiss olunmağa başlamışdır. Həmin il Rusiya Prezidenti Boris Yeltsinin Federasiya Şurasındakı çıxışında verdiyi "Rusiya sərhədləri yaxınlığındakı münaqişə ocaqları, MDB ölkələrindəki iqtisadi və dövlətçilik böhranları Rusiya üçün real təhlükədir" bəyanatı bundan xəbər verirdi. Lakin bu sahədə ciddi dəyişikliklər daha çox Vladimir Putinin prezident seçilməsi və ali hakimiyyətə gəlməsindən sonra baş vermişdir. Bəzi mütəxəssislər hesab edirlər ki, istənilən halda, Rusiyanın regional proseslərə və Cənubi Qafqazın təhlükəsizlik problemlərinə yanaşması əsrlər boyu bu ölkədə formalaşmış "parçala, hökm sür" strategiyasından kənara çıxmır. Onların fikrincə, Dağlıq Qarabağ münaqişəsi yaranan vaxtdan Rusiyanın açıq, yaxud gizli formada Ermənistanı dəstəkləməsi onun Azərbaycanla münasibətlərinə birmənalı mənfi təsir göstərmişdir. Azərbaycan Rusiyanın belə siyasətinə qarşı bəzən Avroatlantik strukturlarına inteqrasiya yolunu tutmaq, öz təhlükəsizliyinin təmin olunmasında alternativ yollar axtarmaq, ABŞ, Türkiyə və digər NATO üzvlərinə, onların təsir imkanlarına arxalanmaq kimi addımlar atmağa

məcbur olur ki, bu da Rusiyanı qane etmir. Bundan başqa, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olduğundan, Rusiya ilə hərbi-strateji müttəfiqlik münasibətləri yaradaraq öz ərazisində bu ölkənin hərbi bazalarını yerləşdirmişdir. Rusiya Ermənistanı ucuz enerji ehtiyatları və təmənnasız olaraq silahlarla təmin edir. Bu da Azərbaycanın regional təhlükəsizliyinə müəyyən təhdidlər yaradır. Rusiya həm də Azərbaycanın Cənubi Qafqazda hərbi-strateji cəhətdən güclənməsinə, Türkiyə, ABŞ və NATO ilə təhlükəsizlik sahəsində tərəfdaşlıq əlaqələrinin yaranmasına qısqanclıqla yanaşır və maneçilik törədir. Bütün bunlar da iki ölkə arasındakı münasibətlərə mənfi təsir göstərir.[184]

Regionun enerji təhlükəsizliyi sahəsində də Rusiyanın Azərbaycanla tam üst-üstə düşməyən bir çox geoiqtisadi maraqları mövcuddur. Əsas siyasəti dünya enerji bazarında bugünkü aparıcı mövqelərini və Xəzər hövzəsinin enerji ehtiyatları üzərində ənənəvi təsir mexanizmlərini qorumaq və davamlı şəkildə saxlamaqdan ibarət olan Rusiya Cənubi Qafqaz və Xəzər hövzəsində mövcud sahədə onunla rəqabət yaradan Azərbaycanın enerji ixracatçısı kimi çıxış etməsindən bir qədər narahat görünür. Rusiya həm də ABŞ, Avropa Birliyi, Çin və başqa ölkələrin sərbəst şəkildə, onun iradəsindən kənarda bölgəyə daxil olmasının və Xəzər hövzəsinin zəngin neft-qaz ehtiyatlarına çıxışının, bu məhsulların Azərbaycan, Gürcüstan, Türkiyə vasitəsilə Avropa və Asiya bazarlarına çatdırılmasının tərəfdarı deyil. Üçüncü minillikdə Xəzər və Orta Asiyanın enerji mənbələri uğrunda gedən qlobal mübarizənin tərkib hissəsi sayılan bu prosesdə Azərbaycanın enerji təhlükəsizliyi ma-

[184] Aleksandr Raar, Sebastian Riider. Azərbaycanın Qara dəniz-Xəzər hövzəsi regionunda geosiyasi rolu// "Azerbaijan Focus" jurnalı, №1, 2009-cu il, s. 45

raqları daha çox azad bazar münasibətlərini təşviq edən ölkələrinki ilə üst-üstə düşür. Mütəxəssislər hesab edirlər ki, Xəzər hövzəsində Rusiyanın enerji maraqları, hər şeydən əvvəl, özünün enerji təhlükəsizliyini möhkəmləndirməyə yönəlib və qonşu ölkələrin adekvat maraqları ilə üst-üstə düşmür. Rusiyanın Azərbaycanla üst-üstə düşməyən enerji və nəqliyyat təhlükəsizliyi siyasətinin əsasında Cənubi Qafqaz və Mərkəzi Asiyanın enerji daşıyıcılarının Avropa istehlakçılarına birbaşa satışına, regiondan Avropaya Rusiya ərazisindən yan keçməklə reallaşdırılan nəqliyyat-tranzit yollarına, neft-qaz kəmərlərinin tikintisinə münasibət məsələsi, "kənar qüvvələrin" Azərbaycan vasitəsilə regionun enerji və transmilli nəqliyyat sektoruna çıxışını məhdudlaşdırmaq xətti dayanır. Rusiyanın Xəzər hövzəsini Avropanın enerji bazarları ilə bağlayan köhnə ixrac kəmərlərindən əvvəlki illərdə olduğu kimi istifadəni davam etdirmək və onun iradəsi xaricində yeni müstəqil marşrutlar yaradılmasına mane olmaq siyasəti Azərbaycanı və onun tərəfdaşlarını qane etmir.

§ 5.3. ABŞ, NATO və Avropa İttifaqının Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yürütdüyü regional təhlükəsizlik siyasəti və Azərbaycanın hərbi-geostrateji maraqları

ABŞ, NATO və Avropa İttifaqından ibarət üçlük Cənubi Qafqaz bölgəsi və Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizliyi ilə bağlı Rusiyadan fərqli olan **ikinci əsas beynəlxalq mövqenin** daşıyıcıları hesab olunur. Geosiyasi ədəbiyyatda şərti olaraq "Qərb Alyansı" kimi təsnif olunan bu düşərgənin başında ABŞ dayanır və qrupun fəaliyyət strategiyasını da o müəyyənləşdirir.

Alyansın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı təhlükəsizlik siyasətini məzmununa və mahiyyətinə görə dörd mərhələyə bölmək olar.

Birinci mərhələ - 1990-cı illərin əvvəllərini əhatə edir. Bu mərhələdə ABŞ öz müttəfiqləri ilə bölgəni geosiyasi, hərbi-geostrateji və geoiqtisadi cəhətdən tədqiq edir, Orta Asiya və Xəzərin enerji ehtiyatlarının həcmini, onlara çıxışın təmin edilməsi yollarını, müstəqil marşrutlarla dünya bazarlarına ixracı imkanlarını öyrənir, Qara-Xəzər dənizləri hövzəsinin, Cənubi Qafqazın dünya siyasətində, Şərq-Qərb geoiqtisadi əlaqələrində yerini və rolunu, tranzit-nəqliyyat imkanlarını qiymətləndirir və məxsusi regional təhlükəsizlik siyasətini planlaşdırır. Bu mərhələdə Qərb Alyansı bölgədə daha çox NATO üzvü olan bəzi ölkələrin daxili qeyri-hökumət strukturları və xüsusən də Türkiyə təşkilatları vasitəsilə fəaliyyət göstərir.

İkinci mərhələdə - 1990-cı illərin əvvəlləri və ortalarından etibarən Xəzər-Qara dəniz hövzəsinin, Cənubi Qafqazın geosiyasi, hərbi-geostrateji və geoiqtisadi əhəmiyyətini nəzərə alan ABŞ və onun NATO üzrə müttəfiqləri bu regionda fəal geosiyasət yürütməyə başlayırlar. 1993-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzələrinin transmilli təhlükəsizliyi və region ölkələrinin milli ordu quruculuğu işinə cəlb edilməsi, 1994-cü ildən Xəzər hövzəsi və Orta Asiyanın enerji ehtiyatlarının Qərbin enerji təhlükəsizliyi ilə əlaqələndirilməsi, Rusiyanın bölgə üzərində hegemon geosiyasi və geoiqtisadi mövqeyinin zəiflədilməsi istiqamətində müxtəlif proqramların reallaşdırılması və s. tədbirlər həyata keçirilir. Mütəxəssislərin fikrincə, bu dövrdə ABŞ-ın və müttəfiqlərinin regional geosiyasətinin dörd əsas hədəfi var idi:

- Bölgə üzərində Qərbin geosiyasi, geoiqtisadi və hərbi-strateji təsirini artırmaq və onu Rusiyanın inhisarından çıxarmaq;
- Xəzər hövzəsinin enerji mənbələrinin birgə istismarını, Qara dəniz və Avropaya müstəqil marşrutlarla sərbəst ixracını təmin etmək, ixrac marşrutlarını şaxələndirmək, bölgənin əsas karbohidrogen ehtiyatları üzərində geosiyasi və geoiqtisadi nəzarəti ələ almaq;
- Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz ölkələri ilə hərbi-geostrateji əməkdaşlıq əlaqələri qurmaq, onların milli ordu quruculuğunu dəstəkləmək, NATO standartlarına uyğunlaşdırmaq;
- Bu ölkələr üçün Alyansın təhlükəsizlik sisteminə gələcək strateji tərəfdaşlıq yolunu açmaq.

Bu mərhələdə ABŞ artıq NATO, Avropa Birliyi və Türkiyə ilə yanaşı, ortaq maraqlar əsasında bölgədə bəzi yerli tərəfdaşlarla - Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova, Özbəkistan, Qırğızıstan və s. kimi qərbyönümlü siyasət yürüdən ölkələrlə birlikdə hərəkət etməyə başlayır.

1994-2001-ci illərdə ABŞ özünün və müttəfiqi olan Avropa dövlətlərinin enerji təhlükəsizliyini təmin etmək, Qərbin artan enerji ehtiyaclarının ödənilməsini Rusiyanın bu sahədəki ənənəvi asılılığından qurtarmaq, yanacaq təchizatını şaxələndirmək məqsədilə Xəzərin və Orta Asiyanın karbohidrogen ehtiyatlarının birgə istismarına və birbaşa nəqlinə xüsusi səy göstərmişdir. Bu sahədə Azərbaycan və Qazaxıstanla strateji tərəfdaşlıq münasibəti yaradaraq, Xəzərdə Qərb şirkətləri ilə birgə neft-qaz istehsalına, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin və b. enerji dəhlizlərinin yaradılmasına, Xəzərin enerji ehtiyatları ilə Avropa bazarları-

nın birbaşa əlaqələndirilməsinə ciddi kapital qoymağa başlayır. Xəzər dənizinin zəngin neft-qaz ehtiyatlarının Rusiya və İrandan asılı olmayan yollarla Avropaya nəqli həm bölgənin enerji istehsal edən və tranzit ölkələrinin, həm də ABŞ və AB-nin regional geosiyasi maraqlarına uyğun idi. Çünki ABŞ hesab edirdi ki, BTC kəməri Rusiyanın və İranın regionda enerji sektoruna nəzarət etməsinin qarşısını alacaqdır.[185]

90-cı illərin ortalarında Bill Klinton administrasiyası Xəzər-Qara dəniz regionu və Cənubi Qafqazı özünün həyati maraqlar zonası elan edir və onun gələcək təhlükəsizlik arxitekturasının planlaşdırılmasına başlayır. 1994-cü ildən Azərbaycan və Gürcüstan NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına cəlb edilir və hər iki ölkənin gələcəkdə Şimali Atlantika Alyansına cəlb edilməsi yolları aranmağa başlayır. Regionun ABŞ üçün geosiyasi əhəmiyyətini nəzərə alaraq, Prezident Administrasiyasında Xəzər-Qara dəniz regionu üzrə ayrıca şöbə yaradılır, Prezidentin və dövlət katibinin Xəzər regionunda enerji məsələləri üzrə xüsusi müşaviri vəzifəsi təsis edilir. Amerika və Avropa Birliyinin dəstəyi ilə Azərbaycan, Türkiyə və Gürcüstan kimi ölkələr bölgənin geosiyasi və geoiqtisadi həyatında həlledici amilə çevrilərək, Qərbin əsas tərəfdaşları elan edilirlər. Xüsusən enerji, nəqliyyat-kommunikasiya və yeni ixrac marşrutları məsələsində Azərbaycanın mövqeləri ciddi şəkildə möhkəmlənir. BTC və BTƏ boru kəmərləri layihələrinin reallaşması ilə bağlı Azərbaycanın ortaya qoyduğu milli iradənin reallaşmasına ABŞ və Türkiyənin verdiyi real dəstək, bu sahədə onların beynəlxalq aləmdə yürütdükləri fəal siyasət həlledici rol oynayır.

[185]Papava V. "Qafqaz Tandemi"nin yaradılması və inkişafı // "Azerbaijan Focus" jurnalı, №1,2009-cu il, s. 86

Qeyd edək ki, bu mərhələdə Azərbaycan Cənubi Qafqazda yürütdüyü təhlükəsizlik siyasətini və milli geosiyasi maraqlarını ABŞ və onun qərb müttəfiqlərinin yürütdüyü region siyasəti ilə uzlaşdırmağa və ortaya qoyduqları geoiqtisadi maraqları nəzərə almağa çalışmışdır. Mütəxəssislərin fikrincə, əgər 1990-cı illərin ortalarından başlayaraq 2001-ci ilin 11 sentyabr hadisələrinədək ABŞ-ın Azərbaycanla bağlı siyasətində daha çox enerji maraqları üstünlük təşkil edirdisə, sonrakı mərhələdə onun siyasətində yeni meyillər özünü göstərməyə başladı, xüsusilə qlobal terrorizmə qarşı mübarizədə, Cənubi Qafqazın regional təhlükəsizliyinin təmin olunmasında münasibətdə tərəfdaşlıq münasibətləri ön plana çıxdı. Azərbaycan regionda ABŞ-ın beynəlxalq terrorizmə qarşı apardığı siyasəti fəal şəkildə dəstəkləyən ölkələrdən biri, müsəlman dövlətlərindənsə birincisi oldu. Onun hərbi hissələrinin Əfqanıstan, Kosova və İraqda beynəlxalq sülhyaratma qüvvələrinin tərkibində ABŞ-la yanaşı iştirak etməsi iki ölkə arasında təhlükəsizlik sahəsində sonrakı strateji tərəfdaşlığa ciddi təkan verdi.

Azərbaycanın ABŞ və NATO üçün hərbi-geostrateji əhəmiyyətini artıran amillərdən biri də onun Xəzərə birbaşa çıxışı və İranla qonşu dövlət olması idi. ABŞ-ın siyasi rəhbərliyi və NATO təhlükəsizlik strukturları İranla münasibətlərin son böhran halına çata biləcəyi halda, Azərbaycanın hava məkanından bu ölkəyə hərbi hücum məqsədilə istifadə edəcəyini düşünürdü. Lakin Azərbaycan həm ABŞ və NATO-nun, həm də başqa ölkələrin regiondakı hərbi-geostrateji münaqişələri üçün meydan olmayacağını, İrana, yaxud digər qonşu ölkəyə hər hansı üçüncü qüvvənin hücumuna dəstək verməyəcəyini, qonşularla etibarlı tərəfdaşlıq münasibətlərini daim qoruyacağını və ərazisindən digər dövlətin hərbi məqsədlər üçün istifadəsinə icazə verməyəcəyini bəyan edərək, öz müstəqil iradəsini ortaya

qoydu və sona qədər bu mövqeyə sadiqlik nümayiş etdirdi. Azərbaycanın ortaya qoyduğu milli iradə ABŞ və NATO ilə hərbi-strateji tərəfdaşlıq münasibətlərinə müəyyən mənfi təsir göstərdi.

Bu mərhələdə və sonrakı illərdə regional təhlükəsizlik sahəsində Azərbaycanın ABŞ və NATO ilə strateji tərəfdaşlığına mənfi təsir göstərən bir neçə digər məqamlar da mövcud olmuşdur. Bunların sırasında, mütəxəssislərin fikrincə, ilk növbədə NATO-nun və ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi ABŞ-ın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bir qədər məsafə saxlamalarını, münaqişənin həlli üçün qətiyyətli addımlar atmamalarını və beynəlxalq hüququn tələblərinə biganə münasibətlərini qeyd etmək olar. Xüsusən ABŞ-ın bu məsələyə başlanğıcdan qeyri-prinsipial və ikili yanaşması Azərbaycanın ictimai rəyində mənfi qarşılanmışdır ki, bu da iki ölkə arasında hərbi təhlükəsizlik sahəsində gələcək tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsinə öz mənfi təsirini göstərmişdir. Mütəxəssislərin fikrincə, Azərbaycan ictimaiyyəti ABŞ-ın Dağlıq Qarabağ siyasətini həmişə mənfi dəyərləndirmiş və bu ölkənin fəaliyyətini "Cənubi Qafqazda sadəcə öz enerji ehtiyaclarını ödəmək, neft boru kəmərlərinin təhlükəsizliyini təmin etmək, Rusiyanı bölgədən sıxışdırmaq və Azərbaycanı İrana qarşı meydan kimi istifadə etməkdən ibarət" praqmatik bir mövqe kimi qəbul etmişdir. [186]

Şimali Atlantika Alyansının, xüsusən də ABŞ-ın dünyada, o cümlədən Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda həyata keçirdiyi təhlükəsizlik siyasətindəki **üçüncü mərhələ** 2001-ci ilin 11 sentyabr hadisələrindən başlayır və 2008-ci ildə

[186]Rayner Fraytaq-Virminqhaus. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti//"Azerbaijan Focus" jurnalı, №1, 2009-cu il, s. 103

ABŞ-da Barak Obamanın hakimiyyətə gəlməsinə qədər davam edir. Bu mərhələdə ABŞ Cənubi Qafqazda, Xəzər-Qara dəniz hövzəsi və Mərkəzi Asiyada fəal təhlükəsizlik siyasətinə başlayır və öz diqqətini bölgənin beynəlxalq və regional təhlükəsizlik məsələlərinə, Rusiyanın tədricən Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzələrindən sıxışdırılmasına, NATO-nun bölgə ölkələri hesabına Şərqə doğru genişləndirilməsinə və s. yönəldir. Cənubi Qafqaz, Qara dəniz hövzəsi və bəzi Orta Asiya ölkələrinin "Fərdi tərəfdaşlıq proqramı" çərçivəsində NATO və NATO üzvü olan əsas müttəfiq dövlətlərlə hərbi-geostrateji əlaqələrini yaradır, blokun bölgədə hərbi-geostrateji cəhətdən möhkəmlənməsinin qayğısına qalır. Həmin tədbirlər sırasında ABŞ və NATO qoşunlarının bölgənin strateji, hərbi-geosiyasi hədəflərinə, hərbi hava yollarına sərbəst çıxışının təmin edilməsi, bölgə ölkələri ilə və qurumlarla hərbi tərəfdaşlıq münasibətlərinin yaradılması, onların dünyanın münaqişəli bölgələrindəki beynəlxalq sülhyaratma proseslərinə cəlb edilməsi s. kimi məsələlər diqqəti çəkirdi.

Azərbaycan ABŞ-ın bəhs olunan dövrdəki fəal regional təhlükəsizlik siyasətinə, beynəlxalq və regional sülhyaratma təşəbbüslərinə, hərbi və siyasi tərəfdaşlıq çağırışlarına hərtərəfli dəstək verir və hansısa formada NATO-ya qoşulmaq, öz təhlükəsizlik taleyini bu Alyansla bağlamaq məsələsi istisna olmaqla:

- ABŞ və NATO ilə "Sülh naminə tərəfdaşlıq" və "Fərdi tərəfdaşlıq" proqramları çərçivəsində ikitərəfli və çoxtərəfli hərbi-strateji əməkdaşlığı gücləndirir;
- Əfqanıstana və İraqa ABŞ və NATO təyyarələrinin sərbəst uçuşu üçün hərbi hava dəhlizi açır;
- ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizə koalisiyasına qoşularaq, onunla birlikdə dünyanın ayrı-ayrı

münaqişə bölgələrində sülhyaratma proseslərində iştirak edir.

ABŞ-ın təhlükəsizlik siyasətində **yeni dövr kimi xarakterizə edilə biləcək dördüncü mərhələ**, analitiklərin fikrincə, Barak Obamanın 2008-ci ildə hakimiyyətə gəlişindən sonra başlanır. Bu dövrdə ölkənin dünya və regional siyasətində, Milli Təhlükəsizlik Strategiyasında əsaslı dəyişikliklər edilmiş və onun çoxstandartlılığı bir qədər də gücləndirilmişdir. 2 may 2010-cu ildə Prezident Obama tərəfindən təsdiq olunaraq dərc olunan yeni Təhlükəsizlik Strategiyasında Corc Buş administrasiyasının 2002-ci ildə qəbul etdiyi təhlükəsizlik strategiyasının "milli təhlükəsizliyin təmin olunması naminə, lazım gələndə bütün dünyada əksər təhlükə mənbələrinə hücumetmə" prinsipindən tam imtina edilmiş, ölkənin planetar sülhyaratma və ABŞ-ın təhlükəsizliyini qoruma siyasətinə əsaslı düzəlişlər olunmuşdur.[187]

Mütəxəssislərin dəyərləndirmələrinə görə, yeni strategiyada ABŞ-ın həm dünyaya geosiyasi baxışı, ona təsir etmə siyasəti, həm də tətbiq edəcəyi metod və vasitələr köklü surətdə dəyişmiş, milli təhlükəsizliyin təminatı ilə bağlı əvvəlki yanaşmalar yenilənmişdir. Məsələn, əvvəlki yanaşmasında formal şəkildə olsa da, ABŞ dünya ölkələrinin böyüklüyü və yaxud kiçikliyindən asılı olmayaraq, coğrafi məkanlar üzrə "hansısa böyük dövlətlərin maraq dairəsinə" daxil edilməsinin və təhlükəsizliklə bağlı müstəqil seçimlərinin məhdudlaşdırılmasının əleyhinə çıxırdı. Bu sahədə postsovet məkanında Rusiyanın nümayiş etdirdiyi siyasəti "hegemonluq siyasəti" kimi dəyərləndirərək, beynəlxalq hüquqa daban-dabana zidd hərəkət kimi

[187]Bax: ABŞ-ın 2010-cu il Milli Təhlükəsizlik Strategiyası. http//constitut.ru/archives/5602/5

tənqid edirdi. Yəni həmin mövqeyə görə, Rusiya da daxil olmaqla, əksər dünya ölkələrinin Cənubi Qafqaz və digər regionlardakı "milli maraqları və onların qorunması cəhdləri" öz dövlətinin ərazisi çərçivəsindən kənara çıxmamalı, beynəlxalq hüququn subyekti olan başqa müstəqil ölkələrin eyni maraqlarına toxunmamalı və onların hesabına təmin olunmamalı idi. Təhlükəsizlik və milli maraqların təmin olunmasında ABŞ hökuməti rəsmi formada "hər hansı coğrafi məkan, region, bölgə prinsipi" və s. bölgüləri qəbul etmirdi. Bu yanaşmada hər bir konkret ölkənin, yaxud ölkələr blokunun "məxsusi coğrafi əraziləri çərçivəsində" öz milli və təhlükəsizlik maraqlarını təmin edə bilməsindən söhbət gedirdi. ABŞ və NATO rəsmiləri öz açıqlamalarında dəfələrlə "Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinin sərbəst şəkildə istədikləri hərbi bloka daxil olmaq" hüququnu, həm də "NATO kimi hərbi blokların yeni ölkələrin üzv qəbul edilməsi ilə bağlı öz şərtlərini müstəqil müəyyən etmək hüququnu" məqbul hesab edirdilər. Onların fikrincə, müasir beynəlxalq münasibətlərdə bu hüquqların (ölkələrin sərbəst seçim etmək, təşkilatların isə məxsusi şərtlər irəli sürmək hüququndan söhbət gedir - Ə.H.) üstündə digər hər hansı bir "kənar hüquq", "kənar maraq", yaxud "maraq dairəsi" və s. mövcud deyildir. Lakin praktikada, mütəxəssislərin fikrincə, həm keçmişdə, həm də elə yeni strategiya çərçivəsində ABŞ da elə digər BMT təhlükəsizlik şurasının daimi üzvləri kimi "öz milli təhlükəsizliyinin təminatını" hansısa xarici ölkələrin ərazisinə, ayrı-ayrı regionlardakı obyektlərə BMT-nin sanksiyasını almadan təkbaşına hücum etməklə, hərbi zərbələr endirməklə, dünyada yeni-yeni hərbi qarşıdurma ocaqları yaratmaqla, bütöv regionları, ölkələri və xalqları terrorçu elan edərək, onlarla yeni-yeni müharibələrə başlamaqla həyata keçirir.

Mütəxəssislər hesab edir ki, yeni strategiyada ABŞ bir tərəfdən və daha çox öz ölkəsinin daxili dinamik inkişafı haqqında düşünür, digər tərəfdənsə xarici aləmlə razılaşdırılmış və uzlaşdırılmış təhlükəsizlik siyasəti yürütməyi, münasibətlərini dialoq, diplomatik danışıqlar və ortaq maraqların tapılması yolu ilə tənzimləməyi hədəfə götürür.

Amerikanın hazırkı milli təhlükəsizlik strategiyasında ABŞ və NATO-nun dünyadakı maraqları, onların təmin edilməsində toqquşduğu, tərəfdaşlıq etdiyi və rəqabətə girdiyi ölkələrin təsnifatı və s. məsələlər də əvvəlkindən ciddi şəkildə seçilir. Məsələn, ABŞ öz beynəlxalq və regional təhlükəsizlik siyasətinə ciddi düzəlişlər edərək, əsas diqqətini Avrasiyanın Xəzər-Qara dəniz hövzəsi, Mərkəzi Asiya və Cənubi Qafqaz kimi bölgəsindən çəkərək, Əfqanıstan, İran kimi Cənubi Asiya və Şimali Afrikanın ərəb ölkələrinə yönəldir. Əvvəlki strategiyada ABŞ və onun Şimali Atlantika bloku üzrə müttəfiqləri Avrasiya subregionunda İranı özlərinə təhlükə, Rusiya və Çini rəqib, Türkiyə, Ukrayna, Azərbaycan, Gürcüstan və Orta Asiya ölkələrini tərəfdaş kimi qiymətləndirərək, Qərbin maraqlarını təmin etmək məqsədilə ikincilərin bölgədəki mövqelərinin gücləndirilməsini, Rusiyanın geosiyasi təsirindən çıxarılmasını və tədricən Qərbin iqtisadi-siyasi, NATO-nun təhlükəsizlik sisteminə yaxınlaşdırılmasını əsas geostrateji vəzifə hesab etdikləri halda, yeni strategiyada, əksinə, ABŞ keçmiş regional tərəfdaşları hesab olunan bölgənin kiçik ölkələrinin təhlükəsizliyinə və beynəlxalq hüquqlarına, o cümlədən regionda müstəqil siyasət yürütmək istəklərinə "hörmətlə yanaşdığını" və "dəstək verdiyini" formal olaraq bəyan edir. Faktiki olaraq isə Avrasiyanın Xəzər-Qara dəniz hövzəsi, Mərkəzi Asiya və Cənubi Qafqaz kimi əhəmiyyətli geosiyasi məkanlarında ABŞ Rusiya ilə siyasi, geoiqtisadi və hərbi-geostrateji qarşıdurma-

dan imtina edərək iki ölkənin qarşılıqlı maraqlarına əsaslanan tərəfdaşlıq xətti götürmüşdür. Yeni kursa müvafiq olaraq bu ölkə, Gürcüstan istisna olmaqla, Avrasiyada neçə illərdir ki, üstün diqqət ayırdığı digər tərəfdaşlarını, o cümlədən Azərbaycanı öz geostrateji məsələləri və problemləri ilə üz-üzə buraxmışdır.

Yeni sənəddə əsas diqqət dünyanın və ayrı-ayrı regionların NATO bloku xaricində mövcud olan böyük gücləri, regional liderləri və geosiyasi təsir mərkəzləri ilə - Rusiya, Çin, Hindistan, İndoneziya, Braziliya, Cənubi Afrika Respublikası və s. ölkələrlə tərəfdaşlıq münasibətlərinə yönəldilmişdir. Bundan başqa, ABŞ dünyada mövcud olan "böyük yeddilər" formatını "böyük iyirmilər" formatına qaldırmaq, onların dəstəyi ilə dünyada və regionda baş verən hadisələri idarə etmək, "böyük iyirmilər"ə sərf edən yeni ortaq maraqlar sistemi tapmaq və bütün sahələr üzrə dövlətlərarası münasibətləri inkişaf etdirmək, planetdə sülh və təhlükəsizliyi təmin etmək və möhkəmləndirmək vəzifəsini də yeni strategiyasında hədəfə almışdır. Bu sənəddə ABŞ-ın ənənəvi müttəfiqləri hesab olunan Avropa Birliyi ölkələrinin, Yaponiya və Cənubi Koreyanın, Qərb yarımkürəsində Kanada və Meksikanın, Yaxın Şərqdə İsrailin maraqlarına dəstək, bir çox ərəb ölkələri ilə təhlükəsizlik və enerji sahəsində reallaşdırılan ortaq tərəfdaş mövqeyi istisna olmaqla, qalan dünya ölkələri ilə münasibətlərə yalnız öz ölkəsinin milli maraqları çərçivəsində yanaşma taktikası öz əksini tapmışdır. Mütəxəssislər hesab edirlər ki, Rusiyanın son illərdə yenidən "dünya dövləti" statusunu geri qaytarmaq və 1991-ci ildən sonra Avrasiyada itirdiyi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji təsirini bərpa etmək cəhdləri fonunda ABŞ-ın dünyada reallaşdırdığı sönük və qeyri-prinsipial siyasət, planetin yeganə fövqəldövləti statusunu tədricən itirməsi

və s. dünyada yeni geosiyasi reallıq yaradaraq, əksər dövlətləri öz xarici siyasət xəttinə, xarici ölkələrlə, hərbi, siyasi, iqtisadi birlik və bloklarla münasibətlərinə yenidən baxmaq məcburiyyəti qarşısında qoyur. Məsələn, ABŞ və NATO-nun Avrasiyadakı ən etibarlı, əhəmiyyətli və vacib müttəfiqi hesab olunan Türkiyənin, ABŞ-ın Cənubi Amerikadakı müttəfiqi Braziliyanın və digər bir çox dövlətlərin son zamanlar nümayiş etdirdiyi geosiyasi və xarici siyasət strategiyası bunun əyani sübutudur. ABŞ-ın "The Heritage" Fondunun Avrasiya, Rusiya və beynəlxalq enerji təhlükəsizliyi üzrə eksperti Ariel Koen Prezident Barak Obama və onun administrasiyasını Cənubi Qafqaz və Orta Asiyada yürütdüyü siyasətə, bölgənin strateji önəm kəsb edən Azərbaycan, Gürcüstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və s. kimi ölkələri ilə zəif hərbi-geostrateji əlaqələr yaratması, öz geostrateji tərəfdaşlarını Rusiyaya güzəştə getməsi və s. addımlarına görə ciddi tənqid etmiş və yazdığı məqalədə hökumət rəsmilərini ABŞ-ın milli maraqlarını pozmaqda günahlandırmışdır. A.Koen öz ölkəsinin hərbi strukturlarını Cənubi Qafqazın adı çəkilən iki dövlətinə ən müasir silahlarla kömək göstərərək, onların hərbi-geostrateji müstəqilliyinə dəstək verməyə çağırmışdır.[188]

ABŞ Konqresinin 1992-ci ildə Azərbaycan əleyhinə bədnam "907-ci düzəlişi" qəbul etməsindən ötən müddət ərzində bu ölkənin Cənubi Qafqazda həyata keçirdiyi regional təhlükəsizlik siyasətində və Azərbaycan-ABŞ münasibətlərində ən anlaşılmaz məqam müasir mərhələyə - Barak Obamanın prezidentliyi dövrünə təsadüf edir. Bu dövrdə, mütəxəssislərin fikrinə görə, ABŞ-ın həm bütövlükdə Cənubi Qafqazda yürütdüyü təhlükəsizlik siyasəti, həm Ermənistan-Azərbaycan, Dağlıq

[188]Bax: газ. "Зеркало", 3 ноября 2010 г.

Qarabağ münaqişəsinin nizamlanması istiqamətində nümayiş etdirdiyi passiv fəaliyyət, həm də ikitərəfli əməkdaşlıq və strateji tərəfdaşlıq sahəsində atdığı praktik addımlar Azərbaycanı qane edə bilməzdi. Məsələn, ABŞ 2010-cu ildə Rusiyanın Ermənistanla bağladığı hərbi müttəfiqlik müqaviləsinin vaxtını yenidən uzatmasını və bu dövləti Cənubi Qafqazda lazım olduğundan artıq silahlandıraraq militarist ölkəyə çevirməsini "iki ölkənin daxili məsələsi" kimi qiymətləndirdi ki, bu da Azərbaycan tərəfinin haqlı narazılığına səbəb oldu.[189] Əslində, bu mövqeyi ilə ABŞ indiyə qədər bölgədə həyata keçirdiyi siyasətin qeyri-səmimi olduğunu və yalnız öz maraqlarına söykəndiyini nümayiş etdirdi. Bir vaxtlar SSRİ Kuba ilə təxminən belə bir müqavilə imzalayarkən, ABŞ bütün dünyanı beynəlxalq və regional təhlükəsizliyin pozulacağı həyəcanı ilə SSRİ-yə qarşı çıxmağa təhrik etmişdi. Bundan başqa, 90-cı illərin axırında Azərbaycan ATƏT-in Cənubi Qafqazdakı adi döyüş silahları ilə bağlı "Cinah sazişi"nə *1992-ci ildə onun ədalətli kvota (saxlaya biləcəyi hərbi texnika və adi silahların miqdarı) haqlarının pozulmasına görə* yenidən qoşulmaqdan və öz öhdəliklərini təsdiqləməkdən imtina etdiyi zaman ABŞ-ın tutduğu mövqe ilə Rusiyanın indiki hərəkətlərinə biganəliyi arasında o qədər açıq-aşkar ziddiyyət mövcud idi ki, bunu izah etmək çox çətin idi. O zaman ABŞ-ın böyük təhdidlərlə Azərbaycanı, Gürcüstanı, Ermənistan və Rusiyanı Avropada təhlükəsizlik adı altında ATƏT-in Cənubi Qafqaz üçün hazırladığı cinah məhdudiyyəti sazişinə qoşulmağa vadar etməsini və halhazırda Rusiyanın həmin müqaviləni pozaraq, Cənubi Qafqazda öz silahlarını artırmasına və ermənilər sürətlə silahlandırmasına Vaşinqtonun münasibətini bölgədə Amerikanın strateji

[189]Bax: газ. "Зеркало", 27 августа 2010 г.

tərəfdaşı hesab edilən Azərbaycanda və Gürcüstanda anlamaq çox çətin idi.

Azərbaycan ictimaiyyəti həmin vaxt həm ABŞ və NATO-nu, həm də Türkiyəni Cənubi Qafqazda Ermənistanın militaristləşməsinə və öz silahlı qüvvələrini beynəlxalq sanksiya olmadan bölgədə istədiyi kimi istifadə etməsinə etiraz bildirməyə çağırırdı. Lakin bütün bunlar baş vermədi. Bu da onu göstərdi ki, günün birində "ermənilər qorumaq" adı ilə hər hansı bir ölkə yenə də beynəlxalq sanksiya olmadan Dağlıq Qarabağa və Azərbaycanın digər ərazilərinə qoşun çıxarsa, bu ölkələr heç bir ciddi addım atmayacaqlar. Mütəxəssislər hesab edirlər ki, ABŞ Ermənistanın təhlükəsizliyinin birmənalı təmin edilməsi funksiyasını öz əlinə alan, münaqişəli bölgədə tərəflərdən birini açıq-aşkar silahlandıran və dəstəkləyən, öz geosiyasi təsirini bu formada başqa ölkələrin ərazisində təmin edən Rusiyaya qarşı ən azı öz etiraz səsini qaldırmalı idi. Heç olmazsa, "bu onların daxili işidir" - bəyanatını səsləndirməməli idi. Çünki bəhs olunan hadisə beynəlxalq hüquqa, ATƏT-in beynəlxalq və regional siyasətinə, münaqişə edən tərəflərin sülh danışıqlarına başlaması və razılığa gəlməsi siyasətinə daban-dabana zidd idi.

Mütəxəssislərin fikrincə, ABŞ-ın hazırda beynəlxalq təhlükəsizlik sahəsində nümayiş etdirdiyi mövqe və konkret olaraq Cənubi Qafqaz siyasətinin mahiyyəti *beynəlxalq hüquqa uyğun olaraq, "Rusiyanı bölgədə birtərəfli şəkildə güc tətbiq etməkdən çəkinməyə, dünya birliyinin ayrılmaz tərkib hissəsi kimi davranmağa, Avrasiyada baş verən hadisələrə konstruktiv formada və sülh missiyası yaratmaq məqsədilə reaksiya verməyə, postsovet respublikalarının, o cümlədən Cənubi Qafqaz ölkələrinin suveren milli və beynəlxalq haqlarına, təhlükəsizlik və s. sahələrdə müstəqil siyasət yürütmək və seçim etmək hü-*

quqlarına, hər bir ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşmaq" haqqında çağırışlardan ibarətdir. Bunu 15 sentyabr 2011-ci ildə Vaşinqtondakı Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində keçirilən və Cənubi Qafqazdakı müasir geosiyasi vəziyyətə həsr edilən konfransdakı çıxışında ABŞ Dövlət Departamentinin Cənubi Qafqaz məsələləri və Regional münaqişələr idarəsinin rəhbəri Justin Fridmanın fikirləri də təsdiq edir. O, konfransdakı çıxışında bildirmişdir ki, son 20 ildə Birləşmiş Ştatların regionda yürütdüyü siyasətin ən mühüm dilemması və sınağı "Cənubi Qafqaz siyasəti ilə Rusiya siyasəti arasında ortaq nöqtə tapmaq və balans yaratmaq olub" ki, buna da ABŞ Administrasiyası son illərdə nail olub. Onun sözlərinə görə, ABŞ-ın bu siyasəti birtərəfli kompromis deyil, balans və tarazlıq siyasətidir. Bu siyasət çərçivəsində ABŞ Rusiya ilə elə davranır ki, nə yerli ölkələrin suverenliyinə xələl gəlsin, nə də ki, Rusiya ilə qarşıdurma yaransın.[190]

Əlbəttə, ABŞ-ın bu mövqeyi rəsmi formada beynəlxalq hüquqa tam uyğundur və milli təhlükəsizliyi tam təmin olunmamış, eyni zamanda həm Rusiya, həm də ABŞ-la strateji tərəfdaşlığa can atan Azərbaycanın geosiyasi maraqlarına tam cavab verir. Lakin təəssüf ki, bütün sahələrdə, o cümlədən də təhlükəsizlik sahəsində ABŞ-ın rəsmi şəkildə bəyan etdiyi "bərabərhüquqluluq" prinsipi əksər dövlətlərarası məsələlərdə "keçərli" deyildir. Çünki ABŞ və NATO ölkələrinin maraqlarına "uyğun olmayan" məsələlərdə, bir qayda olaraq, kiçik ölkələrin beynəlxalq haqları Qərbin ciddi etirazını doğurmadan pozulur. Məsələn, ABŞ və onun müttəfiqlərinin İraqda, Liviyada və b. ərazilərdə BMT-nin qətnaməsinə istinadən, insanların təhlükəsizliyinin təmin olunması marağından çıxış edərək

[190]Bax: "Bizim yol" qəzeti, 17 sentyabr 2011-ci il

qətiyyətli və prinsipial fəaliyyət göstərməsi faktı, Dağlıq Qarabağ münaqişəsi zamanı Ermənistanın Azərbaycan torpaqlarının işğalına son qoymasına, dinc əhalinin kütləvi qırğınına, didərgin salınmasına və s. qeyri-insani aksiyalara qarşı həmin BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin yerinə yetirilməsinə də tətbiq olunsaydı, Qərb ölkələri onların marağını əks etdirən məsələdə olduğu kimi, bütün beynəlxalq hüquq normalarının pozulmasına prinsipial yanaşsaydılar, o zaman heç bir ölkə dünyanın ayrı-ayrı bölgələrində qeyri-qanuni addımlar atmazdı, Ermənistan kimi forpost bir ölkə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in hüquq normaları və prinsiplərinə, beynəlxalq aləmin sülh çağırışlarına açıq-aşkar meydan oxuya bilməzdi. ABŞ-ın dövlət katibi Hillari Klintonun Barak Obama administrasiyasının yeni xarici siyasət kursundan narazı olan Azərbaycan və Gürcüstan ictimaiyyətini nisbətən sakitləşdirməyə, bölgə ölkələrini daim ABŞ-ın "diqqətində olduqlarına" inandırmağa hesablanmış 4-5 iyul 2010-cu il tarixdə Cənubi Qafqaza səfəri də Rusiyanın Cənubi Qafqazdakı son inamlı hərəkətləri və ABŞ-ın bölgədəki münaqişəli məsələlərə dırnaqarası yanaşması fonunda əvvəlcədən qeyri-ciddi və səmərəsiz nəticələrdən xəbər verirdi.

Şimali Atlantika Hərbi Alyansının Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik arxitekturasına yanaşması

Cənubi Qafqazın təhlükəsizlik sisteminin formalaşmasında ABŞ və Avropa Birliyi ölkələrinin maraqları çərçivəsindən çıxış edən əsas güc mərkəzlərindən biri də Şimali Atlantika Hərbi Alyansı - NATO bloku hesab olunur. Bu qurumun Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yürütdüyü

təhlükəsizlik siyasəti onun region ölkələri ilə 1993 və 1998-ci ilərdə imzaladığı *"Sülh naminə tərəfdaşlıq" və "Fərdi tərəfdaşlıq"* kimi iki proqram çərçivəsində həyata keçirilir. Lakin mütəxəssislərin fikrinə görə, nə bəhs olunan proqramlar, nə də ki, bütövlükdə blokun regionda yürütdüyü təhlükəsizlik siyasəti bölgə ölkələrinin təhlükəsizlik ehtiyaclarına və Şimali Atlantika bloku ilə dərin hərbi-geostrateji inteqrasiyasına səmərəli və praktik təsir göstərməmişdir. Bu bloku keçən müddətdə *bölgədə daha çox region ölkələrinin təhlükəsizlik, hərbi-geostrateji maraqları və ehtiyacları deyil, Qərb ölkələrinin bölgənin zəngin enerji mənbələrinə, nəqliyyat-kommunikasiya vasitələrinə, satış bazarlarına sərbəst və təhlükəsiz çıxışı, regionun sabitliyi, transmilli layihələrin, Qərbin maliyyə yatırımlarının təhlükəsizliyi və s. kimi məsələlər düşündürmüşdür.*

NATO bir tərəfdən, bölgə ölkələrini *Rusiyanın geosiyasi və hərbi-geostrateji təsirindən çıxararaq öz maraqları çərçivəsində istifadə etmək istəyir, digər tərəfdənsə bu prosesi asanlaşdırmaq məqsədilə onların siyasi-hərbi idarəçilik strukturlarını, hərbi kontingentlərini Avropa və NATO standartlarına uyğunlaşdırmağa, siyasi rejimlərini qərbin təzyiq və təsiri altında saxlamağa cəhd göstərir.*

Region ölkələrinin və bütövlükdə Cənubi Qafqaz bölgəsinin təhlükəsizlik məsələsinə yanaşmada NATO-nun fəaliyyəti Alyansın birbaşa komandanlığı və Türkiyə hərbi qüvvələri çərçivəsində bölgə ölkələrini bəzi kollektiv hərbi əməkdaşlıq proqramlarına qoşmaqdan, onların milli ordusunun qərb standartlarına uyğunlaşdırılmasına metodik dəstək verməkdən, bölgədə birgə hərbi təlimlər həyata keçirməkdən və s. tədbirlərdən uzağa getmir. Çünki hazırkı dövrdə ABŞ kimi, NATO da regoin ölkələrilə hərbi-geostrateji münasibətləri dərinləşdirərək Rusiya ilə münasibətlərini korlamaq istəmir.

Lakin NATO, eyni zamanda, Cənubi Qafqazın, Xəzər-Qara dəniz hövzəsinin bütövlükdə Rusiyanın hərbi-geostrateji nəzarətində qalması faktı ilə də barışa bilmir.

Mütəxəssislər hesab edir ki, NATO-nun Cənubi Qafqazdakı hərbi təhlükəsizlik siyasətini fərqləndirən əsas əlamətlərdən biri, Rusiyadan fərqli olaraq, regional münaqişələrin həllində və region ölkələrilə bərabərhüquqlu tərəfdaşlıqda daha maraqlı görünməsidir. Ancaq NATO bu marağın təmin olunmasına nə ciddi səy göstərir, nə də ki, bunu Rusiyasız edə bilir. Bütün bunların əsasında isə, mütəxəssislərin fikrincə, Alyans üzvü olan əsas Qərb ölkələrinin geosiyasi iradəsizliyi, qeyri-obyektivliyi və ikili yanaşması dayanır. Baxmayaraq ki, Azərbaycan, Gürcüstan və Ukraynanın Qara-Xəzər dənizləri arasındakı və Qafqazdakı geostrateji mövqeləri Avropanın və bütövlükdə NATO-nun təhlükəsizlik maraqları ilə tamamilə üst-üstə düşür və bu qurumla hərbi-strateji tərəfdaşlıq münasibətlərini şərtləndirir. Çünki bu ölkələrin iştirakı və razılığı olmadan, Avropa ölkələri və NATO-nun həm Orta Asiya və Xəzər-Qara dəniz bölgəsinə çıxışı, həm də Avropanın hər şeydən çox narahat olduğu enerji təhlükəsizliyinin təminatı, nəqliyyat-kommunikasiya təhlükəsizliyi və s. məsələlər tam həll oluna bilməz.

Cənubi Qafqaz və Qara dəniz hövzəsinin bəzi ölkələrinin NATO-ya qəbulu, region ölkələrinin təhlükəsizliyinə beynəlxalq təminatların verilməsi, NATO-nun Şərqə doğru genişləndirilməsi və s. məsələlərdə Alyans üzvlərinin rəyi haçalanır. Birlik ölkələrinin bəziləri, məsələn, Ukrayna, Gürcüstan, Azərbaycan kimi dövlətlərin NATO-ya üzvlük məsələsini həll etməklə, Alyansı Rusiyanın qarşısında və eyni zamanda, bölgədəki regional münaqişələrin içərisində görmək istəmir. Odur ki, "bitərəf hakim" görüntüsü yaradaraq, onlar Rusiyanın Cənubi Qafqazdakı hərbi-strateji addımlarını seyr etməklə kifayətlənirlər.

Etnik-separatçılıq münaqişələrinə cəlb olunmuş Cənubi Qafqaz və digər postsovet ölkələrinin özünün NATO-nun regional təhlükəsizlik siyasətinə münasibətinə gəldikdə, qeyd etmək olar ki, onların əksəriyyəti NATO-nun dünyadakı münaqişəli məsələlərə müdaxiləsi və regional sülhyaratma prosesində iştirakı imkanlarından bəhrələnərək öz ərazi bütövlüklərini və suveren hüquqlarını bərpa etməyə çalışırlar. Müstəqilliyinə qovuşduğu andan indiyə qədər separatçılıq zəminində daxili münaqişələrə cəlb olunan əksər ölkələr - Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova və başqaları bu və ya digər yolla Şimali Atlantika blokunu hansısa formada həmin münaqişələrin həllinə cəlb etmək, onun köməkliyi ilə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə, beynəlxalq hüquq normalarının bərpasına nail olmaq istiqamətində daim fəaliyyət göstərmişlər. Lakin məlum olduğu kimi, NATO bütün bu münaqişələrdə "bitərəf" mövqe tutaraq, onların daha çox BMT, ATƏT çərçivəsində danışıqlar və dialoq yolu ilə həllinə üstünlük verdiyini bəyan etmişdir. Bir faktı da qeyd etmək lazımdır ki, Alyans ABŞ-ın iradəsi ilə və öz maraqlarına uyğun olanda dünyanın digər regionlarında, o cümlədən, Yaxın və Orta Şərqdə, Balkanlarda, Cənubi Asiyada və s. yerlərdə münaqişələrin aradan qaldırılması, "günahkarların cəzalandırılması" və "sülhyaratma" proseslərində dəfələrlə iştirak etmişdir. Bu da onu göstərir ki, NATO hazırda dünyada yalnız ABŞ və Alyans üzvlərinin maraqları çərçivəsində bu və ya digər münaqişələrə müdaxilə edir və sülhyaratma proseslərinə qoşulur. Cənubi Qafqaz münaqişələrinə gəldikdə isə, NATO rəsmiləri dəfələrlə bu və ya digər müraciətlərə cavab olaraq "bu məsələ NATO-nun səlahiyyətlərinə daxil deyil" - deyərək boyun qaçırmışlar.

Hazırda NATO-nun bəyan etdiyi **yeni beynəlxalq təhlükəsizlik strategiyası**, həmin strategiyanın müəyyən etdiyi gə-

ləcək vəzifələr və fəaliyyət istiqamətləri də dünya mütəxəssislərində fərqli fikirlər yaratmışdır. Onların **bir qismi** hesab edir ki, NATO gələcəkdə əsas diqqətini öz təyinatına müvafiq olaraq üzv ölkələrin və tərəfdaşların hərbi təhlükəsizlik məsələlərinə yönəltməli, Şərqə doğru genişlənməli və dünyanın əsas təhlükəsizlik strukturuna çevrilməlidir. **İkinci qrup** hesab edir ki, NATO təkcə üzv ölkələrin hərbi təhlükəsizliyi ilə kifayətlənməməli, həm də planeti təhdid edən digər beynəlxalq və regional təhlükələrlə mübarizə aparmalı, insanların təhlükələrdən xilas edilməsi prosesində aparıcı rol oynamalıdır. Bu sahədə NATO-nun missiyasına onlar kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasını, regional və yerli münaqişələrin dayandırılmasını, beynəlxalq terrorizmə, narkotik və nəzarətsiz silah alverinə qarşı mübarizə aparılmasını və s. aid edirlər. **Üçüncü qrupun** fikrincə, NATO bundan sonra əsas diqqətini Avropa Birliyinin enerji təhlükəsizliyinin təminatına, dünyada enerji dəhlizləri və strateji kəmərlərin təhlükəsizliyinin təmin olunmasına və digər geoiqtisadi təhlükəsizlik məsələlərinə yönəltməlidir.

NATO-nun Cənubi Qafqazda həyata keçirdiyi hazırkı regional təhlükəsizlik siyasətini mütəxəssislər *"səmərəsiz və qətiyyətsiz siyasət"* kimi dəyərləndirərək vurğulayırlar ki, NATO keçən müddətdə bölgədə öz təhlükəsizlik siyasətinin əsas tələbi kimi yerli münaqişələrin həllinə, müasir demokratik dövlətlərin sayının artırılmasına, onların Qərb yolu ilə inkişafına və ənənəvi geosiyasi təsirlərdən azad olmalarına lazımi dəstək verə bilmədi. Onun həyata keçirdiyi "Sülh naminə tərəfdaşlıq", "Fərdi tərəfdaşlıq" proqramları və 2001-ci ildən yürütdüyü "Şərqə doğru genişlənmə" taktikası öz uzunmüddətli səmərəsini itirdi. Ona görə ki, NATO bölgə ölkələrilə bağlı birtərəfli, qeyri-səmimi və qeyri-prinsipial siyasət yürüdür. Məsələn,

Şimali Atlantika Alyansının strateji fəaliyyət konsepsiyasının mühüm məsələlərindən birini Rusiya ilə münasibətlər və öz təsir dairəsini dünyada "genişləndirmə" siyasəti təşkil etdiyi halda, Cənubi Qafqazdakı digər ölkələrin, xüsusən tərəfdaş dövlətlətin milli təhlükəsizliyini təhdid edən beynəlxalq, regional və yerli problemlər onun diqqətindən tamamilə kənarda qalır. Məlum olduğu kimi, bu sahədə blokun iki il bundan qabaq yürütdüyü rəsmi təhlükəsizlik siyasəti ilə 2010-cu ildə - son Lissabon sammitində ortaya qoyduğu mövqe arasında ciddi uyğunsuzluq müşahidə olunur. Əgər iki il bundan qabaq – Rusiya və Gürcüstan müharibəsi ərəfəsində, Alyans ciddi iradə nümayiş etdirərək Gürcüstanı, Ukraynanı, mümkün olarsa, bəlkə Azərbaycanı və digər əhəmiyyətli Avrasiya ölkələrini blokun sıralarına qatmaq, yaxud strateji əməkdaşlığa cəlb edərək təhlükəsizliklərinə ciddi dəstək vermək siyasəti yürüdürdüsə, Lissabonda yeni ABŞ - Rusiya münasibətləri fonunda təşkilat öz mövqelərindən bir qədər geri çəkilmiş və "Alyansın Şərqə doğru genişlənməyə ciddi ehtiyacı yoxdur", - bəyanatını səsləndirərək, Rusiya ilə "geostrateji münasibətləri gərginləşdirmək" taktikasından imtina etmişdir.

NATO-nun yeni kursu müasir dünya siyasətinin və beynəlxalq münasibətlərin yaxşılaşmasına xidmət göstərməli olduğu halda, Cənubi Qafqazda, əksinə, işğalçı Ermənistan kimi ölkələrin və onların beynəlxalq havadarlarının cəzasızlıq şəraitində öz irticaçı siyasətlərini gücləndirməsinə və bundan sonra da davam etdirməsinə xidmət göstərdi. Rusiya ABŞ-ın və NATO-nun son dövrdəki loyal münasibətindən, Qərbin Cənubi Qafqazdakı səmərəsiz hərbi inteqrasiya siyasətindən praqmatik formada bəhrələnərək, bölgənin ölkələri ilə tərəfdaşlıq münasibətlərini daha da dərinləşdirdi və hərbi-geostrateji təsir dairəsini genişləndirdi.

Avropa İttifaqının Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yürütdüyü təhlükəsizlik siyasəti

Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsində ilk növbədə öz geosiyasi və təhlükəsizlik maraqlarını, xüsusən köhnə qitənin enerji, nəqliyyat-kommunikasiya və tranzit təhlükəsizliyini təmin etmək məqsədilə fəal siyasət yürüdən, bölgə ölkələrilə tərəfdaşlıq münasibətlərinə xüsusi can atan dünya güc mərkəzlərdən biri də Avropa İttifaqıdır.

Avropa İttifaqı SSRİ dağılan kimi, 1992-ci ildən bir çox postsovet ölkələri, o cümlədən Cənubi Qafqaz dövlətləri ilə əlaqə qurmuş və onlarla bir çox sahələrdə tərəfdaşlıq münasibətləri yaratmağa başlamışdır. İlk dövrlərdə onun bölgə ölkələri ilə münasibətləri daha çox iqtisadi-texniki proqramlar - *"Bəzi MDB ölkələrinə texniki yardım" (TACİS), "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizinin yaradılması və inkişafı proqramı" (TRACECA), "Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram" (İNOGATE), "Humanitar yardım" (ECHO) və s.* çərçivəsində inkişaf etdirilmişdir.

ABŞ və NATO-dan fərqli olaraq, Avropa İttifaqı Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyi məsələlərində daha çox transmilli enerji və nəqliyyat-kommunikasiya sahəsinə üstünlük verirdi. Bu istiqamətdə İttifaqın əsas hədəfləri sırasına region ölkələrilə iqtisadi, siyasi və sosial münasibətlər yaradaraq onların idarəçilik sistemləri, ictimai-siyasi dairələri və cəmiyyətləri üzərində müəyyən təsir qazanmaq, bölgənin zəngin karbohidrogen yataqlarına yol tapmaq, onların birgə işlənməsi və Avropaya ixracına nail olmaq, Qərbin getdikcə artan enerji, nəqliyyat-dəhliz və sərbəst ticarət təhlükəsizliyi məsələlərində regionun imkanlarından istifadə etmək və s. daxil idi. Avropanın enerji, nəqliyyat-dəhliz təhlü-

kəsizliyi məsələsi isə bu siyasətin prioritet istiqamətini təşkil edirdi.

Avropa İttifaqının yeni müstəqil dövlətlərə dəstək çərçivəsində reallaşdırdığı çoxsaylı təşəbbüslər, onların çərçivəsində həyata keçirdiyi tədbirlər, göstərdiyi maliyyə-texniki yardımlar və s. zəngin təbii ehtiyatlara və strateji coğrafi əraziyə malik olan Cənubi Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa ölkələrinin regional və milli təhlükəsizliyinin qorunmasına, enerji təminatının və tranzit potensialının səmərəli istifadəsinə yönəlmiş fəaliyyətin dəstəklənməsinə, bu sahədə geniş istifadə olunan infrastrukturların yenidən qurularaq genişləndirilməsinə müsbət təsir göstərmişdir. Bu proqramların nəticəsində Avropadan Qara dəniz və Cənubi Qafqaz vasitəsilə Mərkəzi Asiyaya və əks istiqamətdə yeni, daha müstəqil, təhlükəsiz və səmərəli nəqliyyat-kommunikasiya, enerji ixracı dəhlizi və s. yaradıldı. Həm bu layihələr, həm də Avropa İttifaqının 2000-ci ildən bölgədə reallaşdırdığı "Qonşuluq siyasəti" və 2008-ci ildən həyata keçirdiyi "Şərq tərəfdaşlığı" proqramı beynəlxalq və regional təhlükəsizliyin təmin olunmasına müəyyən təsir göstərmiş və indi də öz təsirini davam etdirir.

Avropa İttifaqı Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizliyində həmişə mühüm rol oynamışdır. İttifaqın aparıcı üzvləri ABŞ-ın təşəbbüsü ilə 1993-cü ildən başlayaraq Cənubi Qafqazda və Avrasiyada yenicə müstəqillik əldə etmiş Azərbaycan, Gürcüstan və Ukrayna kimi ölkələrin müstəqilliyinin və milli təhlükəsizliyinin təminatının yaxşılaşdırılmasına, geosiyasi mövqelərinin möhkəmlənməsinə daim xüsusi dəstək vermişlər. Mütəxəssislərin fikrincə, Xəzərin karbohidrogen ehtiyatlarının istismarı və dünya bazarlarına nəqli ilə bağlı Azərbaycan, Gürcüstan, Türkiyə, ABŞ və Avropa İttifaqının

eyni mövqedən çıxış etməsi onlar arasında digər sahələrdə, o cümlədən regional təhlükəsizlik sahəsində də strateji tərəfdaşlıq münasibətlərinin yaranmasını şərtləndirmişdir. Bu tərəfdaşlığın nəticəsində BTC və BTƏ kimi layihələrin həyata keçməsi və təhlükəsizliyinin təmin edilməsi mümkün olmuşdur.

Avropa İttifaqı başqa sahələrdə olduğu kimi, Cənubi Qafqazın təhlükəsizliyi məsələsində də *əsas diqqətini hər hansı bir bölgə ölkəsinin konkret regional və beynəlxalq təhlükəsizliyinin təmin edilməsinə deyil, hər üç ölkə ilə tərəfdaşlıq münasibəti quraraq, əslində İttifaqın məxsusi iqtisadi və təhlükəsizlik maraqlarının təmin edilməsinə yönəldir. Bu maraqlar regional sabitlik, enerji-nəqliyyat və kommunikasiyaların beynəlxalq təhlükəsizliyinin, Xəzər-Qara dəniz hövzəsinə Qərb ölkələrinin Rusiya iradəsindən asılı olmayan sərbəst çıxışının təmin edilməsi üzərində qurulmuşdur.*

Avropa İttifaqının enerji təhlükəsizliyi siyasətində Azərbaycan, Gürcüstan və bəzi Orta Asiya ölkələrinin, Rumıniya, Türkiyə, Yunanıstan, İtaliya və b. Avropa dövlətlərinin iştirakı ilə reallaşdırmağa hazırlaşdığı Cənub neft və qaz ixracı marşurutları çərçivəsində- TAP, TANAP və s. kimi layihələr mühüm yer tutur. Bu kəmərlər vasitəsilə Xəzər hövzəsindən "Şahdəniz 2" layihəsi çərçivəsində istehsal olunacaq təbii qazın Azərbaycan və Türkiyə vasitəsilə İtaliya və Yunanıstana, oradan da digər Avropa ölkələrinə çatdırılması nəzərdə tutulur. ABŞ tərəfindən də dəstəklənən TAP, TANAP kimi layihələr Avropa İttifaqının Rusiyanın qaz asılılığından xilas olması və idxal mənbələrinin şaxələndirilməsi strategiyasının tərkib hissəsidir. Bəhs olunan istiqəmətdə gələcəkdə Azərbaycan qazı ilə bərabər, ikinci əsas mənbə kimi Türkmənistan qazının tədarük edilməsi də nəzərdə tutulur ki, bunun da reallaşması daha çoz

Transxəzər qaz xəttinin çəkilməsindən asılıdır. Transxəzər qaz kəmərinin çəkilişi bu gün üçün daha çox Xəzərin hüquqi statusu ilə əlaqələndirilir ki, onun da həlli getdikcə uzanır.

Avropa İttifaqının bölgədəki geosiyasi və təhlükəsizlik maraqları yalnız öz sərhədləri yaxınlığında sabitliyin qorunub saxlanması ilə yekunlaşmır. Avropa ölkələri bunu açıq bəyan etməsə də, köhnə qitənin Xəzər regionuna *potensial enerji dayağı* kontekstindən yanaşdığı şübhə doğurmur. Xüsusilə, Avropa İttifaqı ilə ABŞ arasındakı ziddiyyətlərin getdikcə artdığı bir vaxtda, bəzi ekspertlər müvafiq analogiya da aparırlar: *Fars körfəzi ABŞ iqtisadiyyatı üçün əsas enerji mənbəyi rolunu oynadığı kimi, Xəzər hövzəsi də Avropa üçün analoji funksiyanı icra edə bilər.* Amma mütəxəssislərin fikrinə görə, ABŞ-dan fərqli olaraq, Avropa İttifaqının bu məqsədə nail olması heç də asan olmayacaqdır. Çünki:

əvvəla, ABŞ-dan fərqli olaraq, Avropa İttifaqı bu regionun təhlükəsizliyinə görə hərbi-siyasi məsuliyyət daşımaq istəmir. Bu isə Avropanın bölgədəki hadisələrə fəal müdaxilə etmək şanslarını xeyli azaldır;

ikincisi, Avropa İttifaqı hələlik yekcins güc mərkəzinə çevrilə bilməyib. Buradakı bir sıra dövlətlərin dünyadakı qlobal proseslərə fərqli mövqedən yanaşması Avropa İttifaqının vahid geostrategiyasının formalaşdırılmasına mane olur və nəticədə, Avropa geosiyasi mərkəz kimi ABŞ və ya Rusiyaya real alternativ kimi çıxış etməkdə çətinlik çəkir;

üçüncüsü, İraq probleminə yanaşmada Almaniya ilə Fransanın tutduğu mövqe Avropa İttifaqının vahid geostrategiyanın formalaşmaq üzrə olduğunu nümayiş etdirsə də, vahid Avropa Konstitusiyası ətrafında cərəyan edən proseslər, bunun tam

əksini sübut etdi. Məlum oldu ki, bu gün Avropa hələlik öz gələcəyinə dair yekdil rəyə gələ bilməyib;

dördüncüsü, Xəzər hövzəsindəki enerji layihələrində ən fəal iştirak edən Avropa dövləti Böyük Britaniyadır. Bu dövlətin regiondakı geostrategiyası isə Avropa İttifaqının deyil, ABŞ-ın mövqelərinin möhkəmlənməsinə yönəlib və s.

Bütün bunları nəzərə alsaq, Avropa İttifaqının regiondakı geosiyasətinin ilk növbədə iqtisadi-sosial layihələr ətrafında cəmlənəcəyini düşünmək olar. Beynəlxalq terrorizmlə mübarizə, bölgədə regional təhlükəsizlik sisteminin yaradılması, etnik münaqişələrin həlli və s. qlobal əhəmiyyətli sahələrə gəldikdə, ABŞ bu istiqamətdə daha fəal görünür. Bəzi Avropa ölkələri ABŞ-ın Avrasiyadakı artan nüfuzu qarşısında müəyyən narahatlıq keçirsələr də, Avropa İttifaqı bölgədə öz təsirini artırmaq üçün hələ ki, konkret təklif irəli sürə və vahid strategiyadan çıxış edə bilmir. Çünki üzv dövlətlərin fərqli maraqları və baxışları ittifaqa yekdil mövqedən çıxış etmək imkanı vermir. Bununla belə, artıq Avropa İttifaqının aparıcı dövlətləri olan Fransa ilə Almaniya təşkilatın Avrasiya və ümumilikdə dünyadakı geosiyasi mövqeyinin hansı önəm daşıdığını dərk edir.

Avropa İttifaqı Cənubi Qafqaz və Xəzər hövzəsində həyata keçirdiyi regional təhlükəsizlik siyasətini dəyərləndirən bir çox mütəxəssislər hesab edir ki, geoiqtisadi fəaliyyət istisna olmaqla, *Avropa İttifaqının bölgədə indiyə qədər həyata keçirdiyi ümumi regional* təhlükəsizlik *siyasət hələ ki, gözlənilən səmərəni verməmiş, region ölkələrini İttifaqın etibarlı əhatəsinə, vahid tərəfdaşlıq sisteminə daxil edərək ciddi müttəfiqinə çevirə bilməmişdir.*

Azərbaycanın NATO və Avropa İttifaqı ilə təhlükəsizlik sahəsində əməkdaşlığı

Azərbaycanın NATO və Avropa İttifaqı ilə təhlükəsizlik sahəsində əməkdaşlığının əsasında, ilk növbədə ölkənin beynəlxalq və regional təhlükəsizliyinə, ərazi bütövlüyü və suveren dövlət hüquqlarının qorunmasına beynəlxalq təminat almaq, Dağlıq Qarabağ probleminin həllinə, pozulmuş ərazi bütövlüyünün bərpasına, malik olduğu enerji ehtiyatlarının sərbəst istifadəsinə, dünya bazarlarına azad və əlverişli marşrutlarla çıxarılmasına və s. həyati əhəmiyyət kəsb edən milli siyasət məsələlərinə əlavə dəstək qazanmaq vəzifəsi dayanır.

Azərbaycan 1994-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq", 2008-ci ildənsə "Fərdi tərəfdaşlıq" proqramları çərçivəsində Alyansla və onun ayrı-ayrı üzvləri ilə əməkdaşlıq edir, öz milli ordusunun modernləşdirilməsi və dünya standartlarına çatdırılması istiqamətində onların imkanlarından bəhrələnir. Lakin bütün bunlarla yanaşı, Azərbaycan NATO-nun ayrı-ayrı illərdə Cənubi Qafqaz və Xəzər hövzəsində həyata keçirdiyi "genişlənmə", "möhkəmlənmə" və Rusiyanın təqdir etmədiyi digər siyasi addımlarına, fərqli istək və tələblərinə bir qədər ehtiyatla yanaşaraq, bu sahədə Gürcüstan və Ukraynadan ciddi şəkildə fərqlənmişdir. Məsələn, NATO istəyirdi ki, Cənubi Qafqaz ölkələrinin hər üçü və Ukrayna özlərinin milli və hərbi təhlükəsizlik doktrinalarını qəbul edərək, ordu və müdafiə sənayesini, milli müdafiə siyasətini NATO-nun tələblərinə uyğunlaşdırsın və bu quruma hərbi inteqrasiyanı öz rəsmi strateji kursları kimi bəyan etsin. Lakin Azərbaycan o zaman Gürcüstan və Ukraynadan fərqli olaraq, "NATO-ya üzvlüyü özünün əsas hədəfi və məqsədi kimi" deyil, "ölkənin beynəlxalq və regional təhlükəsizliyini təmin etmək vasitəsi" kimi qəbul

etmiş və bu qurumla tərəfdaşlıq münasibətlərinin davam etdirilməsini ona üzvlük məsələsindən daha üstün tutmuşdur.

Bəzi mütəxəssislərin fikrincə, Azərbaycan ötən illərdə bu quruma üzvlüyün mənfi və müsbət tərəflərini dəqiq proqnozlaşdırmadan və Alyansın ölkənin təhlükəsizliyinə gətirəcəyi müsbət və mənfi məqamları dəqiq müəyyənləşdirmədən üzvlük istiqamətində hər hansı tələsik addımlar atmaqdan çəkinmişdir. Əslində isə Azərbaycan Gürcüstan və Ukraynanın bu quruma üzv olmaqla bağlı çalışmalarını izləyərək, bir qədər səbirli davranmış və NATO-nun yeni üzvlərlə bağlı öz daxilindəki fikir ayrılığını aradan qaldırmasını gözləmək qərarını vermişdir. 2009-cu ilin aprelində Buxarestdə Almaniya və Fransanın Gürcüstan və Ukrayna məsələsində nümayiş etdirdiyi fikir ayrılığı Azərbaycanın bu taktikasının doğru olduğunu sübut etdi və hələ də NATO-da postsovet ölkələrinin bu quruma üzvlüyü ilə bağlı vahid mövqenin olmadığını nümayiş etdirdi.

Lakin bütün cəhdlərinə baxmayaraq, indiyə qədər Azərbaycan həm ABŞ və NATO-dan, həm də Rusiya və KTMT-dən Cənubi Qafqazda sabit sülhün yaradılması, işğalçı Ermənistana təzyiq göstərilməsi və Azərbaycanın beynəlxalq hüquqlarının bərpa olunması ilə bağlı gözlədiklərini ala bilməmişdir. NATO başlanğıcdan Azərbaycanın onu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə cəlb etmək istəyindən boyun qaçırmış və bu münaqişədə öz bitərəfliyini qoruyub saxlamağa üstünlük vermişdir. Bu qurum ən yaxşı halda Cənubi Qafqazda sülh və sabitlik yaradaraq bölgənin təhlükəsizliyinə müsbət təsir göstərə biləcəyini, region ölkələrilə sülh naminə tərəfdaşlıq edə biləcəyini bəyan etmişdir. Hətta Gürcüstan və Ukraynanın bu təşkilata qəbulla bağlı müraciətlərinə də NATO çox ehtiyatla yanaşaraq, onların qəbulunu uzatmağa çalışmışdır.

Beləliklə, göründüyü kimi Azərbaycan müstəqilliyə qovuşduqdan sonra beynəlxalq, regional və milli təhlükəsizlik sahəsində MDB, KTMT çərçivəsində Rusiya, Ukrayna, Belarus və b. ölkələrlə əməkdaşlıq etdiyi kimi, həm də NATO hərbi bloku və onun ABŞ, Türkiyə və s. üzvləri ilə də əməkdaşlıq edir. Bu əməkdaşlıq həm bütövlükdə bloklar çərçivəsində, həm də müxtəlif ölkələrlə ayrı-ayrılıqda həyata keçirilir və Azərbaycan ordusunun hərbi hazırlığının, döyüş qabiliyyətinin yüksəldilməsi, milli ordunun beynəlxalq standartlara uyğunlaşdırılması, ölkənin quru və su sərhədlərinin, dəniz sahillərinin mühafizəsi sisteminin yaradılması və s. ilə bağlı texniki əməkdaşlığını əhatə edir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra seosiyasi cəhətdən tərəfdaşlıq münasibətləri yaratmağa çalışdığı, xüsusən də iqtisadi və enerji təhlükəsizliyi sahəsində strateji münasibətlər yaratdığı transmilli qurumklardan diri də **Avropa İttifaqı** olmuşdur. Avropa birliyi həm də keçən müddətdə digər regional tərəfdaş ölkələr kimi Azərbaycanın da Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda reallaşdırdığı nəhəng enerji layihələrinə, milli iqtisadiyyatının liberallaşması və modernləşməsinə hərtərəfli yardım göstərən və kapital yatıran əsas donorlardan biri olmuşdur. Qurumun Azərbaycanla çoxtərəfli əlaqələri, xüsusən də, enerji, nəqliyyat və iqtisadi təhlükəsizlik sahəsində transmilli və regional əməkdaşlığı, mütəxəssislərin fikrinə görə, hər iki tərəfin maraqlarına uyğundur və bu gün də davam etdirilir.

Avropa İttifaqı ilə Azərbaycan arasındakı təhlükəsizlik sahəsindəki münasibətlərə gəldikdə qeyd etməliyik ki, təşkilatın Azərbaycanla bağlı nümayiş etdirdiyi təhlükəsizlik siyasəti daha çox geoiqtisadi mahiyyət kəsb edərək, Qərbin Xəzər-Qara dəniz hövzəsi - Cənubi Qafqazda yürütdüyü ümumi geo-

siyasət çərçivəsində reallaşdırılır və üzv ölkələrin maraqlarına uyğunlaşdırılmış vahid xətt üzrə aparılır. Avropa İttifaqının Cənubi Qafqaz və Xəzər siyasətinin əsas prinsipləri 1990-cı ildə qəbul olunmuş ATƏT-in Paris Xartiyasında öz əksini tapmışdır. Bu sənəddə Cənubi Qafqaz və Azərbaycan Avrasiyanın, Qara və Xəzər dənizləri hövzəsinin əhəmiyyətli məkanı kimi qiymətləndirilmiş və birliyin xarici siyasət strategiyasında «ümumavropa maraqları» çərçivəsinə daxil edilmişdir.

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasındakı ümumi münasibətlərin və tərəfdaşlıq əlaqələrinin hüquqi əsası 1996-cı il aprelin 22-də Lüksemburqda imzalanmış «Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında" Sazişlə qoyulmuşdur. Bu saziş Azərbaycanla Avropa Ittifaqı və üzv dövlətlər arasında ticarət, investisiya, iqtisadi qanunvericilik və mədəni əməkdaşlıq, immiqrasiya, qeyri-qanuni ticarətin qarşısının alınması və digər sahələrdə münasibətləri əhatə edən geniş məzmunlu sənəd idi Saziş onu imzalamış bütün dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra 1999-cu il iyulun 1-də qüvvəyə minmiş və sonrakı illərdə onun çərçivəsində İttifaqla Azərbaycan arasında bir sıra digər mühüm müqavilələr, ikitərəfli əməkdaşlığa dair sənədlər də imzalanmışdır.[139]

Bu sənədlər qurumla Azərbaycan arasında siyasi, iqtisadi, təhlükəsizlik və mədəni məsələlərə dair ikitərəfli dialoqun aparılması üçün hərtərəfli zəmin yaratmışdır. Saziş çərçivəsində indiyədək ikitərəfli əlaqələrə dair 3 layihə- TACİS-in texniki yardım layihəsi, TRACECA regional layihəsi və İNOGATE hazırlanıb.

Əslində, Avropa İttifaqının Azərbaycanla birbaşa əməkdaşlığı ölkənin müstəqillik elan etməsindən dərhal sonra-1991-ci ildən başlamışdır. Bu qurumun Azərbaycanı əhatə

edən ilk iri layihəsi 1992-ci ildə qəbul olunan TACİS layihəsi olmuşdur. Layihə çərçivəsində AB 1992-ci ildən etibarən Azərbaycan və digər MDB ölkələrində həyata keçirilən fərqli iqtisadi, nəqliyyat-kommunikasiya proqramlarına regionda 4 milyard avrodan artıq vəsait xərcləmişdir. Təkcə 1994-97-ci illərdə TACİS proqramı xətti ilə Azərbaycanda enerji sistemi, nəqliyyat infrastrukturu və telekommunikasiyaların inkişafına 30 milyon avrodan artıq vəsait sərf edilib. Qeyd edək ki, bu layihə çərçivəsində əməkdaşlıq həm Avropa İttifaqının, həm də Azərbaycanın maraqlarına cavab verir. TACİS-in əsas layihələrindən biri 13 dövləti birləşdirən TRACECA layihəsidir.[191]

Qeyd edək ki, Qafqaz və Orta Asiyanın postsovet ölkələri arasında bu qurumdan ən çox yardım alan dövlətlərdən biri məhz Azərbaycandır. 1992-2003-cü illər ərzində İttifaq xətti ilə Azərbaycana 400 milyon avroya yaxın yardım göstərilmiş və bu istiqamətdə 150-dən artıq fərdi layihə reallaşdırıb. Bu müddət ərzində Aİ ilə münasibətlər "MDB ölkələrinə texniki yardım" (TACIS), "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRACECA)[192], "Avropaya neft və qazın nəql edilməsi üzrə

[191]Bu layihələr haqda daha ətraflı məlumatlara bax: Ə.M. Həsənov. Azərbaycanın geosiyasəti...s.303-323.

[192]"Yeni İpək Yolu" adlandırılan TRACECA proqramı Mərkəzi Asiya, Qafqaz və Avropa ölkələri arasında nəqliyyat əlaqələrini inkişaf etdirən proqramdır. TRACECA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) 1993-cü il mayın 3-də Brüsseldə keçirilmiş 8 təsisçi dövlətin (5 Mərkəzi Asiya və 3 Cənubi Qafqaz ölkələri) ticarət və nəqliyyat nazirlərinin konfransında təsis olunmuşdur. Proqramın məqsədi qeyd edilən dövlətlərin siyasi və iqtisadi müstəqilliyini dəstəkləməklə onların alternativ nəqliyyat yolları vasitəsilə Avropa və dünya bazarlarına çıxış qabiliyyətini yüksəltmək, Avropadan Qara Dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya, həmçinin əks istiqamətdə ən tez və ucuz nəqliyyat dəhlizinin yaradılmasından ibarətdir.

dövlətlərarası proqram" (INOGATE)[193]. "Humanitar yardım" (ECHO) və digər proqramlar çərçivəsində inkişaf etdirilmişdir. [194]

Avropa İttifaqının Cənbi Qafqazda həyata keçirdiyi regional siyasəti, xüsusən də təhlükəsizlik siyasətini dəyərləndirən bir çox mütəxəssislər hesab edir ki, *ABŞ və NATO kimi, bu transmilli İttifaqın bölgədə indiyə qədər həyata keçirdiyi regional təhlükəsizlik siyasəti də gözlənilən səmərəni verməmiş, region ölkələrini İttifaqın etibarlı əhatəsinə, təhlükəsizlik sisteminə daxil edərək ciddi tərəfdaşına çevirə bilməmişdir.*

Avropa İttifaqı Şurasının 2004-cü il 14 iyun tarixli qərarı ilə Azərbaycan da bir çox postsovet ölkələri kimi "Avropa qonşuluq siyasəti" proqramına daxil edilmişdir ki, bu da ikitərəfli və çoxtərəfli münasibətlərin tərəfdaşlıq istiqamətində inkişafına müsbət təsir göstərmişdir. Bu siyasət çərçivəsində AB üzvü olan dövlətlərlə Azərbaycan arasında hazırda güzəştli ticarət əlaqələri, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə, investisiyaların cəlb edilməsi və digər sahələr üzrə əməkdaşlıq münasibətləri yaradılır. Mütəxəssislərin fikrinə görə, Azərbaycanın Xəzər hövzəsi və Cənubi Qafqazdakı geosiyasi və geoiqtisadi nüfuzunun möhkəmlənməsinə,

[193]INOGATE (Avropaya dövlətlərarası neft və qazın ixracı) Aİ-nin yeni müstəqil dövlətlərə maliyyə dəstəyi çərçivəsində həyata keçirilən əsas regional təşəbbüslərdən biridir. 1999-cu ilin iyul ayında 15 dövlətin (Azərbaycan Respublikası da daxil olmaqla) iştirakı ilə imzalanan dövlətlərarası neft və qaz ixracını nəzərdə tutan Çərçivə Sazişi INOGATE-in hüquqi bünövrəsini təşkil edir. Aİ Avropa Qonşuluq Siyasətinə daxil olan ölkələrlə birlikdə bütün maraqlı tərəfdaşların dəstəyi əsasında enerji sahəsində əməkdaşlığı genişləndirməkdədir. Bu əməkdaşlıq "Bakı Prosesi" ilə güclənmişdir. "Bakı Prosesi" (və ya "Bakı Təşəbbüsü") 2004-cü il noyabrın 13-də Bakıda enerji nazirliklərinin konfransında Aİ, Qara Dəniz və Xəzər dənizi hövzəsi ölkələri arasında enerji sahəsində əməkdaşlığı gücləndirmək məqsədi daşıyan siyasi dialoq şəklində başlamışdır.

[194]http://www.mfa.gov.az

müvəffəqiyyətli transmilli enerji və nəqliyyat-dəhliz siyasəti yürütməsinə Avropa İttifaqı ilə səmərəli əməkdaşlığı və tərəfdaşlığının mühüm təsiri olmuşdur.

Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın yeni mərhələyə daxil olması 2004-cü ildən "Avropa Qonşuluq Siyasəti" Proqramı ilə başlamışdır. Avropa İttifaqı Şurasının 2004-cü il 14 iyun tarixli qərarı ilə Azərbaycan da bir çox postsovet ölkələri kimi "Avropa qonşuluq siyasəti" proqramına daxil edilmişdir ki, bu da ikitərəfli və çoxtərəfli münasibətlərin tərəfdaşlıq istiqamətində inkişafına müsbət təsir göstərmişdir. Bu siyasət çərçivəsində 2004-cü ildən başlayaraq İttifaqla Azərbaycan arasında Energetika və Nəqliyyat Komitəsi fəaliyyət göstərir. Həmçinin, Avropa İttifaqı tərəfindən Azərbaycanda «Ərzaq təhlükəsizliyi layihəsi», ANAMA – ərazilərin minalardan təmizlənməsi və digər böyük layihələr həyata keçirilir.

Bundan başqa, qonşuluq siyasəti çərçivəsində Aİ üzvü olan dövlətlərlə Azərbaycan arasında hazırda güzəştli ticarət əlaqələri, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə, investisiyaların cəlb edilməsi və digər sahələr üzrə əməkdaşlıq münasibətləri yaradılmışdır. Mütəxəssislərin fikrinə görə, Azərbaycanın Xəzər hövzəsi və Cənubi Qafqazdakı geosiyasi və geoiqtisadi nüfuzunun möhkəmlənməsinə, müvəffəqiyyətli transmilli enerji və nəqliyyat-dəhliz siyasəti yürütməsinə Avropa Birliyi ilə səmərəli əməkdaşlığına və tərəfdaşlığına mühüm təsiri olmuşdur.

Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin prioritet istiqamətlərindən birini enerji sahəsində tərəfdaşlıq münasibətləri təşkil edir. 2006-cı il noyabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Brüsselə səfəri zamanı imzalanmış "Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandu-

mu" Azərbaycanla Avropa İttifaqı arasında enerji təhlükəsizliyi məsələlərinə dair qarşılıqlı dialoqun genişləndirilməsi yönündə yeni imkanlar yaratmışdır. Bu Memorandumun əsas məqsədləri sırasında Aİ-nin enerji təchizatının şaxələndirilməsi və təhlükəsizliyi, həmçinin Azərbaycanın enerji infrastrukturunun inkişafı və müasirləşdirilməsi, enerjidən səmərəli istifadə, enerjiyə qənaət və bərpa olunan enerji mənbələrinin istifadəsi kimi məsələlər mühüm yer tutur. Mütəxəssislərin fikrinə görə, Aİ bu sənədi imzalamaqla özünün Mərkəzi Asiya enerji strategiyasında yeni mərhələnin əsasını qoydu və Azərbaycanla münasibətlərin dərinləşməsinə əlavə təkan verdi.

2009-cu il mayın 7-də Praqada, 2011-ci il sentyabrın 30-dasa Varşavada və 27-28 dekabr 2013-cü ildə Vilnüsdə Avropa İttifaqının keçmiş SSRİ-nin 6 ölkəsi – Ukrayna, Moldova, Belarus, Gürcüstan, Azərbaycan, Ermənistan ilə «Şərq Tərəfdaşlığı» Proqramının təqdimatı və icra vəziyyəti üzrə üç Sammiti keçirilmişdir. «Şərq Tərəfdaşlığı» Proqramı Aİ-nin 2004-cü ildə qəbul etdiyi «Avropa Qonşuluq Siyasəti» Proqramının yeni mərhələsidir. Azərbaycan hər üç Sammitində iştirak etmiş və regional təhlükəsizliklə bağlı öz prinsipial mövqeyini ortaya qoymuşdur.

Hazırda Avropa İttifaqı Rusiyanın bütün səylərinə baxmayaraq, altı keçmiş sovet respublikasının- Ukrayna, Belarus, Azərbaycan, Gürcüstan, Moldova və Ermənistanın "Şərq tərəfdaşlığı" proqramı üzrə Avropaya inteqrasiyasının sürətləndirilməsi və qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi siyasətinə xüsusi diqqət yönəldir. Bu işə İttifaqın nə qədər ciddi önəm verdiyini qurumun əsas hərəkətverici qüvvəsi hesab olunan iki böyük Avropa dövləti rəhbərinin- Almaniyanın federal kansleri A. Merkelin və Fransa prezidenti F. Olandın 2013-cü prezident seçkilərində qələbə çalması münasibətilə Prezident İlham Əliyevə ünvanladığı məktubdakı fikirlər də sübut edir.

Onların hər ikisi, o cümlədən ABŞ Prezidenti B.Obama Prezident İlham Əliyevi "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində öz ölkəsinin Avropa İttifaqı ilə əməkdaşlığını dərinləşdirməyə, ittifaqın potensialından tam istifadə etməyə və Azərbaycanla Avropa İttifaqı arasındakı gələcək yaxınlaşmaya hərtərəfli dəstək verməyə çağırmışlar.[195]

Mütəxəssislərin fikrinə görə, İttifaqın Vilnüsda keçirilən son Sammiti ərəfəsində təkcə ABŞ və aparıcı Avropa dövlətləri deyil, Rusiya da müxtəlif metod və vasitələrlə AB ilə "qonuluq siyasətinə" qoşulmuş Ukrayna, Belarus, Gürcüstan, Azərbaycan, Moldova və Ermənistanın İttifaqla gələcək əməkdaşlıq seçiminə təsir göstərməyə cəhd edirdi. Rusiya qonşularını, o cümlədən Ukrayna və Azərbaycanı Avropa İttifaqı ilə Assosiasiya Sazişini imzalamaqdan çəkindirmək üçün bir neçə ay əvvəldən başlayaraq müxtəlif təzyiq mexanizmlərini işə salmışdı.

Azərbaycan Prezidenti İlham Əliyevin Vilnüs Sammitində iştirakı Cənubi Qafqazdakı bir çox gələcək geosiyasi məsələlərə aydınlıq gətirməli idi. Düzdür, Ukrayna, Gürcüstan və Moldovadan fərqli olaraq, Azərbaycanın bu Sammitdə Assosiasiya və azad ticarət sazişlərinə qoşulmayacağı əvvəlcədən bəlli idi. O da bəlli idi ki, Azərbaycan, Belarus və Ermənistan kimi eyni zamanda Avrasiya İqtisadi Birliyinə və Gömrük İttifaqına da qoşulmaq fikrində deyil. Avropa İttifaqı də bu vəziyyəti müşahidə edərək, Azərbaycanın bəhs olunan sazişlərə qoşulmasında israr etmədi.

Mütəxəssislərin fikrinə görə, Avropa İttifaqı üzvləri Azərbaycan Assosiasiya və azad ticarət sazişlərini imzalayacağı təqdirdə, Kremlin ona qarşı onsuz da ara verməyən təzyiqlərinin daha da artacağını yaxşı anlayırdılar. Odur ki, hazırkı mərhələdə

[195]Yenə orada, 25-26 oktyabr 2013-cü il.

Azərbaycan Avropa İttifaqı ilə "Viza sadələşdirilməsi və Riadmisiya" haqqında ikitərəfli saziş imzalamaqla qənaətləndi. Bu saziş İttifaq ölkələri tərəfindən ratifikasiya olunandan sonra bəlli qrup Azərbaycan vətəndaşları sadələşdirilmiş viza rejimindən istifadə edərək Avropa ölkələrinə sərbəst gedə biləcəklər.

Azərbaycanla Avropa İttifaqı arasında bu sazişin imzalanması təkcə birincinin vətəndaşları üçün Şengen vizasının sadələşdirilməsi baxımından deyil, həm də Azərbaycanın Avropaya yaxınlaşması, İttifaq standartlarına uyğunlaşması istiqamətində yeni bir mərhələnin başlanğıcı olacaq. Sazişin imzalanması Azərbaycanın Avropa İttifaqına gələcək assosiativ üzvlüyünə doğru atılan çox mühüm bir addım oldu.[196]

Siyasi analitiklər hesab edir ki, bir sıra MDB ölkələrinin, xüsusən də, Ukraynanın Avropaya inteqrasiyası yolunda növbəti mərhələ kimi gözdən keçirilən Vilnüs Sammiti bir tərəfdən Rusiyanın qonşu ökələrə qarşı ciddi təzyiqləri ilə müşayiət olunmuş, digər tərəfdənsə, postsovet məkanında geosiyasi meyillərin aydınlaşmasına və gələcək hədəflərin müəyyənləşməsinə təkan vermişdir. [197]

Sammit bir daha təsdiq etdi ki, Avrasiyada Avropa İttifaqı ilə Rusiya arasında hegemonluq uğrunda geosiyasi rəqabət mövcutdur və bundan sonra da davam edəcək. Bundan başqa, Aİ, ABŞ və Rusiya ilə yanaşı bu mübarizəyə hazırda çətin seçim qarşısında qalmış altı postsovet respublikası da cəlb edilib. Sonuncular hazırda iştirak etdikləri, yaxud qoşulmağa çalışdıqları beynəlxalq və regional mərkəzlərin heç birini narazı salmayacaq üçün yeni əməkdaşlıq forması və variantının axtarışını davam etdirirlər. Belə bir universal variant ortada olmadığına

[196]Bax: "Yeni Müsavat" qəzeti, 30 noyabr 2013-cü il.
[197]Yenə orada.

görə, mövqelərini hələ ki, tam açıq formada ortaya qoymayan Azərbaycan və Ukrayna bu prosesdən müəyyən qədər vaxt udmağa çalışacaqlar.

Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlərin sonrakı taleyinə təsir göstərə biləcək digər mühüm addım Avropa Komissiyasının sədri J. M. Barrozunun 1914-cü ilin iyun ayının 14-də Azərbaycana səfəri çərçivəsində imzalanan çərçivə sazişi hesab oluna bilər. Azərbaycan Respublikasının Avropa İttifaqının proqramlarında gələcək iştirakının ümumi prinsiplərini müəyyən edən həmin saziş bir tərəfdən Azərbaycan, digər tərəfdən Aİ və onun üzvü olan dövlətlər arasında tərəfdaşlıq və əməkdaşlıq Sazişinin rəsmi Protokolu hesab olunur.[198]

Qeyd etmək lazımdır ki, Azərbaycanın AB ölkələri ilə bağlı hazırkı siyasətində iki əsas xətt xüsusi yer tutur. Bunlardan biri, AB ölkələri ilə iqtisadi və siyasi münasibətləri tərəfdaşlıq istiqamətində inkişaf etdirməklə öz iqtisadi inkişafını və iqtisadi təhlükəsizliyini təmin etməkdirsə, digəri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün onların dəstəyindən yararlanmaqdır.

§ 5.4. Rusiya, ABŞ, NATO və Avropa İttifaqı arasındakı münasibətlərin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə təsiri

Müasir beynəlxalq münasibətlərin ümumi vəziyyəti kimi Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizlik mühiti də, **bir tərəfdən,** *müasir dünya güclərinin-ABŞ, NATO, Rusiya, Çin və Avropa İttifaqının qarşılıqlı müna-*

[198]Bax; AzərTAc. İnformasiya agentliyinin xəbər bülleteni, Bakı, 14 iyun 2014-cü il.

sibətlərinin xarakterindən, BMT Təhlükəsizlik Şurasında qəbul edilən qərarlardan və həmin qərarların yerinə yetirilməsi vəziyyətindən, **digər tərəfdənsə,** *həmin dövlətlərin və təhlükəsizlik maraqlarına toxunulan konkret məkanların, ayrı-ayrı regionların və ölkələrin əhalisinin yürüdülən təhlükəsizlik siyasətinə münasibəti və reaksiyasından* asılı olaraq formalaşır və dəyişir. Məsələn, mütəxəssislər hesab edirlər ki, Rusiya cəmiyyətində postsovet ölkələrində yürüdülən təhlükəsizlik siyasətinin mahiyyəti tam aydın olsa da, ABŞ və NATO hərbi blokunun dünyada və bəhs olunan məkanda yürütdüyü geosiyasətə və hərbi-geostrateji kursa münasibət hələ də birmənalı deyil. Qərbin iqtisadi və hərbi blokları ilə münasibətlərə dair bu ölkə rəsmilərində fərqli yanaşmaların mövcudluğu postsovet məkanındakı regional təhlükəsizlik siyasətinə də mənfi təsir göstərir. Ukrayna hadisələri fonunda ABŞ-ın təzyiqi iləonun bütün müttəfiqlərinin Rusiyaya sanksiya tətbiq etməsinə qədər Rusiyada ABŞ-ı, Avropa İttifaqı və NATO-nu beynəlxalq terrorizmə qarşı mübarizə, etnik münaqişələrin həlli və müasir təhlükəsizliklə bağlı öz ölkələrinin bərabərhüquqlu tərəfdaşı qismində görənlərlə yanaşı, onlara "Avrasiya bölgəsində hərbi-siyasi cəhətdən möhkəmlənməyə və Rusiyanın maraqlarına zərbə vurmağa can atan rəqib" kimi baxanlar da kifayət qədər idi. Məsələn, Rusiyalı ekspertlərin məlumatına görə, bir neçə il bundan əvvəl Rusiya hökuməti özünün xarici siyasət prioritetləri sırasına əvvəlki illərdə olduğu kimi, daha çox MDB ölkələri ilə münasibətləri deyil, ilk növbədə ABŞ və Avropa ölkələri ilə konstruktiv əməkdaşlığı və tərəfdaşlığı daxil etmişdi. Rusiya rəsmisləri ABŞ-la həmin illərdə imzalanan mühüm strateji müqavilələri, ABŞ-ın 2010-cu ildə açıqladığı rəsmi Milli Təhlükəsizlik Strategiyasını və s. kimi addımları nəzərə alaraq "iki ölkə arasındakı

keçmiş gərginliyin geridə qaldığını, gələcək münasibətlərdə ciddi tərəfdaşlığa, yeni konstruktiv əməkdaşlığa əsas yarandığını, dünyada və Avropada onlar arasındakı qarşıdurmadan qaynaqlanan münaqişələrin tezliklə aradan qalxacağını" bəyan edirdilər. Bəzi rus geostrateqləri də həmin illərdə ABŞ-la başlanan dialoq və formalaşan tərəfdaşlıq münasibətlərindən çıxış edərək, "dünyada, o cümlədən Yaxın və Orta Şərqdə, Xəzər hövzəsi və Cənubi Qafqazda mövcud hərbi-geostrateji məsələlərin, regional təhlükəsizliyin və NATO-Rusiya rəqabətinin müsbət sonluqla, ortaq maraqlar əsasında başa çatacağını proqnozlaşdırır və bütövlükdə Rusiya-ABŞ münasibətlərinin gələcək inkişafına inandıqlarını" qeyd edirdilər.

Lakin bununla yanaşı, Rusiyanın bəzi dövlət rəsmiləri və ictimai dairələri o dövrdə də, indi də açıq-aşkar formada "ABŞ-ın postsovet məkanındakı siyasətinin və Rusiya ilə münasibətlərinin səmimiyyətinə inanmadıqlarını", fürsət düşən kimi "bu ölkənin Rusiyanın maraqlarına zərbə vuracağını" söyləyirdilər. Məsələn, həmin dövrdə Rusiyanın Baş naziri olan Vladimir Putin 30 avqust 2010-cu ildə jurnalistlərə verdiyi müsahibəsində iki ölkə arasında münasibətlərdə ABŞ prezidentinin səyi ilə bəzi sahələr üzrə münasibətlərin sahmana salınmasını müsbət qiymətləndirsə də, digər sahələr üzrə hələ də iki ölkə arasında ciddi problemlərin mövcud olduğunu və həll edilməmiş qaldığını qabartmışdır. O, həll edilməmiş problemlər sırasına Rusiya ilə münaqişə vəziyyətində olan Gürcüstana silah verilməsini, Avropada raket əleyhinə müdafiə sistemləri və müşahidə radarlarının quraşdırılmasından hələ də tam imtina edilməməsini və s. aid etmişdir.[199]

[199]Bax: qaz. "Зеркало", 2 сентября 2010 г.

ABŞ-ın yeni Milli Təhlükəsizlik Strategiyası ilə bağlı səsləndirdiyi açıqlasında təxminən oxşar mövqeyi Rusiyanın xarici işlər naziri Sergey Lavrov da nümayiş etdirmişdir.

Beləliklə, göründüyü kimi Rusiyanın xarici siyasətində ABŞ və Şimali Atlantika blokunun postsovet məkanındakı təhlükəsizlik siyasətinə uzun müddət fərqli yanaşma və hərbi-geostrateji mövqe mövcud olmuşdur ki, bu da Xəzər-Qara dəniz hğvzəsi və Cənubi Qafqaz kimi həssas bölgənin regional təhlükəsizlik mühitinə birbaşa mənfi təsir göstərmiş, bölgə ölkələrinin, o cümlədən Azərbaycanın təhlükəsizliklə bağlı birmənalı beynəlxalq və regional mövqe formalaşdırmasını, xarici aktorlarla sərbəst münasibət yaratmasını, öz maraqlarına uyğun addım atmasını çətinləşdirmişdir.

Rusiyanın 2009-cu ildə qəbul etdiyi "Rusiya Federasiyasının 2020-ci ilə qədərki müddətdə Milli Təhlükəsizlik Strategiyası" [200] və 2010-cu ilin əvvəllərində qəbul etdiyi Hərbi Doktrinasında[201] ABŞ və NATO bloku bu ölkənin əsas "xarici təhlükə ocaqları" kimi təqdim olunur.

Bəzi mütəxəssislərin fikrinə görə, Cənubi Qafqazın təhlükəsizliyi və hərbi geostrateji məsələləri ilə bağlı ABŞ-ın yürütdüyü və Rusiya tərəfindən daim tənqid olunan regional siyasət (NATO-nun bəzi postsosialist və postsovet ölkələrinin iştirakı ilə Şərqə doğru genişləndirilməsi və Avropada raket əleyhinə müdafiə qurğuları yaratmaq cəhdləri, Gürcüstan və Ukraynanın ərazi bütövlüyü və suveren hüquqlarının ABŞ və Şimali Atlantika bloku tərəfindən açıq müdafiə olunması bu dövlətlərə verilən hərbi dəstək və s.- Ə.H.) başqa formada

[200]"Стратегия национальной безопасности Российской Федерации до 2020 года» http://www.scrf. gov.ru/ documents/ 99.html

[201]"Военная Доктрина Российской Федерации" http://www.scrf. gov.ru/ documents/ 33.html

Rusiyanın həmin regionda yeritdiyi təhlükəsizlik siyasətinin özündə də təkrar olunur. Məsələn, 2010-cu ildə qəbul etdiyi Hərbi Doktrinasında və Təhlükəsizlik Strategiyasında Rusiya açıq-aşkar ABŞ və NATO ölkələrinin dünyadakı fəaliyyətini özünün "xarici təhlükə mənbələri" sırasına aid edir. Yaxud bu ölkə "Rusiyanın milli və həyati təhlükəsizlik maraqlarının təmin edilməsi məqsədilə" lazım gəldikdə postsovet ölkələrinin ərazisinə birbaşa qoşun çıxarmaq "hüququnu" bəyan edir. Hər iki yanaşma, qeyd olunan mütəxəssislərin fikrincə, "nə bu ölkənin bəyan etdiyi ölkələrarası sivil tərəfdaşlıq təşəbbüslərinin ruhuna, nə də ki, beynəlxalq hüquq normalarına uyğun gəlir". Rusiya ABŞ-ı Cənubi Qafqazda Moskva ilə münaqişə vəziyyətində olan Gürcüstanı silahlandırmaqda, Avropada raket əleyhinə müdafiə sistemləri və müşahidə radarları yaratmaqda günahlandırdığı halda, özü də Azərbaycan torpaqlarını işğal edən Ermənistanı ölkəsinin vergi ödəyicilərinin hesabından əvəzsiz silahlandırır, Cənubi Qafqazdakı Dağlıq Qarabağ və digər etnik separatçı rejimləri dolayısı ilə dəstəkləyir və yardım edir. Odur ki, hər iki düşərgənin Cənubi Qafqazın regional təhlükəsizliyi ilə bağlı nümayiş etdirdiyi ikili standart müvafiq olaraq həm bölgənin təhlükəsizlik mühitinə, həm də bölgə ölkələri ilə münasibətlərə mənfi təsir göstərir.[202]

Bir faktı da qeyd etmək lazımdır ki, Rusiyanın son zamanlar dünyada nümayiş etdirdiyi beynəlxalq və regional təhlükəsizlik siyasəti, Ukraynada həyata keçirdiyi hərbi-geostrateji kurs, bu ölkəni təmsil edən bəzi rəsmi dairələrin anti-Qərb və anti-NATO bəyanatları ABŞ, NATO və Avropa İttifaqının rəsmi dairələrini ciddi narahat etsə də, bu ölkənin neçə illərdir ki, Cənubi Qafqazda işğalçı Ermənistana ATƏT-in nəzarətindən

[202]Bax: газ. "Зеркало", 2 сентября 2010 г.

kənar çoxsaylı və təmənnasız hərbi yardım göstərməsi, Ermənistan vasitəsi ilə həm də dolayı yolla Dağlıq Qarabaqdakı separatçı rejimi silahlandırması faktı nədənsə onlar tərəfindən sükutla qarşılanır.

ABŞ və NATO, təbii ki, Rusiyanın 2010-cu ildə hazırladığı Hərbi Doktrinanın müəyyənləşdirdiyi "xarici təhlükə mənbələri" sırasında özlərini qətiyyən rahat hiss edə bilməzdilər və bununla bağlı NATO Baş katibi Andres Rasmussenin etirazı da o dövdə özünü çox gözlətmədi. O, Rusiyanın yeni təhlükəsizlik strategiyası ilə bağlı "Röyter" agentliyinə açıqlamasında bildirmişdi ki, bu ölkənin yeni Hərbi Doktrinası dünyadakı müasir hərbi vəziyyəti qətiyyən doğru əks etdirmir və Qərbin bu ölkə ilə tərəfdaşlıq istiqamətindəki çalışmalarının ruhuna uyğun gəlmir. Çünki NATO bloku özünü qətiyyən Rusiyanın düşməni hesab etmir.[203]

Mütəxəssislərin fikrinə görə, B.Obama ABŞ-da prezident seçiləndən sonra Ukrayna böhranına qədər NATO blokunun Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsində nümayiş etdirdiyi faktiki fəaliyyətsizlik, yaxud həyata keçirdikləri çox yumşaq təhlükəsizlik kursu fonunda Rusiya bölgədə xeyli fəallaşmışdı. Qərb dairələrinin bəhs olunan dövrdə Rusiya ilə münasibətləri yumşaltmaq istiqamətindəki ciddi fəaliyyətini, ABŞ və Rusiya prezidentləri arasında keçirilən bir çox görüşləri, imzalanan bəzi ölkələrarası sənədləri, ABŞ-ın Avrasiya siyasətində mülayim kurs nümayiş etdirməsini və bu bölgədəki ənənəvi geosiyasi maraqlarını Rusiyaya güzəştə getməsini mütəxəssislər birmənalı müsbət qiymətləndirmirdilər. ABŞ-ın bu siyasətini "Rusiyanı Qərbə münasibətdə açıq qarşıdurma meyilindən çəkindirməyə hesablanmış siyasi kurs kimi" dəyər-

[203]Bax: газ. "Зеркало", 12 февраля 2010 г.

ləndirənlərin sayı daha çox olsa da fərqli düşünənlər də kifayyət qədər idi. Birincilərin fikrincə, Barak Obama hökumətinin həyata keçirdiyi yeni dünya siyasəti və təhlükəsizlik platforması, Rusiya - ABŞ münasibətlərindəki konstruktiv yaxınlaşma və tərəfdaşlıq xətti təkcə Amerikanın özünün deyil, həm də hegemon olduğu NATO blokunun, Avropa İttifaqı ölkələrinin dünyada, o cümlədən Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı mövqeyinə, SSRİ dağılandan bəri nümayiş etdirdiyi birmənalı siyasətə ciddi təsir göstərmiş və göstərəcəkdir. Bunu 19-20 noyabr 2010-cu ildə NATO-nun Lissabonda keçirilən sammitində üzv ölkələrin başçılarının Rusiya ilə bağlı nümayiş etdirdikləri münasibət və qəbul etdikləri yeni "Təhlükəsizlik Strategiyası" da aydın şəkildə göstərdi. NATO bundan qabaq, 1999-cu ildə qəbul etdiyi əvvəlki strategiyasından fərqli olaraq, növbəti 15 il üçün nəzərdə tutulan yeni strategiyasında artıq Rusiyanı bir çox başqa rəqib ölkələrlə yanaşı "Qərbin təhlükəsizliyinə təhdid mənbəyi" kimi deyil, əksinə, ümumavropa təhlükəsizliyi sahəsində "strateji tərəfdaş" kimi qiymətləndirmiş və onunla münasibətlərində fərqli taktika ortaya qoymuşdur. ABŞ Prezidenti Barak Obama sammitdəki çıxışında "Avropa və ABŞ-ın raket təhlükəsizliyi sisteminə Rusiyanı da qatacaqları" haqqında bəyanat verərək, bu haqda Rusiya Prezidenti Dmitri Medvedevlə danışıq apardığını iştirakçıların diqqətinə çatdırmışdır. ABŞ Prezidentinin bu bəyanatını və NATO-nun Lissabondakı mövqeyini dəyərləndirən rus mütəxəssisləri növbəti gün, Sammitin bitməsini gözləmədən NATO-nu artıq Rusiya üçün təhlükə deyil, təhlükəsizlik sahəsində tərəfdaş və "mütərəqqi blok" kimi dəyərləndirməyə başlamışdılıar.[204]

[204]Bax: газ."Известия", 18 ноября 2010 г.; Прогрессивный блок НАТО //газ."Известия", 22 ноября 2010 г.

Başqa bir qrup mütəxəssis hesab edir ki, bəhs olunan dövrdə Avropa İttifaqı və ABŞ-ın Rusiya ilə münasibətləri bərpa etmək və yaxşılaşdırmaq sahəsində həyata keçirdiyi xətt Avroatlantik Alyansın dünyadakı hərbi-geostrateji mövqeyinə ciddi təsir göstərmiş, hətta təşkilatın Qara və Xəzər dənizləri hövzəsində yerləşən bəzi ölkələr qarşısındakı öhdəliklərini ciddi sual altına almışdır. Rusiya-Gürcüstan müharibəsində Qərbin Gürcüstanın suveren hüquqlarını təmin etmək sahəsində ciddi bir iş görə bilməməsi NATO ilə strateji əməkdaşlığı möhkəmləndirən Ukraynanın, bu istiqamətdə nisbətən məsafə saxlayan Azərbaycanın, Orta Asiya dövlətlərinin mövqeyinə bilavasitə mənfi təsir göstərmiş və bu təsir indi də özünü büruzə verir.[205]

Son illər ərzində ABŞ ilə Şimali Atlantika blokunun Avropadan olan bəzi üzvləri arasında da beynəlxalq və regional təhlükəsizliklə bağlı ciddi fikir ayrılıqları müşahidə olunmaqdadır. Rəsmi Vaşinqton NATO-dan bütün dünyada öz istəyinə uyğun və ona lazım olan məqamda hansısa ölkəni cəzalandırmaq, yaxud planetin hansısa bölgəsinə qoşun çıxararaq öz iradəsini reallaşdırmaq məqsədi ilə istifadə etməyə çalışır. Bu mövqeni Avropanın Fransa, Almaniya, Türkiyə və s. kimi böyük dövlətləri heç də hər zaman dəstəkləmir. Onlar Avropa İttifaqının müasir dünyada yürütdüyü liberal-demokratik siyasətə uyğun olaraq, həm ABŞ-ı öz yanlarında görməklə ondan Avropanın təhlükəsizliyinə əlavə təminat kimi istifadə etmək, həm də Avrasiya bölgəsində - Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda öz geoiqtisadi maraqlarını reallaşdırmaq,

[205]Bax: Petersen A. Azərbaycanın Avroatlantik baxışları // "Azerbaijan Focus" jurnalı, №2, 2010-cu il, s.197.

enerji təhlükəsizliklərini gücləndirmək və s. məqsədlər üçün bəhrələnmək istəyirdilər.

Mütəxəssislərin fikrincə, bəzi Şərqi Avropa dövlətləri ABŞ və NATO-dan daha çox "qitənin enerji təhlükəsizliyinin təminatı" məqsədi ilə Rusiyaya təzyiq vasitəsi kimi istifadə etməyə çalışırlarsa, Qərbi Avropa dövlətləri və Türkiyə, əksinə, ABŞ və NATO-nu onların Rusiya ilə tərəfdaşlıq yaratmaq səylərinə mane olmaqdan çəkindirməyə cəhd göstərirlər. NATO-nun Baş katibi Andres Rasmussenin 2010-cu ildə bununla bağlı açıqlaması bu məsələyə kifayət qədər aydınlıq gətirir. O bəyan edirdi ki, NATO bloku ABŞ-ın ardınca Rusiya ilə öz münasibətlərindəki "gərginliyi aradan qaldırmalı", onunla tərəfdaşlıq münasibəti yaratmalı və hətta lazım gəlsə, bu dövləti öz sıralarına qəbul etməlidir.[206] NATO Baş katibinin bu bəyanatı, təşkilatın Lissabon sammitində rəsmi olaraq ortaya qoyduğu "Rusiya ilə tərəfdaşlıq kursu" və s. blokun əksər üzvləri tərəfindən dəstəklənərək, sonrakı dövrdə NATO-nun yeni təhlükəsizlik strategiyasına, bütövlükdə Avrasiyada, o cümlədən Xəzər-Qara dəniz hövzəsindəki gələcək fəaliyyətinə də bir çox fərqli prinsiplər əlavə etdi. Həmin strategiyaya görə, Alyansın beynəlxalq təhlükəsizliyin təmin olunması sahəsində yaxın on il üçün əsas vəzifələrindən biri *dünyanın digər böyük dövlətləri, regional liderləri ilə münasibətləri sahmana salmaq və onlarla tərəfdaşlıq əlaqələrini gücləndirməkdən ibarətdir*. Mütəxəssislərin fikrinə görə, hazırda NATO-nun Cənubi Qafqazdakı hərbi-geostrateji və təhlükəsizlik strategiyası daha çox Qərbin enerji təhlükəsizliyi məsələlərinə yönəlmişdir.

Göründüyü kimi, ABŞ, Avropa İttifaqı və NATO 1995-2008-ci illərdəkindən fərqli olaraq, 2008-2013-cü illərdə

[206]Bax: газ. "Зеркало", 22 июля 2010 г.

Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz ölkələrinin milli və təhlükəsizlik mənafelərini, onlarla əvvəlki illərdə qurulmuş geosiyasi, geoiqtisadi və hərbi-geostrateji münasibətləri, bəziləri ilə yaradılmış hərbi strateji tərəfdaşlığı və bölgədə yarana biləcək gələcək geosiyasi reallıqları nəzərə almadan Rusiya ilə, sonuncu isə öz növbəsində Qərblə bütün sahələrdə, o cümlədən geosiyasi, hərbi-geostrateji və geoiqtisadi məsələlərdə tərəfdaşlıq münasibətlərini öz xarici siyasətinin əsas prioritetlərindən biri kimi reallaşdırmağa çalışdı. Bu istiqamətdə hərbi-geostrateji əməkdaşlıq və tərəfdaşlığı hədəfləyən bir neçə düşərgələrarası sazişlər də imzalandı. Lakin, ziddiyyətli hal ondan ibarət idi ki, Gürcüstan, Ukrayna, Özbəkistan, Qırğızıstan, Azərbaycan və b. region ölkələrinin (Ermənistan istisna olmaqla) həmin dövrdə həm Qərblə, həm də Rusiya ilə analoji münasibəti, əməkdaşlıq və tərəfdaşlıq cəhdləri dərhal əks düşərgənin əsassız qısqanclığı ilə qarşılaşmağa başladı. O yerdə ki, Rusiya ilə Qərbin təhlükəsizlik məsələləri ilə bağlı münasibətlərinin gündəminə Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsi ölkələri çıxarıldı, həmin ölkələrlə münasibətlər müzakirə olundu, dərhal razılaşdırılmış bütün prinsiplər, imzalanmış tərəfdaşlıq sənədləri arxa plana keçdi, qarşılıqlı etimad itdi və gərginlik yarandı.

Rusiya ilə Qərb arasındakı 2014-cü il Ukrayna böhranından sonrakı hərbi-geostrateji vəziyyəti təhlil edən mütəxəssislərin fikrinə görə, bu düşərgələri təmsil edən rəsmi qurumlar və hərbi bloklar (NATO və KTMT) arasında keçən müddətdə imzalanan müqavilələrin əksəriyyəti hazırda kağız üzərində qalmışdır və onlar arasındakı münasibətlərə heç bir pozitiv təsir göstərmir. Belə təəssürat yaranır ki, bir-biri ilə əməkdaşlıq üçün müvəqqəti maraq nümayiş etdirən tərəflərdən hər birinin əsas məqsədi heç də konstruktiv əməkdaşlıq deyilmiş, yalnız

region ölkələrini öz təsirləri altına salaraq onların rəqib düşərgə ilə münasibətlərinə nəzarət etmək imiş. Həm Rusiya, həm də Qərb bölgə ölkələrinin bütün hərəkətlərini- siyasi, iqtisadi və hərbi fəaliyyətini nəzarət altında saxlamaq və idarə etmək istəyirmiş.

Odur ki, Rusiya ilə Qərb arasındakı konstruktiv tərəfdaşlıq münasibətlərinin sərhədi bu düşərgələri təmsil edən birliklərlə (Avropa İttifaqı, MDB, Avrasiya İttifaqı, NATO, KTMT və s.) postsovet respublikalarının münasibətlərindən keçir. O yerdə ki, bu münasibətlər həmin ölkələrin bu birliklərdən hər hansı biri ilə tərəfdaşlığına, yaxud quruma üzvlüyünə əsas yaradır, bəhs olunan ölkələr dərhal əks tərəfin ciddi təzyiqlərinə məruz qalır və adekvat olaraq düşərgələrarası gərginlik artır. Bunun əyani sübutunu ABŞ, Avropa İttifaqı, NATO və Rusiya, Avrasiya Birliyi, KTMT arasındakı Ukrayna ətrafında cərəyan edən hadisələrdə görmək olar. Göründüyü kimi bir neçə il öncə "əsas tərəfdaş", az qala "müttəfiq" hesab olunan Rusiya və Qərb Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyi məsələsində, Avrasiyanın bu bölgəsinin indiki və gələcək geosiyasi, geoiqtisadi və hərbi-geostrateji arxitekturasının müəyyən olunmasında ciddi rəqibdə çevrildilər. Hazırda hər iki düşərgə yerli və region ölkələrinin imkanlarından, malik olduqları iqtisadi, siyasi və hərbi resurslardan və s. istifadə edərək regiondakı güc balansını öz xeyirinə dəyişmək istəyir. Bu da müvaviq olaraq yerli ölkələrin bir-biri və beynəlxalq aləmlə münasibətlərini pozur, regiondakı mövcud gərginliyi artırır, Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsinin geosiyai, geoiqtisadi və hərbi-geostrateji mühitinə mənfi təsir göstərir. NATO-nun informasiya bürosunun direktoru Robert Pşelin

fikri ilə ifadə etsək: "düşərgələrarası əsas problemlərdən biri-qarşılıqlı etimadın itməsidir". [207]

Rusiya, ABŞ, NATO və Avropa İttifaqının Cənubi Qafqazda və Xəzər-Qara dəniz hövzəsində reallaşdırdığı hazırkı hərbi-geostrateji və təhlükəsizlik siyasətini bu ölkələrin rəsmi və qeyri-rəsmi dairələri, ayrı-ayrı mütəxəssisləri və s. kimi, region ölkələrinin rəsmi və ictimai dairələri, ümumi əhalisi və ictimaiyyəti də birmənalı qiymətləndirmir. Məsələn, hazırda Qərb üçlüyünün Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsində yürütdüyü hərbi-geostrateji kurs və təhlükəsizlik siyasəti postsovet ölkələrindən yalnız Gürcüstan və Ukraynanı, Rusiyanın yürütdüyü siyasəsə yalnız Ermənistanı birmənalı şəkildə qane edir. Birincilərin "region ölkələrinin təhlükəsizlik məsələləri ilə bağlı müstəqil seçim hüququnun tanınması və bunun əsasında dünyada yeni geosiyasi, hərbi-geostrateji vəziyyət yaratmaq" istəyini , Rusiyanınsa "təhlükəsizlik sahəsində birgə regional əməkdaşlıq prinsiplərinin yaradılması" təklifini bəzi istisnalarla Azərbaycan da dəstəkləyir.

Hazırda Qərbi təmsil edən üçlük Cənubi Qafqazda Qara dəniz hövzəsi və Cənubi Qafqazda Ukrayna və Gürcüstanla yaratdıqları strateji tərəfdaşlıq münasibətlərini regionda Azərbaycan və Moldova ilə yaratmaq, o cümlədən gələcəkdə Ermənistanı Rusiyadan qopararaq öz geosiyasi orbitinə çəkmək istiqamətində fəaliyyət göstərir, BTC-nin, BTƏ-nin təhlükəsizliyini, bölgədə Qərbin enerji maraqlarını qorumaq və təmin etmək məqsədi ilə Cənubi Qafqaz və Mərkəzi Asiyada sabitliyin yaradılmasını, bölgənin bütövlükdə NATO-nun hərbi-geostrateji və təhlükəsizlik dairəsinə daxil olmasını arzulayırlar. Bundan başqa, üçlük bölgədə özlərinin yanacaq-enerji

[207]См: Радио Эхо Москвы, 20.02. 2011.

maraqlarını reallaşdırmaq, Avropanın artan enerji təhlükəsizliyini Rusiyanın geoiqtisadi asılılığından xilas etmək, Xəzər-Qara dəniz hövzəsində və Cənubi Qafqazda geoiqtisadi cəhətdən möhkəmlənmək istiqamətində də ciddi fəaliyyətlərini davam etdirir.

Lakin Cənubi Qafqazın regional təhlükəsizlik mühitinə və yerli ictimaiyyətin fikrinə ciddi təsir göstərən bir faktı da xüsusi vurğulamaq lazımdır ki, üçlük Ukrayna qarşıdurmasına qədər bütün *bu məsələləri Rusiya ilə ciddi siyasi, iqtisadi və hərbi münaqişəyə girmədən həll etməyə* çalışırdı. Məsələn, ABŞ dövlət katibi Hillari Klintonun 2010-cu ilin iyul ayında Cənubi Qafqaz ölkələrinə rəsmi səfəri zamanı səsləndirdiyi bəyanatlar onu göstərirdi ki, ABŞ bu regionu birdəfəlik tərk etmək və Rusiyanın ixtiyarına buraxmaq fikrində deyildir. Xüsusən, Avropanın bölgədəki hərbi-geostrateji, enerji və nəqliyyat-dəhliz təhlükəsizliyinin təmin edilməsi məsələlərində rəsmi Vaşinqton Xəzər hövzəsinə, Orta Asiya və Cənubi Qafqaza, Azərbaycana və Gürcüstana ciddi əhəmiyyət verərək, bu bölgədə sabit regional mühit yaratmaq və dövlətlərin Rusiyadan asılı olmayan, müstəqil addımlarını dəstəkləmək istədiyini nümayiş etdirir. Lakin Rusiyanın Ukrayna hadisələri fonunda son zamanlar regionda xeyli fəallaşması və Qara dəniz hövzəsində cərəyan edən hadisələrin doğurduğu yeni reallıqların da daha çox onun maraqlarına uyğun dəyişməsi həm ABŞ-ı, həm də onun Avropa İttifaqı və NATO üzrə müttəfiqlərini yeni geosiyasi vəziyyətlə üz-üzə qoymuş və tam fəallaşmağa məcbur etmişdir. Məhz elə həmin reallığa uyğun olaraq, Şimali Atlantika Alyansı Gürcüstan və Ukraynanın ərazi bütövlüyünü, suverenliyi və təhlükəsizliyini ön plana çıxararaq Rusiya ilə gərgin hərbi-geostrateji vəziyyət yaratmışlar. Yəqin ki, bu ölkələrin NATO blokuna üzv olması məsələsi hazırkı dövrdə

ABŞ-ın əsas qayğılarından birinə çevrilmişdir. Bununla Qərb bir tərəfdən Ukrayna və Gürcüstanı çətin hərbi-geostrateji vəziyyətdən çıxarmaq istəyir, onları ciddi və prinsipial formada dəstəkləmək kursu nümayiş etdirir. Digər tərəfdənsə NATO-nun Şərqə doğru genişlənməsi anlamında özlərinin Qara-Xəzər dənizi hövzəsi və Cənubi Qafqazdakı əvvəlki əlverişli geosiyasi mövqelərini bərpa etməyə çalışırlar.

Qərb ölkələrinin həm keçmişdə, həm də yeni şəraitdə Cənubi Qafqazın təhlükəsizliyi ilə bağlı yürütdüyü fərqli siyasət və Rusiya ilə qeyri-standart münasibətlər əksər region ölkələrinin, o cümlədən Azərbaycanın bu sahədəki milli təhlükəsizlik mövqelərinə və fəaliyyətinə adekvat təsir göstərmişdir. Məsələn, bu düşərgələr arasındakı 2008-2013-cü illərdəki nisbətən sakit şəraitə uyğun olaraq 18 noyabr 2010-cu ildə Rusiyanın təşəbbüsü ilə Xəzər hövzəsi ölkələrinin 3-cü Bakı Sammiti keçirildi və Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistan prezidentləri "Xəzərdə təhlükəsizlik sahəsində birgə əməkdaşlıq" haqqında Sazişə imza atdılar. Bəhs olunan Saziş Xəzər hövzəsində birgə təhlükəsizliyin təmin edilməsi prinsipləri ilə yanaşı, həm də transsərhəd bölgələrdə terrorizmə, cinayətkarlığa, qaçaqmalçılığa və narkotiklərin dövriyyəsinə qarşı ümumi mübarizənin mexanizmlərini özündə əks etdirmişdir ki, onu mütəxəssislər bütövlükdə *"bölgədəki yeni geosiyasi və hərbi-geostrateji şəraitin əyani nəticəsi kimi"* dəyərləndirmişlər. Bəziləri Sazişin əsas xüsusiyyətlərindən biri kimi "Xəzər bölgəsinin təhlükəsizlik məsələlərinə hər hansı kənar qüvvələri buraxmadan, bilavasitə sahilyanı ölkələrin daxili potensialı hesabına regional sülhün və sabitliyin təmin edilməsi prinsipini" qeyd etmiş[208], digərləri "regionun təhlü-

[208]Bax: Период полураздела // газ."Коммерсант", 19 ноября 2010 г.

kəsizliyi məsələsində yerli və beynəlxalq amillərin tarazlığının yaradılmasını"[209] və s. ön plana çəkmişlər.

Xəzərdə birgə təhlükəsizliklə bağlı imzalanan həmin dövlətlərarası Sazişi "NATO təhlükəsindən birdəfəlik xilas olmaq və region ölkələrinin bu quruma meyillənməsini durdurmaq məqsədilə Rusiya-İran cütlüyünün xüsusi səyi ilə ərsəyə gəlmiş və Azərbaycanın tarazlaşdırılmış siyasətinə mane olan" sənəd kimi dəyərləndirən mütəxəssislər də mövcuddur. Onların bir qismi, xüsusən Qərb ölkələrinin strateji mərkəzlərini təmsil edən mütəxəssislər hesab edir ki, 2008-2013-cü illərdə ABŞ və NATO-nun Rusiya qarşısından bir qədər geri çəkilməsi yerli ölkələrin heç də maraqlarına cavab vermir. Onların fikrinə görə, Xəzər hövzəsi və Cənubi Qafqazda "oyun qaydaları"nı müəyyənləşdirən Rusiya gələcəkdə region dövlətlərinin və beynəlxalq güc mərkəzlərinin müqaviməti ilə rastlaşacaq və "fərqli maraq dairələri üzərində yaradılmış" üstünlüklərindən geri çəkilməyə məcbur olacaqdır.

Bu gün həm Rusiya Federasiyasının, həm də Qərb dövlətlərinin Ukrayna ilə bağlı hərəkətlərində bir-birinə qarşı inamsızlıq hökm sürür. Məsələn, Böyük Britaniyanın "The Financial Times" qəzeti yazır: "Ruslara elə gəlir ki, Kiyevdəki nümayişlərin arxasında Qərbin xüsusi xidmət orqanları dayanır. Qərb isə hesab edir ki, Yanukoviç və onun ətrafındakılar Moskvanın marionetkasıdır".[210]

Təsadüfi deyil ki, hələ Ukraynada qanlı hadisələr başlamamış Rusiya Federasiyası və Avropa İttifaqı bir-birini Kiyevdə açıq şantajla ittiham edirdilər. Rusiya prezidenti Vladimir Putin əmin idi ki, "Avropa İttifaqı Ukraynaya təzyiq göstərir

[209]Bax: Каспий не поделили, но объявили безопасной зоной //"Независимая газета", 19 ноября 2010 г.
[210] "The Financial Times" jurnalı, 25 fevral 2014-cü il.

və bu ölkəni şantaj edir", ona görə ki, onunla avrointeqrasiya haqqında müqavilə imzalasın.[211]

Öz növbəsində, Avropa İttifaqı da Ukrayna prezidenti Yanukoviçin bu qurumla Assosiasiya sazişini "Moskvanın təzyiqi ilə" imzalamaqdan imtina etdiyini bildirdi. Lakin, bununla bağlı Avropa İttifaqının prezidenti German Van Pompey açıq şəkildə bəyan etmişdir: "Biz təzyiqə tabe olmağa hazırlaşmırıq, xüsusilə də Rusiya tərəfindən".[212]

Ukraynada dinc aksiyalardan silahlı toqquşmalara keçidlə xarakterizə olunan qarşıdurmanın "qaynar fazalarının" başlanğıcı əsas geosiyasi oyunçuların mövqelərini daha da kəskinləşdirdi ki, tərəflər qarşılıqlı ittihamlardan açıq təhdidlərə və xəbərdarlıqlara keçdilər. Rusiya Federasiya Şurasının 2014-cü il martın 1-də Ukrayna ərazisinə qoşun yeridilməsi ilə bağlı prezident V.Putinin xahişini yerinə yetirməsi nəticəsində Krımın Rusiya Federasiyasına birləşdirilməsi təkcə postsovet məkanında deyil, həm də bütün dünyada geosiyasi oyunçuların qarşıdurmasının yeni mərhələsi oldu. Təsadüfi deyil ki, NATO Rusiyanın Ukraynaya qoşun yeritməsini "bütün Avropada sülhə təhdid" kimi qiymətlənirdi. ABŞ prezidenti Barak Obama isə açıq şəkildə xəbərdarlıq etdi ki, "Ukraynada istənilən hərbi müdaxilənin öz qiyməti olacaq".

Belə vəziyyətdə ABŞ və Avropa Birliyi Rusiya ilə iqtisadi tətəfdaşlıq proqramlarına yenidən baxaraq ona qarşı sanksiyalar tətbiq etdi, "Cənub axını" qaz xəttinin tikintisini dayandırdılar. Belə ki, İtaliyanın "Eni" kompaniyasının ("Cənub axını"nın tikintisi üzrə konsorsiumda 20 faiz paya malikdir) rəhbəri Paolo Skaroni "Cənub axını"nın gələcəyini Rusiya və

[211] Агентство "РБК" Agentliyi, 22.11.2013
[212] «Reuters" Agentliyi, 01.03.2014

Avropa İttifaqının Krım böhranından hansı çıxış yolunu tapacağı ilə əlaqələndirərək layihədən imtina etdi.[213]

Bir çox ekspertlər hesab edir ki, hər bir halda NATO ilə Rusiya arasındakı gərgin qarşıdurma münasibətlərinə nə zamansa yenidən baxmaq lazım olacaq. Artıq bu gün hətta Qərbdə də qəbul etməyə başlayıblar ki, Rusiya tərəfinin bu düşərgəyə inamsızlığının əsasında, faktiki olaraq NATO-nun Şərqə doğru genişlənməməklə bağlı verdiyi qeyri-rəsmi vədlərinə əməl etməməsi səbəb olmuşdur. Belə ki, on il əvvəl- 2004-cü ildə İstanbul Sammitində Rumıniya və Bolqarıstanı öz tərkibinə qatmaqla Qara dəniz hövzəsinə doğru genişlənən Şimali Atlantika bloku bəhs olunan bölgədə yeni hərbi-geostrateji qarşıdurmanın təməlimni qoymuşdu. Buna görə də Qərb analitikləri hesab edir ki, növbəti qarşıdurmanı yumşaltmaq istiqamətindəki ilk addımı da məhz NATO bloku atmalıdır. Bu düşərgəni təmsil edən "The Financial Times" yazır ki, Ukrayna böhranının həlli üçün ABŞ və Avropa İttifaqı öz üzərilərinə yazılı öhdəlik götürə bilərlər ki, "Gələcəkdə Ukraynaya NATO-nun üzvlüyünə qəbul edilməyəcək".[214]

Belə mövqeyi uzun illərdir "antirusiya birliyinin" əsas ideoloqu kimi tanınan Zbiqnev Bjezinski də dəstəkləyir. O, hələ 1997-ci ildə nəşr olunmuş "Böyük şahmat taxtası" kitabında yazırdı: "Ukraynasız Rusiya artıq Avrasiyanın hökmran dövləti deyil. Baxmayaraq ki, Rusiya sonra da imperiya statusuna çalışacaq, Ukraynasız Rusiya isə ilk növbədə Asiya imperiyası olacaq. Lakin, əgər Rusiya yenə Ukraynanı, onu 52 milyon nəfər əhalisi, əhəmiyyətli faydalı mədənləri və Qara dənizə çıxışı ilə nəzarət altına götürsə, onda Rusiyanın əlində

[213]"The Financial Times" jurnalı, 23 aprel 2013-cü il.
[214] "The Financial Times" jurnalı, 25 fevral 2014-cü il.

Avropa və Asiyanı əhatə edən böyük imperiya olması üçün avtomatik vasitə yaranacaq".[215]

Bjezinskinin fikrincə, Ukraynada işlərin hazırkı vəziyyəti elə təhlükəli situasiya yaratmışdır ki, bu gün Ukraynanın NATO-ya üzvlüyünü unutmaq lazımdır: "Ukraynanın köməyə ehtiyacı vardır. Lakin buz rusları inandıra bilərik ki, bizim məqsədimiz onların hərbi təhdid kimi baxdığı, Ukraynanı aldadıb NATO-ya gətirmək deyil. Eləcə də ukraynalıların böyük əksəriyyəti NATO-ya cəhd göstərmir, lakin onlar müstəqil olmaq istəyir. Beləliklə bütün bunlar siyasi reallıqla tam üst-üstə düşür". [216]

ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincer də hesab edir ki, Ukrayna NATO-nun üzvü olmalı deyil: "Qərb başa düşməlidir ki, Rusiya üçün Ukrayna heç vaxt adi xarici dövlət olmayacaq. Əgər Ukrayna yaşamaq və çiçəklənmək istəyirsə, o bir tərəfin digərinə qarşı forpostuna çevrilməməlidir. .. Ukrayna özünün siyasi və iqtisadi əlaqələrini azad seçmək hüququna malik olmalıdır, o cümlədən də Avropa ilə. Lakin Ukrayna NATO-ya daxil olmamalıdır". Kissincer xəbərdarlıq edir ki, "əgər bu və ya digər analoji elementlərin əsasında hansısa həll yolu tapılmasa, onda konfrontasiyalara sürüklənmə sürətlənəcəkdir".

Məhz bu kontekstdə həm də ABŞ Prezidenti Barak Obamanın 2014-cü il martın 26-da Brüsseldə verdiyi bəyanatına qiymət vermək olar. ABŞ Prezidenti orada açıq şəkildə bəyan etdi ki, "nə Ukrayna, nə də Gürcüstan NATO-ya üzvlük yolunda deyillər".[217]

[215] Бжезинский З. "Великая шахматная доска". М; 1988, с. 33.
[216] Бжезинский З. "Великая шахматная доска", с. 33.
[217] "Euronews" televiziyası, 07.03.2014.

"The Daily Beast" qəzeti yazır ki, Gürcüstanda B.Obamanın sözlərini "sarsılmaqla və məyusluqla" qəbul etdilər. Lakin bəzi mütəxəssislər hesab edir ki, "nə vaxt ki, Gürcüstanın NATO-nu dəstəkləməsi ABŞ üçün sərfəlidir o, Tbilisiyə belə ruhlandırıcı siqnallar göndərir, amma nə vaxt ki, bu, artıq geosiyasi baxımdan əlverişli deyil, həmin qayda ilə də dəvət təxirə salınır"... Bu cür templərlə ABŞ tezliklə Cənubi Qafqazda sadiq tərəfdarlarsız qala bilər və Azərbaycanla birlikdə Xəzər dənizini və onun neft ehtiyatlarını Qara dənizlə və Avropa ilə birləşdirən strateji gürcü dəhlizinə girişdən məhrum ola bilər".[218]

Ukrayna böhranının nəticəsindən asılı olmayaraq, demək olar ki, Rusiya ilə Qərbin qarşılıqlı münasibətlərində yeni mərhələ artıq başlanmışdır ki, bir çox ekspertlər bunu "soyuq müharibə" dövrünə qayıdış adlandırırlar. Məsələn, NATO-nun baş katibi Anders Foq Rasmussen Rusiya ilə mülki və hərbi əməkdaşlıq səviyyəsində Alyansın bütün iclaslarının dayandırıldığını bəyan etmişdir".[219]

Prezident Barak Obama, ABŞ-ın nöqteyi-nəzərincə Ukraynadakı vəziyyəti gərginləşdirən Rusiya məmurlarına viza məhdudiyyətlərinin qoyulması və onların bank hesablarının dondurulması haqqında fərman imzalamışdır.

Öz növbəsində Rusiyanın Xarici İşlər Nazirliyi bəyan etdi ki, "Rusiya beynəlxalq arenada öz həmvətənlərinin hüquqlarını qorumaqda davam edir və onların pozulmalarına barışmaz reaksiya verəcəkdir". RF-nın Federasiya Şurası isə Rusiyaya qarşı sanksiyalar tətbiq olunacağı təqdirdə Avropa və ABŞ-ın kompaniyalarının əmlakı, aktivləri və hesablarının müsadirə

[218] "Euronews" televiziyası, 07.03.2014.
[219] "Euronews" televiziyası, 07.03.2014.

olunmasını nəzərdə tutan qanun layihəsinin qəbul olunması mümkünlüyünü bəyan etdi. [220]

ABŞ və Avropa İttifaqının Rusiyanı mümkün siyasi və iqtisadi təcrid etmə ilə bağlı təhdid etməsi nəinki geosiyasi müstəvidə qüvvələr nisbətini, eləcə də regionda ticarət-iqtisadi vəziyyəti dəyişdirdi. Qarşıdakı dövrdə Rusiyada Qərb kompaniyalarının əmlakının müsadirə olunması ilə bağlı cavab tədbirləri görülə bilər ki, bu da kapitalın və xarici investisiyaların ölkədən çıxmasına gətirə bilər. Artıq ekspertlər qeyd edirlər ki, Rusiyadan kapital axını 2014-cü ilin I kvartalında 73-75 milyard dollar səviyyəsində olub. Baxmayaraq ki, bütünlükdə 2013-cü ildə kapital axını 62.7 milyard dollar təşkil edirdi.[221] Bütün bunlar isə sözsüz ki, təhlükəsizliklə bağlı ümumregional vəziyyətə mənfi təsir göstərir.

Beləliklə, Ukrayna məsələsində Rusiya Federasiyası ilə Avropa İttifaqı-ABŞ arasındakı konfrontasiyalar bir daha sübut edir ki, bu gün region ölkələri üçün təhlükəsizlik məsələləri ilə bağlı birmənalı mövqe formalaşdırmaq və öz maraqlarına uyğun olaraq bütün geosiyasi oyunçularla normal münasibətlər qurmaq çox çətindir. Hazırda Ukrayna və onun vətəndaşları faktiki olaraq bölgədə öz hərbi-geostrateji mövqelərini qorumağa çalışan iki geosiyasi oyunçunun – Rusiya və Qərbin münasibətlərindəki inamsızlığın qurbanına çevrilmişdir. Əlbəttə, bölgənin digər dövlətləri üçün Ukrayna nümunəsi qətiyyən arzu edilən deyildir. Münasibətlərin kəskinləşməsi Cənubi Qafqaz və Xəzər-Qara dəniz regionundakı yerli ölkələrin birbiri və beynəlxalq güclərlə qarşılıqlı münasibətlərində də özünü göstərir. Odur ki, Rusiya, ABŞ, NATO və Avropa İtti-

[220] «РИА Новости» Agentliyi, 05.03.2014
[221] "РБК" Agentliyi, 18.03.2014

faqının Cənubi Qafqazda və Xəzər-Qara dəniz hövzəsində yürütdükləri hərbi geostrateji və təhlükəsizlik siyasəti Rusiyanın rəsmi və qeyri-rəsmi siyasi dairələri, ekspertlər, region ölkələrinin rəsmi nümayəndələri və ictimaiyyəti, bütövlükdə əhalisi tərəfindən birmənalı qarşılanmır.

§ 5.5. Türkiyənin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik arxitekturasına yanaşması, Azərbaycanın geostrateji təhlükəsizlik maraqları

İkinci minillikdə **Avrasiyanın,** xüsusən də Qafqazın, Orta Asiya və Xəzər hövzəsinin ən təsirli geosiyasi oyunçularından biri Türkiyə olmuşdur. SSRİ-nin süqutundan sonra bu ölkə həm müstəqil şəkildə, həm də üzvü olduğu NATO hərbi blokunun strategiyası çərçivəsində Xəzər-Qara dəniz hövzəsinin, xüsusən Cənubi Qafqazın regional geostrateji təhlükəsizliyi sistemində öz mövqelərini gücləndirmək istiqamətində ciddi fəaliyyət göstərməyə başlamışdır. Sovet İttifaqı dövründə bölgədəki prosesləri əsasən NATO-nun mənafeyi prizmasından izləyən Türkiyə, onun dağılmasından bir qədər sonra, xüsusən də üçüncü minilliyin başlanğıcından Avrasiyada təkcə "Şimali Atlantika Alyansının maraqlarının müdafiəçisi" olmaq və "ABŞ-ın strateji müttəfiqi kimi" çıxış etmək rolundan bir qədər uzaqlaşaraq, daha çox öz fərdi roluna, məxsusi nüfuzuna, geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mənafelərinə diqqət yetirməyə başlayır.

ABŞ və Avropa İttifaqının ona istiqamətlənən bəzi təzyiqlərini hesaba almadan, XXl əsrin başlanğıcından onların yürütməyə çalışdığı "Böyük Yaxın Şərq" siyasətinə qarşı çıxan Türkiyə yeni şəraitdə İraq məsələsinə, Rusiya-Gürcüstan müharibəsinə, Qərb-İran qarşıdurmasına, Misir, Tunis, Liviya hadisə-

lərinə, yaxud İsrail-Fələstin, Ermənistan-Azərbaycan münaqişəsinə fərqli yanaşma sərgiləyir ki, bunu mütəxəssislər "Türkiyənin müstəqil siyasət yürütməsi və məxsusi maraqlarını qoruması istəyi" kimi dəyərləndirir. Lakin, bir fakt da nəzərə alınmalıdır ki, bəzi məsələlərdə Türkiyənin maraqları ABŞ və ABnin siyasəti ilə üst-üstə düşməsə də, ABŞ-ın Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsi və Orta Asiyada fəallaşması, NATO-nun müxtəlif proqramları çərçivəsində bölgədə regional hərbi-geostrateji iştiraka can atması onun maraqlarına tam cavab verir. Çünki Türkiyə Birləşmiş Ştatların bu geosiyasi məkandakı hərbi-geostrateji maraqlarının reallaşmasında bundan sonra da "əsas müttəfiq" roluna iddialıdır və həmin rolu icra edərək, həm də ABŞ-dan xeyli maliyyə yardımı almağı nəzərdə tutur.

Mövcud reallığın təhlili göstərir ki, ümumiyyətlə həm XX yüzillikdə, həm də hal-hazırda bəzi NATO üzvlərinin öz hərbi müttəfiqləri hesab olunan Türkiyəyə münasibəti birmənalı olmamışdır. Bunun əsas səbəbləri, bir tərəfdən Osmanlı türklərinin keçmiş tarixi, Avropadakı işğalçılıq yürüşləri və hakim mövqeləri, islam dininə sitayiş etmələri, yunan, erməni və s. xristian xalqları ilə ənənəvi məhfi münasibətləri ilə bağlı idisə, müasir dövrdə bu dövlətin bölgədə və dünyada reallaşdırmağa çalışdığı, geosiyasi ədəbiyyatda bəzi dairələr tərəfindən "yeni osmanlı siyasəti" kimi dəyərləndirilən "fəal regional liderlik" diplomatiyası ilə bağlıdır. Xüsusən, Türkiyənin son illərdə iqtisadi cəhətdən həddən artıq güclənməsi və yürütdüyü "regional lider" siyasəti, Qərbin razılığını almadan Rusiya ilə sərbəst tərəfdaşlıq münasibətləri yaratması, İsrail-Fələstin münaqişəsində sərgilədiyi "Fələstinə tam dəstək" siyasəti, "dünyanın ərköyün balası" hesab etdiyi İsrailə qarşı çıxması və s. dünya yəhu-

di diasporunun mövqelərinin güclü olduğu əksər ölkələrdə ciddi antitürk kampaniyasına rəvac vermişdir.

Mütəxəssislərin fikrincə, Türkiyənin Avrasiyadakı hazırkı geosiyasi vəziyyətini müəyyən edən amillər sırasında regionun iri və kiçik ölkələri ilə onun münasibətləri də mühüm rol oynayır. Türkiyəni əhatə edən dövlətlərlə münasibətlərə nəzər salsaq görərik ki, onun Yunanıstanla tarixi qarşıdurma və Kiprin türklər yaşayan ərazisinə münasibət səbəbindən, Suriya və İraqla PKK-nı dəstəklədiklərinə görə, İranla ideoloji və regional maraq çərçivəsində, Rusiya ilə keçmişdən miras qalmış tarixi rəqiblik və regional maraqların fərqliliyi üzündən, Ermənistanla Azərbaycana qarşı işğalçı siyasət yürütdüyünə görə münasibətləri arzu olunan səviyyədə deyil.

Lakin, mütəxəssislər hesab edir ki, hansı siyasət yürütməsindən asılı olmayaraq, Türkiyənin dünyanın ən mühüm geosiyasi məkanında yerləşməsi, transmilli geoiqtisadi və hərbi-geostrateji dəhlizlərə, dəniz yollarına nəzarət etməsi, bəzi məsələlər üzrə Rusiyanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı təsirini zəiflətməsi, son zamanlara qədər İranın radikal islam fundamentalizminin qarşısında "milli və dini sipər" rolunu oynaması və s. onun Qərb üçün bundan sonra da əvəzedilməz müttəfiq kimi qalmasını şərtləndirir. ABŞ politoloqu Zbiqnev Bjezinski açıq şəkildə yazır ki, "Türkiyə Rusiyanın Cənub sərhədlərində Almaniyanın ABŞ üçün vaxtilə Orta və Şərqi Avropada oynadığı geosiyasi rolu oynayır". Z.Bjezinski Türkiyənin regionda önəmini qısa olaraq aşağıdakı amillərlə əsaslandırır:

- Türkiyə Qara dəniz regionunda vəziyyətin sabit qalmasında mühüm rol oynayır;
- Aralıq dənizindən Qara dənizə keçidləri nəzarətdə saxlayır;

- Rusiyanın Qafqazdakı mövqelərinin güclənməsinə imkan vermir;
- İslam fundamentalizminə qarşı sipər rolunu oynayır;
- NATO-nun Cənubdakı dayağıdır və s.

Sonuncu məqam – NATO amili Türkiyə üçün Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda xüsusi vacib təsir mexanizmi hesab olunur. Rəsmi Ankara bu istiqamətdə Alyans daxilindəki rolunu daim artırmağa çalışır və bunun avtomatik olaraq, həm də onun bölgədəki nüfuzunun güclənməsinə müsbət təsir göstərəcəyinə ümid edir. Məsələn, bir neçə il əvvəl Türkiyə rəhbərliyi İstanbulda NATO-nun Çevik Qüvvələr Qərargahının yaradılması təşəbbüsü ilə çıxış edərək Balkanlar, Qafqaz və Orta Asiya kimi geostrateji məkanı "yeni yaradılacaq qərargahın təsir zonasına daxil etməyi" təklif edirdi.

Türkiyə son beş ildə ABŞ və NATO-nun Avrasiyanın regional təhlükəsizlik məkanında, əsasən də Yaxın Şərqdə, Qara dəniz hövzəsi, Orta Asiya və Cənubi Qafqazda mövcud olan geosiyasi və təhlükəsizlik mövqelərinin möhkəmlənməsində mühüm rol oynayırdı. Xüsusən Vaşinqton o dövrdə təhlükəsizlik və enerji sahəsində öz regional siyasətini məhz Türkiyə vasitəsilə həyata keçirir, regiondakı bütün transmilli hərbi və enerji layihələrini birbaşa onun iştirakı ilə reallaşdırırdı.

Bundan başqa, ABŞ Gürcüstan silahlı qüvvələrinin formalaşdırılmasını, ona bir çox hərbi yardımların göstərilməsini və s. məsələləri də əsasən Türkiyənin vasitəsilə həyata keçirirdi. Lakin, qeyd edildiyi kimi Türkiyənin son illərdə nümayiş etdirdiyi özünəməxsus müstəqillik və fərqli geosiyasət, planetar və regional münasibətlərdə "öz geosiyasi maraqlarını" Qərbinkindən daha aşkar formada fərqləndirməsi tam olaraq nə ABŞ-ı, nə də ki, onun NATO üzrə müttəfiqlərini qane etmir.

Cənubi Qafqaz Türkiyənin məxsusi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının birbaşa təmsil olunduğu bölgə hesab olunur. Bu ölkənin Orta Asiyanın zəngin enerji resursları və əhəmiyyətli geosiyasi məkanına, türk dövlətləri və xalqlarına, öz sənaye malları üçün geniş satış bazarına təminatlı çıxışı və Cənub-Şərqi Asiyaya ilə kontinental əlaqəsi ilk növbədə Cənubi Qafqaz, xüsusən də Azərbaycan və Gürcüstan vasitəsilə həyata keçirilir. Xəzər hövzəsi Türkiyənin illik, orta hesabla 55 milyon tonluq neft və 40-50 milyarad kub metrlik təbii qaz ehtiyacının böyük qismini təmin etməklə yanaşı, həm də ona neft-qaz ixracı marşurutları və kəmərlərinin mərkəzinə çevrilmək anlamında küllü miqdarda maddi və geoiqtisadi dividentlər qazandırır.

NATO çərçivəsində Cənubi Qafqazda yürütdüyü koordinasiyalı fəaliyyətin kənarında, Türkiyə ayrıca olaraq da, bölgənin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji sabitliyində, enerji istehsalı və transmilli ixrac marşurutlarının, kəmərlərin və s. infrastrukturların təhlükəsiziyinin təmin olunmasında ən maraqlı ölkələrdən biri hesab olunur. Bu siyasətlə Türkiyə həm də gələcəkdə bölgənin qeyri-sabitliyi fonunda "nizam-intizam yaratmağa" çalışan hər hansı təsirli region ölkəsi, yaxud beynəlxalq qüvvə ilə üz-üzə qalmaq ehtimalını azaldır.

Türkiyə 90-cı illərin əvvəlindən başlayaraq ona mane olmaq istəyən Rusiya və İranın təzyiqlərinə baxmayaraq, Cənubi Qafqazda Azərbaycan və Gürcüstanla təhlükəsizlik sahəsində, hərbi-geostrateji tərəfdaşlığının möhkəmlənməsi yönündə ciddi addımlar atmağa nail olmuşdur. Bu ölkə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində həm Azərbaycan, həm də Gürcüstan ordusunun Qərb standartlarına uyğunlaşdırılması sahəsində nəzərdə tutulan bütün əsas işləri həyata keçirmişdir. 2002-ci ildə Trabzonda Türkiyə-Azərbaycan-Gürcüstan arasın-

da *"hərbi əməkdaşlıq, silah qaçaqmalçılığı, sərhəd pozuculuğu, narkotik maddələrin dövriyyəsi və transmilli cinayətkarlığa qarşı birgə mübarizə" haqqında*, 2007-ci ildə isə *"təhlükəsizlik sahəsində regional əməkdaşlıq"*, Bakı-Tbilisi-Qars dəmiryolunun çəkilməsi və istifadəsi s. haqqında bir neçə saziş imzalanmışdır. Bütün bunlar regionun üç dövləti arasında sərhəd-keçid rejimi, nəqliyyat-tranzut təhlükəsizliyi və transmilli cinayətkarlıqla mübarizə sahəsində milli fəaliyyətlərin əlaqələndirilməsini təmin etmişdir.

Bundan başqa, Türkiyə BTC neft, BTƏ qaz və BTQ dəmir yolu layihələrinə hərtərəfli dəstək verərək, özünü təminatlı tranzit gəlirləri ilə təmin etmiş, Azərbaycan və Gürcüstanı Rusiyanın enerji ixracı və alternativ nəqliyyat təsirindən qurtarmış, Qərbi isə yenə də Rusiyanın enerji asılılığından xilas etmiş və təhlükəsizliyinə dəstək vermişdir. Tədqiqatçılar hesab edir ki, Türkiyə hazırda bu kəmər və dəhlizlərdən maksimim istifadə etməklə, Avropanın transmilli enerji, xammal və əmtəə bazarının, Şərq-Qərb tranzit-daşıma sistemlərinin əsas oyunçusuna, regionun böyük enerji-nəqliyyat mərkəzinə çevrilməyə can atır, Xəzər hövzəsi və Orta Asiyanın enerji daşıyıcılarının transmilli nəqli üçün tranzit mərkəz mövqeyini möhkəmləndirməklə, Avropa İttifaqına daxil olmaq şanslarını artırmağa çalışır.[222]

Cənubi Qafqazdakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının təmin olunması sahəsindəki **Türkiyənin əsas rəqibi** bölgənin enerji qaynaqları ilə zəngin iki ölkəsi-Rusiya və İrandır. Türkiyə adıçəkilən ölkələrlə bütün sahələrdə regional rəqabət aparır və bu rəqabətdə bəzən məxsusi enerji

[222]Bax: Жизнин С. В поисках баланса интересов (Геополитические и экономические аспекты каспийских нефти и газа) // «Независимая газета», 12 января 2010 г.

resurslarının yoxluğu, o cümlədən Rusiyadan fərqli olaraq Cənubi Qafqazdakı hərbi-geostrateji təsir mexanizmlərinin zəifliyi səbəbindən qeyri-əlverişli vəziyyətdə qalır. Bu məsələdə Azərbaycan **Türkiyənin əsas müttəfiqi** kimi ona birbaşa dəstək verməklə, onun bu ölkələrlə rəqabət qabiliyyətini artırır. Təsadüfi deyil ki, Azərbaycan "Əsrin müqaviləsi"ni reallaşdırarkən, Türkiyənin bölgədəki enerji maraqlarını öz maraqları ilə bağlayaraq, həm Rusiya ilə, həm də İranla bu sahədə ciddi qarşıdurmaya getdi, böyük iradı və səy göstərərək Türkiyənin Orta Asiya və Xəzər hövzəsinin zəngin enerji yataqlarına çıxışını təmin etdi. Hazırda Türkiyənin Avrasiyadakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqelərinin güclənməsi də ilk növbədə, onun Cənubi Qafqazdakı Azərbaycan və Gürcüstan kimi müttəfiqlərinin mövcudluğu ilə, Xəzər və Orta Asiya neftinin, təbii qazının Qərbə ixracında və əsas tranzit funskiyasını yerinə yetirmək istiqamətində ona verdikləri dəstəklə bağlıdır.

Bundan başqa, Ermənistan öz beynəlxalq (dünya xristian təəssübkeşliyi və erməni diasporası) və regional havadarlarına (Rusiya və onun yaratdığı regional hərbi blok- Kollektiv Təhlükəsizlik Təşkilatı) söykənərək Cənubi Qafqazda Türkiyəyə qarşı birbaşa ərazi iddiası irəli sürür, onun milli təhlükəsizliyini təhdid edir, bütövlüyünü pozmağa çalışan separatçı qüvvələri dəstəkləyir, onların bölgədəki sərbəst fəaliyyətinə şərait yaradır.

Mütəxəssislər hesab edir ki Türkiyənin Cənubi Qafqazda təmsil olunan təhlükəsizlik maraqları birbaşa Azərbaycanla və onun bölgədəki geosiyasi, hərbi-geostrateji mövqeləri ilə bağlıdır. Hər iki dövlət bölgədə ortaq təhlükəsizlik maraqlarını təmsil edərək, hərbi-geostrateji, transmilli enerji, tranzit-ixrac siyasəti yürüdürlər. Türkiyə Azərbacanın müstəqilliyini, ərazi bütövlüyü və suverenliyini həm dəstəkləyir, həm də onun

Avroatlantik təhlükəsizlik strukturları ilə əlaqələrini təmin edir, bu istiqamətdə Cənubi Qafqaz və Xəzər hövzəsində reallaşdırılan transmilli maraqların müdafiəsinə lazımi beynəlxalq dəstək verir. Azərbaycan isə öz növbəsində, bir tərəfdən Türkiyənin bölgədəki əksər maraqlarının təmsilçisi və birbaşa müdafiəçisi qismində çıxış edir, digər tərəfdənsə onun Mərkəzi Asiya ilə əlaqələrinin əsas bağlayıcı funksiyasını yerinə yetirir.

Azərbaycan Cənubi Qafqazın regional təhlükəsizliyi ilə bağlı məsələlərdə də, nə Qafqazın yeganə hərbi bloku hesab olunan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının, yaxud bu blokun üzvü olan Rusiya və Ermənistanın, nə də ki, öz hərbi maraqlarını hər şeydən üstün tutan, daha çox Rusiya ilə tərəfdaşlığa meyilli olan İranın deyil, birbaşa Türkiyənin maraqlarını dəstəkləyir və digər bölgə ölkələrinin onu üstləməsinə imkan vermir. Gürcüstanla birlikdə Azərbaycan Türkiyənin və NATO-nun Cənubi Qafqazdakı hərbi- strateji mövqelərinin güclənməsinə birbaşa yardım göstərir. Avrasiyadakı bəlli geosiyasi qarşıdurmada bu iki ölkə Türkiyənin və Qərbin tərəfdaşı kiim çıxış etməklə, bölgədə nəinki Türkiyənin vasitəçilik rolunu güclənidirir, həm də onun məxsusi təhlükəsizliyi üçün yeganə plasdarm rolunu oynayır.

Mütəxəssislər hesab edir ki, Türkiyə həm Azərbaycan və Gürcüstanın vasitəsilə Cənubi Qafqazın təhlükəsizlik arxitekturasının qurulmasında birbaşa iştirak edir, həm də bu ölkələrin müstəqililyinin və təhlükəsizliyinin əlavə qarantı kimi çıxış etməklə, Şimali Atlantika bloku vasitəsilə onların müstəqilliyinə və milli təhlükəsizliyinə dəstək verməklə, onların Rusiyadan asılılığını minimuma endirir. Onların fikrinə görə, Türkiyə və onun üzvü olduğu NATO Cənubi Qafqazda Azərbaycanın, Gürcüstanın təhlükəsizliyinə dəstək verməsəydi, hətta bu məsələdə neytral mövqe tutsaydı, o zaman bölgədə heç bir hərbi-

geostrateji proqramı, yaxud Rusiya və İranın razı olmadığı transmilli geoiqtisadi layihəni həyata keçirmək mümkün olmazdı.[223]

Türkiyənin Cənubi Qafqazdakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqları bölgə ölkələri içərisində tam olaraq Azərbaycan və Gürcüstanla, Qara dəniz hövzəsində isə daha çox Ukrayna ilə üst-üstə düşür. Nəzərə alınsa ki, hələ də Orta Asiya dövlətlərində Rusiyanın hərbi-geostrateji və geoiqtisadi təsiri çox möhkəmdir, yaxın gələcəkdə Türkiyənin bu bölgənin təhlükəsizlik arxitekturasının qurulmasında yaxından iştirakı istisna olunur.

Türkiyənin təhlükəsizlik sahəsində Cənubi Qafqazdakı əsas strateji müttəfiqi Azərbaycan və Gürcüstan olsa da, bu ölkə bölgədə möhkəmlənmək, "regional lider" statusu qazanmaq, özünün *yeni xarici siyasət prinsiplərinə* uyğun olaraq qonşularla münasibətlərini sahmana salmaq üçün regionun bütün ölkələri ilə, o cümlədən Ermənistanla da münasibət yaratmağa çalışır. Türkiyə fərqli geosiyasi yanaşma əsasında "qonşularla maksimum inteqrasiya, minimum problem" taktikası yürüdərək, Ermənistanla sərhədlərin açılması, İran, Suriya, İraq və digər qonşu ölkələrlə münasibətlərin nizama salınması yönündə fəallıq nümayiş etdirir. Azərbaycanla birbaşa quru sərhədi olmayan (təcrid edilmiş Naxçıvan istisna olmaqla) Türkiyənin rəsmi dairələrinin və bir çox mütəxəssislərin fikrinə görə, bu ölkənin Cənubi Qafqazda və bütövlükdə bölgədə təhlükəsizlik sahəsində tam hərəkət sərbəstliyi qazanmasına və ayrıca olaraq təsirli faktora çevrilməsinə, bir tərəfdən NATO üzvü olması və bütün addımlarını onunla razılaş-

[223]Bax: Дж.Эйвазов. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, 2004.с. 201-204.

dırmaq tələbi mane olur. Digər tərəfdənsə, bölgəyə çıxış üçün Gürcüstanın imkanları yetərli deyil və odur ki, bu ölkənin qonşu Ermənistanla münasibətlərinin sahmana salınması ehtiyacı özünü göstərir. Onları fikrinə görə, Türkiyə geoiqtisadi anlamda, xüsusən transmilli enerji, nəqliyyat və dəhliz layihələrində, yerli ölkələrin daxili siyasətinə təsir məsələlərində 90-cı illərin sonundan başlayaraq bölgədə həlledici mövqelər qazanaraq, Rusiyanı qismən sıxışdırsa da, Ermənistanla münasibətlərindəki problemlər və Dağlıq Qarabağ münaqişəsinin uzanması səbəbindən regionun hərbi-geostrateji həyatında yaxından iştirak məsələsində, bölgəyə hərbi nəzarət etmək uğrundakı mübarizədə Rusiyadan xeyli geridə qalır. Bu da guya ondan irəli gəlir ki, Türkiyənin Cənubi Qafqazın üç ölkəsindən biri ilə diplomatik, iqtisadi və siyasi əlaqələri yoxdur və bu baxımdan regiondakı manevr imkanları da məhduddur.

Lakin Ermənistanla sərhədlərin açılması, işğalçılıq faktı aradan qalxmamış onunla "dostluq və əməkdaşlıq" cəhdi müvafiq olaraq Türkiyənin Azərbaycanla strateji müttəfiqlik münasibətlərinə mənfi təsir göstərməyə başladı. Azərbaycanın bir dost və müttəfiq kimi Türkiyədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmayınca "işğalçı ölkə ilə sərhədləri açmamaq və iqtisadi-siyasi münasibətlər yaratmamaq" tələbi ilə çıxış etdi və hər iki qardaş ölkənin geniş ictimaiyyətinin dəstəyini qazandı. Bu da müvafiq olaraq işğalçı Ermənistanla sərhədlərin açılmasının və iki ölkə arasındakı geostrateji münasibətlərin pozulmasının qarşısını aldı. Bu hadisə Türkiyədə "Azərbaycanın işğal edilmiş torpaqları azad edilmədən Ermənistanla münasibətlərin nizamlamasının qeyri-mümkünlüyü" reallığına hamını birdəfəlik əmin etdi. Əslində, Ermənistanla diplomatik əlaqələrin qurulması və sərhədlərin açılması təkcə Türkiyənin "hər hansı regional maraqlarının tələbi", yaxud "bəzi dairələrinin istəyi" de-

yildi, bu iş həm də Avropa İttifaqının və ABŞ-ın bu sahədəki mövcud təzyiqlərindən xilas olmaq cəhdi idi. Lakin, həmin dovrdə yranmış vəxiyyət göstərdi ki, hətta Azərbaycanla "bir millət-iki dövlət" prinsipi üzərində qurulmuş qardaşlıq münasibətlərini nəzərə almasaq belə, iki ölkə arasındakı müttəfiqlik münasibətlərinin Cənubi Qafqazdakı strateji dəyəri hər iki ölkənin üzləşdiyi və yaxud üzləşə biləcəyi bütün təzyiqlərdən qat-qat dəyərlidir. Bunları nəzərə alaraq söyləmək olar ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və bu əsasda Türkiyə-Ermənistan və Azərbaycan-Ermənistan əlaqələrinin qurulmasına qədər Türkiyə Cənubi Qafqazdakı müttəfiqlərinin maraqlarından çıxış edəcəkdir.

Müasir dövrdə Türkiyə Ermənistan istisna olmaqla regionun bütün ölkələri ilə, o cümlədən özünün keçmiş geostrateji rəqibləri sayılan Rusiya və İranla konstruktiv əməkdaşlıq xətti yürüdür. Bir müddət əvvəl Rusiya ilə Gürcüstan arasında silahlı münaqişə baş verəndə, bu ölkə *"Qafqaz sülh platforması"* adlı xüsusi bir təşəbbüslə çıxış edərək Cənubi Qafqazda və bütövlükdə regionda baş verən münaqişələrin Rusiya, Türkiyə və üç Qafqaz dövləti ilə birgə həllinə nail olmağa cəhd göstərdi. Bu platforma region ölkələrinin və Qərb dövlətlərinin "xüsusi rəğbətini" qazana bilmədiyi, Türkiyənin hazırda bölgədə xüsusi nüfuz qazanmasının onların maraqlarına uyğun gəlmədiyi üçün hərtərəfli dəstək qazanmadı və deməli, gözlənilən müsbət nəticələri də vermədi.

Türkiyə hazırda təkcə Cənubi Qafqazda yaşanan geosiyasi, geoiqtisadi və hərbi-geostrateji proseslərində deyil, həm də Avrasiyanın əksər talkeyüklü regional məsələlərində- İran-Qərb qarşıdurmasında, Suriyada, Misirdə, Liviyada, İsrail-Fələstin münaqişəsində və s. proseslərdə fəal mövqe nümayiş etdirir. Türkiyə öz fəallığı ilə hələ ki, regionda sabitlik yaradılması istiqamətində ciddi nəticələr əldə edə bilməsə də, onun bölgədəki lider mövqe-

ləri getdikcə güclənməkdədir. O ki, qaldı Türkiyənin Avrasiyada, xüsusən də Yaxın Şərq və Cənubi Qafqazın təhlükəsizliyi sahəsində ciddi hərbi-geostrateji amilə çevrilə bilməməsinin səbəblərinə, bəzi mütəxəssislər bunu rəsmi Ankaranın "öz mövqelərini kifayyət qədər iradə ilə müdafiə etməməsi, ortaya qoyduğu məsələlərə həddən artıq ehtiyyatla yanaşması və hərbi risklərdən qaçması" ilə bağlayırlar. Məsələn, Priston Universitetinin professoru, 2009-2011- ci illərdə ABŞ Dövlət Departamentinin siyasi planlama üzrə direktoru işləmiş A.M.Sloter yazır ki, son illərdə Türkiyənin regionun böyük ölkəsi kimi beynəlxalq nüfuzu günügündən artır. Bu ölkənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Yaxın Şərq, Şimali Afrika və b. ölkələrində şan-şöhrəti getdikcə yüksəlir, "təsirli regional lider ölkənin" nümayəndəsi kimi xarici işlər naziri Əhməd Davutoğlu dünya ölkələrinə sıx-sıx səfərlər edir, hətta Türkiyə İndoneziya ilə birlikdə, son vaxtlar qlobal lider kimi: Braziliya, Rusiya, Hindistan və Çinin yaratdığı BRİK-ə də qoşulur. Lakin, həlledici məqamlarda Türkiyə regional lider kimi daha iradəli qərarlar qəbul etməkdən, təşəbbüsü öz əlinə almaqdan çəkinir. Müəllifin fikrinə görə, ölkənin qüdrəti və liderliyi təkcə onun həhəngliyi, ərazilərinin böyüklüyü, əhalisinin sayı, iqtisadi və hərbi gücü ilə deyil, həm də "lazım gələndə populyar olub-olmamasından asılı olmayaraq, ortaya qoyduğu ədalətli, həlledici və müdrik qərarlarla", bu qərarları "dönmədən təmin etmək iradəsi" ilə ölçülür. Regionda lider olmaq istəyən ölkə lazım gələndə bu və ya digər dünya əhəmiyyətli hadisə haqqında təkcə danışmaq deyil, risk edərək onun məsuliyyətini və ağırlığını da öz üzərinə götürməyi bacarmalı, təkcə sözdə deyil, həm də işdə lider fəaliyyəti ortaya qoymalıdır.[224]

[224]Bax: Ann Mari Sloter. Испытание для Турции. Газ. "Зеркало", 16 февраля 2012 г.

Bəzi siyasətşünaslar daha da irəli gedərək, Türkiyənin hazırkı geosiyasi davranışını "ABŞ-ın başda Prezident Barak Obama olmaqla Avrasiyada yürütdüyü prinsipsiz və dişsiz siyasət" dən doğan *"qeyri-sabit və qütblərarası vurnuxma siyasəti"* kimi dəyərləndirirlər. Xüsusən, 2010-cu ilin oktyabr ayında Türkiyənin qəbul etdiyi yeni Milli Təhlükəsizlik Konsepsiyasında İran, İraq, Suriya, Yunanıstan və Ermənistanın bu ölkənin xarici təhlükə mənbələri siyahısından çıxarılmasını, keçmiş hərbi-siyasi tərəfdaşı hesab olunan İsraili xarici təhlükə, Rusiyanı isə xarici tərəfdaş ölkələr sırasına aid etməsini həmin yanaşmanın nümunəsi kimi qiymətləndirirlər. Bu siyasəti analitiklər həm də ABŞ və NATO-nun qeyri-prinsipial mövqeyi qarşısında *"Rusiyanın Türkiyəni öz regional geosiyasi tərəfdaşları sırasına daxil etməsi və bu istiqamətdə onun xarici siyasət strategiyasının qələbəsi kimi"* təqdim edir, bundan sonra Türkiyənin daha çox Cənubi Qafqaz və Mərkəzi Asiyanı tamamilə Rusiyanın öhdəsinə buraxaraq, Yaxın və Orta Şərqdə, Afrikada, bütövlükdə müsəlman dünyasında fəal geosiyasət yürüdəcəyi ilə bağlı proqnozlar verirlər.[225]

Türkiyənin Cənubi Qafqazdakı keçmiş, indiki və gələcək geosiyasi, geoiqtisadi və hərbi-geostrateji uğurları, yaxın perspektivdə əldə edə biləcəyi müsbət nəticələr, fikrimizcə onun bu məkandakı əsas strateji müttəfiqləri hesab olunan Azərbaycan və Gürcüstanla koordinasiya edilməklə, ayrı-ayrılıqda həm bölgənin Rusiya və İran kimi ölkələri, həm də beynəlxalq güclərlə- ABŞ və Qərblə qarşılıqlı münasibətlərinin daha da çevikləşdirilməsi, ciddi risklərə getmədən, daim səhmanda saxlanılması, iqtisadi tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi, işgalçı ölkə olan Ermənistanın davamlı olaraq təzyiq altında və

[225] Bax: газ. "Зеркало", 3 ноября, 2010.

bölgədə reallaşdırılan transmilli layihələrdən kənarda saxlanılması, Ukrayna, Moldova, Orta Asiya ölkələrini tədricən öz tərəfinə çəkərək, onlarla regional müttəfiqlik münasibətlərinin inkişaf etdirməsindən keçir.

Mütəxəssislər bu ölkənin Prezidenti Heydər Əliyevin "bir millət-iki dövlət" adlandırdığı Azərbaycanla strateji müttəfiqlik münasibətlərini, bütün beynəlxalq məsələlərdə nümayiş etdirilən vahid mövqedən çıxış etmə taktikasını yüksək qiymətləndirərək, qeyd edirlər ki, Gürcüstan da daxil olmaqla, Cənubi Qafqazda üç ölkə arasında 90-cı illərin ortalarından yaranan təbii müttəfiqlik münasibətləri, bölgənin bütün transmilli geoiqtisadi, enerji və nəqliyyat layihələrində vahid strategiya ilə iştirak taktikası, beynəlxalq və regional təşkilatlarda eyni mövqedən çıxış etmə ənənəsi bu ölkələrin geosiyasi birliyini bölgənin əsas güc mərkəzlərindən birinə çevirmişdir.

Xəzər hövzəsinin və Azərbaycanın zəngin neft və qaz məhsullarının dünya bazarlarına iki dost ölkə- Gürcüstan və Türkiyə ərazisindən nəql olunması ideyasının əsasında da Azərbaycan dövləti dayanır. Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmiryolu və digər transmilli nəqliyyat-kommunikasiya layihələri Türkiyə və Gürcüstanın enerji, transmilli nəqliyyat və dəhliz tələbatlarının ödənilməsi problemlərini həll etməklə yanaşı, həm də beynəlxalq enerji-nəqliyyat qovşağı kimi hər üç ölkənin dünyadakı geosiyasi və geoiqtisadi nüfuzunu artırmış, Avrasiyanın hərbi, geostrateji və təhlükəsizlik mühitindəki daimi təmsilçiliklərini təmin etmiş və rollarını artırmışdır. Bu layihələr avtomatik olaraq Türkiyənin regionda lider, aparıcı dövlət statusunu xeyli möhkəmləndirmiş və onun Azərbaycanla, Gürcüstanla strateji regional tərəfdaşlıq münasibətlərini gücləndirmişdir.

§ 5.6. İranın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizliyinə yanaşması, Azərbaycanın hərbi təhlükəsizlik maraqları

Avrasiyanın, xüsusən də Xəzər-Qara dəniz hövzəsi, Cənubi Qafqaz və Orta Asiyanın regional təhlükəsizlik və hərbi-geostrateji məsələlərində həmişə özünəməxsus rolu və funksiyası ilə seçilən iri bölgə dövlətlərindən biri də İrandır. SSRİ-nin dağılması və Xəzər ətrafında yeni-yeni müstəqil dövlətlərin yaranması iki əsrə yaxın müddətdə bu ölkə ilə Rusiya arasında mövcud olan ***vahid geosiyasi sərhədləri pozdu*** və onların tarixi strateji tərəfdaşlıq, eyni zamanda geosiyasi rəqiblik əlaqələrinə müəyyən sədd yaratdı. Azərbaycanın öz müstəqilliyini bərpa etməsi nəticəsində Rusiya ilə İranı birləşdirən birbaşa quru sərhədi aradan qalxdı. Bu fakt iki böyük region ölkəsinin Cənubi Qafqaz və Avrasiya məkanındakı birgə geosiyasi və hərbi-geostrateji planlarının reallaşmasını xeyli çətinləşdirdi. Üstəlik, Qərbin Azərbaycan vasitəsilə Cənubi Qafqaz və Xəzərin transmilli iqtisadi layihələrinə daxil olması İranla Rusiya arasında nəinki təkcə Azərbaycanın, eyni zamanda "strateji rəqiblər hesab olunan kənar qüvvələrin" də mövcudluğunu şərtləndirdi. Mütəxəssislərin fikrincə, hazırda Tehran ilə Moskvanın Qərbin timsalında regiona getdikcə güclü müdaxilə edən "kənar qüvvələrə" qarşı birgə müqavimət göstərməsinin kökündə də məhz, bu amil dayanır.

İran bölgənin enerji qaynaqladı ilə zəngin, sərt siyasi-ideoloji idarəçiliyə malik, hərbi cəhətdən güclü ölkələrindən biridir. Onun Fars körfəzi və Xəzər dənizində zəngin neft-qaz ehtiyatları mövcuddur və hər iki məkanda İran rejimi ciddi geoiqtisadi aktivlik nümaiiş etdirir. Bu ölkənin ən zəngin neft-qaz yataqları Fars körfəzində yerləşir və buna görə də Xəzər

şelfindəki ehtiyatların istifadəsi İran üçün ikinci dərəcəli məsələdir. Lakin buna baxmayaraq, **İran özünün Xəzər dənizindəki geoiqtisadi, hərbi-geostrateji və təhlükəsizlik maraqlarına görə ciddi narahatlıq keçirir və bu maraqları qətiyyətlə müdafiə etməyə hazırdır.** Onun hövzədəki geosiyasəti yalnız Xəzərin enerji ehtiyatlarından birgə istifadə ilə məhdudlaşmır, həmçinin regionda öz geoiqtisadi, hərbi-geostrateji mövqelərini gücləndirilməyə xidmət edir.

Mütəxəssislər İranın Xəzər hövzəsindəki strateji maraqlarını əsasən aşağıdakı kimi təsnif edirlər:

- Mərkəzi Asiya və Cənubi Qafqazda bütövlükdə sabitliyi, təhlükəsizliyi dəstəkləməklə və islam dinini fəal şəkildə yaymaqla özünün Şimal bölgəsi və Xəzər dənizi üzrə sərhədlərinin təhlükəsizliyini və dayanıqlılığını təmin etmək;
- beynəlxalq təcridetmədən çıxmaq siyasəti çərçivəsində region dövlətləri ilə qarşılıqlı münasibətləri qaydaya salmaq;
- bütün vasitələrlə bölgədən kənar dövlətlərin və hərbi blokların Mərkəzi Asiya və Cənubi Qafqaza, xüsusən də Xəzər hövzəsinə daxil olmasının qarşısını almaq və s.[226]

İranın Mərkəzi Asiya, Xəzər hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik məsələlərinə, bölgənin hərbi-geostrateji problemlərinə və yerli ölkələrlə təhlükəsizlik sahəsində münasibətlərə öz tarixi yanaşması vardır. Bu dövlətin istər keçmiş, istərsə də hazırkı mövqeyində hər hansı ciddi dəyişiklik müşahidə olunmur. Mütəxəssislərin fikrinə görə, İran bütövlükdə bölgədə yerli ölkələr arasında hər hansı kəskin münaqişələrin,

[226]Жоламанова Г. «Современные геополитические интересы «ключевых» игроков в Каспийском регионе».http://www.analitika.org

bu zəmində yaranan qeyri-sabitliyin mövcudluğunda o qədər də maraqlı görünmür. Çünki bu ölkədə yaxşı bilirlər ki, ən yeni tarixdə, məsələn Balkanlarda və s. regionlarda yaşanan istənilən münaqişə, baş verdiyi məkanlara və ölkələrə, bir qayda olaraq kənar qüvvələrin müdaxiləsi üçün zəmin yaratmışdır. Məlumdur ki, Cənubi Qafqaz, yaxud Xəzər bölgəsində də ciddi münaqişənin mövcudluğu «regiondan kənar» qüvvələrin, ilk növbədə ABŞ, ATƏT, Avropa İttifaqı, NATO, KTMT və s. kimi beynəlxalq və regional aktorların hadisələrə müdaxiləsinə və onların bölgədəki hərbi-geostrateji mövqelərinin möhkəmlənməsinə şərait yarada bilər. Buna görə İran dəfələrlə istər Xəzər-Qara dəniz hövzəsi və Orta Asiya ölkələrinə, istərsə də Cənubi Qafqaz respublikalarına "bölgədəki təhlükəsizliyin qorunması və münaqişələrin tənzimlənməsi üçün birgə kompleks tədbirlər" görülməsi məqsədilə öz xidmətlərini təklif etmiş, «regiondan kənar» qüvvələrin proseslərə müdaxiləsini yolverilməz hesab etmişdir.

İranın bölgədəki yerli və regional münaqişələrə yeganə fərqli yanaşması Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminə münasibətdə təzahür etmişdir. Bu problemin həllində İran sözdə özünü "sülh və ədalət" tərəfdarı kimi göstərək, hər iki tərəfə vasitəçilik təklife etsə də, lakin münaqişəsinin qarşısının alınması və işğalçı Ermənistana qarşı təsirli regional təzyiqlərin göstərilməsi istiqamətində o da Rusiya kimi heç bir əməli tədbir görməmişdir. Bəzi beynəlxalq mütəxəssislərin fikrinə görə, SSRİ dağılandan sonra *İran 1990-cı illərdən başlayaraq Cənubi Qafqazda Ermənistan-Azərbaycan münaqişəsi fonunda Ermənistanla öz münasibətlərini, xüsusən də hərbi-strateji əlaqələrini möhkəmləndirərək, bu ölkəni həm Azərbaycana qarşı istifadə edir, həm də Türkiyə-Azərbaycan-Mərkəzi Asiyanın türk dövlətləri arasında regional bufer kimi saxlayır,*

onların birliyinə və əlaqələrinə mane olmağa çalışır. Onların fikrinə görə, Rusiya və İran Ermənistanın əsas sponsorlarıdır, İran onu yanacaqla və digər həyati məhsullarla, Rusiya isə hərbi silahla təmin edir.[227]

Xəzər hövzəsi və Cənubi Qafqazda ayrı-ayrılıqda vahid təhlükəsizlik sisteminin yaradılması ilə bağlı ilk təşəbbüsü də 1990-cı illərdə məhz İran göstərmişdir. Bunun üçün rəsmi Tehran region ölkələrinə- Xəzəryanı beş ölkəsinin iştirakı ilə, Cənubi Qafqazda isə "3+2" formulu (3 Cənubi Qafqaz respublikası, Rusiya və İran) əsasında kollektiv təhlükəsizlik münasibətlərinin yaradılmasını təklif etmişdir.

Regional təhlükəsizlik və xarici siyasət sahəsində *"kənar qüvvələrin" iştirakı olmadan, yalnız bölgə ölkələrin səylərinin birləşdirməsi, birgə əməkdaşlığının yaradılması ideyasını* da ilk dəfə İran irəli sürmüşdür. Əlbəttə ki, 3+2 formulunu təklif edərək, İran regiondakı əsas geosiyasi oyunçulardan olan Türkiyəni bu sistemdən kənarda qoymağı düşünürdü. Bununla o, nəinki yalnız öz "tarixi rəqibi olan Türkiyəni", proseslərdən kənarda saxlayırdı, həm də açıq-aşkar bu ölkənin üzvü olduğu NATO-nu, hərbi müttəfiqi saydığı ABŞ-ı proseslərə təsir göstərmək imkanından məhrum etmək niyyətini bildirirdi. Tehranın bu təklifi həmin dövrdə region ölkələri tərəfindən birmənalı qarşılanmadı. Məsələn, rəsmi Bakı öz təhlükəsizlik problemlərini "Dağlıq Qarabağ probleminin həlli və Ermənistanın işğallarına son qoyulması" ilə əlaqələndirərək, "bu işə yardım edəcək hər bir qurumla və blokla" əməkdaşlığa hazır olduğunu bəyan etmişdi. Digər bölgə ölkələri, beynəlxalq, regional və milli təhlükəsizliklə bağlı "sərbəst tərəfdaş seçmək hüququnun

[227]Bax:Ariel Cohen.Ethnic Conflicts Threaten US Interests in the Caucasus// Herritage Foundation Backgrounder, №1222, September 25, 1998, s.4

saxlanılmasını", ikitərəfli, çoxtərəfli əlaqələr və beynəlxalq təşkilatlarla əməkdaşlığı daha üstün tutaraq, İranın "regional təhlükəsizlik formuluna" ciddi əhəmiyyət və birbaşa dəstək vermədilər.

Bundan sonra İran rəhbərliyi Cənubi Qafqazın regional təhlükəsizlik sistemi ilə bağlı başqa bit təşəbbüslə - "3+3" formulu ilə çıxış etməyə başladı. Burada artıq söhbət üç Cənubi Qafqaz respublikası, Rusiya, İran və Türkiyədən gedirdi. Mütəxəssislərin fikrincə, İran bu təklifi ilə bir tərəfdən bölgədə Türkiyənin ən yaxın tərəfdaşı olan Azərbaycanın dəstəyini qazanmağa, digər tərəfdənsə ABŞ-ın regiona gəlişini əngəlləmək üçün "Vaşinqtonun ən güclü müttəfiqi və Tehranın əsrlər boyu regiondakı rəqibi olan" Türkiyənin özünü regional təhlükəsizlik sahəsində birgə əməkdaşlığa qoşmağa can atırdı. Rəsmi Tehran bu sistem daxilində, yenə də Xəzər hövzəsindən beş, Cənubi Qafqazda isə altı dövlətin Təhlükəsizlik Şuralarının katibləri, parlament sədrləri, həmçinin iqtisadiyyat və maliyyə nazirləri səviyyəsində ayrı-ayrı görüşlərin keçirilməsini və ümumi baxışların formalaşdırılması yolu ilə "birgə təhlükəsizlik haqqında saziş" imzalanmasını təklif edirdi. Lakin bu təşəbbüs də əksər region dövlətlərinin, xüsusən də Rusiyanın və Türkiyənin ciddi dəstəyini qazanmadı. Bu bir daha göstərdi ki, İranın regional təhlükəsizlik məsələsinə baxışı digər regional ölkələrin mövqeyi ilə tam üst-üstə düşmür.

İranın regional təhlükəsizlik sisteminə dair daha bir təklifi 2003-cü ilin aprelində gündəmə gəldi. Bu ölkənin xarici işlər naziri Kamal Xərrazinin "regionun birgə təhlükəsizlik qüvvələrinin yaradılması təşəbbüsü" yenə də bölgə dövlətlərinin tam dəstəyini qazanmadı.

İran özünün Cənubi Qafqaz regionundakı geostrateji məqsədlərini gizlətmir. Bu məqsədlər:

- kənar qüvvələrin (ABŞ, NATO və Avropa İttifaqı və s.) Cənubi Qafqazda iştirakını mümkün qədər məhdudlaşdırmaq, onların İran sərhədlərinə yaxınlaşmasına imkan verməmək;
- regional problemləri yalnız bölgədəki dövlətlərin birgə səyləri ilə həll etmək;
- Xəzər hövzəsi və Cənubi Qafqaz ölkələrinin İranın iradəsindən kənar addımlarını maksimum məhdudlaşdırmaq və proseslərdə birgə iştiraka nail olmaq üçün mexanizm tapmaq;
- Qərbyönümlü siyasət yürüdən region dövlətləri ilə münasibətləri yüksək səviyyədə quraraq onlara təsir mexanizmlərini müəyyənləşdirmək;
- Hərbi-geostrateji maraqları İranla üst-üstə düşən region ölkələrilə təhlükəsizlik sahəsindəki əməkdaşlığı daha da möhkəmləndirmək və s. ibarətdir.

İranın ayrıca olaraq Cənubi Qafqazda yürütdüyü *"region dövlətləri ilə hərtərəfli əlaqələr yaradaraq, öz geosiyasi və hərbi-geostrateji təsiri altında saxlamaq"* siyasəti Azərbaycanla münasibətlərinin timsalında açıq-aydın özünü göstərir. Müstəqilliyinin ilk illərindən başlayaraq İranın islam dövləti kimi Azərbaycana, onun müsəlman əhalisinə, rastlaşdığı problemlərə, o cümlədən Dağlıq Qarabağ məsələsinə yanaşması sözdə "birmənalı açıq dəstək" üzərində qurulmuşdur. İran bütün beynəlxalq təşkilatlarda Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar çıxdığını, bu ölkənin ərazi bütövlüyünü tanıdığını müxtəlif tribunalardan bəyan edir, qaçqın-köçkünlərə maddi yardım göstərir. Lakin, bununla yanaşı İran qonşu Ermənistandan işğal olunmuş Azərbaycan ərazilərini azad etmək tələbini də heç

zaman səsləndirmir, əksinə bölgədə açıq-açkar işğalçı siyasət yürüdən, Dağlıq Qarabağı, digər rayonları işğal edən, bir milyondan artıq müsəlman əhalini iyirmi ildir ki, öz yurdundan didərgin salaraq, dözülməz məhrumiyyətlərə düçar edən bu ölkəyə hərtərəfli, o cümlədən iqrisadi və hərbi-geostrateji yardım göstərir. Bütün dünyada özünü "şiə müsəlmanlarının hüquqlarının əsas müdafiəçisi" kimi təqdim edən, Fələstin torpaqlarını işğal etməsi səbəbindən İsraili "yer üzündən silməklə" hədələyən İran, nədənsə Cənubi Qafqazda ortodoks Ermənistan dövlətinin əksəriyyəti şiə sayılan bir milyon müsəlman Azərbaycanlı əhaliyə divan tutmasına göz yumur.[228]

Mütəxəssislər *İranın Azərbaycan dövlətinə belə fərqli yanaşmasını və bu ölkə ilə bərabərhüqüqlu tərəfdaşlıq münasibətlərindən boyun qaçırmasını* bir neçə amillə izah etməyə çalışırlar. Onların fikrinə görə, bu siyasət **ilk növbədə**, İran rəsmilərinin "Azərbaycan dövlətinin mövcudluğu faktını öz daxili hərbi-geostrateji durumlarına və regional təhlükəsizlik sahəsindəki fəaliyyətlərinə mənfi təsir göstərən amil kimi dəyərləndirirməsi" ilə bağlıdır. Bu ölkənin, təxminən 70 milyonluq əhalisinin 40% türklərdən (azərbaycanlılardan), 50% farslardan, 9% isə digər xalqlardan ibarətdir. İran hökuməti etnik tərkibdən qaynaqlanan və bu əsasda daxildə yarana biləcək gələcək təhlükələri ilk növbədə Azərbaycan dövlətinin varlığı və inkişafı ilə bağlayır, etnik azərbaycanlıların onun ərazi bütövlüyünü və sabitliyini nə zamansa poza biləcəyindən qorxur. ABŞ alimi C. Kornel yazır ki, İranın təhlükəsizliyi Azərbaycan dövlətinin və bu ölkədə yaşayan çoxsaylı etnik azərbaycanlıların vəziyyəti ilə birbaşa bağlıdır. Cənubi Azərbaycan məsələsi İranın onsuz da dağılmaqda olan çoxmillətli dövlət strukturuna

[228]Bax: Bakı xəbər qəzeti, №41, 7 mart 2012-ci il.

ciddi təhlükə hesab olunur. Bu ölkə Azərbaycanın müstəqilliyinə gələcəkdə Cənubi Azərbaycanla birləşmək istiqamətində ciddi təhlükə kimi yanaşır. Müəllifin fikrincə, İranın təhlükəsizliyi və ümumiyyətlə, gələcəkdə mövcudluğu, birbaşa Azərbaycan dövləti və İranda yaşayan azərbaycanlıların məsələsi ilə bağlıdır.[229]

Bəzi mütəxəssislər hesab edir ki, İranın rəsmi dairələri Cənubi Qafqazda Azərbaycanın mövcudluğuna, demokratik ölkə kimi inkişaf edərək cəlbedici dövlətə çevrilməsinə nəinki təkcə qısqanclıqla yanaşır, həm də belə təhlükənin baş verəcəyi təqdirdə Rusiya-Ermənistan cütlüyünün köməyinə arxalanmaq istiqamətində bəzi kombinasiyalar haqqında da düşünür. İran Ermənistan və Rusiyanı öz təhlükəsizliyinin təminatı kimi Azərbaycanın birbaşa zəiflədilməsi, Şimali və Cənubi Azərbaycan məsəsində rəqib olaraq aradan qaldırılması, Türkiyənin və Qərbinsə sıxışdırılması məqsədilə istifadə edir.[230]

İranın regional təhlükəsizliyinə birbaşa təsir göstərən **ikinci əsas amil** mütəxəssislərin fikrinə görə, bu ölkənin xarici geosiyasi əhatəsi ilə bağlıdır. İranın coğrafi və əhali məskunlaşması xəritəsinə diqqət yetirsək görərik ki, Türkiyənin yerləşdiyi məkan da daxil olmaqla, Cənubi Qafqaz və Xəzər hövzəsində bu ölkəni əhatə edən ərazilərin əksəriyyətində türk kökənli əhali və xalqlar məskunlaşmışlar. Ölkənin daxili və sərhədboyu əhali strukturu, yerli azərbaycanlıların kompakt yaşaması və sayca çoxluğu, ətrafdakı türk mənşəli xalqların və dövlətlərin mövcudluğu bu ölkəni daim narahat etmiş və bu gün də etməkdədir. ABŞ tədqiqatçısı B. Şaferin fikrinə görə,

[229] Bax: Svante E. Cornell. Small Nations and Great Powers. A. Study of Ethnopolitical Conflict in the Caucasus // Curzon Press, 2001, p.391

[230] Bax: Джаннатхан Эйвазовю. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, 2004. с. 200.

İranın qeyri-fars əhalisi xarici aləmin təsirinə həddindən artıq həssasdır, çünki onlar özlərinin etnik qohumluq əlaqələrində olan xalqlar və dövlətlərlə bağlıdırlar. Həmin xalqların və dövlətlərin güclənməsi, bir araya gəlməsi və xüsusən də Türkiyənin onlar üzərində təsirinin artması İranı tarix boyu narahat etmiş və indi də etməkdədir.[231]

Tədqiqatçılar hesab edirlər ki, İran etnik quruluşundan və türk kökənli etnoslarla əhatə olunmasından gələn təhlükələri önləmək üçün bir tərəfdən ciddi cəhdlə Azərbaycan və Türkiyəni, bu iki müttəfiq ölkənin bölgədəki hərbi-geostrateji tərəfdaşları hesab olunan ABŞ, NATO və Qərbi təqib edir, onlara qarşı alternativ hərbi-geostrateji bloklar yaratmağa çalışır, yaxud belə bloklarla əməkdaşlıq edir. Digər tərəfdənsə bölgədə şiə-sünni faktorunu xüsusi qabardaraq türk kökənli və digər ölkələrin əhalisini məzhəblərarası qarşıdurmaya sövq edir, ayrımçılıq siyasəti yürüdür.[232]

İranın Xəzər hövzəsi və Cənubi Qafqazda yürütdüyü regional təhlükəsizliyik siyasətinə birbaşa təsir göstərən **amillərdən üçüncüsü** bölgədəki hərbi-geostrateji qüvvələr balansının onun ziyanına dəyişə biləcəyi ehtimalından yaranan təhlükə hesab olunur. Hazırda Cənubi Qafqazda Türkiyə, o cümlədən onların hərbi müttəfiqi olan ABŞ və NATO İranın birbaşa rəqibi hesab olunur. Bölgədə tərəfsiz və balanslı hərbi-geostrateji siyasət yürüdən Azərbaycan və NATO-ya üzv olmaq istəyini açıq bəyan edən Gürcüstansa Qərbin hərbi-geostrateji tərəfdaşları kimi dəyərləndirilir. İranın ən çox qorxduğu məsələ isə bu qurupun Azərbaycan vasitəsilə nə zamansa

[231] Bax:Brenda Shaffer. The Formation of Azerbaijani Collective Identity in Iran, Nationalities Papers , Volume 28,№3, 2000, s.449.

[232] Bax: Джаннатхан Эйвазов. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, 2004, с. 199.

Xəzərə daxil olması və onun təhlükəsizliyinə birbaşa təhlükə yaratması ehtimalıdır. Adı çəkilən aktorlara qarşı bu ölkə özünün "Moskva-İrəvan-Tehran" geosiyasi oxu üzrə özünün ehtiyat hərbi-geostrateji müttəfiqlik fəaliyyətini yaratmağa, bölgənin təhlükəsizlik arxitekturasında iştirakını daha da artırmağa və Rusiya ilə uzlaşdırmağa çalışır. Mütəxəssislər SSRİ dağılandan sonra İranın Mərkəzi Asiya, Xəzər hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik arxitekturasına həssas yanaşmasını, sərgilədiyi ehtiyatlı və fərqli mövqeni də məhz bununla izah etməyə çalışırlar.

Bəzi mütəxəssislər hesab edirlər ki, İranın regiondakı geostrateji duruma təsir imkanları azaldıqca, işğalçı Ermənistanla və onun hərbi müttəfiqi Rusiya ilə müttəfiqlik, "dost və qardaş" Azərbaycan və Türkiyə iləsə rəqiblik münasibətləri güclənəcəkdir. Onlar buna misal kimi, həm İran, həm də Ermənistan və tərəfdaşlarının birləşərək keçən əsrin 90-cı illərinin ortalarında Azərbaycanın təşəbbüsü və Türkiyənin bilavasitə iştirakı ilə Xəzər dənizində həyata keçirilən transmilli enerji layihələrinə, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinə, Bakı-Tbilisi-Qars dəmir yoluna, Şərq-Qərb nəqliyyat kommunikasiya dəhlizinə və s. mane olmaq istədiklərini göstərirlər. Həmin vaxt bu ölkələr Azərbaycana və onun tərəfdaşlarına Qərbin dəstəyi ilə reallaşdırılan transmilli enerji, nəqliyyat və ixrac layihələrinə mane olmağa çalışdılar və özlərini həmin layihələrdə iştirakdan məhrum etdilər. Baxmayaraq ki, Azərbaycan həmin dövrdə "bölgədə beynəlxalq hüquq normalarına hörmətlə yanaşacaqları, özgə torpaqlarına iddia etməyəcəkləri, regional sülhə və əməkdaşlığa xidmət edəcəlkəri təqdirdə" hər bir bölgə ölkəsini bu transmilli layihələrdə iştiraka çağırırdı. Lakin o zaman həm İran, həm də Ermənistan

öz günahları uçbatından bölgədəki əksər iqtisadi-enerji layihələrindən kənarda qaldılar.

Azərbaycanın İranla bağlı hərbi-təhlükəsizlik münasibətlərinə gəldikdə, qeyd etmək lazımdır ki, keçən dövrdə bu ölkə Xəzər hövzəsi və Cənubi Qafqazda xüsusi hərbi-geostrateji təsiri olan hər üç güc mərkəzi ilə – ABŞ-NATO-Türkiyə, Rusiya-KTMT və ayrıca olaraq İranla özünün mövcud tarazlaşdırılmış regional təhlükəsizlik siyasətini qorumuş, onların hər biri ilə ayrı-ayrılıqda, qarşılıqlı maraqlar zəminində tərəfdaşlıq münasibətləri yaratmağa, ikitərəfli əlaqələri tarazlı vəziyyətdə saxlamağa çalışmışdır. Mütəxəssislərin fikrincə, Azərbaycanın regiondakı *geosiyasi, hərbi-geostrateji maraqları üst-üstə düşməyən ayrı-ayrı dövlət və dövlət birliklərinin hər biri ilə "təhlükəsizlik sahəsində qarşılıqlı münasibətlər yaratması və eyni zamanda onların hər birini bəlli məsafədə saxlaması"* onun geosiyasi və hərbi-geostrateji mövqeyinin möhkəmlənməsinə mühüm təsir göstərmiş və bu gün də göstərməkdədir.

Müstəqilliyə qovuşduğu ilk gündən, xüsusən 1993-cü ildən Azərbaycan qonşu İranla regional təhlükəsizlik sahəsindəki münasibətlərə xüsusi həssaslıqla yanaşmışdır. Bu, bir tərəfdən, bölgənin ən böyük iki islam dövlətindən biri sayılan, Azərbaycanla müştərək tarixi keçmişi, din və mədəniyyət birliyi olan, on milyonlarla azərbaycanlının yaşadığı İranın Cənubi Qafqazın geosiyasi sabitliyinə, regional sülh və tərəfdaşlıq mühitinə göstərə biləcəyi müsbət təsirlə əlaqəli idisə, digər tərəfdən, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının geri qaytarılması, Dağlıq Qarabağ münaqişəsinin həlli, bir milyondan çox müsəlman qaçqın və köçkünün problemlərinə yardım edilməsi və s. ilə bağlı onun hərtərəfli dəstəyini qazanmaq istəyindən irəli gəlirdi.

İslam Əməkdaşlıq Təşkilatı, EKO (İqtisadi Əməkdaşlıq Təşkilatı), Türkdilli Dövlətlər Birliyi və s. kimi təşkilatlara üzv olması da Azərbaycana bir tərəfdən müstəqillik yolunda əlavə beynəlxalq təminat mahiyyəti kəsb edirdisə, digər tərəfdən regional təhlükəsizliyin, Dağlıq Qarabağ probleminin və s. milli problemlərin həllində islam-türk dünyasının köməyini qazanmaq məqsədi güdülürdü.

Əlbəttə, bütün xristian dünyasının dəstəyinə söykənərək, Cənubi Qafqazda Azərbaycana qarşı açıq-aşkar işğalçılıq siyasəti yürüdən, onun müsəlman əhalisini soyqırımına məruz qoyan Ermənistana qarşı mübarizədə Azərbaycanın islam dünyası və İrandan dəstək gözləməsi və bunu umması da təbii idi. Xüsusən, bütün parametrləri ilə bölgədə Azərbaycana ən yaxın iki müsəlman dost ölkəsindən biri hesab edilən, əhalisinin 40%-nin azərbaycanlılardan ibarət olan İrandan özünün haqlı mübarizəsində hərtərəfli dəstək gözləməyə haqqı da çatırdı. Lakin mütəxəssislərin fikrincə, Azərbaycanın regional təhlükəsizliyinin ən əsas problemi hesab olunan Dağlıq Qarabağ münaqişəsinin həllində İrandan yardım gözləməsi əbəs idi. Çünki, İran da bu və ya digər səbəblərdən bəzi digər region ölkələri kimi Azərbaycanın Ermənistanla münaqişəsinin tezliklə başa çatmasında, Dağlıq Qarabağın və işğal altındakı digər torpaqları geri qaytarılmasında, qoşuluğunda inkişaf etmiş, müstəqil qərbyönlü siyasət yürüdən, demokratik və dünyəvi ölkə kimi tanınan Azərbaycan dövlətinin mövcudluğunda maraqlı görünmür. Əslində Tehran bu münaqişənin uzanmasını Azərbaycanın Qərbə meyilənməsi yolunda maneə yaradan və Qərb ölkələri ilə hərbi-strateji tərəfdaşlığı əngəlləyən amil kimi də qiymətləndirir.

Azərbaycan İranla təkcə dostluq və qonşuluq münasibətlərinin qorunub saxlanılmasında maraqlı deyildi, həmçinin

Rusiya, Türkiyə, Gürcüstan və b. həmsərhəd ölkələrlə olduğu kimi onunla da regional təhlükəsizlik məsələlərində tərəfdaşlıq münasibətləri yaratmağa çalışırdı. Lakin bu ölkə ilə ortaya çıxan bəzi geosiyasi problemlər- işğalçı Ermənistana hərtərəfli yardım etməsi, Xəzərin hüquqi statusu məsələsi, Azərbaycanın xarici siyasətinə, beynəlxalq aləmlə müstəqil əlaqələrinə, daxili idarəetmə işlərinə və cəmiyyət həyatına arzuolunmaz müdaxilə cəhdləri fonunda neçə illərdir ki, regional təhlükəsizlik sahəsində bu ölkə ilə ciddi tərəfdaşlıq münasibətləri yaratmaq mümkün olmamışdır.

Yeni əsrin başlanğıcından, xüsusən də körfəzdəki ABŞ-İraq müharibəsindən sonra İran Azərbaycana, onun Xəzər hövzəsi və Cənubi Qafqazda nümayiş etdirdiyi transmilli siyasətə, öz təhlükəsizliyinin təmin edilməsi ilə bağlı həyata keçirdiyi beynəlxalq və regional fəaliyyətə, xüsusən Qərblə, Türkiyə və İsraillə yaratdığı hərbi-geostrateji münasibətlərə, təhlükəsizlik sahəsindəki tərəfdaşlıq meyillərinə ciddi qısqanclıqla yanaşmağa başladı. Həmin dövrdən rəsmi Tehranın Azərbaycanla geosiyasi münasibətlərə, onun xarici aləmlə strateji əlaqələrinə daha çox diqqət yetirməsini ekspertlər ikincinin son illərdə getdikcə güclənməsi, regionda və dünyada söz sahibinə çevtilməsi, İran əhalisinin bu ölkənin dünyəvi inkişafına rəğbətinin və meylinin artması ilə əlaqələndirirlər. Lakin bəzi mütəxəssislər hesab edirdi ki, İran ətrafında son dövtlərdə sıxlaşan hadisələrin getdikcə onun daha çox sıxışdırılması və dünyadan təcrid edilməsi istiqamətində inkişaf edəcəyi, Amerikanın bu ölkəyə hərbi-geostrateji təzyiqlərinin intensivləşəcəyi və real təhlükə kəsb edəcəyi, Azərbaycanın öz neytrallığını sona qədər qoruyub saxlayacağı və ərazisini antiiran qüvvələrinin ixtiyarına verməyəcəyi təqdirdə, rəsmi Tehran Azərbaycanla münasibətlərini yaxşılaşdırmağa cəhd edəcək, hətta iki ölkə arasında

indiyə qədər həllini tapmayan bir çox məsələlər, o cümlədən Xəzərin statusu məsələsi müsbət həll ediləcəkdir. Lakin bu proqnozlar İranın "spesifik davranışı" üzündən və bəzi digər səbəblərdən nəinki özünü doğrultmadı, əksinə bu ölkədə anti-azərbaycan istiqamətli fəaliyyətə bir qədər də rəvac verdi. İranın ətrafındakı hərbi mühasirə daraldıqca, o bütün beynəlxalq hüquq normalarını, suveren dövlət hüquqlarını unudaraq Azərbaycana hansı xarici ölkələrlə hərbi əməkdaşlıq münasibətləri yaratmaq, müdafiə qüdrətini artırmaq məqsədilə kiminlə hərbi-texniki əməkdaşlıq qurmaq, ölkədən gediş-gəlişin hansı normalarını tərbiq etmək və s. kimi- müstəqil dövlərin suveren hüquqlarına aid edilən məsələlərə müdaxilə etməyə başladı.

Son illərdə nüvə texnologiyasına yiyələnən və bu faktordan istifadə edərək dünyada öz təsirini artırmağa çalışan İran siyasi sahədə olduğu kimi, hərbi-geostrateji müstəvidə də ABŞ və onun Qərb dünyasındakı müttəfiqləri ilə ciddi qarşıdurma yaşayır. "Nüvə texnologiyasına sahib olmaqla Yaxın və Orta Şərqin, Xəzər hövzəsi və Cənubi Qafqazın super dövlətinə çevrilmək" istəyi, "dünyada islam ölkələrinin lideri, əsas söz və nüfuz sahibi qismində çıxış etmək" və s. taktikası onun dünya təhlükəsizlik sisteminin nüfuzlu Qərb Alyansı ilə qarşıdurmasını son həddə qədər kəskinləşdirib. Tehranın ciddi müqavimətinə baxmayaraq, ABŞ və NATO artıq ölkənin sərhədlərinə yaxınlaşmışdır. İranla sərhədyanı ölkələrin əksəriyyətində - Türkiyə, Pakistan, Əfqanıstan, İraq, Qırğızıstan, həmçinin Fars körfəzində və sahilyanı ölkələrində ABŞ-ın hərbi qüvvələri yerləşdirilmiş və gücləndirilmişdir. Birləşmiş Ştatların hərbi iştirakı olmayan İranla yeganə sərhəd dövlətləri Azərbaycan və Türkmənistandır. Bu amil məntiqə görə Azərbaycanın İran üçün tərəfdaşlıq əhəmiyyətini daha da artıraraq, onlar arasındakı münasibətləri yaxşılaşdırmalıdır. Lakin İran, əksinə

ABŞ, Qərb və İsraillə qarşıdurma zəminində, onların əksər regional tərəfdaşlarını, o cümlədən Türkiyə və Azərbaycanı hərbi müdaxilə ilə ciddi təhdid edərək, yaxınlaşan münaqişəyə öz tərəfindən qatmağa çalışır. Bunu da tədqiqatçılar, **ilk növbədə** İranın bölgədə özünü daha "güclü ölkə" hesab edərək, qarşılıqlı faydalı və bərabərhüquqlu regional münasibətləri pozması, kiçik qonşularına öz "liderliyini", iradəsini və maraqlarını zorla qəbul etdirməsi, qonşu ölkələrin daxili və xarici fəaliyyətlərinə müdaxilə etməsi və s. kimi beynəlxalq hüquqa zidd tələblər irəli sürməsi ilə bağlayırlar. Məsələn, İran Azərbaycanın müstəqil bir dövlət olaraq həyata keçirdiyi regional və beynəlxalq siyasətə, öz milli maraqlarına söykənən daxili və xarici fəaliyyətə, qonşularına bəslədiyi və müvafiq olaraq onlardan tələb etdiyi "bir-birinin suveren dövlət idarəçiliyinə, daxili işlərinə qarışmamaq" tələbinə, bərabərhüquqlu əməkdaşlıq istəyinə, Cənubi Qafqaz və Xəzər hövzəsinin indiki və gələcək regional təhlükəsizlik məsələsinə yanaşmada nümayiş etdirdiyi fərqli baxışa, bəzi məsələlər üzrə mövcud olan prinsipial fikir ayrılığına görə rəsmi Bakının birmənalı tərəfdaşlıq çağırışlarını cavabsız qoyur.

İranın Qərblə hərbi-geostrateji qarşıdurma fonunda qonşu ölkələri, xüsusən də Azərbaycan və Türkiyəni təhdid etməsi cəhdlərini mütəxəssislər daha bir neçə amillə izah edirlər. Onların fikrinə görə, İran, **əvvəla,** öz ətrafında yaranmış çox çətin geosiyasi və hərbi-geostrateji mühasirədən çıxmaq istəyir və bu istiqamətdə "təhdid etmə yolu ilə" qonşularını antiqərb, antiamerika və antiisrail cəbhəsinə sürükləməyə, özünə qoşmağa və onları gələcək hərbi qarşıdurmada "tərəfdaş" etməyə çalışır. Bu ölkə son günlərdə Qərbin əksər beynəlxalq və regional tərəfdaşlarına belə hücumlar həyata keçirir. **İkincisi,**

İran Qərbin Xəzər hövzəsi və Cənubi Qafqazdakı transmilli geoiqtisadi və enerji maraqlarını təhdid etmək, hədələmək məqsədilə onların bölgədəki əsas geoiqtisadi tərəfdaşı qismində Azərbaycanı hədələyir. **Üçüncüsü,** İran hədə-qorxu yolu ilə Türkiyə və Azərbaycanın bu qarşıdurmada hər hansı formadasa dəstəyini qazanmaq, ən azından onların əks düşərgə ilə mümkün ola biləcək əməkdaşlıqdan, antiiran fəaliyyətindən çəkindirmək məqsədi güdür. Rəsmi Tehran gözəl anlayır ki, Türkiyə və Azərbaycan da öz ərazilərindən ABŞ və onun müttəfiqlərinə İrana hücum məqsədilə istifadəyə icazə versələr, o zaman bu ölkənin onsuz da ağır oaln hərbi vəziyyəti bir qədər də pisləşə bilər.

ABŞ-ın Kanzas Universitetinin professoru, Vaşinqton Xarici Əlaqələr Şurasının siyasi şərhçisi D. Hersprinqin fikrinə görə, İrana qarşı həyata keçirilməsi getdikcə reallığa çevrilən müharibənin ağır nəticələri bütün bölgəyə, ilk növbədə isə Azərbaycana, Türkiyəyə və Cənubi Qafqaza dəyə bilər. İran son günlər Azərbaycanı İsrailin kəşfiyyat strukturlarına guya öz ərazisndə İrana qarşı fəaliyyət üçün şərair yaratmaqda suçlayaraq, hətta onu hədələməkdən belə çəkinmir. D. Hersprinq hesab edir ki, "İran özünü kifayət qədər dalaşqan ölkə hesab edərək" düşünür ki, bir bəyanatla Bakını öz iradəsinə tabe etdirə biləcəkdir. [233]

Azərbaycanı, regionu və beynəlxalq aləmi təmsil edən bir çox müşahidəçilər və hərbi mütəxəssislər də hesab edir ki, İrana qarşı reallaşdırılması gözlənilən hərbi əməliyyatlar bölgə ölkələrinə ciddi xətər yetirə bilər. Azərbaycanın rəsmi dairələri də dəfələrlə bəyan ediblər ki, onlar İranın dinc nüvə texnologi-

[233]Bax: Deyl Herspringin APA informasiya agentliyinə müsahibəsi //APA bülleteni, 28 fevral 2012. www. APA. AZ.

yasına sahib olması hüququnu tanıyır, beynəlxalq aləmin bu sahədə həyata keçirdiyi antiiran kompaniyasında iştirak etmir, bütün bölgədə, o cümlədən Azərbaycanda humanitar fəlakətə yol açа bilən İrana qarşı hər hansı silahlı müdaxiləni dəstəkləmir, öz ərazilərindən bu ölkəyə qarşı hər hansı əməliyyəta və s. heç zaman imkan verməyəcək, bu problemin danışıqlar yolu ilə, dinc vasitələrlə həll edilməsinə tərəfdardır.[234]

İran azərbaycan münasibətlərində real gerçəkilk ondan ibarətdir ki, rəsmi Bakı heç zaman İranın daxili və xarici siyasətinə qarışmamış, bu qonşu ölkə ilə münasibətləri daim səhmanda saxlamağa cəhd etmiş, amma eyni zamanda İranın da onun milli təhlükəsizliyi və maraqlarına aid olan məsələlərə, daxili və xarici siyasətinə, beynəlxalq aləmlə ikitərəfli və çoxtərəfli münasibətlərə müdaxilə etməsinə yol verməmişdir. Azərbaycan bəzən Qərb, ABŞ və İsrailin bu istiqamətdəki bütün istək və arzularına, geostrateji təzyiqlərinə sinə gərərək, onların Azərbaycan və onun ərazisi vasitəsilə İrana təzyiq göstərmək, yaxud təsir etmək istəklərini rədd etmişdir. Lakin, eyni zamanda İranın da antiqərb, antiisrail hərəkərlərinə qoşulmamış və dəstək verməmişdir. Çünki Azərbaycan gözəl anlayır ki, regional balansı poza biləcək belə hərəkətlər ya İranı açıq şəkildə Ermənistanla birləşməyə, Azərbaycana qarşı hərbi-geostrateji blok yaratmağa və birgə mübarizə aparmağa sövq edə bilər, ya da ki, Qərbi və İsraili Azərbaycanın milli maraqlarına qarşı çevirə bilər.

Nüvə texnologiyalarına sahib olması fonunda İranın ABŞ və Qərblə yaranan hərbi-geostrateji qarşıdurmasına, Azərbaycanın bu prosesdəki roluna toxunan Prezident İlham Əliyev

[234] Bax: "Xalq qəzeti", № 272, 9 dekabr 2011-ci il.s.2; yaxud Ə.M.Həsənov. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011.s.268-275.

bəyan etmişdir: "Hazırda bölgədə vəziyyəti qarışdırmaq istəyən bəzi xarici və daxili qüvvələr Azərbaycanı öz qonşuları, o cümlədən İranla üz-üzə qoymaq, onlar arasındakı mehriban qonşuluq və dostluq münasibətlərini pozmaq istəyirlər... Azərbaycanın öz qonşuları ilə münasibətlərinin tarixi köklərə söykəndiyini, Ermənistan istisana olmaqla, bütün bölgə ölkələri ilə hərtərəfli dostluq və tərəfdaşlıq münasibətlərinin yarandığını və getdikcə gücləndiyini xüsusi qeyd edən ölkə başçısı, ölkəsinin indiyə qədər olduğu kimi, bundan sonra da heç vaxt başqalarının hansısa regional münaqişələrində, bu yönlü planlarında iştirak etməyəcəyini birmənalı şəkildə bəyan etmişdir... Mən hələ birinci prezidentlik dövrünün əvvəlində demişəm və indi də təkrar edirəm Azərbaycan heç bir regional və beynəlxalq qarşıdurma arenasına çevrilməyəcəkdir. Kim olur-olsun Azərbaycanın regional qarşıdurmalara cəlb edilməsinə, ərazilərindən qonşularına qarşı mənfi planda istifadə edilməsinə və münaqişə mərkəzinə çevrilməsinə biz heç vaxt imkan verməyəcəyik".[235] İlham Əliyev onu da təəssüflə qeyd etmişdir ki, son vaxtlar Azərbaycan-İran münasibətlərini gərginləşdirmək və iki ölkə arasında qarşıdurma yaratmaq sahəsində beynəlxalq səviyyədə informasiya təxribatlarından geniş istifadə edilir və bəzən ən mötəbər, transmilli mətbu orqanlarda belə yalan informasiyalar yayılır, məqalələr dərc edilir. Sonra bu yalanlar əsasında rəy formalaşdırmağa çalışırlar ki, guya Azərbaycan bölgədə hansısa başqa mənfi istiqamətli planlara malikdir. Bizim bir istəyimiz var: "bölgədə sülh, sabitlik, əmin-amanlıq olsun. Qonşularla münasibətlər səhmanda saxlanılsın. Biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Mən qonşulardan da Azər-

[235]Bax: "Azərbaycan" qəzeti, № 82, 17 aprel 2012-ci il.

baycana qarşı adekvat münasibət görürəm və buna da çox şadam." [236]

İran Azərbaycan münasibətlərin kəskinləşdirilməsi həm də bu ölkədə yaşayan milyonlarla azərbaycanlının vəziyyətinə və həyatına mənfi təsir göstərə bilər. Bundan başqa, İran Azərbaycanın ən böyük qonşularından biridir və bu ölkənin onun milli təhlükəsizliyinə vura biləcəyi ziyanı da gözdən qaçırmaq olmaz. Və nəhayət, İran Naxçıvana Azərbaycanın yeganə quru bağlantı yoludur ki, bunun da taleyi iki ölkə arasındakı münasibətlərdən asılıdır.

§ 5.7. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional maraqlar sistemində Ukraynanın hərbi-geostrateji mövqeləri: Təhlükəsizlik sahəsində Azərbaycan-Ukrayna münasibətlərinin xarakteristikası

Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik arxitekturasının formalaşmasında, bölgədəki gələcək hərbi-strateji bloklaşma və s. geostrateji məsələlərin həllində ərazisinə və əhalisinin sayına görə Avropanın mühüm dövlətlərindən biri hesab olunan **Ukraynanın** mövqeyi xüsusi əhəmiyyət daşıyır. 2014-cü il hadisələrinə qədər ərazisi və əhalisinin sayına görə Rusiyadan sonra Avropanın, postsovet məkanınının və Qara dəniz hövzəsinin ən böyük dövlətləri və əsas geosiyasi oyunçuları- "liderləri" sırasında mütəxəssislər, bir qayda olaraq Ukraynanın adını çəkirdilər və **regionun gələcək hərbi-geostrateji və təhlükəsizlik sistemində onun rolunu** mühüm hesab erirdilər. Lakin mütəxəssislər bu dövlətin "regional lider" statusuna ciddi mane olan bir çox obyektiv və

[236]Bax: "Azərbaycan" qəzeti, № 82, 17 aprel 2012-ci il.

subyektiv amilləri də qeyd edirdilər ki, onlardan ən əsası kimi, Ukraynanın Rusiyadan enerji asılılığını göstərirdilər.

Müstəqillik əldə etdiyi 1992-ci ildən 2014-cü ilə qədər rəsmi Kiyev gah Qərbin təsiri və təzyiqi altında, gah da Rusiya ilə gərgin enerji-tranzit münasibətlərinin nəticəsi olaraq öz hərbi-geostrateji və təhlükəsizlik siyasətinin prioritetlərini formalaşdırmış və dəfələrlə dəyişmək məcburiyyəti qarşısında qalmışdır.

1998-ci ildən başlayaraq rəsmi Kiyev Rusiya ilə gərgin enerji-tranziti münasibətlərinin təsiri və Qərbin xüsusi təzyiqi ilə öz hərbi-geostrateji seçimini NATO blokunun xeyrinə müəyyənləşdirərək, Şimali Atlantika Alyansını "Avropada kollektiv təhlükəsizliyin ən səmərəli strukturu" adlandırmış və 2009-cu ildə Gürcüstanla birlikdə ona üzv olmaq üçün Brüsselə müraciət ünvanlamışdı. Lakin, qeyd olunduğu kimi, bu dövlətin həm rəsmi siyasəti, daxili vəziyyəti, həm də geosiyasi, geoiqtisadi və geostrateji mövqeləri ona birmənalı olaraq nə "qərbpərəst", nə də ki, "Rusiya yönlü" siyasət yürütməyə imkan verməmişdir. Mütəxəssislər hazırda regionda xarici aləmin müşahidə olunan mövcud geosiyasi fəallığından, ölkədaxili siyasi böhrandan, Rusiya ilə gərgin münasibətlərin yaratdığı vətəndaş qarşıdurmasından və s. hallardan çıxış edərək Rusiya və Qərbin geostrateji qarışdırmalarının bu formada davam edəcəyi təqdirdə Ukraynanın gələcəyini həddən artıq qaranlıq proqnozlaşdırırlar. Ölkədə de-fakto Krımın ayrılmasına və Rusiya Federasiyasına birləşməsinə, bir çox digər əsas ərazilər üzərində siyasi nəzarəti itirməsinə səbəb olan sonuncu çaxnaşmalara qədərki dövrdə Kiyevin həm rəsmi siyasəti və daxili vəziyyəti, həm də bu ölkənin geosiyasi, geoiqtisadi və geostrateji mövqeləri onun təhlükəsizlik siyasətinin nə "Qərbyönlü", nə də ki, "Rusiyayönlü" olmasını birmənalı şəkildə

qeyri mümkün edirdi. Əslində, 1998-ci ildən bu yana Gürcüstanla birlikdə Qara Dəniz hövzəsində və Cənubi Qafqazda NATO yönlü siyasət yürütməyə cəhd göstərən və bu zəmində Rusiya ilə münaqişəyə girərək, fərqli hərbi-geosiyasi çağırışlar edən Ukrayna rastlaşdığı mürəkkəb şəraitdə nə ABŞ-ın, nə də onun NATO üzrə əsas müttəfiqlərinin, xüsusən də Fransa və Almaniyanın ciddi dəstəyini ala bilmirdi. Mütəxəssislərin fikrincə, həmin dövrdə Qərb ölkələrinin özləri də, Rusiyanın Ukraynaya açıq təsirinə və təzyiqlərinə qarşı sərt və adekvat münasibət nümayiş etdirmək iqtidarında deyildilər. Əlbəttə, dünya geosiyasətində belə gedişlər, bu tipli münasibətlər heç vaxt izsiz ötüşmür və müvafiq olaraq, bölgədəki digər ölkələrin (məsələn, Özbəkistan, Azərbaycan, Qırğızıstan və s.) sonrakı geostrateji davranışlarına, hərbi bloklarla bağlı milli seçimlərinə öz real təsirini göstərir.

Ukrayna Qara dəniz hövzəsi və Cənubi Qafqazın gələcək regional hərbi-təhlükəsizik arxitekturasının yaradılmasında, regiondakı hərbi-strateji blokların formalaşmasında da böyük əhəmiyyət daşıyan ölkə hesab olunur. Onun uzun müddət Cənubi Qafqazda müəyyən mənada Rusiyaya qarşı alternativ hərbi-geostrateji amil kimi çıxış etmək cəhdi rəsmi Moskvanın bölgədəki etnik münaqişələrə və qondarma separatçı rejimlərə yanaşmasından narazı qalan Azərbaycan, Gürcüstan və Moldova kimi ölkələr üçün kifayyət qədər cəlbedici görünürdü. Odur ki, bu dörd dövlət 90-cı illərin sonunda **GUAM** adlanan regional geosiyasi qurum yaradaraq bölgədə təhlükəsizlik və əməkdaşlıq məsələləri ilə bağlı milli səylərin birləşdirilməsində birgə iştirak etmək haqqında qərar verdilər. Üzv dövlətlərin hər biri regional geosiyasi maraqlarını həyata keçirmək üçün GUAM-ın imkanlarından bəhrələnməyə çalışaraq, təşkilatın işində yaxından iştirak edirdi. O dövrdə Ukraynanın regional

təhlükəsizlik və separatçılıq zəminində baş verən münaqişələrə yanaşması birmənalı şəkildə GUAM-a üzv olan dövlətlərin hər birinin maraqlarına cavab verirdi. Çünki rəsmi Kiyev Rusiyadan fərqli olaraq Azərbaycan, Gürcüstan və Moldovanın ərazi bütövlüyünü dəstəkləyirdi, Dağlıq Qarabağ, Cənubi Osetiya, Abxaziya, Dnestryanı və s. kimi etnik-separatçı rejimlərin yaratdığı münaqişələrin bu dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar çıxırdı.

Ukraynanın özünün Cənubi Qafqazdakı regionali təhlükəsizlik maraqları, ilk növbədə, bu ölkənin enerji-nəqliyyat təhlükəsizliyi maraqlarına xidmət edən regional layihələrlə bağlı idi. Bu layihələr, artıq qeyd edildiyi kimi, bu ölkənin əsrlər boyu birlikdə olduğu Rusiyadan enerji və nəqliyyat-dəhliz asılılığına son qoymaq üçün yeganə çıxış yolu sayılırdı. Odur ki, Ukrayna özünün təhlükəsizlik sahəsində Qara dəniz hövzəsi və Cənubi Qafqaz siyasətində keçən dövrdə, ilk növbədə Azərbaycan və Gürcüstana arxalanmış, üzləşdiyi enerji problemlərini birincinin, Qara dəniz bölgəsindəki hərbi-geostrateji məsələlərini isə ikincinin hesabına həll etməyə çalışmışdır. Məhz bu amillərin sayəsində Ukrayna Cənubi Qafqazda bu ölkələri daim özünün əhəmiyyətli strateji tərəfdaşı hesab etmişdir. Kiyevin bəhs olunan dövrdə, həm də Cənubi Qafqaz və Qara dəniz hövzəsində hərbi-geostrateji cəhətdən Rusiyaya alternativ kimi çıxış etməyə can atması Moskvanın etnik-separatçı münaqişələrə fərqli yanaşmasından narazı qalan Azərbaycan və Gürcüstan üçün xüsusi cəlbedici amil kimi görünürdü. Ukraynanın o illərdə regional təhlükəsizlik məsələlərinə və separatizm zəminində yaranan regional münaqişələrə birmənalı yanaşması GUAM üzvü olan dövlətlərin hər birinin maraqlarına cavab verirdi. Belə ki, rəsmi Kiyev Azərbaycanın və Gürcüstanın ərazi bölüvlüyünü rəsmi şəkildə dəstəkləyir,

Dağlıq Qarabağ, Cənubi Osetiya, Abxaziya və Dnestryanı münaqişələrin "dövlətlərin BMT tərəfindən tanınmış ərazi bütövlüyü çərçivəsində" həllinə tərəfdar kimi çıxış edirdi. Bu da müvafiq olaraq Ukraynanın bəzi problemlərinə, bölgədəki geosiyasi və geoiqtisadi maraqlarına Azərbaycan və Gürcüstanın adekvat yanaşmasını şərtləndirirdi.

Mütəxəssislərin fikrinə görə, Ukraynanın bütün dövrlərdə çoxlarının "qeyri-sabitlik qurşağı" kimi adlandırdığı Qara dəniz regionunun əsas hərbi-geostrateji oyunçularından biri kimi çıxış etmək istəyi tamamilə başa düşülən idi. Bu ölkə həm ərazisinə, həm də əhalisinin sayına görə GUAM-da ən üstün mövqeyi olan dövləti idi və Qərbin dəstəyi ilə bu təşkilatda özünün aparıcı rolunu nümayiş etdirməyə çalışırdı.

Lakin, 2014-cü ilin böhranlı hadisələri baş verənə qədər bütün səylərinə baxmayaraq, Ukrayna Qara dəniz hövzəsində, xüsusən Cənubi Qafqazda özünü ciddi geosiyasi amil kimi qəbul etdirə bilmədi. Türkiyə, İran, Rusiya, ABŞ, Avropa İttifaqının fəal regional siyasəti fonunda Ukrayna həmişə passiv müşahidəçi rolunda çıxış edib. Məsələn, indiyədək region ölkələri tərəfindən Cənubi Qafqazda təhlükəsizlik sisteminin formalaşdırılmasına dair bir sıra təkliflər səslənsə də, bu "formatların" heç birində Ukraynanın iştirakı nəzərdə tutulmayıb. Yalnız bir dəfə 2000-ci ildə Türkiyə Prezidenti Süleyman Dəmirəl Ukraynanın da regiondakı təhlükəsizlik sisteminin yaradılmasındakı iştirakını təklif etmişdi ki, bu da sonradan Ukrayna tərəfinin ciddi maraq göstərməməsi səbəbindən baş tutmamışdır. Düzdür, postsovet məkanındakı mövcud «regional münaqişə ocaqları»nın söndürülməsində hərdən Ukraynanın hərbi cəhətdən iştirak meyli özünü büruzə verirdi. Lakin, mütəxəssislərin fikrinə görə, Ukrayna Rusiyanın nəzarətində olan, məsələn Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ, yaxud

Gürcüstan-Abxaziya, Moldova-Dnestryanı kimi regional münaqişələrin, xüsusən də etnik separatizmlə bağlı olan konfliktlərin həll edilməsində nə ciddi siyasi, nə də ki, hərbi güc faktoruna çevrilə bilməzdi.

Göründüyü kimi, Qara dəniz hövzəsi və Cənubi Qafqaz Ukraynanın hərbi-geostrateji və təhlükəsizlik maraqlarının birbaşa təmsil olunduğu bölgə hesab olunur. Onun təhlükəsizlik maraqları bu məkanda Qərblə və müxtəlif beynəlxalq güclərlə, regional mərkəzlərlə və yerli ölkələrlə gah üst-üstə düşür, gah kəsişir və gah da toqquşur. Qara dəniz hövzəsi və Cənubi Qafqazda təmsil olunan hər bir beynəlxalq və regional aktor, hər bir region ölkəsi öz milli və qrup maraqları çərçivəsində beynəlxalq, regional və milli təhlükəsizlik siyasəti yürüdür.

Hazırda həm ABŞ və Avropa İttifaqı, həm də Rusiya politoloqları ayrı-ayrılıqda Ukrayna ilə məhz onların ölkəsinin milli və təhlükəsizlik maraqlarının üst-üstə düşdüyünü iddia edir və onunla "hərbi-geostrateji blokda" olmağın zəruriyyətini əsaslandırmağa çalışırlar. Məsələn, ABŞ politoloqu Z.Bjezinskinin "Avrasiya Doktrina"sına görə, Rusiyanın fövqəldövlət statusunu itirərək, adi bir dövlətə çevrilməsi prosesinin əsasında Ukrayna dayanır. Onun fikrinə görə, Rusiyanın hazırda fövqəldövlət statusunu bərpa etməsinə mane olmağın ən optimal yolu Ukraynanın Moskvadan asılılığını aradan qaldırmaq və Kiyevin timsalında Rusiyaya alternativ geostrateji mərkəz formalaşdırmaqdır. Z.Bjezinski öz doktrinasında Ukraynanın ABŞ üçün geosiyasi əhəmiyyətini belə şərh edir: «Müstəqil Ukraynanın yaranması XX əsrin üç vacib geosiyasi hadisəsindən biridir. Çünki müstəqil Ukrayna Rusiya imperiyasının sonu deməkdir».[237]

[237] Бжезинский З. Великая шахматная доска. Господства Америки и его геостратегические императивы, göstərilən əsəri, c. 98.

Göründüyü kimi, SSRİ-nin süqutundan sonra Avropada ərazisinə görə ikinci, əhalisinin sayına görə beşinci olan Ukraynanın müstəqillik qazanması nəinki təkcə Avrasiya regionunda ümumi geosiyasi situasiyaya həlledici təsir göstərdi, bu hadisə həm də Rusiya ilə Qərb arasındakı gələcək regional qarşıdurmaların əsas hədəflərindən birinə çevrildi. Amerika politoloqu Barri Pouzenin qeyd etdiyi kimi, "orta miqyaslı müstəqil dövlət statusuna iddia etmək üçün Ukrayna kifayət qədər əhaliyə, sənaye potensialı və xammal resurslarına malikdir".[238]

ABŞ-ın digər tanınmış ictimai xadimi Henri Kissincer də bildirmişdir ki, Ukraynanın ABŞ üçün geosiyasi rolu çox önəmlidir. Onun fikrincə, Rusiya daxili islahatlara start versə də, onun rəhbərlərinin öz qonşularına yönəlik ekspansionist ənənələrdən əl çəkdiyinə ciddi şübhələr hələ də qalır.[239]

Məlumata görə, XX əsrin sonlarında Ukraynanın Qərb üçün hərbi-geostrateji əhəmiyyətini sübut etmək məqsədi ilə, hətta ABŞ-ın Strateji və Beynəlxalq Təhqiqatlar Mərkəzində Birləşmiş Ştatların Administrasiyası üçün "Ukraynaya dair xüsusi tövsiyələr" də hazırlanmışdır. Bu sənədin hazırlanmasında, hətta ABŞ-ın 3 sabiq dövlət katibi – Madlen Olbrayt, Zbiqnev Bjezinski və Henri Kissincer iştirak ediblər. Layihənin rəhbəri isə Mərkəzin Rusiya və Avrasiyanın tədqiqi proqramının direktoru Selesta Uollander olubdur. Sənəddə göstərilir ki, Ukraynanın bazar iqtisadiyyatlı demokratik dövlətə çevrilməsi və siyasi-iqtisadi baxımdan Avropaya istiqamət-

[238] Bax: Радио «Голос Америки», «Украина во главе ОБСЕ: вызовы и геополитические головоломки», 27 ноября 2012
[239] Генри Киссинджер. Дипломатия. М., 1997, с. 748.

lənməsi ABŞ-ın xarici siyasətinin strateji prioriteti olmalıdır. Ukraynanın Avropa, Qara Dəniz və Qafqaz regionunun qovuşduğu məkanda yerləşən böyük dövlət olduğunu nəzərə alan sənəd müəllifləri həmçinin qeyd ediblər ki, bu ölkə Avropa ilə Asiya arasında potensial ticarət dəhlizidir.

ABŞ-ın Avrasiyada yeni nəqliyyat dəhlizlərinin formalaşdırılması və idarə edilməsi planında da, mütəxəssislərin fikrinə görə, Ukraynaya xüsusi yer ayrılıb. Bundan başqa, NATO-nun «Strateji Konsepsiyası»nın 37-ci maddəsində deyilir ki, Ukrayna Avroatlantik regionda təhlükəsizlik baxımından mühüm rol oynayır, sabitliyin və ümumdemokratik dəyərlərin qorunması baxımından vacib tərəfdaşdır.

Tanınmış Almaniya politoloqu Karl Qrobe Ukraynanın Rusiya və Qərblə tərəfdaşlıq münasibətlərinə fərqli rakursadan qiymət verməyə çalışır. O hesab edir ki, qərbyönümlü Ukraynanın mövcudluğu Rusiya üçün də əlverişli ola bilər. Belə ki, «Qərbə istiqamətlənmiş Ukrayna keçmiş SSRİ-nin «problemli» regionları üçün də sabitlik mənbəyinə çevrilə bilər. Bu isə Rusiya üçün də əlverişlidir».

Z.Bjezinskinin Ukrayna haqqındakı fikirlərini Rusiya politoloqları da bölüşür və Ukraynanın bundan sonra da öz ölkələrinin təsiri altında qalmasını regionda strateji əhəmiyyət daşıyan bir ehtiyac kimi- "Rusiyanın həyati əhəmiyyət kəsb edən geosiyasi, geoiqtisadi və hərbi-geostrateji vəzifəsi" olmasını öz arqumentləri ilə əsaslandırırlar. Bjezinski kimi rusiyalı politoloqlar da öz nöqteyi nəzərlərindən çıxış edərək Ukraynanın postsovet məkanındakı geosiyasi mövqelərini lazımi səviyyədə dəyərləndirərək, yeni geosiyasi şəraitdə onun Moskva üçün də, "Vaşinqton üçün olduğu kimi həyati əhəmiyyət kəsb etdiyini" iddia edir və Ukraynanı Qərbin və ABŞ-ın yanında

deyil, məhz Rusiyanın yanında "olması ehtiyacını" heç də qərb politoloqlarından pis əsaslandırmırlar.[240]

Rusiyalı mütəxəssislərin fikrinə görə, məhz Z.Bjezinski doktrinasının tələblərinə uyğun olaraq, 1994-95-ci illərdən etibarən ABŞ və AB-nın Ukraynaya iqtisadi-maliyyə və hərbi-geostrateji yardımlarının həcmi ilbəil artmaqdadır. Hazırda Ukrayna İsrail, Misir və bir sıra digər ölkələrlə yanaşı, ABŞ-dan ən çox maliyyə-texniki yardım alan dövlətlər sırasındadır.

SSRİ dağılandan sona Rusiya öz xarici siyasətində Ukrayna ilə bağlı məsələlərə həmişə xüsusi diqqət yetirilmişdir. Rəsmi Moskva uzun illər təsir dairəsi altında saxladığı keçmiş SSRİ respublikaları ilə yaxın münasibətlərini qorumaq niyyətini, xüsusən Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı ənənəvi üstün hərbi-geostrateji mövqelərini kiməsə güzəştə getməmək fikrini daim açıq formada bəyan etmişdir. Rusiyalı mütəxəssislərin fikrinə görə, Ukrayna və Belarus Rusiyanın «yaxın xarici» ölkələrlə bağlı xarici siyasət strategiyasının formalaşdırılmasında ən əsas mexanizmlər hesab olunur. Bu ölkələrlə müttəfiqlik münasibətlərinin yardılması və qorunub saxlanması Rusiya üçün, politoloqların dili ilə ifadə etsək, təkcə "böyük geosiyasi əhəmiyyət" kəsb etmir. Bu əlaqələr, həm də ciddi hərbi-geostrateji, geoiqtisadi, nəqliyyat-tranzit və transmilli enerji ixracı əhəmiyyəti daşıyır.Ukrayna və Belarusla ittifaq Rusiyaya Şərqi Avropa və Baltikyanı dövlətlərinə, Qara Dəniz hövzəsinə, Balkanlara, Yaxın Şərq və ümumilikdə Avrasiyaya çıxış deməkdir. Xüsusi qeyd olunmalıdır ki, Ukrayna Rusiya üçün ilk növbədə strateji enerji mənbələrini Avropaya ixrac edən tranziti ölkədir. Rusiyanın Qərbi Avro-

[240] Bax: Дугин А.Основы геополитики. Геополитическое будущее России. Москва, 2000. 804.с.

paya enerji ixrac edən bütün marşrutları məhz Ukrayna ərazisindən keçir.

Mütəxəssislərin fikrinə görə, hazırda Ukrayna ətrafında cərəyan edən silahlı Qərb-Rusiya qarşıdurması və bu fonda regionda yaranmış geosiyasi, hərbi-geostrateji qarşıdurma nə Rusiyanın, nə Qərbin, nə də ki, Ukraynanın özünün milli maraqlarına cavab vermir. ABŞ və Avropanın xarici siyasət strategiyası Ukraynanın birmənalı olaraq qərbpərəst siyasət yürütməsini, Kiyevin GUAM vasitəsilə öz ətrafında Avropa Qonşuluq Siyasətinə qoşulmuş əksər keçmiş SSRİ respublikalarını səfərbər etməsini, Sevastopol, Krım, Qara dəniz və s. strateji məkanların ABŞ-ın təsiri altına düşməsini, Ukraynanın Rusiya ilə yalnız beynəlxalq hüquqa və ikitərəfli əlaqələrə əsaslanan rəsmi münasibətlərə malik olmasını tələb edir.

Rusiyanın Ukrayna ilə bağlı yürütdüyü siyasətsə, Qərbin yürütdüyünün tam əksinə olaraq, ABŞ, NATO, Avropa İttifaqı və digər "yad maraq daşıyıcılarını" Qara dəniz hövzəsi və Ukraynanın ətrafına buraxmamaq, rəsmi Kiyevi tamamilə və bütövlükdə Moskvanın orbitində saxlamaq məqsədi daşıyır. Rusiya neçə illər idi ki, öz siyasətini Ukraynanı iqtisadi cəhətdən təsir altında saxlamaq və onun enerji asılılığından istifadə etmək yolu ilə reaallaşdırırdısa, hazırda bunun üçün başqa vasitələrdən də- etnik separatizmi dəstəkləmək, hakimiyyət böhranını dərinləşdirmək, silahlı müdaxilə və s. istifadə edir.

Ukraynanın Azərbaycan, Gürcüstan və Ermənistanla hərbi-geostrateji münasibətlərinin xarakteristikası

Ukraynanın Cənubi Qafqaz dövlətləri ilə münasibətləri təhlil edərkən əminliklə demək olar ki, bu ölkə üçün BMT nizamnaməsinə uyğun olaraq "ölkələrin beynəlxalq hüquq tə-

rəfindən tanınmış ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığının dəstəklənməsi" həmişə prinsipal məhiyyət kəsb etmiş fərqli hakimiyyətlərin seçimindən asılı olmayaraq prioritet olaraq qorunmuşdur. Regional əməkdaşlıq üçün münaqişələrin tənzimlənməsində birgə iştirakın prioritetliyinə əsaslanaraq, rəsmi Kiyev dəfələrlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində Bakının mövqeyini rəsmi şəkildə dəstəkləmişdir. Ukrayna Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi istiqamətində daim fəal mövqe nümayiş etdirmiş və onun bu məsələdə tutduğu mövqe rəsmi Bakının mövqeyi ilə tam üst-üstə düşmüşdür.

Ukraynanın regional geosiyasətində Azərbaycan həmişə mühüm yer tutmuş, onlar arasında enerji təminatı, nəqliyyat-kommunikasiya, tranzit-keçid, hərbi-strateji və s. sahələrdə tərəfdaşlıq münasibətləri mövcud olmuşdur. Mütəxəssislərin fikrincə, Ukraynanın həm keçmiş illərdə, həm də indiki dövrdə Cənubi Qafqazda maraqları ilk növbədə onun enerji və nəqliyyat təhlükəsizliyi sahəsindəki regional maraqlara cavab verən layihələrlə bağlıdır.

Mütəxəssislər hesab edir ki, məhz enerji təhlükəsizliyi maraqları Xəzər-Qara dəniz hövzəsində və Cənubi Qafqazda son illərdə GUAM üzvlərini və Belarusu Azərbaycanla birləşdirən əsas faktorlardan biri kimi çıxış edir. Məsələn, Ukrayna, Belarus və Moldova Azərbaycanın Xəzərdə isehsal etdiyi transmilli neftin Qara dənizdən keçməklə Avropaya ixracında, kəmərlərdən birinin Odessa-Brodı marşrutu üzrə çəkilməsinə nail olmaqda, eləcə də neft məhsullarının ilk əldən alınması alternativlərinin tapılmasında maraqlıdır. Buna görə bu ölkələrlə Azərbaycanın münasibətlərində əsas rolu enerji məsələsi oynayır. Azərbaycan GUAM üzvləri, xüsusən də Ukrayna üçün hazırda neft və neft məhsullarının, gələcəkdə isə həm də

təbii qazın əsas təchizatçısı qismində çıxış edə bilər. Nəzərə alsaq ki, Azərbaycan Xəzər regionunun ən böyük dövlətidir və enerji resurslarının böyük ehtiyatına malikdir, Ukrayna isə enerjidən daha çox asılı dövlətdir, bu tərəfdaşlıq təbiidir.

Ukraynanın Avrasiya regionundakı zəif geosiyasi mövqeyinin əsas səbəblərini də mütəxəssislər daha çox bu ölkənin enerji daşıyıcılarına olan ciddi ehtiyacı ilə izah edirlər. Ukraynanın Yerli İnkişaf İnstitutunun hesablamalarına görə, 10 il ərzində Rusiya ilə sərhəddə qazın qiyməti 3-4 dəfə artmışdır və 2020-ci ilə qədər qiymətlər 1000 kubmetrə görə 800 dollara çatacaqdır.[241] Odur ki, energetika sahəsində Azərbaycanla tərəfdaşlıq münasibətləri Kiyev üçün, sözün həqiqi mənasında strateji xarakter daşıyır. 2013-cü il iyunun 6-da Prezident V.Yanukoviç Ali Radaya göndərdiyi illik müraciətində bəyan etmişdi ki, Ukrayna Qazaxıstan və Azərbaycana neft və qaz sahəsində alternativ mənbələr kimi baxır. O, Azərbaycandan təbii qazın Ukraynaya çatdırılmasının alternativ marşrutu olan "Ağ axın" qaz kəməri xətti layihəsinə baxmağı təklif etmişdir.[242]

Ukrayna neçə illərdir ki, Rusiyadan öz enerji asılılığını aradan qaldırmaq və əlavə tranzit gəlirləri əldə etmək məqsədi ilə Bakı-Supsa neft kəmərinin Odessa-Brodı marşurutu üzrə davam etdirilməsinə çalışır. Bu və ya digər transmilli neft-qaz ixracı layihələrində iştirakla bağlı rəsmi Kiyev Azərbaycanın dəstəyinə xüsusi əhəmiyyət verir. Məlumdur ki, Odessa-Brodı-Qdansk neft ixracı layihəsinin baş tutması, ilk növbədə Azərbaycan və Qazaxıstandan asılıdır. Çünki bu kəmər yalnız Xəzər neftini dünya bazarına çıxaracağı təqdirdə strateji cə-

[241] Bax: сайт Института местного развития. http:www.pe.com.ua

[242]Bax: агентство Ukranews, «Янукович предложил вернуться к проекту газопровода «Белый поток», 6 июня 2013 года

hətdən əhəmiyyətli, iqtisadi cəhətdən rentabelli ola bilər. Məhz bu səbəbdən, rəsmi Kiyev Bakı və Astananın bu layihəyə müsbət münasibətini təmin etmək üçün bir sıra iqtisadi-diplomatik addımlar atmaqda davam edir. 2004-cü ildə Ukrayna Azərbaycan və Qazaxısan rəhbərliyinə müraciət edərək bu ölkələri Xəzər neftinin Avropa bazarlarına həm də bu marşrutla (Bakı-Supsa kəmərinin davamı kimi) nəqlinə dəstək verməyə çağırıb. Lakin Azərbaycan həmin dövrdə üstünlüyü Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəmərinə verdiyindən, Odessa-Brodı-Qdansk layihəsinin taleyi hələ ki, müəyyən qədər sual altında qalmışdır.

Rəsmi Kiyev həm də 2010-cu ilin sentyabrında Azərbaycan, Gürcüstan və Rumıniyanın prezidentləri, Macarıstanın Baş naziri tərəfindən başladılan **AGRİ** enerji layihəsinə (Azerbaijan, Georgia, Romania İnterconnection) öz marağını gizlətmir. Bu layihə Azərbaycan qazının Kulevi terminalına (Gürcüstan) daxil olmasını nəzərə tutur. Qaz burada mayeləşdirilərək, tankerlərlə Konstantsada (Rumıniya) terminalına nəql edildikdən sonra yenidən qaz konsistensiyasına çevriləcəkdir. Ukraynanın həmin dövrdəki Energetika və Kömür Sənayesi naziri İqor Kryuşin bəyan etmişdir ki, "Ukrayna mayeləşdirilmiş qazın Gürcüstanın Kulevi limanına daşınması ilə bağlı AGRİ layihəsi çərçivəsində terminalın tikintisində Azərbaycanla hərtərəfli əməkdaşlığa hazırdır. 2015-ci ildə Ukrayna Azərbaycan tərəfindən 5 mlrd. kub metr həcmində qaz almaq niyyətini də gizlətmir". Baş nazirin müavini Yuri Boyko isə bəyan etmişdir ki, onun ölkəsi "AGRİ" çərçivəsində Odessada terminal tikiləndə ildə 10 mlrd. kubmetr Azərbaycandan mayeləşdirilmiş təbii qaz almağa hazırdır".[243]

[243]Bax: "ANS" Televiziyası 16 aprel 2011-ci il

Bundan başqa, Azərbaycan və Gürcüstan Ukrayna üçün Mərkəzi Asiya və Cənubi Qafqazı Avropa ilə birləşdirən alternativ nəqliyyat-kommunikasiyası körpüsü sayılır. Mütəxəssislərin fikrinə görə, "bütün dörd dövlət – GUAM üzvləri Rusiyaya alternativ olan, Avropadan Asiyaya qədər uzanan "İpək yolu" layihəsinin (TRACECA) reallaşmaşına ciddi ehtiyac duyur və bu işdə əhəmiyyətli rol oynayırlar".[244]

Ukrayna ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin mühüm sektorlarından biri olan **hərbi-geostrateji tərəfdaşlığa** gəldikdə isə, Ukrayna bu sahədə çoxdan özünü etibarlı tərəfdaş kimi tanıtmış və Azərbaycanın hərbi-sənaye kompleksi üçün əsas təchizatçılardan birinə çevrilmişdir. Artıq 20 ildir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi fonunda Azərbaycan fəal şəkildə özünün hərbi-sənaye kompleksini qurur. Son illərdə Azərbaycanın hərbi büdcəsi demək olar ki, 10 dəfə artmışdır: əgər 2003-cü ildə hərbi büdcə cəmi 163 mln. dollar təşkil edirdisə, 2013-cü ildə bu rəqəm 3.8 mlrd. ABŞ dollarına çatmışdır. Rəsmi Bakı özünün silahlı qüvvələrinin texnika, artilleriya və digər avadanlıqlarla tam təmin olunması kursunu yürüdərək, ölkənin hərbi-sənaye kompleksini inkişaf etdirir. Əlbəttə, Ukrayna hərbi-sənaye kompleksinin tikintisi sahəsində böyük təcrübəyə malik olmaqla Azərbaycan üçün çox mühüm tərəfdaşdır. Xatırlamaq lazımdır ki, hətta regionda aparıcı hərbi dövlət – Rusiya Federasiyası Ukraynanın hərbi-sənaye kompleksinin potensialından istifadə edir. Belə ki, Rusiya Federasiyasının "nüvə sipəri" olan ballistik raketlər Ukraynada istehsal olunur və onlara Ukraynalı mütəxəssislər xidmət göstərir. Ukraynada Rusiya

[244]Svante E.Cornell/ Geopolitics and strategic alignments in the Caucasus and Central Asia // Journal of International Affairs, June – August 1999

vertolyotları və nəqliyyat təyyarələri, hətta hərbi gəmilər üçün mühərriklər və qaz-turbin mühərrikləri buraxılır. Məsələn, Rusiya vertolyotlarının mühərriklərinin 70 faizə qədəri məhz Ukraynada buraxılır".[245]

Azərbaycan hərbi-sənaye kompleksinin tikintisi sahəsində Ukraynanın malik olduğu təcrübəni nəzərə alaraq, sözsüz ki, silah-sursat istehsalını təşkil etmək üçün Ukraynalı mütəxəssisləri cəlb etməkdə maraqlıdır. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Ukrayna bizim üçün etibarlı tərəfdaşdır, Azərbaycanın güvənə bildiyi dost ölkədir".[246]

Ukrayna dünyada və bölgədə **Gürcüstanın** da ərazi bütövlüyünün bərpa olunmasına ən çox çalışan dövlətlərdən biri idi. Hələ 1993-cü ildə Gürcüstanla imzaladığı "Dostluq, əməkdaşlıq və qarşılıqlı kömək haqqında" hərbi-geostrateji müqaviləyə əsaslanaraq, rəsmi Kiyev dəfələrlə "BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri olarsa, gürcü-abxaz münaqişəsi zonasındakı sülhyaratma əməliyyatlarında iştirak etməyə hazır olduğunu" bəyan etmişdi. Bu ideyanı 2003-cü ilin aprelində Gürcüstan Prezidenti E.Şevarnadzenin Kiyevə səfəri zamanı həmin dövrdə Ukraynanın dövlət başçısı olan Leonid Kuçma "Abxaziya münaqişəsinin tənzimlənməsində BMT-nin və BMT Təhlükəsizlik Şurasının qərarları ilə üst-üstə düşən istənilən çərçivədə iştirak etməyə hazır olduğunu" bildirərkən irəli sürmüşdür.[247]

Sonrakı illərdə də Ukraynanın regional münaqişələrə münasibətdə nümayiş etdirdiyi mövqe dəyişməmiş, əskinə, daha

[245]Bax: радио Би-Би-Си, «Обойдется ли Россия без ракет и двигателей с Украины?», 4 апреля 2014 года
[246]Bax: Azərtac, 18 noyabr 2013-cü il
[247]Bax: Агентство Политических Новостей, «Украинский кризис в кавказском зеркале», 22 сентября 2008 года

prinsipial xarakter almışdı. "Ukraynanın milli təhlükəsizliyinin əsasları haqqında" 2003-cü ilin iyun ayında qəbul olunmuş qanunda göstərilirdi ki, postsovet məkanındakı potensial gərginlik ocaqları, regional səviyyədə hərbi münaqişələr Ukraynanın hərbi və milli təhlükəsizliyi üçün ciddi təhdid hesab olunur.

2003-2005-ci illər çevrilişindən sonra da Ukraynanın yeni hakimiyyəti Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz ölkələrinə əvvəlki münasibətini dəyişmədi. Prezident Viktor Yuşenkonun imzaladığı 12 fevral 2007-ci il tarixli "Ukraynanın milli təhlükəsizlik strategiyası haqqında" Fərmanda qeyd olunur ki, münaqişələrin tənzimlənməsində fəal iştirak Baltik-Qara-Xəzər dənizi regionunda regional əməkdaşlığın prioritetlərindən biridir. Sənəddə Ukraynanın sərhədləri yaxınlığında "dondurulmuş" münaqişələrin eskalasiyası və yeni regional münaqişələrin meydana gəlməsi ölkənin təhlükəsizliyinə real təhdid kimi qiymətləndirilir.[248]

2008-ci ilin avqustunda baş vermiş Rusiya-Gürcüstan hərbi qarşıdurması zamanı Ukrayna bölgədə fəal geosiyasi oyunçu mövqeyi nümayiş etdirərək, regional münaqişələrin tənzimlənməsində iştirak etmək niyyətində olduğunu nümayiş etdirərək, rəsmi Tbilisini dəstəklədiyini açıq bəyan etdi və fəal surətdə Rusiya ilə Gürcüstan arasındakı qarşıdurmanın gedişinə təsir göstərməyə cəhd göstərdi. 2008-ci il avqustun 10-da – Rusiyanın "Gürcüstanı sülhə məcbur etmək" əməliyyatının başlanmasından iki gün sonra Ukraynanın Xarici İşlər Nazirliyi Qara dəniz donanmasını Gürcüstana qarşı yönəlmiş əməliyyatlardan çəkinməyə çağıran rəsmi bəyanat yaydı. Bunun ardınca Kiyev Krım yarımadasının ərazisində Rusiyanın Qara dəniz donan-

[248]Bax: Материалы Совета национальной безопасности и обороны Украины, 12 февраля 2007 года

masının yerləşməsinə yenidən baxıla biləcəyi ilə Moskvanı hədələdi. Həmin ilin avqustun 13-də isə Prezident Yuşenko Qara dəniz donanmasının yer dəyişməsinin hakimiyyət strukturları ilə razılaşdırılması Qaydalarını təsdiq etdi.[249]

Ukraynanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik arxitekturasına ciddi təsir göstərmək istiqamətində nümayiş etdirdiyi fəal mövqe onun Rusiya ilə sonrakı münasibətlərini bir qədər də kəskinləşdirdi. RF-nın Xarici İşlər Nazirliyi Kiyev hakimiyyətinin yeni təşəbbüslərinə etiraz olaraq bəyan etdi ki, "bu birtərəfli addım Qara dəniz donanması probleminə dair danışıqlar prosesinə, geniş planda isə - ikitərəfli münasibətlərin bütün kompleksinə növbəti zərbə ola bilər".[250]

Ukrayna ilə Gürcüstan arasındakı ikitərəfli münasibətlərə toxunarkən, qeyd etmək vacibdir ki, 2010-cu ilin yanvarında Kiyevdəki növbəti hakimiyyət dəyişikliyindən sonra bu münasibətlər bir qədər soyudu. Lakin Gürcüstan ərazisindəki münaqişələr məsələsində Kiyevin mövqeyi əvvəlki kimi yenə də dəyişmədi. Bunun bariz nümunəsi 2010-cu il iyunun 4-də Prezident Yanukoviçin Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımağa hazırlaşmadığını bildirən bəyanatı hesab oluna bilər.[251] Yanukoviç öz bəyənatında qeyd edirdi ki, "beynəlxalq normalar var, beynəlxalq qanunlar və normalara görə bu və ya digər dövlətin ərazi bütövlüyünün pozulması qadağan olunmuşdur. Biz dünyada bu və ya digər dövlətin ərazi bütövlüyünün pozulması proseslərini alqışlaya bilmərik".[252]

[249]Bax: gəzeta «Известия», «Ющенко подписал указы о деятельности ЧФ России», 13 августа 2008 года
[250]Bax: Агентство РИА Новости, 14 августа 2008 года
[251]Bax: сайт Lenta.ru, «Янукович отказался признавать независимость Абхазии и Южной Осетии», 4 июня 2010 года
[252]Yenə orada

2011-ci ilin iyul ayında Ukrayna Xarici İşlər Nazirliyinin İnformasiya siyasəti departamentinin direktoru Oleq Voloşin Kiyevin postsovet məkanında yaşanan etnik-separatçı münaqişələrə, o cümlədən Gürcüstanın ərazi bütövlüyünə dair mövqeyini növbəti dəfə təsdiq etdi: "Ukrayna Gürcüstanın ərazi bütövlüyünün tərəfdarı olaraq qalır. Ukrayna Kosovonun müstəqilliyində olduğu kimi, Abxaziya və Cənubi Osetiyanın öz müstəqilliklərini bəyan etmələrini tanımır. Biz Gürcüstana postsovet məkanında mühüm tərəfdaş və dost ölkə kimi baxırıq".[253]

Ukraynanın regional siyasətinin, onun Cənubi Qafqaz ölkələri ilə hərbi-geostrateji münasibətlərinin təhlili göstərir ki, Kiyevin Gürcüstan və Azərbaycanla müqayisədə **Ermənistanla** mövcud münasibətləri çox zəifdir. Açıq şəkildə görünür ki, Ukraynanın xarici siyasətinin Cənubi Qafqaz vektoru region dövlətlərinə münasibətdə prioritetlərin dəqiq bölgüsü ilə xarakterizə olunur və Ermənistan üç Cənubi Qafqaz respublikaları sırasında ən axırıncı yerdə dayanır. Buna uyğun olaraq, öz əhəmiyyətinə görə Ukraynanın regionda əsas prioriteti Azərbaycan, ikinci isə Gürcüstandır. Yuxarıda deyilənlərin praktiki təsdiqi kimi Ukraynanın Cənubi Qafqaz ölkələrinin hər biri ilə əmtəə mübadiləsinin həcmini, siyasi dialoqun intensivliyini, nəhayət, hərbi-texniki əməkdaşlığın miqyasını müqayisə etmək kifayətdir.[254]

Mütəxəssislərin hesablamalarına görə, Ukraynanın Ermənistanla və regionun digər iki ölkəsi ilə əməkdaşlığı arasındakı

[253]Bax: агентство УНИАН, «Украина не будет признавать независимость Абхазии и Южной Осетии», 12 июля 2011 года

[254] Украинское информационно-аналитическое издание "Odnarodyna", «Украинско-армянские «Украинско-армянские отношения: реалии и перспективы», 24 октября 2012 года

böyük fərqlər əhəmiyyətli dərəcədə onunla şərtlənir ki, Ermənistanın əhalisi və dövlət büdcəsinin həcmi Azərbaycan və Gürcüstanla müqayisədə çox cüzidir. Bunun nəticəsi olaraq, Ukraynada Ermənistanla hansısa sahədə qarşılıqlı münasibətləri gələcəkdə gücləndirməyə və əhəmiyyətli nəticə əldə etməyə ciddi şübhə yaranır". [255]

Kiyev Avroatlantik Əməkdaşlıq İnstitutunun analitikləri də təsdiq edir ki, "Postsovet ölkələrindən Ukrayna ilə ən zəif diplomatik münasibətlərdə olan ölkə Ermənistandır".[256]

Ermənistanın Cənubi Qafqazda yürütdüyü təcavüzkar siyasət və Azərbaycanın ərazilərini işğal etməsi, regionda Gürcüstan və Türkiyəyə qarşı da açıq ərazi iddiası irəli sürməsi və s. Ukrayna ilə də bu ölkənin ünsiyyətini çətinləşdirir. Mütəxəssislərin fikrinə görə, nə qədər ki, Ukrayna Azərbaycanın strateji tərəfdaşıdır, Kiyevlə Yerevan arasındakı münasibətlər o qədər səthi olacaqdır. Təsadüfi deyil ki, 2011-ci il iyulun 1-də Ermənistan Prezidenti Serj Sarkisyanın Kiyevə səfəri 2001-ci ildən başlayaraq Ermənistan prezidentlərinin Ukraynaya ilk rəsmi səfəri idi.

Ukrayna ilə Ermənistan arasındakı münasibətlərin sönüklüyü yuxarıda göstərdiyimiz səbəblərlə yanaşı, həm də Ermənistan hərbi-geostrateji, geosiyasi, iqtisadi və s. sahələrdə Rusiyadan tam asılılığı, müstəqil xarici siyasət həyata keçirmək imkanlarının olmaması, nəzəri olaraq Moskvada narazılıq yarada biləcək hər hansı addım atmaq imkanlarının məhdudluğu və s. ilə də bağlıdır. Çünki, Ukraynanın Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsi ölkələri ilə qarşılıqlı münasibətlə-

[255] Yenə orada

[256] Bax: изд. «Обозреватель», «С Арменией у Украины слабые дипломатические отношения», 14 мая 2012 года

rinə, eyni zamanda kəskin mürəkkəbliyi ilə seçilən Ukrayna-Rusiya münasibətlərinin tərkib hissəsi kimi baxmaq olar.[257]

Cənubi Qafqaz ölkələri Ukrayna ilə əməkdaşlıq və tərəfdaşlıq yaradarkən bir reallığı da nəzərə almalıdır ki, Kiyevin hazırkı Avrointeqrasiya xətti onun Moskva ilə münasibətlərini köklü şəkildə pisləşdirmiş və onlar arasında faktiki müharibə vəziyyəti yaratmışdır. Belə situasiyada Moskvanın forpostu adlandırılan Ermənistanın manevr imkanları Cənubi Qafqazın digər ölkələri ilə müqayisə oluna bilməz. Həqiqi müstəqilliyinin və müstəqil xarici siyasət kursunun yoxluğu əvvəlcədən Ermənistanı məğlub vəziyyətdə qoyur və bunun bariz ifadəsi BMT Baş Assamleyasında Krımın Rusiya Federasiyasına birləşdirilməsi ilə bağlı "keçirilən referenduma" münasibət zamanı ortaya çıxdı. Ermənistanın Rusiyanın xeyirinə BMT-nin "ölkələrin ərazi bütövlüyünün zorla dəyişdirilməsini qadağan edən" əsas prinsiplərindən birinin əleyhinə səs verməsi Ukrayna-Ermənistan münasibətlərində axırıncı böhran oldu. Səsvermədən dərhal sonra Ukraynanın Ermənistandakı səfiri bu ölkəni tərk etdi, Ukraynanın Xarici İşlər Nazirliyi isə bəyan etdi ki, Ermənistanın bu məsələdə nümayiş etdirdiyi mövqe "Ukrayna-Ermənistan münasibətləri üçün mənfi nəticələr yaradacaqdır".[258]

Göründüyü kimi, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz Ukrayna üçün elə bir məkandır ki, burada onun hərbi-geostrateji və təhlükəsizlik maraqları Qərb, müxtəlif xarici qüvvələr, regional mərkəzlər və yerli ölkələrin maraqları ilə üst-üstə düşür, kəsişir və toqquşur. Beynəlxalq və regional

[257]Bax: журнал «Кавказ и глобализация», «Взаимоотношения Украины с государствами Кавказа в контексте ее политики в Черноморско-Каспийском регионе», № 4, 2009 год

[258] Bax: газета «Украинская правда», 21 марта 2014 года

təhlükəsizlik mərkəzlərinin, bu məkanda geosiyasi maraqları kəsişən və üst-üstə düşən region və dünya dövlərlərinin hər biri özünün milli və qrup maraqları çərçivəsində müvafiq beynəlxalq, regional və milli təhlükəsizik siyasəti həyata keçirir.

Ukraynadakı mövcud daxili-siyasi böhran hazırda milli və regional səviyyədən dünya miqyasına qalxaraq, həm birbaşa Ukrayna dövlətinin taleyində, onun milli, regional və qlobal təhlükəsizlik maraqlarında öz əksini tapır, həm də dolayısı ilə təhlükəsizlik sahəsində qlobal təhlükəsizlik arxitekturasının vəziyyətinə mənfi təsir göstərir. Mütəxəssislərin fikrinə görə, yalnız bu böhranın son nəticələri göstərəcək ki, Ukrayna "kifayət qədər əhaliyə, sənaye və xammal resurslarına malik olan, orta miqyaslı müstəqil Avropa dövləti statusuna iddia edə biləcəkmi?".

§ 5.8. Gürcüstanın Cənubi Qafqaz və Qara dəniz hövzəsinin təhlükəsizlik arxitekturasına yanaşması və hərbi-geostrateji mövqeyi

Cənubi Qafqazın və Xəzər-Qara dəniz hövzəsinin təhlükəsizlik arxitekturasının müəyyən olunmasına və hərbi-geostrateji vəziyyətinə Azərbaycanla yanaşı ciddi təsir göstərən ikinci əsas ölkə Gürcüstandır. Tədqiqatçıların fikrincə, Cənubi Qafqazın yerli dövlətləri içərisində təhlükəsizlik maraqları strateji cəhətdən bir-biri ilə ən sıx bağlı olan ölkələr, ilk növbədə Azərbaycanla Gürcüstan, o cümlədən onların regional müttəfiqi hesab olunan Türkiyədir. Bu ölkələrin ərazisi Xəzər-Qara dəniz hövzəsi arasındakı geosiyasi cəhətdən çox əhəmiyyətli hesab olunan kontinental (quru) dəhlizin və ümumiyyətlə Şərq-Qərb quru, dəniz və hava nəqliyyatı, kommunikasiya əlaqələrinin, əlverişli

ticarət yollarının birləşdirici həlqəsini təşkil edir. Üç ölkənin strateji tərəfdaşlığı və müttəfiqliyi, bir tərəfdən hər birinin strateji inkişafında, milli və təhlükəsizlik maraqlarının təmin olunmasında, digər tərəfdənsə alternativ Şərq-Qərb geoiqtisadi əlaqələrinin mövcudluğunda mühüm rol oynayır.

Azərbaycanla bərabər Gürcüstan da kecən əsrin 90-cı illərindən başlayaraq Qərb ölkələri ilə birlikdə Xəzər hövzəsinin enerji resurslarının istismarının və Gürcüstandan keçməklə alternativ transmilli layihələr vasitəsilə Avropa bazarlarına ixracının əsas təşəbbüskarları və tərəfdaşları sırasında çıxış edir. Bu ölkənin transmilli tranzit maraqlarının təmin olunması və geoiqtisadi təhlükəsizliyinin təmin edilməsində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin, o cümlədən, Bakı-Tbilisi-Qars dəmir yolunun xüsusi rolu olmuşdur.

Tədqiqatçılar hesab edir ki, ümumiyyətlə, Gürcüstanın Cənubi Qafqazda siyasi, iqtisadi və hərbi cəhətdən Qərb ölkələri tərəfindən dəstəklənməsinin əsasında da ilk növbədə, onun Azərbaycanın təşəbbüsü ilə Xəzər hövzəsində reallaşdırılan enerji resurslarının ixracı marşurutlarının və Şərq-Qərb alternativ nəqliyyat-kommunikasiya dəhlizlərinin üzərində yerləşməsidir. Onların fikrinə görə, Gürcüstan və Azərbaycan Şərq və Qərbi birləşdirən kontinental dəhlizin əsasında dayanır. Bu ölkələrin əraziləri Qara və Aralıq dənizi hövzəsini, Qərbin inkişaf etmiş ölkələrini Xəzər bölgəsinin, Avrasiyanın zəngin enerji resursları ilə bağlayır və Şərq-Qərb əlaqələrini öz təsirində saxlamaq istəyən Rusiyaya alternativlik yaradır.[259]

[259] Ariel Cohen.Ethnic Conflicts Threaten US Interests in the Caucasus// Herritage Foundation Backgrounder, №1222, September 25, 1998, s.56.

Cənubi Qafqazın regional təhlükəsizlik sisteminin mövcud konfiqurasiyası çərçivəsindən yanaşıldıqda Azərbaycan və Gürcüstanın milli təhlükəsilik maraqları bir-biri ilə tam üstüstə düşür və bir-birini tamamlayır. Bəzi mütəxəssislər təhlükəsizlik sistemindəki təxminən oxşar xarakteristikasına görə Türkiyə də daxil olmaqla Gürcüstanla Azərbaycanın strateji birliyinə alternativ kimi regionda "Rusiya-Ermənistan-İran üçlüyünü" təqdim edirlər.[260]

Gürcüstan müstəqilliyinin ilk günündən Qərb ölkələrinin təmsil olunduğu təhlükəsizlik strukturlarına istiqamət götürərək Cənubi Qafqazın regional təhlükəsizliyinin təmin olunmasında nə bölgənin ən iri ölkəsi olan Rusiyanın, onun rəhbərliyi ilə yaranan KTMT-nin, nə də ki, İranın deyil, birmənalı olaraq «regiondan kənar qüvvələr»in - ATƏT, Avropa İttifaqı və NATO-nun imkanlarından istifadə edilməsinə üstünlük verir. Onun rəsmi yanaşmasna görə, Cənubi Qafqazda Gürcüstanın əsas hərbi-strateji tərəfdaşı NATO hərbi bloku və blokun üzvü olan Türkiyədir.

Şimali Atlantika hərbi bloku da öz növbəsində bölgədə Gürcüstana strateji tərəfdaş kimi yanaşır və onun vasitəsilə həm Qara dəniz hövzəsi və Cənubi Qafqazda genişlənməyə və möhkəmlənməyə, həm də Rusiyaya, İrana qarşı alternativ hərbi istinad mərkəzi yaratmağa çalışır. Bu istiqamətdə, mütəxəssislərin fikrinə görə, Gürcüstanla Azərbaycanın regional təhlükəsizliyə yanaşması və mövqeləri qismən fərqlənir. Məlumdur ki, Azərbaycan NATO ilə Cənubi Qafqazda sülh naminə əməkdaşlıq və tərəfdaşlıq etsə də, Gürcüstan kimi ona üzv olmaq haqqında bəyanatlar səsləndirmir, eyni zamanda Rusiya, Uk-

[260] C. Eyvazov. Göstərilən əsəri, s.186.

rayna, Türkiyə, İran, İsrail və b. ölkələrlə də hərbi əməkdaşlıq sahəsindəki münasibətlərini də qoruyub saxlamağa üstünlük verir. Cənubi Qafqazın regional təhlükəsizlik konfiqurasiyasında Gürcüstanın NATO üçün strateji əhəmiyyəti daha çox onun Rusiyanın bölgənin hərbi təhlükəsizliyinə təsirini zəiflətmək, Rusiya ilə Ermənistan arasındakı quru sərhədləri bağlamaq anlamında əhəmiyyətlidirsə, Azərbaycanın əhəmiyyəti ilk növbədə Rusiyanın İranla quru əlaqələrinin kəsilməsi və NATO üçün praktiki olaraq Xəzərə çıxış imkanı yaratması ilə ölçülür.

Gürcüstanın müstəqil ölkə olaraq Cənubi Qafqazda inkişafı və qüdrətlənməsi, bölgədə daha müstəqil, sərbəst siyasət yürütməsi, hərbi-strateji cəhətdən getdikcə güclənməsi Azərbaycanın, sonuncunun eyni uğuru isə müvafiq olaraq Gürcüstanın təhlükəsizlik maraqlarına cavab verir. Gürcüstan hərbi-strateji cəhətdən Azərbaycan üçün də Rusiya ilə Ermənistan arasındakı birbaşa quru əlaqələrinin pozdulması anlamında ciddi əhəmiyyət daşıyır. Bu və digər xüsusiyyətləri nəzərə alaraq, iki ölkə arasındakı birgə hərbi və təhlükəsizlik maraqlarını şərh edən ABŞ alimi S. Kornel yazır ki, Gürcüstanın hazırkı hərbi təhlükəsizliyinin təminatı daha çox Azərbaycanın, Türkiyənin və NATO-nun Cənubi Qafqazdakı güclü geostrateji mövqeyə malik olmasından və regionda Rusiya-Ermənistan blokunun hərbi gücünə balans yaratmasından asılıdır. Onun fikrinə görə, birincilərin hərbi-geostrateji cəhətdən güclənməsi Gürcüstanın xeyrinə, ikincilərin güclənməsi isə ziyanınadır.[261]

2005-ci ilin iyulunda Gürcüstan özünün növbəti Milli Təhlükəsizlik Konsepsiyasını qəbul etmişdir. Ölkənin milli

[261]Svante E.Cornell, Conflict Theory and the Nagorno Karabakh Conflict: Guidelines for Political Solution//Stockholm, Triton publishers, 1997, p. 394

maraqları, xarici siyasətin prioritetləri və digər dəyərləri əks olunan bu sənəddə Gürcüstanın xarici siyasi tərəfdaşlarının təsnifatı aşağıdakı kimi verilmişdir:

- Strateji tərəfdaş – ABŞ, Ukrayna, Türkiyə və Azərbaycan
- Tərəfdaş – Rusiya
- Praqmatik əməkdaşlıq – Ermənistan

Konsepsiyadan da göründüyü kimi, Azərbaycan Gürcüstanın dünyadakı dörd əsas strateji tərəfdaşından biri hesab olunur. Bütün yuxarıda qeyd olunun şərtlər, o cümlədən ortaq təhlükəsizlik məqsədləri və maraqları Bakı ilə Tbilisinin geostrateji tərəfdaşlığını şərtləndirən və iki ölkəni bir-birinə bağlayan amillərdir.

Son beş ildə Gürcüstan davamlı olaraq ABŞ meylli hərbi-geostrateji kurs nümayiş etdirir və NATO-ya üzv olmaq üçün məqsədyönlü milli strategiya reallaşdırır. Bu dövlət Cənubi Qafqazın regional təhlükəsizliyi ilə bağlı hazırda nə Rusiyanın, nə İranın, nə də qeyri NATO üzvü olan hər hansı digər ölkənin təkliflərini aktual sayır və müzakirəsinə qoşulur. Müşahidələr göstərir ki, Gürcüstanın qərbyönümlü siyasi kurs yürütməsi heç də bu ölkədəki son siyasi dəyişiklik və ABŞ-ın dəstəklədiyi Mixail Saakaşvilinin hakimiyyətə gəlməsi ilə bağlı deyildir. Əslində, Gürcüstanın təhlükəsizlik sahəsində NATO-ya birmənalı inteqrasiya xətti götürməsi keçmiş Prezident Eduard Şevardnadzenin vaxtından - 1997-ci ildən başlamışdır. Həmin ildə ölkə parlamenti Gürcüstanın milli suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün bərpası, daxil sabitliyin qorunması və möhkəmlənməsini nəzərdə tutan Milli İnkişaf və Təhlükəsizlik Konsepsiyasını qəbul edərək özünün Avropa yönlü inkişaf prioritetlərini və təhlükəsizlik siyasətini

müəyyənləşdirmişdir. Konsepsiyanın müəllifləri Avropa İttifaqı və NATO-nun dünyadakı, o cümlədən Cənubi Qafqazdakı mövqelərini, təsiri və rolunu nəzərə alaraq Gürcüstanın gələcəkdə hər iki quruma üzv olmasını bu ölkənin milli maraqları baxımından təqdirəlayiq hesab etmişlər.

2005-ci ildən başlayaraq Gürcüstanın təhlükəsizlik sahəsində Qərblə, xüsusilə də ABŞ və NATO ilə əməkdaşlığı daha da genişlənmişdir. NATO-nun assosiativ üzvlüyünə qəbul ediləndən sonra bu ölkə Şimali Atlantika bloku ilə fərqli proqramlar çərçivəsində geniş hərbi əməkdaşlığa başlamış, onun çərçivəsində çoxsaylı tədbirlərə qatılmış, o cümlədən öz ərazisində Rusiyanın narazılığı ilə qarşılaşan genişmiqyaslı hərbi-dəniz təlimləri keçirmişdir. Bütün bunlar, o cümlədən də Gürcüstanın Rusiyanı regionun təhlükəsizlik proseslərindən kənarda qoymağa yönəlmiş birmənalı siyasəti, müvafiq olaraq iki ölkə arasında münasibətləri getdikcə gərginləşdirmişdir. Bölgədəki əsas güc mərkəzlərindən sayılan Rusiya ilə gərgin münasibətlər bir tərəfdən bu ölkədə məskunlaşmış yüz minlərlə gürcünün vəziyyətini ağırlaşdırmış, Cənubi Osetiya və Abxaziyadakı münaqişələrin uzanmasına, Cavaxetiya kimi bölgələrdə antigürcü meyillərinin qızışdırılmasına səbəb olmuş, həm də müvafiq olaraq regionl təhlükəsizlik üçün müəyyən problemlər yaratmışdır.

Bu gün Moskva ilə Tbilisi arasındakı əsas problem, tərəflər arasında bir-birinə inamın olmamasıdır. Moskvada əmindirlər ki, yaxın vaxtlarda Gürcüstan öz ərazisini ABŞ-ın hərbi bazası üçün açıq elan edəcək ki, bu Rusiya üçün Qafqazdakı mövqelərin tamamilə əldən verilməsi hesab olunacaqdir. Belə olacağı təqdirdə, mütəxəssislərin fikrinə görə Rusiyada məskunlaşmış yüz minlərlə gürcünün mümkün deportasiyası,

Cənubi Osetiya və Abxaziyadakı dondurulmuş, Cavaxetiyada isə potensial münaqişələrin qabardılması taktikası Moskvanın gündəminə gələ və regiona başqa dövlətlərin hərbçilərinin gətirilməsinə mane olmağın mümkün vasitəsi kimi baxıla bilər. Bununla paralel olaraq, rəsmi Moskva qabaqlayıcı tədbir kimi Gürcüstana öz iqtisadi təzyiqlərini artıraraq bu ölkədən Rusiyaya tərəvəz, mandarin, mineral su və çaxır ixracını qadağan edib. Diqqət yetirsəniz, qadağan olunan məhsullar Gürcüstanın xaricə ixracatının əsasını təşkil edir.

Gürcüstanın Rusiya ilə siyasi və hərbi qarşıdurması Azərbaycanı da məsələyə olduqca həssas yanaşmağa sövq edir. Rəsmi Bakı öz strateji tərəfdaşı hesab olunan Gürcüstanla, eyni statuslu strateji tərəfdaşlıq münasibəti yaratmaqda olduğu Rusiya arasındakı gərginlikdə maksimum bitərəf mövqe tutmaq və hər iki dövlətlə münasibətləri daha da inkişaf etdirmək kursunu davam etdirir. Ölkənin geostrateji maraqları baxımından, bu, yeganə düzgün variant hesab oluna bilər.

Təxminən eyni münasibəti Gürcüstanın işğalçı Ermənistanla regional təhlükəsizlik münasibətlərinə də şamil etmək olar. Azərbaycan bu məsələdə də Gürcüstanın suveren seçiminə hörmətlə yanaşır. Gürcüstansa öz növbəsində Cənubi Qafqazın regional təhlükəsizliyi sahəsində Ernənistanla da əməkdaşlıq edir. Düzdür, bu əməkdaşlıq daha praqmatikdir və ikincinin Rusiya ilə eyni hərbi blokda olması və bu sahədəki müstəqilliyinin həddən artıq məhdudluğu səbəbindən bir qədər formal xaraker daşıyır. Lakin hər iki dövlətin rəsmiləri zaman-zaman bir-biri ilə mövcud sahədə kifayyət qədər yaxşı əlaqələrin olması haqqında bəyanatlar səsləndirirlər.

§ 5.9. Təhlükəsizlik sahəsində Azərbaycan-Gürcüstan və Türkiyə arasındakı regional tərəfdaşlığın əsas şərtləri və tələbləri

Gürcüstan Cənubi Qafqazın regional təhlükəsizliyi sahəsində və qarşılıqlı milli təhlükəsizliklərinin təminatı məsələsində Azərbaycanın və Türkiyənin ən yaxın strateji tərəfdaşı hesab olunur. Bu ölkə ilə Azərbaycan arasındakı əsrlər boyu mövcud olan qonşuluq və dostluq əlaqələri müstəqillik əldə edildikdən sonra siyasi, iqtisadi, elmi, təhsil, mədəni və digər sahələrdə yüksələn xətlə inkişaf etmiş və tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. SSRİ dağılandan sonra hər iki ölkə təcavüzkar etnik separatizm və ərazi bütövlüyünün pozulması təhlükəsi, iqtisadi böhran, vətəndaş qarşıdurması, suveren dövlət hüquqlarına kənar müdaxilələr və s. kimi oxşar problemlərlə üzləşmişdir. Hər iki ölkədə baş verən oxşar proseslər, daxili və xarici vəziyyətin eyniliyi, geosiyasi maraqların üst-üstə düşməsi və digər faktorlar onlar arasındakı tərəfdaşlıq münasibətlərinin yaranmasına və inkişafına təkan vermişdir.

Gürcüstanın Azərbaycanla diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də yaradılsa da, regional təhlükəsizlik sahəsində iki ölkə arasındakı birgə fəaliyyət və ciddi geostrateji əməkdaşlıq 1993-cü ildən başlamış, sonrakı illərdə bir sıra obyektiv amillərlə şərtlənərək davamlı xarakter almışdır. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul vermişdir. 1993-cü ildən başlayaraq Gürcüstanın dövlət başçılarının Azərbaycana, Azərbaycan Prezidentininsə Gürcüstana bir neçə rəsmi səfəri dövlətlərarası münasibətlərin hüquqi-normativ bazasının yaradılması və inkişafında mühüm rol oynamışdır. Ölkələrarası

siyasi yaxınlaşma, birgə təhlükəsizlik maraqları və regional iqtisadi inteqrasiya fonunda yaranmış qarşılıqlı münasibətlər getdikcə inkişaf edərək strateji xarakter almışdır.

Ölkələrarası diplomatik münasibətlər qurulandan sonra istər regional, istərsə də qlobal məsələlərdə iki ölkə rəsmiləri həmişə oxşar mövqedən çıxış etmiş və regional sülhün, təhlükəsizlik mühitinin və qarşılıqlı iqtisadi əməkdaşlığın yaranmasına birgə çalışmışlar. Regional və milli təhlükəsizliyin təminatı ilə bağlı ölkələrarası ikitərəfli münasibətlər Azərbaycan Prezidenti Heydər Əliyevin 1996-cı ildə Tbilisiyə rəsmi səfərindən sonra daha da inkişaf etməyə başlamışdı. Həmin səfər zamanı tərəflər *«Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik»* və *«Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq»* haqda qarşılıqlı bəyannamələr imzalayıblar.

Azərbaycan Cənubi Qafqazın sülh və əməkdaşlıq bölgəsinə çevrilməsi, regional münaqişələrin danışıqlar yolu ilə həll edilməsi, xalqlar və dövlətlər arasında qarşılıqlı etimad, əməkdaşlıq və tərəfdaşlıq mühitinin yaradılmasında təhlükəsizlik maraqları onunla üst-üstə düşən Gürcüstanla birgə hərəkət edirdi. Odur ki, Prezident Heydər Əliyev özünün *"Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsində regional sülh platforması"* təşəbbüsünü[262] növbəti dəfə məhz 1996-cı ildə- Gürcüstana rəsmi səfəri zamanı irəli sürmüş və onun əsasında iki ölkə prezidentləri arasında **"Tbilisi bəyannaməsi"** adlanan birgə regional təhlükəsizlik sənədi imzalanmışdır.

[262]Azərbaycan öz regional təhlükəsizlik siyasətini, Cənubi Qafqazın hərbi-geostrateji perspektivləri və bölgənin gələcək dövlətlərarası münasibətləri ilə bağlı fikirlərini bundan əvvəl BMT-nin hər il keçirilən sessiyalarında, MDB və KTMT-nin toplantılarında, ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon sammitlərində, digər beynəlxalq təşkilatların yüksək tribunalarından dəfələrlə bəyan etmişdir.

Bu Bəyannamə həmin dövr üçün hər hansı hərbi-geostrateji öhdəlik yükünə malik olmasa da, mühüm geosiyasi və hərbi-geostrateji əhəmiyyət kəsb edirdi. "Tbilisi bəyannaməsi" bütün region ölkələrini "öz aralarındakı münaqişələri danışıqlar yolu ilə həll etməyə, bölgə xalqlarının və dövlətlərinin ümumi maraqlarından çıxış edərək, Cənubi Qafqazda uzunmüddətli sülh platforması yaratmağa və həmin ölkələri barış masasına dəvət edirdi. İki ölkə prezidentlərinin imzaladığı bu sənəd həmin dövrdə qoşulmaq üçün əksər region ölkələrinə açıq elan edilsə də, sonrakı illərdə yalnız Türkiyə hökuməti tərəfindən dəstəkləndi.

1998-ci il sentyabrın 7-8-də Bakıda keçirilmiş tarixi Böyük İpək yolunun bərpası üzrə Beynəlxalq Konfransın işində iştirak etmək üçün Gürcüstan Prezidentinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri, 1998-ci il oktyabrın 7-də Azərbaycanın Gürcüstanla sərhədində yeni körpünün açılışında Azərbaycan və Gürcüstan Prezidentlərinin, 1999-cu il aprelin 17-də isə Azərbaycan, Ukrayna və Gürcüstan dövlət başçılarının Bakı-Supsa neft kəmərinin təntənəli açılışı mərasimində iştirak etmələri bəhs ounan və digər sahələr üzrə qarşılıqlı əlaqələrin möhkəmlənməsinə və regional təhlükəsizlik sahəsində tərəfdaşlığın inkişafına təkan vermişdir.

1999-cu il noyabrın 18-də İstanbulda keçirilmiş ATƏT-in Sammiti çərçivəsində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsi ilə Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası ərazilərindən xam neftin nəqli haqqında" Sazişin ABŞ Prezidenti B.Klintonun iştirakı ilə- Türkiyə Prezidenti S.Dəmirəl, Azərbaycan Prezidenti H.Əliyev və Gürcüstan Prezidenti E.Şevardnadze tərəfindən imzalanması region ölkələrinin enerji sahəsində strateji əməkdaşlığı və Avropaya birgə inteqrasiyası istiqamətində ciddi addım idi.

Sammitdə Prezident Heydər Əliyev Tbilisi regional sülh təşəbbüsünün ardınca, region ölkələrinin birgə iştirak edəcəyi **"Təhlükəsizlik və əməkdaşlıq Paktı"**nın yaradılması ideyası ilə yenidən çıxış etdi.[263] Bu təşəbbüsə görə üç Cənubi Qafqaz ölkəsi - Azərbaycan, Gürcüstan, Ermənistan, iki bölgə lideri - Rusiya, Türkiyə və bir dünya lideri - ABŞ arasında "Qafqazda sülh və təhlükəsizlik Paktı" adlanan sənəd imzalanması, Cənubi Qafqazdakı bütün münaqişəli məsələlərin danışıqlar yolu və birgə səylərlə nizama salınması nəzərdə tutulurdu. Təəssüflər olsun ki, Azərbaycanın regional sülh və təhlükəsizlik təşəbbüsünü həmin dövrdə Rusiya, Ermənistan və İran dəstəkləmədi. O dövrdə Rusiya mövqeyini regiondan kənar dövlət olan və rəqib hesab etdiyi ABŞ-ın bölgədəki proseslərə cəlb edilməsi ilə bağlamağa çalışdığı halda, İran Azərbaycanın təklifində Cənubi Qafqazın regional təhlükəsizlik sistemindən kənarda qaldığı üçün etirazını bildirdi. Ermənistana gəlincə, bu dövlətin müstəqil iradəsi olmadığına görə o, Azərbaycanın təşəbbüsünə yalnız Rusiyanın mövqeyindən yanaşaraq etiraz etdi.

Azərbaycan Prezidenti Heydər Əliyev Tbilisi və İstanbul təşəbbüsünün ardından 2002-ci ildə Cənubi Qafqazda regional sülh və təhlükəsizlik haqqında yeni bir təşəbbüs irəli sürmüşdür. Həmin ilin aprelində Türkiyənin Trabzon şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan daxili işlər nazirlikləri arasında **"Trabzon razılaşması"** adlanan və mühüm geostrateji sülhyaratma yükü olan bir sənəd də imzalanmışdır. Bəhs olunan tədbirdə region ölkələrinin dinc yanaşı yaşamaq və müstəqil inkişaf maraqlarını, enerji təhlükəsizliyi, bölgə əhalisinin dinc, firavan və təhlükəsiz həyat şəraitini təmin etmək məqsədilə 3 ölkənin daxili işlər nazirlərinin imzaladığı birgə sənəd ter-

[263]Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir... http://heydaraliyev.preslib.az

rorizm və təcavüzkar separatizmə qarşı mübarizədən tutmuş - çirkli pulların yuyulması və transmilli neft-qaz kəmərlərinin birgə mühafizəsinədək, kifayət qədər geniş ölkələrarası geostrateji sahələri əhatə edirdi. Bu sazişi mütəxəssislər, həm də regionun üç dövlətinin strateji tərəfdaşlığını rəsmiləşdirən mühüm bir sənəd kimi qiymətləndirdilər.[264] Lakin o zaman regionun digər dövlətləri Azərbaycanın təklif etdiyi növbəti regional təhlükəsizlik və sülhyaratma təşəbbüsünü qəbul etmədilər. Burada söhbət ilk növbədə Rusiya, İran və Ermənistandan gedir.

Sonrakı dövrdə Gürcüstanda baş verən hakimiyyət dəyişikliyi Gürcüstanla Azərbaycan arasındakı regional tərəfdaşlığı nəinki zəiflətməmiş, əksinə, münasibətlərin daha da inkişafı üçün yeni addımlar atılmışdır. Belə ki, 2004-cü il martın 4-5-də Gürcüstanın yeni Prezidenti Mixail Saakaşvilinin Bakıya rəsmi səfəri zamanı "Azərbaycan və Gürcüstan hökumətlərinin birgə bəyannaməsi", "Təhsil sahəsində əməkdaşlıq haqqında saziş", "Azərbaycan Respublikasının hökuməti ilə Gürcüstan hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında saziş" və s. sənədlər imzalanmışdır.

Bunun ardınca, 2004-cü ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana səfəri zamanı iki ölkə arasında ikitərəfli münasibətlər və beynəlxalq təşkilatlar çərçivəsində tərəfdaşlıq məsələləri müzakirə olunmuş, həmçinin sərhəd-buraxılış məntəqələrinin işinin təkmilləşdirilməsi, nəqliyyat daşımaları tarifləri və s. məsələlər nəzərdən keçirilmişdir.

Göründüyü kimi, təhlükəsizlik, enerji və digər strateji sahələrdə Azərbaycanla Gürcüstan arasıdakı tərəfdaşlıq və müttəfiqlik münasibətləri keçən müddətdə dönmədən inkişaf et-

[264]http://e-qanun.az

mişdir. İndiyədək iki ölkə arasında müvafiq sahələr üzrə 100-dən artıq hüquqi-normativ sənəd imzalanmışdır. Bu ölkələri strateji cəhətdən hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, tikilməkdə olan Bakı-Tbilisi-Qars dəmir yolu və TRACECA kimi qlobal nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, ATƏT, Avropa Şurası, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, regional qurumlar çərçivəsində formalaşmış çoxtərəfli əməkdaşlıq və ikitərəfli strateji əlaqələr də bu ölkələrin münasibətlərini möhkəmləndirməkdədir. Hazırda hər iki dövlət regionda təhlükəsizlik və sülhün təmin olunması üçün birgə fəaliyyət göstərir, məsləhətləşmələr aparır, ümumi enerji layihələri həyata keçirir. «*Gürcüstanla Azərbaycan strateji tərəfdaş, mehriban qonşu və qardaş ölkələrdir*» - bu fikri 2004-cü ilin martında Gürcüstan Prezidenti Mixail Saakaşvilinin Bakıya rəsmi səfəri zamanı hər iki ölkənin dövlət başçıları bəyan etmişlər.

Azərbaycanla Gürcüstanın xarici siyasət prioritetləri təxminən eynidir. Bunları mütəxəssislər müvafiq olaraq:

- dünya birliyinin diqqətinin təcavüzkar separatizm probleminə yönəldilməsinə və dövlətlərin sərhəd toxunulmazlığı prinsipinin bərpasına nail olmaq;
- müxtəlif güc mərkəzlərinin geosiyasi maraqlarının kəsişdiyi Cənubi Qafqazda sabitlik, sülh və əməkdaşlıq mühiti yaratmaq, bütün maraqlı tərəflər üçün cəlbedici amilə çevrilmək, güc mərkəzlərinin geosiyasi ziddiyyətlərindən istifadə edərək öz dövlətinin milli təhlükəsizliyini möhkəmləndirmək;
- ərazilərdəki etnik münaqişələri dinc yolla həll etmək və ərazi bütövlüklərini bərpa etmək;

- Rusiyadan geosiyasi və geoiqtisadi asılılığı azaltmaq üçün Qərbin siyasi və iqtisadi dəstəyindən bəhrələnmək;
- neft və qaz yataqları ilə zəngin olan Orta Asiya, Xəzər və Avropa arasında tranzit ölkəyə çevrilmək, enerji və nəqliyyat layihələrində birgə iştirak edərək Qərbə çıxış üçün alternativ yollar tapmaq və sairə ilə bağlayırlar.

Mütəxəssislərin fikrinə görə, hazırda Azərbaycanla Gürcüstanın geosiyasi və geoiqtisadi təhlükəsizilyi ciddi şəkildə bir-biri ilə bağlıdır. Əvvəla, enerji ehtiyatlarına malik olmadığı üçün bir çox geosiyasi ölçülərə görə Gürcüstanın Rusiyadan mövcud asılılığının aradan qaldırılmasında Azərbaycanın rolu strateji əhəmiyyət kəsb edir. Məsələn, 2000-ci ilin dekabrında Rusiya Gürcüstana təbii qaz nəqlini dayandırdıqdan sonra bütün ölkə elektrik enerjisiz və qazsız qaldı ki, bu fakt rəsmi Tbilisinin Azərbaycanın enerji mənbələrinə nə qədər ehtiyacının olduğunu bir daha sübut etdi. İkincisi, iqtisadi böhran, milyardlarla dollarlıq xarici borc, kütləvi işsizlik və digər neqativ hallar Gürcüstan üçün Azərbaycanla regional iqtisadi əlaqələrin strateji əhəmiyyətini getdikcə artırır. Gürcüstanın özünün əsas iqtisadi və maliyyə hesablarını ölkənin coğrafi vəziyyətindən və tranzit imkanlarından bəhrələnmə üzərində qurmuşdur. Azərbaycanla əməkdaşlıq etmədən isə bu sahədə real nəticələr əldə etmək qeyri-mümkündür. Təsadüfi deyil ki, uzun fasilədən sonra Gürcüstanda müəyyən iqtisadi artım yalnız 2003-cü ildən sonra qeydə alınıb. Beynəlxalq Valyuta Fondunun ekspertləri hesab edir ki, bu, Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisi ilə əlaqədardır.

Gürcüstanın inkişafı üçün lazım olan əsas maliyyə mənbələrindən biri kimi bu ölkənin Şərq-Qərb əlaqələrindəki əlverişli coğrafi vəziyyəti və tranzit imkanları çıxış edir ki, bu da

Azərbaycanla tərəfdaşlıq etmədən qeyri-mümkündür. Gürcüstan entik azərbaycanlıların bu ölkə daxilində sabitliyi qorumaq istiqamətindəki fəaliyyəti baxımından da müəyyən qədər Azərbaycandan asılıdır. O ki qaldı Azərbaycana, bu ölkə öz enerji resurslarının xaricə ixracı, qərblə nəqliyyat-kommunkasiya əlaqələrinə görə Gürcüstandan daha çox asılıdır.[265]

Əhali xarakteristikasına görə, Azərbaycanın Gürcüstan üzərindəki geosiyasi təsiri Gürcüstanda yaşayan etnik azərbaycanlıların miqdarı və vətəndaşlıq mövqeyi səbəbindən daha üstün olsa da, həmin etnik əhalinin milli hüquqlarının, təhlükəsizliyinin, firavan həyatının və d. məsələlərinin təmin edilməsi baxımından Azərbaycan Gürcüstanın güclənməsinin, sabit inkişafının və firavanlığının maraqlı tərəfdarı qismində çıxış edir.

Azərbaycanla Gürcüstanı Cənubi Qafqazda bir-birinə bağlayan digər amil, hər iki ölkənin ərazi bütövlüyünü və milli təhlükəsizliyini təhdid edən etnik separatizmlə qarşılaşması, qonşuları tərəfindən ərazi iddialarına məruz qalması və bu fonda regional münaqişəyə cəlb olunması hesab oluna bilər. Bundan başqa, bu ölkələrin həm də Cənubi Qafqazda müstəqil siyasət yürütməsi, Qərbə inteqrasiya xətti götürməsi, Rusiyanın təsirindən xilas olaraq, tam bərabərhüquqlu regional əməkdaşlıq qurmaq istəyi və s. də onları təhlükəsizlik sahəsində regional tərəfdaşa çevirir.

Beləliklə, qeyd etmək olar ki, Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindən biridir. Cənubi Qafqazın indiki kövrək təhlükəsizlik sistemi çərçivəsində hər iki ölkə ciddi formada bir-birinin inkişafı, təhlükəsizliyinin təmin olunması və kənar təsirlərdən azad olmasında maraqlıdır. Qərb tədqiqatçılarının fikrincə, Cənubi Qafqazın etnik münaqişələri

[265]C. Eyvazov. Göstərilən əsəri, s.168.

ən çox Azərbaycan və Gürcüstana təsir göstərdiyindən, etnik separatizm və regional münaqişələrə qarşı mübarizə fonu bu iki ölkəni birləşdirir.

2013-cü ildə Azərbaycanla Gürcüstan arasında ticarət dövriyyəsi milyard dollardan yuxarı olub. Azərbaycanda və Gürcüstandasa müştərək və qonşu dövlətin kapitalı ilə işləyən 100-dən artıq yaxın müəssisə fəaliyyət göstərir. Gürcüstanın ən aktiv ticarət əlaqəsi olan ölkələr sırasında Azərbaycan birinci yerlərdən birini tutur. Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Tbilisi-Ərzurum kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan ərazisindən keçməsi, TRACECA layihəsi və s. «İpək yolunun qapısı» adlandırılan bu ölkənin geosiyasi və geostrateji əhəmiyyətini daha da artırmışdır.

İki ölkə arasındakı münasibətlərdə əsas məqsədlər və maraqlar üst-üstə düşsə də, onların yürütdüyü regional və beynəlxalq siyasi kurs, malik olduğu geoiqtisadi şərait, ölkədaxili ictimai-siyasi və sosial vəziyyət, milli hərbi təhlükəsizlik taktikası və s. məsələlərə yanaşmasında müəyyən fərqlər də müşahidə olunur. Bakı ilə Tbilisinin regional və xarici siyasi kursundakı əsas fərqli cəhət, mütəxəssislərin fikrinə görə onunla bağlıdır ki, Azərbaycan bölgədə marağı və nüfuzu olan bütün ölkələrlə dostluq və tərəfdaşlıq əlaqələri saxlamaqla, regional münasibətləri daha tarazlı və balanslı vəziyyətə gətirmək yolunu tutduğu halda, Gürcüstan rəhbərliyi yalnız onların Qərblə inteqrasiya kursunu dəstəkləyən dövlətlərlə əməkdaşlığa üstünlük verir. Gürcüstanın indiki hakimiyyəti Qərblə siyasi, iqtisadi və hərbi inteqrasiya kursunu ali məqsəd kimi elan edib.

8 iyun 2012-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirləri arasında imzalanan və üç bölgə ölkəsinin bir çox sahələr üzrə regional geosiyasi və geoiqtisadi maraqlarının uzlaşdırılması siyasətini nəzərdə tutan "Trabzon pro-

tokolu"nu da bəzi mütəxəssislər hər üç ölkənin geosiyasi, geoiqtisadi və hərbi-təhlükəsizlik sahəsində öz səylərini birləşdirmək və xarici aləmin əsassız geosiyasi təzyiqlərindən qurtarmaq cəhdi kimi qiymətləndirmişlər. İmzalamadan sonrakı bəyənatlarında bu ölkələrin xarici işlər nazirliəri həmin protokolun yalnız üç ölkəyə aid olduğunu, hər hansı üçüncü ölkəyə qarşı çevrilmədiyini bəyan etsələr də, bəzi rusiyalı mütəxəssislər bu sənədi məhz "Rusiyanın bölgədəki geosiyasi təsirindən qurtulmaq cəhdi" kimi dəyərləndirdilər.[266]

Lakin bir çox mütəxəssislər Azərbaycan, Gürcüstan və Türkiyənin regional təhlükəsizlik istiqamətindəki bütün səylərinə baxmayaraq Rusiyanın ATƏT-in "Regional təhlükəsizlik və Avropada döyüş silahlarının məhdudlaşdırılması" haqqında 1992-ci il "Cinah sazişi"nin tələblərini nəzərə almadan Cənubi Qafqazda öz hərbi iştirakını və geostrateji gücünü getdikcə artırmasını, beynəlxalq nəzarətdən yayınan işğalçı Ermənistanı, Cənubi Qafqazdakı digər separatçı hərbi-siyasi rejimləri dəstəkləməsini və s. halları nəzərdə tutaraq, bütün Qafqazda bundan sonra da qeyri-müəyyən hərbi-geostrateji vəziyyətin hökm sürəcəyini proqnozlaşdırırlar. Belə vəziyyətdə, Türkiyədən fərqli olaraq, heç bir hərbi blokda iştirak etməyən Azərbaycan və Gürcüstanın təhlükəsizliyinə hər hansı beynəlxalq təminatın veriləcəyinə qarantiya yoxdur.

Gürcüstan özünün Cənubi Qafqaz siyasətində Türkiyə və Azərbaycanla yanaşı Ermənistanla da yaxşı münasibətlər qurmağa çalışır. Düzdür, o, Ermənistanla münasibətlərdə Azərbaycan və Türkiyədən fərqli olaraq, daha praqmatik əməkdaşlığa üstünlük verilir.

[266]Bax: Средняя Азия между Китаем, Россией и США //http:inosmi.ru.

§ 5.10. Cənubi Qafqazın regional təhlükəsizliyi və Ermənistanın qonşu dövlətlərə qarşı əsassız ərazi iddialarının geosiyasi nəticələri

Cənubi Qafqazın ümumi geosiyasi və geoiqtisadi nizamını, regional təhlükəsizlik sisteminin dinamizmini və hər üç yerli ölkənin bir-biri ilə sıx bağlı olan geosiyasi maraqlarını davamlı olaraq pozan və təhdid edən ölkə Ermənistandır.

Regional səpgidən yanaşılsa bölgənin həm böyük dövlətləri- Rusiya, İran və Türkiyə, həm də Cənubi Qafqazın digər ölkələri- Azərbaycan və Gürcüstanla münasibətlərində Ermənistanın yalnız birinci ikisi ilə ciddi regional problemi müşahidə olunmur. Qalan bütün qonşu ölkələrlə bu dövlətin münasibətləri "qonşularına qarşı işğalçılıq siyasəti yürütməsi", "açıq, yaxud gizli ərazi iddiaları ilə çıxış etməsi" və "regional münasibətlərdə beynəlxalq hüquqa zidd addımlar atması" fonunda daim ciddi problemlərlə müşahidə olunmuşdur.

Mütəxəssislər Ermənistanın Azərbaycan və Türkiyəyə qarşı açıq, Gürcüstana qarşı isə gizli ərazi ilddiaları irəli sürməsi faktını Qafqaz bölgəsində regional geosiyasi sabitliyi və sülh mühitini təhdid edən əsas amillərdən biri kimi dəyərləndirirlər. Onların fikrincə, Ermənistan günü-gündən silahlanaraq bölgədə militarist dövlətə çevrilir. Bu vəziyyət faktiki olaraq ona gətirib çıxarır ki, hər üç dövlət ya Ermənistanın ərazi iddiaları tələblərinə göz yummalı və bu tələblər qarşısında öz təhlükəsizliyinin təhdidinə dözməli, ya da ki, Ermənistanla yanaşı sürətli silahlanmaya davam etməlidir.[267] Göründüyü kimi, Cənubi Qafqazda əslində qeyri-müstəqil siyasət yürüdən və "sifarişli" missiya həyata keçirən Ermənistan regional sülhün

[267]C. Eyvazov. Göstərilən əsəri.

və təhlükəsizlik sisteminin yaradılması yolunda ən ciddi maneədir.

Azəprbaycanın təhlükəsizliyinin ermənilər və onların regional, beynəlxalq havadarları tərəfindən təhdid edilməsi, ərazilərinin ələ keçirilməsi və azərbaycanlıların davamlı olaraq etnik təmizlənməyə məruz qalması, faktiki olaraq son iki əsr çərçivəsində davamlı olaraq baş vermişdir. Ermənilər müxtəlif beynəlxalq və regional himayədarlarının dəstəyi ilə İran, Türkiyə və Yaxın Şərqdən köçürülərək, tədricən Cənubi Qafqaza- Azərbaycan ərazilərinə yerləşdirilmiş, burada yerli əhalini sıxışdırmaq, zaman-zaman soyqırımına məruz qoymaq yolu ilə Ermənistan adlanan dövlət yaratmışlar. Bunun əsası, Rusiya və İran arasında Azərbaycan torpaqlarının iki hissəyə parçalanmasını rəsmiləşdirən müqavilələrlə qoyulmuş və sonrakı illərdə davam etdirilmişdir. Təkcə keçən əsrdə onlar tərəfindən üç dəfə- 1905-1920; 1948-1955 və 1988-1993-cü illərdə İrəvan, Naxçıvan. Zəngəzur, Qarabağ, Gəncəbasar, Bakı, Şirvan, Quba və b. tarixi Azərbaycan ərazilərində yerli əhalinin əksəriyyətini təşkil edən azərbaycanlılara qarşı kütləvi soyqırımı və "təmizləmə" əməliyyatı həyata keçirmiş, milyonlarla dinc əhali qətlə yetirilmiş, yaxud öz ata-baba yurdundan didərgin salaınmışdır. Azərbaycanın Zəngəzur, Dağlıq Qarabağ, Naxçıvan və b. tarixi torpaqlarına birbaşa ərazi iddiaları irəli sürərək, zaman-zaman yaranan əlverişli şəraitdən istifadə etmiş və bu bölgələri ələ keçirməyə cəhd göstərmişdir.

XX əsrin 1918-20-ci illərində Rusiya imperiyasının dağılmasından və Cənubi Qafqazda yaranan əlverişli şəraitdən istifadə edərək Azərbaycanın keçmiş İrəvan xanlığını ələ keçirmiş, Türkiyə ilə ərizi birliyini pozmuş, yerli əhalini tədricən tarixi torpaqlardan təmizləməyə başlamışlar. Bunun ardınca, neçə il sonra sovet hökuməti və bolşevik-daşnak hakimiyyəti

nümayəndələrinin dəstəyindən bəhrələnərək Zəngəzur mahalını ələ keçirmiş, Azərbaycanın Naxçıvan və Türkiyə ilə quru əlaqələrini tam kəsmiş, bu torpaqlardan istifadə edərək özünə İranla geosiyasi dəhliz yaratmışdır. Həmin illərdə ermənilər həm də Azərbaycanın tərkibində Dağlıq Qarabağa "erməni muxtar vilayəti" statusu verdirməyə nail omuş və gələcək yeni ərazi iddialarının, separatçı çıxışların təməlini qoymuşlar.

SSRİ-nin dağılması ərəfəsində ittifaq səviyyəsində yaranmış hakimiyyət böhranından, sovet hökuməti rəhbərliyinin ermənipərəst mövqeyindən və başqa əlverişli şəraitdən istifadə edən erməni separatçıları Dağlıq Qrabağ vilayətini və ətrafdakı daha yeddi rayonu işğal edərək, yerli azərbaycanlı əhalini kütləvi surətdə qətlə yetirmiş, yaxud öz torpaqlarından didərgin salmışlar. O vaxtdan bəri- iyirmi ildən artıqdır ki, bu ölkə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış və BMT tərəfindən qəbul olunmuş ərazi bütövlüyünü pozaraq, 20% ərazisini işğal altında saxlayır, dövlətin bu ərazilər üzərindəki milli suveren hüquqlarını, əhalisinin ümumi təhlükəsizliyini birbaşa pozmaqda davam edir.

Hazırda Ermənistan bölgədə Rusiyanın "forpostu" funksiyasını yerinə yetirərək, Cənubi Qafqazın ümumi geosiyasi, geostrateji və geoiqtisadi məsələlərinə təsir etmək istiqamətində "vasitə" kimi istifadə olunur. Ermənistanın bütün regional geosiyasi, geoiqtisadi və hərbi-təhlükəsizlik məsələlərinə yanaşması bu "statusa" müvafiq olaraq, formal xarakter daşıyır və sadəcə olaraq "digər bölgə ölkələrindən geridə qalmamaq" xatirinə "müstəqil dövlət" imitasiyası kimi həyata keçirilir. Rusiyanın hərbi qüvvələrini öz ərazisində yerləşdirən, onun yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının heç bir tələbindən kənara çıxa bilməyən bir ölkənin müstəqil geo-

siyasət, yaxud təhlükəsizlik siyasəti yürütməsi, sadəcə olaraq mümkün deyildir.

Rusiya Ermənistanı özünün Cənubi Qafqazdakı yeganə «etibarlı strateji müttəfiqi» (forpostu) hesab edir və onunla hərbi, siyasi və iqtisadi əlaqələrə dair indiyə qədər 160-dan çox hüquqi sənəd imzalamışdır. Bunların arasında bəziləri strateji əhəmiyyət daşıyır və Ermənistanın Rusiyadan tam asılılığını rəsmiləşdirir. Məsələn, 1997-ci il avqustun 29-da imzalanmış "Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilə, 2001-ci il sentyabrın 15-də imzalanmış "2010-cu ilədək uzunmüddətli iqtisadi əməkdaşlığa dair" müqavilə, XXI əsrdə Rusiya ilə Ermənistan arasında müttəfiqliyə dair bəyannamə, 2010-cu ildə həmin hərbi müqavilənin yenidən uzun müddətə uzadılması və s. Ermənistanın Rusiyadan siyasi, hərbi və iqtisadi cəhətdən tam asılılığını təmin etmişdir.

Ermənistanın geostrateji mövqeyi, işğalçılıq siyasəti və iqtisadi potensialının səviyyəsi bu ölkənin regiondakı proseslərdə müstəqil iştirakını mümkünsüz edir və Rusiya ilə eyni mövqedən çıxış etməsini şərtləndirir. Bu gün Ermənistan Rusiyanı öz müstəqilliyinin və təhlükəsizliyinin yeganə təminatçısı hesab edir. Bu ölkə bütün sahələrdə, xüsusilə də hərbi sahədə Rusiyanın inhisarındadır. MDB Kollektiv Təhlükəsizlik Müqaviləsinin cənub istiqamətində əsas və yeganə tərəfdaşı funksiyasını icra edən Ermənistanın hava məkanını, İran və Türkiyə ilə sərhədini də rus hərbçiləri qoruyur.

Ermənistan Rusiya ilə hərbi müttəfiqliyə söykənərək, Azərbaycan və Gürcüstanın Cənubi Qafqazın regional təhlükəsizliyi ilə bağlı bütün təşəbbüslərinə, bölgədə davamlı sülhün bərqərar olmasına ciddi maneçilik törədir.[268] Regiondakı

[268]İki ölkə arasında hərbi müttəfiqliyin bünövrəsi 1992-ci il avqustun 21-də prezidentlər Boris Yeltsin ilə Levon Ter-Petrosyanın imzaladığı "Ermənistan

geosiyasi vəziyyətin gərginləşdirilməsi, qüvvələr nisbətinin bu ölkənin xeyrinə dəyişməsi və Dağlıq Qarabağ probleminin həllinin uzanması da bilavasitə bu hərbi müttəfiqliyin fəsadları hesab oluna bilər.

Ermənistanın Cənubi Qafqazda regional təhlükəsizliyin bərqərar olmasındakı qeyri-konstruktivliyinin əsas səbəblərindən biri də mütəxəssislərin fikrincə, onun İranla olan yaxın münasibətləri, rəsmi Tehranın bu işğalçı ölkəyə verdiyi hərtərəfli siyasi, iqtisadi və hərbi-geostrateji dəstək hesab olunur. Mütəxəssislər Cənubi Qafqazda İran, Rusiya və Ermənistanın geostrateji müttəfiqliyini onların anti-NATO, anti-Türkiyə və anti Azərbaycan mövqeləri ilə əlaqələndirirlər. Xüsusən, son zamanlar NATO-nun "Şərqə doğru genişlənmə" planı çərçivəsində Türkiyənin bölgədə fəallaşması hər 3 dövləti antitürk mövqeyində birləşdirərək, rəsmi Ankaranın bölgədə möhkəmlənməsinin qarşısını almağa səfərbər etmişdir. Bu dövlətlər Türkiyənin regiondakı türkdilli və qərbyönümlü xalqları öz ətrafında birləşdirəcəyi, xüsusən də Azərbaycanı NATO-ya istiqamətləndirəcəyi ehtimalından qorxur və bu perspektivin onların regiondakı mövqelərinə ciddi zərbə ola biləcəyini proqnozlaşdırırlar.

Ermənistanın Cənubi Qafqazdakı bugünkü rolu da ötən əsrin əvvəlində çar Rusiyası parçalanandan sonra ermənilərin bölgədə tutduğu mövqeni və göstərdiyi fəaliyyəti xatırladır.

ərazisindəki Rusiya hərbi qüvvələrinin hüquqi statusuna dair" müqavilə ilə qoyulmuşdur. 1995-ci ilin martında isə prezidentlər Moskvada Ermənistan ərazisindəki hərbi bazaya dair 25 illik daha bir müqavilə imzalayıblar. Sənəd Ermənistandakı 102-ci hərbi bazanın 2020-ci ilədək ölkə ərazisində qalmasını nəzərdə tutur. Bundan başqa, Rusiya-Ermənistan birgə hərbi qruplaşması yaradılmışdır, Ermənistan MDB-nin havadan vahid müdafiə sisteminə qoşulmuşdur, Kollektiv Təhlükəsizlik Müqaviləsinin fəal üzvüdür, Rusiya Ermənistana silah və hərbi texnikanı güzəştli qiymətlə "satır" və s.

Cənubi Qafqaz ölkələrindən birinin (Azərbaycan) ərazisinin 20 faizini işğal etmiş və digər dövlətə Gürcüstana qarşı da gizli ərazi iddiaları ilə çıxış edir. Bundan başqa, Ermənistan bölgədə Türkiyənin ərazi bütövlüyünü təhdid edir və ona qarşı açıq ərazi iddiaları irəli sürür, bu dövlətə "tarixi düşmən" kimi yanaşır və beləliklə, regionda qeyri-sabitliyin əsas mənbəyi kimi çıxış edir.

Rusiya ilə hərbi-siyasi müttəfiqlikdən, beynəlxalq aləmdəki himayədarlarından və dünyadakı erməni lobbisinin dəstəyindən sui-istifadə edən Ermənistan uzun illərdir ki, beynəlxalq hüquqa, qlobal və regional təhlükəsizlik strukturlarının tələblərinə meydan oxuyur və bun görə heç bir ciddi məsuliyyətə cəlb edilmir. Lakin bu gün dünyada və regionda yaranmış yeni geosiyasi durum, terrorizmlə, dağıdıcı ekstremizm və etnik separatizmlə mübarizənin bəşəriyyət üçün ciddi prioritetə çevrilməsi Ermənistan kimi pozucu mövqe nümayiş etdirən ölkələlərə də öz təsirini göstərməkdədir.

Ermənistanın regionda ikitərəfli münasibətlərin inkişafına xüsusi əhəmiyyət verdiyi ölkələr Rusiya və İrandır. Hərbi və iqtisadi sahədə daha çox Rusiyaya sığınan Ermənistan üçün coğrafi və geoiqtisadi baxımdan İranla əlaqələr də mühüm əhəmiyyət kəsb edir. Çünki Türkiyə və Azərbaycanla sərhədi bağlı saxlanılan və hərbi-siyasi müttəfiqi Rusiya ilə birgə sərhədə malik olmayan Ermənistan İranı özünün «həyat dəhlizi» adlandırır. Orta Asiya, Çin və Yaxın Şərqə məhz İran vasitəsilə yol tapan Ermənistan üçün Tehranla əlaqələrin pozulması xarici aləmdən tam təcrid olunmaq deməkdir. Bundan başqa, Ermənistan Tehranın regiondakı geosiyasi mövqelərinin güclənməsini, ABŞ-ın köməyi ilə bölgənin əsas transmilli aktorlarına və tranzit dövlətlərinə çevrilən Azərbaycan-Gür-

cüstan-Türkiyə üçlüyünün regional geosiyasi mövqelərinin zəiflədilməsi yolunda əsas vasitələrdən biri hesab edir.

Rusiya ilə Ermənistanın əlaqələri daha çox iqtisadi, təhlükəsizlik və hərbi strateji əməkdaşlıq xarakteri daşıdığı halda, İranla münasibətlər daha çox geoiqtisadi, enerji, nəqliyyat, kənd təsərrüfatı, maşınqayırma, yüngül və yeyinti sənayesi sahələrini əhatə edir. Hər iki ölkə Ermənistanın əsas xarici partnyoru və sərmayədarı hesab olunur. Məlumatlara görə, indiyədək Ermənistan iqtisadiyyatına qoyulmuş xarici sərmayənin 70 faizdən çoxu məhz bu iki ölkənin payına düşür. Bu ölkədə reallaşdırılan hərbi, strateji və digər layihələr Rusiyanın, digərləri, məsələn, qaz kəmərinin çəkilişi, Mehri-Qacaran tunelinin tikintisi və başqa layihələr isə yalnız İrəvanın deyil, həm də Tehranın maraqlarına xidmət edir.

Cənubi Qafqaz regionunda keçən əsrin 90-cı illərində həyata keçirilmiş transmilli enerji, nəqliyyat-kommunikasiya və alternativ neft-qaz ixracı layihələri, Xəzər dənizinin Azərbaycan, Qazaxıstan və Türkmənistan zonalarında və bitişik sahil ərazilərindəki transmilli geoiqtisadi proseslər bölgədəki qüvvələr nisbətini son 15 ildə xeyli dəyişmişdir. Nəticədə, faktiki olaraq həm Rusiya və Ermənistan, həm də İran özlərinin qeyri-adekvat siyasəti, Qərbi Xəzərə buraxmamaq istiqamətindəki fəaliyyətləri nəticəsində reallaşdırılan əsas transmilli layihələrdən kənarda qalmışlar. Ermənistanın yürütdüyü işğalçılıq siyasətinə görə Azərbaycan, Rusiyanı öz iddiaları, İranı isə Qərb və ilk növbədə, ABŞ bu proseslərdən təcrid etmişdir. Belə olan halda, bu üç ölkənin alternativ olaraq reallaşdırmağa çalışdığı birgə regional layihələr- İranla Ermənistan üçün "daha çox beynəlxalq təcridolmadan xilas olmağa" xidmət etdiyi halda, Rusiya üçün, sadəcə, Qafqaz siyasətində "Ermənistanı dəstəkləməkdən" başqa bir şey deyildi. Bu gün rəsmi

İrəvan Rusiya və İranla sıx əməkdaşlığı da, əsasən, bu kontekstlərdən əsaslandırmağa çalışır. Ermənistanın rəsmi siyasəti bundan ibarətdir ki, Türkiyə və Azərbaycanın tətbiq etdiyi "blokada" şəraitində, İrəvan Rusiya və İranla hərtərəfli strateji əməkdaşlığa məhkumdur. Qeyd etmək lazımdır ki, uzun illər Qərb dairələri Cənubi Qafqazda "Moskva-İrəvan-Tehran" əməkdaşlığını təqdir etməsələr də, bu problemə ciddi mane də olmayıblər. Lakin son bir neçə ildə dünyada və regionda yaranmış geosiyasi vəziyyət, bu məsələyə fərqli yanaşma meyili yaradıb. 11 sentyabr 2001-ci il hadisələrindən sonra işğalçı imici qazanmış və qlobal layihələrdən təcrid olunmuş Ermənistan «ikili oyun» oynamaq imkanından qismən məhrum olub. Bir neçə il əvvəl ABŞ Dövlət Departamentinin İranla qeyrileqal əməkdaşlıqda təqsirli bilinən Ermənistanın kimya şirkətlərindən birinə qarşı sanksiyalar tətbiq etməsi və Ağ Evin İran-Ermənistan qaz kəmərinin çəkilişinə olduqca sərt reaksiya verməsi də bunun göstəricisidir.

2005-ci ildən başlayaraq Ermənistanın dünyada və bölgədə üzləşdiyi əsas geosiyasi, geoiqtisadi və hərbi-geostrateji problemləri aşağıdakı kimi xarakterizə etmək olar:

- Dünya birliyi artıq əvvəlki illərdə olduğu kimi Ermənistanın işğalçı siyasətinə, BMT qətnamələrinə məhəl qoymamasına açıq-aşkar göz yummur. Əsas beynəlxalq təşkilatlar- BMT, ATƏT, Avropa İttifaqı, Avropa Şurası, İƏT, ayrı-ayrı nüfuzlu ölkələr Azərbaycan torpaqlarının işğal faktını qəbul etmiş və beynəlxalq hüquq normalarına müvafiq olaraq Ermənistanı işğalçı ölkə elan etmişdir. Belə vəziyyətdə Ermənistanın öz siyasətini beynəlxalq aləmdə pərdələmək cəhdləri getdikcə çətinləşir, adekvat olaraq nüfuzu və imici pisləşir;

- Beynəlxalq terrorizmlə mübarizə çərçivəsində ABŞ-la əməkdaşlıqdan imtina edə bilməyən Ermənistan, bununla paralel olaraq İran və Rusiya ilə strateji müttəfiqlik münasibətlərini aşkar şəkildə davam etdirməkdə çətinlik çəkməyə başlayıb. Rəsmi Vaşinqtonun İran-Ermənistan hərbi əməkdaşlığına, xüsusən, Ermənistan vasitəsilə bu ölkəyə qadağan olunmuş ayrı-ayrı hərbi ləvazimatların ötürülməsinə, iki ölkə arasında qaz kəməri və s. enerji layihələrinin planlaşdırılmasına qarşı sərt bəyanatla çıxış etməsi və s. bunun əyani sübutu hesab oluna bilər;
- Öz işğalçı siyasəti ilə qonşu Türkiyə və Azərbaycanla bütün münasibətlərini pozması və nəticədə regionda həyata keçirilən əksər qlobal enerji, nəqliyyat-kommunikasiya layihələrindən kənarda qalması Ermənistanın onsuz da məhdud olan iqtisadi inkişaf resurslarını tükətmiş, onu çətin sosial-iqtisadi vəziyyətə salmış, əhalisinin rifah halını bir qədər də pisləşdirmişdir. Azərbaycanın geosiyasi, geoiqtisadi, hərbi qüdrəti artdıqca və bölgənin lider dövlətinə çevrildikcə, Gürcüstanla birlikdə beynəlxalq və regional proseslərə təsir imkanları genişləndikcə, Ermənistanınkı aşağı düşür və perspektivi olmayan bir ölkəyə çevrilir ki, bu da ölkə vətəndaşlarının kütləvi şəkildə xarici dövlətlərə köç etməsinə səbəb olur;
- Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərinin açılışından, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin işə düşməsindən sonra Azərbaycan-Gürcüstan-Türkiyə strateji əməkdaşlığı və regional müttəfiqliyi daha da möhkəmlənəcəkdir. Bu vəziyyət avto-

matik olaraq Ermənistanın Gürcüstanla münasibətlərində getdikcə sərinlik yaradacaqdır;

- Nəhayət, özünün işğalçı siyasəti və ərazi iddiaları ilə qonşu Azərbaycan, Türkiyə və Gürcüstanla münasibətlərini pozan, bölgədə bu ölkələrin iştirakı ilə reallaşdırılan bütün beynəlxalq və regional layihələrdən kənarda qalan Ermənistanın getdikcə bütün inkişaf resursları tükənir, fəaliyyət müstəvisi daralır. Bu ölkə Cənubi Qafqazda Rusiyanın miskin "forpostuna", bölgənin ən zəif, etibarsız, arzuolunmaz militarist dövlətinə çevrilir.

2013-cü ilin sentaybr ayının 3-də Ermənistanın rəsmi dairələri Rusiyanın rəhbərliyi altında yaradılan Gömrük İttifaqına (Gİ) və Avrasiya İqtisadi Birliyinə (Avras.İB) daxil olmağa hazırlaşdıqlarını bəyan ediblər. Baxmayaraq ki, bir qədər əvvəl - 16 may 2012-ci ildə ölkənin bu ölkənin Baş naziri Tiqran Sarkisyan "Vedomosti" qəzetində dərc etdirdiyi "Ermənistan Avropaya baxır" adlı yazısında qeyd edirdi ki, Gömrük İttifaqına daxil olmaq onların geosiyasi maraqlarını əks etdirmir. Onun fikrincə, Rusiya, Qazaxıstan və Belarusla ümumi sərhədlərin olmaması, Ermənistanın bu birliklərdə təmsil olunmasını qeyri-mümkün edir.[269]

Lakin, göründüyü kimi Ermənistan Rusiyanın rəhbərliyi altında yaradılan hər iki quruma daxil olmaq haqqında "qərar vermişdir". 13 fevral 2014-cü ildə "Sibilitas" Fondunun təşkilatçılığı ilə "Ermənistan: bu gün və sabah" mövzusunda təşkil olunan və keçmiş üç xarici işlər nazirinin iştirakı ilə həyata keçirilən toplantıda Ermənistanın bu cür ittifaqlara daxil olma-

[269]См:Т.Саркисян. Армения смотрит на Европу. Газета «Ведомости», 16.05.2012г./www.vedomosti.ru/opinion/news/1745680/vremya_sobirat_edinye_standarty)

sına müxtəlif yanaşmalar ortaya qoyulmuşdur. Keçmiş xarici işlər naziri Vahan Papazyan qeyd etmişdir ki, Gİ-na qoşulması Ermənistanın Avropa ilə, o cümlədən Cənubi Qafqazın yerli ölkələri - Gürcüstan və Azərbaycanla münasibətlərinə tam mənfi təsir göstərəcək. Onun fikrinə görə, hazırkı ölkə rəhbərliyi "Gömrük İttifaqına daxil olmanın məsuliyyətini dərindən dərk etmir və bu addımın Cənubi Qafqazın vahid birlik arxitekturasını necə pozacağının fərqində" deyil. Papazyan hazırda Ermənistanın müstəqil siyasət yürütmək üçün heç bir resursa malik olmadığını da xüsusi vurğulamış və hətta, "Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində belə onun müstəqil siyasət yürüdə bilməməsini" diqqətə çatdırmışdır.[270]

Digər keçmiş xarici işlər naziri Vardan Oskanyan bildirmişdir ki, "Cənubi Qafqaz dövlətlərinin birliyini şərtləndirən yeganə amil, onların Avropaya inteqrasiyaya can atması idi ki, bu da Ermənistanın Gömrük İttifaqına daxil olmaq qərarları ilə aradan qalxdı." Onun fikrincə, Ermənistanın bu addımı onun İran və Gürcüstanla münasibətlərinə də xələl gətirəcəkdir. "Artıq Ermənistan nə qonşuları, nə də digər dövlətlərlə müstəqil xarici ticarət əlaqələri qurmaq səlahiyyətində deyil."[271]

Başqa keçmiş Xarici İşlər naziri A. Arzumanyanın fikrincə, Ermənistan Gömrük İttifaqına daxil olmaqdansa, Avropa Birliyinin Assosiativ üzvlüyünə imza atmalı idi. Onun fikrinə görə, Ermənistanın milli maraqları hazırda qonşu Gürcüstan və Türkiyə ilə tərəfdaşlıq münasibətlərinin qurulmasını diqtə edir... "Amma Gömrük İttifaqına daxil olandan sonra bizi bu ölkələrlə birləşdirən heç nə qalmır"... Arzumanyan, o cümlə-

[270]Проблемы внешней политики Армении бывшие министры иностранных дел предлагают решить «демократией». ИА Regnum, 13.02.2014 г.//www.regnum.ru/news/fd-abroad/1766723.html)
[271] Yenə orada

dən Dağlıq Qarabağ probleminin həllində Ermənistanın mütləq güzəştə getməli olacağını da bəyan etmişdir.[272]

Toplantıda çıxış edənlərin ümumi fikri ondan ibarət olmuşdur ki, Ermənistan rəhbərliyi keçən müddətdə Cənubi Qafqazda çox əlverişsiz geosiyasət yürütmüşdür ki, bu da nəticədə ölkəni təcrid vəziyyətinə salmışdır.

Bütün bu amillər Ermənistanın son 20 ildə regionda yürütdüyü geosiyasətin nə qədər effektsiz və perspektivsiz olduğunu nümayiş etdirir. Vaxti ilə SSRİ tərkibində dotasiya ilə yaşayan Ermənistan, müstəqillik əldə etdikdən sonra da öz inkişafını əsasən xarici aləmdən gələn yardımlar üzərində qurmuşdur ki, bu da ölkədə davamlı sosial-iqtisadi böhran yaratmışdır. Nəticədə həm bu ölkədən miqrasiya edənlərin sayı fəlakətli səviyyəyə çatmış, həm də əhalinin təbii artımı tam dayanmışdır.

Ermənistan İnzibati İdarəetmə Nazirliyinin qaçqın və məcburi köçkünlərlə iş üzrə agentliyinin rəsmi statistik göstəricilərinə görə, 1990-2010-ci illərdə bu ölkəni 1,5 milyon nəfər insan tərk edib. Ölüm səviyyəsinin doğum səviyyəsindən yüksək olması və miqrasiya prosesi hər il ölkə əhalisinin təqribən 100 min nəfər azalması ilə nəticələnir.

Xarici beynəlxalq humanitar təşkilatların Ermənistanın ayrı-ayrı bölgələrinin insan resurslarına dair hesabatlarına görə, əksər rayonlarda yaşayan əhalinin 40 faizi 55-70 yaş qrupuna daxil olanlar, 25 faizi isə 18 yaşa çatmamış uşaqlar, digər 35 faizi qadınlardan ibarətdir.

Ölkəni tərk etmiş vətəndaşlar arasında əmək qabiliyyətli əhali qrupu 80% təşkil edir. Bu, həm də hərbi xidmətə yararlı olan vətəndaşların təqribən 70 faizi deməkdir. ABŞ-ın USAİD təşkilatının Ermənistanda miqrasiya proseslərinə dair araş-

[272] Yenə orada

dırmaları göstərir ki, bu ölkədən xarici ölkələrə axın edən əhalinin ən çoxu 10 faizi geri dönür.

Müxtəlif mənbələr Ermənistan əhalisinin 50 faizdən çoxunun ölkəni tərk etdiyini, başqa ölkələrə mühacirət etdiyini bildirir. Ən müxtəlif beynəlxalq təşkilatların hesablamalarına görə, hazırda Ermənistanda yaşayan real əhalinin sayı rəsmi bəyan olunan rəqəmdən 2 dəfə azdır, yəni 1.5 mln. nəfərdir.

ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Ermənistanda apardığı sorğunun nəticələrinə görə, hərbi xidmətə yararlı 15-49 yaş qrupuna daxil olan vətəndaşların əksər hissəsi başqa ölkələrə köçüb, yaşı 18-ə çatan vətəndaşların 70 faizi isə yaxın bir il ərzində ölkəni tərk etməyə hazırlaşır. Digər tərəfdən, ölkədən getməyə hazırlaşan hər 5 vətəndaşdan 2-si Ermənistanı birdəfəlik tərk edəcəyini bildirir.

Bu, miqrasiya probleminin ölkənin demoqrafik vəziyyətinin kəskinləşməsinə ciddi təsir göstərdiyinə əyani sübutdur. Miqrasiyaya səbəb olan 2 problemin- ağır sosial-iqtisadi vəziyyət və Azərbaycanla müharibə vəziyyəti ölkədən xaricə axının hələ uzun illər davam edəcəyini proqnozlaşdırmağa əsas verir.[273]

§ 5.11. Azərbaycanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yürütdüyü regional təhlükəsizlik siyasəti

1993-cü ildə Azərbaycanda yenidən hakimiyyətə qayıdan Heydər Əliyev, ilk növbədə, bölgə və dünya dövlətləri ilə Azərbaycanın geosiyasi, geoiqtisadi və hərbi-geostrateji münasibətlərini sahmana salmaq, onun beynəlxalq hüquqlarını müdafiə edən, müstəqil dövlət quruculuğu və geostrateji təhlükə-

[273] Bax: Elçin Bayramlı. "Gündəlik Teleqraf" qəzeti, N5, 07 fevral 2012-ci il.

sizliyini dəstəkləyən tərəfdaşlar, hərbi-siyasi müttəfiqlər axtarmaq, bölgədə və dünyada yaranmış antiazərbaycan meyillərini aradan qaldırmaq istiqamətində ciddi fəaliyyətə başlayır. Qısa müddətdə o, bu sahədə ciddi praktik addımlar atmış, regional sülh və təhlükəsizliklə bağlı bölgə və dünya dövlətlərinin, beynəlxalq təşkilatların rəhbərləri ilə çoxsaylı ikitərəfli, çoxtərəfli görüşlər keçirmişdir.

Heydər Əliyevin Azərbaycanın Cənubi Qafqazda həyata keçirmək istədiyi regional sülhyaratma və təhlükəsizlik siyasətinin mahiyyəti və əsasları haqqındakı ilk bəyanatı 1993-cü ilin sentyabrında əvvəl Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının, 1994-cü ildə isə ATƏT-in Budapeşt sammitinin tribunasından səslənmişdir.

Həmin dövrdə Azərbaycanın beynəlxalq və regional təhlükəsizlik siyasətinin formalaşdırılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkənin milli, hərbi, ərazi və geosiyasi təhlükəsizliyinin təmin edilməsi, ilk növbədə, Rusiyadan, onun rəhbərliyi altında fəaliyyət göstərən **Müstəqil Dövlətlər Birliyi** ilə qarşılıqlı əlaqələrdən keçirdi. Odur ki,

-postsovet regionunda yaşanan iqtisadi, siyasi, hərbi, təhlükəsizlik və s. proseslərin içində olmaq;

-keçmişdə Azərbaycanla bir məkanda və sistemdə yaşamış ölkələrlə yaranmış gərgin dövlətlərarası münasibətləri yumşaltmaq və tərəfdaşlıq əlaqələri qurmaq;

- Rusiyanın Ermənistana intensiv hərbi-texniki yardımını dayandırmaq və onun Cənubi Qafqaz ölkələrinin hərbi təhlükəsizlik məsələlərinə yanaşmasında müəyyən tarazlığa nail olmaq;

- MDB və Cənubi Qafqazdakı hərbi-geostrateji münasibətlərdə Azərbaycanın xeyrinə olmayan mənfi prosesləri aradan qaldırmaq;

- milli ordu quruculuğu, hərbi-texniki inkişaf və s. sahəsində Rusiya və digər postsovet ölkələrinin imkanlarından bəhrələnmək və s. məqsədilə 1993-cü ilin sentyabrında Prezident Heydər Əliyev Müstəqil Dövlətlər Birliyinə və Rusiyanın yaratdığı regional təhlükəsizlik sisteminə - **Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına** (KTMT) qoşulmaq haqqında qərar qəbul etdi.

Bunun ardınca Azərbaycan dövləti özünün Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsindəki regional təhlükəsizlik siyasətinin formalaşdırılması və digər hərbi-geostrateji bloklarla münasibətlərinin səhmana salınması istiqamətində fəaliyyətə başlamışdır.

Lakin sonrakı proseslər göstərdi ki, həmin dövrdə Rusiya rəhbərliyinin KTMT-ni yaratmaqda əsas məqsədi heç də, bəyan olunduğu kimi, "keçmiş SSRİ-dən ayrılmış bərabərhüquqlu ölkələrin kollektiv və milli təhlükəsizliyini və hərbi-geostrateji maraqlarını təmin etmək" deyil, əksinə, onların xarici aləmlə təhlükəsizlik sahəsində bütün əlaqələrə nəzarət etmək, MDB üzvlərinin daxili və xarici siyasətini təsir altında saxlamaq, müstəqil dövlət hüquqlarına və mənafelərinə müdaxilə etməkdən ibarətdir. Rusiyanın 1993-1998-cı illərdə həyata keçirdiyi regional təhlükəsizlik siyasəti, nəinki KTMT üzvü olan dövlətlərin milli və kollektiv təhlükəsizliyini təmin etmirdi, əksinə, onların müstəqilliyini məhdudlaşdırmaq, daha müstəqil siyasət yürüdən ölkələrin daxilində siyasi, etnik və sosial qarşıdurma yaratmaq, etnik separatizmi dəstəkləmək yolu ilə bu ölkələri təsir altında saxlamağa xidmət edirdi. Məsələn, Azərbaycanı MDB və KTMT-yə cəlb etmək məqsədilə Rusiya Prezidenti 1993-cü ildə "Dağlıq Qarabağ probleminin həllində Rusiya Federasiyasının vasitəçiliyinin əsas-

ları”[274] haqqında xüsusi sərəncam imzalayaraq, öz üzərinə sözdə “tərəfsiz vasitəçilik missiyası, tərəflərin heç birinə hərbi yardım göstərməmək öhdəliyi” götürdüyü halda, işdə faktiki olaraq, birtərəfli qaydada Ermənistanı müdafiə edir, ona hərtərəfli hərbi-strateji yardım göstərirdi. Mütəxəssislərin araşdırmalarına görə, o illərdə bu ölkənin bəzi siyasi və hərbi dairələrinin - Baş nazir V. Çernomırdinin, müdafiə naziri P.Qraçovun, Baş Qərargah rəisi M.Kolesnikovun və b. yürütdüyü regional təhlükəsizlik siyasəti Azərbaycana öz fəaliyyətini bundan sonra da Rusiya və Ermənistanla bərabər KTMT-nin üzvü kimi davam etdirməyə heç bir əl yeri qoymadı. Rusiya müdafiə nazirinin o dövrkü mətbuat xidmətinin əməkdaşı polkovnik V.N. Baranets yazırdı ki, Azərbaycan tərəfinin bütün xəbərdarlığına və narahatlığına məhəl qoymayan Rusiya hərbi rəhbərliyi, hökumətin razılığı ilə Ermənistanı kütləvi şəkildə silahlandırmaqda davam edirdi.[275]

Göründüyü kimi, bəhs olunan dövrdə Azərbaycan nəinki, KTMT üzvlüyündən, Rusiya ilə “hərbi regional ittifaq”dan öz milli təhlükəsizliyi, erməni işğallarının nəticələrinin aradan qaldırılması və ərazi bütövlüyünün təmin edilməsi istiqamətində istifadə edə və gözlədiyi nəticəyə nail ola bilmədi, əksinə, Rusiya bölgədə müstəqil geosiyasət yürütməyə can atan bu dövlətlə bərabərhüquqlu münasibətlərdən, hərbi-geostrateji əməkdaşlıqdan tam imtina etdi, ona hər hansı silah-sursat satmağa belə birtərəfli qaydada moratorium qoydu. Azərbaycan xarici sərhədlərinin qorunması və ərazilərində rus qoşunlarının yerləşdirilməsi ilə bağlı Moskvanın tələblərinə rədd cavabı verəndən sonra, Qəbələ RLS-in ortaq istifadəsi istisna olmaqla,

[274] Bax: газ. “Красная звезда”, 1 марта 2003 г.
[275] Bax: Баранец В.Н. Генштаб без тайн. М., 1999

Rusiya ilə onun "hərbi ittifaqı və tərəfdaşlığı" faktiki olaraq sona çatdı.

Prezident Heydər Əliyev 1993-1998-ci illərdə Azərbaycanın regional təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə müstəqil xarici və təhlükəsizlik siyasəti kursunu davam etdirərək, ölkənin beynəlxalq, regional və milli təhlükəsizliyinin, Ermənistan tərəfindən işğal olunmuş ərazilərinin geri qaytarılmasının alternativ yollarını və vasitələrini axtarmağa məcbur oldu. Bu istiqamətdə görülən işlər sırasına Rusiya və KTMT[276] ilə münasibətləri kəsmədən,

- NATO bloku və Türkiyə ilə;
- dünya siyasətində "bitərəf ölkələr" bloku adlandırılan dövlətlərlə;
- Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsində Rusiya tərəfindən analoji regional münaqişələrə təhrik və cəlb edilən, ədalətsiz sınağa çəkilən Ukrayna, Gürcüstan, Moldova və s. kimi ölkələrlə tərəfdaşlığın yaradılmasını;
- bölgədə və dünyada yeni-yeni hərbi müttəfiqlərin, siyasi və hərbi tərəfdaşların axtarışını, onlarla ikitərəfli və çoxtərəfli hərbi-texniki əməkdaşlıq münasibətlərinin qurulmasını, s. aid etmək olar.

Azərbaycanın regional təhlükəsizlik məsələlərinin nizama salınmasında o dövrdə dünyanın ən etibarlı və fəal hərbi-siyasi bloku hesab olunan Şimali Atlantika Alyansına- **NATO** ilə əməkdaşlığa xüsusi ümid bəslənilirdi. 1994-cü ildən NATO ilə

[276]Azərbaycan Özbəkistan və Gürcüstanla birlikdə 2 aprel 1999-cu ilə qədər formal olaraq KTMT-nin üzvü olaraq qalmışdır. 1997-ci ildə isə Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova MDB tərkibində Rusiyanın ədalətsiz regional təhlükəsizlik siyasətinə bir növ etiraz əlaməti olaraq GUAM adlanan regional əməkdaşlıq birliyini yaratmış və bölgədə tam bərabərhüquqlu münasibətlərin nümunəsini ortaya qoymuşlar. Bir qədər sonra bu birliyə Özbəkistan da qoşulmuşdur.

dünyada və regionda sülh haminə əməkdaşlıq və tərəfdaşlıq kursu götürən Azərbaycan hökuməti, onun vasitəsi ilə işğalçı Ermənistana təsir göstərmək, Azərbaycanın beynəlxalq hüquq normaları ilə qorunan ərazi bütövlüyünü bərpa etmək və Cənubi Qafqazda etibarlı regional sülhə nail olmaq istəyirdi. Bəhs olunan dövrdə Cənubi Qafqaza xüsusi əhəmiyyət verən NATO da bölgə ölkələri ilə hərbi-siyasi tərəfdaşlığa maraq göstərirdi. Xüsusən Azərbaycan, Gürcüstan və Ukrayna ilə hərbi-geostrateji əlaqələrə ciddi önəm verən Alyans Rusiyanın və KTMT-nin regional fəaliyyətindən və bölgədəki münaqişələri sahmana salmaq sahəsindəki qeyri-səmərəli siyasətindən narazı qalan bu üçlüklə xüsusi regional tərəfdaşlıq münasibəti yaratmaq istəyi nümayiş etdirirdi. Məhz elə bu məqsədlə də NATO rəhbərliyi hər üç ölkəni özünün *"Sülh naminə tərəfdaşlıq"* proqramına qəbul etmişdi.

Azərbaycan NATO-nun tərəfdaşına çevriləndən sonra bu qurumun üzv dövlətlər üçün müəyyənləşdirdiyi ciddi məhdudiyyət rejiminə əməl edən, əvvəlki illərdə Azərbaycanın milli ordu quruculuğuna əhəmiyyətli hərbi-texniki yardım göstərə və onun torpaqlarının Ermənistan tərəfindən işğalına mane ola bilməyən Türkiyə, Azərbaycanın milli ordusunun Avropa standartlarına uyğunlaşdırılması sahəsində iş aparmaq imkanı qazandı.

Bəzi mütəxəssislər bu gün də hesab edirlər ki, Azərbaycanın o dövrdə təhlükəsizlik sahəsində Qərbə inteqrasiya və NATO-ya meyillənməkdən başqa yolu yox idi. Çünki Rusiya tərəfindən ədalətsiz münasibətə məruz qalan və Ermənistanla müqayisədə bu ölkə ilə hərbi əməkdaşlıqdan faktiki olaraq kənarda saxlanılan Azərbaycanın o dövrdə həm müdafiə və texniki cəhətdən, həm də Bakı-Tbilisi-Ceyhan kimi transmilli kəmərlərin təhlükəsizliyinin təmin edilməsi baxımından hərbi əməkdaşlığa və hərbi dəstəyə, xüsusən, Qərbin inkişaf etmiş

texnologiyalarına, NATO-nun təhlükəsizlik təlimlərinə və s. ciddi ehtiyacı var idi.[277]

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın NATO ilə əməkdaşlığı, xüsusilə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ABŞ və Qərb dövlətlərinin müxtəlif imkanlarından yararlanmaq istəyi bəzi region dövlətləri (xüsusilə Rusiya və İran) tərəfindən həmişə birmənalı şəkildə mənfi qarşılanıb və onlar buna özlərinin milli təhlükəsizlik maraqlarına cavab verməyən məsələ kimi yanaşıblar. Fikrimizcə, Azərbaycan-NATO münasibətləri və onun perspektivləri ilə bağlı politoloqların, siyasi analitiklərin müxtəlif yanaşmalarını iki əsas istiqamət üzrə qruplaşdırmaq olar. *Birinci istiqamətə görə*, Azərbaycan-NATO münasibətlərinin strateji xarakter alması ölkənin mili, regional və beynəlxalq təhlükəsizliyinə ciddi təminat verə bilər və onun geosiyasi mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirər. Hətta, onların fikrinə görə, NATO-ya daxil olan aparıcı dövlətlərin maraqlarına uyğun olaraq Türkiyə-Ermənistan sərhədlərinin açılması məsələsinin gündəliyə gəlməsi belə Ermənistanın tədricən Rusiyanın təsir dairəsindən çıxmasına və xarici siyasət kursunda dəyişikliklər aparmasına gətirib çıxara bilər. Bütün bunlar isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi üçün əlverişli imkanların yaranması demək olardı.

İkinci istiqamətə görə, Azərbaycanla NATO arasındakı münasibətlərin dərinləşməsi Rusiya və İranın regional təhlükəsizliyini ciddi şəkildə təhdidə məruz qoyur. Onlar hesab edir ki, NATO-nun regionda genişlənməsində təşkilat üzvü olan dövlətlərlə yanaşı, Azərbaycanın özü də maraqlıdır və "bu

[277]Bax: Virminqhauz R.F. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti // "Azerbaijan Focus" jurnalı, №1, 2009-cu il, s.101

meylin təhlükəliliyi NATO-nun hərbi infrastrukturlarının Xəzər dənizi vasitəsilə Rusiyanın və İranın sərhədlərinə yaxınlaşması ilə şərtlənir.[278] Həmin politoloqların fikrinə görə, əgər Azərbaycan-NATO münasibətləri hərbi-strateji səviyyəyə qalxarsa, Rusiya hər vəchlə Azərbaycan və Ermənistan silahlı qüvvələrinin təmas xəttində növbəti münaqişənin yaranmasına çalışar, münaqişə iri miqyas aldığı təqdirdə isə müxtəlif bəhanələrlə Dağlıq Qarabağın müstəqilliyini tanıyar və özünün silahlı birləşmələrini onun ərazisində yerləşdirə bilər. Digər tərəfdən, NATO-ya üzvlük, onların fikrinə görə, Azərbaycan Qərbin siyasi kursundan tam asılı vəziyyətə salır ki, bu da NATO-nun genişlənməsinə qarşı olan region dövlətlərinin ona qarşı düşmənçiliyini gücləndirər. İkinci istiqamət tərəfdarları "NATO ilə strateji əməkdaşlığın Azərbaycanın təhlükəsizliyinə hər hansı təminat verəcəyinə" şübhə ilə yanaşır və buna sübut olaraq 2008-ci ildə Gürcüstanda baş verən hadisələri nümunə gətirirlər. Onların fikrinə görə, Gürcüstanın NATO-ya daxil olmaq üçün ardıcıl cəhdlər göstərməsinə və qərbyönlü xarici siyasət aparmasına baxmayaraq, bu dövlət 2008-ci ilin avqust ayında Rusiyanın işğalı ilə təkbaşına üz-üzə qaldı. Başda ABŞ olmaqla NATO üzvü olan dövlətlər Gürcüstana ciddi dəstək verməsə də Rusiyanın beynəlxalq hüquqa zidd olan davranışları ilə razılaşmaq məcburiyyətində qaldılar.[279]

Məlumdur ki, 2008-ci ildə Rusiya ilə Gürcüstan arasındakı hərbi münaqişə Cənubi Qafqazın geosiyasi vəsiyyətində kəskin dəyişikliklər yaratdı və regionda qüvvələr nisbəti köklü şəkildə dəyişdi. Bu hadisə Cənubi Qafqazın regional təhlükəsizliyi ilə

[278]См: Панин В.Н. Проблема региональной безопасности на Кавказе в ситуации турбулентности мирового политического процесса // Вестник Института стратегических исследований. – Вып. 1:– 2011, с. 48
[279] См: Панин В.Н. Göstərilən əsəri.

bağlı regional və qlobal aktorların bir sıra yeni təşəbbüslərlə çıxış etməsinə səbəb oldu. Türkiyə tərəfindən *"Qafqazda sabitlik və əməkdaşlıq platforması*" adlanan, Rusiya, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan tərəfindən imzalanması nəzərdə tutulan yeni regional təhlükəsizlik layihəsi irəli sürüldü. Bu layihə 2008-ci ilin avqust ayında Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Moskvaya səfəri çərçivəsində Rusiya Prezidenti D.Medvedyevlə geniş müzakirə olundu. Hətta sonradan R.Ərdoğan layihənin formatı ilə bağlı danışıqlarda BMT-nin iştirakının da vacib olduğunu bəyan etdi. Həmin layihəni Azərbaycan və Ermənistan dəstəkləsə də, regional alyansa üzvlükdən yalnız Gürcüstan imtina etdi. Gürcüstan tərəfi öz mövqeyini belə əsaslandırdı ki, "onun ərazilərini işğal edən Rusiya ilə birlikdə eyni alyansda iştirakı qeyri-mümkündür" və proseslərin sonrakı gedişi göstərdi ki, adıçəkilən layihə uğur qazana bilmədi.

NATO ilə münasibətlərdə Azərbaycanın xarici təhlükəsizlik maraqlarına cavab verən ən mühüm faktorlardan biri bu təşkilatın *keçmiş sovet respublikalarının ərazi bütövlüyünü və suverenlik hüquqlarını müdafiə etməsidir*. NATO bu mövqeyini alyansın 2014-cü il sentyabrın 4-5-də keçirilmiş Uels sammitində qəbul edilən Bəyannaməsində bir daha ifadə edir. Sənəddə deyilir: "NATO Azərbaycan, Ermənistan, Gürcüstan və Moldovanın ərazi bütövlüyü və suverenliyinin müdafiəsi ilə bağlı öhdəliklərinə sadiqdir. Mövcud şəraitdə alyans Cənubi Qafqazda və Moldovada münaqişələrin beynəlxalq qanunvericilik əsasında və dinc yolla həllinə yönəlik səyləri dəstəkləməkdə davam edəcək". Bəyannamənin postsovet məkanındakı münaqişələrə aid hissəsində daha sonra bildirilir: "Bu konfliktlərin üzücü şəkildə davam etməsi hələ də xüsusi narahatlıq

doğurur, çünki belə vəziyyət bölgə sakinlərini Avroatlantik birliyin üzvü olmaq imkanından məhrum edir".[280]

Azərbaycan özünün regional və milli təhlükəsizliyini təmin etmək, Ermənistanın işğalına son qoymaq və Cənubi Qafqazda etibarlı sülh şəraiti yaratmaq üçün keçən müddətdə digər beynəlxalq və regional qurumlarla da iş aparmışdır. Belə qurumlar sırasında **BMT, ATƏT, Avropa İttifaqı, Avropa Şurası, MDB, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Birliyini** və digərlərini qeyd etmək olar. Təsadüfi deyildir ki, Azərbaycanın haqq səsinə BMT-dən sonra əsas prinsipial münasibəti də məhz adı çəkilən həmin beynəlxalq qurumlar bildirmiş və onların bəziləri Ermənistanı işğalçı dövlət kimi tanımışlar. Bəhs olunan qurumlar və onların ayrı-ayrı üzvləri Azərbaycana daim öz siyasi, texniki və humanitar yardımlarını da göstərmişlər.

Son zamanlar Azərbaycan həm də dünya siyasətində, o cümlədən beynəlxalq təhlükəsizlik sahəsində ayrıca bir təsir dairəsi kimi çıxış edən **"bitərəf ölkələr"** bloku ilə öz əlaqələrini intensivləşdirərək, təşkilatın ayrı-ayrı üzvləri ilə təhlükəsizlik sahəsində əməkdaşlıq etməyə başlamışdır.[281] 2011-ci il 25-27 may tarixində təşkilatın xarici işlər nazirlərinin İndone-

[280] http://www.nato.int/cps/en/natohq/official_texts_112964.htm

[281] "Bitərəf ölkələr" bloku beynəlxalq aləmdə kəskinləşən SSRİ-ABŞ qarşıdurmasına və "soyuq müharibəyə" qoşulmaq istəməyən ölkələr tərəfindən 1961-ci ilin sentyabr ayında Belqradda təsis edilmişdir. "Nə Qərb, nə Şərq" hərəkatı əsasında yaradılan bu blokun ilk təşəbbüsünü ingilis işğalından azad olmuş Hindistanda C. Neru başlamış, sonradan bloka Misir, Yuqoslaviya, Birma, Seylon və digər 20 dövlət qoşulmuşdur. Hazırda "hər hansı hərbi bloklarda iştirakdan imtina edən" "bitərəf ölkələrin" sayı 119-dur. Onlardan 38-i Asiyanı, 53-ü Afrikanı, 26-sı Latın Amerikasını və 2-si Avropanı (Belarus və Azərbaycan) təmsil edir. Müşahidəçi qismində blokun işində daha 14 dövlət iştirak edir.

ziyada keçirilən XVl konfransında isə Azərbaycan "bitərəf ölkələr" blokuna tam səlahiyyətli üzv qəbul edilmişdir.[282]

Mütəxəssislər tərəfindən birmənalı müsbət qiymətləndirilməyən bu addım, əslində, Azərbaycanın müstəqillik əldə etdiyi andan yürütdüyü beynəlxalq, regional və milli təhlükəsizlik siyasətinin məntiqi yekunu kimi də dəyərləndirilə bilər.

Azərbaycan keçən iyirmi ildə regional təhlükəsizlik sahəsində bütün hərbi-geostrateji bloklarla tərəfdaşlıq münasibətləri yaratsa da, ilk gündən birmənalı şəkildə öz prinsipləri ilə çıxış etmişdir. Rəsmi Bakı daim:

- Qafqazın militaristləşdirilməsinin, hərbi bloklar arasında qarşıdurmaya cəlb edilməsinin;

- xarici ölkələrə məxsus hərbi bazaların, orduların başqa dövlətlərin ərazisində yerləşdirilməsinin və s. qarşıdurma meyillərinin əleyhinə çıxış etmişdir.

Ərazilərinin işğal edilməsinə, qonşu Ermənistan tərəfindən hərbi irticaya və hərbi müdaxiləyə məruz qalmasına baxmayaraq, Azərbaycan nəinki Cənubi Qafqazda, həmçinin bütün postsovet məkanında və dünyada ən fəal sülh siyasəti və barış diplomatiyası nümayiş etdirən ölkə olmuşdur. Odur ki, əlbəttə, Cənubi Qafqazda hərtərəfli geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqları olan NATO, KTMT kimi hərbi-siyasi bloklarla, blokun ABŞ, Rusiya, Avropa İttifaqı ölkələri, Türkiyə və s. üzvləri ilə təhlükəsizlik sahəsində kollektiv və fərdi əməkdaşlığı dayandırmadan, "bitərəf ölkələr" blokuna daxil olması Azərbaycanın son vaxtlarda atdığı ən məntiqli geosiyasi addımlardan biri sayıla bilər. Beynəlxalq və regional təhlükəsizliyin təmin olunmasında Azərbaycanın artan rolu və geosiyasi proseslərdə mühüm tərəf kimi çıxış etməsi, xüsusi

[282] Bax: gaz. "Зеркало", 20 мая 2011 г.

əhəmiyyət kəsb edən enerji-nəqliyyat layihələrinin təşəbbüskarı olması və s. dünya birliyində onun nüfuzunun artmasına ciddi təsir göstərməkdədir. Bunun bariz göstəricilərindən biri Azərbaycanın 2011-ci ilin oktyabr ayında BMT üzvü olan ölkələrin 155 səsini toplayaraq 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi oldu.

Azərbaycanın balanslı və praqmatik regional təhlükəsizlik siyasətinin mahiyyəti və əsas tələbləri

Azərbaycan keçən müddətdə hər üç hərbi-geostrateji və siyasi blokla tərəfdaşlıq münasibəti yaradaraq, Xəzər hövzəsi və Cənubi Qafqazda özünün yürütdüyü tarazlaşdırılmış təhlükəsizlik konsepsiyasına tam sadiq qalmışdır. Rəsmi Bakı:

- Azərbaycanın təhlükəsizliyinə və ərazi bütövlüyünə real beynəlxalq təminat verilməyincə,
- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilməyincə,
- Cənubi Qafqazda beynəlxalq hüquq normalarının bərpa olunmasına ciddi və prinsipial münasibət göstərilməyincə, hər hansı hərbi-siyasi bloka, o cümlədən NATO və KTMT-yə qoşulmayacağı haqqında" birmənalı bəyanat səsləndirərək, hər iki blokla həm bəlli məsafə saxlamış, həm də müəyyən çərçivədə əməkdaşlıq etmişdir.

Bundan başqa, Azərbaycan həm NATO blokunda hegemon mövqeyə malik olan ABŞ və onun Şimali Atlantika blokundakı müttəfiqləri ilə, həm də postsovet məkanında öz hərbi-geostrateji üstünlüyünü qoruyan Rusiya və KTMT üzvləri ilə təhlükəsizlik sahəsində özünün ikitərəfli münasibətlərini lazımi səviyyədə saxlamış və regional təhlükəsizlik məsələlərində onlarla

tərəfdaşlıq münasibətləri yaratmağa çalışmışdır. Əslində, bəhs olunan hərbi bloklarla əməkdaşlıqda onun əsas məqsədi də hər hansı bloka üzv olmaq deyil, daha çox öz milli təhlükəsizliyinə, suveren dövlət hüquqlarının təmin olunmasına və ərazi bütövlüyünə beynəlxalq təminat almaqdan ibarət olmuşdur.

Azərbaycan bu müddətdə Cənubi Qafqazın beynəlxalq və regional təhlükəsizliyi ilə bağlı həm Qərb ölkələri bloku - ABŞ, NATO, Avropa İttifaqı, həm də Rusiya və MDB ölkələri ilə ayrı-ayrılıqda və birgə fəaliyyətin, onlar arasında Cənubi Qafqazda münaqişəli vəziyyətin deyil, tərəfdaşlıq münasibətlərinin yaranmasının tərəfdaşı kimi çıxış etmiş və bu haqda dəfələrlə rəsmi bəyanatlar səsləndirmişdir. Onun həm Qərb ölkələri və NATO-dan, həm də Rusiya və KTMT-dən əsas tələbi *dünyada müxtəlif standartlı yanaşmalardan uzaq, obyektiv və real fəaliyyət göstərən, beynəlxalq hüquq normalarına əsaslanan, etibarlı və real təhlükəsizlik sisteminin formalaşdırılması, əksər müstəqil ölkələrin bərabər əsaslarla həmin sistemə qoşulmaq hüququnun tanınması, o cümlədən dövlətlərin beynəlxalq hüquqa əsaslanan ərazi bütövlüyü və milli təhlükəsizliyinin etibarlı təminatından ibarətdir.*

Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə münasibətdə *Azərbaycanın siyasəti bölgədə etnik separatizm və ərazi iddialarından qaynaqlanan münaqişəli hallara son qoyulmasına, region ölkələrinin bir-biri ilə sülh şəraitində dinc yanaşı yaşamasına, regionda suveren dövlət hüquqlarının qorunması istiqamətində real təhlükəsizlik tədbirlərinin görülməsinə, Xəzərin zəngin neft-qaz məhsullarının nəqli üçün istifadə olunan dəhlizlərin təhlükəsizliyinin təminatına və s. məsələlərə yönəlmişdir.* Lakin hazırda bu sahədə həm ayrı-ayrılıqda, həm də qarşılıqlı münasibətlərdə nə Qərbin, nə də Rusiyanın nümayiş etdirdiyi regional və beynəlxalq yanaşma,

Cənubi Qafqazda yürütdüyü təhlükəsizlik siyasəti Azərbaycanın təhlükəsizlik tələblərinə tam cavab vermir. Qərb də, Rusiya da hazırda təhlükəsizlik sahəsində Cənubi Qafqazın və Azərbaycanın taleyüklü məsələlərinin həllində ciddi iradə nümayiş etdirmir, bölgədə hərbi-geostrateji münasibətləri gərginləşdirən Ermənistanın regiondakı işğalçılıq siyasətinin, qonşu dövlətlərə qarşı ərazi iddialarının qarşısını almaq, etnik münaqişələri və separatizmi dayandırmaq, Azərbaycanın pozulmuş ərazi bütövlüyünü bərpa etmək və s. kimi regional təhlükəsizlik problemlərinin həlli istiqamətində ciddi səy göstərmirlər.

Azərbaycanın Xəzər dənizinə birbaşa çıxışı, İranla həmsərhəd ölkə olması və s. onu Cənubi Qafqazda ilk növbədə ABŞ və NATO üçün xüsusi əhəmiyyətli ölkəyə çevirmişdi. Məhz elə buna görə də ABŞ ordusunun Avropa Hərbi Komandanlığı və NATO generaliteti Azərbaycanla hərbi-texniki əməkdaşlığı daha da dərinləşdirmək, onu gələcəkdə alyansa daxil etmək istiqamətində intensiv iş aparırdı. Azərbaycan vasitəsi ilə Qərbin Xəzərə çıxışını əngəlləmək üçün, təxminən oxşar çalışmalar və səylər həm də Rusiya tərəfindən müşahidə olunurdu. Lakin yuxarıda qeyd olunduğu kimi, Azərbaycan öz təhlükəsizlik siyasətinin balans prinsiplərinə müvafiq olaraq həm ABŞ və NATO, həm də Rusiya və KTMT arasındakı hərbi əməkdaşlıq məsafəsini pozmadan, onlarla təhlükəsizlik sahəsindəki tərəfdaşlıq "normalarını" öz mənafelərinə uyğun şəkildə tənzimləyə bilmişdir. Azərbaycan həm ABŞ-ın, həm də Rusiyanın hərbi təhlükəsizlik sahəsində "dərinləşdirilmiş əməkdaşlıq və tərəfdaşlıq" istəyinə, ölkə ərazisində hərbi baza yerləşdirmək, yaxud onlarla bilavasitə hərbi bloklarda iştirak təkliflərinə "mədəni formada" rədd cavabı vermişdir. O cümlədən, Azərbaycan vasitəsilə ABŞ-ın İrana, Rusiyanın isə Gürcüstana və s. qonşu ölkələrə hər hansı formada hərbi müdaxilə

istəkləri, geosiyasi və geoiqtisadi təzyiq imkanları, digər geostrateji təklifləri də birmənalı şəkildə rədd edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Xəzər hövzəsinin regional təhlükəsizliyi məsələsinə Azərbaycanın yanaşmasına 29 sentyabr 2014-cü ildə Həştərxanda keçirilən Xəzəryanı ölkə başçılarının IV Sammitindəki çıxışında xüsusi toxunaraq qeyd etmişdir ki, Azərbaycan Xəzər hövzəsində hərbi və hərbi-texniki sahələrdə beynəlxalq tərəfdaşları ilə bərabər, həm də qonşuları ilə əməkdaşlığa mühüm önəm verir. Hesab edirik ki, Xəzər dənizində hərbi fəaliyyət bütün Xəzəryanı dövlətlərin təhlükəsizliyinin bərabər təminatı prinsipi əsasında həyata keçirilməlidir. Bu, region dövlətləri arasında qarşılıqlı inamın güclənməsinə xidmət edər, hövzəni sülh, dostluq, əməkdaşlıq və mehriban qonşuluq zonasına çevirə bilər.[283]

Mütəxəssislər hesab edirlər ki, Xəzər-Qara dəniz hövzəsində, xüsusən də Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün bölgənin sülhyaratma proseslərində və təhlükəsizlik tədbirlərində yalnız region ölkələri deyil, həm də maraqlı beynəlxalq güc mərkəzləri yaxından iştirak etməlidirlər. Çünki Qafqazda sülh və sabitlik tələbləri yalnız bir-iki böyük ölkənin geostrateji mənafeyi və bu ərazilərin tarixi geostrateji əhəmiyyəti ilə şərtlənmir, həm də region ölkələrinin milli maraqları, regionda reallaşdırılan çoxsaylı transmilli enerji və nəqliyyat layihələrinin, ixrac kəmərləri və dəhlizlərinin təhlükəsizliyi, bu işə cəlb edilmiş çoxsaylı ölkə və nəhəng şirkətlərin sərmayələrinin qorunması və geoiqtisadi maraqları ilə ölçülür.

Bu gün Qafqazdakı postsovet ölkələrinin üçü etnik separatizm zəminində daxili münaqişələrə cəlb olunmuşdur. Dağlıq Qarabağ (Azərbaycan), Abxaziya, Cənubi Osetiya (Gürcüstan)

[283] Bax:Azər TAC-ın xəbər bülleteni, 29 sentyabr 2014-cü il.

və Çeçenistan (Rusiya) münaqişələri regiondakı nisbi sabitliyi hər an poza biləcək ciddi geosiyasi amilə çevrilmişdir. Ona görə, müasir dünyada, Avropada və bölgədə son zamanlar "Xəzər hövzəsi və Qafqazın regional təhlükəsizlik sistemi" prinsiplərinin müəyyən edilməsi və birgə təhlükəsizliyin yaradılması çağırışları daha təkidlə səslənir, bölgənin hər bir dövlətinin və bütövlükdə regionun sabitliyində marağı olan beynəlxalq geosiyasi aktorun diqqətini ciddi şəkildə cəlb edir.

Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildən başlayaraq ən mötəbər beynəlxalq tribunalardan dəfələrlə bəyan etmişdir ki, Cənubi Qafqazın və Xəzər hövzəsinin geosiyasi perspektivləri və bölgədəki ölkələrin inkişafı, ilk növbədə, münaqişələrin və regional təhlükəsizlik probleminin həllindən, bölgədəki sülh və sabitliyin təmin olunmasından asılıdır. Bu mənada, Qafqazdakı münaqişə ocaqlarının mövcudluğu bütün regionun sabit inkişafına, regional və beynəlxalq qurumların tammiqyaslı təhlükəsizliyinə və əməkdaşlığına ciddi maneədir.[284]

Azərbaycanın regional təhlükəsizlik siyasətinin mahiyyətinə gəldikdə, qeyd etmək lazımdır ki, Azərbaycan Xəzər hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik sistemi ilə bağlı daim birmənalı bəyanatlar vermiş, Qafqazın müxtəlif güc blokları arasında "bölünməsinin, hərbiləşdirilməsinin və bloklararası hərbi mübarizə meydanına çevrilməsinin" qəti əleyhinə çıxmışdır. Azərbaycanın ötən müddət ərzində əksər beynəlxalq və regional birliklərlə münasibətləri Cənubi Qafqazın digər iki ölkəsindən və Rusiyadan bir qədər fərqli olmuşdur. Azərbaycan, məsələn, Rusiya, Ukrayna, Gürcüstan və Ermənistandan fərqli olaraq Cənubi Qafqazın hər hansı formada bloklararası

[284] Bax: Əliyev İ. "Təbii sərvətlərin təhlükəsizliyi və dəyişən qlobal güc" mövzusunda keçirilən Münhen Beynəlxalq Təhlükəsizlik konfransında çıxış // "Azərbaycan" qəzeti, 7 fevral 2010-cu il

hərbi qarşıdurmaya sürüklənməsinin, xarici orduların bölgə ölkələrinin ərazisində yerləşdirilməsinin və bloklararası hərbi qarşıdurmanın birmənalı şəkildə əleyhinə çıxış etmişdir.

Azərbaycan Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsinin əmin-amanlığında, dinc və təhlükəsizlik həyatında maraqlı olan əksər dünya və bölgə ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərdə regional sülh və təhlükəsizlik siyasətini davam etdirmişdir. Ölkənin xarici siyasət, hərbi və təhlükəsizlik strukturları NATO hərbi bloku və alyansın bəzi üzvləri ilə, eləcə də Rusiya və MDB-nin bir sıra üzvləri ilə birgə və ayrı-ayrılıqda müxtəlif beynəlxalq, regional təhlükəsizlik proqramları və tədbirləri çərçivəsində çoxtərəfli hərbi-strateji əməkdaşlıq tədbirlərinə qatılır. Xüsusən NATO ilə milli ordu quruculuğunun dünya standartlarına yaxınlaşdırılması, beynəlxalq terrorizmə qarşı mübarizə, beynəlxalq və regional sülhyaratma, münaqişələrin qarşısının alınması və s. transmilli proseslərdə birgə iştirak edir. Lakin buna baxmayaraq, Azərbaycan indiyə qədər açıq şəkildə hansısa hərbi bloka üzv olmağa hazırlaşması haqqında heç bir rəsmi bəyanat verməmişdir. Ölkə rəsmiləri bir qayda olaraq daim bəyan edirlər ki, Azərbaycan dünyanın hərbi bloklar arasında qarşıduran düşərgələrə bölünməsinin və planetin hərbiləşdirilməsinin tərəfdarı deyildir, Yer kürəsində hamının beynəlxalq hüquq-normalarına və başqa ölkələrin milli haqlarına hörmətlə yanaşmasının, sülh və təhlükəsizlik tələblərinə hamının əməl etməsinin tərəfdarıdır.

Göründüyü kimi, bu yanaşmada Azərbaycan üçün hansısa hərbi bloklara üzvlük heç də əsas məqsəd daşımır, sadəcə, bütün dünya ölkələrinin, o cümlədən Azərbaycanın ərazi və əhalisinin təhlükəsizliyinin, dövlətlərin suveren hüquqlarının, regionda və dünyada sülhün və əmin-amanlığın təmin edilməsinə çağırış edilir. Nəzərə alınsa ki, bloka üzv olacağı təqdirdə

hələlik həm NATO, həm də KTMT onun pozulmuş ərazi bütövlüyünün təmin olunacağına və sonrakı milli təhlükəsizliyinə təminat vermir, bölgədə və dünyada sülhün, sivil dövlətlərarası münasibətlərin bərqərar olacağına zamin durmur, o zaman bu təşkilatlara üzvlük Azərbaycana əlavə problem və öhdəlikdən başqa bir şey vəd etmir.

Azərbaycanın KTMT-yə qoşulmaqdan imtina etməsi yuxarıda bəhs olunan amillərlə, ölkənin geosiyasi maraqları və s. ilə yanaşı, həm də ilk növbədə, işğalçı Ermənistanın cəzasızlıq şəraitində bu qurumda təmsil olunması ilə bağlıdır. Üstəlik, sözügedən təşkilat Azərbaycanın əsas problemi olan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hər hansı səmərəli mexanizmə malik deyildir və bu sahədə ciddi bir addım atmaq da istəmir. Çünki KTMT yarandığı gündən birmənalı şəkildə bəyan edir ki, bu təşkilat "daxili münaqişələrin" həllinə yox, "xaricdən yarana biləcək təhlükələrə qarşı" tədbir görəcəkdir. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini "daxili münaqişə" kimi qələmə verən belə bir hərbi quruma Azərbaycanın üzvlüyü tam mənasızdır. KTMT-nin mövcud yanaşması ilə "nə vaxtsa yarana biləcəyi proqnozlaşdırılan İran-Azərbaycan qarşıdurması" istisna olmaqla, bu təşkilat Azərbaycanın xarici təhlükəsizliyinə heç bir geostrateji təminat və hərbi divident vəd etmir. Əksinə, bu quruma üzvlük Cənubi Qafqazda xarici ölkələrin hərbi bazalarının yerləşdirilməsinə qarşı çıxan və tam bitərəf mövqe nümayiş etdirən Azərbaycanın Qərblə bərabərhüquqlu hərbi-geostrateji tərəfdaşlıq münasibətlərinə mənfi təsir göstərə bilər.

Bütün bunlarla yanaşı, Azərbaycanın müstəqillik illərində, xüsusən 1993-cü ildən başlayaraq regional təhlükəsizlik sahəsində Ermənistan istisna olmaqla KTMT üzvü olan və olmayan

bütün postsovet respublikaları ilə regional təhlükəsizlik sahəsində ikitərəfli qarşılıqlı-faydalı əməkdaşlığa və tədəfdaşlığa açıq olmuşdur. Azərbaycan regionda özünün təhlükəsizlik maraqlarına çalışmaqla yanaşı bölgədəki digər tərəfdaş ölkələrin- **Türkmənistanın, Qazaxıstanın, Özbəkistanın, Belarusun, Qırğızıstanın və Moldovanın** da ortaq maraqlarını daim nəzərə almışdır. Bu ölkələrin bir çoxunun Xəzər-Qara dəniz həvzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik mühitinin formalaşmasında fəal rolu olmasa da, Azərbaycan öz regional geosiyasətində onların əksəriyyəti ilə qarşılıqlı münasibətlərə, o cümlədən milli təhlükəsizlik, ictimai-siyasi, iqtisadi, enerji, nəqliyyat-kommunikasiya, ekoloji təhlükəsizlik və s. sahəsində qarşılıqlı münasibətlərin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilmişdir. Həm də, rəsmi Bakı bu ölkələrlə ikitərəfli münasibətlərlə yanaşı, həm də BMT, ATƏT, MDB, İslam Əməkdaşlıq Təşkilatı, EKO, Türkdilli Dövlətlər Birliyi kimi beynəlxalq, regional təşkilatlar çərçivəsində çoxtərəfli geosiyasi tərəfdaşlığın yaradılması, mədəni, sosial və s. əlaqələrin möhkəmləndirilməsi istiqamətində ciddi iş aparmışdır .

Mütəxəssislərin fikrinə görə, məhz Azərbaycan və Gürcüstan Orta Asiya ilə Avropa arasındakı enerji, nəqliyyat-kommunikasiya və s. transmilli layihələrin dirbaşa mərkəzində dayanır və bununla da Orta Asiya ölkələrinin geoiqtisadi və geosiyasi maraqlarının, xüsusən kommunikasiya təhlükəsizliyinin təmin olunmasında birbaşa iştirak edirlər.

Azərbaycan özünün regional təhlükəsizlik siyasətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun və ədalətli həlli ilə bilavasitə bağladığı üçün, mütəxəssislərin fikrincə, yuxarıda adı keçən yerli ölkələrlə də hər hansı hərbi birgə blokda, yaxud geo-

strateji təşkilatda təmsil olunm onların bu məsələnin həllinə münasibəti ilə əlaqələndirilr. O ölkə, yaxud ölkələr birliyi ki, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və ölkənin beynəlxalq hüquq normalarına əsaslanan milli haqlarını müdafiə edir, həmin qurum rəsmi Bakının təhlükəsizlik sahəsində gələcək geostrateji tərəfdaşına çevrilir. Bununla bağlı, gələcəkdə də hansı təhlükəsizlik qurumu Azərbaycanın ərazi bütövlüyünün və suveren dövlət haqlarının bərpa olunmasına əməli yardım göstərsə və milli təhlükəsizliyinə təminat versə, rəsmi Bakını hərbi müttəfiq, yaxud tərəfdaş kimi öz yanında görəcək. Bu da həmin təşkilata Azərbaycanın vasitəsi ilə Xəzər hövzəsi və Cənubi Qafqazda məxsusi geostrateji maraqlarını reallaşdırmaşa imkan verəcəkdir. Lakin hələlik nə NATO və KTMT, nə də ki, onların üzvü olan böyük dövlətlər sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləsələr də, işdə bu məsələnin real həlli üçün ortaya ciddi iradə qoymurlar.

Bəzi Qərb geosiyasətçilərinin fikrincə, regional təhlükəsizlik məsələsində Azərbaycanın nümayiş etdirdiyi mövqe həm kifayət qədər praqmatik və tarazlaşdırılmışdır, həm də bu gün üçün ən optimal siyasətdir. Belə ki, 1990-cı illərin ortalarından Azərbaycan əlverişli şəraitdən bəhrələnərək Avroatlantika və Qərbə inteqrasiya istiqamətində praqmatik siyasət həyata keçirmiş, Xəzər hövzəsinin zəngin enerji qaynaqlarını kənar dövlətlərin təsirindən xilas edərək Türkiyə və Gürcüstan ərazisindən keçən Şərq-Qərb ixrac marşrutu vasitəsi ilə dünyaya bağlamış, bununla da özünün və enerji qaynaqları ilə zəngin digər ölkələrin suverenliyini gücləndirmiş, müstəqil geoiqtisadi maraqlarını təmin etmişdir. Azərbaycan öz tarazlaşdırılmış təhlükəsizlik siyasəti ilə həm də bölgədə rəqib hesab olunan Rusiya və İran kimi ölkələri neytrallaşdıraraq,

onlarla tərəfdaşlıq münasibətləri yarada və qoruyub saxlaya bilmişdir.[285]

Qərblə enerji təhlükəsizliyi sahəsində tərəfdaşlığın yaradılması, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz transmilli ixrac kəmərlərinin inşası, qabaqcıl Qərb texnologiyasının və kapitalının bölgəyə axını, mütəxəssislərin fikrincə, həm də ayrıca olaraq Azərbaycanın Cənubi Qafqazdakı geosiyasi mövqelərini gücləndirmiş, regional təhlükəsizliyinə və suveren hüquqlarının təminatına müsbət təsir göstərmişdir. Onun qazandığı yüksək geosiyasi nüfuz Xəzər hövzəsi və Cənubi Qafqaz siyasətində Rusiya kimi dövlətləri region ölkələrinin müstəqil seçiminə hörmətlə yanaşmağa, eyni zamanda, bölgədə ABŞ və Qərb amili ilə hesablaşmağa məcbur etmişdir.[286]

Lakin yuxarıda qeyd edilən bütün amillərə baxmayaraq, Gürcüstan-Rusiya müharibəsi ətrafında baş verən hadisələr göstərdi ki, Rusiyanın Cənubi Qafqazdakı geostrateji təsiri hələ də güclüdür və BMT-nin dünyadakı hazırkı zəif, müəyyən qədər dişsiz fəaliyyəti fonunda onu nəzərə almamaq heç bir qonşu ölkəyə, xüsusən də Azərbaycan və Gürcüstana yaxşı geosiyasi perspektiv vəd etmir.

[285] Bax: Petersen A. Azərbaycanın Avroatlantik baxışları //"Azerbaijan Focus" jurnalı, №2, 2010-cu il, s.198
[286] Yenə orada

VI FƏSİL

ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ CƏNUBİ QAFQAZIN ƏSAS TƏHLÜKƏSİZLİK PROBLEMİ KİMİ: BEYNƏLXALQ, REGİONAL, YERLİ MARAQLAR VƏ AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ MƏSƏLƏSİ

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi SSRİ-nin dağılması və postsovet respublikalarının öz müstəqilliyinə qovuşması dövründə, qonşu Ermənistanın Azərbaycan Respublikasına ərazi iddiaları, bəzi xarici geosiyasi qüvvələrin təsiri və yardımı ilə etnik separatizmin qızışdırılması zəminində meydana çıxmış və nəinki Cənubi Qafqazın, eyni zamanda, bütün Avrasiya bölgəsinin, Avropa və dünyanın təhlükəsizlik mühitinə çox mənfi və pozucu təsir göstərən regional münaqişələrdən birinə çevrilmişdir. Bu münaqişənin qarşısının vaxtında alınmaması və bəzi beynəlxalq, regional və yerli qüvvələrin ondan öz geosiyasi maraqları çərçivəsində istifadə etmək cəhdləri, sonrakı illərdə ciddi qeyri-humanist faciələrə, qırğın və qətliamlara, bu tipli onlarla yerli və regional münaqişənin başqa ərazilərdə alovlanmasına səbəb olmuşdur. Bu münaqişənin nizama salınması və onun ağır maddi və mənəvi nəticələrinin aradan qaldırılması, demək olar ki, dünyanın bütün aparıcı dövlətlərinin, beynəlxalq və regional təşkilatlarının gündəliyində mühüm yer tutur.

§ 6.1. Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri haqqında

Tarixi mənbə və ədəbiyyatın təhlili göstərir ki, ermənilərin Azərbaycana qarşı ərazi iddialarının, etnik təcavüzünün başlıca məqsədi onun torpaqları hesabına öz dövlətinin yaradılması və sonradan müxtəlif yollarla bu dövlətin ərazilərinin genişləndirilməsi, "Böyük Ermənistan" adlanan xülyanın gerçəkləşdirilməsindən ibarət olmuşdur.

Strateji baxımdan böyük əhəmiyyətə malik olan Azərbaycanın Qarabağ bölgəsində erməni əhalisinin yerləşdirilməsi XIX əsrin əvvəllərində, xüsusilə Azərbaycan torpaqlarının bölüşdürülməsi haqqında Rusiya və İran arasında bağlanan 1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra baş vermişdir. Çar Rusiyasının Cənubi Qafqazda, o cümlədən Azərbaycanda müstəmləkəçilik siyasətinin yeni mərhələsi də məhz XIX əsrin 20-ci illərinin sonundan etibarən başlamışdır. Rus çarizmi Azərbaycanın Qarabağ bölgəsində xristianların sayını artırmaqla bu regionda nüfuzunun möhkəmlənməsi və müstəmləkəçilik siyasətinin həyata keçirilməsi üçün real zəmin yaradırdı.

Rusiyanın Qafqazı işğal etməsini N.N.Şavrov açıq söyləyir və bu məqsədlə həmin əraziyə ilk dəfə başqa millətlərin köçürülməsi haqqında yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətimizə Qafqaza rus əhalisinin deyil, xaricilərin köçürülməsindən başladıq. Vətəndə arzuedilməz ünsürlər sayılan bu kolonistlərdən Tiflis və Yelizavetpol quberniyalarında koloniyalar yaratdıq. Onlara ən yaxşı torpaqlar ayrıldı və müxtəlif imtiyazlar verildi." [287]

[287]Dağlıq Qarabağ münaqişəsi. Tammətnli elektron materiallar məcmuəsi: http://www.elibrary.az/

1804-1813-cü və 1826-1828-ci illər Rusiya-İran müharibələrinin gedişində, həm də bütün XIX əsr boyunca ermənilərin İran, Türkiyə və Cənubi Azərbaycandan kütləvi surətdə Şimali Azərbaycana, o cümlədən Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artmağa başladı. N.N. Şavrovun yazdığı kimi, ümumiyyətlə, 1828-1830-cu illər ərzində ermənilərin azlıq təşkil etdiyi İrəvan və Yelizavetpol quberniyasına, o cümlədən Qarabağın dağlıq hissəsinə rəsmən 124 min, qeyri-rəsmi olaraq isə xeyli çox - 200 min erməni köçürülmüşdür.

XIX əsrin sonu – XX əsrin əvvəllərində də ermənilərin Cənubi Qafqaza köçürülməsi davam etdirildi. Təkcə 1896-cı ildən 1908-ci ilə kimi keçən 13 ildə Cənubi Qafqaza 400 min erməni köçürülmüşdür. 1911-ci ildə N.N.Şavrov bu barədə yazırdı: "1896-cı ildə general-adyutant Şeremetyev Zaqafqaziyada yaşayan ermənilər haqqında məlumatında onların sayının 900 min nəfər olduğunu göstərmişdir. 1908-ci ildə isə onların sayı 1 milyon 300 min nəfərə çatmışdır, yəni bu müddət ərzində ermənilər 400 min nəfərdən artıq çoxalmışlar. Halhazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyon nəfəri diyarın köklü sakinləri deyil. Onları buraya biz köçürmüşük".[288]

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi İrəvanda və Qarabağın dağlıq hissəsində demoqrafik vəziyyətə, regionda baş verən hadisələrə ciddi təsir göstərmiş və onların gələcək ərazi iddialarının baş qaldırmasına səbəb olmuşdur. İndiki Ermənistan dövlətinin yerləşdiyi tarixi Azərbaycan torpağı olan İrəvan xanlığı 1827-ci ildə Rusiya tərəfindən işğal olunanda

[288]Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., 1911, с. 59-60

əhalinin 73,8%-i (dörddə üçü) müsəlman türklərdən ibarət idisə, erməni köçürmələri və azərbaycanlılara qarşı deportasiya və genosid siyasəti nəticəsində hal-hazırda Ermənistanda azərbaycanlı əhali qalmamışdır. "Böyük Ermənistan" yaratmaq xülyasına qapılan erməni millətçiləri və qəsbkarları 1905-1906-cı illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Onlar Bakıda, Şuşada, İrəvanda, Naxçıvanda, Gəncədə, Zəngəzurda, Qazaxda və Tiflisdə dinc azərbaycanlılara qarşı qırğınlar törətdilər.

Birinci Dünya müharibəsi, eyni zamanda, Rusiyada baş vermiş 1917-ci il fevral burjua və oktyabr bolşevik inqilablarından məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci il martın 30-u, 31-i və aprelin 1-də bolşevik qiyafəsinə bürünən silahlı ermənilər Sovet Rusiyasının hərbi yardımı ilə Bakıda dinc azərbaycanlı əhaliyə qarşı əsil soyqırımı törədərək, 10 min nəfərdən çox insanı qətlə yetirmişdir. Həmin ilin aprel-may aylarında ermənilər Şamaxıda, Qubada, Ağsuda, Kürdəmirdə, Salyanda, Lənkəranda kütləvi qırğınlar törətmiş və 50 mindən artıq dinc sakini ən vəhşi üsullarla öldürmüşlər.

1918-ci ildə Azərbaycan və Ermənistan Respublikaları müstəqilliklərini elan etdikdən dərhal sonra Qarabağın dağlıq hissəsində məskunlaşan ermənilər Ermənistanın millətçi dairələrinin təhriki və təzyiqi ilə Azərbaycan hakimiyyətini tanımaqdan imtina etdilər. Ərazi bütövlüyünü qoruyub saxlamağı və vətəndaşlarının təhlükəsizliyini təmin etməyi özünün başlıca vəzifəsi hesab edən Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə (1918-1920) Ermənistan tərəfindən Qarabağın dağlıq hissəsini diplomatik və hərbi vasitələrlə ələ keçirmək cəhdlərinin qarşısı qətiyyətlə alındı. Sonrakı illərdə

hər üç Cənubi Qafqaz respublikasının müstəqilliyini itirərək Sovet Rusiyasının tərkibinə qatılması ərazi-sərhəd məsələləri qoyuluşunun özünü də mənasız etdi. Lakin Cənubi Qafqazda sovet hakimiyyətinin qurulması da Dağlıq Qarabağ məsələsini bir çox millətçi, separatçı erməni təşkilatlarının gündəliyindən çıxarmadı. Çünki Sovet Rusiyası diplomatiyasının dərinliklərində çarizmin xarici siyasətinə dönüş, etnik münaqişələr yaratmaq və ondan bəhrələnmək kimi meyillər açıq-aşkar hiss olunurdu.

Sovetləşmənin ilk illərində Sovet Rusiyasının mövqeyindəki bu meyil Azərbaycana münasibətdə məhz Dağlıq Qarabağ məsələsi ilə bağlı özünü göstərdi. Elə bunun nəticəsi idi ki, Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində yaşayan ermənilərə 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) statusu verildi. Bu siyasət məhz Sovet Rusiyasının himayədarlığı və Bakı Sovetindəki erməni-daşnak qüvvələrin bilavasitə iştirakı ilə həyata keçirildi. Azərbaycanın tərkibində DQMV-nin yaradılması, heç şübhəsiz, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından və etnik düşmənçiliyindən istifadə edən Sovet Rusiyasının "uzaqgörən və məqsədyönlü" siyasətinin nəticəsi idi. Sonrakı tarix göstərdi ki, bu, ermənilərin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün zəmin və vasitə imiş.

Bununla yanaşı, Cənubi Qafqazın sovetləşməsindən sonra da ermənilər Rusiyanın köməyi ilə Azərbaycan torpaqlarını ələ keçirmək siyasətini davam etdirərək, 1920-ci ildə Zəngəzuru və bir sıra digər torpaqları Ermənistan SSR-in ərazisi elan etdilər. Sonralar isə erməni millətçiləri Ermənistan ərazisindəki azərbaycanlıların kütləvi surətdə deportasiya edilməsi siyasətini genişləndirmək məqsədi ilə yeni vasitələrə əl atdılar. Belə

ki, onlar dövlət səviyyəsində, Stalinin köməyi ilə 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçular və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarının qəbul olunmasına və 1948-1953-cü illərdə 150 minədək azərbaycanlı əhalinin öz tarixi torpaqlarından kütləvi şəkildə deportasiyasına nail oldular.

Sovet dövründə Dağlıq Qarabağ məsələsinin qaldırılmasına ermənilər və onların himayədarları bir neçə dəfə cəhd göstərsələr də, məqsədlərinə çatmağın qeyri-real olduğunu görərək, müəyyən məqam gözləmək qərarına gəldilər. Belə bir məqam isə 1985-ci ildə SSRİ rəhbərliyinə gəlmiş M.Qorbaçov və onun yaxın ətrafının ermənipərəst mövqe nümayiş etdirməsi nəticəsində yetişdi ki, ermənilər ondan dərhal istifadə etməyə başladılar.

§ 6.2. XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və sovet rəhbərliyinin ermənipərəst Qafqaz siyasəti

1980-ci illərin ikinci yarısından Sovet İttifaqında yenidənqurma adı altında siyasi və dövlət idarəetmə sahəsində bir sıra dəyişikliklər həyata keçirildi. Belə bir şəraitdə ermənilər yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə özlərinin avantürist və mənfur "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək üçün hərəkətə keçdilər. Onlar SSRİ-də yaranmış "aşkarlıq" və "demokratiya"dan istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə ərazi iddiaları ilə çıxış etməyə başladılar.

1988-ci il hadisələri başlayanda ilk vaxtlar vəziyyəti gərginləşdirməyə, ictimai rəyi öz tərəflərinə çəkməyə çalışan erməni siyasətçiləri və onların Moskvadakı himayədarları vilayətin "iqtisadi geriliyini" bəhanə gətirərək, iqtisadi tələblər pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı uzun müddətdən bəri hazırlanan plan üzrə kütləvi mitinqlər və davamlı tətillər təşkil etməyə başladılar. Əslində, muxtar vilayətdə 1988-ci ilin əvvəllərinədək olan iqtisadi vəziyyəti əks etdirən rəqəmlərə nəzər saldıqda, həmin bölgənin bütün sahələr üzrə sosial-iqtisadi inkişafının Azərbaycanın digər bölgələrindən və Ermənistandan öndə olduğu açıq-aşkar görünür. Lakin baş verən sonrakı hadisələr DQMV-nin sosial-iqtisadi geriliyi barədə fikirlərin saxta və bəhanə, əsas məqsədinsə Ermənistanın Azərbaycana qarşı ərazi iddiası olduğunu göstərdi.

Sovet rəhbərliyinin məsələyə vaxtında və prinsipial qiymət verməməsi, Ermənistanın əsassız ərazi iddialarının rədd edilməməsi DQMV-nin Əsgəran rayonunda, sonra isə Sumqayıtda ermənilər tərəfindən xüsusi plan əsasında hazırlanan təxribatların və qarşıdurmaların törədilməsinə gətirib çıxardı.

SSRİ Ali Soveti Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də DQMV-də və onun ətrafında millətlərarası münasibətlərin gərginliyinin davam etməsi ilə əlaqədar və guya "bunun qarşısını alıb, regionda vəziyyəti sabitləşdirmək" məqsədi ilə, SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndini "rəhbər tutaraq", Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtar vilayət statusunu saxlamaqla, DQMV-də xüsusi idarə formasının tətbiq edilməsi haqqında qərar qəbul etdi. Həmin qərarda Azərbaycanın hüquqları kobud şəkildə pozularaq DQMV-də

bilavasitə SSRİ-nin ali dövlət hakimiyyəti və idarə orqanlarına tabe olan Xüsusi İdarəetmə Komitəsi (XİK) yaradıldı.

XİK millətlərarası münasibətlərin kəskinləşməsinin qarşısını almaq və regionda vəziyyəti sabitləşdirmək "məqsədi ilə" yaradılsa da, onun fəaliyyəti DQMV-dəki vəziyyəti və Azərbaycan-Ermənistan münaqişəsini daha da kəskinləşdirdi. XİK-in sədri Arkadi Volski bölgədə millətlərarası vəziyyəti sabitləşdirmək və etnik separatçılıq hərəkatını dayandırmaq deyil, əksinə, daha da qızışdırmaq və şəraiti gərginləşdirmək siyasəti yürütməyə başladı. Onun fəal "səyləri" nəticəsində az müddət ərzində vilayətin idarə və müəssisələrinin, demək olar ki, hamısı Azərbaycanın tabeliyindən çıxarılaraq mərkəzin tabeliyinə keçirildi. Bütün sənədlərdə DQMV artıq faktiki olaraq Azərbaycanın tərkibindən çıxarılmışdı.

Sovet rəhbərliyinin baş verən hadisələrə ermənipərəst münasibəti, Dağlıq Qarabağın qeyri-qanuni olaraq Ermənistana birləşdirilməsi cəhdinin qarşısını vaxtında almaması, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə bilərəkdən qəsd yolu tutması respublikada haqlı və kütləvi etirazlara səbəb oldu. Mərkəzin etinasız və ermənipərəst mövqeyindən istifadə edən Ermənistan parlamenti 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında heç bir hüquqi əsası olmayan qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Birbaşa sovet rəhbərliyinin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin faktiki olaraq Azərbaycandan ayrılması və Ermənistana istiqamətləndirilməsi baş verdi. Eyni zamanda, Ermənistan SSR İttifaqın bəzi hərbi hissə rəhbərlərinin və mər-

kəzi orqanlarının himayədarlığı ilə Azərbaycanın digər ərazilərinə silahlı qüvvələr göndərərək açıq hərbi təcavüzə başladı.

1990-cı il yanvarın 15-də vəziyyətin getdikcə gərginləşdiyini görən SSRİ rəhbərliyinin göstərişi ilə Ali Sovetin Rəyasət Heyəti "DQMV-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" qərar qəbul etdi. Daha sonra isə Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi, SSRİ Ali Soveti Rəyasət Heyəti və SSRİ Nazirlər Sovetinin "Azərbaycan və Ermənistan xalqlarına müraciəti" qəbul olundu. Qəbul edilən sənədlərdə təcavüzkarla (Ermənistanla) təcavüzə məruz qalanın (Azərbaycanın) eyni tutulması, bir ittifaq respublikasının digərinə qarşı təcavüzkar müharibə aparmasına, onun ərazilərini açıq-aşkar işğal etməsinə belə etinasız münasibət göstərilməsi Azərbaycan xalqının İttifaq rəhbərliyindən üz döndərməsinə səbəb oldu. Bütün bunlar və erməni təcavüzünün qarşısının alınması sahəsində yerli rəhbərlərin fəaliyyətsizliyi Azərbaycanda həm SSRİ, həm də yerli rəhbərliyə qarşı kütləvi çıxışların və etirazların meydana çıxmasına təkan verdi. Artıq əhalinin Kommunist Partiyası rəhbərliyinə olan inamı tamamilə heçə enmiş və çox böyük narazılıq yaranmışdı.

Bu dövrdə ermənilərin silah ələ keçirmək məqsədi ilə sovet ordusunun hərbi hissələrinə, o cümlədən daxili qoşunlara etdiyi hücum və basqınlar adi hal almışdı. Belə bir şəraitdə silahların ələ keçirilməsinə mərkəzi hakimiyyət tərəfindən bilərəkdən etinasızlıq göstərilir və göz yumulurdu. Sovet rəhbərliyinin çox ciddi və bağışlanılmaz səhvləri və ermənipərəst siyasəti 1990-cı ilin sonu - 1991-ci ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxarmış, DQMV-də və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas almışdı. Bu illərdə Moskva-Bakı sərnişin

qatarlarında, Tbilisi-Bakı, Bakı-Ağdam, Ağdam-Şuşa, Ağdam-Xocalı marşrutları üzrə hərəkət edən avtobuslarda törədilən çoxsaylı terror aktları nəticəsində yüzlərlə dinc azərbaycanlının həyatına son qoyuldu. Minlərlə azərbaycanlı Moskvanın hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu.

1988-1991-ci illərdə, yəni hadisələrin başlanğıcından SSRİ-nin süqutuna qədər olan dövrdə Sovet İttifaqının hakim dairələri tərəfindən himayə edilən Ermənistan Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeritmiş, nəticədə minlərlə dinc sakin qətlə yetirilmiş, çoxlu yaşayış məntəqələri dağıdılmış, talan edilmiş və yandırılmışdır. Bu illərdə Sovet İttifaqının rəhbər orqanları regionda vəziyyəti sabitləşdirmək üçün hər hansı ciddi və səmərəli tədbirlər həyata keçirmək niyyətində olmadığını aydın nümayiş etdirirdi. 1988-ci il hadisələri başlayan gündən Dağlıq Qarabağ məsələsi SSRİ-nin mərkəzi mətbuatının səhifələrində birtərəfli şəkildə şərh olunurdu, Azərbaycan faktiki olaraq informasiya blokadası şəraitində idi.

SSRİ hökumətinin, xüsusilə,onun başında duranların qətiyyətsizliyi, Azərbaycana qarşı açıq-aşkar ərazi iddiaları irəli sürən Ermənistana himayədarlıq etməsi səbəbindən hadisələr getdikcə mürəkkəbləşdi və hər iki respublika müharibə vəziyyətində qarşı-qarşıya dayandı. Ermənilərin Moskvanın hakim dairələrində müdafiə olunması Ermənistanın Azərbaycana qarşı təcavüzünün daha da genişlənməsinə gətirib çıxardı.

Sovet İttifaqının mövcud olduğu illərdə mərkəzin himayədarlığı ilə öz məqsədlərinə müəyyən qədər nail olan ermənilər insan hüquqlarının müdafiəsi pərdəsi altında Dağlıq Qarabağa BMT qoşunları yeritməyə və bütün bunlara beynəlxalq

xarakter verməyə cəhd göstərirdilər. Beləliklə, SSRİ süqut etdikdən sonra ermənilər və onların havadarları Dağlıq Qarabağ məsələsini beynəlxalq əhəmiyyətli problemə çevirmək üçün geniş miqyaslı kampaniyanın yeni mərhələsinə başladılar.

§ 6.3. Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı və münaqişənin BMT Təhlükəsizlik Şurasında müzakirəsi

1992-ci ilin əvvəllərində Ermənistan silahlı qüvvələri birbirinin ardınca Qarabağın dağlıq hissəsində azərbaycanlıların yaşadığı əksər yaşayış məntəqələrini işğal etdilər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə onlar Xankəndində yerləşən SSRİ-nin 366-cı motoatıcı alayının fəal iştirakı ilə Xocalı şəhərinə hücum edərək, 613 nəfər dinc sakini amansızcasına qətlə yetirdilər. Xocalı soyqırımı əsrin ən böyük faciələrindən biri idi. Xocalı erməni-sovet birləşmiş qüvvələri tərəfindən işğal edildikdən sonra az müddət içərisində bütün Yuxarı Qarabağ zəbt olundu.

1992-ci il mayın 8-də Azərbaycanın qədim şəhəri və mədəniyyət mərkəzi olan Şuşa ələ keçirildi. Ermənistan ordusu Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini tamamilə Ermənistan Respublikasına birləşdirmək məqsədilə ətraf rayonlara hücuma başladı. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi yolunda onların arasında yerləşən Azərbaycan şəhəri Laçın əsas maneə idi. 1992-ci il mayın 17-də Laçın şəhəri də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Beləliklə, "öz müqəddəratını təyin etmək" ideyasını reallaşdırmaq adı altında Azərbaycanın Dağlıq Qarabağ bölgə-

sini Rusiya hərbi hissələrinin köməyi ilə işğal edən ermənilərin təcavüzkar siyasəti getdikcə geniş vüsət almağa başladı.

Laçının işğalı müharibənin artıq Dağlıq Qarabağın hüdudlarından kənara çıxdığını və Ermənistanın işğalçılıq niyyətinin daha böyük olduğunu göstərdi. Ermənilərin "humanitar dəhliz" adlandırdıqları Laçın yolu ilə Dağlıq Qarabağa qısa zaman çərçivəsində külli miqdarda silah, döyüş sursatı, ağır hərbi texnika və qüvvə gətirildi. Nəticədə 1993-cü il ərzində Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4.400 kv. km) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları (17.000 kv. km) işğalçı silahlı qüvvələr tərəfindən ələ keçirildi. Dağlıq Qarabağ uğrunda müharibədə 20.000 nəfərədək Azərbaycan vətəndaşı həlak olmuş, 100.000 nəfərədək yaralanmış, 50.000 nəfər isə əlil olmuşdur. Ermənistandakı tarixi torpaqlarından və Azərbaycanın işğal olunmuş ərazilərindən qovulan 1 milyona qədər azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə zamanı respublikamızın yüzlərlə yaşayış məntəqəsi dağıdılmış, talan edilmiş və yandırılmışdır. Hazırda Azərbaycan ərazisinin 20 faizdən çoxu Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ilə əlaqədar, BMT Təhlükəsizlik Şurası 7 bəyanat və 4 qətnamə qəbul etmişdir. Kəlbəcər rayonunun işğalı ilə əlaqədar 822 (30 aprel 1993), Ağdam rayonunun işğalı ilə əlaqədar 853 (29 iyul 1993), Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğalı ilə əlaqədar 874 (14 oktyabr 1993), Zəngilan rayonunun işğalı ilə əlaqədar isə 884 (11 noyabr 1993) saylı qətnamələr qəbul edilərkən, Şuranın daimi üzvü olan böyük döv-

lətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək, münaqişənin ATƏT-in Minsk prosesi çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunması mövqeyini seçdilər. Cəzasız qaldığından ruhlanan Ermənistan BMT TŞ-nın münaqişəyə dair qəbul etdiyi 4 qətnaməyə də məhəl qoymadı.

Dünya birliyi Ermənistanın bu açıq-aşkar təcavüzünə göz yumdu və onun cilovlanması üçün heç bir əməli tədbir görmədi. 1992-1993-cü illərdə münaqişəni nizama salmaq üçün BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr zamanı və sənədlər qəbul edilərkən, Şuranın daimi üzvləri olan böyük dövlətlər Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşməsinin səbəbləri, xarakteri və mahiyyətinin qiymətləndirilməsinə birmənalı yanaşmadılar. Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü "Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə" kimi qiymətləndirilmişdir. Şuranın daimi üzvləri bu münaqişəyə Ermənistanın ərazi iddiaları əsasında başlanmış "Ermənistan - Azərbaycan müharibəsi" kimi deyil, "Azərbaycanın Dağlıq Qarabağla etnik münaqişəsi" kimi yanaşaraq, ona fərqli rəng vermişlər.

§ 6.4. ATƏT-in Minsk qrupunun yaradılması, münaqişənin həlli istiqamətində vasitəçilik səyləri, münaqişə tərəflərinin mövqeyi və ümumi nəticələr

1992-ci ilin əvvəllərindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tədricən beynəlxalq xarakterli münaqişəyə çevrilməyə başlayır. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavi-

rəsinin (ATƏM) üzvü oldu və həmin il iyulun 8-10-da ATƏM-in Helsinkidə keçirilən zirvə toplantısında onun sənədlərini imzaladı. Müstəqilliyini qazanan Azərbaycan Respublikası ATƏM-in üzvü olduqdan sonra Dağlıq Qarabağ münaqişəsi də bu təşkilatın prinsiplərinə uyğun olaraq, üzv dövlətlərin daha çox diqqət obyektinə çevrildi.

ATƏM-in Xarici İşlər Nazirləri Şurasının 1992-ci il mart-ın 24-də keçirilən görüşündə Dağlıq Qarabağdakı vəziyyət müzakirə edildi və "münaqişənin sülh yolu ilə nizama salınması istiqamətində aparılan danışıqların səmərəliliyini artırmaq məqsədi ilə" "ATƏM-in Dağlıq Qarabağa dair xüsusi sülh konfransının çağırılması haqqında" qərar qəbul edildi. Qərara görə, Minskdə çağırılacaq bu konfrans iki böyük region ölkəsi – Rusiya və Türkiyə, dörd Qərbi Avropa dövləti - Fransa, Almaniya, İtaliya və İsveç, iki Şərqi Avropa ölkəsi - Çexiya və Slovakiya, iki münaqişə edən ölkə - Azərbaycan və Ermənistan, həmçinin ABŞ-ın nümayəndələrinin iştirakı ilə keçirilməli idi.

1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa və Laçının işğalı münaqişənin mahiyyətini dəyişərək, yeni siyasi problem yaratdı və sülh missiyasını üzərinə götürmüş Minsk konfransının keçirilməsi yolunda ciddi maneəyə çevrildi. Minsk qrupu çərçivəsində aparılan danışıqlarda qarşı tərəflər arasında ziddiyyətlərin qalması, xüsusilə, Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan böyük dövlətlərin mövqeyində də yekdil fikrin olmaması sülh prosesinin ləngidilməsinə və münaqişənin dondurulmuş vəziyyətdə qalmasına gətirib çıxardı.

Ermənistan-Azərbaycan münaqişəsinin vasitəçilik tarixini şərti olaraq mərhələlərə bölsək, onların hər birinin xeyli dərəcədə Rusiya-Qərb qarşıdurmasının xarakterindən asılı olduğu-

nu görmək olar. 1992-ci ilin martında Minsk qrupu yaradılan zaman Rusiya bütövlükdə bu təşəbbüsü müdafiə etsə də, dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən münaqişənin nizama salınmasına dair "vasitəçilik səylərinin fəallaşmasını" narahatlıqla qarşılamağa başladı. Belə bir vaxtda Rusiya münaqişənin dinc vasitələrlə həlli prosesində təşəbbüsü beynəlxalq təşkilatların və dünya dövlətlərinin əlindən almağa və bununla da regionda özünün zəifləmiş mövqelərini möhkəmləndirməyə cəhd göstərdi.

Məqsədlərinə nail olmaq üçün Rusiya, ərazi bütövlüyünə və vətəndaşlarının təhlükəsizliyinə heç bir ciddi təminat vermədən, Azərbaycana hərbi-strateji təzyiq göstərərək, qoşunlarını "sülhməramlı qüvvələr" adı altında münaqişə bölgəsinə gətirmək niyyətində idi. Lakin məqsədinə çatmayan Rusiya Ermənistanda qoşunlarının sayını bir qədər də artırdı, bu ölkəni gizli və aşkar yolla silahlandıraraq, Azərbaycan ərazilərinin daha geniş miqyasda işğal olunmasına dəstək verdi.

1997-ci ilin əvvəllərində Rusiyadan Ermənistana qanunsuz olaraq dəyəri 1 milyard ABŞ dollarından çox olan müasir hərbi silah-sursatın verilməsi haqqında faktlar üzə çıxan zaman məlum oldu ki, bu silahlar 1993-cü ildən etibarən, yəni Ermənistan ilə Azərbaycan arasında qızğın hərbi əməliyyatlar getdiyi vaxtdan göndərilmiş və nəticədə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsinə şərait yaradılmışdır. Ermənistanın Rusiya tərəfindən silahlandırılması prosesi atəşkəs elan ediləndən sonra da davam etdirilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınması 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyevin dövründən başlayaraq xarici siyasət fəaliyyətində əsas yer tutmuşdur.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra münaqişənin aradan qaldırılmasına nail olmaq üçün dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli və çoxtərəfli görüşlər, ATƏT-in zirvə toplantılarında Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələr, beynəlxalq forumlarda, həmçinin Ermənistan prezidenti ilə birbaşa danışıqlarda göstərilən ardıcıl səylər dövlət başçısının apardığı siyasətin mühüm tərkib hissəsini təşkil edirdi.

Prezident Heydər Əliyev bu məqsədlə Azərbaycanın təhlükəsizlik problemlərini, xüsusilə, Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü məsələsini beynəlxalq aləmin müzakirəsinə çıxararaq, regionda sülhün bərqərar olması üçün nüfuzlu beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizamlanması məqsədi ilə məhz Prezident Heydər Əliyevin qətiyyəti, əzmkarlığı və gərgin fəaliyyəti sayəsində 1994-cü il mayın 12-də atəşkəs haqqında razılıq əldə edildi və bundan sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı.

1994-cü il dekabrın 5-6-da ATƏM-in Budapeştdə keçirilən zirvə toplantısında beynəlxalq sülhməramlı qüvvələrin yaradılması və münaqişə bölgəsinə göndərilməsi qərara alındı. Budapeştdə həmsədrlik institutu da təsis edildi. Minsk konfransına iki həmsədrin təyin edilməsi və Minsk qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçirilməsi barədə qərar qəbul olundu. Rusiyanın bu münaqişədə maraqlı tərəf olduğu nəzərə alınaraq, ATƏM-in Minsk konfransında, o cümlədən Minsk qrupunda həmsədrlik Rusiya və Finlandiyaya tapşırıldı. Bu razılıq təkcə Budapeşt görüşünə qədər gərgin olaraq qalan Qərb-Rusiya münasibətlərinin yumşaldılması deyil, həm də

münaqişənin həlli istiqamətində Rusiyanın "fərdi sülhyaratma" istəyinin qarşısının alınması idi.

1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən zirvə toplantısında qəbul edilən və münaqişənin nizama salınmasının beynəlxalq hüquqi bazasını təşkil edən sənəd - bəyanat Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasının üç əsas prinsipini ortaya qoydu. Bu prinsiplər: 1. Ermənistan və Azərbaycan respublikalarının ərazi bütövlüyünün tanınması; 2. Razılaşma əsasında Azərbaycanın tərkibində Dağlıq Qarabağa öz müqəddəratını təyin etmə prinsipinə söykənən ən yüksək özünüidarəetmə hüquqi statusunun verilməsi; 3. Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə beynəlxalq təminatın verilməsindən ibarət idi.[289] Zirvə toplantısı zamanı Prezident Heydər Əliyevin gərgin əməyi, diplomatik istedadı, bacarığı sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivələrini və əsas prinsiplərini müəyyənləşdirən bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin yekun qərarında əksini tapdı. ATƏT-in Lissabon zirvə görüşündən sonra Rusiya ilə yanaşı ABŞ və Fransa nümayəndələri də Minsk qrupunun həmsədrliyinə daxil oldular.

1997-ci ilin ikinci yarısından indiyə kimi Minsk qrupunun həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq, Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 7 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə dair bir neçə təkliflə çıxış etmişlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin

[289] Həsənov Ə.M. Azərbaycan və ATƏT. Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997, s.74

"paket" (bu variantda Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu), həmin ilin sentyabrında irəli sürdükləri ikinci təklif isə münaqişənin "mərhələli" (bu variantda münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu) həllindən ibarət idi. Azərbaycan tərəfi təqdim olunan təklif və planlarla tam razı olmasa da, sülh prosesinin ölü nöqtədən çıxarılması məqsədilə həmsədrlərin hər iki təklifini ümumən qəbul etmişdir. Ermənistan tərəfi isə hər iki halda qeyri-konstruktiv mövqedən çıxış edərək təkliflərlə razılaşmamışdır.

1998-ci ilin noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qəbulu qeyri-mümkün hesab edilən üçüncü təklif irəli sürdülər. Bu təklif dünya praktikasında mövcud olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilən "ümumi dövlət" təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, həm də ATƏT-in Budapeşt və Lissabon zirvə toplantılarında qəbul olunmuş sənədlərə də etinasız yanaşmanın göstəricisi idi.

ATƏT-in Minsk qrupunun son təklifindən Azərbaycan tərəfi birmənalı şəkildə imtina etdikdən sonra, 1999-cu il fevralın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev Minsk qrupunun həmsədrləri olan dövlətlərin (ABŞ, Rusiya, Fransa) başçılarına məktubla müraciət etdi. Minsk qrupunun fəaliyyətini, xüsusilə, həmsədrlərin axırıncı təklifini ciddi surətdə tənqid edən dövlət başçısı "ümumi dövlət" ideyasının ATƏT-in prinsiplərinə uyğun olmadığını və sülh prosesinə xeyli zərər verdiyini göstərməklə yanaşı, ABŞ, Fransa və Rusiya dövlət başçılarını münaqişənin ədalətli həlli və tezliklə aradan qaldırılması üçün səylərini ciddi surətdə artırmağa çağırdı.

"Ümumi dövlət" prinsipi nizamasalma prosesinə ciddi maneə törətməklə yanaşı, münaqişənin həlli yollarına dair tərəflərin mövqeyindəki ziddiyyətləri daha da dərinləşdirdi. Nəticədə danışıqlar prosesində bir durğunluq yarandı və münaqişənin nizama salınması istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı.

2004-cü ildən başlayaraq Minsk qrupu həmsədrləri "Praqa prosesi" adlanan üçtərəfli danışıqlar çərçivəsində (Minsk qrupu, Ermənistan və Azərbaycan-Ə.H.) "Madrid prinsipləri" kimi tanınan dördüncü təkliflər paketini irəli sürmüş və tərəflərin müzakirəsinə təqdim etmişlər. Yeni təkliflərin əsas prinsipləri haqqında tərəflərin açıqladığı fikirlər onu göstərir ki, Azərbaycan ATƏT-in Lissabon sammitində bütün üzv dövlətlərə qəbul etdirdiyi "münaqişənin həllinin üç əsas prinsipindən" bütövlükdə imtina etməmiş, lakin ona, məzmunu hələ açıqlanmayan bəzi redaktələrin aparılmasına razılıq vermişdir.

"Madrid prinsipləri" əsasında həmsədrlərin iştirakı ilə və onlarsız Azərbaycan Prezidenti İlham Əliyev Ermənistan prezidentləri Koçaryan və Sarkisyanla iyirmiyə yaxın ikitərəfli və çoxtərəfli görüşlər keçirsə də, mövqeləri uzlaşdırmaq hələ ki mümkün olmamışdır. Ermənistan tərəfi hələ də qeyrikonstruktiv mövqeyi ilə münaqişənin həllinə çətinliklər törədir. Münaqişənin həlli istiqamətində növbəti cəhd 15 fevral 2010-cu ildə ATƏT-in yeni sədri, Qazaxıstanın xarici işlər naziri Kanat Saudabayevin Cənubi Qafqaza səfəri çərçivəsində baş tutmuşdur. Bakıda onun Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüşdə vurğulanmışdır ki, ATƏT Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində öz səylərini bir qədər də artıracaq və "Madrid prinsipləri" çərçivəsində aparılan danışıqlarda ciddi irəliləyişə nail olunmasına çalışa-

caqdır. K. Saudabayev məhz bu məqsədlə regiona səfərə gəldiyini və münaqişə edən hər iki tərəflə ciddi müzakirələr aparacağını bəyan etmişdir. Lakin ATƏT-in Astanada keçirilən son sammitində də bu problemin həlli ilə bağlı nə hansısa qərar qəbul edildi, nə də həmsədr ölkələr tərəfindən işğalçı Ermənistana hər hansı təzyiq göstərildi.

ATƏT-in münaqişənin dinc yolla həll edilməsi istiqamətindəki son cəhdi 19 noyabr 2013-cü ildə Avstriyanın paytaxtı Vyanada olmuşdur.[290] Təşkilatın Minsk Qrupu həmsədrlərinin- Robert Bradtke (ABŞ), Bernar Fasye (Fransa) və İqor Popov (Rusiya) iştirakı ilə münaqişədə iştirak edən ölkə prezidentlərinin 2012-ci ilin yanvarından dayandırılmış ilk təkbətək görüşünün hansı sonluqla başa çatmsı barədə mətbuata məlumat verilməsə də, diplomatik mənbələr Dağlıq Qarabağ məsələsinini vasitəçilərin iştirakı olmadan yenidən təkbətək görüş formatında müzakirəyə çıxarılmasını bütövlükdə əhəmiyyətli hadisə kimi qiymətləndirmişlər.[291]

Görüş ərəfəsində həmsədr ölkələrdən birinin- ABŞ-ın dövlət katibi Con Kerrinin Azərbaycan və Ermənistan prezidentlərinə telefon açmasını, iki ölkə prezidentlərinin birbaşa görüşünü dəstəkləməsini və danışıqların xüsusi irəliləyişə

[290] İkitərəfli bu format çərçivəsində 2007-ci ildən 2014-cü ilədək Azərbaycan və Ermənistan prezidentləri arasında 17 görüş keçirilib. 2008-ci il iyunun 5-də Sankt-Peterburqda, noyabrın 2-də Moskvada, 2009-cu il yanvarın 28-də Sürixdə, mayın 7-də Praqada, iyunun 4-də Sankt-Peterburqda, iyulun 17-18-də Moskvada, oktyabrın 8-9-da Kişinyovda, noyabrın 22-də Münhendə, 2010-cu il yanvarın 25-də Soçidə, iyunun 17-də Sankt-Peterburqda, oktyabrın 27-də Həştərxanda, 2011-ci il martın 5-də Soçidə, iyunun 24-də Kazanda, 2012-ci il yanvarın 25-də Soçidə, 2013-cü il noyabrın 19-da Vyanada, 2014-cü il avqustun 10-da Soçidə, sentyabrın 4-də Nyu-Portda, oktyabrın 27-də Parisdə 2015-ci il dekabrın 19-da Berndə keçirilmiş görüşlərdə heç bir irəliləyiş olmayıb.

[291] Bax: "Yeni Müsavat" qəzeti, №308, 20 noyabr 2013-cü il.

səbəb olacağına inam ifadə etməsini, mütəxəssislər münaqişənin gələcək həlli baxımından müsbət dəyərləndirilmişlər.[292] Bu haqda Con Kerri Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu ilə Vaşinqtonda keçirdiyi birgə mətbuat konfransında məlumat vermişdir. Con Kerri Ermanistan Azərbaycan Dağlıq Qarabağ probleminin həlli istiqamətində danışarkən qeyd etmişdir ki, "Türkiyə bu prosesdə və bir çox digər məsələlərdə böyük rol oynayır. Artıq aylardır ki, biz Kipr və Dağlıq Qarabağ haqqında müzakirələr aparırıq... Sakit bir tərzdə bu təşəbbüslərin önündə və ortasında olan səfirlərimizin prosesi davam etdirməsinə çalışırıq. Mən son 48 saatda... həm Prezident Əliyev, həm də Sarkisyanla danışmışam. Onlar az sonra görüşməlidirlər. Biz həmin prosesin irəli getməsini istəyirik və bu işlərdə iştirakımızı davam etdirəcəyik".[293]

Göründüyü kimi, həm ABŞ dövlət katibi, həm də Türkiyənin xarici işlər naziri Dağlıq Qarabağ münaqişəsinin həllində Ankara və Vaşinqtonun sıx əməkdaşlıq etdiyini, müxtəlif vasitələrlə, o cümlədən Minsk Qrupu və başqa ikitərəfli məsləhətləşmələr yolu ilə bu dondurulmuş münaqişəni tezliklə həll etməyə, Qafqaza və ətraf regionlara dayanıqlı sülh gətirməyə eyni perspektivdən baxdıqlarını təsdiqləmiş və bu istiqamətdə Prezident Sarkisyan və Prezident Əliyev arasındakı bu görüşün uğurlu olacağına ümid etdiklərini bəyan etmişlər.[294]

Qeyd edək ki, görüşdən bir gün əvvəl digər həmsədr ölkənin- Rusiyanın xarici işlər naziri Sergey Lavrov da Vyanadakı danışıqların uğurlu olacağına ümid etdiklərini bəyan edib. "Rusiya Ermənistan və Azərbaycan arasında Dağlıq

[292] Yenə orada
[293] Bax: "Bakı xəbər" qəzeti, №209, 20 noyabr 2013-cü il.
[294] Bax: "Yeni Müsavat" qəzeti, №308, 20 noyabr 2013-cü il.

Qarabağ məsələsi üzrə birbaşa təmasların bərpa olunacağına ümid edir və problemin həllinə dəstək verməyə hazırdır" söyləyən, S.Lavrov münaqişənin daha əvvəl əldə olunmuş müəyyən razılıqlar və hər iki tərəf üçün məqbul əsasda həlli üçün lazımi atmosferin yaradılmasına hər cür kömək göstərəcəklərini vurğulayıb.

Azərbaycan və Ermənistan prezidentlərinin Vyanada keçirilən görüşünə ATƏT-in Minsk qrupunun və əsas həmsədr ölkələrin münasibətini şərh edən bəzi ekspertlər hesab edir ki, hazırda Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqlar prosesinin formatı dəyişir: "ATƏT-in Minsk qrupu davamlı işləməyə və hansısa nəticələr əldə etməyə cəhd edir. Lakin, əsas işi ATƏT-in Minsk qrupu deyil, həmsədr ölkələr görəcək. Rusiya münaqişə tərəfləri arasında razılığın əldə olunması üçün çox şey elədi, lakin nəticə əldə olunmadı. İndi isə Azərbaycan və Ermənistan prezidentləri Moskvada deyil, Vyanada görüşürlər. Yaxın zamanlarda isə iki ölkənin XİN başçıları Kiyevdə görüşəcəklər. Bu onu göstərir ki, münaqişənin həllinə edilən cəhdlər Minsk qrupunun rəhbərliyi altında həyata keçirilir.[295] Rusiya İctimai-Siyasi Tədqiqatlar Mərkəzinin direktoru, hərbi-siyasi ekspert Vladimir Yevseyevin fikrinə görə Rusiya dünyada və bölgədə cərəyan edən hazırkı geosiyasi proseslərin təsiri altında Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə aktiv vasitəçi kimi qoşulmaqdan getdikcə məsafə saxlamağa çalışır. Vladimir Putinin ikinci hakimiyyəti dövründə Rusiya münaqişənin həlli istiqamətində əvvəlki illərdə nümayiş etdirdiyi fəaliyyəti faktiki olaraq dayandırıb. Moskva münaqişədə iştirk edən tərəflərdən birini- Ermənistanı yeni

[295] Bax: APA xəbər bülleteni, 20 noyabr 2013//www.apa.az

yaratmağa çalışdığı Avrasiya və Gömrük İttifaqlarına qoşulmağa razı sala bilib və bunun müqabilində onunla öz hərbi-texniki əməkdaşlığını gücləndirməyə söz verib.[296] Prezident V.Putinin 2013-cü il dekabrın 2-də İrəvana son səfəri çərçivəsində iki ölkə arasında bir çox, o cümlədən hərbi-texniki əməkdaşlığın daha da dərinləşdirilməsinə dair saziş imzalandı. Bu sazişdə təkcə Ermənistan ordusunun modernləşdirilməsi deyil, həm də qarşılıqlı informasiya mübadiləsi və ümumilikdə hərbi sahədə sıx tərəfdaşlıq məsələləri öz əksini tapıb. Bütün bunlar onu göstərir ki, hazırda Cənubi Qafqazda Azərbaycanın bitərəf siyasət yürütməsi və Gürcüstanınsa Avropa İttifaqına üzvlüyə can atması fonunda Rusiya-Ermənistan münasibətlərinin yaxşılaşması prosesi gedir. Ona görə də, politoloqun fikrinə görə, Rusiya hazırkı vəziyyətdə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində hansısa konkret addım atmayacaq. Əksinə, Rusiya-Azərbaycan münasibətlərində staqnasiya dövrü davam edəcək. Vladimir Putinin bu ilin avqust ayında Azərbaycana səfəri görünür ki, bir çox problemləri tam həll edə bilməyib. Bu işdə, Azərbaycanın qərbyönümlü siyasət yürütməsi də öz sözünü, rolunu oynayır. Mütəxəssisə görə, Azərbaycan müstəqil, suveren dövlət olaraq müstəqil siyasət yürütməsi beynəlxalq hüquq normasına əsaslanaraq normal hal olsa da, Rusiyanın mövcud vəziyyətdə eyni vaxtda həm Bakı, həm də İrəvanla münasibətləri bərabər səviyyədə saxlaya bilməməsini də başa düşmək lazımdır. Onun fikrinə görə, Rusiyanın Ermənistanla hazırkı hərbi-geostrateji münasibətləri birbaşa Bakıya qarşı yönəlməsə də, Cənubi Qafqazda Ermənistanla müttəfiqlik

[296] Yenə orada

münasibətlərini gücləndirmək də Rusiyanın haqqıdır və onun milli mənafelərinə cavab verir.[297]

Rusiya ilə Ermənistan arasındakı hərbi tərəfdaşlığın dərinləşdirilməsi prosesi indi başlamayıb. Bir müddət əvvəl Rusiya müdafiə nazirinin, Baş Qərargah rəisinin Ermənistana səfərləri bu proseslərin başlanğıcı idi. Daha sonra Ermənistanın Gömrük İttifaqına qoşulmaq niyyətini bəyan etməsi bu prosesləri daha da sürətləndirdi. Prezident V. Putinin səfəri isə proseslərə tam aydınlıq gətirdi. Bir qədər əvvəl Rusiyanın Ermənistandakı hərbi bazasının komandanı Andrey Ruzinskinin "Krasnaya zvezda" jurnalına verdiyi müsahibəsindəki "əgər Dağlıq Qarabağda yenidən Ermənistanla-Azərbaycan arasında müharibə başlasa Rusiya öz bitərəfliyini qoruya bilməyəcək və hərbi müttəfiqi olan Ermənistana yardım göstərəcək" fikrini şərh edən V. Yevseyev bildirib ki, Dağlıq Qarabağ Ermənistanın tərkib hissəsi deyil və Rusiyanın öz müttəfiqi qarşısında Dağlıq Qarabağın ərazisini müdafiə etmək kimi öhdəliyi yoxdur: "Bir sözlə desək, Qarabağda Azərbaycanla Ermənistan arasında yenidən müharibə başlasa, Rusiyanın müharibəyə qoşulmaq öhdəliyi yoxdur. Lakin dolayısı yolla bu, Rusiyanı da müharibəyə sürükləyəcək. Bu dolayısı yol o deməkdir ki, Rusiya Ermənistanla vahid hava hücumundan müdafiə sistemi yaratmağa hazırlaşırsa və gələcəkdə radiolokasiya sistemlərinin əldə etdiyi informasiyaları birbirləri ilə mübadilə edəcəklərsə, onda Rusiyanın mövqeyi məlumdur. Politoloq onu da qeyd edir ki, bütün Cənubi Qafqaz Rusiyanın radiolokasiya sisteminin əhatə dairəsindədir və Rusiya Dağlıq Qarabağda müharibə başlayacağı zaman radiolokasiya sisteminin əldə etdiyi məlumatları Ermənistandan gizlət-

[297] Bax: APA xəbər bülleteni, 20 noyabr 2013//www.apa.az

məyəcəkdir. "Rusiyanın Ermənistanda böyük hərbi eskadrilyası yerləşir. Çox güman ki, gələn ay İrəvanda aparılacaq danışıqlarda eskadrilyanın daha da zənginləşdirilməsi, hərbi aviasiyanın modernləşdirilməsi barədə razılıq əldə olunacaq. Ona görə də hesab edirəm ki, Dağlıq Qarabağda hərbi əməliyyatlar başlayacağı təqdirdə, Rusiya birbaşa da olmasa, dolayısı yolla müharibəyə qoşulacaq".[298]

Prezidentlərin təkbətək görüşünün nəticələri ilə bağlı həmin gün ATƏT-in fəaliyyətdə olan sədri, Ukraynanın xarici işlər naziri Leonid Kojara da bəyanat vermişdir. Bəyanatda deyilir ki, bu görüş və yüksək səviyyədə keçirilən dialoq tərəflər arasında etimad və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə müsbət təsir göstərəcək və Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesinə öz tövhəsini verəcək. Biz hesab edirik ki, bu cür danışıqlar sülhə və sabitliyə zəmanət verir və regional əməkdaşlıq üçün yeni imkanlar açır. Bəyanatda həmçinin qeyd olunub ki, Ukrayna ATƏT-nin sədri olaraq ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan-Ermənistanın və Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında nizamlanmasına yönəlmiş istənilən dialoqun qurulması üzrə səyləri dəstəkləməyə hazırdır.

Görüşün keçirildiyi gün Minsk qrupunun həmsədrləri də bəyanat yaymışlar. Bəyanatda deyilir ki, bu, 2012-ci ilin yanvar ayında Soçidə keçirilmiş sammitdən sonra prezidentlərin ilk görüşüdür. "Üzbəüz görüşlərin və daha sonra həmsədrlərin nazirlərin iştirakı ilə keçirilmiş işgüzar görüşlərin gedişində prezidentlər Dağlıq Qarabağ münaqişəsinin həllinə dair geniş miqyasda sualları müzakirə ediblər. Prezidentlər dinc nizam-

[298] Yenə orada

lanmanın nail olunmasına yönəlmiş gələcək danışıqlara impuls vermək üçün razılaşıblar. Onlar öz xarici işlər nazirlərinə tapşırıblar ki, həmsədrlərlə birlikdə prosesin dinc fəallaşması məqsədilə görülmüş işlər əsasında fəaliyyəti davam etdirsinlər. Onlar qarşıdan gələn aylarda yenidən görüşməyə razılaşıblar". [299]

Göründüyü kimi, ATƏT çərçivəsində müxtəlif formatlı danışıqlar aparılsa da hazırda Azərbaycan Dağlıq Qarabağın nə müstəqilliyinə, nə də Ermənistana birləşməsinə razı olmadığına, ermənilər isə bu ərazinin Azərbaycanın tərkibində saxlanmasına razılıq vermədiklərinə görə, münaqişənin həlli uzanır və hələ ki, real nəticə yoxdur. Ermənilər "Milli azlıqların öz müqəddəratını təyin etməsi hüququ"nu bu münaqişəyə şamil edərək Dağlıq Qarabağın ya müstəqil elan olunması, ya da Ermənistana birləşməsini tələb edirlər. Azərbaycan isə ATƏT-in və beynəlxalq hüququn əsas prinsiplərindən hesab olunan "ölkələrin ərazi bütövlüyünün pozulmazlığı" prinsipini əsas gətirərək, DQ-nin həm müstəqillik qazanmasını, həm də başqa dövlətlə birləşməsi variantını birmənalı şəkildə rədd edir, öz milli yaşam haqlarını reallaşdırmaq məqsədilə Dağlıq Qarabağda yaşayan ermənilərə "yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində hər hansı muxtariyyət statusunun verilə biləcəyini" qəbul edir.

Danışıqlar prosesi hazırda heç bir müsbət sonluq vəd etmir. Azərbaycanın müharibə çağırışları və yaxud "öz torpaqlarını azad etmək hüququnu" bəyan etməsi hər dəfə beynəlxalq güclərin etirazı ilə qarşılaşır və onlar bu məsələdə öz səylərini bir az da artırmaq imitasiyası nümayiş etdirirlər. Dağlıq Qarabağ probleminin həlli istiqamətindəki bütün səyləri o cüm-

[299] Bax: AzərTac informasiya agentliyinin xəbər bülleteni, 19-20 noyabr 2013.// www.Azertag.com.

lədən, münaqişənin mövcud vəziyyətini dəyərləndirən beynəlxalq tədqiqatçıların fikrinə görə, problemin həlli, bir tərəfdən beynəlxalq aləmin ciddi iradə nümayiş etditməkdən yayınması, digər tərəfdənsə münaqişəyə cəlb olunmuş Azərbaycan və Ermənistanın ciddi şəkildə silahlanması, müharibə meylinin atrması fonunda günü-gündən çətinləşir ki, bu da Cənubi Qafqazın və bütövlükdə Avrasiyanın regional təhlükəsizliyini ciddi şəkildə təhdid edir. Vaşinqton Beynəlxaq və Strateji Araşdırmalar Mərkəzi Dağlıq Qarabağ münaqişəsini hazırda Avrasiya regionu, xüsusən, Cənubi Qafqaz üçün bir nömrəli problem və təhdid kimi dəyərləndirir.[300] Məsələ burasındadır ki, hazırda Dağlıq Qarabağ münaqişəsinin həllində həm Minsk qrupu və onu təmsil edən üçlük- ABŞ, Rusiya və Fransa, həm də digər beynəlxalq təşkilatllar Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və Dağlıq Qarabağın separatçı rejimini dəstəkləməsi faktını birmənalı şəkildə beynəlxalq hüquqa zidd hal kimi qiymətləndirməkdən, münaqişənin həlli istiqamətində vahid yanaşma nümayiş etdirməkdən boyun qaçırırlar. Onlar etnik separatizmə mənfi qiymət vermək, beynəlxalq hüququn "ölkələrin ərazi bütövlüyünün pozulmazlığı" prinsipini dəstəkləmək əvəzinə, "ərazi bütövlüyü" ilə "özünümüəyyənetmə" hüququ arasında tərəddüd etməkdə və balans axtarmaqda davam edirlər. Fikrimizcə, bu hal münaqişənin yaxın zamanlarda dinc yolla həllinə mane olan *birinci* əsas amildir. Konkret olaraq Dağlıq Qarabağ problemini və Cənubi Qafqazdakı digər etnik separatizm üzərində yaranmış münaqişə ocaqlarını aqressiv separatçılıq təmayüllərini birmənalı şəkildə pisləmədən və ciddi formada qarşısını almağa cəhd göstərmədən, sülh yolu ilə

[300]Bax: "Yeni Müsavat"qəzeti, 5 aprel 2012-ci il.

həll etmək qətiyyən mümkün deyil. Əgər beynəlxlaq aləm, xüsusən, sülhyaratma prosesinə cəlb edilmiş ATƏT-in Minsk qrupu bu məsələdə birmənalı mövqe nümayiş etdirməsə və ona uyğun da separatçı rejimlərə, onları açıq dəstəkləyən ölkələrə qarşı ciddi tədbir görməsə, o zaman münaqişənin həlli mümkün olmayacaqdır.

Cənubi Qafqazın regional təhlükəsiziyik sistemini ən çox təhdid edən münaqişələrin, xüsusən, Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolundakı *ikinci* əsas maneə bu separatçı rejimlərin 1990-cı illərdəki "ictimai təşəbbüslər" formasında deyil, təpədən dırnağadək silahlanıb millitaristləşmələri, hər birinin arxasında güclü hərbi baza və təminatçı dövlətin dayanması ilə bağlıdır. Belə halda nə Azərbaycan, nə Gürcüstan, nə də ki, oxşar aqressiv separatçı rejimlərlə mübarizə aparan hər hansı başqa ölkə bu münaqişələri dinc yolla həll etmək iqtidarında deyillər.

Hazırda beynəlxalq təşkilatlar Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını təsdiqləsələr də, bu halı birmənalı formada pisləməkdən, işğalçı dövləti ittiham etməkdən və beynəlxalq təsir mexanizmlərindən istifadə edərək, onu BMT-nin qətnamələrinə tabe etdirmək iradəsi nümayiş etdirməkdən çəkinirlər. Ən yaxşı halda, həm BMT, həm ATƏT və Avropa İttifaqı, o cümlədən sülhyaratma prosesinə cəlb olunmuş Minsk qrupunun həmsədrləri "iki ölkə arasında kompromis mövqelər axtarmaq" və "onların özlərinin ortaq nöqtələr tapması" yolu ilə gedərək, bu münaqişəni həll etməyə cəhd edirlər ki, bu da faktiki olaraq status-kvo vəziyyətini neçə illərdir ki, uzatmaqda davam edir.

Beynəlxalq təşkilatlar hesab edir ki, münaqişəni "iki tərəf" həll etməlidir, onlarsa bu işdə "əldə olunacaq razılığın pozulmaz-

lığına" qarantiya verməlidirlər. Nəzərə alınsa ki, Azərbaycan üçün münaqişənin həlli *onun ərazi bütövlüyünün təmin olunması və bu ərazilər üzərində suveren dövlət hüquqlarının tanınması hesab olunur,* Ermənistan və separatçı Dağlıq Qarabağ rejimi üçünsə- *Dağlıq Qarabağın Azərbaycandan qopardılması,* o zaman bu münaqişənin həllində qarşılıqlı kompromislərin nədən ibarət olacağını hələ ki, heç bir ekspert müəyyən edə bilmir.

§ 6.5. Digər beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi və Azərbaycanın diplomatik fəaliyyətinin nəticələri

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əsasən ATƏT və qismən BMT məşğul olsa da, 1993-cü ildən başlayaraq Azərbaycan dövlətinin səyi ilə digər beynəlxalq və regional təşkilatlar da bu məsələyə birbaşa, yaxud dolayısı ilə münasibət bildirmişlər. Məsələn, Azərbaycanın üzv olduğu və dünyanın 50-dən artıq müsəlman dövlətini birləşdirən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) bütün zirvə toplantılarında Azərbaycan torpaqlarının işğalı məsələsini gündəliyinə salaraq, mühüm əhəmiyyət kəsb edən prinsipial qərarlar qəbul etmişdir. Belə ki, 1994-cü ildə Kasablankada İƏT-nın zirvə toplantısında, 1996-cı ildə Cakartada İƏT-nın üzvü olan dövlətlərin xarici işlər nazirlərinin 24-cü konfransında, 1997-ci ildə Tehranda və 2000-ci ildə Dohada keçirilən İƏT-nın zirvə toplantılarında Ermənistanın Azərbaycana təcavüzü haqqında qətnamələr qəbul edilmişdir. Onu da qeyd etmək vacibdir ki, İƏT Ermənistanı birmənalı şəkildə təcavüzkar dövlət kimi tanıyan ilk beynəlxalq təşkilatdır.

Azərbaycanın 2001-ci il yanvarın 25-də Avropa Şurasına bərabərhüquqlu üzv qəbul olması respublikanın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün yeni bir tribuna rolunu oynadı. 2001-ci il aprelin 24-27-də Azərbaycan Respublikasının AŞ PA-dakı nümayəndə heyətinin ilk dəfə olaraq bu qurumun iclasında tamhüquqlu üzv kimi iştirak etdiyi plenar sessiyada dövlətçilik maraqları baxımından mühüm, xüsusilə, Ermənistanın Azərbaycana təcavüzü faktlarını özündə əks etdirən bəzi sənədlər, o cümlədən 9 ölkə və AŞ PA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış "Ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımının tanınması" adlı yazılı Bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış "Ermənistan və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar" adlı məlumat AŞ PA-nın rəsmi sənədləri qismində yayılmışdır.

Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin qətlə yetirilməsi, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi, Ermənistanda, eyni zamanda, işğal edilmiş Azərbaycan ərazilərində uşaq, qadın və yaşlı insanların da daxil olmaqla, çoxsaylı azərbaycanlı girovların saxlanılması faktı və digər vacib məsələlər öz əksini tapmışdır.

2001-ci il iyunun 25-29-da AŞ PA-nın növbəti plenar sessiyası zamanı Azərbaycanla bağlı daha iki mühüm sənəd AŞ PA-nın rəsmi sənədləri kimi yayılmışdır. "Azərbaycan Respublikasında (Dağlıq Qarabağ, Laçın, Qubadlı, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan) ekoloji vəziyyət" adlı birinci sənəddə Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində ekoloji vəziyyətin düşünülmüş şəkildə korlanması məsələsi, "Azərbaycanın mədəni irsinin qəsb olunması və

dağıdılması" adlı ikinci sənəddə isə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində yerləşən mədəni abidə və sərvətlərin dağıdılması məsələsi Avropa ictimaiyyətinin diqqətinə çatdırılmışdır.

AŞ PA-nın 2001-2010-cu illər arasında keçirilən çoxsaylı plenar sessiyalarında və ayrı-ayrı tədbirlərində Azərbaycan nümayəndə heyəti tərəfindən hazırlanmış və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bu və ya digər aspektini əks etdirən onlarla mühüm sənəd də yayılmışdır. Burada işğal faktı dolayısı ilə təsdiqlənmişdir. Bütün bunlara baxmayaraq, Avropa Şurası hələ ki, Ermənistanı nə İƏT-nın etdiyi kimi, birbaşa işğalçı dövlət elan etmiş, nə də ki, ona qarşı işğal etdiyi Azərbaycan torpaqlarını tərk etmək tələbi irəli sürmüşdür.

Azərbaycanın diplomatik səyləri nəticəsində İƏT, Avropa Şurası və ATƏT-lə yanaşı, 2004-cü ildən Avropa İttifaqı və onun ayrı-ayrı strukturları da münaqişənin dinc vasitələrlə həlli istiqamətində müəyyən səylər göstərməyə başlamışdır. Belə ki, 2004-cü ilin əvvəlində Avropa Parlamenti Cənubi Qafqazda təhlükəsizlik məsələlərini müzakirə edərək belə qərara gəlmişdir ki, bölgədə təhlükəsizliyə və davamlı sülhə mane olan əsas hadisə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir və bütün Avropa ölkələri onun nizama salınmasına ciddi səy göstərməlidir. Avropa Parlamentinin sessiyasında "Avropa İttifaqının Cənubi Qafqaz siyasəti" mövzusunda Pyer Qartonun məruzəsi əsasında qəbul edilmiş qətnamədə ermənilərin işğal etdikləri ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə apardıqları haqqında bəzi faktlar göstərilmişdir. Eyni zamanda, Avropa Parlamenti Cənubi Qafqazda təhlükəsizliyin bərqərar olmasına manea olan münaqişənin nizama salınması üçün işğal

olunmuş Azərbaycan ərazilərinin (Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) azad edilməsi təklifi ilə çıxış etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın prinsipial mövqeyini 1993-2003-cü illərdə Prezident Heydər Əliyev, 2003-cü idən etibarən isə Prezident İlham Əliyev dəfələrlə BMT, ATƏT, NATO, AŞ, Aİ, İƏT, MDB və digər beynəlxalq və regional təşkilatların tribunalarından səsləndirmiş, bu təşkilatların rəhbərləri ilə keçirilən görüşlərdə və s. tədbirlərdə mütəmadi olaraq qaldırmış və məntiqi mülahizələrlə əsaslandırmışlar. Bütün bu görüşlərdə iştirak edən beynəlxalq təşkilatların rəhbərləri, dövlət başçıları və digər məsul şəxslər Azərbaycanın haqlı olduğunu, onun beynəlxalq hüquqlarının pozulduğunu, ərazilərinin işğal edildiyini və Ermənistanın bu məsələdəki qeyri-konstruktiv mövqeyini vurğulamış, lakin işğalçı ölkəyə hər hansı bir ciddi təzyiq göstərmək təklifindən yayınmışlar. Məsələn, Prezident İlham Əliyev 2004-cü il martın 17-də Bratislavada "Daha geniş Avropaya doğru: yeni gündəlik" mövzusunda keçirilən beynəlxalq konfransdakı çıxışında vurğulamışdır ki, Ermənistanın işğalçılıq siyasəti nəinki təkcə Azərbaycanı çətin vəziyyətə salmış, həm də bütünlüklə Avropada, xüsusilə, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsinə, insanların rifah halının yaxşılaşdırılması işinə ciddi maneə yaratmışdır. Konfransda Azərbaycan Prezidentinin haqlı mövqeyini və fikirlərini iştirakçıların əksəriyyəti qəbul edərək dəstəkləsə də, Ermənistana təzyiq etmək məqsədi ilə hər hansı bir qərar qəbul edilməmişdir.

Prezident İlham Əliyev bu tədbirdə Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək hüququ ilə bağlı irəli sürülən iddiaların beynəlxalq hüquqa zidd olduğunu məntiqi

mülahizələrlə sübut etmiş və ermənilərin artıq öz müqəddəratını təyin etdiyini, Ermənistan adlı müstəqil dövlət yaratdıqlarını vurğulamışdı. Azərbaycan Prezidenti çıxışında qeyd etmişdi ki, ermənilər yaşadıqları bütün digər ölkələrdə öz müqəddəratını təyin etmək fikrinə düşsələr, dünyada hansı vəziyyətin yaranacağını və hansı hadisələrin baş verəcəyini söyləmək çətindir. Bununla yanaşı, dövlət başçısı münaqişənin nizama salınması prosesində ATƏT-in Minsk qrupunun fəaliyyətinin heç bir səmərə vermədiyini vurğulayaraq, Avropa İttifaqı və Avropa Şurasını münaqişənin dinc vasitələrlə həlli istiqamətində səylərini gücləndirməyə çağırmışdı.[301]

2004-cü il aprelin 29-da AŞ PA-nın yaz sessiyasında Prezident İlham Əliyevin Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü haqqında ətraflı çıxışı böyük əks-səda səbəb olmuş və Avropa ictimaiyyətində bu münaqişə haqqında geniş təsəvvür yaratmışdır. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın düşdüyü vəziyyət haqqında ətraflı danışan dövlət başçısı məsələ ilə bağlı özünün qətiyyətli və prinsipial mövqeyini bir daha nümayiş etdirərək söyləmişdir: "Əlbəttə, biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətlə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən geri çəkilməlidir. Qaçqınlara, köçkünlərə doğma yurdlarına qayıtmaq imkanı verilməlidir. XXI əsrdə Avropa Şurasının üzvü olan bir ölkənin-Ermənistanın Avropa

[301] "Azərbaycan" qəzeti, 18 mart 2004-cü il

Şurasının üzvü olan digər ölkənin-Azərbaycanın ərazilərini işğal etməsinə yol verməməliyik".[302] Ümumiyyətlə, Prezident İlham Əliyevin Ermənistanın ərazi iddiaları və təcavüzkarlıq siyasətinin ifşası istiqamətində faktlara əsaslanan çox məzmunlu çıxışı Azərbaycan diplomatiyasının növbəti uğurlu addımı kimi qiymətləndirilməlidir.

Cənubi Qafqazda ən "uzunömürlü" münaqişə olan Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmamasının regionun təhlükəsizliyinin təmin edilməsinə və Cənubi Qafqazın bütövlükdə inkişafına ciddi maneə olduğunu artıq BMT, ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı və b. qurumlar da rəsmi şəkildə bəyan etmişlər. ATƏT-in Minsk qrupunun həmsədri olan dövlətlərin (ABŞ, Rusiya, Fransa) rəsmi şəxsləri də münaqişənin tezliklə aradan qaldırılmasında maraqlı olduqlarını bildiriblər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın prinsipial mövqeyini Avropa Parlamenti də dəfələrlə qəbul etdiyi müraciət və qətnamələrində müdafiə etmişdir. Avropa Parlamenti Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistanın silahlı qüvvələrinin çıxarılması, bu torpaqların Azərbaycanın nəzarətinə qaytarılması, qaçqın və məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtması hüquqlarının olduğunu dəfələrlə təsbit etmiş və Ermənistandan işğal edilmiş Azərbaycan ərazilərinə nizami ordu göndərilməsinin dayandırılmasını tələb etmişdir. 2004-cü il mayın 12-də Avropa Parlamentinin Cənubi Qafqaz üzrə məruzəçisi Pyer Qarton Ermənistanda "Genişlənmiş Avropa - yeni qonşular" proqramı çərçivəsində keçirilən müzakirələrdə "Ermənistan işğal altında

[302] "Azərbaycan" qəzeti, 30 aprel 2004-cü il

saxladığı ərazilərdən öz qoşunlarını tədricən çıxarmalıdır" - deməklə, Avropa İttifaqının Cənubi Qafqaz regionunda münaqişənin tezliklə aradan qaldırılmasının tərəfdarı olduğunu bildirmişdir.

Avropa Parlamentinin Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və Cənubi Qafqazda yürütdüyü işğalçı siyasətə münasibətinin ən bariz göstəricisi isə qurumun 2013-cü il oktyabrın 23-də Avropa Qonşuluq Siyasəti üzrə qəbul etdiyi xüsusi qətnamədə öz əksini tapmışdır.[303] Qətnamənin 16-cı paraqrafında Avropa Parlamenti tərəfindən "Şərq tərəfdaşlığı" Proqramında iştirak edən bir dövlət tərəfindən digər dövlətin ərazisinin işğal edilməsinin Şərq tərəfdaşlığının fundamental prinsip və məqsədlərinin pozulması olduğu barədə mövqeyi xatırladılmış və bu xüsusda, Dağlıq Qarabağ münaqişəsinin həllinin BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələri və 2009-cu il 10 iyul tarixli Akvil birgə bəyanatında ehtiva olunan ATƏT-in Minsk qrupunun baza prinsipləri əsasında həll edilməli olduğu vurğulanmışdır. Qətnamədə ilk dəfə olaraq Ermənistan-Azərbaycan münaqişəsinin məhz işğalçı qüvvələrin dərhal, qeyd-şərtsiz və tam şəkildə işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılması və Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının təmin olunmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməli olduğu vurğulanmışdır.

Bu sənəd bir daha onu təsdiq edir ki, beynəlxalq birlik münaqişənin BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında həllinin tərəfdarıdır.

[303] Bax: Azər TAC-ın xəbər bülleteni, 23 oktyabr, 2013-cü il.

Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məsələyə dünyanın nüfuzlu beynəlxlaq təşkilatlarından biri olan Şimali Atlantika Alyansında (NATO) da baxılmış və onun 2006-cı ilin noyabrında Riqada keçirilən sammitində müzakirə olunmuşdur. 26 dövlətin nümayəndələrinin iştirak etdiyi sammitdə qəbul olunmuş "Yekun bəyannaməsi"ndə Azərbaycanın ərazi bütövlüyü prinsipi öz əksini tapmışdır. Baxmayaraq ki, NATO ATƏT çərçivəsində həyata keçirilən nizamlama prosesində bilavasitə iştirak etmir, lakin bəyannamədə göstərilir ki, NATO bu məsələnin tezliklə və sülh yolu ilə, ölkələrin ərazi bütövlüyü çərçivəsində həll edilməsinin və bölgədə sabitliyin yaranmasının tərəfdarıdır. [304]

Şimali Atlantika Təşkilatı təxminən eyni mövqeni özünün 2008 və 2009-cu illərdə keçirilən növbəti zirvə toplantılarında da nümayiş etdirmişdir. Bundan başqa, təşkilatın 19-20 noyabr 2010-cu ildə keçirilən Lissabon sammitinin "Yekun bəyannaməsi"nin 35-ci maddəsində də Azərbaycanın ərazi bütövlüyü prinsipi öz əksini tapmışdır. Sənəddə qeyd edilir ki, NATO bir daha Gürcüstanın, Azərbaycanın və Moldovanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini tanıdığını və münaqişələrin sülh yolu ilə həllinə tərəfdar olduğunu bəyan edir.[305]

Azərbaycan hökuməti 1999-cu ilin aprelindən başlayaraq beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllinə cəlb edilməsi və onların səylərinin artırılması istiqamətində nümayiş etdirdiyi fəaliyyəti ilə yanaşı, münaqişənin dinc vasitələrlə nizamlanması məqsədilə digər addımlar da atmışdır. Bunların içərisində Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşləri xüsusi əhəmiyyət

[304] Bax: газ. "Зеркало", 11 февраля 2010 г.
[305] Bax: "Azərbaycan" qəzeti, 23 noyabr 2010-cu il

daşıyır. 1993-2003-cü illərdə Azərbaycan Prezidenti Heydər Əliyev o zamankı Ermənistan rəhbərləri ilə Moskvada, Vaşinqtonda, Cenevrədə, Yaltada, İstanbulda, Davosda, Nyu-Yorkda, Minskdə, Parisdə, Ki-Uestdə, Soçidə, Kişinyovda, Praqada, Strasburqda, habelə iki respublikanın sərhədində - Sədərəkdə 23 ikitərəfli görüş keçirmişdir. Bundan başqa, 2003-2010-cu illərdə Prezident İlham Əliyev Ermənistan prezidentləri ilə təkbətək, ATƏT-in Minsk qrupunun həmsədrləri ilə 28 görüş keçirmiş, Dağlıq Qarabağ münaqişəsinin həlli və Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə bağlı məsələləri müzakirə etmişdir. Bu görüşlərdə, qarşılıqlı olaraq, münaqişənin həllinin dinc yolla aradan qaldırılması imkanlarının hələ də tükənmədiyini vurğulamaqdan savayı, prezidentlər hələlik hansısa ciddi razılığa gəlinməsi haqqında heç bir fikir səsləndirməmişlər.

Ancaq çox ağır və çətin keçən danışıqlar zamanı Azərbaycan tərəfi öz haqlı mövqeyini müdafiə edərkən bir sıra çətinliklərlə qarşılaşır. Çünki münaqişə başlayandan keçən dövr ərzində aparılan danışıqlarda təcavüzkar Ermənistan qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətindən əl çəkmir. Digər tərəfdən isə, dünya birliyinin "ikili standartlar" prinsipindən çıxış etməsi, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret fəaliyyət göstərməməsi danışıqlar prosesində irəliləyişin əldə olunmasına maneə törədir. Buna baxmayaraq, Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc vasitələrlə nizama salmaq üçün fəaliyyət göstərən ATƏT-in sülhyaratma təkliflərinə hörmətlə yanaşaraq onun işində müntəzəm və əməli şəkildə iştirak edir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycanın Prezidenti İlham Əliyev keçən dövr

ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə 70-dən çox görüş keçirmiş və bu da münaqişənin nizama salınması istiqamətində aparılan danışıqlarda Azərbaycanın ilk növbədə sülh variantına üstünlük verdiyinə sübutdur.

Ümumiyyətlə, yarandığı vaxtdan etibarən ATƏT-in Minsk qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, indiyə qədər bu qurumun fəaliyyəti sülh prosesində arzu olunan nəticəni verməmişdir. Buna səbəb bir tərəfdən Ermənistan Respublikasının qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətini davam etdirməsi, digər tərəfdən beynəlxalq təşkilatların, qarşılıqlı güzəşt prinsipini üstün tutmasıdır. Bundan istifadə edən Ermənistan Respublikası ərazi ələ keçirmək məqsədilə başladığı təcavüz üçün daşıdığı məsuliyyətdən qaçmağa can atır, Dağlıq Qarabağ ermənilərinin münaqişədə iştirak edən tərəf kimi tanınmasını bütün vasitələrlə Azərbaycana qəbul etdirməyə çalışır.

Bununla yanaşı, keçən dövr ərzində ATƏT çərçivəsində yaradılan Minsk qrupu və bu qrupa həmsədrlik edən ABŞ, Fransa və Rusiya kimi böyük dövlətlər münaqişənin ədalətli həll olunmasında məsuliyyət daşımayıblar və təcavüzkara qarşı heç bir təzyiq göstərmək niyyətində olmayıblar. Bundan əlavə, münaqişədə Ermənistanın Azərbaycana təcavüzündən birbaşa danışmadan, işğal etdiyi ərazilərdən çıxmasını tələb etmədən və qəbul edilən sənədlərdə bu barədə heç nə demədən münaqişənin ədalətli həlli yolunda müsbət irəliləyişə nail olmaq çətindir. Eyni zamanda, təcavüzkar Ermənistana qarşı heç bir əməli tədbirin görülməməsi ATƏT-in nüfuzuna xələl gətirməklə bərabər, onun tərkibində yaradılan Minsk qrupuna olan ümidləri də heçə endirmişdir.

Eyni zamanda, Ermənistan Respublikası BMT Nizamnaməsinin 1-ci və 2-ci maddələrində və ATƏT-in Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobud şəkildə pozmasına baxmayaraq nüfuzlu beynəlxalq təşkilatların faktlar toplamaq sahəsində çoxsaylı missiyaları öz nəticələrini çıxararkən Ermənistan silahlı qüvvələrinin münaqişədə bilavasitə iştirakını etiraf etməkdən çəkinir və ya bunu etmək istəmirlər. Halbuki beynəlxalq təşkilatların məlum sənədlərində Ermənistan Respublikasının münaqişədə iştirakı etiraf olunub, təcavüz faktları öz əksini tapmışdır. Ona görə də böyük dövlətlər müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzkarın qarşısını almaq istəyirlərsə, BMT Nizamnaməsinin VII fəslinə müvafiq surətdə, qəti praktik addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər.

Bununla yanaşı, münaqişənin dinc vasitələrlə nizama salınması istiqamətində bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər Azərbaycanın mövqeyinin bir daha gücləndirilməsi və məsələnin beynəlxalq hüquq prinsipləri əsasında həllinin təsdiqlənməsi deməkdir. Bu baxımdan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə, ATƏT, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının qərarları da əhəmiyyətlidir və ölkəmizin ədalətli mövqeyinin beynəlxalq səviyyədə müdafiəsi üçün hüquqi əsasdır. Son zamanlar isə, Avropa Parlamenti və NATO-nun Zirvə toplantılarında qəbul olunan qərarlarda birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir və işğala son qoyulması bildirilir.

Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə və birmənalı olaraq "Azərbaycan ərazi bütövlüyü danışıqların mövzusu ola bilməz" fikrini irəli sürməsi ölkəmizin ərazi bütövlüyü təmin olunmaqla münaqişənin ədalətli şəkildə həll olunacağı

ilə bağlı ümidləri daha artırmışdır. Bununla yanaşı, Prezident İlham Əliyev Azərbaycan xalqı və dövlətinin bu işğal, etnik təmizləmə siyasəti ilə heç vaxt barışmayacağını və torpaqlarımızı azad etmək üçün əsasımızın olduğunu və bunun beynəlxalq hüquq normaları ilə təsdiq edildiyini vurğulamışdır. Ona görə ancaq Azərbaycan xalqının iradəsinə, gücünə arxalanmağı bildirən dövlət başçısı bu məqsədlə iqtisadiyyatımızı və ordumuzu gücləndirməyin vacibliyini bildirməklə yanaşı qeyd etmişdir ki, "Biz danışıqlar aparırıq, ancaq bununla bərabər, hər an torpaqlarımızı işğalçılardan hərbi yolla azad etməyə hazır olmalıyıq".

Bu baxımdan, ümummili lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş prinsiplərə sadiq qalan Prezident İlham Əliyevin münaqişənin nizama salınması prosesində hücum taktikasına üstünlük verməsi və bu istiqamətdə ardıcıl, qətiyyətli diplomatik addımların atılması problemin Azərbaycanın milli maraqları təmin olunmaqla aradan qaldırılması və uğurlu nəticələrin əldə edilməsinə möhkəm zəmin yaratmışdır.

ƏLAVƏLƏR

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK KONSEPSİYASI

GİRİŞ

Çoxəsrlik dövlətçilik tarixi keçmiş, 1918-ci ildə Şərqdə ilk demokratik respublika qurmuş və 1920-ci ildə müstəqilliyini itirmiş Azərbaycan Sovet İttifaqının süqutundan sonra, 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etmişdir. Azərbaycan xalqı daha geniş demokratik dəyərlərə qovuşmaq imkanından istifadə edərək, özünün milli dövlətçilik ənənələrinə, tarixi və mədəni irsinə söykənən müasir demokratik hüquqi dövlət quruculuğu yolunu seçmişdir.

Müstəqilliyin ilk dövründə gənc respublika Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmış, daxili qeyri-sabitlik, iqtisadi böhran, keçid dövrünün çətinlikləri və digər ciddi problemlərlə üzləşmişdir. Buna baxmayaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası bütün çətinlikləri dəf edərək, düzgün strateji inkişaf yolunu müəyyən edərək, hazırda uğurla irəliləyən, regionda və dünyada öz mövqelərini möhkəmləndirən iqtisadi, siyasi və digər baxımlardan dinamik inkişaf edən müasir ölkəyə çevrilməkdədir. Belə ki, Azərbaycan Xəzər-Qafqaz məkanında regional əməkdaşlıq üçün olduqca mühüm,

bir çox hallarda isə həlledici dövlət olub, xüsusən enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində əvəzsiz rol oynamaqdadır. Bu ümumi strategiyanın başlıca məqsədi Azərbaycan Respublikasının çiçəklənməsi, davamlı inkişafı və əhalinin rifahının təmin edilməsindən, eləcə də bütün regionda təhlükəsizlik və sabitliyin təmin olunmasına töhfə verməkdən ibarətdir.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası (bundan sonra Konsepsiya) dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avratlantik məkana inteqrasiyasını, bununla yanaşı tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur.

1. TƏHLÜKƏSİZLİK MÜHİTİ

Azərbaycan Respublikasının təhlükəsizlik mühiti onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalisinin rifah və dəyərlərinin qorunmasına təsir edən amillərin məcmusudur.

Qərb və Şərq dünyalarının qovuşduğu coğrafi məkanda yerləşən Azərbaycan Respublikası bir çox sivilizasiyaların müsbət məqamlarını özündə cəmləşdirmişdir. Avropanın mütərəqqi dəyərlərini paylaşan və Avratlantik təhlükəsizlik arxitekturasının ayrılmaz bir halqası olan Azərbaycan Respublikası bu məkanın təhlükəsizliyinə öz töhfəsini verməkdədir. Eyni zamanda, islam dünyasının bir hissəsi kimi Azərbaycan Respublikası bu mədəniyyətin irs və təfəkkürünü bölüşür.

Azərbaycan Respublikasının yerləşdiyi və hazırda qeyri-sabit olan region dostluq və əməkdaşlıq ruhlu regional və beynəlxalq tərəfdaşlarla birlikdə inkişaf üçün səmərəli istifadə oluna biləcək geniş potensiala və imkanlara malikdir. Azərbaycan Respublikasının zəngin təbii ehtiyatları ölkənin çiçəklənməsi və milli rifahın təmin olunması üçün perspektivlər açır, onu beynəlxalq əhəmiyyətli enerji mənbəyi və beynəlxalq enerji təchizatı şəbəkəsinin mühüm tərkib hissəsinə çevirir. Azərbaycan Respublikasının və tərəfdaş ölkələrin iqtisadiyyatlarının inkişafına artıq töhfə verən beynəlxalq əhəmiyyətli nəqliyyat və kommunikasiya dəhlizlərinin inkişaf etdirilməsi, neft və qaz boru kəmərlərinin inşası region ölkələrinin əməkdaşlığının bariz nümunəsidir.

Ölkənin yerləşdiyi coğrafi şərait ona mühüm üstünlüklər verməklə yanaşı, eyni zamanda, onu bir sıra təhlükəsizlik problemləri ilə də üzləşdirir. Bu problemlərin ən ağır və bariz nümunəsi Azərbaycan Respublikasının qonşu Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalması və bunun nəticəsində ölkə ərazisinin bir hissəsinin işğal olunması və təxminən bir milyon azərbaycanlının məcburi köçkün və qaçqına çevrilməsidir. Təcavüz zamanı Azərbaycan Respublikasının vətəndaşlarına qarşı soyqırımı və terror aktları daxil olmaqla, sülhə və insanlığa qarşı ən ağır cinayətlər törədilmişdir və zəbt olunmuş ərazilərdə transsərhəd mütəşəkkil cinayətkar, o cümlədən beynəlxalq terrorçu qruplar tərəfindən qeyri-qanuni fəaliyyət həyata keçirilməkdədir. İndiki Ermənistan və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində azərbaycanlılara məxsus tarixi, mədəni və arxeoloji abidələr kütləvi surətdə dağıdılmış, təbii sərvətlər talan edilmiş, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Azərbaycan Respublikasının məruz qaldığı bu təcavüz

onun hazırkı təhlükəsizlik mühitində və milli təhlükəsizlik siyasətinin müəyyən edilməsində əsas amildir.

Eyni zamanda, Azərbaycan Respublikasının təhlükəsizlik mühiti üçün beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik vasitələrin qaçaqmalçılığı və kütləvi qırğın silahlarının yayılması kimi təhdidlərin mövcudluğu dövlət qarşısında müəyyən vəzifələr qoyur.

2. AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MARAQLARI

Azərbaycan Respublikasının milli maraqları Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarət olmaqla, aşağıdakılardır:

dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;

Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi;

vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının təmin olunması;

demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmini yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;

beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün dəyərlərini bölüş-

düyü beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsi;

bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədi ilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;

təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, təhsil, elmi və texnoloji potensialın artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;

dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi;

Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi.

3. AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNƏ TƏHDİDLƏR

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsində əsas vəzifələrdən biri onun milli təhlükəsizliyinə təhdidlərin aradan qaldırılması və ya nəzarətdə saxlanılmasıdır.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər aşağıdakılardır:

3.1. Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər

Beynəlxalq hüquqa uyğun olaraq hər bir dövlətin onun müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə yönəlmiş açıq və gizli fəaliyyətdən özünü

qorumaq hüququ vardır. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı Ermənistanın təcavüzkar siyasəti bu cür fəaliyyətin bariz nümunəsidir.

Ölkənin sürətlə inkişaf edən iqtisadiyyatında aparılan islahatlara və əldə edilən mühüm nailiyyətlərə baxmayaraq, Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ciddi siyasi və sosial çətinliklər yaradır. Bu problem Azərbaycan Respublikasının milli maraqlarına qarşı ən ciddi təhdiddir və regiondan kənara da öz təsirini göstərməkdədir.

Münaqişənin tənzimlənməsinin nəticələrindən asılı olmayaraq, monoetnik dövlətçilik, etnik təmizləmə və ərazi ekspansionizminin Ermənistanın dövlət siyasətinin tərkib hissəsi kimi qalmasının iki ölkə arasında münasibətlərə gələcəkdə də mənfi təsir göstərəcəyi qaçılmazdır.

Bundan əlavə, bir sıra ekstremist ünsürlərin Azərbaycan Respublikasında etnik və dini zəmində əlavə çətinliklər yaratmaq cəhdləri də diqqət yetirilməli amillərdəndir.

3.2. Qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması və insan hüquq və əsas azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyalarını yerinə yetirməyə qarşı fəaliyyət

1990-cı illərin əvvəllərində bu problemin bir sıra aspektləri ilə üzləşmiş Azərbaycan Respublikasının demokratik dövlət quruluşu əleyhinə çalışan müəyyən daxili və xarici qüvvələrin dövlət funksiyalarının yerinə yetirilməsinə qarşı cəhdləri milli təhlükəsizliyə təhdid törədən mümkün fəaliyyətlər sırasındadır.

3.3. Separatçılıq, etnik, siyasi və dini ekstremizm

Separatçılıq, etnik, siyasi və dini ekstremizm özünün istənilən formasında dövlətin və cəmiyyətin fundamental əsaslarını sarsıtmaqla, ölkənin milli təhlükəsizliyinə ciddi təhlükə mənbəyi ola bilər.

3.4. Terrorçuluq və kütləvi qırğın silahlarının yayılması

Əsas terrorçu qrupların yerləşdiyi və kütləvi qırğın silahlarının yayılması problemlərinin olduğu bölgələrə yaxınlıq ölkə üçün potensial təhdid yaradır. Kütləvi qırğın silahları və ya onların istehsalat texnologiyalarının terrorçuluq məqsədi ilə əldə olunması ehtimalı bu təhdidləri daha da kəskinləşdirə bilər.

3.5. Regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlıq

Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğalının davam etməsi və qonşu dövlətlərdə həll edilməmiş münaqişələr nəticəsində əmələ gəlmiş "nəzarətsiz" ərazilərin mövcudluğu transmilli mütəşəkkil cinayətkarlığı və digər qeyri-qanuni fəaliyyətləri ölkənin və bütövlükdə regionun təhlükəsizliyinə əsas təhdidlərdən birinə çevirmişdir.

Region ölkələrində münaqişələrin alovlanması Azərbaycan Respublikasının milli təhlükəsizliyi üçün təhdid yaradır. Regiondakı münaqişələr Azərbaycan Respublikasının xarici iqtisadi münasibətlərinə ciddi ziyan vura, ölkəyə kütləvi qaçqın axını ilə nəticələnə və qeyri-qanuni silah alveri, insan alveri, narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər qeyri-qanuni fəaliyyətlər daxil olmaqla, transmilli cinayətkarlığı artıra bilər.

3.6. Azərbaycan Respublikasının enerji infrastrukturuna qarşı fəaliyyət

Enerji ehtiyatlarının işlənməsindən və tranzitindən əldə olunmuş gəlirlər Azərbaycan Respublikası iqtisadiyyatının əsasını təşkil edir. Bunu nəzərə alaraq, siyasi vasitələrə və ya infrastruktura fiziki zərər vurmaq yolu ilə sənayenin bu sahəsinin sıradan çıxarılmasına cəhdlər mümkün təhdidlər sırasındadır.

3.7. Xarici siyasi, hərbi və ya iqtisadi asılılıq

Azərbaycan Respublikası beynəlxalq aləmdə gedən inteqrasiya və əməkdaşlıq prosesləri çərçivəsində digər dövlətlərlə

qarşılıqlı faydalı münasibətlərin qurulmasında maraqlıdır. Bununla belə, Azərbaycan Respublikasının beynəlxalq münasibətlərdə xarici siyasi, hərbi və ya iqtisadi asılılığa düşməsi onun milli maraqlarının təmin olunmasına təhdid yarada bilən amillərdəndir.

3.8. İqtisadi qeyri-sabitlik

Müstəqilliyin ilk illərində hərbi təcavüzə məruz qalma, bazar iqtisadiyyatına keçid və beynəlxalq iqtisadi sistemə inteqrasiya ilə bağlı çətinliklər nəticəsində Azərbaycan Respublikası ötən əsrin 90-cı illərinin birinci yarısında ciddi iqtisadi böhran keçirmişdir. Buna baxmayaraq, Azərbaycan Respublikası bazar iqtisadiyyatına keçməkdə israrlı olmuş, qapılarını xarici sərmayələrə açmış və xüsusilə energetika sektorunda böyük uğurlar əldə etmişdir. Bununla belə, sürətlə artan neft və qaz gəlirlərindən həddən artıq asılılıq makroiqtisadi tarazlığı poza və beləliklə, ölkəni potensial qlobal və regional iqtisadi böhranların təsirinə qarşı müdafiəsiz vəziyyətə sala bilər.

3.9. Peşəkar insan ehtiyatlarının çatışmazlığı

Təhsil sahəsi müstəqilliyin ilk illərindəki mürəkkəb sosial-iqtisadi vəziyyətlə bağlı - maliyyə çatışmazlığı və struktur problemləri daxil olmaqla - mənfi nəticələri bu gün də hiss edilən ciddi çətinliklərlə üzləşmişdir. Peşəkar milli işçi qüvvəsinin və idarəetmə sektorunun inkişafı üçün zəruri olan bütün səviyyələrdə təlim və tədrisin təmin edilməsinə qadir olan mütərəqqi təhsil sisteminin inkişafındakı və idarə edilməsindəki uğursuzluq Azərbaycan Respublikasının inkişafına uzaq perspektivdə mənfi təsir göstərə bilər.

3.10. Regional hərbiləşdirmə

Regionda silahların və silah sistemlərinin həddən artıq cəmləşməsi regional sabitliyə xələl gətirir. Bu, region ölkələri arasında hərbi tarazlığı poza bilər. Rasional milli təhlükəsizlik

maraqlarından artıq hərbiləşmə, o cümlədən qeyri-effektiv nəzarət edilən xarici hərbi bazalar səhv qiymətləndirməyə və regional silahlanma yarışına səbəb ola bilər. Belə artan hərbiləşmənin digər aspekti ondan ibarətdir ki, bu, məhdud iqtisadi ehtiyatların sosial-iqtisadi inkişafdan yayınmasına və qarşılıqlı inamın pozulmasına gətirib çıxara bilər.

3.11. Ekoloji problemlər

Azərbaycan Respublikasındakı ekoloji problemlər Sovet İttifaqının enerji ehtiyatına olan tələbatının ödənilməsi məqsədi ilə əsasən Abşeron yarımadasında və Xəzər dənizində ekoloji nəticələr nəzərə alınmadan qeyri-təkmil üsullarla onilliklər ərzində aparılmış neft hasilatı ilə bağlıdır.

Bundan əlavə, Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində flora və faunanın kütləvi şəkildə məhv edilməsi, o cümlədən bu ərazilərdə törədilən genişmiqyaslı yanğınlar ölkə üçün ən böyük ekoloji problemlərdən birinə çevrilmişdir.

Azərbaycan Respublikasının şirin su ehtiyatlarının böyük həcminin qonşu ölkələrdə formalaşması və bu ölkələrin ərazilərində kimyəvi, radioaktiv və digər zərərli maddələrlə intensiv çirklənməyə məruz qalması əhalinin içməli su ilə təmin olunmasında problemlər yaradır. Bundan əlavə, Ermənistan ərazisində seysmik zonada yerləşən və texnoloji baxımdan köhnəlmiş Metsamor Atom Elektrik Stansiyası bütövlükdə region üçün təhlükə mənbəyidir.

Ətraf mühitin çirklənməsi, münbit torpaqların deqradasiyası, təbii ehtiyatlardan qeyri-rasional istifadə, sənaye və məişət tullantılarının tələb olunan səviyyədə emal olunmaması ciddi problem mənbəyidir.

Ekoloji problemlər iqtisadi və sosial həyata mənfi təsir göstərir, ictimai sağlamlığa, cəmiyyətin maddi sərvətinə və

dövlətin müvafiq qurumlarının fəaliyyətinə ciddi maneələr yaradır.

4. AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Suveren dövlət kimi, Azərbaycan Respublikası daxili və xarici siyasət vasitələrindən istifadə edərək mövcud təhlükəsizlik mühitində təhdidlərin nəzarət altında saxlanılmasına və aradan qaldırılmasına, habelə ölkənin milli maraqlarının təmin edilməsinə yönəlmiş milli təhlükəsizlik siyasətini formalaşdırır və həyata keçirir.

Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti xarici və daxili təhlükəsizlik arasında mövcud ayırıcı xətləri əhatə edən və adekvat çoxfunksiyalı tədbirlər tələb edən təhdidlərin müxtəlif ölçülü xarakterini nəzərə alır.

4.1. Təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin edilməsi

4.1.1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması

Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Beynəlxalq hüquqda təsbit olunmuş bütün vasitələrdən istifadə etməklə öz ərazi bütövlüyünü bərpa etmək Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin ən ümdə vəzifəsidir.

Ərazilərin zəbt edilməsi və etnik təmizləmə ümumbəşəri dəyərlərə və Avropa dəyərlərinə, eləcə də sülh, demokratiya, sabitlik və regional əməkdaşlıq prinsip və ideyalarına ziddir.

Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədar Azərbaycan Respublikasının səyləri dövlətlərarası si-

yasi razılaşmanın əldə olunması ilə məhdudlaşmır və bu razılaşmaya nail olduqdan sonra iki xalq arasında davamlı, qarşılıqlı sülhün və anlaşmanın bərqərar olmasına yönələcəkdir.

Azərbaycan Respublikası ona qarşı təcavüzün və ərazisinin bir hissəsinin işğalının nəticələrini aradan qaldırmaq üçün münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində sülh yolu ilə nizamlanmasının tərəfdarı olmaqda davam edir.

Münaqişənin nizamlanmasının hüquqi və siyasi əsasları Birləşmiş Millətlər Təşkilatı (BMT) Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrinə, həmçinin ATƏT-in, Avropa Şurasının müvafiq sənəd və qərarlarında əks olunmuş beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. Bu sənədlər Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığını bir daha təsdiq etmişdir.

Münaqişə Azərbaycan Respublikasının işğal olunmuş bütün ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılması, bu ərazilərdə Azərbaycan Respublikasının suveren hüquqlarının bərpa edilməsi, məcburi surətdə çıxarılmış azərbaycanlıların öz doğma yurd-yuvalarına qayıtması, Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının dinc yanaşı yaşamasını və Azərbaycan Respublikasının tərkibində yüksək səviyyəli özünüidarəetməni təmin edən hüquqi statusun qanuni və demokratik proses çərçivəsində işlənib hazırlanması, ölkənin ümumi iqtisadi inkişafı, regional inteqrasiya çərçivəsində bu bölgənin kommunikasiyalarının bərpası və sosial-iqtisadi yüksəlişi üçün şəraitin yaradılması əsasında həll olunmalıdır.

Azərbaycan Respublikası Ermənistan tərəfindən işğal olunmuş ərazilərində beynəlxalq hüququn norma və prinsiplərinin pozulması və həmin ərazilərdə qanunsuz fəaliyyətlə bağlı məsələləri daim diqqət mərkəzində saxlayır. Ermənis-

tanın vaxtilə azərbaycanlılar yaşamış bölgələrində və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində tarixi və mədəni irsin məhv edilməsi, azərbaycanlıların yaşayış məntəqələrinin simasının dəyişdirilməsi kimi faktların araşdırılması və buna müvafiq qiymət verilməsi üçün Azərbaycan Respublikası mövcud siyasi və hüquqi vasitələrdən istifadə edərək bundan sonra da lazımi tədbirlər görəcəkdir. İşğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma və təbii sərvətlərin istismarı və mənimsənilməsi bu baxımdan xüsusi diqqət mərkəzində saxlanılacaqdır.

Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı dövlət orqanlarının və vətəndaş cəmiyyətinin beynəlxalq səviyyədə və ölkə daxilində fəaliyyətlərinin və səylərinin uzlaşdırılması, Azərbaycan Respublikasına qarşı təcavüz və ərazisinin bir hissəsinin işğalı zamanı azərbaycanlılara qarşı törədilmiş soyqırımı, insanlıq əleyhinə və müharibə cinayətlərinin təqibi, "erməni problemi"nin hərtərəfli, dərindən tədqiqi, həqiqətlərin üzə çıxarılması və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, münaqişəyə beynəlxalq səviyyədə hüquqi qiymət verilməsinin təmini məqsədi ilə kompleks işlərin görülməsi və sair istiqamətlərdə ardıcıl tədbirlər həyata keçirilməlidir.

4.1.2. Avropa və Avratlantik strukturlarına inteqrasiya

Azərbaycan Respublikası Avropa və Avratlantik siyasi, təhlükəsizlik, iqtisadi və digər strukturlarına inteqrasiya strateji məqsədini güdür. Azərbaycan Respublikası Avratlantik strukturları ilə tərəfdaşlığı bütövlükdə Avratlantik məkanında ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək verəcək vasitə kimi görür.

Azərbaycan Respublikası Avropa və Avratlantik məkanında qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında NATO ilə birgə işləyir və təhlükəsizliyin bö-

lünməzliyi prinsipinə zidd coğrafi və siyasi ayrı-seçkilik olmadan Avropada və yerləşdiyi regionda vahid təhlükəsizlik sisteminin qurulması yükünü bölüşmək əzmindədir.

Azərbaycan Respublikası Avratlantik Tərəfdaşlıq Şurası və NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində NATO ilə mümkün olan tərəfdaşlıq vasitələrindən tam gücü ilə istifadə edir. Bu baxımdan Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı NATO ilə əməkdaşlığın yaxın və orta perspektivdə daha da gücləndirilməsi yolunda mühüm bir vasitədir. Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planından Azərbaycan Respublikasının təhlükəsizlik sektorunun islahatlar yolu ilə NATO standartlarına yaxınlaşdırılması və siyasi dialoqun inkişaf etdirilməsi üçün bir mexanizm kimi bundan sonra da istifadə olunacaqdır.

Avropa məkanına daha sıx inteqrasiyanın zəruriliyi mövqeyindən çıxış edən Azərbaycan Respublikası Avropa İttifaqı ilə çoxşaxəli qarşılıqlı əlaqələr yaratmışdır. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətləri "MDB Ölkələrinə Texniki Dəstək" (TACIS), "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRACECA) və digər proqramlar çərçivəsində inkişaf etdirilir. Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında 1999-cu ildən qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, demokratiyanın inkişafına kömək, eləcə də iqtisadi əməkdaşlıq və sərmayə qoyuluşu üçün əlverişli çərçivə yaradır.

Azərbaycan Respublikasının 2004-cü ildə Avropa İttifaqının "Yeni Qonşuluq Siyasəti"nə daxil edilməsi və bu siyasət çərçivəsində 2006-cı ildə qəbul edilmiş Azərbaycan-Avropa İttifaqı Fəaliyyət Planının həyata keçirilməsi siyasi dialoq və siyasi, iqtisadi və institusional islahatlar sahəsində əməkdaşlığı

daha da inkişaf etdirərək keyfiyyətcə yeni mərhələyə keçid üçün zəmin yaradır.

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında 2006-cı ildə imzalanmış "Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında" Anlaşma Memorandumu Avropa İttifaqının üzvü olan ölkələrin enerji mənbələri və nəqli yollarının çoxşaxəliliyinin təmin edilməsi, Azərbaycan Respublikasında enerji infrastrukturunun inkişafı və müasirləşdirilməsi, enerji ehtiyatlarından səmərəli istifadə olunması və tükənməz enerji mənbələrindən yararlanmasına öz töhfəsini verəcəkdir.

Azərbaycan Respublikasının Avropa İttifaqı ilə daha yaxından əməkdaşlıq etməsi Qafqazda sabitliyə töhfə verəcək və Avropa dəyərlərinin yayılmasına kömək edəcəkdir.

4.1.3. Beynəlxalq təhlükəsizliyə töhfə

Azərbaycan Respublikası beynəlxalq sülhün və sabitliyin qorunub saxlanmasına yönəlmiş birgə tədbirlərdə iştirak etməklə, beynəlxalq və regional təhlükəsizliyə töhfə vermək üçün davamlı səylər göstərir.

2001-ci il 11 sentyabr hücumlarından sonra terrorçuluqla mübarizə beynəlxalq gündəliyin ən vacib məsələlərindən birinə çevrilmişdir. Beynəlxalq ictimaiyyətin terrorçuluğa qarşı mübarizəsini tam dəstəkləyən Azərbaycan Respublikası istənilən pərdə altında həyata keçirilən terror fəaliyyəti əleyhinə bir sıra mühüm addımlar atmışdır. Azərbaycan Respublikası beynəlxalq terrorçu təşkilatlara qarşı mübarizəni dəstəkləmək məqsədi ilə öz hava məkanını və hava limanlarını açıq elan etmişdir. Azərbaycan Respublikası, həmçinin qlobal və regional səviyyədə terrorçuluğa qarşı mübarizə məqsədi ilə qəbul edilmiş bütün konvensiyaların iştirakçısıdır.

Azərbaycan Respublikası ən həssas bölgələrdə vəziyyətin sabitləşməsinə çalışır. Azərbaycan sülhməramlıları Serbiyanın

Kosovo əyalətində və Əfqanıstanda NATO-nun başçılığı ilə həyata keçirilən sülhməramlı əməliyyatlarda, İraqda beynəlxalq koalisiyanın tərkibində təhlükəsizliyin təmin olunmasında iştirak edirlər.

Azərbaycan Respublikası silahlara nəzarət və onların yayılmaması sahəsində müvafiq beynəlxalq müqavilələrin iştirakçısı kimi, beynəlxalq təhlükəsizliyin təmin olunmasına yönəlmiş səyləri tam dəstəkləyir. Beynəlxalq silahların yayılmaması rejiminin zəifləməsindən ciddi narahat olan Azərbaycan Respublikası adekvat nəzarətin tətbiqi üçün beynəlxalq ictimaiyyət və müvafiq təşkilatlarla əməkdaşlığını davam etdirəcəkdir.

Azərbaycan Respublikası onun Ermənistan tərəfindən işğal edilmiş ərazilərində silahlara nəzarət mexanizminin tətbiq olunmamasından narahatdır. Beynəlxalq nəzarətdən kənarda qalan bu ərazilərdə çoxlu silah və sursatın olması regional sülhə ciddi təhdidlər yaradır.

4.1.4. Beynəlxalq təşkilatlarla əməkdaşlıq

Azərbaycan Respublikasının beynəlxalq təşkilatların işində fəal iştirak etməsi onun təhlükəsizliyi və xarici siyasəti üçün mühüm əhəmiyyət kəsb edir. Miqyas və nüfuzundan asılı olmayaraq, universal və regional beynəlxalq təşkilatlar dünyada yaranan yeni təhdidlərlə mübarizədə getdikcə daha çox rol oynayırlar. Belə ki, beynəlxalq təşkilatlar təhdidlərin aradan qaldırılmasına və ya onların qarşısının alınmasına yardım etməklə yanaşı, Azərbaycan Respublikasının milli maraqlarının qlobal siyasətdə müdafiəsinə imkanlar yaradırlar. Eyni zamanda beynəlxalq təşkilatlar Azərbaycan Respublikasının üzləşdiyi təhlükəsizlik problemlərinə tərəfdaş dövlətlərin diqqətini cəlb etmək üçün əlverişli forum rolunu oynayırlar.

Bu baxımdan, universal və regional beynəlxalq təşkilatların mövcudluğu, inkişafı və müasir dünyada baş verən dəyişikliklərə uyğunlaşması Azərbaycan Respublikası üçün əhəmiyyətlidir.

Azərbaycan Respublikası 1992-ci ildən üzvü olduğu BMT-nin beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olmasında, davamlı inkişafın və demokratikləşmənin qorunub saxlanmasında əvəzsiz rol oynadığını qəbul edir. Azərbaycan Respublikasının BMT-yə göstərdiyi maraq Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə məhdudlaşmır. Azərbaycan Respublikası BMT dəyərlərini bölüşərək insan hüquqları, iqtisadi və sosial sahələrdə həyata keçirilən müxtəlif proqramlar çərçivəsində BMT ilə əməkdaşlığı genişləndirir. Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin BMT və digər qurumlar çərçivəsində terrorçuluğa qarşı mübarizəsinə töhfə verməkdədir. Azərbaycan Respublikası XXI əsrin problem və təhdidlərinə səmərəli cavab vermək üçün BMT-nin iş qabiliyyətinin artırılması məqsədi ilə, o cümlədən beynəlxalq hüquq sisteminin möhkəmləndirilməsi və qəbul edilmiş qərarların icrasının təmini istiqamətində bu təşkilat daxilində islahatların aparılmasını dəstəkləyir.

Azərbaycan Respublikasının 1992-ci ildən üzvü olduğu ATƏT Avropa qitəsinin bütün dövlətlərini əhatə edən və onlar arasında münasibətlərin və ümumi təhlükəsizliyin norma və prinsiplərini təsbit edən yeganə regional təşkilatdır. ATƏT-in Helsinki Yekun Aktı və digər sənədləri regionda sülhün və təhlükəsizliyin təmin edilməsi üçün prinsipial siyasi əsasdır.

Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsində oynadığı rol baxımından ATƏT-lə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətində xüsusi yer tutur. Bununla

yanaşı, Azərbaycan Respublikası digər sahələrdə də ATƏT-lə əməkdaşlıq edir.

Azərbaycan Respublikası ATƏT-in yeni siyasi mühitdə oynadığı mühüm rolu nəzərə alaraq, təşkilatın səmərəliliyinin, xüsusən də onun prinsiplərinə riayət edilməsi istiqamətində bütün təşkilat üzvlərinin xoşməramlı niyyəti və fəal iştirakı şəraitində müvafiq islahatların aparılması yolu ilə onun rolunun artırılmasında maraqlıdır.

Azərbaycan Respublikasının Avropa Şurası ilə əməkdaşlığı Avropa xalqları ailəsinə inteqrasiyanı və Avropa standart və dəyərlərindən bəhrələnməni özündə ehtiva edir. Azərbaycan Respublikası 2001-ci ildən üzvü olduğu Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində öz milli qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində tədbirlər görür. Ölkəmiz təşkilatın fundamental sənədlərindən olan "İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasını və onun müvafiq protokollarını 2001-ci il yanvarın 25-də imzalamış, 2001-ci il dekabrın 25-də isə ratifikasiya etmişdir.

İslam dünyasının tərkib hissəsi olan Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində fəaliyyətinə xüsusi diqqət yetirir. 1991-ci ildə İƏT-yə üzv olduqdan sonra Azərbaycan Respublikası bu təşkilat çərçivəsində fəal iştirakçıya çevrilmişdir. İƏT Ermənistanı təcavüzkar qismində tanıyan və pisləyən ilk beynəlxalq təşkilatdır. İƏT-nin ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən bu məsələyə dair aydın və ədalətli mövqeyi Azərbaycan Respublikasının həmin təşkilatla münasibətlərinin yüksələn xətt üzrə inkişafına əlverişli zəmin yaratmışdır. Sivilizasiyalararası körpü rolunu oynayan Azərbaycan Respublikası Qərb və Şərq mədəniyyətlərindən bəhrə-

lənməklə dövlətlər və xalqlar arasında dialoqa töhfə verməyə davam edəcəkdir.

Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyi (MDB) çərçivəsində əməkdaşlıq münasibətlərinin saxlanılmasında, MDB ölkələri ilə iqtisadi, siyasi, hüquqi və humanitar sahələrdə münasibətlərin ikitərəfli əsaslarda inkişaf etdirilməsində maraqlıdır.

Azərbaycan, Gürcüstan, Moldova və Ukraynanın üzv olduğu "Demokratiya və İqtisadi İnkişaf Naminə - GUAM" 1997-ci ildə yaradılmış, 2006-cı ildə isə beynəlxalq regional təşkilata çevrilmişdir. GUAM demokratiya, inkişaf və təhlükəsizlik sahələrində ümumi maraqlar əsasında tərəfdaş dövlətləri birləşdirir.

Azərbaycan Respublikası GUAM-ın üzvü olan dövlətlər üçün əhəmiyyət kəsb edən məsələlərdə, əsasən, ərazilərində mövcud münaqişələrin həll edilməsi və təcavüzkar separatizmlə mübarizə istiqamətində onların səylərinin birləşdirilməsi və vahid mövqedən çıxış edilməsinə xüsusi önəm verir.

GUAM üzvlərinin yerləşdiyi coğrafi məkan onların müasir geosiyasi və geoiqtisadi mövqeyi, xüsusilə enerji məsələləri və nəqliyyat dəhlizləri baxımından Avrasiya regionunda mühüm əhəmiyyət kəsb edir.

GUAM-ın demokratiya və iqtisadi inkişaf konsepsiyasının həyata keçirilməsi üzv ölkələrin inkişafına və beynəlxalq məkandakı roluna müsbət təsir göstərəcəkdir.

Azərbaycan Respublikasının xarici siyasətinin prioritetlərindən biri də Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT) ilə əməkdaşlığıdır. 1992-ci ildə Qara dəniz İqtisadi Əməkdaşlığı formatı kimi yaranan və 1998-ci ildə beynəlxalq regional təşkilata çevrilən QİƏT Qara dəniz, Xəzər dənizi və Aralıq dənizini əhatə edən regional və subregional səviyyədə

inteqrasiya proseslərinə və iqtisadi əməkdaşlığa yardım məqsədi daşıyır.

4.1.5. Regional əməkdaşlıq və ikitərəfli münasibətlər

Çoxşaxəli tarazlaşdırılmış xarici siyasət həyata keçirən Azərbaycan Respublikası bütün dövlətlərlə suverenliyə və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmama kimi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri əsasında dost münasibətlərin qurulmasında maraqlıdır və buna nail olmaq üçün səy göstərir. Azərbaycan Respublikası dünyanın əksər ölkələri ilə belə münasibətlər qurmuşdur və onları inkişaf etdirməkdədir.

Azərbaycan Respublikası əməkdaşlıq etdiyi dövlətlərlə regional və beynəlxalq problemləri həll etmək istiqamətində birgə fəaliyyət göstərir. Regional təhlükəsizlik, terrorçuluqla mübarizə, kütləvi qırğın silahlarının yayılmaması və enerji təhlükəsizliyinin təmin olunması prioritet sahələr sırasındadır.

Regionda sülh və sabitliyə nail olmaq üçün Azərbaycan Respublikası bir sıra addımların atılmasını vacib hesab edir. İlk növbədə region kütləvi qırğın silahlarından azad məkan olmalıdır. Nüvə silahının yayılmaması sahəsində mövcud beynəlxalq hüquq normalarına uyğun regional münasibətlərin inkişafı həm regional, həm də beynəlxalq səviyyədə sabitliyin bərqərar edilməsi və möhkəmlənməsi üçün zəruri şərtlərdəndir. Regionda xarici hərbi qüvvələrin olmaması regional təhlükəsizliyə töhfə verərdi. Regional təhlükəsizlik region ölkələrinin bir-birinin suverenliyini və ərazi bütövlüyünü tanıması, militarist və təcavüzkar siyasətdən çəkinməsi vasitəsi ilə yaradılmalıdır.

Azərbaycan Respublikası beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və milli

qanunvericiliyinə uyğun olaraq, eləcə də müvafiq xarici dövlətlərin qanunvericiliyi nəzərə alınmaqla, xaricdə yaşayan azərbaycanlıların hüquq və əsas azadlıqlarının təmin edilməsinə və onların milli özünəməxsusluğunun və dəyərlərinin qorunub saxlanılmasına kömək göstərməkdə davam edəcəkdir.

4.1.5.1. Region ölkələri ilə əməkdaşlıq

Azərbaycan Respublikası qonşu ölkələrlə hərtərəfli tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə böyük önəm verir. Bu ölkələrlə münasibətlərdə Azərbaycan Respublikası əsas problemlərin qarşılıqlı şəkildə və beynəlxalq hüquqa uyğun həllinin tərəfdarıdır. Azərbaycan Respublikası qonşu ölkələrlə sərhədlərin delimitasiyası və demarkasiyası məqsədi ilə aparılan danışıqların tezliklə başa çatdırılmasında maraqlıdır.

Separatçılığın, etnik, siyasi və dini ekstremizmdən qaynaqlanan risklərin zərərsizləşdirilməsində digər dövlətlərlə, xüsusən Azərbaycan Respublikası ilə qonşuluq təmaslarına malik ölkələrlə harmonik münasibətlərin qurulması mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası regionda sülhün və sabitliyin bərqərar olması üçün regional əməkdaşlığı əvəzolunmaz amil kimi qiymətləndirir. Eyni zamanda, Ermənistanın təcavüzkar siyasəti Cənubi Qafqazda hərtərəfli regional əməkdaşlıq yolunda əsas maneədir. Bu siyasətdən imtina etməyənədək Azərbaycan Respublikası Ermənistanla əməkdaşlığı mümkün hesab etmir.

Digər tərəfdən, Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli strateji tərəfdaşlıq və genişlənən əməkdaşlıq regionda sabitlik amilinə çevrilmişdir. Bu əməkdaşlıq Qara dəniz və Xəzər dənizi regionlarının əhəmiyyətini artıran, Avropa və bütövlükdə qlobal enerji təhlükəsizliyinə töhfə verən Bakı-Supsa, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft ixrac

boru kəmərləri və Cənubi Qafqaz qaz boru kəməri (Bakı-Tbilisi-Ərzurum) kimi üç uğurlu enerji infrastrukturu layihəsi ilə Avropa üçün yeni həyati və təhlükəsiz enerji mənbəyinin əsasını qoydu.

Geostrateji cəhətdən önəmli olan "Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısı" layihəsinin həyata keçirilməsi regional əməkdaşlığın daha da sürətləndirilməsi və genişləndirilməsi istiqamətində mühüm bir addım olaraq, eyni zamanda yeni qlobal imkanlar yaradır.

Azərbaycan Respublikasının müstəqilliyini tanımış ilk dövlət olan və regionda sülh və sabitliyin bərqərar olunmasında müstəsna rol oynayan Türkiyə ilə bütün sahələrdə hərtərəfli münasibətlər son dərəcədə mühümdür. Etnik, mədəniyyət və dil baxımından bir-biri ilə sıx bağlı olan ölkələrimiz arasında qarşılıqlı münasibətlər strateji əməkdaşlıq səviyyəsində daha da genişlənməkdə və dərinləşməkdədir. Azərbaycan Respublikası və Türkiyənin trans-regional iqtisadi layihələrin gerçəkləşməsinə töhfələri, eləcə də Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsinin həllinə yönəldilmiş səyləri iki ölkənin mövqelərinin tam uyğunluğunu və onlar arasında əməkdaşlığın keyfiyyət səviyyəsini nümayiş etdirir.

Azərbaycan Respublikasının Gürcüstan ilə əməkdaşlığının və tərəfdaşlığının hərtərəfli inkişafı ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. İki dövlətin ümumi maraqlarının mövcudluğu, regiondakı enerji infrastrukturu və nəqliyyat layihələrinin həyata keçirilməsi, eləcə də qarşılıqlı maraq kəsb edən digər sahələr çərçivəsində Gürcüstan ilə sıx əməkdaşlıq edən Azərbaycan Respublikası ikitərəfli strateji tərəfdaşlıq münasibətlərini daha da inkişaf etdirməyə davam edəcəkdir.

Azərbaycan, Gürcüstan, Moldova və Ukraynanın "Demokratiya və İqtisadi İnkişaf Naminə - GUAM" çərçivəsində mövcud tərəfdaşlığı regional əməkdaşlığın digər bir nümunəsidir.

Ukrayna və Moldova ilə tərəfdaşlıq yalnız GUAM çərçivəsində deyil, eyni zamanda ikitərəfli əsaslarda siyasi, iqtisadi, humanitar və digər sahələrdə inkişaf etdirilir.

Azərbaycan ilə Rusiya arasında mövcud olan münasibətlər regionun sabitliyi və inkişafı üçün mühüm amildir. Azərbaycan Respublikası Rusiya Federasiyası ilə ikitərəfli əsaslarda, eləcə də Avropa regional təşkilatları, xüsusilə də MDB çərçivəsində çoxtərəfli əsaslarda siyasi, iqtisadi, humanitar, təhlükəsizliyin təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə və digər sahələrdə strateji tərəfdaşlıq və əməkdaşlıq edir.

Azərbaycan Respublikası Xəzəryanı ölkələrlə sülh və mehriban qonşuluq şəraitində yaşamaq və müxtəlif regional layihələrdə birgə iştirakda maraqlıdır. Azərbaycan Respublikası Xəzəryanı ölkələr olan Rusiya və Qazaxıstanla yaxın qonşuluq münasibətlərinə malikdir. Bu gün Azərbaycan neftinin Xəzər dənizindən Qara dəniz vasitəsilə Avropa bazarlarına daşınması marşrutlarından biri də Bakı-Novorosiysk boru kəməridir. Qazaxıstanla Azərbaycan Respublikası arasında isə Qazaxıstan neftinin Xəzər dənizi və Azərbaycan ərazisindən Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında 2006-cı ildə müqavilə imzalanmışdır.

Bu üç Xəzəryanı ölkə artıq Xəzər dənizinin dibinin bölüşdürülməsi barədə razılığa gəlmişlər. Azərbaycan Respublikası yaxın qonşuları İran və Türkmənistan ilə də belə razılaşma əldə ediləcəyinə və yaxın gələcəkdə Xəzər dənizinin statusunun müəyyən olunacağına, Xəzər dənizindən yalnız sülh

məqsədləri və sahilyanı dövlətlərin çiçəklənməsi üçün istifadə olunacağına inanır.

Azərbaycan Respublikası qonşu İranla münasibətlərinə böyük əhəmiyyət verir. Tarix və mədəniyyət sahələrində zəngin müştərək irsə malik iki ölkə arasında münasibətlər dövlətimizin xarici siyasətinin vacib istiqamətlərindən biridir. Azərbaycan Respublikası İranla siyasi, iqtisadi, mədəni və digər sahələr üzrə qarşılıqlı faydalı əlaqələrin inkişaf etdirilməsində maraqlıdır.

4.1.5.2. Qeyri-region ölkələri ilə əməkdaşlıq

Azərbaycan Respublikası region ölkələri ilə yanaşı, digər ölkələrlə də əməkdaşlıqda maraqlıdır. İlk növbədə Azərbaycan Respublikası strateji tərəfdaşı olan ABŞ ilə BMT və Avratlantik strukturlar çərçivəsində, antiterror koalisiyasında, beynəlxalq terrorizm, separatçılıq, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, korrupsiya, qanunsuz silah və insan alveri kimi qlobal çağırış və təhdidlərə qarşı mübarizə məsələlərində, ikitərəfli münasibətlər səviyyəsində isə siyasi, hərbi, iqtisadi, enerji təhlükəsizliyi sahələrində, ölkəmizdə demokratik islahatların aparılması istiqamətində əməkdaşlıq edir.

Avropa ölkələri ilə əməkdaşlığını ikitərəfli və çoxtərəfli əsaslarda quran Azərbaycan Respublikası Avropa iqtisadi və hüquqi məkanına inteqrasiyanın dərinləşməsində, birgə regional iqtisadi layihələrin həyata keçirilməsində maraqlıdır. Azərbaycan Respublikası xüsusilə Baltikyanı, Şərqi və Cənub-Şərqi Avropa ölkələri ilə siyasi, iqtisadi əməkdaşlığın genişləndirilməsini vacib hesab edir. Azərbaycan Avropada enerji mənbələrinin diversifikasiyası və enerji təhlükəsizliyinin təmin

olunması siyasətinə öz töhfəsini verməklə bu istiqamətdə bir sıra mühüm addımlar atmışdır.

Mərkəzi və Orta Asiya dövlətləri ilə də münasibətlər Azərbaycan Respublikasının xarici siyasətində əhəmiyyətli yer tutur. Bu regionun ölkələri ilə mövcud ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə xüsusi önəm verilir.

Azərbaycan Respublikası Uzaq Şərqin və Cənub-Şərqi Asiyanın qabaqcıl dövlətləri olan Çin, Koreya Respublikası və Yaponiya ilə qarşılıqlı faydalı əməkdaşlıqda maraqlıdır. Bu ölkələrin Azərbaycan Respublikasındakı iqtisadi layihələrə fəal qoşulması, «Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi» (TRACECA) layihəsinin gerçəkləşməsi ikitərəfli münasibətlərin zəngin potensialının inkişaf etdirilməsi üçün əlverişli zəmin yaratmışdır.

Cənub-Şərqi və Cənubi Asiyada yeni iqtisadi və siyasi güc mərkəzlərinin təşəkkülü Azərbaycan Respublikasının xarici siyasətinin bu istiqamətə marağının artmasına səbəb olmuşdur.

Azərbaycan Respublikasının Yaxın Şərq dövlətləri ilə münasibətləri də böyük potensiala malikdir və ölkəmiz bu dövlətlərlə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi istiqamətində səyləri davam etdirəcəkdir.

4.2. Müdafiə qabiliyyətinin möhkəmləndirilməsi

Azərbaycan Respublikasının müdafiə qabiliyyəti ölkənin milli maraqlarını təmin etmək üçün əsas amillərdən biridir.

Azərbaycan Respublikasının müdafiə siyasəti milli ehtiyatlara və mövcud təhlükəsizlik vəziyyətinə əsaslanan, demokratik nəzarət altında olan müdafiə qabiliyyətinin inkişaf etdirilməsinə və saxlanmasına əsaslanır. Azərbaycan Respublikasının Silahlı Qüvvələri ölkənin müdafiə qabiliyyətinin əsasını təşkil edir.

Azərbaycan Respublikasının milli müdafiə siyasətinin əsasını aşağıdakılar təşkil edir:

bütün ölkələrlə dinc yanaşı yaşama;

digər dövlətlərin suverenliyinə və müstəqilliyinə hörmət və onların daxili işlərinə qarışmama;

mövcud dövlət sərhədlərinin bütövlüyü və onların dəyişməzliyi;

beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi;

hərbi quruculuqda konkret qüvvələr nisbətini nəzərə almaqla zəruri müdafiə kifayətliliyi məfhumunun dəstəklənməsi.

Tarixi keçmişini, təhlükəsizlik vəziyyətini, demokratik dövlət quruculuğunun əsas vəzifələrini və ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğal olunması faktını nəzərə alan Azərbaycan Respublikasının apardığı milli müdafiə siyasətinin əsas məqsədləri aşağıdakılardan ibarətdir:

Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin qorunması, ərazi bütövlüyünün bərpa edilməsi və bütün əraziləri üzərində nəzarətin təmin olunması;

xarici hərbi təcavüzün qarşısının alınması və dəf edilməsi üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşə və səfərbərliyə hazırlıq səviyyəsində saxlanılması;

NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramının müvafiq mexanizmlərində iştirakının davam etdirilməsi, NATO dövlətləri və digər tərəfdaş ölkələrlə qarşılıqlı faydalı əsaslara söykənən ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlığın həyata keçirilməsi;

Azərbaycan Respublikasının müdafiə sahəsində öz üzərinə götürdüyü beynəlxalq hüquq öhdəliklərinin yerinə yetirilməsi;

müvafiq tədbirlərin həyata keçirilməsi yolu ilə beynəlxalq təhlükəsizliyə töhfə.

Azərbaycan Respublikasının müdafiə siyasəti aşağıdakı prinsiplərə əsaslanır:

Azərbaycan Respublikasının Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələrlə mərkəzləşdirilmiş rəhbərliyin vəhdəti və bu fəaliyyətə demokratik nəzarətin təmin olunması;

Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin olunması sisteminə qarşı hərbi təhdidlərin vaxtında aşkarlanması və qiymətləndirilməsi;

hərbi sahədə milli təhlükəsizliyin təmin olunması üçün qüvvə, vasitə və ehtiyatların zəruri kifayətliliyi, onların müvafiq planlaşdırılması və istifadəsi.

Hərbi sahədə milli təhlükəsizliyin etibarlı təmin edilməsi məqsədi ilə müdafiə sahəsində dövlətin praktiki fəaliyyəti mühüm hərbi vəzifələri, ehtimal olunan müharibə və hərbi münaqişələrin xüsusiyyət və məqsədinin qiymətləndirilməsi, mümkün təhlükənin miqyasını, ölkənin hərbi sahədə təhlükəsizliyinə təhdid olan hərbi və siyasi qüvvələrin və digər amillərin yerini, silahlı qüvvələrin təşkili prinsiplərini və mümkün təcavüzün qarşısını almağa hazırlıq yollarını müəyyən etməkdən ibarətdir.

Milli müdafiə siyasətinin mühüm elementlərindən biri iqtisadiyyat və müdafiə arasında optimal qarşılıqlı nisbətin bərqərar edilməsi və milli müdafiə sənayesinin inkişaf etdirilməsidir.

Ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi yolunda hərbi-siyasi və hərbi-texniki sahədə beynəlxalq əlaqələrin və əməkdaşlığın hər cür inkişafı müstəsna əhəmiyyət kəsb edir. Avratlantik məkanın təhlükəsizlik sisteminə inteqrasiya, NATO dövlətlərinin qüvvələri ilə qarşılıqlı uzlaşan hərbi əməliyyat qüvvələrinin yaradılması, böhranların aradan qaldırılma-

sı məqsədi ilə müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlı cavab əməliyyatlarında iştirak etmək Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən hesab olunur.

Ölkə ərazisinin və onun vətəndaşlarının tam müdafiəsi Azərbaycan Respublikası Konstitusiyasının tələbidir ki, bu da bütün vasitələrlə təmin olunmalıdır. Bu məqsədlə Azərbaycan Respublikasının Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələr səlahiyyətləri daxilində öz vəzifələrini həyata keçirirlər.

Dövlətin Silahlı Qüvvələri və başqa silahlı birləşmələri Azərbaycan Respublikasının Konstitusiyasında, qanunlarında, digər normativ hüquqi aktlarda, beynəlxalq humanitar hüquq sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş hüquq və vəzifələri yerinə yetirir.

4.3. Təhlükəsizliyin daxili siyasət vasitələri ilə təmin edilməsi

4.3.1. Demokratiyanın möhkəmləndirilməsi

Azərbaycan Respublikası insan hüquq və əsas azadlıqlarının qorunmasına təminat kimi demokratik idarəetmə və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsini alternativsiz yol kimi seçmişdir.

Dövlət müstəqilliyinin bərpa olunmasından sonra ərazisinin bir hissəsinin qonşu Ermənistan tərəfindən davam edən işğalının mənfi təsirlərinə baxmayaraq, Azərbaycan Respublikası qanunvericilik sistemində və iqtisadi sistemdə mühüm islahatlar aparmışdır. Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Avropa İnsan Hüquqları Məhkəməsinə və BMT-nin insan hüquqları üzrə müqavilə-nəzarət orqanlarına müraciət etmək hüququ təmin edilmişdir. İnsan hüquq və əsas azadlıqlarını qorumaq

üçün Ombudsman təsisatı yaradılmış, məhkəmələrin müstəqilliyi təmin olunmuşdur. Bütün kütləvi informasiya vasitələri üzərində dövlət nəzarəti və senzura ləğv edilməklə, söz azadlığını qoruyan müvafiq qanunvericilik tədbirləri görülmüşdür.

Eyni zamanda, davam edən demokratik islahatlar prosesi çərçivəsində ölkədə seçki praktikasının bundan sonra da inkişaf etdirilməsi, qanunların icrası mexanizmlərinin təkmilləşdirilməsi, dövlət idarələrində və bu idarələrə işəgötürmə ilə bağlı şəffaflığın yaradılması, yerli özünüidarə orqanlarının səlahiyyətlərinin aydın surətdə müəyyən olunması və onların yerli problemlərin həll edilməsində rolunun artırılması, habelə kütləvi informasiya vasitələrinin və qeyri-hökumət təşkilatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi hökumətin diqqət mərkəzində olan önəmli məsələlər sırasındadır.

Bütün təhlükəsizlik strukturları üzərində demokratik və mülki nəzarət, onların fəaliyyətinin şəffaflığı, korrupsiyaya qarşı səmərəli mübarizə, ümdə vəzifəsi xalqa xidmət olan yüksək vəzifəli şəxslərin məsuliyyətinin daha da artırılması və onların məsul olduğu sahələr üzrə fəaliyyətləri barədə Milli Məclis deputatlarının, kütləvi informasiya vasitələri ilə ictimaiyyətin məlumatlandırılması kimi məsələlər üzrə hökumət ardıcıl səylərini davam etdirəcəkdir.

Demokratik hüquqi dövlətin qanunun aliliyi, insan hüquq və əsas azadlıqları və sosial ədalət kimi fundamental əsaslarının təmin olunması müvafiq dövlət funksiyalarının yerinə yetirilməsi əleyhinə yönəlmiş fəaliyyətlərə qarşı mübarizəyə və milli maraqların həyata keçirilməsinə əhəmiyyətli dəstək verəcəkdir.

4.3.2. Milli və dini tolerantlıq mühitinin qorunması

Azərbaycan Respublikası həmişə müxtəlif millətlərin və dinlərin sülh şəraitində birgə yaşayışına nümunə olmuşdur.

Azərbaycan dövləti cəmiyyətin maraqlarından irəli gələn rasional milli siyasət kursunu, dini tolerantlıq mühitinin qorunması və inkişafını, bütün vətəndaşların qanun qarşısında bərabərliyi və qanunun aliliyini, demokratik hüquq və azadlıqların, həmçinin insanların bu hüquq və azadlıqlardan sərbəst istifadə imkanlarının təmin edilməsini müvafiq riskin real təhdidə çevrilməsinin qarşısının alınması və neytrallaşdırılmasının mühüm şərtləri qismində nəzərdən keçirir.

Hazırkı mərhələdə ölkədə bərqərar edilmiş milli və dini tolerantlıq mühitinin qorunması və inkişafı dövlət qarşısında duran başlıca vəzifələrdən hesab olunur. Azərbaycan dövlətinin milli siyasət kursu Konstitusiyanın əsas prinsiplərindən birinə əsaslanır: Azərbaycan Respublikası bütün ölkə vətəndaşlarının ümumi və bölünməz vətənidir.

4.3.3. Elm, təhsil, mədəniyyət siyasəti və mənəviyyatın qorunması

Elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması siyasəti Azərbaycan xalqının mədəni irsinin, maddi və mənəvi dəyərlərinin mühafizəsinə, onun mədəni tələbatlarının ödənilməsi vasitələrinin və elmi-texniki potensialının daxili və xarici təhdidlərdən qorunmasına, mütərəqqi daxili və beynəlxalq inkişafdan bəhrələnməsinə yönəlmişdir.

Azərbaycan Respublikası ümumdünya mədəniyyətinin qloballaşması meyillərindən kənarda qalmamaq şərti ilə, milli mədəniyyətin özünəməxsusluğunu qoruyur və eyni zamanda dünyanın mədəni nailiyyətlərindən milli mədəniyyətin tərəqqisində istifadə üçün imkanlar yaradır.

Azərbaycan Respublikası beynəlxalq öhdəliklərinə uyğun olaraq öz ərazisində tarixi və mədəni abidələrin qorunmasını təmin edir.

Ölkənin davamlı inkişafı üçün adekvat sayda, yaxşı təhsil almış və təlim keçmiş peşəkar insan potensialını, həmçinin

elmi-texniki tərəqqini təmin etmək zəruridir. Bu məqsədlə, Azərbaycan Respublikası elm və təhsil səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması, yeni texnologiyalardan istifadə üçün inkişaf etmiş ölkələrlə əməkdaşlıq əlaqələrini genişləndirir, beynəlxalq təcrübəni öyrənir və tətbiq edir. Azərbaycan Respublikası elmi potensialın qorunması və inkişafına dair dövlət siyasətinin uzunmüddətli proqramlarını hazırlayıb həyata keçirir.

4.3.4. İqtisadi və sosial inkişaf

Ölkənin iqtisadi inkişafının davamlı olması hökumətin iqtisadi siyasətinin təməl prinsipidir. Bu həm iqtisadi, həm də sosial ölçülərin bərabər səviyyədə nəzərə alınmasını tələb edən kompleks bir məsələdir. Ona görə də Azərbaycan Respublikası bu istiqamətlərin hər biri üzrə sinxron və əlaqələndirilmiş proqram həyata keçirmək niyyətindədir.

Azərbaycan Respublikasında inflyasiya tempinin məqbul səviyyədə saxlanılması və valyuta bazarında sabit və proqnozlaşdırıla bilən vəziyyət təmin edilmiş, strateji valyuta ehtiyatları əhəmiyyətli dərəcədə artmışdır. Dövlət idarəetmə sistemində struktur islahatları həyata keçirilmiş, müəssisələrin böyük qismi öz fəaliyyətlərini bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq səmərəli təşkil edə bilmişdir.

Sürətlə artan neft və qaz gəlirlərindən həddən artıq asılılıq nəticəsində yarana biləcək iqtisadi qeyri-sabitlik təhdidinin qarşısının alınması məqsədi ilə iqtisadi siyasət iqtisadi çoxşaxəliliyin təşviqinə yönəldilməlidir.

Sahibkarlıq fəaliyyətində mühüm inkişaf müşahidə olunmuş, iqtisadiyyatın liberallaşmasının dərinləşdirilməsi istiqamətində nailiyyətlər əldə edilmişdir. Artım tempi əhalinin rifah səviyyəsinin yüksəlməsi üçün görülən konkret tədbirlər, struktur-texnoloji müasirləşmənin həyata keçirilməsi və ölkə-

nin rəqabət üstünlükləri sayəsində təmin edilməlidir. Sosial-iqtisadi inkişafda yeni nailiyyətlərin əldə edilməsi həm də islahatların aparılmasına, özəlləşdirmə zamanı şəffaflığın təmin edilməsinə, iqtisadiyyatın müasirləşməsinə, sosial dəyişikliklərin keçirilməsinə kompleks yanaşmanın davam etdirilməsini tələb edir.

Həyata keçirilən regional iqtisadi siyasətin əsas məqsədi ölkəmizin bütün bölgələrinin mövcud potensialından səmərəli istifadə etməklə qeyri-neft sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır.

Azərbaycan Respublikasının uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində sərmayələrin cəlb edilməsi xüsusi rol oynayır. Sərmayələrin tələb olunan həcm və keyfiyyəti, ilk növbədə, özəl sərmayələrin dəstəyi nəticəsində təmin edilə bilər. Ona görə də əlverişli sərmayə mühitinin yaxşılaşdırılması qarşıda duran ən əsas vəzifələrdəndir. Bunun üçün şəxsi mülkiyyətin qorunması və korporativ idarəetmənin təkmilləşdirilməsinə, mülkiyyət formasından asılı olmayaraq bütün sərmayədarlar üçün daha əlverişli rəqabət mühitinin yaradılmasına, sərmayə fəaliyyətinin normativ hüquqi bazasının daha da təkmilləşdirilməsinə, sərmayə axınının qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsinin stimullaşdırılmasına diqqət yetiriləcəkdir. Eyni zamanda, Azərbaycan şirkətlərinin xarici ölkələrdə fəaliyyəti və beynəlxalq layihələrdə iştirakı dəstəklənəcəkdir.

Həmçinin "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizində Azərbaycan Respublikasının tranzit ölkə kimi potensialının gücləndirilməsinə, müasir texnologiyaların ölkəmizə gətirilməsinə və informasiya-telekommunikasiya sistemlərinin inkişafına xüsusi önəm veriləcəkdir.

4.3.5. Daxili təhlükəsizliyin möhkəmləndirilməsi

Daxili təhlükəsizliyin təmin olunması dövlətin ən vacib vəzifələrindən biridir. Bu, həmçinin onun beynəlxalq risk və təhdidlərə cavab vermə qabiliyyətini gücləndirir.

Davamlı daxili təhlükəsizlik yalnız insan hüquq və əsas azadlıqlarına hörmət, vətəndaş cəmiyyətinin və sosial rifahın inkişafı vasitəsi ilə mümkündür. Azərbaycan Respublikasının müvafiq dövlət orqanları öz növbəsində ictimai asayişi qorumaq, cinayətkarlıq və korrupsiya ilə mübarizə aparmaqla, daxili təhlükəsizliyin təmin olunmasında məsuliyyət daşıyır. Bu sahədə hüquq mühafizə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması məqsədi ilə qanunvericilik və institusional islahatlar aparılır, praktiki tədbirlər görülür.

Milli təhlükəsizliyin ən vacib elementlərindən biri kimi kəşfiyyat və əks-kəşfiyyat dövlətin və onun vətəndaşlarının təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

4.3.6. Sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi

Azərbaycan Respublikasının həssas coğrafi vəziyyəti onu beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik vasitələrin qaçaqmalçılığı və kütləvi qırğın silahlarının yayılması kimi bir sıra transsərhəd təhdidlər ilə üzləşdirir.

Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycan Respublikasının İran İslam Respublikası ilə 132 km və Ermənistanla 733 km uzunluğunda olan beynəlxalq sərhədləri

Ermənistan tərəfindən zəbt olunmuşdur. Bu sərhədlərin nəzarətdən kənarda qalması yuxarıda sadalanan cinayətkarlıq üçün münbit şərait yaradır.

Transsərhəd təhdidlərin mövcudluğu ölkənin sərhəd təhlükəsizliyinə xüsusi diqqət yetirilməsini zəruri edir. Sərhəd təhlükəsizliyi siyasətinin effektiv həyata keçirilməsi üçün mərkəzi dövlət orqanı kimi Dövlət Sərhəd Xidməti yaradılmışdır. Ölkədə aparılan ümumi demokratik dövlət quruculuğu və xüsusən təhlükəsizlik sektorunun islahatı prosesi çərçivəsində sərhəd təhlükəsizliyinə konseptual olaraq yenidən baxılır və Dövlət Sərhəd Xidmətinin hərbi qurumdan hüquq mühafizə orqanına keçidi məqsədi ilə əsaslı struktur islahatları aparılır. NATO və digər xarici tərəfdaşlarla əməkdaşlıq şəraitində aparılan islahatlar nəticəsində effektiv sərhəd nəzarəti sistemi yaradılmaqla Silahlı Qüvvələrin və digər təhlükəsizlik strukturlarının sərhəd təhlükəsizliyi sahəsindəki mümkün dəstəkləyici rolu və fəaliyyətlərinin koordinasiyası mexanizmləri daha da təkmilləşdirilir.

Sərhəd təhlükəsizliyi məsələsi neft və qaz yataqlarının, nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin təmin olunmasında getdikcə daha çox əhəmiyyət kəsb etməkdədir.

Sərhəd təhlükəsizliyinin daha səmərəli təmin edilməsi üçün normativ hüquqi baza beynəlxalq standartlara uyğunlaşdırılır, idarəetmə sistemi təkmilləşdirilir və şəffaf büdcə sistemi yaradılır.

Azərbaycan Respublikası sərhəd təhlükəsizliyi sahəsində NATO, Avropa İttifaqı, Beynəlxalq Miqrasiya Təşkilatı, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfrans və digər beynəlxalq təşkilatlar çərçi-

vəsində, habelə ikitərəfli və çoxtərəfli qaydada dövlətlərarası səviyyədə əməkdaşlığı genişləndirir.

Bu istiqamətdə islahatları daha da inkişaf etdirmək üçün havadan və dənizdə nəzarət, axtarış-xilasetmə, çeviklik imkanları müasirləşdirilir, təlim sistemi təkmilləşdirilir, quru sərhədlər və nəzarət məntəqələri müasir texniki avadanlıqlarla təmin olunur və peşəkar heyətə keçid sürətləndirilir.

Ermənistan-Azərbaycan münaqişəsi həll olunduqdan sonra sərhədlərin nəzarətdən kənarda qalmış hissəsinin Azərbaycan Respublikasının ümumi sərhəd təhlükəsizliyi sisteminə daxil edilməsi və həmin ərazilərdə ən müasir tələblərə uyğun təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi islahat və quruculuq prosesində müvafiq şəkildə nəzərə alınır.

4.3.7. Miqrasiya siyasəti

Son illərin təhlili göstərir ki, Azərbaycanda müşahidə olunan sürətli sosial-iqtisadi inkişaf, energetika və nəqliyyat sahələrində beynəlxalq kommunikasiyaların genişlənməsi, eyni zamanda ölkəmizin geosiyasi mövqeyi miqrasiya proseslərinin intensivləşməsinə gətirib çıxarmışdır. Bu da, öz növbəsində ölkənin inkişafı və təhlükəsizliyinin təmin edilməsi baxımından milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsini, onun əsasında miqrasiya proseslərinin tənzimlənməsi məsələlərinin təkmilləşdirilməsini şərtləndirir.

Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, milli təhlükəsizliyin və sabit sosial-iqtisadi, demoqrafik inkişafın təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, ölkə ərazisində əhalinin mütənasib yerləşdirilməsi, miqrantların intellektual və əmək potensialından istifadə edilməsi, tənzimlənməyən miqrasiya proseslərinin mənfi

təsirinin aradan qaldırılması, insan alveri də daxil olmaqla, qeyri-qanuni miqrasiyanın qarşısının alınması məqsədi ilə 2006-2008-ci illər üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı qəbul olunmuşdur.

Miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, idarəetmə sisteminin inkişaf etdirilməsi, miqrasiya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə Dövlət Miqrasiya Xidməti yaradılmışdır.

Ölkədə miqrasiya proseslərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi hazırda effektiv immiqrasiya siyasətinin formalaşdırılmasını, beynəlxalq əməkdaşlığın gücləndirilməsini, emiqrasiya proseslərinin nəzarətdə saxlanılmasını və vahid informasiya bazasının yaradılmasını zəruri edir.

4.3.8. Enerji təhlükəsizliyi siyasəti

Xəzər hövzəsinin Azərbaycan Respublikasına mənsub olan sektorunda yerləşən mövcud neft və qaz yataqlarının, habelə perspektivli strukturların işlənməsi, istismarı, müasir neft-qaz özüllərinin tikintisi və quraşdırılması, əsas neft və qaz ixrac boru kəmərlərinə, terminallarına olan təhdidlərin aşkar edilməsi, qiymətləndirilməsi və adekvat tədbirlərin görülməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsinin ən mühüm fəaliyyət istiqamətlərindən biridir.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri və Cənubi Qafqaz qaz boru kəməri Xəzər dənizi ilə Qara dəniz və Aralıq dənizi arasında enerji nəqlinin, Xəzəryanı ölkələrin geostrateji və iqtisadi maraqlarını təmin edən mühüm obyektlərin təhlükəsizliyinin qorunması və bununla əlaqədar artan risklərin idarə olunması və azaldılması Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ən vacib vəzifələrindəndir.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin 2006-cı ildən istifadəyə verilməsi Azərbaycan neftini dünya bazarında mühüm amilə çevirmişdir. Azərbaycan neftini Türkiyənin Ceyhan limanına, qazını isə Türkiyənin Ərzurum qaz terminalına çıxaran kəmərlərin coğrafiyası müəyyən təhlükəsizlik riskləri yaradır.

Azərbaycan Respublikası enerji ehtiyatlarının istehsalı və nəqli ilə bağlı yaradılan və istismar olunan infrastrukturun təbii fəlakətlərə, texnogen xarakterli fövqəladə hadisələrə və təxribatlara məruz qalma ehtimalına qarşı kompleks tədbirlər həyata keçirir.

XXI əsrdə dünyada enerji daşıyıcıları ilə bağlı böhran gözlənildiyindən Azərbaycan Respublikasında alternativ enerji mənbələrindən istifadə edilməsi qərara alınmışdır. Küləkli və günəşli günlərin sayına görə ölkənin əlverişli şəraitə malik olduğunu nəzərə alaraq, Azərbaycanın enerjiyə olan ehtiyacının müəyyən hissəsi külək, dəniz, günəş, biokütlə, kiçik dağ suları və su elektrik stansiyaları hesabına təmin oluna bilər.

4.3.9. Nəqliyyat təhlükəsizliyi siyasəti

Azərbaycan Respublikasında zəngin enerji ehtiyatlarının olması iqtisadiyyatın əsaslı və sürətli inkişaf etməsinə müsbət təsir göstərən, lakin müxtəlif dövlətlərin regiondakı maraqlarını şərtləndirən və münasibətlərin gərginləşməsinə səbəb olan əsas amillərdən biridir.

Müstəqillik əldə edildikdən sonra Azərbaycan Respublikası öz enerji sektorunu daha da inkişaf etdirmiş və müxtəlif növ nəqliyyat şəbəkələri yaratmışdır. Bu nəqliyyat şəbəkələrinin təhlükəsizliyinin təmin edilməsi ölkə üçün əsas vəzifələrdən biridir.

Beynəlxalq nəqliyyat dəhlizlərinin və boru kəmərlərinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Respublikası aşağıdakı vəzifələri həyata keçirir:

nəqliyyatın və nəqliyyatda təhlükəsizliyin təmin edilməsi; nəqliyyat sistemində səfərbərlik hazırlığının təmin edilməsi;

Avropa-Qafqaz-Asiya və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin fəaliyyətinin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması məqsədi ilə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi;

nəqliyyat infrastrukturlarının mühafizə sisteminin etibarlılığının təmin edilməsi; nəqliyyat infrastrukturlarının təhlükəsizliyinə kənardan təhdid yarada biləcək amillərin aşkarlanması və qarşısının alınması;

nəqliyyat vasitələri və infrastrukturlarında, o cümlədən boru kəmərlərində terror aktlarının törədilməsində istifadə oluna biləcək vasitələrin dövriyyəsinin qadağan olunması və ya bu dövriyyəyə ciddi nəzarətin həyata keçirilməsi;

nəqliyyat obyektlərinin tikintisi və istismarı zamanı sosial və ekoloji mühitə ziyan vurulmasının qarşısının alınması.

Sözügedən vəzifələr Azərbaycan Respublikasının Silahlı Qüvvələri və digər təhlükəsizlik strukturlarının, habelə aidiyyəti dövlət qurumlarının fəaliyyətində öz əksini tapmalı və onların həyata keçirilməsi üçün adekvat imkanlar yaradılmalıdır.

4.3.10. Fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi

Ətraf mühitlə bağlı olan təbii fəlakətlər və insanların fəaliyyəti nəticəsində baş verən texnogen qəzalar əhalinin sağlamlığına, rifahına və əmlakına ziyan yetirməklə daxili təhlükəsizliyə zərər vura bilər. Bu mənada onlar ümumi təhlükəsizlik kontekstində nəzərdən keçirilməlidir.

Azərbaycan Respublikasında fövqəladə halların xəbərdar edilməsi və nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin hazırlanması və əlaqələndirilməsinə məsul olan ayrıca qurum - Fövqəladə Hallar Nazirliyi yaradılmışdır.

Azərbaycan Respublikası böhranların idarə olunması və fövqəladə halların qarşısının alınması üzrə tədbirlər planlarının hazırlanması ilə bağlı təcrübə qazanılması və informasiya mübadiləsi sahəsində bir sıra dövlətlərlə ikitərəfli əməkdaşlıq edir. Bu sahədə çoxtərəfli əməkdaşlıq isə NATO mexanizmləri vasitəsilə geniş inkişaf etdirilir və Azərbaycan Respublikası həmin imkandan fəal istifadəni davam etdirəcəkdir.

Azərbaycan Respublikası ekoloji problemlərə ciddi yanaşır və ona görə də bu sahədə yaranan və zərər vura bilən təhlükələrdən, risklərdən və təhdidlərdən xəbərdardır. Təbii və texnogen fəlakətlərə və böhran vəziyyətlərinə hazır olmaq və onların qarşısını almaq dövlət üçün əsas məsələlərdəndir.

Azərbaycan Respublikası ölkə əhalisinə, ərazisinə və iqtisadiyyatına radioaktiv, bakterioloji və kimyəvi vasitələrlə göstərilən zərərli təsirin qarşısının alınmasına yönəlmiş tədbirləri fəal surətdə həyata keçirir.

Strateji əhəmiyyətli dövlət obyektlərinin, o cümlədən neft və qaz hasilatı və emalı müəssisələrinin, terminalların, magistral boru kəmərlərinin, içməli su mənbələrinin, elektrik stansiyalarının, hidrotexniki qurğuların təbii fəlakətlərdən, texnogen qəzalardan və terror təhlükəsindən müdafiəsi dövlət üçün əsas vəzifələrdən biridir.

Coğrafi və geoloji şəraitin müxtəlifliyi nəzərə alınmaqla, ölkə ərazisinin təbii fövqəladə hallardan mühafizəsi ilə bağlı dağıntılara gətirib çıxara bilən amillərin, o cümlədən zəlzələlər, sellər, subasmalar, sürüşmələr və palçıq vulkanlarının törə-

də biləcəyi fəsadlar və onların nəticələrinin aradan qaldırılması yolları daim diqqət mərkəzindədir.

Bir neçə iqlim qurşağı ilə əhatə olunan Azərbaycan Respublikası ərazisindəki zəngin bitki və heyvanat aləminin qorunub-saxlanması zəruri şərtdir.

Ətraf mühitin çirklənməsinə səbəb olan mənbələrin ləğv olunmasına, Xəzər dənizinin ekoloji problemlərinin aradan qaldırılmasına, onun biomüxtəlifliyinin qorunması və bərpa olunmasına və bununla bağlı digər məsələlərə xüsusi diqqət yetirilir.

Ərzaq təhlükəsizliyinin təmin olunması üzrə bitki mühafizəsi vasitələrindən (pestisidlərdən və bioloji preparatlardan) istifadəyə nəzarət, karantin obyekti mənbələrinin vaxtında aşkar edilərək ləğv olunması vacib məsələlərdən biridir.

Əhalinin sağlamlığının qorunması üçün dərmanların keyfiyyətinə nəzarət mexanizmlərinin və saxta dərmanlara qarşı mübarizənin gücləndirilməsi zəruridir.

4.3.11. İnformasiya təhlükəsizliyi siyasəti

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir.

Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması üçün ölkədə informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturu inkişaf etdirilir və möhkəmləndirilir. Dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının

həyata keçirilməsi məqsədi ilə obyektiv və mühüm məlumatlar toplanılır.

Kəşfiyyat və əks-kəşfiyyat qabiliyyətinin uzlaşdırılması və səmərəliliyinin artırılması, habelə məxfi informasiyanın mühafizə olunmasının koordinasiyası milli təhlükəsizlik sektorunun bu sahəsində əsas məsələlərdəndir. Azərbaycan Respublikası öz milli kəşfiyyat və əks-kəşfiyyat qabiliyyətini artıracaq və dövlət sirrinə aid edilmiş məlumatların mühafizəsi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsini davam etdirəcəkdir.

İnformasiya təhlükəsizliyini tənzimləmək məqsədi ilə dövlət sirri təşkil edən məlumatların mühafizəsinin hüquqi mexanizmləri təkmilləşdirilir və informasiya azadlığı təmin olunur. Hüquqi və inzibati mexanizmlər vətəndaşların hüquqlarını və dövlət strukturlarının fəaliyyəti üzərində demokratik nəzarəti təmin edəcəkdir.

YEKUN MÜDDƏALAR

Azərbaycan Respublikasının strateji coğrafi mövqeyi onun Avratlantik məkandakı siyasi və iqtisadi proseslərdə olduqca mühüm rol oynamasını təmin etmişdir. Bu, regiondakı enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində özünü büruzə verməkdədir.

Azərbaycan Respublikasının təhlükəsizlik mühiti eyni zamanda hərbi münaqişələr, beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, qeyri-qanuni miqrasiya, insan alveri və narkotik vasitələrin qaçaqmalçılığı, kütləvi qırğın silahlarının yayılması kimi təhdidlərin mövcudluğu ilə səciyyələnir ki, bu da, ölkəni bir sıra təhlükəsizlik problemləri ilə üzləşdirir.

Bu Konsepsiya Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsasını təşkil edir və dövlətin milli maraqlarının qorunması məqsədi ilə müvafiq dövlət strukturlarının üzərinə xüsusi vəzifələr qoyur və bu kontekstdə onların əlaqələndirilmiş fəaliyyətini zəruri edir.

Konsepsiya ölkənin daim dəyişən təhlükəsizlik mühitini, Azərbaycan Respublikasının milli maraqlarını və təhlükəsizlik siyasətinin əsas istiqamətlərini müəyyən edir.

Azərbaycan Respublikasının hökuməti bu Konsepsiyadan irəli gələn vəzifələri həyata keçirmək üçün müvafiq tədbirlər görəcəkdir.

Dövlətin daxili və xarici siyasətinə uyğun olaraq ölkənin təhlükəsizliyinin daha etibarlı təmin edilməsinə şərait yaradılması məqsədi ilə Konsepsiya müntəzəm qaydada yeniləşdirilə bilər.

Konsepsiya, həmçinin hərbi doktrina, xarici siyasət strategiyası, müdafiə icmalı, iqtisadi konsepsiya, mədəniyyət, elm, təhsil, səhiyyə və nəqliyyat strategiyaları da daxil olmaqla, dövlət fəaliyyətinin müxtəlif sahələri ilə bağlı daha müfəssəl sənədlərin hazırlanması üçün əsasdır.

Təhlükəsizlik sahəsində hazırlanacaq digər konseptual sənədlər ümumi ictimai konsensusu əks etdirməli, real olmalı və bu Konsepsiya ilə birlikdə, ölkədə demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyəti, demokratik nəzarət altında olan güclü və effektiv təhlükəsizlik sektoru quruculuğuna, davamlı iqtisadi və sosial tərəqqiyə kömək etməlidir.

Milli təhlükəsizlik haqqında
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasının müstəqil, suveren, demokratik dövlət kimi inkişafı naminə milli təhlükəsizlik siyasətinin hüquqi əsaslarının yaradılmasına yönəlmişdir.

I Fəsil
ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Azərbaycan Respublikasının milli təhlükəsizliyi

Azərbaycan Respublikasının milli təhlükəsizliyi - dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir.

Maddə 2. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin obyektləri

2.0. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin obyektləri aşağıdakılardır:

2.0.1. insan - onun hüquq və azadlıqları;

2.0.2. cəmiyyət - onun maddi və mənəvi dəyərləri;

2.0.3. dövlət - onun müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu və ərazi bütövlüyü.

Maddə 3. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin subyektləri

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin subyektləri insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyi maraqlarının və tələbatlarının təmin edilməsi məqsədilə yaradılmış dövlət hakimiyyəti orqanlarıdır.

Maddə 4. Milli təhlükəsizlik sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi

Milli təhlükəsizlik sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyası, bu Qanun və Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Maddə 5. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasının əsas prinsipləri

5.0. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasının əsas prinsipləri aşağıdakılardır:

5.0.1. Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət edilməsi;

5.0.2. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin vahid dövlət siyasətinə əsaslanması və onun təmin olunması istiqamətlərinin tarazlaşdırılması və əlaqələndirilməsi;

5.0.3. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən orqanlar arasında səlahiyyətlərin dəqiq müəyyən edilməsi, onların fəaliyyətinin əlaqələndirilməsi və həmin orqanların bir-birini qarşılıqlı surətdə operativ məlumatlandırması;

5.0.4. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatı ilə əlaqədar fəaliyyətin həyata keçirilməsinə nəzarət;

5.0.5. beynəlxalq təhlükəsizlik sistemlərinə inteqrasiya;

5.0.6. insan, cəmiyyət və dövlətin maraqları arasındakı tarazlığın saxlanılması və onların qarşılıqlı məsuliyyəti.

Maddə 6. Azərbaycan Respublikasının milli maraqları

6.1. Azərbaycan Respublikasının milli maraqları - Azərbaycan xalqının fundamental dəyər və məqsədlərinin, habelə insanın, cəmiyyətin və dövlətin inkişaf və tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmuyudur.

6.2. Azərbaycan Respublikasının siyasi sahədə əsas milli maraqları aşağıdakılardır:

6.2.1. dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü;

6.2.2. konstitusiya quruluşunun qorunması, demokratik, hüquqi, dünyəvi dövlətin mövcudluğu;

6.2.3. Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması;

6.2.4. vətəndaş cəmiyyətinin formalaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması;

6.2.5. ictimai-siyasi sabitliyin təmin edilməsi;

6.2.6. kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyətinin qarşısının alınması;

6.2.7. dünya azərbaycanlılarının həmrəyliyi;

6.2.8. xaricdə yaşayan həmvətənlərimizin hüquqlarının müdafiəsi;

6.2.9. Azərbaycanın dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşaması, bərabər tərəfdaşlıq əsasında beynəlxalq əməkdaşlığın inkişafı, Avropa və dünya birliyinə inteqrasiya;

6.2.10. beynəlxalq aləmdə Azərbaycan Respublikasının nüfuzunun artırılması.

6.3. Azərbaycan Respublikasının iqtisadi sahədə əsas milli maraqları aşağıdakılardır:

6.3.1. iqtisadi potensialın artırılması;

6.3.2. bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi;

6.3.3. iqtisadi sabitliyin təmin olunması;

6.3.4. iqtisadiyyatın inkişafı üçün daxili və xarici investisiyalardan ötrü əlverişli şəraitin yaradılması;

6.3.5. təbii və maddi sərvətlərin qorunması və səmərəli istifadə edilməsi;

6.3.6. regional və dünya bazarlarının formalaşdırılmasında və fəaliyyət göstərməsində azad və bərabər hüquqlu iştirakın təmin edilməsi.

6.4. Azərbaycan Respublikasının sosial sahədə əsas milli maraqları Azərbaycan xalqının genofondunun qorunması, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi məqsədilə səhiyyə və sosial müdafiə sisteminin səmərəli fəaliyyət göstərməsidir.

6.5. Azərbaycan Respublikasının hərbi sahədə əsas milli maraqları - dövlətin müdafiə qüdrətinin, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin komplektləşdirilməsinin, döyüşə və səfərbərliyə hazırlığının, hərbi-texniki təchizatının təmin edilməsidir.

6.6. Azərbaycan Respublikasının informasiya sahəsində əsas milli maraqları aşağıdakılardır:

6.6.1. məlumatların qanuni yolla əldə edilməsi, ötürülməsi, hazırlanması və yayılması kimi vətəndaşların konstitusiya hüquqlarının təmin edilməsi;

6.6.2. informasiya ehtiyatlarının qorunması və inkişaf etdirilməsi;

6.6.3. informasiya məkanının formalaşdırılması və onun qorunmasının təmin edilməsi;

6.6.4. dünya rabitə və informasiya sisteminə daxil olma.

6.7. Azərbaycan Respublikasının ekoloji sahədə əsas milli maraqları - cəmiyyətin yaşayışı üçün təhlükəsiz ekoloji və texnoloji şəraitin yaradılmasıdır.

6.8. Azərbaycan Respublikasının elm, mədəniyyət və mənəviyyat sahəsində əsas milli maraqları - Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması və ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk

və milli iftixar hissinin, intellektual səviyyəsinin inkişaf etdirilməsi, elmi potensialdan səmərəli istifadə olunması və onun artırılmasıdır.

Maddə 7. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər

7.1. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər Azərbaycan Respublikası milli maraqlarının həyata keçirilməsinə mane olan və ya onlara təhlükə yaradan şərait, proses və amillərdir.

7.2. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər mümkünlüyündən asılı olaraq potensial və real olur.

7.3. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər mənbələrindən asılı olaraq xarici və daxili təhdidlərdən ibarətdir.

7.4. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə potensial və real, daxili və xarici təhdidlər əsasən ictimai həyatın siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekologiya, elm, mədəniyyət və mənəviyyat sahələrində təzahür edir.

7.5. Siyasi sahədə əsas təhdidlər aşağıdakılardır:

7.5.1. Azərbaycan Respublikasının dövlət müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər;

7.5.2. ictimai-siyasi sabitliyin pozulması;

7.5.3. insan və vətəndaş hüquq və azadlıqlarının pozulması, demokratik təsisatlara qarşı daxili və xarici təzyiqlər;

7.5.4. dövlət orqanlarının təşkilat strukturunun dağıdılması, onların fəaliyyətlərinin pozulması, ölkədə idarəetmə səviyyəsinin aşağı düşməsi;

7.5.5. milli və dini münasibətlərin kəskinləşməsi, separatçılıq, etnik, dini və siyasi ekstremizm hallarının yayılması;

7.5.6. ictimai təhlükəsizliyin pozulması, hüquqpozmaların sosial profilaktikasının səmərəsizliyi, cinayətkarlığın, xüsusən onun mütəşəkkil, transmilli formalarının artması;

7.5.7. qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələrin yaradılması, silahlı qiyamın təşkil edilməsi;

7.5.8. xarici xüsusi xidmət orqanlarının və başqa təşkilatların, həmçinin ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasına qarşı kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyəti;

7.5.9. dövlət xadiminin və ya ictimai xadimin xidməti və ya siyasi fəaliyyətinə görə onun həyatına sui-qəsd edilməsi;

7.5.10. digər dövlətlər tərəfindən Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə;

7.5.11. Azərbaycan Respublikasının maraqlarına toxuna bilən mövcud və potensial regional münaqişələrin olması;

7.5.12. beynəlxalq terrorçuluq.

7.6. İqtisadi sahədə əsas təhdidlər aşağıdakılardır:

7.6.1. dövlətin iqtisadi potensialının tükənməsi, yaxud qeyri-səmərəli istifadəsi, milli iqtisadiyyatın digər ölkələrdən maliyyə və texnoloji asılılığının yaranması, boru kəmərlərinin, digər kommunikasiyaların və nəqliyyat dəhlizlərinin fəaliyyətinin pozulması;

7.6.2. iqtisadi əlaqələri nizamlayan dövlət sisteminin pərakəndəliyi, iqtisadiyyatın qeyri-mütənasib inkişafı;

7.6.3. Azərbaycan Respublikasının dünya iqtisadiyyatından təcrid olunması;

7.6.4. maliyyə-kredit sisteminin pozulması, maddi və maliyyə vəsaitlərinin ölkədən qanunsuz çıxarılması;

7.6.5. təbii və maddi sərvətlərin talan edilməsi və səmərəsiz istifadəsi;

7.6.6. investisiya aktivliyinin zəifləməsi.

7.7. Sosial sahədə əsas təhdidlər aşağıdakılardır:

7.7.1. müxtəlif sosial təbəqələr arasında qütbləşmənin kəskinləşməsi, yoxsulluğun və işsizliyin aradan qaldırılması istiqamətində tədbirlərin səmərəsizliyi;

7.7.2. sosial hüquqların pozulması;

7.7.3. demoqrafik vəziyyətin kəskinləşməsi və nəzarətsiz miqrasiya proseslərinin intensivləşməsi;

7.7.4. əhalinin fiziki sağlamlığının təmin edilməsi sahəsində tədbirlərin görülməməsi;

7.7.5. sosial müdafiə sisteminin zəifliyi.

7.8. Hərbi sahədə əsas təhdidlər aşağıdakılardır:

7.8.1. Azərbaycan Respublikasına qarşı təcavüz və gücün tətbiqi və ya tətbiq edilməsi hədəsi, ölkənin müdafiə qabiliyyətinin zəifləməsi;

7.8.2. digər ölkələr tərəfindən Azərbaycan Respublikasının hərbi konfliktlərə, regional münaqişələrə cəlb edilməsi;

7.8.3. xarici ölkələrin Azərbaycan Respublikası ilə sərhədlərinin yaxınlıqlarında yaranmış qüvvələr nisbətini pozan qoşun qruplaşmalarının artırılması;

7.8.4. Azərbaycan Respublikası ilə qonşu olan dövlətlərdə hərbi-siyasi vəziyyətin qeyri-sabit olması, həmsərhəd dövlətlərin ərazisində ölkəmizə qarşı düşmənçilik siyasətini yeridən digər dövlətlərin qoşunlarının yerləşdirilməsi;

7.8.5. Azərbaycan Respublikasına qarşı kütləvi qırğın silahlarının tətbiqi və ya tətbiqinin mümkünlüyü;

7.8.6. kütləvi qırğın silahlarının komponentlərinin və texnologiyalarının, onları hədəfə çatdırma vasitələrinin, yeni hərbi istehsalat texnologiyalarının yayılmasında ölkə ərazisinin tranzit kimi istifadə edilməsi cəhdləri;

7.8.7. silahların məhdudlaşdırılması və ixtisarı barədə beynəlxalq razılaşmaların pozulması;

7.8.8. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi və iqtisadi potensialının, hərbi hazırlığının və döyüş qabiliyyətinin zəiflədilməsinə yönəlmiş fəaliyyət;

7.8.9. Azərbaycan Respublikasının dövlət sərhədlərindəki ərazilərə, obyektlərə və qurğulara basqın edilməsi, sərhəd münaqişələri və silahlı fitnəkarlıq;

7.8.10. başqa dövlətlərin ərazisində Azərbaycan Respublikasının əleyhinə göndərilməsi üçün silahlı birləşmələrin və qrupların hazırlanması.

7.9. İnformasiya sahəsində əsas təhdidlər aşağıdakılardır:

7.9.1. informasiya texnologiyaları sahəsində geriləmə və dünya informasiya məkanına daxil olmağa maneələrin mövcudluğu;

7.9.2. informasiya azadlığı əleyhinə yönəlmiş qəsdlər;

7.9.3. dövlət sirlərinin aşkarlanmasına yönəlmiş qəsdlər;

7.9.4. digər ölkələr tərəfindən informasiya təcavüzü, beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin təhrif edilməsi;

7.9.5. informasiya sisteminə və ehtiyatlarına qarşı qəsdlər.

7.10. Ekoloji sahədə əsas təhdidlər aşağıdakılardır:

7.10.1. ekoloji tarazlığın pozulması və ekoloji vəziyyətin kəskin pisləşməsi;

7.10.2. ekoloji cəhətdən zərərli texnologiyaların təhlükə yaradacaq miqyaslarda tətbiqi, təsərrüfat obyektlərinin təbii fəlakətlərə, texnogen xarakterli fövqəladə hadisələrə və təxribatlara məruz qalma ehtimalı, epidemiya və epizootiyaların yayılması;

7.10.3. su mənbələrinin, atmosferin və dəniz mühitinin təhlükəli miqyaslarda çirklənməsi;

7.10.4. ekoloji mədəniyyət səviyyəsinin aşağı olması.

7.11. Elm, mədəniyyət və mənəviyyat sahəsində təhdidlər aşağıdakılardır:

7.11.1. təhsilin keyfiyyət səviyyəsinin, elmi-texniki və intellektual səviyyənin zəifləməsi;

7.11.2. Azərbaycanın tarixinə, dilinə, mədəni irsi və mənəvi sərvətlərinə qəsd edilməsi, onların xarici və daxili təzyiqlərə məruz qalması.

7.12. Azərbaycan Respublikasının milli maraqları, milli təhlükəsizliyinə yaranan təhdidlər və milli təhlükəsizliyin təmin olunması tədbirləri qanunvericiliklə nəzərdə tutulmuş konsepsiyada və onun əsasında hazırlanmış konkret proqramlarda öz əksini tapır.

II Fəsil
AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI SİSTEMİ

Maddə 8. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sistemi və onun məqsədləri

8.1. Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında qarşılıqlı fəaliyyət göstərən və öz səlahiyyətləri çərçivəsində milli təhlükəsizliyin təmin olunmasına cavabdeh olan qüvvələr və digər dövlət orqanları Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sistemini təşkil edirlər və milli təhlükəsizliyin təmin olunmasına görə məsuliyyət daşıyırlar.

8.2. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sistemi vahid dövlət siyasətinin hazırlanması, siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekoloji, elm, mədəniyyət və mənəviyyat, habelə digər sahələrdə milli maraqların

qorunması prosesinin kompleks fəaliyyət şəklində səmərəli tətbiqi üçün yaradılır.

8.3. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması məqsədləri aşağıdakılardır:

8.3.1. insanın təhlükəsizliyi - insanın hərtərəfli inkişafı üçün əlverişli şəraitin mövcudluğu, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində ümumdövlət tədbirlərinin həyata keçirilməsi;

8.3.2. cəmiyyətin təhlükəsizliyi - Azərbaycan xalqının həyati əhəmiyyətli maraq və tələbatlarının, habelə ictimai dəyərlər sisteminin təhlükə və təhdidlərdən qorunması;

8.3.3. dövlətin təhlükəsizliyi - Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun və həyati əhəmiyyətli digər maraqlarının təhdidlərdən qorunması.

Maddə 9. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sisteminin əsas vəzifələri

9.0. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sisteminin əsas vəzifələri aşağıdakılardır:

9.0.1. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlərin aşkarlanması, təhlili və proqnozlaşdırılması;

9.0.2. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlərin qabaqlanması və qarşısının alınması üzrə tədbirlərin hazırlanması və həyata keçirilməsi;

9.0.3. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvə və vasitələrin formalaşdırılması və hazırlığının təmin edilməsi;

9.0.4. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə bilavasitə təhdid və qəsdlərin yarandığı təqdirdə bütün qüvvə və vasitələrin səfərbər edilməsi, müvafiq əks tədbirlər kom-

pleksinin həyata keçirilməsi, yaranmış vəziyyətin mümkün nəticələrinin lokallaşdırılması və aradan qaldırılması;

9.0.5. Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə müvafiq olaraq ümumi və regional təhlükəsizliyin təmin olunmasında iştirak.

Maddə 10. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları

10.1. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları - dövlət tərəfindən yaradılan, qanunvericilik çərçivəsində fəaliyyət göstərən və Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin etmə qabiliyyətinə malik olan qurumlardır.

10.2. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları aşağıdakılardır:

10.2.1. Azərbaycan Respublikasının Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələr;

10.2.2. Azərbaycan Respublikasının xüsusi xidmət orqanları;

10.2.3. polis, prokurorluq, gömrük, vergi və digər hüquq mühafizə orqanları;

10.2.4. sənaye, energetika, nəqliyyat sahəsində işlərin təhlükəsiz görülməsi qaydalarına məsuliyyət daşıyan, rabitə və informasiya təhlükəsizliyini, ətraf mühitin mühafizəsini və əhalinin sağlamlığının qorunmasını təmin edən dövlət orqanları və milli təhlükəsizliyinin təmin olunmasında iştirak edən digər dövlət orqanları.

10.3. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada qarşılıqlı fəaliyyət göstərir və səlahiyyətləri ilə bağlı məsələlərlə əlaqədar birbirini qarşılıqlı surətdə məlumatlandırırlar.

Maddə 11. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələrin və dövlət orqanlarının səlahiyyətləri

11.0. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları öz səlahiyyətləri daxilində:

11.0.1. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması ilə əlaqədar tədbirlər planlaşdırır və həyata keçirirlər;

11.0.2. Azərbaycan Respublikasının milli təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər verirlər;

11.0.3. Azərbaycan Respublikasının milli təhlükəsizliyi sahəsində qanunlara və digər normativ-hüquqi aktlara riayət olunmasını təmin edirlər;

11.0.4. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təhdid edən, milli maraqlara zərər vura bilən fəaliyyətin qarşısının alınması üçün müvafiq tədbirlər görürlər.

Maddə 12. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasında vətəndaşların iştirakı

12.0. Azərbaycan Respublikasının vətəndaşları:

12.0.1. seçki, referendum və qanunla müəyyən olunmuş digər demokratik vasitələrlə Azərbaycan Respublikasının milli maraqları və onların müdafiəsinin yolları haqda öz fikir və təkliflərini ifadə və icra edirlər;

12.0.2. qanunvericiliklə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması məqsədi ilə dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən hazırlanmış tədbirləri könüllü və ya konstitusiya vəzifələrinin yerinə yetirilməsi şəklində həyata keçirirlər;

12.0.3. ölkə həyatının müxtəlif sahələrində təzahür edən təhlükəli hallara dövlət və ictimai təsisatların diqqətini cəlb

edir, bütün qanuni vasitələrlə dövlətin təhlükəsizliyi, habelə hüquq və maraqlarının müdafiə olunmasına çalışırlar.

Maddə 13. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasında insan hüquq və azadlıqlarının müdafiəsi

13.1. Azərbaycan dövləti Azərbaycan Respublikasının qanunvericiliyinə və onun tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq öz ərazisində olan hər bir şəxsin təhlükəsizliyini təmin edir. Azərbaycan Respublikası, ərazisindən kənarda müvəqqəti və daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquq və mənafelərinin müdafiəsi üçün tədbirlər görür və onlara hamilik edir.

13.2. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasında insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yalnız qanunla müəyyən edilmiş hallarda yol verilə bilər. Hər bir şəxs öz hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə bağlı milli təhlükəsizliyi təmin edən subyektlərdən qanunvericiliklə müəyyən edilmiş qaydada məlumat almaq hüququna malikdir.

13.3. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasında səlahiyyət həddini aşmış vəzifəli şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

13.4. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasında kömək göstərmiş hər bir şəxsə dövlət himayəsi, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada hüquqi müdafiə təminatı verilir.

13.5. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması ilə əlaqədar tədbirlərin həyata keçirilməsi nəticəsində hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyan zərərçəkənlərin tələbi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilməlidir.

III Fəsil
AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASININ TƏRKİB HİSSƏLƏRİ VƏ SAHƏLƏRİ

Maddə 14. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasının tərkib hissələri

14.0. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlərin mənbələrindən asılı olaraq Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması vəhdət təşkil edən iki tərkib hissənin məcmusudur:

14.0.1. xarici təhlükəsizlik - Azərbaycan Respublikasının həyati əhəmiyyətli mənafelərinin kənardan mümkün risk, təhlükə və təhdidlərdən qorunması üçün siyasi-diplomatik və ya hərbi, yaxud eyni zamanda həm diplomatik, həm də hərbi tədbirlər kompleksinin həyata keçirilməsi;

14.0.2. daxili təhlükəsizlik - Azərbaycan Respublikasında siyasi, iqtisadi və sosial sabitliyin, cəmiyyətdə vətəndaş həmrəyliyinin qorunması üçün müvafiq şəraitin yaradılması.

Maddə 15. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sahələri

15.1. Azərbaycan Respublikasının milli təhlükəsizliyi siyasi, iqtisadi, hərbi, sosial, informasiya, ekologiya, elm, mədəniyyət, mənəviyyat və digər sahələr üzrə təmin olunur.

15.2. Dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər, hüquqi və fiziki şəxslər siyasi, iqtisadi, hərbi, sosial, informasiya, ekologiya, elm, mədəniyyət, mənəviyyat və digər sahələrdə Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması məqsədi ilə həyata keçirilən tədbirlərdə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada iştirak edirlər.

15.3. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sahələrinin dəqiq müəyyənləşdirilməsi və

vahid dövlət siyasəti kimi həyata keçirilməsi üçün müvafiq konsepsiya və onun əsasında konkret proqramlar qəbul edilir və təşkilati tədbirlər həyata keçirilir.

Maddə 16. Azərbaycan Respublikasının siyasi sahədə milli təhlükəsizliyinin təmin olunması

16.1. Azərbaycan Respublikasının siyasi sahədə milli təhlükəsizliyinin təmin olunması Azərbaycan xalqının və onun yaratdığı siyasi təsisatların dövlət hakimiyyəti məsələlərini müstəqil həll etmək, insan və cəmiyyətin maraqları naminə suveren daxili və xarici siyasəti həyata keçirmək imkanının və qabiliyyətinin təmin edilməsidir.

16.2. Azərbaycan Respublikasının siyasi sahədə milli təhlükəsizliyinin təmin olunması üçün əsas tədbirlər aşağıdakılardır:

16.2.1. Azərbaycan Respublikasının dövlət müstəqilliyi, suverenliyi və konstitusiya quruluşunun qorunması və ərazi bütövlüyünün təminatı məqsədilə zəruri tədbirlərin hazırlanıb həyata keçirilməsi;

16.2.2. Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə cəhdlərinin qarşısının alınması;

16.2.3. ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi və dayanıqlılığının təmin olunması;

16.2.4. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sisteminin yaradılması və onun səmərəli fəaliyyətinin təmin edilməsi;

16.2.5. ictimai təhlükəsizliyin təmin edilməsi;

16.2.6. Azərbaycan Respublikası vətəndaşlarının ölkənin daxilində və xaricində hüquqlarının müdafiəsi məqsədilə müvafiq hüquqi mexanizmlərin inkişaf etdirilməsi;

16.2.7. vətənpərvərliyə və millətlərarası həmrəyliyə əsaslanan ümummilli psixologiyanın formalaşdırılması, xalqın vahidliyinin möhkəmləndirilməsi;

16.2.8. Azərbaycan xalqının vahidliyi, vətəndaş birliyi və ictimai həmrəyliyinə qarşı yönəlmiş hərəkətlərin qarşısının alınması;

16.2.9. vətəndaş cəmiyyətinin inkişafı, insan hüquq və azadlıqlarının təmin olunması;

16.2.10. separatçılığın, siyasi, etnik, dini ekstremizmin qarşısının alınması üçün millətlər və dini təriqətlər arasında münasibətlərin tənzimlənməsi;

16.2.11. mövcud məzhəb ayrılıqlarının və müxtəlif dini baxışların siyasi məqsədlərlə istifadə cəhdlərinin qarşısının alınması;

16.2.12. Azərbaycan Respublikasının milli maraqlarının xarici ölkələrdə təmin olunması üçün mütəşəkkil diasporunun təşkil olunması;

16.2.13. sülh və insanlıq, dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə cinayətlərin, xarici xüsusi xidmət orqanların və başqa təşkilatların, həmçinin ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasına qarşı kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyətlərinin aşkarlanması, qabaqlanması və qarşısının alınması;

16.2.14. beynəlxalq təhlükəsizlik sistemlərində iştirak edilməsi;

16.2.15. Azərbaycan Respublikasının digər dövlətlərlə əməkdaşlığının bərabər tərəfdaşlıq əsasında həyata keçirilməsi;

16.2.16. beynəlxalq terrorçuluğa və transmilli cinayətkarlığa qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi.

Maddə 17. Azərbaycan Respublikasının iqtisadi sahədə milli təhlükəsizliyin təmin olunması

17.1. Azərbaycan Respublikasının iqtisadi sahədə milli təhlükəsizliyinin təmin olunması Azərbaycan Respublikasının

milli iqtisadiyyatının və iqtisadi münasibətlərinin inkişafına təhlükə yaradan daxili və xarici amillərdən qorunmasıdır.

17.2. Azərbaycan Respublikasının iqtisadi sahədə milli təhlükəsizliyinin təmin olunması üçün aşağıdakı tədbirlər görülür:

17.2.1. Azərbaycan Respublikasının iqtisadi potensialının artırılması və bazar münasibətlərinin inkişaf etdirilməsi yolu ilə iqtisadi müstəqilliyinin təmin olunması;

17.2.2. ölkə iqtisadiyyatının inkişafını təmin edən təbii ehtiyatların, energetika əsaslarının və tranzit imkanlarının qorunması və möhkəmləndirilməsi;

17.2.3. ölkədaxili və beynəlxalq maliyyə təsisatları arasında qarşılıqlı sərfəli əməkdaşlığın gücləndirilməsi, daxili və xarici maliyyə ehtiyatlarının ölkə iqtisadiyyatının inkişafına yönəldilməsi;

17.2.4. Azərbaycan Respublikasının iqtisadi potensialının qorunması məqsədi ilə büdcə vəsaitlərinin və dövlət ehtiyatlarının səmərəsiz istifadəsinə yol verilməməsi;

17.2.5. iqtisadiyyatın inkişafının təmin edilməsi məqsədi ilə bank sisteminin təkmilləşdirilməsi;

17.2.6. iqtisadiyyatda dövlət idarəetməsinin təkmilləşdirilməsi;

17.2.7. iqtisadiyyatda qeyri-mütənasib inkişafın qarşısının alınması;

17.2.8. iqtisadi sahədə həyata keçirilən sosial yönümlü islahatların hüquqi təminatının təkmilləşdirilməsi;

17.2.9. milli məhsulların rəqabət qabiliyyətinin artırılması məqsədi ilə yerli istehsalçıların hüquqlarının müdafiə olunması;

17.2.10. enerji ehtiyatlarının istehsalı, nəqli, nəqliyyat dəhlizinin istismarı ilə bağlı layihələrin həyata keçirilməsi

vasitəsi ilə Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası;

17.2.11. iqtisadi fəaliyyət sahəsində cinayətkarlığa qarşı mübarizə aparılması.

17.3. Azərbaycan Respublikasının sənaye potensialının saxlanılması və möhkəmləndirilməsi üçün dövlət xarici sərmayəçilərə verilmiş zəmanətlərə riayət etməklə, xarici hüquqi və fiziki şəxslərin iştirakı ilə yaradılmış müəssisələrin istifadəsinə, yaxud mülkiyyətindəki iqtisadi obyektlərin vəziyyətinə və istismarına nəzarəti həyata keçirir.

17.4. Azərbaycan Respublikasının strateji ehtiyatlarının istifadəsi üzrə müqavilələrin bağlanmasında və yerinə yetirilməsində milli təhlükəsizliyin təmin olunması tələbləri mütləq nəzərə alınır.

17.5. Azərbaycan Respublikasında daxili bazarın vahid və müstəqil maliyyə sisteminin, milli valyutanın qorunması, maddi və maliyyə vəsaitlərinin ölkə hüdudlarından qanunsuz çıxarılmasının qarşısının alınması, kommunikasiya və energetika sisteminin fasiləsiz və etibarlı fəaliyyətinin təmin olunması məqsədi ilə kompleks tədbirlər həyata keçirilir.

Maddə 18. Azərbaycan Respublikasının sosial sahədə milli təhlükəsizliyinin təmin olunması

18.1. Azərbaycan Respublikasının sosial sahədə milli təhlükəsizliyinin təmin olunması vətəndaşların həyatı, sağlamlığı və maddi rifahının qorunmasının, cinayətkarlığın qarşısının alınmasının, miqrasiya və demoqrafik proseslərinin tənzimlənməsinin təmin edilməsidir.

18.2. Azərbaycan Respublikasının sosial sahədə milli təhlükəsizliyinin təmin olunması üçün görülən əsas tədbirlər aşağıdakılardır:

18.2.1. vətəndaşların şəxsi təhlükəsizliyi, hüquq və azadlıqlarının təmin olunması zəmanətlərinin möhkəmləndirilməsi;

18.2.2. əhalinin sosial müdafiəsinin yüksəldilməsi və fiziki sağlamlığının qorunması üçün sosial müdafiə və səhiyyə sisteminin dünya standartlarına uyğunlaşdırılması;

18.2.3. cəmiyyətin kəskin təbəqələşməsinə yol verilməməsi üçün müvafiq sosial müdafiə və sosial inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi;

18.2.4. vətəndaşların sosial müdafiəsi üçün ayrılan vəsaitlərin səmərəli bölgüsünün və ünvanlı istifadəsinin təmin edilməsi;

18.2.5. qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həll edilməsi;

18.2.6. yoxsulluğun aradan qaldırılması;

18.2.7. miqrasiya və demoqrafik proseslərin tənzimlənməsi.

Maddə 19. Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması

19.1. Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş hərbi xarakterli real və potensial təhdidlərdən müdafiə sahəsində tədbirlər kompleksinin həyata keçirilməsi və milli maraqların hərbi vasitələrlə qorunması qabiliyyətinin təmin edilməsidir.

19.2. Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması üçün görülən əsas tədbirlər aşağıdakılardır:

19.2.1. Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin hərbi hazırlıq səviyyəsinin və döyüş qabiliyyətinin artırılması, mövcud hərbi ehtiyatların səfərbərlik üçün hazır vəziyyətdə saxlanılması;

19.2.2. hərbi-sənaye kompleksinin inkişafı, müasir silah və hərbi-texniki nailiyyətlərin tətbiq edilməsi;

19.2.3. Azərbaycan Respublikasının dövlət sərhədləri yaxınlığında əlverişli qüvvələr nisbətinin yaranmasının əldə olunması;

19.2.4. Azərbaycan Respublikasının dövlət sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi;

19.2.5. kütləvi qırğın silahlarının işlənib hazırlanmasının, istehsalının, yayılmasının, ehtiyatlarının yaradılmasının və tətbiqinin qarşısının alınması istiqamətində fəaliyyət göstərilməsi;

19.2.6. hərbi təhsil sisteminin inkişaf etdirilməsi, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin ixtisaslı kadrlarla təminatı işinin yaxşılaşdırılması;

19.2.7. hərbi xidmət əleyhinə cinayətkarlığa qarşı mübarizə aparılması;

19.2.8. Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması məqsədilə xarici ölkələr və beynəlxalq təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi;

19.2.9. kütləvi qırğın silahlarının komponentlərinin və texnologiyalarının, onları hədəfə çatdırma vasitələrinin, yeni hərbi istehsal texnologiyalarının qanunsuz yayılmasında ölkə ərazisinin tranzit kimi istifadə edilməsinin qarşısının alınması;

19.2.10. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi və iqtisadi potensialının, döyüşə hazırlığının və döyüş qabiliyyətinin zəiflədilməsinə yönəlmiş fəaliyyətin aşkarlanması, qabaqlanması və qarşısının alınması;

19.2.11. müdafiə kompleksi sahəsində strateji əhəmiyyətli obyektlərin, həmçinin hərbi maraqlar baxımından əhəmiyyət kəsb edən elmi-texniki araşdırmaların və bu fəaliyyətin nəticə-

lərinin, o cümlədən məlumatların, sənədlərin və proqram təminatı vasitələrinin təhlükəsizliyinin təmin edilməsi.

19.3. Hərbi və hərbi-texniki müqavilələrin bağlanmasında və yerinə yetirilməsində Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması tələbləri mütləq nəzərə alınır.

19.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr istisna olmaqla, ölkə ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə, habelə hərbi qüvvələrin, silah, hərbi texnika, kütləvi qırğın silahı komponentləri və texnologiyalarının tranzit daşımalarına yol verilmir.

Maddə 20. Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması

20.1. Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsidir.

20.2. Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması üçün görülən əsas tədbirlər aşağıdakılardır:

20.2.1. Azərbaycan Respublikasında informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistemin yaradılması və möhkəmləndirilməsi;

20.2.2. dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədilə obyektiv və qabaqlayıcı məlumatların toplanılması;

20.2.3. informasiya infrastrukturunun inkişaf etdirilməsi;

20.2.4. dövlət sirlərinin qorunmasının hüquqi mexanizmlərinin təkmilləşdirilməsi;

20.2.5. kompüter informasiyası sahəsində cinayətkarlığa qarşı mübarizə;

20.2.6. informasiya təhlükəsizliyinin və azadlığının təmin olunması.

Maddə 21. Azərbaycan Respublikasının ekoloji sahədə milli təhlükəsizliyinin təmin olunması

21.1. Azərbaycan Respublikasının ekoloji sahədə milli təhlükəsizliyinin təmin olunması ətraf mühitin ona zərərli təsirlər nəticəsində yaranan təhdidlərdən qorunmasıdır.

21.2. Azərbaycan Respublikasının ekoloji sahədə milli təhlükəsizliyinin təmin olunması üçün görülən əsas tədbirlər aşağıdakılardır:

21.2.1. ekoloji təhlükəsizlik siyasətinin konseptual əsaslarının hazırlanması və tətbiqi;

21.2.2. Azərbaycan Respublikasının ekoloji sahədə milli təhlükəsizliyinə xarici təhdidlər, ətraf mühitə təsir vasitələrinin hərbi və ya digər düşmən niyyətlə tətbiqini qadağan edən beynəlxalq müqavilələrə zidd olan xarici dövlət və təşkilatların niyyət və tədbirləri haqqında məlumatların əldə edilməsi;

21.2.3. radioaktiv, bakterioloji və kimyəvi maddələrlə ölkənin əhalisinə və iqtisadiyyatına zərər vurmaq məqsədi ilə ətraf mühitə təsir edilməsinə yönəldilmiş fəaliyyətin qarşısının alınması;

21.2.4. yüksək ekoloji təhlükəli obyektlərə qəsdlər üçün zəmin yaradan cinayət əməllərinin aşkarlanması və qarşısının alınması;

21.2.5. müasir texnologiyaların tətbiqi ilə təbii ehtiyatların səmərəli istifadəsinin və ətraf mühitin mühafizəsinin gücləndirilməsi;

21.2.6. enerji ehtiyatlarının istehsalı və nəqli ilə bağlı yaradılan və istismar olunan infrastrukturun təbii fəlakətlərə,

fövqəladə hadisələrə, təxribatlara məruz qalma ehtimalına qarşı kompleks tədbirlərin həyata keçirilməsi;

21.2.7. təbiətdən istifadə və ətraf mühitin mühafizəsi sahəsində elmi cəhətdən əsaslandırılmış normativ-hüquqi bazanın təkmilləşdirilməsi və onun tətbiqinə nəzarətin həyata keçirilməsi;

21.2.8. insan fəaliyyətinin təbiətə zərərli təsirinin azaldılması istiqamətində tədbirlər görülməsi, vətəndaşların sağlamlığı üçün yaranmış təhlükələr barədə onların vaxtında xəbərdar edilməsi və bu təhlükələrin aradan qaldırılması;

21.2.9. əhalinin ekoloji maarifləndirilməsi;

21.2.10. təbii fəlakətlərin vaxtında proqnozlaşdırılması, qoruyucu və qabaqlayıcı tədbirlərin görülməsi.

21.2.11. ekoloji cinayətlərə qarşı mübarizə aparılması.

Maddə 22. Azərbaycan Respublikasının elm, mədəniyyət və mənəviyyat sahəsində milli təhlükəsizliyinin təmin olunması

22.1. Azərbaycan Respublikasının elm, mədəniyyət və mənəviyyat sahəsində milli təhlükəsizliyinin təmin olunması Azərbaycan xalqının mədəni irsinin, maddi və mənəvi dəyərlərinin, mədəni tələbatlarının ödənilməsi vasitələrinin və elmi-texniki potensialının daxili və xarici təhdidlərdən qorunması və inkişaf etdirilməsidir.

22.2. Azərbaycan Respublikasının elm, mədəniyyət və mənəviyyat sahəsində milli təhlükəsizliyinin təmin olunması üçün əsas tədbirlər aşağıdakılardır:

22.2.1. Azərbaycan xalqının tarixi və mədəni irsinin, dilinin, adət-ənənələrinin, milli özünüdərkinin xarici təhdidlərdən qorunması və inkişaf etdirilməsi;

22.2.2. ümumdünya mədəniyyətinin qloballaşması prosesində milli mədəniyyətimizin özünəməxsusluğunun qorunması;

22.2.3. dünyanın mədəni nailiyyətlərindən milli mədəniyyətimizin tərəqqisində istifadə üçün imkanların yaradılması;

22.2.4. beynəlxalq müqavilələrə uyğun olaraq Azərbaycan Respublikasının tarixi və mədəni abidələrinin qorunmasının təmin edilməsi;

22.2.5. elmi potensialın qorunmasına və inkişafına dair dövlət siyasətinin uzunmüddətli proqramlarının hazırlanıb həyata keçirilməsi;

22.2.6. elm və təhsilin keyfiyyət səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması məqsədilə inkişaf etmiş ölkələrlə əməkdaşlıq əlaqələrinin genişlənməsi, beynəlxalq təcrübənin öyrənilməsi;

22.2.7. ictimai mənəviyyat əleyhinə cinayətkarlığa qarşı mübarizə.

Maddə 23. Azərbaycan Respublikasının dövlət təsisatlarının təhlükəsizliyinin təmin edilməsi

23.1. Azərbaycan Respublikasının dövlət təsisatlarının təhlükəsizliyinin təmin olunması dövlət orqanlarının və vəzifəli şəxslərin vəzifəsi və onların xidməti fəaliyyətinin əsas göstəricilərindən biridir.

23.2. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması tələbləri mütləq qaydada aşağıdakı hallarda nəzərə alınmalıdır:

23.2.1. ölkənin inkişaf istiqamətlərinin, sosial-iqtisadi mərhələlərinin strateji planlaşdırılması zamanı;

23.2.2. qanunların və digər normativ-hüquqi aktların hazırlanması, qəbulu və icrası zamanı.

23.3. Azərbaycan Respublikasının dövlət orqanlarının formalaşdırılmasına və fasiləsiz fəaliyyət göstərməsinə qarşı yönəlmiş hər hansı hərəkətə və qərar qəbul edilməsinə yol verilmir.

23.4. Dövlət aşağıdakı istiqamətlərə yönəlmiş tədbirlər görür:

23.4.1. dövlət orqanlarında qulluğun nüfuzunun və hörmətinin yüksəldilməsi;

23.4.2. müəyyən edilmiş tələblərə uyğun gəlməyən şəxslərin dövlət orqanlarında qulluğa daxil olmasını istisna edən təşkilati-hüquqi mexanizmlərin yaradılması.

23.5. Azərbaycan Respublikasının dövlət qulluqçuları öz fəaliyyətlərində ümumdövlət maraqlarını rəhbər tutmağa borcludurlar. Dövlət qulluqçularının dövlət hakimiyyətinin nüfuzuna xələl gətirən qərarlar qəbul etməsi və hərəkətlərə yol verməsi qadağandır.

Maddə 24. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması tədbirlərinin həyata keçirilməsi tələbləri və vasitələri

24.1. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması tədbirləri həyata keçirilərkən aşağıdakı tələblər nəzərə alınmalıdır:

24.1.1. vahid dövlət siyasətinin həyata keçirilməsində bütün dövlət orqanlarının və vəzifəli şəxslərin səlahiyyətlərinin dəqiq bölünməsi, onların əlaqəli fəaliyyət göstərməsi üçün bu siyasətin ardıcıl reallaşdırılması, həmçinin qanuni əsaslarla vətəndaşların həmin tədbirlərdə iştirak etməsi;

24.1.2. milli maraqların qorunması üçün real və potensial, daxili və xarici təhdidlərə qarşı adekvat tədbirlərin görülməsi;

24.1.3. insanın, cəmiyyətin və dövlətin qarşılıqlı məsuliyyəti, onların maraqlarının tarazlaşdırılması.

24.2. Azərbaycan Respublikası öz milli təhlükəsizliyini sərəncamında olan bütün siyasi, iqtisadi, hərbi, hüquqi və digər vasitə və metodlarla birtərəfli qaydada və yaxud beynəlxalq müqavilələrə müvafiq olaraq təmin edir.

24.3. Azərbaycan Respublikasının milli təhlükəsizliyi milli maraqların müdafiəsinin zəruri səviyyəsinin əldə edilməsi və saxlanılması vasitəsi ilə təmin olunur:

24.3.1. dövlətin bu sahədəki fəaliyyətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi;

24.3.2. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlərin aşkarlanması və proqnozlaşdırılması;

24.3.3. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlərin qabaqlanması və qarşısının alınması üzrə əməliyyat və uzunmüddətli kompleks tədbirlərin həyata keçirilməsi, o cümlədən bu təhdidləri doğuran səbəb və şərtlərin aradan qaldırılması;

24.3.4. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə bilavasitə təhdid və qəsdlərin yarandığı təqdirdə, o cümlədən dövlətdaxili, transsərhəd və qlobal xarakterli ekstremal və fövqəladə vəziyyətlərdə milli təhlükəsizliyin təmin edilməsi üçün qüvvə və vasitələrin səfərbər edilməsi;

24.3.5. Azərbaycan Respublikasının milli maraqlarının qorunması, milli təhlükəsizliyə qəsd edən qeyri-qanuni fəaliyyətin qarşısının alınması üçün təxirəsalınmaz qərarlar qəbul edilməsi və tədbirlər görülməsi;

24.3.6. Azərbaycan Respublikasının milli maraqlarına qarşı yönəlmiş qəsdlərin nəticələrinin lokallaşdırılması və ləğv edilməsi, kompleks bərpa tədbirlərinin həyata keçirilməsi.

IV Fəsil
YEKUN MÜDDƏALAR

Maddə 25. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması tədbirlərinin maliyyələşdirilməsi

Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələrin və dövlət orqanlarının fəaliyyəti və buna yönəlmiş tədbirlərin maliyyələşdirilməsi Azərbaycan Respublikasının büdcəsi və qeyri-büdcə vəsaitləri hesabına həyata keçirilir.

Maddə 26. Milli təhlükəsizlik sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinin pozulmasına görə məsuliyyət

Milli təhlükəsizlik sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinin pozulmasına görə hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Maddə 27. Beynəlxalq müqavilələr və milli təhlükəsizlik

Azərbaycan Respublikasının suveren hüquqlarını məhdudlaşdıran, dövlət müstəqilliyinin itirilməsinə yönəlmiş, yaxud Azərbaycan Respublikasının milli təhlükəsizliyinə zərər vura biləcək beynəlxalq müqavilələrin bağlanılmasına yol verilmir.

Maddə 28. Normativ-hüquqi aktların bu Qanuna uyğunluğu

Bu Qanunun müddəaları Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatında ayrı-ayrı sahələri və vasitələri tənzimləyən qanunverici və digər normativ-hüquqi aktların hazırlanması və qəbul edilməsi üçün əsasdır.

Qanun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 iyun 2004-cü il, 712-IIQ №li SƏRƏNCAMI ilə təsdiq edilmişdir

Milli Təhlükəsizlik Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

SƏRƏNCAMI

Dünyada baş verən sürətli dəyişikliklər şəraitində ayrı-ayrı dövlətlər və bütövlükdə bəşəriyyət terrorçuluq, etnik separatizm və münaqişələr, transmilli mütəşəkkil cinayətkarlığın artması, kütləvi qırğın silahlarının yayılması, təbii ehtiyatların tükənməsi, əhalinin sayının durmadan çoxalması və kütləvi miqrasiyası, ətraf mühitin çirklənməsi və sair təhlükələrlə üzləşir.

Bu amillər hər bir dövlətin prioritetlərinin, təhlükəsizliyə qarşı risklərin müəyyənləşdirilməsini, həmin risklərin qabaqlanması və aradan qaldırılması üzrə adekvat tədbirlərin həyata keçirilməsini zəruri edir.

Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarının müəyyən edilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən orqanlar öz fəaliyyətində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasının müddəalarını rəhbər tutsunlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyasının müddəalarının yerinə yetirilməsinə nəzarəti həyata keçirsin və bu barədə mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 17 sentyabr tarixli 394 nömrəli Sərəncamı ilə yaradılmış Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupuna tapşırılsın ki:

4.1. üç ay müddətində Azərbaycan Respublikası Hərbi Doktrinasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Milli Məclisinin təsdiqinə verilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. 2007-2008-ci illər ərzində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında nəzərdə tutulmuş Azərbaycan Respublikasının xarici siyasət strategiyası, müdafiə icmalı, iqtisadi konsepsiya, mədəniyyət, elm, təhsil, səhiyyə, nəqliyyat konsepsiyalarının layihələrini hazırlayaraq, təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

5. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 23 may 2007-ci il

Azərbaycan Respublikasının Hərbi Doktrinası

I. Ümumi müddəalar

1. Azərbaycan Respublikasının Hərbi Doktrinası (bundan sonra "Hərbi Doktrina" adlandırılacaq) Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatı strategiyasının tərkib hissəsi olaraq, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici hərbi və digər təhdidlərdən qorunmasına yönəlmiş hərbi təhlükəsizlik sisteminin konseptual əsasını müəyyənləşdirən sənəddir.

2. Azərbaycan Respublikası xalqın və ölkənin milli maraqlarını təmin etməyə qadir müstəqil, demokratik, hüquqi, dünyəvi, unitar dövlət olaraq, öz inkişafı naminə milli təhlükəsizlik siyasətini müəyyən edir və həyata keçirir. Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin tərkib hissələrindən biri hərbi sahədə və digər sahələrdə milli maraqların təmin edilməsinə yönəlmiş Azərbaycan Respublikasının müdafiə siyasətidir (bundan sonra "müdafiə siyasəti" adlandırılacaq).

3. Müdafiə siyasətinin məqsədləri, əsasları və prinsipləri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında (bundan sonra "Milli Təhlükəsizlik Konsepsiyası" adlandırılacaq), habelə həmin Konsepsiyanın hərbi təhlükəsizliklə bağlı müddəalarının reallaşdırılmasını və onların inkişafını istiqamətləndirən Hərbi Doktrinada əks olunur.

4. Hərbi Doktrina hərbi təhlükəsizliyə təhdidlərin vaxtında aşkarlanması, təhlil edilməsi, qiymətləndirilməsi, qarşısının alınması, onlara yetərli müqavimətin göstərilməsi, dövlətin, əhalinin və ərazinin müdafiəyə hazırlanması, səmərəli hərbi təhlükəsizlik sisteminin yaradılması, müharibə və silahlı müna-

qişələrin qarşısının alınması, silahlı təcavüzün dəf edilməsi ilə bağlı məsələlərə dair Azərbaycan Respublikasının mövqeyini əks etdirir.

5. Hərbi Doktrina Azərbaycan Respublikasının təhlükəsizlik mühitinə və milli maraqlarının həyata keçirilməsinə mane olan və ya onlara təhlükə yaradan şərait, proses və amilləri təhlil edir.

6. Hərbi Doktrina milli təhlükəsizliyin hərbi-strateji, hərbi-siyasi, hərbi-iqtisadi, hərbi-texniki və təşkilati əsaslarını, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin (bundan sonra "Silahlı Qüvvələr" adlandırılacaq) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin (bundan sonra "başqa silahlı birləşmələr" adlandırılacaq) vəzifələrini, onların hazırkı mərhələdə və perspektivdə əsas quruculuq, inkişaf və hazırlıq prioritetlərini müəyyən edir.

7. Hərbi Doktrina zəruri və səmərəli müdafiə yetərliyi prinsipinə əsaslanır.

8. Hərbi Doktrinanın hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və digər normativ-hüquqi aktları, Milli Təhlükəsizlik Konsepsiyası, milli təhlükəsizlik sahəsində digər konseptual sənədlər, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir.

9. Hərbi Doktrinanın müddəaları Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin təmin edilməsinə yönəldilmiş hərbi, siyasi, iqtisadi, sosial, informasiya, hüquqi və digər tədbirlərin əlaqələndirilməsi vasitəsilə dövlət və yerli özünüidarəetmə orqanları, Silahlı Qüvvələr və başqa silahlı birləşmələr tərəfindən həyata keçirilir. Zərurət olduqda bu müddəaların həyata keçirilməsinə vətəndaş cəmiyyətinin təsisatları və ayrı-ayrı təmsilçiləri cəlb oluna bilər.

II. Azərbaycan Respublikasının təhlükəsizlik mühiti

10. Azərbaycan Respublikasının təhlükəsizlik mühiti qlobal və regional səviyyələrdə hazırda mövcud olan və gələcəkdə meydana çıxa biləcək müxtəlif qarşılıqlı əlaqəli amillər ilə müəyyən edilir. Milli Təhlükəsizlik Konsepsiyasında əks olunmuş müasir meyillər real və potensial təhdidlərin, o cümlədən hərbi sahədə milli təhlükəsizliyə təhdid və risklərin spektrini formalaşdırır, dövlət və yerli özünüidarəetmə orqanları, Silahlı Qüvvələr və başqa silahlı birləşmələr tərəfindən onların qabaqlanması, zərərsizləşdirilməsi və aradan qaldırılması üzrə fəaliyyətin xarakterinə təsir göstərir.

11. Qlobal təhlükəsizlik mühiti aşağıdakı nəticələrə səbəb olan köklü dəyişikliklərə məruz qalır:

- dünyada paralel və qismən qarşılıqlı əlaqədə olan, çox vaxt terrorçuluq, qiyam, kütləvi itaətsizlik və digər zorakı hərəkətlərə çevrilən etnik və dini zəmində fəaliyyət genişlənir. Yoxsulluq, sosial-iqtisadi qeyri-bərabərlik, miqrasiya axınları, kənar müdaxilə, münaqişə zonalarının mövcudluğu və genişlənməsi, radikal və ekstremist dini-siyasi cərəyanlar dünyanın bir sıra regionlarında gərginliyin saxlanılması və artmasına şərait yaradır;
- mütəşəkkil cinayətkarlığın, o cümlədən beynəlxalq terrorçu qruplaşmaların və müxtəlif üsyançı hərəkatların dünyada cərəyan edən siyasi proseslərə təsiri getdikcə artmaqdadır;
- maliyyə və iqtisadi böhranlar getdikcə daha qlobal xarakter alır və müxtəlif regionlardakı iqtisadi, siyasi və sosial sabitliyə mənfi təsir göstərir;
- tükənməkdə olan təbii ehtiyatların, ilk növbədə enerji ehtiyatlarının əldə olunması uğrunda gedən rəqabət nəticəsində dövlətlərarası gərginlik getdikcə daha da artır;

- ayrı-ayrı dövlətlərin və qeyri-dövlət subyektlərinin kütləvi qırğın silahlarını və onların çatdırılma vasitələrini əldə etməyə yönəlmiş səyləri bu tipli silahların yayılmaması rejimini təhlükə qarşısında qoyur;

- yeni bio – və nanotexnologiyaların sürətli inkişafı və yayılması terrorçu qüvvələr üçün bioloji müharibələri aparmaq və ya bioterror aktlarını törətmək imkanları yaradır. Bu tendensiya digər mühüm texnologiyalara, ilk növbədə destruktiv məqsədlərə yönəldilə bilən, dövlətlərin, bütövlükdə beynəlxalq birliyin maraqlarına böyük ziyan vurmağa qadir informasiya texnologiyalarına da aiddir;

- eyni zamanda, artıq bir çox dövlətlər ucuz və asanlıqla əldə olunan adi silahların yayılması və istifadə edilməsi nəticəsində xeyli insan və maddi itkiləri verməkdədirlər;

- humanitar və təbii fəlakətlər, ölümcül xəstəliklər və digər təhdid və risklər yaşayış mühitinə getdikcə daha güclü mənfi təsir göstərir.

12. Son illərdə köklü dəyişikliklərə məruz qalan beynəlxalq əlaqələr sistemindəki siyasi, iqtisadi və sosial proseslərin müxtəlif dövlətlər tərəfindən fərqli və ziddiyyətli qiymətləndirilməsi dövlətlərarası münasibətlərin gərginləşməsinə səbəb olmuş, hazırda sabitliyə və beynəlxalq təhlükəsizliyə mənfi təsir göstərməkdə davam edir.

13. Azərbaycan Respublikasının yerləşdiyi regionunun təhlükəsizlik mühitinə aşağıdakı amillər təsir edir:

- siyasi, hərbi, iqtisadi və sosial xarakterli ziddiyyətlərin təsiri altında regiondakı geosiyasi vəziyyətin qeyri-sabitliyi;

- hərbi-siyasi xarakterli, o cümlədən təcavüzkar separatizmlə şərtlənən həll olunmamış münaqişələrin mövcudluğu;

- regiondakı münaqişələrin iqtisadi maraqlara mənfi təsirinin artması, o cümlədən region dövlətlərinin ərazisindən keçən enerji və nəqliyyat infrastrukturunu təhlükə altında qoyması.

14. Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikası ərazisinin bir hissəsinin işğalı, Ermənistanın vaxtilə azərbaycanlılar yaşamış bölgələrində və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində etnik təmizləmə siyasətinin aparılması, iqtisadi və sosial infrastrukturun dağıdılması ilə nəticələnmiş təcavüz aktının davam etdirilməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinə mənfi təsir göstərən əsas amildir.

15. Azərbaycan Respublikasının işğal olunmuş əraziləri beynəlxalq nəzarətin hər hansı formasından kənarda qalmışdır. Nəticədə həmin ərazilərdə:

- "Avropada adi silahlı qüvvələr haqqında" 1990-cı il Müqaviləsinin və "Etibarın möhkəmləndirilməsi və təhlükəsizlik tədbirləri üzrə danışıqlar haqqında" 1999-cu il Vyana Sənədinin inspeksiya fəaliyyəti ilə əhatə olunmayan, uçota alınmayan və nəzarət edilməyən silah-sursat və hərbi texnika toplanmışdır;
- insan hüquqlarının təmin və müdafiə edilməsi üzrə milli və beynəlxalq mexanizmlər işləmir;
- insan alveri, narkotik və psixotrop maddələrin qeyri-qanuni istehsalı və dövriyyəsi baş verir, eləcə də silah ticarəti üzrə tranzit marşrutları yaradılmışdır;
- qanunsuz silahlı birləşmələr və terrorçular üçün bazalar yaradılmışdır;
- qeyri-qanuni məskunlaşdırma aparılır;
- təbii sərvətlər talan edilir, nadir flora və fauna növlərinin nəsli kəsilir, ekoloji mühitə ciddi ziyan vurulur;
- Ermənistan Respublikasının ərazisində tarixən azərbaycanlıların yaşadıqları yerlərdə və Azərbaycan Respublikasının işğal altında olan Dağlıq Qarabağ və ətraf ərazilərində ümumdünya tarixi və mədəni irsinin tərkib hissəsi olan maddi-mədəniyyət abidələri məhv və talan edilir.

16. Ermənistan Respublikası tərəfindən işğal edilmiş ərazilərin müvəqqəti olaraq Azərbaycan Respublikasının hakimiyyət orqanlarının nəzarətindən kənarda qalması yalnız milli təhlükəsizliyə deyil, regional təhlükəsizliyə də ciddi təsir göstərir. Bu vəziyyət beynəlxalq birliyin problemin həllində göstərdiyi səylərin səmərəsizliyi nəticəsində daha da ağırlaşır.

17. Ayrı-ayrı qüvvələrin Azərbaycanın müxtəlif bölgələrində separatçı meyilləri qızışdırmaq cəhdləri davam etməkdədir.

18. Bununla yanaşı, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə bilavasitə təsir göstərən və ya təsir göstərə bilən digər müxtəlif xarici amillər kompleksi mövcuddur:

- beynəlxalq təhlükəsizliyin təminatına bilavasitə cavabdeh olan bir sıra beynəlxalq təşkilatların səmərəsiz fəaliyyətləri fonunda beynəlxalq münasibətlərdə hərbi gücün əhəmiyyəti, siyasi və iqtisadi maraqların reallaşması prosesindəki rolu nəzərəçarpacaq dərəcədə artır;

- Azərbaycan Respublikasının Avropa və Asiya arasındakı beynəlxalq ticarət və nəqliyyat-kommunikasiya xətləri qovşağındakı geosiyasi mövqeyi, zəngin neft və qaz ehtiyatları dövlətlərarası ziddiyyətlərin kəskinləşməsinə, regiondakı sabitliyin pozulmasına və milli təhlükəsizlik üçün hərbi təhdidlərin yaranmasına səbəb ola bilər;

- Xəzər dənizinin Azərbaycan Respublikasına aid hissəsində karbohidrogen yataqlarının istismarı və dünya bazarlarına çıxarılması, habelə Azərbaycan Respublikasının Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı üzrə beynəlxalq enerji və nəqliyyat-kommunikasiya layihələrində, beynəlxalq birliyin sülhün dəstəklənməsi üzrə əməliyyatlarında, habelə koalisiya üzrə tərəfdaşların beynəlxalq terrorçuluqla mübarizə üzrə əməliyyatlarında fəal iştirakı onun təhlükəsizlik mühitinə ciddi təsir edən amilə çevrilmiş və ölkənin

terrorçu təşkilatların hədəfində olma ehtimalını əhəmiyyətli dərəcədə artırmışdır.

III. Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə təhdidlər

19. Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin hərbi və siyasi, habelə digər təhdidlərdən qorunması dövlətin hərbi təhlükəsizliyin təmin edilməsi sahəsində başlıca vəzifələrindən biridir.

20. Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə təsir göstərən real və potensial təhdidlər qismində xarici və daxili hərbi və siyasi təhdidlər, habelə digər təhdidlər nəzərdə tutulur.

21. Əsas xarici hərbi və siyasi təhdidlər aşağıdakılardır:

- Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal altında saxlanılması;
- Azərbaycan Respublikasının daxili işlərinə hər hansı mümkün kənar hərbi müdaxilə;
- Azərbaycan Respublikasının xarici hərbi asılılığa düşməsi;
- Azərbaycan Respublikasına qarşı qonşu dövlətlər tərəfindən ərazi iddialarının irəli sürülməsi;
- Azərbaycan Respublikasının daxili siyasi və sosial-iqtisadi vəziyyətinin gərginləşdirilməsinə, sabitliyin pozulmasına yönəldilmiş hər hansı fəaliyyət növləri, o cümlədən separatçı və dini-ekstremist hərəkatların dəstəklənməsi, digər dövlətlər tərəfindən Azərbaycan Respublikasının ərazisinə göndərilməsi üçün qanunsuz silahlı qrupların və terrorçuların hazırlanması;

- qonşu ölkələrin dövlətlərarası münaqişələrdə iştirakı və ya həmin ölkələrdə daxili münaqişələrin, hərbi əməliyyatların, silahlı qiyamların, yaxud hərbi və ya hərbi-siyasi qeyri-sabitliyin digər formalarının mövcudluğu;

- regional hərbi tarazlığın pozulması və müdafiə yetərliyinin həddindən kənara çıxması, o cümlədən regionda və ya Azərbaycan Respublikasının dövlət sərhədlərinin və ərazi sularının bilavasitə yaxınlığında hərbi bazaların yaradılması, qoşun qruplaşmalarının cəmləşdirilməsi, silahların və digər hərbi iştirakın artırılması;

- Azərbaycan Respublikasının dövlət sərhədinin hərbi birləşmələr və silahlı dəstələr tərəfindən pozulması, sərhəd mübahisələri və ya münaqişələrinin kəskinləşməsi;

- ayrı-ayrı dövlətlərin, təşkilatların və terrorçu qrupların hərbi-siyasi iddiaları kontekstində nüvə və digər kütləvi qırğın silahı növlərinin, onların çatdırılma vasitələrinin və ən yeni hərbi istehsal texnologiyalarının yayılması.

22. Əsas daxili hərbi və siyasi təhdidlər aşağıdakılardır:

- daxili sabitliyin və ölkənin ərazi bütövlüyünün pozulmasına yönəldilmiş terrorçu, dini-ekstremist, millətçi-separatçı təşkilat və strukturların güc tətbiq etməklə həyata keçirdikləri qanunazidd fəaliyyət;

- konstitusiya quruluşu əleyhinə qəsdlər, dövlət hakimiyyəti və idarəetmə orqanlarının təşkilati strukturunun dağıdılması və ictimai-siyasi sabitliyin pozulmasına yönəldilmiş cəhdlər;

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılması cəhdləri;

- təxribat, terror aktları və digər qanunazidd əməlləri həyata keçirmək üçün istifadə oluna bilən silah-sursatın, partlayıcı

maddələrin və digər vasitələrin Azərbaycan Respublikasının ərazisində qanunsuz toplanması və dövriyyəsi;

- Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə təhdid yaradan mütəşəkkil cinayətkarlıq və digər qanunazidd fəaliyyət;

- hərbi əhəmiyyətli və mühüm dövlət obyektlərinə, kommunikasiya qurğularına və informasiya infrastrukturuna qarşı silahlı hücumlar və təxribatlar.

23. Digər təhdidlər aşağıdakılardır:

- təbii fəlakətlər və texnogen qəzalar;

- kütləvi şəkildə qeyri-qanuni miqrasiya;

- radioaktiv, kimyəvi və bioloji materialların qeyri-qanuni dövriyyəsi.

24. 23-cü bənddə göstərilən təhdidlərin milli təhlükəsizliyə ziyanının miqyası nəzərə alınaraq, müəyyən şəraitdə onların qarşısının alınmasında və ya aradan qaldırılmasında qanunla müəyyən edilmiş qaydada Silahlı Qüvvələr və başqa silahlı birləşmələr cəlb oluna bilər.

IV. Azərbaycan Respublikasının müdafiə siyasəti

25. Müdafiə siyasəti dövlətin hərbi təhlükəsizliyini təmin etmək məqsədi ilə hərbi, siyasi, iqtisadi və sosial tədbirlər əsasında formalaşır və Azərbaycan Respublikasının milli maraqlarının həyata keçirilməsi üçün əlverişli daxili və xarici şəraitin yaradılmasına xidmət edir.

26. Müdafiə siyasəti qeyri-hərbi xarakterli tədbirlərin (qonşu və digər dövlətlərlə dostluq, tərəfdaşlıq və ya müttəfiqlik münasibətlərinin qurulması, inkişafı və möhkəmləndirilməsi) döyüşə hazır müdafiə potensialının qorunub saxlanması və inkişaf etdirilməsi ilə uzlaşdırılması vasitəsilə Azərbaycan Respublikasının milli təhlükəsizliyinə qarşı hərbi və digər

təhdidlərin aşkarlanması, qabaqlanması, qarşısının alınması, məhdudlaşdırılması və zərərsizləşdirilməsinə yönəlmişdir.

27. Müdafiə siyasəti regiondakı hərbi-siyasi şəraitin və onun inkişaf meyillərinin sistemli təhlilinə, Azərbaycan Respublikasına qarşı real və potensial hərbi təhdidlərin kompleks qiymətləndirilməsinə əsaslanır və hərbi təhlükəsizliyin təmin edilməsi üçün obyektiv tələbatları və real imkanları, eləcə də ölkənin coğrafi mövqeyini və ərazinin landşaftını nəzərə alır.

28. Azərbaycan Respublikası müdafiə siyasətini formalaşdıraraq və həyata keçirərək:

- beynəlxalq hüququn norma və prinsiplərinə riayət edir;
- bütün dövlətlərlə dinc yanaşı yaşamağa səy göstərir;
- beynəlxalq münasibətlərdə bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq və mehriban qonşuluq prinsiplərinin bərqərar olunmasına çalışır;
- təcavüzə məruz qaldığı, habelə beynəlxalq-hüquqi öhdəliklərindən irəli gələn hallar istisna olmaqla, heç bir dövlətə qarşı hərbi əməliyyatlara başlamır;
- başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir;
- işğalın nəticələrini rəsmiləşdirmək məqsədi ilə Ermənistan Respublikasına və onun işğal etdiyi Azərbaycan ərazilərində qurduğu separatçı rejimə hər hansı siyasi, hərbi, iqtisadi və digər dəstəyi Azərbaycan Respublikasına qarşı əməl kimi qiymətləndirir;
- Ermənistan Respublikasının Azərbaycan Respublikası ərazisinin bir hissəsini işğal altında saxlaması və problemin siyasi yolla tənzimlənməsi çərçivəsində işğal etdiyi əraziləri azad etməkdən imtina etməsi səbəbindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə hərbi güc daxil olmaqla, bütün lazımi vasitələrdən istifadə etmək hüququnu özündə saxlayır.

29. Azərbaycan Respublikası tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə yol vermir. Bununla belə, hərbi-siyasi şəraitdə əsaslı dəyişikliklər baş verdiyi təqdirdə, Azərbaycan Respublikası öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə, yaxud digər formada xarici hərbi iştirakın yer almasına müvəqqəti icazə vermək hüququnu özündə saxlayır.

30. Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas prinsipləri aşağıdakılardır:

- Silahlı Qüvvələrə və başqa silahlı birləşmələrə mərkəzləşdirilmiş rəhbərliyin onların fəaliyyətinə demokratik nəzarət ilə uzlaşdırılması;
- Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə potensial təhdidlərin qabaqcadan proqnozlaşdırılması, vaxtında aşkarlanması və qiymətləndirilməsi;
- nəzərdə tutulan tədbirlərin qabaqcadan planlaşdırılması və hərtərəfli təminatı, onların vaxtında həyata keçirilməsi;
- hərbi təhlükəsizliyin təmin edilməsi üçün zəruri olan qüvvə, vasitə və ehtiyatların yetərliyi, onların planlaşdırılması və səmərəli istifadəsi;
- vahid dövlət hərbi-texniki siyasətinin həyata keçirilməsi;
- hərbi quruculuq işlərinin hərbi təhlükəsizliyin tələbatları ilə uzlaşdırılması;
- tərəfdaşlar ilə hərbi və hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsi.

31. Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin təmin edilməsinə öz səlahiyyətləri çərçivəsində cavabdeh olan və müdafiə siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak edən dövlət orqanları, Silahlı Qüvvələr və başqa silahlı birləşmələr, digər aidiyyəti qurumlar hərbi təhlükəsizlik sistemini təşkil edirlər.

32. Azərbaycan Respublikasının dövlət orqanlarının, Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin, digər aidiyyəti qurumlarının hərbi təhlükəsizliyin təmin edilməsi ilə bağlı səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və digər normativ-hüquqi aktları ilə müəyyən edilir.

33. Hərbi təhlükəsizliyin təmin edilməsi sahəsində tədbirlər və vəzifələr Azərbaycan Respublikasının bütün qüvvə, vasitə və ehtiyatları ilə həyata keçirilir.

34. Müdafiə siyasətini təşkil edən, dövlət və yerli özünüidarəetmə orqanlarının qanunvericilikdə nəzərdə tutulmuş səlahiyyətləri çərçivəsində həyata keçirilən əsas tədbirlər, habelə Silahlı Qüvvələr və başqa silahlı birləşmələrin qarşısında qoyulan vəzifələr, səfərbərliyin səviyyəsi, döyüş hazırlığı dərəcəsi "dinc dövr", "real təhdid dövrü" və "müharibə (silahlı münaqişə) dövrü" adlanan üç şərti təhlükəsizlik şəraiti əsasında müəyyənləşdirilir.

35. Dinc dövrdə müdafiə siyasəti çərçivəsində aşağıdakı əsas tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

35.1. Azərbaycan Respublikasının dövlət sərhədlərinin mühafizəsi və onların toxunulmazlığının təmin edilməsi sahəsində:

- Azərbaycan Respublikasının dövlət sərhədlərində real və potensial təhdidlərin dəf edilməsi, o cümlədən dövlət sərhədlərini qanunsuz olaraq dəyişdirmək cəhdlərinin qarşısının alınması, dövlət sərhədindən qanunvericiliklə qadağan olunmuş əşyaların keçirilməsinin qarşısının alınması və sərhədboyu zonada əhalinin və mülkiyyətin qorunması;

- dövlət sərhəd rejiminə əməl olunmasının təmin edilməsi;

- dövlət sərhədindən terrorçuların və terrorçu qrupların, habelə qeyri-leqal miqrantların keçməsi, kütləvi qırğın silahlarının və onların komponentlərinin, silah-sursat, narkotik vasitə-

lərin daşınması və digər qeyri-qanuni fəaliyyətlərin qarşısının alınması üçün sərhəd mühafizəsi sisteminin əməliyyat-texniki imkanlarının genişləndirilməsi, nəzarət-axtarış və operativ müdaxilə qabiliyyətinin artırılması;

- Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində sərhəd nəzarətinin həyata keçirilməsi.

35.2. Müdafiə və döyüş potensialının, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin yüksək döyüş qabiliyyətinin, səfərbərlik hazırlığının zəruri səviyyədə saxlanılması sahəsində:

- Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin döyüş hazırlığının ümumi hərbi-elmi əsaslarla yüksəldilməsi, silahlı mübarizə vasitələrinin və onlara yiyələnmə vərdişlərinin daim təkmilləşdirilməsi, yeniləşdirilməsi və döyüşə hazır vəziyyətdə saxlanılması;

- milli təhlükəsizliyə hərbi təhdidlərin qabaqcadan aşkarlanması və nəzarətdə saxlanılması, onların potensial təsirinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi;

- müdafiə sənayesinin və zəruri hərbi infrastrukturun inkişaf etdirilməsi və təkmilləşdirilməsi;

- müharibə vəziyyətinə vaxtında keçmə, hərbi və ya fövqəladə vəziyyətin tətbiqi ilə eyni vaxtda Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin döyüşə hazır vəziyyətə gətirilməsi üçün müvafiq hazırlığının saxlanılması.

35.3. Dövlət orqanlarının, ölkə iqtisadiyyatının, əhali və ərazinin müdafiəyə hazırlanması sahəsində:

- dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının və təşkilatların, iqtisadiyyatın və əhalinin müharibə dövründə fəaliyyət göstərməsi, ölkə ərazisinin müdafiəyə hazırlanması üçün səfərbərlik hazırlığının təmin edilməsi;

- ölkə iqtisadiyyatının səfərbərliyə və müharibə dövrü şəraitinə hazırlığı və bu dövrə keçirilməsi ilə bağlı səfərbərlik planlarının hazırlanması;

- müharibə dövründə dövlətin, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin tələbatının və əhalinin ehtiyaclarının ödənilməsi məqsədi ilə istehsal obyektlərinin yaradılması, inkişaf etdirilməsi və qorunub saxlanması;

- dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının və təşkilatların ehtiyat idarəetmə məntəqələrinin yaradılması və müharibə dövrü şəraitində fəaliyyətə hazırlanması.

35.4. Mülki müdafiə tədbirlərinin planlaşdırılması və həyata keçirilməsi sahəsində:

- dinc və ya müharibə dövründə əhalinin və ərazinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə mülki müdafiə üzrə tədbirlər sisteminin yaradılması;

- mülki müdafiə tədbirlərinin təşkili və həyata keçirilməsi ilə bağlı mülki müdafiə planının və mülki müdafiə sahəsində əsas tədbirlərin illik planlarının hazırlanması.

35.5. İkitərəfli və çoxtərəfli hərbi-siyasi əməkdaşlığın gücləndirilməsi və beynəlxalq təhlükəsizliyə töhfə verilməsi sahəsində:

- tərəfdaş dövlətlərlə ikitərəfli və çoxtərəfli hərbi-siyasi əməkdaşlığın davam etdirilməsi;

- təhlükəsizliyin bölünməzliyi prinsipini nəzərə alaraq, Azərbaycan Respublikasının yerləşdiyi regionun da daxil olduğu Avroatlantik məkanda təhlükəsizlik sisteminin yaradılması üzrə səylərin dəstəklənməsi, NATO ilə qarşılıqlı maraqlar əsasında əməkdaşlığın davam etdirilməsi;

- müharibələrin və silahlı münaqişələrin qarşısının alınması, sülhün dəstəklənməsi və ya bərpası ilə bağlı dünya birliyi və onun təhlükəsizlik strukturları ilə əməkdaşlığın davam etdirilməsi;

- kütləvi qırğın silahlarının yayılmasının, işlənib hazırlanmasının, istehsalının, toplanmasının, əldə edilməsinin, saxla-

nılmasının və ötürülməsinin qarşısının alınmasında iştirak edilməsi;

- terrorçuluğun bütün növləri ilə mübarizədə beynəlxalq birliyin səylərinin dəstəklənməsi.

36. Dinc dövrdə görülən tədbirlər ümumilikdə ölkənin müdafiə qabiliyyətini möhkəmləndirmək, mümkün təhdidlərin qarşısını almaq və potensial düşməni Azərbaycan Respublikasına qarşı hər hansı bədxah əməllərdən, yaxud təcavüzkar hərəkətlərdən çəkindirmək məqsədi daşıyır.

37. Real təhdid dövründə müdafiə siyasəti çərçivəsində aşağıdakı əsas tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

37.1. Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandıqda ölkənin, əhalinin və ərazinin, eləcə də Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin müdafiəyə hazır vəziyyətə gətirilməsi sahəsində:

- Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyətin, ümumi və ya qismən səfərbərliyin elan olunması, hərbi əməliyyatlara hazırlıq və onların keçirilməsinə dair qərarların qəbul edilməsi və icrası;

- düşmənin təcavüzkar niyyətinin vaxtında aşkarlanması, təhdid olunan istiqamətdə cəmləşdirilmiş qoşun hissələrinin tərkibinin müəyyən edilməsi və yaranmış hərbi-siyasi vəziyyətin qiymətləndirilməsi;

- ərazi və mülki müdafiə tədbirlərinin təşkili və onların həyata keçirilməsi;

- silahlı, siyasi, diplomatik, informasiya, iqtisadi və digər müdafiə növlərinin və üsullarının təşkili və onların əlaqələndirilməsi;

- təcavüzün dəf edilməsi məqsədi ilə dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının, vətəndaş cəmiyyəti təsisatlarının və vətəndaşların əlaqəli fəaliyyətinin təmin edilməsi;

- Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin və ya onların hissələrinin qismən və ya tam operativ və strateji açılması, əməliyyatların yerinə yetirilməsi üçün onların tam hazırlıqlı vəziyyətə gətirilməsi;

- ölkə iqtisadiyyatının və onun ayrı-ayrı sahələrinin, o cümlədən müəssisə və təşkilatların, nəqliyyat və kommunikasiyaların hərbi vəziyyət şəraitində nəzərdə tutulmuş iş rejiminə keçirilməsi.

37.2. Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, onun Konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönəldilən hərəkətlərin, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşların, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün təhlükə yaradan digər münaqişələrin aradan qaldırılması sahəsində:

- Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində fövqəladə vəziyyətin tətbiq edilməsinə dair qərarın qəbul edilməsi və icrası;

- daxili silahlı münaqişə rayonunun lokallaşdırılması və təcrid edilməsi, münaqişə rayonuna bitişik ərazilərdə ictimai asayişin mühafizəsi və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi;

- antiterror əməliyyatlarının keçirilməsi, qanunsuz silahlı birləşmələrin, terrorçu qrup və təşkilatların ləğvi, onların bazalarının, təlim mərkəzlərinin, anbar və kommunikasiyalarının məhv edilməsi;

- münaqişə rayonunda əhalidən silahların yığılması;

- qanunçuluğun və asayişin bərpası, ictimai təhlükəsizliyin və sabitliyin təmin edilməsi.

38. Müharibə (silahlı münaqişə) dövründə təcavüzü dəf etmək və ölkəni, əhalini və ərazini qorumaq məqsədi ilə müdafiə siyasəti çərçivəsində aşağıdakı tədbirlər görülür:

- təcavüzün dəf edilməsi üçün zəruri olan qüvvə və vasitələrin səfərbər edilməsi, müdafiə sahəsində hərbi, siyasi, diplomatik, informasiya, iqtisadi və digər tədbirlərin həyata keçirilməsi;

- Azərbaycan Respublikası ərazisinin qorunması üzrə hərbi fəaliyyətin həyata keçirilməsi;

- dövlət və yerli özünüidarəetmə orqanları, müəssisələr, idarələr, təşkilatlar və əhali arasında təcavüzün dəf edilməsi və nəticələrinin aradan qaldırılması üzrə fəaliyyətin əlaqələndirilməsi, o cümlədən ərazi və mülki müdafiə tədbirlərinin təşkili və icrası;

- beynəlxalq təşkilatlar və bütün dövlətlər tərəfindən təcavüzkarın qınanmasına və təcridinə nail olunması.

39. Müharibə (silahlı münaqişə) dövründə görülən tədbirlər ümumilikdə düşmənə əhəmiyyətli zərər vurmaq, onu silahlı münaqişəni davam etdirməkdən imtinaya və Azərbaycan Respublikası üçün əlverişli şərtlərlə siyasi tənzimləməyə keçməyə məcbur etmək məqsədi daşıyır.

40. Həm dinc, həm real təhdid, həm də müharibə (silahlı münaqişə) dövründə Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin təmin edilməsi və ölkənin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşuna, müdafiə potensialına və digər milli maraqlarına zərər vura biləcək kəşfiyyat, terror-təxribat və sair pozuculuq əməllərinin aşkarlanması, qabaqlanması və qarşısının alınması məqsədi ilə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti həyata keçirilir.

V. Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin hərbi-strateji əsasları

41. Qlobal inkişafın müasir mərhələsi çoxistiqamətli, qarşılıqlı ziddiyyətli və eyni zamanda, cari və gələcək silahlı mü-

naqişələrin xarakterini əsaslı surətdə dəyişdirən, bir-birini tamamlayan aşağıdakı meyillərin mövcudluğu ilə xarakterizə olunur:

- geoməkanın genişliyi, mürəkkəbliyi, qeyri-sabit dinamikası, informasiya amilinin və texnoloji inkişafın durmadan artan əhəmiyyəti;

- ən yeni silahlı mübarizə vasitələrinin meydana gəlməsi, vahid informasiya məkanının formalaşması və "döyüş meydanı" anlayışının tədricən "döyüş məkanı" anlayışı ilə əvəz edilməsi;

- müharibə aparmağın keyfiyyətcə fərqli fəlsəfəsinin meydana gəlməsi, yəni say, təşkilati və texnoloji baxımdan olduqca üstün düşmənə qarşı qeyri-dövlət struktur şəbəkələrinin asimmetrik hərbi fəaliyyəti.

42. Hərbi Doktrina mümkün müharibələrin, hərbi təcavüzün və terrorçuluq fəaliyyətinin ehtimalını aşağıdakı kimi qiymətləndirir:

- irimiqyaslı (həm nüvə, həm də adi) hərbi toqquşmaların təhlükəsi tam aradan qalxmasa da, sabitlik və sülh üçün əsas təhlükəni lokal müharibələr və silahlı münaqişələr təşkil edir;

- Azərbaycan Respublikasına qarşı hər hansı dövlət tərəfindən (Ermənistan Respublikası istisna olmaqla) hərbi təcavüzün edilməsi cari mərhələdə az ehtimal olunan səviyyədədir;

- hərbi əhəmiyyətli və mühüm dövlət obyektlərinə, o cümlədən ölkə ərazisindən və qonşu dövlətlərdən keçən enerji, nəqliyyat infrastrukturuna və digər kommunikasiya qurğularına qarşı terror aktlarının həyata keçirilməsi ehtimalı artmışdır.

43. Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan Respublikası tərəfindən işğal altında saxlanılması Azərbaycanın milli təhlükəsizliyinə əsas hərbi təhdid mənbəyi olaraq qalmaqdadır. Bu təhdid ilə bağlı hərbi fəaliyyətin təzələnməsinin mümkün variantları aşağıdakılardır:

- Ermənistan Respublikası tərəfindən fəal silahlı təcavüz fazasının qəsdən təzələnməsi;

- silahlı münaqişənin idarəolunmaz dərəcədə genişlənməsi - atəşkəs xəttindəki lokal toqquşmaların böyüyüb daha genişmiqyaslı döyüş əməliyyatlarına çevrilməsi;

- Ermənistan Respublikasının Azərbaycanın ərazisinin bir hissəsini işğal altında saxlaması və işğal etdiyi torpaqları problemin siyasi yolla tənzimlənməsi çərçivəsində könüllü azad etməkdən daim imtina etməsi səbəbindən Azərbaycan Respublikası tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etmək məqsədilə məcburən hərbi gücün tətbiq edilməsi.

44. Azərbaycan Respublikasına qarşı mümkün hərbi fəaliyyət aşağıdakı kimi xarakterizə oluna bilər:

- genişmiqyaslı müharibə;

- taktiki və əməliyyat miqyaslı döyüş əməliyyatlarının aparılmasının müxtəlif üsul və formaları;

- əks tərəfin qeyri-nizami qurumlarından və məhdud hərbi kontingentlərindən tutmuş qoşun qruplaşmaları (qüvvələri) da daxil olmaqla, bütün hərbi-iqtisadi potensialı ilə dəstəklənən silahlı qüvvələrin geniş diapazonunun tətbiqi;

- əks tərəfin malik olduğu yüngül atıcı silahlardan tutmuş ən müasir silah və hərbi texnika nümunələri, o cümlədən informasiya və radioelektron mübarizə sistemlərinə qədər bütün silahlı mübarizə vasitələrindən istifadə;

- dövlət və hərbi idarəetmə sistemini, mühüm dövlət, iqtisadi, sosial obyektləri iflic vəziyyətə gətirmək, quruda və ərazi sularında nəqliyyat və digər strateji əhəmiyyətli obyektləri sıradan çıxarmaq məqsədilə hərbi hava qüvvələrindən istifadə edərək geniş hava əməliyyatlarının keçirilməsi;

- təxribatçı və terrorçu fəaliyyətin həyata keçirilməsi, o cümlədən daxili və xarici qüvvələr tərəfindən ölkə ərazisindən keçən enerji, nəqliyyat infrastrukturuna və digər kommunikasiya qurğularına qarşı terror və təxribat aktlarının törədilməsi.

45. Azərbaycan Respublikasına qarşı hərbi fəaliyyət ayrı-ayrı dövlətlərdə və beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasına qarşı genişmiqyaslı informasiya-təbliğat kampaniyası ilə müşayiət oluna bilər.

46. Hərbi-strateji amillər Azərbaycan Respublikasının müdafiə qabiliyyəti üçün mühüm meyardır. Hərbi-strateji qiymətləndirməyə əsasən Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin səmərəli təminatı üçün aşağıdakı qabiliyyətlər inkişaf etdiriləcəkdir:

- ərazinin müdafiəsi, o cümlədən dövlət sərhədlərinin və mühüm dövlət obyektləri və kommunikasiya qurğularının səmərəli mühafizəsi;
- çevik əməliyyatların keçirilməsi üçün əməliyyat-taktiki səviyyədə yüksək döyüş hazırlığının saxlanılması;
- terror aktlarının qabaqlanması və qarşısının alınması üçün yüksək döyüş hazırlığının saxlanılması;
- Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin fəaliyyəti üçün hüquqi sistemin, komanda və idarəetmə sisteminin çevikliyinin təmin edilməsi.

VI. Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin vəzifələri

47. Azərbaycan Respublikası öz təhlükəsizlik mühitini, real və potensial hərbi təhdidləri, eləcə də ümumi hərbi-strateji vəziyyəti qiymətləndirərək və ölkənin mövcud resurs və potensialını nəzərə alaraq, Silahlı Qüvvələrin və başqa silahlı

birləşmələrin müasir şəraitdə hərbi təhlükəsizliyin təmin edilməsi üzrə bütün kompleks məsələlərin həllinə maksimal dərəcədə uyğunlaşdırılmış strukturunu formalaşdırır və inkişaf etdirir.

48. Silahlı Qüvvələr və başqa silahlı birləşmələr aşağıdakı prinsiplər əsasında qurulur:

- Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının və milli maraqlarının silahlı müdafiəsi, dövlətə qarşı silahlı təcavüzün qarşısının səmərəli alınması və dəf edilməsi üçün zəruri hərbi qabiliyyətin yaradılması və saxlanılması;

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının nəzarəti altında olmaqla, hərbi rəhbərliyin mərkəzləşdirilməsi və vahidliyi;

- daimi və dəyişkən geosiyasi amillərin, regiondakı hərbi-siyasi vəziyyətin mövcud durumunun və inkişaf perspektivlərinin, ölkənin coğrafi mövqeyinin və ərazi landşaftının nəzərə alınması;

- Azərbaycan Respublikasının tarixi təcrübəsindən və dünyanın müasir hərbi quruculuq təcrübəsindən səmərəli istifadə edilməsi;

- qarışıq (könüllü və çağırış üzrə) sistemə uyğun olaraq komplektləşdirmə;

- daim döyüşə və səfərbərliyə hazır vəziyyətin saxlanılması;

- strukturun, döyüş heyətinin, say tərkibinin, texniki təchizatın və səfərbərlik ehtiyatlarının səmərəli yetərliyə uyğun olması;

- hərbi qulluqçuların, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin strukturlarında qulluq edən mülki şəxslərin hüquq və azadlıqlarının təminatı, onların sosial müdafiəsinin və həyat səviyyəsinin təmin edilməsi;

- hərbi qulluqçuların ictimai-siyasi təşkilatların fəaliyyətində iştirakının yolverilməzliyi.

49. Hərbi təhlükəsizliyin təmin edilməsi üzrə vəzifələr Silahlı Qüvvələr və başqa silahlı birləşmələr tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə və Hərbi Doktrinaya uyğun olaraq sıx qarşılıqlı əlaqədə yerinə yetirilir.

50. Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin vəzifələri müdafiə siyasətinin məqsədlərinə, prioritet istiqamətlərinə və prinsiplərinə uyğundur və aşağıdakı kimi müəyyənləşdirilir:

50.1. Dinc dövrdə Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin əsas vəzifələri:

- əməliyyat şəraitinin, onun təhlükəli dəyişməsinin və Azərbaycan Respublikasına qarşı silahlı təcavüzə hazırlığın vaxtında aşkarlanması;

- Azərbaycan Respublikasına yönəlmiş hər hansı təcavüzə qarşı kifayət qədər güc və çəkindirmə vasitələri potensialının yaradılması;

- səfərbərlik hazırlığı, qoşunların döyüşə hazırlığı və döyüş potensialının lokal miqyasda təcavüzün dəf edilməsini təmin edəcək səviyyədə saxlanılması;

- tərəfdaş dövlətlərin silahlı qüvvələri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq xətti üzrə uyarlılıq və qarşılıqlı fəaliyyət qabiliyyətinin yüksəldilməsi;

- əməliyyat, döyüş və səfərbərlik hazırlığı, tərbiyəvi işin plan və proqramlarının keyfiyyətli və tam həcmdə yerinə yetirilməsi, silah və döyüş (xüsusi) texnikası, maddi vəsait ehtiyatlarının döyüş tətbiqinə hazır vəziyyətdə saxlanılması;

- ölkənin müharibə şəraitinə keçirilməsi üzrə dövlət tədbirləri çərçivəsində qoşunların tam strateji açılmasına hazırlığın saxlanılması;

- Azərbaycan Respublikasının hava hücumundan müdafiəsinin mərkəzləşdirilmiş idarəetməyə əsaslanan vahid hava hücumundan müdafiə sistemi çərçivəsində təmin edilməsi, hava məkanının istifadə qaydalarına nəzarətin həyata keçirilməsi, təyin olunmuş güc və vasitələrlə döyüş növbəsinin aparılması;

- Xəzər dənizində Azərbaycan Respublikasının milli maraqlarının qorunması və təhlükəsiz iqtisadi fəaliyyət üçün əlverişli əməliyyat şəraitinin saxlanılması, dənizin Azərbaycan Respublikasına məxsus hissəsində enerji infrastrukturuna, üzmə vasitələrinin hərəkətinə nəzarətin və onların təhlükəsizliyinin təmin edilməsi, naviqasiya, hidroqrafiya və hidrometeorologiya təminatının həyata keçirilməsi;

- informasiya təhlükəsizliyinin təmin edilməsi;

- kommunikasiyaların texniki dəstəyinin və bərpasının təmin edilməsi;

- ərazi müdafiəsinin təşkili;

- mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının, xüsusi yüklərin mühafizəsi;

- Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi;

- sərhədboyu zonada əhalinin, mülkiyyətin təxribatçı əməllərdən qorunması, bu cür əməllərin qarşısının alınması;

- qanunvericilikdə nəzərdə tutulmuş səlahiyyətlər daxilində sərhəd münaqişələrinin nizama salınması üçün tədbirlərin görülməsi;

- sərhəd rejiminin mühafizəsi;

- qanunvericiliklə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində terrorçuluğa qarşı mübarizədə iştirak;

- mülki müdafiə tədbirlərinin yerinə yetirilməsi, əhalinin və ərazinin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması;

- fövqəladə halların məhdudlaşdırılması və nəticələrinin aradan qaldırılması üzrə qəza-xilasetmə və digər tədbirlərin həyata keçirilməsi;

- fövqəladə halların baş verdiyi ərazilərdə ziyan çəkmiş əhalinin ilkin tələbat malları, müvəqqəti yaşayış və digər maddi vəsaitlər, eləcə də ilk tibbi yardım və xidmətlərlə təmin edilməsi.

50.2. Real təhdid dövründə başqa silahlı birləşmələrin vəzifə və tapşırıqları, eləcə də onların Silahlı Qüvvələrlə qarşılıqlı fəaliyyəti əvvəlcədən tərtib edilmiş planlar əsasında müəyyən edilir.

50.3. Müharibə (silahlı münaqişə) dövründə Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin əsas vəzifələri aşağıdakılardır:

- Ermənistan Respublikası ilə mövcud münaqişənin nizama salınması üçün təcavüzkara strateji təzyiqin artırılması, zəruri olduqda hərbi güc tətbiq etməklə münaqişənin qısa zamanda və Azərbaycan Respublikası üçün minimal itkilərlə həlli məqsədilə qoşun qruplaşmaları potensialının lazımi səviyyəyə çatdırılması;

- cəbhəboyu ərazilərdə döyüş xidmətinin aparılması və qoşun qruplaşmalarının təcavüzün dəf edilməsinə daim hazır vəziyyətdə saxlanılması;

- Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin qismən və ya tam strateji açılması;

- sərhədyanı silahlı münaqişələrin lokallaşdırılması və zərərsizləşdirilməsi;

- Azərbaycan Respublikasının ərazisinə daxil olmuş təcavüzkarın qoşun qruplaşmalarının və onun əməliyyat ehtiyatlarının darmadağın və məhv edilməsi üzrə strateji və döyüş əməliyyatlarının aparılması;

- əhalinin, iqtisadi obyektlərin və infrastrukturun düşmənin zərərvurma vasitələrinin təsirindən mühafizəsi;

- qanunvericilikdə müəyyən olunmuş qaydada hərbi və ya fövqəladə vəziyyət rejiminin saxlanılması.

51. Silahlı təcavüzün dəf edilməsi vəzifələrinin icrası Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının əmr və göstərişlərinə, habelə müvafiq planlara uyğun olaraq həyata keçirilir.

52. Silahlı Qüvvələrin birlikləri, birləşmələri və hərbi hissələri Hərbi Doktrinada müəyyən edilmiş potensial və real hərbi təhdidlərin konkret istiqamətlərinə uyğun olaraq yerləşdirilir.

53. Silahlı Qüvvələr sülhməramlı, humanitar və digər əməliyyatlarda iştirak edə bilər.

54. Sülhməramlı, humanitar və digər əməliyyatlarda iştirak üzrə tapşırıqların yerinə yetirilməsi üçün xüsusi təyin olunmuş birləşmə və hissələr ayrılır, onlar əlahiddə proqram üzrə hazırlıq keçirlər. Bu məqsədlə aşağıdakı tədbirlər görülür:

- tərəfdaş silahlı qüvvələr ilə çoxtərəfli və ikitərəfli əməkdaşlıq xətti üzrə uyarlılıq və qarşılıqlı fəaliyyət qabiliyyətinin yaxşılaşdırılması;

- sülhməramlı əməliyyatlarda iştirak edən Azərbaycan kontingentinin BMT-nin standart və prosedurlarına uyğun hazırlığının, maddi və texniki təminatının həyata keçirilməsi.

55. Sülhməramlı, humanitar və digər əməliyyatlarda iştirak edən xüsusi təyin olunmuş birləşmə və hissələr aşağıdakı əməliyyatlara cəlb oluna bilərlər:

- münaqişə tərəflərinin silahlı qruplaşmalarının ayrılması və münaqişənin siyasi yolla nizama salınması üçün zəmin yaradılması;

- beynəlxalq birlik tərəfindən qəbul olunmuş sanksiyaların icrasının təmin edilməsi məqsədilə münaqişə rayonunun təcrid edilməsi;

- mülki əhaliyə humanitar yardımın çatdırılması və onun münaqişə rayonundan təxliyəsi üçün şəraitin təmin edilməsi.

56. Dəyişmiş hərbi-siyasi şəraitdə siyasi və ya əməliyyat zərurəti olduqda, Azərbaycan Respublikası sülhün dəstəklənməsi üzrə ayrı-ayrı əməliyyatlarda iştirakını dayandırmaq hüququnu özündə saxlayır.

VII. Hərbi quruculuğun inkişaf perspektivləri

57. Hərbi-strateji şəraitin qiymətləndirilməsi əsasında hərbi təhlükəsizliyin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası zəruri qabiliyyətləri qoruyub saxlayır və inkişaf etdirir.

58. Mövcud və potensial təhlükəsizlik problemlərinin ən səmərəli həlli üçün tələb olunan qabiliyyətlər ölkənin mövcud insan, maliyyə və digər ehtiyatlarına uyğun olaraq inkişaf etdiriləcəkdir.

59. Qısamüddətli və ortamüddətli perspektivdə Silahlı Qüvvələrin, başqa silahlı birləşmələrin və ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsində öz səlahiyyətləri çərçivəsində iştirak edən dövlət orqanlarının qabiliyyətlərinin inkişafını aşağıdakı amillər müəyyən edəcək:

- Cənubi Qafqaz regionunda mövcud siyasi və iqtisadi proseslər, eləcə də onların ortamüddətli və uzunmüddətli perspektivləri və dinamikası;

- atəşkəs xətti boyunca etibarlı əməliyyat mövqeyinin təmin edilməsi üçün Silahlı Qüvvələrin müvafiq sayı və strukturunun saxlanılması;

- Silahlı Qüvvələrin qarışıq (könüllü və çağırış üzrə) sistemi əsasında komplektləşdirilməsi;

- başqa silahlı birləşmələrin tədricən daha çox könüllü əsasda şəxsi heyətlə təmin edilməsi;

- hərbi komanda və idarəetmə strukturlarının daha da səmərələşdirilməsi və müəyyən edilmiş vəzifələrə uyğunlaşdırılması, eləcə də silah və avadanlığın müasirləşdirilməsinin Silahlı Qüvvələr və başqa silahlı birləşmələrin şəxsi heyətinin təlim və tədrisinin təkmilləşdirilməsi prosesində vahid yanaşmaların tətbiqi ilə paralel həyata keçirilməsi.

60. Ümumi təhlükəsizlik mühitinin mümkün dəyişikliyi mərkəzləşdirilmiş vahid rəhbərliyin saxlanılması və demokratik nəzarətin təmin edilməsi şərti ilə ortamüddətli və uzunmüddətli perspektivdə Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin təşkilati strukturlarının daha da təkmilləşdirilməsini zəruri edə bilər.

61. Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin hazırkı mərhələdə və ortamüddətli perspektivdə əsas quruculuq, inkişaf və hazırlıq prioritetləri aşağıdakılardır:

- mürəkkəb və sürətlə dəyişən əməliyyat şəraitində müasir müdafiə və hücum əməliyyatlarının aparılması bacarığına yiyələnmə;

- asimmetrik silahlı mübarizə formalarını, metodlarını və vasitələrini tətbiq edən düşmənə qarşı konseptual və effektiv praktiki müqavimət üsullarının işlənib hazırlanması;

- qoşunların (qüvvələrin) əməliyyat, səfərbərlik və döyüş hazırlığı keyfiyyətinin, onlar arasında qarşılıqlı fəaliyyətin, silaha, hərbi texnikaya və onların effektiv tətbiqi üsullarına yiyələnmə səviyyəsinin artırılması, qoşunların (qüvvələrin) fasiləsiz və dayanıqlı idarə edilməsinin, döyüş növbəsi və döyüş xidmətinin təkmilləşdirilməsi;

- Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin əməliyyat qabiliyyətinin və xüsusi informasiya əldəetmə bacarığının inkişafı;

- vahid idarəetmə, nəzarət, rabitə və avtomatlaşdırılmış idarəetmə sistemlərinin inkişaf etdirilməsi;

- müdafiə sahəsində dövlət idarəçiliyinin, o cümlədən müharibə dövründə Silahlı Qüvvələr ilə başqa silahlı birləşmələr arasında qarşılıqlı fəaliyyətin səmərəliliyinin artırılması üçün təşkilati-struktur islahatlarının aparılması;

- Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin informasiya müharibəsi şəraitində tətbiqi, o cümlədən informasiya müharibəsi vasitələrindən müdafiə üzrə müvafiq potensialın inkişafı;

- xüsusi təyinatlı qüvvələrin inkişaf etdirilməsi, onların yüksək döyüş qabiliyyətinin və çevikliyinin təmin edilməsi, şəxsi heyətin əməliyyatlar zamanı fiziki müdafiəsi və sağlamlığının qorunması sahəsində potensialın gücləndirilməsi;

- Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin qarşılıqlı fəaliyyəti çərçivəsində əlaqələndirmənin təkmilləşdirilməsi;

- NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində NATO ilə mümkün olan tərəfdaşlıq vasitələrindən, o cümlədən Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planından istifadə edilməsi;

- beynəlxalq əməkdaşlıq formatında əməliyyat uyarlılığına nail olunması, sülhməramlı fəaliyyətdə iştirak edilməsi, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində tədbirlərin, beynəlxalq əməliyyat və təlimlərin həyata keçirilməsi üçün xüsusi seçilmiş şəxsi heyətin hazırlanması;

- hərbi intizamın daim möhkəmləndirilməsi;

- şəxsi heyətin peşəkarlığının daim yüksəldilməsi, hərbi təhsil müəssisələrində kadrların hərbi-elmi əsaslarla hazırlanmasının müasir standartlara uyğun təkmilləşdirilməsi;

- peşəkar xidmət hərbi qulluqçularının sayının tədricən artırılması hesabına komplektləşdirmə sisteminin təkmilləşdirilməsi;

- vətəndaşların hərbi xidmətə məqsədyönlü hazırlığı, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin ehtiyatının hərbi hazırlığının saxlanılması, habelə əhalinin ərazi və mülki müdafiə məsələlərinin həllinə hazırlığı;

- şəxsi heyətdə Azərbaycan Respublikasına, Azərbaycan xalqına, Hərbi anda sədaqətin, habelə öz Vətəninin tarixinə və ənənələrinə dərin hörmətin, Vətənin müdafiəsi üçün yüksək şəxsi məsuliyyətin formalaşdırılması, gənclərdə hərbi xidmətə marağın artırılması;

- Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin hərbi qulluqçularının və mülki işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və onların həyat şəraitinin daim yaxşılaşdırılması.

62. Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin səmərəli təmin edilməsi məqsədilə Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin, eləcə də hərbi təhlükəsizliyi təmin etməkdə iştirak edən dövlət orqanlarının hərbi-iqtisadi, hərbi-texniki və digər ehtiyaclarının ödənilməsi üçün təchizat siyasəti formalaşdırılır və həyata keçirilir.

63. Təchizat siyasəti Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin, eləcə də Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin təmin edilməsində iştirak edən dövlət orqanlarının müdafiə təyinatlı məhsullara (hərbi texnika, silah, mühəndis texnikası, onların ehtiyat hissələri, döyüş sursatları və digər müdafiə təyinatlı məhsullar və sair materiallar, işlər və xidmətlər) olan ehtiyacının təmin edilməsi sahəsində tədbirləri əhatə edir.

64. Təchizat siyasəti aşağıdakıların təmin edilməsinə yönəlmişdir:

- Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin, eləcə də Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin təmin edilməsində iştirak edən dövlət orqanlarının müdafiə təyinatlı məhsullara olan ehtiyacını əks etdirən Dövlət Müdafiə Sifarişi Proqramının hazırlanması və icrası;

- Dövlət Müdafiə Sifarişi Proqramına uyğun olaraq yeni texnologiyaların alınması və müasir istehsal sahələrinin yaradılması;

- Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin, eləcə də Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin təmin edilməsində iştirak edən dövlət orqanlarının döyüş potensialının yüksək hazırlıq səviyyəsində saxlanmasına texniki dəstəyin göstərilməsi.

65. Dövlət Müdafiə Sifarişi Proqramı Milli Təhlükəsizlik Konsepsiyasında və Hərbi Doktrinada göstərilmiş təhdid və risklərə uyğun olaraq müdafiə qabiliyyətinin möhkəmləndirilməsi məqsədilə müdafiə təyinatlı məhsulların sifarişçiləri tərəfindən qısamüddətli və ortamüddətli perspektiv üçün müəyyən edilmiş ehtiyacları özündə əks etdirir.

66. Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin, eləcə də Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin təmin edilməsində iştirak edən dövlət orqanlarının müdafiə təyinatlı keyfiyyətli məhsullara olan ehtiyacını davamlı və müstəqil şəkildə təmin etmək məqsədilə yerli elmi-texniki, texnoloji və istehsal potensialı hesabına milli müdafiə sənayesi inkişaf etdirilir.

67. Müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində mövcud ehtiyatların səmərəli istifadəsi və yeni müasir texnologiyaların tətbiqi məqsədilə özəl sərmayələrin və sahib-

karlığın müdafiə sənayesinə cəlb edilməsi bu sahədə həyata keçirilən islahatlar və kompleks yenidənqurma prosesinin tərkib hissəsi olacaqdır.

68. Müdafiə sənayesi iqtisadiyyatın digər sahələri ilə əlaqələndirilmiş şəkildə inkişaf etdirilir.

69. Hərbi təhlükəsizliyin səmərəli təmin edilməsi məqsədilə ölkə ərazisində hərbi infrastruktur obyektləri inkişaf etdirilir.

70. Azərbaycan Respublikasının müdafiə sənayesinin inkişaf proqramı iki istiqamət üzrə həyata keçirilir:

- Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin müdafiə təyinatlı məhsullara olan zəruri ehtiyaclarının ödənilməsi;

- istehsal olunan müdafiə məhsullarının yerli və dünya bazarlarında rəqabətə davamlılığını təmin etmək məqsədilə müdafiə sənayesində müasir texnologiyaların tətbiqi, xidmət infrastrukturunun yaradılması, eləcə də yerli və beynəlxalq sifarişçilərə satış və texniki modernləşdirmə xidmətlərinin göstərilməsi.

71. Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin, eləcə də Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin təmin edilməsində iştirak edən dövlət orqanlarının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi üçün Dövlət Müdafiə Sifarişi Proqramına uyğun olaraq, yeni texnologiyaların alınması və müasir istehsal sahələrinin yaradılması məqsədilə Azərbaycan Respublikası tərəfdaş dövlətlərlə hərbi-texniki əməkdaşlıq əlaqələri qurur və genişləndirir.

72. Azərbaycan Respublikasının beynəlxalq hərbi-texniki əməkdaşlığı milli qanunvericiliyə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, eləcə də hərbi təhlükəsizliyinin təmin edilməsi üçün müəyyən edilmiş vəzifələrə uyğun olaraq həyata keçirilir.

VIII. Yekun müddəalar

73. Azərbaycan Respublikası Hərbi Doktrinanı bəyan edərək ümumi qəbul olunmuş beynəlxalq hüquq normaları və prinsiplərinə riayət etdiyini bir daha təsdiq edir.

74. Milli Təhlükəsizlik Konsepsiyasında və Hərbi Doktrinada insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunması üçün müəyyən edilmiş strateji məqsəd və vəzifələrə uyğun olaraq, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin strukturunu, fərdi təyinatını, vəzifə bölgüsünü, səmərəli döyüş və müdafiə qabiliyyətlərinin inkişafı üçün tələb olunan ehtiyatları təhlil edən və qiymətləndirən Strateji Müdafiə İcmalı və digər konseptual sənədlər hazırlanacaqdır.

75. Hərbi Doktrina Azərbaycan Respublikasının təhlükəsizlik mühitinin daim dəyişən dinamikası nəzərə alınmaqla, yenidən baxılma, dəqiqləşdirmə və əlavələr üçün açıq sənəddir.

Azərbaycan Respublikası Milli Məclisinin 2010-cu il 8 iyun tarixli 1029-IIIQR nömrəli Qərarı ilə təsdiq edilmişdir

İstifadə edilmiş mənbə, ədəbiyyat və informasiya resursları

Mənbələr

Azərbaycan dilində

1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (ARDTA) materialları: f.202, siy.1, iş 25; f. 202, siy. 1, iş 71; f. 970, siy. 1, iş 1; f. 277, siy. 2, bağ. 1, iş 9;
2. Azərbaycan Respublikasının Konstitusiyası. Rəsmi nəşr. Bakı, 2009
3. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Akademik Z. M. Bünyadovun redaktəsi ilə. Bakı, "Elm", 1990, 179 s.
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı: Azərnəşr, 1997-2015-ci illər.
5. Əliyev İ.H. İnkişaf – məqsədimizdir. I-XXVI kitablar. Bakı: Azərnəşr, 2008-2016-cı illər.
6. Müstəqil Azərbaycan: 20 il. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri. Bakı, 2011.
7. Yeni tərəqqi illəri: 2003-2011. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri. Bakı, 2011.

Türk dilində

1. Atatürk'ün Tanım, Telqraf ve Beyannameleri. IV. Ankara, 1964, 162 s.

Ədəbiyyat
Azərbaycan dilində

1. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, "Azərnəşr", 1992, 262 s.
2. Cəfərov N. Azərbaycanşünaslığın əsasları. Bakı, "Pedaqogika", 2005, 256 s.
3. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, "Azərnəşr", 1993, 299 s.
4. Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı, "Letterpress", 2013, 452 s.
5. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1998-2011). Bakı, "Letterpress", 2012, 912 s.
6. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, "Tuna", 1998, 137 s.
7. Əhmədov E. Böyük dövlətlərin Qarabağ münaqişəsinə dair siyasəti. Siyasi elmlər üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı. Bakı, 2001, 32 s.
8. Əhmədov E. Azərbaycan Respublikasının Avroatlantik təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətləri. Siyasi elmlər doktoru dissertasiyasının avtoreferatı. Bakı, 2015, 68 s.
9. Əhmədov M. Azərbaycan*:* yeni neft erası və beynəlxalq siyasət. Bakı, "Elm", 1997, 124 s.
10. Əzimli A. Azərbaycan - NATO münasibətləri (1992-2000). Bakı, "Adiloğlu", 2001, 226 s.
11. Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı, "Azərnəşr", 1999, 200 s.

12. Fətəliyev M., Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi. II hissə. Bakı, "Adiloğlu", 2008, 338 s.
13. Həsənov C.P. SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı. Bakı, "Adiloğlu", 2005, 544 s.
14. Həsənov Ə. M. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, "İşıq", 1997, 82 s.
15. Həsənov Ə. M. Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru. Bakı, "Azərbaycan Universiteti", 1997, 107s.
16. Həsənov Ə. M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996-cı illər). Bakı, "Azərnəşr", 1998, 331s.
17. Həsənov Ə. M. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri. (1991-1996). Bakı, "Elm", 2000, 391s.
18. Həsənov Ə. M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan", 2005, 752 s.
19. Həsənov Ə. M., Vəliyev A. Azərbaycanın və xarici ölkələrin siyasi sistemləri. Dərs vəsaiti. Bakı, "Azərbaycan", 2007, 248 s.
20. Həsənov Ə. M. Geosiyasət. Dərslik. Bakı, "Aypara-3", 2010, 604 s.
21. Həsənov Ə. M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, "Letterpress", 2011, 440 s.
22. Həsənov Ə. M.. Niyazov X. Avrasiya zirvələri: Azərbaycandan baxış. İstanbul, "Marmara", 2012, 248 s.
23. Həsənov Ə. M., Vəliyev A. Dünya ölkələrinin müasir siyasi sistemləri. Bakı, "Zərdabi LTD", 2013, 776 s.

24. Həsənov Ə. M. Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifələri, prinsip və istiqamətləri (1991-1997-ci illər) //Tarix və onun problemləri. Bakı, 1998 № 2.s.49-69.
25. Həsənov Ə.M. H. Əliyev və Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin qurulması //Bakı Universitetinin xəbərləri, sosial-siyasi elmlər seriyası. Bakı, 1998, № 1. s.29-39.
26. Həsənov Ə.M. Azərbaycan beynəlxalq münasibətlər sistemində //Qafqaz Universiteti jurnalı, № 11, Bakı, 2003-cü il, s.47-61.
27. Həsənov Ə.M. Müasir Azərbaycanın daxili və xarici siyasəti // "Bioqrafi analiz" jurnalı. İstambul, fevral 2004.s.10-14.(türk dilində).
28. Həsənov Ə.M. Neft strategiyası və Azərbaycanın xarici siyasət fəaliyyəti //Əsrin müqaviləsi – 10. Azərbaycan böyük inkişaf yollarında. Bakı, 2004,s.11-16.
29. Həsənov Ə.M. Dünya ölkələrinin enerji siyasəti və Azərbaycanın yeni neft strategiyası //Azərbaycanda milli siyasət və strateji inkişaf XXI əsrin astanasında. Bakı, 2005.s. 3-16.
30. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti (Regional təhlükəsizlik) //Heydər Əliyev irsi və Azərbaycanın davamlı inkişaf strategiyası. Bakı, 2006. s.59-76.
31. Həsənov Ə.M. Heydər Əliyev Azərbaycanın xarici siyasət strategiyasının yaradıcısıdır //Heydər Əliyev yolu: Azərbaycan inkişafın yeni mərhələsində. Bakı, 2007. s.351-377.

32. Həsənov Ə.M. Heydər Əliyevin dövlət quruculuğu təlimi //Heydər Əliyev və Azərbaycan. Bakı, 2008. s.391-401.
33. Həsənov Ə.M. Heydər Əliyevin xarici siyasətində nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsi //Heydər Əliyev ideyaları XXI əsrdə. Azərbaycanın inkişaf yolu. Bakı, 2009, s. 326-342.
34. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti: əsas məqsədi, vəzifələri və icra mexanizmləri //Heydər Əliyev və inkişafın Azərbaycan modeli. Bakı, 2010. s. 32-48.
35. Həsənov Ə.M. Azərbaycanın müasir geosiyasi inkişafı: mövcud vəziyyət və perspektivlər //"Geostrategiya" aylıq ictimai-siyasi, elmi populyar jurnal №1, Bakı, mart 2011, s.10-20.
36. Həsənov Ə.M. Heydər Əliyevin geosiyasi təlimi: XXI əsrdə Azərbaycanın əsas geosiyasi vəzifələri və perspektivləri // "Geostrategiya" aylıq ictimai-siyasi, elmi populyar jurnal, №2, aprel 2011.s. 3-18.
37. Həsənov Ə.M. Azərbaycanın alternativ neft-qaz ixracı siyasəti və onun geosiyasi nəticələri // "Geostrategiya" aylıq ictimai-siyasi,elmi populyar jurnal, №3, may 2011. s.17-29.
38. Həsənov Ə.M. Xəzər hövzəsinin enerji resursları və onun bölgə ölkələrinin geosiyasi vəziyyətinə təsiri //"Geostrategiya" aylıq ictimai-siyasi, elmi populyar jurnal, №4, iyun 2011.s. 28-34.
39. Həsənov Ə.M. Xəzərin hüquqi statusu məsələsi və Azərbaycanın geoiqtisadi maraqları //"Fəlsəfə və sosial-siyasi elmlər" jurnalı, №1, 2011.s.s. 77-110.

40. Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinə konseptual yanaşma //“Geostrategiya” aylıq ictimai-siyasi, elmi populyar jurnal, №5, 2011.s. 3-7.
41. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın milli inkişaf siyasəti: xarakteristikası, əsas vəzifələri və tələbləri //“Azərbaycan” qəzeti, № 275,13 dekabr 2011. s.2-3.
42. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın müasir geosiyasi inkişafı // Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası. Bakı, 2011.s. 31-43.
43. Həsənov Ə.M. Xəzər hövzəsinin karbohidrogen resursları və Avropanın enerji təhlükəsizliyi //“Ekovitrin” aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 148, aprel 2012. s. 66-71.(türk dilində).
44. Həsənov Ə.M. Xəzər-Qara dəniz hövzəsi ölkələrinin enerji ixracı siyasəti və Azərbaycanın neft strategiyası // “Kobi Efor” aylıq sənaye və iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 151, aprel 2012. s. 62-65. (türk dilində).
45. Həsənov Ə.M. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik mühiti və Azərbaycanın hərbi-geostrateji problemləri //“Ekovitrin” aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 149, may 2012. s. 60-64 .(türk dilində).
46. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın 20 illik milli inkişaf strategiyası: xarakteristikası, əsas vəzifələri və tələbləri // Azərbaycan 2020: inkişafın yeni hədəfləri. Bakı, SBS, 2012. s.51-65.
47. Həsənov Ə.M. İranın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə yanaşması və Azərbaycanın hərbi-geostrateji maraqları //“Geostrategiya” aylıq ictimai-siyasi, elmi populyar jurnal, №2 (8) mart-aprel 2012.s. 6-14.

48. Həsənov Ə.M. Türkiyə və Azərbaycanın Cənubi Qafqazdakı regional təhlükəsizlik maraqları //"Ekovitrin" aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 150, iyun 2012. s.192-195. (türk dilində).
49. Həsənov Ə.M. Türkiyənin Cənubi Qafqazın regional təhlükəsizliyinə yanaşması və Azərbaycanın təhlükəsizlik maraqları //"Ekovitrin" aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 151, iyul 2012. s.132-135. (türk dilində).
50. Həsənov Ə.M. Cənubi Qafqazın regional təhlükəsizliyinə Türkiyənin yeni yanaşması və bunun Azərbaycanın geostrateji mövqeyinə təsiri //"Ekovitrin" aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 152, avqust 2012. s.134-138. (türk dilində).
51. Həsənov Ə.M. Cənubi Qafqazın regional təhlükəsizlik sistemi və Ermənistan: qonşu ölkələrə qarşı ərazi iddiasının bu dövlətə vəd etdiyi geosiyasi erspektivlər //"Geostrategiya" jurnalı, №3 (9) may-iyun 2012.s. 6-12.
52. Həsənov Ə.M. Transmilli dünya gücləri və bölgə dövlətlətinin Xəzər hövzəsindəki geoiqtisadi siyasəti, maraqları və fəaliyyətinin xarakteristikası //"Geostrategiya" aylıq ictimai-siyasi, elmi populyar jurnal, №4 (10) iyul-avqust 2012.s. 8-13.
53. Həsənov Ə.M. Kollektiv Təhlükəsizlik Müqaviləsi təşkilatı və Azərbaycanın hərbi-geostrateji maraqları //"Ekovitrin" aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 153/10, sentyabr 2012. c.88-95. (türk dilində).
54. Həsənov Ə.M. Çoxqütblü dünya güclərinin və bölgə ölkələrinin Xəzər hövzəsindəki geoiqtisadi maraqları, siyasətləri və fəaliyyətlərinin xarakteristikası //"Ekovitrin" aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 155, noyabr 2012/11. s.26-31.(türk dilində).

55. Həsənov Ə.M. “EKO” Zirvəsinin ardından. EKO-nun fəaliyyəti və Azərbaycan //“Ekovitrin” aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 156/12, dekabr 2012. s.42-47. (türk dilində).
56. Həsənov Ə.M. Xəzər hövzəsi və Cənubi Qafqazın enerji resursları və Avropanın enerji təhlükəsizliyində iştirakı // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, N4(40), 2012, s.125-134.
57. Həsənov Ə.M. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik mühiti: hərbi qruplaşma reallıqları və proqnozları, geostrateji güclərin təsnifatı// “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı. №1 (41), Bakı 2013. s. 94-99.
58. Həsənov Ə.M. Türkiyənin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə yanaşması və Azərbaycanın geostrateji maraqları //“Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı. №3 (43), Bakı 2013. s. 129-137.
59. Həsənov Ə.M. Azərbaycanın enerji təminatı və təhlükəsizliyi siyasəti// “Geostrategiya” aylıq ictimai-siyasi, elmi populyar jurnal, №6 (18) noyabr-dekabr 2013.s. 3-11.
60. Həsənov Ə.M. Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin başlıca istiqamətləri//“Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı. №4 (44), Bakı 2013. s. 127-135.
61. Həsənov Ə.M. Azərbaycan Respublikasında informasiya fəaliyyəti və təhlükəsizliyi siyasəti// “Geostrategiya” aylıq ictimai-siyasi, elmi populyar jurnal, №1 (19) yanvar-fevral 2014.s. 3-15.
62. Həsənov Ə.M. Azərbaycan Respublikasının ekoloji təhlükəsizlik siyasəti// “Geostrategiya” aylıq ictimai-siyasi, elmi populyar jurnal, №2 (20) mart-aprel 2014.s. 3-10.

63. Həsənov Ə.M. Azərbaycanın müasir geosiyasi inkişaf xarakteristikası və perspektivləri //“Geostrategiya” aylıq ictimai-siyasi, elmi populyar jurnal №4(22), Bakı, iyul-avqust 2014, s.3-16.
64. Həsənov Ə.M. Azərbaycanın milli dövlət quruculuğu və geosiyasi inkişaf xrakteristikası: keçilmiş yol, mövcud imkanlar və perspektivlər//“Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı. №3 (47), Bakı 2014. s. 79- 97.
65. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Dərslik. Bakı, “Zərdabi LTD” MMC, 2015, 1055 s.
66. Həsənov Ə.M. "2014-cü ilin yekunları qarşıdan gələn 2015-ci ilə nikbinliklə baxmağa tam əsas yaradır" № 06 (24) s. 3-9.
67. Həsənov Ə.M. Azərbaycanın müasir geosiyasi fəaliyyətinin bəzi məsələləri № 05 (29) səh 3-7.
68. Həsənov Ə.M. Xocalı soyqırımının səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması. "Dövlət İdarəçiliyi": nəzəriyyə və təcrübə. Elmi-nəzəri və praktiki jurnal. 2015, № 1 (49), səh.79-90.
69. Həsənov Ə.M. Ermənistanın Azərbaycana təcavüzü, saxta “erməni soyqırımı” və Qərbin “ikili standartlar” siyasəti. "Dövlət İdarəçiliyi": nəzəriyyə və təcrübə. Elmi-nəzəri və praktiki jurnal. 2015, № 2 (50), səh. 109-116.
70. Həsənov Ə.M. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik mühiti:hərbi bloklaşma reallıqları və proqnozları, geostrateji güclərin təsnifatı. "Dövlət İdarəçiliyi": nəzəriyyə və təcrübə. Elmi-nəzəri və praktiki jurnal. 2015, № 3 (51), səh. 77-84.

71. Həşimov D. Siyasi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi kimi (Azərbaycan Respublikasının materialları əsasında). Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2010, 21 s.
72. Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində (1991-1997-ci illər). Bakı, 1998, 138 s.
73. Xəlilov S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi // Heydər Əliyev və Azərbaycan. Bakı, 2008.Xəlilov Səlahəddin. Lider. Dövlət. Cəmiyyət. Bakı, "Azərbaycan Universiteti", 2001, 358 s.
74. İsmayılov F. Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. Bakı, Azərbaycan Milli Ensiklopediyası NPB, 2001, 150 s.
75. Qasımov M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. III hissə (sənədlər, materiallir, xəritələr, şəkillər). Bakı, "Adiloğlu", 2004, 532 s.
76. Qasımlı M. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il-dekabr 1922-ci il). Bakı, "Mütərcim", 1998, 7,5 ç.v.
77. Qəndilov S. Dövlətçilik təfəkkürü, idarəçilik məharəti. Dərs vəsaiti. Bakı, "Azərbaycan", 2009, 432 s.
78. Qəndilov S. Müstəqillik illərinin düşüncələri. Bakı, "Naksiana", 2006, 501 s.
79. Mahmudov Y. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər). Bakı, "Təhsil", 2006, 416 s.

80. Mahmudov Y.M., Şükürov K.K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi (dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları). 4 cilddə. I cild. Bakı, 2009, 512 s.
81. Mehdiyev R.Ə. XXI əsrdə milli dövlətçilik. Bakı, "XXI əsr – YNE", 2003, 248 s.
82. Mehdiyev R.Ə. Azərbaycan 2003-2008: zaman haqqında düşünərkən. Bakı, "Şərq-Qərb", 2009, 240 s.
83. Mehdiyev R.Ə. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, Azərbaycan Milli Ensiklopediyası NPB, 2001, 273 s.
84. Mehdiyev R.Ə. Azərbaycanın inkişaf dialektikası. Bakı, 2000, 286 s.
85. Mehdiyev R.Ə. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. Bakı, 2000, 204 s.
86. Mehdiyev R.Ə. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı, "Şərq-Qərb", 2008, 215 s.
87. Mehdiyev R.Ə. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: məqalələr, çıxışlar, müsahibələr. 2 cilddə. I cild. Bakı, "XXI əsr – YNE", 2006, 624 s.
88. Mehdiyev R.Ə. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: məqalələr, çıxışlar, müsahibələr. 2 cilddə. II cild. Bakı, "XXI əsr -YNE", 2006, 672 s.
89. Mehdiyev R. Yeni siyasət: inkişafa doğru. 2 cilddə. I cild. Bakı, "Oskar" NPM, 2008, 581 s.
90. Mehdiyev R.Ə. Yeni siyasət: inkişafa doğru. 2 cilddə. II cild. Bakı, "Oskar" NPM , 2008, 343 s.
91. Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, "XXI əsr – YNE", 2005, 463 s.

92. Mehdiyev R.Ə. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı, "Şərq-Qərb", 2008, 791 s.
93. Mehdiyev R.Ə. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı, "Polygraphic Production", 2006, 583 s.
94. Məmmədov H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Dərslik. Bakı, "Çinar- Çap", 2010, 564 s.
95. Nəsirov E. Azərbaycan-ABŞ münasibıtləri (1991-1999-ci illər) Bakı, Qanun, 1998, 136 s.
96. Nəsirov E. Azərbaycan nefi və beynəlxalq müqavilələr (1991-1999-cu illər) Bakı, "Respublika Xatirə Kitab Evi", 1999, 104 s.
97. Nəsirov E. ABŞ və dünya 11 sentyabrdan sonra. Bakı, Qanun, 2003, 262 s.
98. Nəsirov E. ABŞ-ın antiterror doktrinası və onun tətbiqi mexanizmləri. Bakı, "Elm və təhsil", 2008, 312 s.
99. Nəsibov E. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası. Bakı, "Çıraq", 2006, 312 s.
100. Papava V. "Qafqaz tandemi"nin yaradılması və inkişafı // "Azerbaijan Focus" jurnalı, 2009-cu il, №1.
101. Paşayev H. M. Bir səfirin manifesti. Bakı, "Şərq-Qərb", 2007, 248 s.Petersen A. Azərbaycanın Avroatlantik baxışları // "Azerbaijan Focus" jurnalı, 2010-cu il, №2.
102. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı, "Bakı Universiteti", 2005, 545 s.
103. Raar A., Riider S. Azərbaycanın Qara dəniz – Xəzər hövzəsi regionunda geosiyasi rolu// "Azerbaijan Focus" junalı, 2009-cu il, №1.

104. Rayner Fraytaq-Virminqhaus. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti//“Azerbaijan Focus” jurnalı, 2009-cu il, №1.
105. Vəliyeva S. M. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi. Məsələnin qoyuluşuna dair. Bakı, “Azərbaycan Universiteti”, 2002, 140 s.
106. Vəliyeva S.M. Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası. Bakı, “Azərbaycan”, 2003, 128 s.
107. Virminqhaus R.F. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti// “Azerbaijan Focus” jurnalı, 2009-cu il, №1

Türk dilində

108. Ahmedov E.İ. Azerbaycan’ın NATO ile İşbirliğinin Gelişmesinde Haydar Aliyev’in Rölu. // Sosyal Bilimler Araştırma Dergisi. Yil:IX, Sayi:22, Eylül-2013, Diyarbakr, s.111-121.
109. Ahmedov E.İ. Avrupa-Atlantik kurumlara entegrasyon çerçivesinde Azerbaycan Cümhuriyyeti ve Avrupa Birliği ilişkileri. // Siyaset, ekonomi ve toplum üzerine. 3.Uluslararası Mavi Karadeniz Kongresi: Uyuşmazlık çözümü, işbirliği ve demokratikleşme. 15-17 Ekim 2012. Sakarya Universitesi/ Adapazarı, s.223-231.
110. Bülent Gökay. Bolşevizm ile emperyalizm arasında Türkiye (1918-1923). İstanbul, “Agora Kitaplığı”, 2006, 295 s.
111. Cemilli Elnur. ABD'nin Güney Kafkasya Politikası. İstanbul, “Kültür Sanat Yayıncılık”, 2007, 192 s.

112. Dedeoğlu Beril. Uluslararası Güvenlik ve strateji. İstanbul, “Derin”, 2003, 289 s.
113. Demir Ali Faik. Türk dış politikası perspektifinden Güney Kafkasya. İstanbul, “Baglam”, 2003, 358 s.
114. Hasanov A. M., Ülkü İ.Süleyman Demirel. İstanbul, 1999, 254 s.
115. Hasanov A. M. Jeopolitik. İstanbul, “Babiali Kültür Yayınçılığı”, 2012, 460 s.
116. Hasanov A. M. Azerbaycan Cumhuriyyetinin Ulusal Kalkınma ve Güvenlik Politikası. Ankara, “Ötüken Neşriyat A.S”, 2013, 432 s.
117. Gürsoy Barıs. Soğuk savaştan günümüze asimetrik tehdit. İstanbul, “Kültür Sanat Yayıncılık”, 2005, 208 s.
118. Karabayram Fırat. Rusya Federasyonu'nun Güney Kafkasya Politikası. Ankara, “Atılım Üniversitesi”, 2007, 357 s.
119. Kasım Kamer. Uluslararası güvenlik sorunları. Ankara, “ASAM”, 2004, 307 s.
120. Levent Şen. Turkiye ve Guney Kafkasya gerçegi: Soğuk Savaş sonrası Türkiye'nin Güney Kafkasya politikası. Ankara, “Ürün Yayınları”, 2009, 205 s.
121. Mehmet Gönlübol, Cem Sar. Atatürk ve Türkiyenin dış politikası (1919-1938). Ankara, Atatürk Araştırma Merkezi, 1997, 152 s.
122. Ömer Göksel İşyar. Bölgesel ve global güvenlik çıkarları bağlamında Sovyet-Rus dış politikaları ve Karabağ sorunu. İstanbul, “Alfa Yayınları”, 2004, 697 s..
123. Öymen Onur. Ulusal çıkarlar: küreselleşme çağında ulusdevleti korumak. Istanbul, “Remzi Kitabevi”, 2005, 484 s.

124. Salahi R. Sonyel. Türk kurtuluş savaşı ve dış politika. I. Mondros bırakışmasından Böyük Millet Meclisi`nin açılışına kadar, Ankara, "TTK Yayınları", 1995, 255 s.
125. Suat İlhan. Türklerin Jeopolitiği ve Avrasiyaçılık. Ankara, "Bilgi Yayınevi", 2005; 221 s.
126. Mert Bilgin. Avrasiya Enerji savaşları. İstanbul, "İQ Kültür Sanat Yayıncılık", 2005, 384 s.
127. Kaynak M. Büyük Ortadoğu projesi ve Türkiye üzerine stratejik analizler. İstanbul, "Truva Yayınları", 2008, 224 s.
128. Arslan Bulut. Küresel Haçlı Seferi. Ankara, "Bilgi Yayınevi", 2005, 240 s.
129. Ahmet Davutoğlu. Stratejik Derinlik. Türkiye`nin uluslararası konumu. Ankara, "Küre Yayınları", 2009, 584 s.
130. Ahmet Davutoğlu. Bügünden yarına Türk dünyasında Stratejik bakış. İstanbul, 2008;
131. Celalettin Yavuz. Avrasyada Türk jeopolitiği. Ankara, "Berikan Yayınları", 2009, 656 s.
132. Yılmaz Hasan, Kaşıkçı Nihat. Tarihin Sıkıştığı Coğrafya: Kuzey ve Güney Kafkaslar. Ankara, "Elips Kitap", 2006, 217 s.

Rus dilində

133. Аббасов А.Ф. Роль внутреннего производства в обеспечении продовольственной безопасности Азербайджанской Республики. //Проблемы современной экономики, 2005, № 3-4.
134. Арбатов А. Г. Национальная идея и национальная безопасность //Внешняя политика и безопасность современной России. Хрестоматия. Том 1, кн.1, Москва, «Международные отношения»,1999, с. 235-245.

135. Артемова А.Н. Формирование системы обеспечения экономической безопасности на корпоративном уровне //Микроэкономика, 2010, №1.Архитектура евроатлантической безопасности. Под ред. И.Ю.Юргенса, А.А.Дынкина, В.Г.Барановского. Москва, «Эко-Информ», 2009, 124 с.
136. Ахмедов Э.И. Важный этап динамичного развития Азербайджана в современных геополитических условиях (2003-2013 годы) // "Кавказ и Мир" Международный научный журнал, Грузия,Тбилиси, 2014, №18, стр.61-67.
137. Ахмедов Э.И. Сотрудничество Азербайджана с Европейским Союзом в контексте в интеграции Евроатлантические структуры. // "Право и политология" Международный научный журнал, Кишинэу, Молдова, №19, март, 2012, стр.56-60.
138. Бабаева З. Г. Внутренняя безопасность в системе национальной безопасности Азербайджана в современных условиях //Политика и общество, 2009, № 1.
139. Багирли В.Д. К вопросу о полномочиях президентов Азербайджанской Республики и США в сфере обеспечения национальной безопасности //Юридические науки, 2009, № 3.
140. Багиров Э. М. Приоритеты внешней политики Ирана и проблемы региональной безопасности на Южном Кавказе на рубеже XX-XXI вв. АКД, Москва, 2006, 21 с.
141. Баранец В.Н. Генштаб без тайн. В 2-х тт., Москва, «Вагриус», 1999, 463 с.Бармен Скотт. Разработка правил информационной безопасности. Москва, «Вильямс», 2002, 208 с.

142. Барсегов Ю.Г. Каспий: вопросы международного права // Европа и Россия: проблемы южного направления. Сб. статей, Отв. ред. Шаболин И.А., Москва, «Интердиалект», 1999, с. 323-343.
143. Белов Е.Б., Лось В.П. и др. Основы информационной безопасности. Учебное пособие для вузов. Москва, «Горячая линия – Телеком», 2006, 544 с.
144. Бжезинский З. Выбор: мировое господство или глобальное лидерство. Москва, «Международные отношения», 2005, 288 с.
145. Бжезинский З. Великая шахматная доска. Господство Америки и ее геостратегические императивы. Москва, «Международные отношения», 1998, с.256.
146. Богомолов В.А., Барикаев Е.Н. и др. Экономическая безопасность. Москва, «ЮНИТИ-ДАНА», 2009, 228 с.
147. Боровский Ю.В. Энергетическая безопасность Российской Федерации в рамках СНГ //Аналитические записки НКСМИ, 2005, № 4.
148. Бурков В.Н., Щепкин А.В. Экологическая безопасность. Москва, ИПУ РАН, 2003, 92 с.
149. Быков О.Н. Международная безопасность: прошлое, настоящее, будущее. Москва, ИМЭМО РАН, 2006, 219 с.
150. Быстрова А.К. Проблемы транспортной инфраструктуры и экологии в Каспийском регионе (добыча и экспортные перевозки углеводородов). Москва, ИМЭМО РАН, 2009, 96 с.
151. Валлерстайн И. Анализ мировых систем. Москва, «Университетская книга», 2006, 186 с.
152. Велиев Е. Каспий остается проблематичным // газ. «Зеркало», 26 января 2010 г.

153. Вершинина Д.Б. «Конфликт цивилизаций» в региональном преломлении: Кавказ и Балканы // Полис, 2007, № 4.
154. Вишняков В. Россия-Иран и региональная стабильность// Международная жизнь, 1998 № 11-12.
155. Вишняков В. Внешние связи стран Прикаспия в условиях глобального кризиса и интересы России. Москва, ИМЭМО РАН, 2010, 131 с.
156. Гаджиев К.С. Геополитика Кавказа. Москва, Международные отношения, 2001, 464 с.
157. Гаджиев К.С. Кавказский узел в геополитических приоритетах России. Москва, «Логос», 2010, 532 с.
158. Гасанов А.М. Современные международные отношения и внешняя политика Азербайджана. Баку, «Шарг-Гарб», 2007, 904 с.
159. Гасанов А.М. Геополитика. Баку, «Zardabi LTD», 2012, 688 с.
160. Гасанов А.М. Современные международные отношения и внешняя политика Азербайджана. 2-ое изд. Баку, «Zardabi LTD», 2013, 1008 с.
161. Гасанов А.М. Политика национального развития и безопасности Азербайджанской республики. Баку, «Zardabi LTD», 2014, 672 с.
162. Гасанов А.М., Аббасбейли А. Азербайджан в системе международных и регионалъных отношений. Баку, «Азернешр», 1999, 255с.
163. Гасанов А.М. Внешняя политика Азербайджана и новые принципы организации мира после 11-го сентября //Цивилизация и террор. Баку, 2002.

164. Гасанов А.М. Великий Шелковый путь. История и современность. Вместо предисловия //Великий Шелковый путь и Азербайджан: вчера, сегодня, завтра. Сб. статей. Баку,1998. s.3-7.
165. Гасанов А.М. Ситуация региональной безопасности в Каспийско- Черноморском бассейне и на Южном Кавказе: реалии и прогнозы об объединении в блоки, классификация геостратегических сил // Право и политология. Международный научный журнал, №20, Кишинэу, Молдова, август-2012, с.30-35.
166. Гасанов А.М. Энергетические ресурсы Каспийского бассейна и Южного Кавказа и участие в енергетической безопасности Европы // Кавказ и Мир. Международный научный журнал, Грузия, Тбилиси, №14, 2012, с.18-28.
167. Гасанов А.М. Организация Экономического Сотрудничества (ОЭС): Создание и деятельность. ОЭС и Азербайджан // “Geostrategiya”. Ежемесячный научно-популярный, общественно-политичесий журнал, Азербайджан, Баку, №5 (11), 2012, с.3-8.
168. Гасанов А.М. Отношения России с США, НАТО и Европейским Союзом, ее влияние на геополитическую позицию, региональную безопасность Южного Кавказа и Азербайджана // “Geostrategiya” Ежемесячный научно-популярный, общественно-политичесий журнал, Азербайджан, Баку, №1 (13), 2013.с. 5-13.
169. Гасанов А.М. Подход Ирана к Каспийско-Черноморскому бассейну и безопасности Южного Кавказа, геостратегические интересы Азербайджана в области безопасности // “Geostrategiya” “Geostrategiya” Ежемесячный научно-популярный, общественно-политический журнал, Азербайджан, Баку, №3 (15), 2013.с. 6-14.

170. Гасанов А.М. Этапы политики этнической чистки и геноцида против азербайджанцев № 02 (26) səh 3-12.
171. Гегелашвили Н. А. Каспийский регион в контексте Российско-Американских отношений // США – Канада. Экономика, политика, культура, 2009, №12.
172. Гегелашвили Н.А. Политика Вашингтона в государствах Южного Кавказа и Центральной Азии // США – Канада: экономика, политика, культура, 2007, № 5. Геополитика. Антология. Москва, «АП Культура», 2006, 1008 с.
173. Гиззатов В. Правовой статус Каспийского моря: проблемы и перспективы сотрудничества прикаспийских государств //Политика,1995, № 3.
174. Гобл П. Соединенные Штаты и ГУАМ: от тактического взаимодействия к партнерству // Центральная Азия и Кавказ, 2008, № 3-4.
175. Государственный доклад «О состоянии окружающей среды Российской Федерации в 1992 году, Зеленый мир, 1993, № 19-26.
176. Гусев Л.Ю. Россия - Азербайджан: энергетический диалог. Новое развитие ситуации после конфликта в Южной Осетии. Информационно-Аналитический Центр МГУ-РГГУ, 12.02.2009 г. Электронный ресурс: http://www.ia-centr.ru/expert/3838/?print.
177. Гушер А. Кавказское прозрение // Азия и Африка сегодня, 2009, № 2.Гушер А. Стратегия США в Каспийском регионе// Азия и Африка сегодня, 2003, № 5.
178. Гушер А. Азербайджан. Стратегические приоритеты: расчеты и реальность // Азия и Африка сегодня, 2000, №10.

179. Гушер А. Стратегия национальной безопасности России на юге// Азия и Африка сегодня, 1997, № 1.
180. Гушер А. Южный Кавказ, Америка, НАТО // Азия и Африка сегодня, 2005, № 10.
181. Гюль У. Политика Турции в отношении Закавказья и тюркоязычных республик Центральной Азии // Дипломатическая служба, 2006, № 5.
182. Давутоглу А. Внешняя политика Турции и Россия// Россия в глобальной политике, 2010, № 1.
183. Дарабади П. Глобализация и геополитические процессы в Центральной Евразии // Центральная Азия и Кавказ, 2006, № 3.
184. Дегоев В. Кавказ между бывшим Востоком и нынешним Западом /Дружба народов, 2008, № 6.
185. Добаев И. Глобальная конкуренция на Кавказе //Ориентир, 2008, №7.
186. Добаев И. Прикаспийский регион: перспективы развития // Ориентир, 2007, № 1.
187. Добаев И. Кавказский макрорегион в фокусе геополитических интересов мировых держав: история и современность // Южный научный центр РАН, Ростов на Дону, 2007, 207 с.
188. Дугин А. Геополитика постмодерна. СПб., «Амфора», 2007, 789 с.Дугин А.Основы геополитики. Геополитическое будущее России. Москва, «АРКТОГЕЯ – Центр», 2000, 804.с.
189. Дюрре М. Э. Проблемы турецко-российских отношений в новой системе международной безопасности //Азия и Африка сегодня, 2007, № 4.

190. Жизнин С. В поисках интересов (Геополитические и экономические аспекты каспийских нефти и газа) // «Независимая газета», 12 января 2010 г.
191. Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона. Москва, «Международные отношения», 2003, 280 с.
192. Жильцов С. Трубопроводы Каспийского региона: Состояние и перспективы // Каспий- территория развития. Материалы международной конференции «Каспий-территория развития». Астрахань, 15 марта 2011 г. http://casfactor.com/files/file/05_2011_15_24_32_1306149872.pdf.
193. Жоламанова Г. «Современные геополитические интересы «ключевых» игроков в Каспийском регионе». http://www.analitika.org.
194. Забурдаева Е.В. Информационная безопасность в современном обществе (анализ зарубежного опыта) // Труд и социальные отношения, 2008, № 8.
195. Завьялова Е.Б. Национальная экономическая безопасность// Внешнеэкономические связи, 2005, № 5.
196. Захаров В.А. Продвижение НАТО на Южный Кавказ: реалии последних лет // Современный Кавказ: геополитический выбор. Сборник научных статей. Ред. В.В. Дегоев, В.Н. Панин. Пятигорск, ПГЛУ, 2009, с. 331–378.
197. Изотов В.С. Особенности формирования геополитической стратегии России в постсоветский период (концептуальный аспект). Автореф. дис. канд. полит. наук. Москва, 2009 г.
198. Илинский Г.П. Иран в период общего кризиса мировой капиталистический системы. Москва,1953, 52 с.

199. Йигаталиев Ш. О некоторых моделях отношений между США, КНР и РФ в контексте стратегии в Центральной Азии и на Кавказе / // Центральная Азия и Кавказ, 2007, № 2.
200. Кавказ в российской политике: история и современность. Материалы междунар. науч. конференции. Москва, 16–17 мая 2006 г. / МГИМО(У) МИД России, Центр Кавказских исследований. Под ред. В.В. Дегоева. Москва, «Русская панорама», 2007, 239 с.
201. Казанчеев Е.Н. Рыбы Каспийского моря. Определитель. Москва, "Легкая пищевая промышленность", 1981, 168 с.
202. Кан Сам Гу. Этно-национальные конфликты в Закавказье и Центральной Азии в контексте их геополитического положения. Москва, ИМЭМО РАН, 2005,198 с.
203. Каспий не поделили, но объявили безопасной зоной// «Независимая газета», 19 ноября 2010 г.
204. Киссинджер Г. Дипломатия. Москва, «Ладомир», 1997, 903 с.
205. Киссинджер Г. Нужна ли Америке внешняя политика? К дипломатии XXI века. Москва, «Ладомир», 2002, 352 с.
206. Колосов В., Мироненко Н. Геополитика и политическая география. Москва, «Аспект-пресс», 2001, 509 с.
207. Конопляник А.А. Каспийская нефть на Евразийском перекрестке. Москва, 1998, 110 с.
208. Корнилов А., Сулейманов А. Евразийская дипломатия Анкары //Международная жизнь, 2010, № 4.
209. Крамаренко А. В. Геоэкономические конфликты в топливно-энергетической сфере Каспийского региона //Вестник Московского университета. Серия «География», 2010, № 1.

210. Крутских А., Федоров А. О международной информационной безопасности // Международная жизнь, 2000, № 2.
211. Кудряшова Ю. Государства Южного Кавказа в Европейской политике соседства // Аналитические записки НКСМИ, 2008, № 6.
212. Кузнецов Ю., Никольский В. Введение в теорию национальной безопасности. Москва, 2004, 395 с.
213. Кукушкина А.В. Экологическая безопасность, разоружение и военная деятельность государств: международно-правовые аспекты. Москва, «ЛКИ», 2008, 176 с.
214. Кулагин В.М. Международная безопасность. Учебное пособие для студентов вузов. Москва, «Аспект Пресс», 2006, 319 с.
215. Ланда К.Г. Влияние глобализации на Каспийский регион //Современные проблемы науки и образования, 2008, № 3.
216. Ланда К.Г. Геополитические проблемы Каспийского региона //Власть, 2010, № 5.
217. Ланцов В.М., Хамзин Д.М., Шандра К.А., Капранова М.Н. Национальная безопасность - сущность, основы теории и практического анализа. Казань, "Новое знание", 2003, 194 с.
218. Логунов А.Б. Региональная и национальная безопасность. Москва, «Вузовский учебник», 2009, 432 с.
219. Луков В., Остин Г., Хенниг О., Барановский В. Евроатлантическая безопасность: путь в будущее //Международная жизнь, 2009, № 11.
220. Лунев С. Центральная Азия и Южный Кавказ как геополитические регионы и их значение для России //Центральная Азия и Кавказ, 2006, № 3.

221. Лутовинов В.И. К проблеме формирования стратегии национальной безопасности России //Власть, 2008, № 10.
222. Магеррамов А.А. Вопросы участия Азербайджанской Республики в конвенциях по охране окружающей среды // Евразийский юридический журнал, 2009, № 17.
223. Магеррамов А.А. Двустороннее сотрудничество Азербайджанской Республики с международными организациями в сфере экологической безопасности //Вопросы гуманитарных наук, 2010, № 1.
224. Магомедов А. М. Энергетическая и транзитная геополитика "Большого Каспия" //Свободная мысль, 2009, № 2.
225. Макиндер Х. Географическая осъ истории // Геополитика. Антология. Москва, 2006.
226. Максаковский В.П. Каспий – Европа, из новой книги. Москва, 2002.
227. Малышева Д. Кавказский узел мировой политики //Свободная мысль, 2008, № 10.
228. Малышева Д. Конфликты в Каспийском регионе и меняющаяся Россия //Вестник Евразии, 2002, №2.
229. Малышева Д. Центральная Азия и Южный Кавказ: региональная безопасность в эпоху нового миропорядка //Россия и мусульманский мир, 2004, №11.
230. Малышева Д. Южная Евразия в стратегии США //Мировая экономика и международные отношения, 2005, № 8.
231. Маринченко А. В. Геополитика. Учебное пособие. Москва, «ИНФРА», 2009, 429 с.
232. Маркедонов С. Азербайджан в «Большой Игре» на Кавказе //Европейская безопасность: события, оценки, прогнозы, 2005, №17.

233. Медведев Р. Казахстанская модель: // Евразия сегодня, 2006, № 6 (49).
234. Меликли Г. Стратегия национальной безопасности в государственном строительстве Азербайджанской Республики //Современные гуманитарные исследования, 2010, №2.
235. Миронов Н.В. Международная энергетическая безопасность. Москва, МГИМО, 2003, 165 с.
236. Нартов Н. А., Нартов В.Н. Геополитика. Москва, «ЮНИТИ-ДАНА: Единство», 2007, 527 с.
237. Национальные интересы и проблемы безопасности в меняющемся мире. Материалы семинара. Отв. ред. К.С. Гаджиев, Г.В. Каменская, Э.Г. Соловьев. Москва, ИМЭМО РАН, 2003, 128 с.
238. Ниязов Н.С. Основные векторы политики военной безопасности Азербайджанской Республики в 1994-2010 годы. Санкт-Петербург, Изд-во Санкт-Петербургского Университета, 2010, 208 с.
239. Нуриев Э. Ни мира, ни войны: геополитическая игра на Кавказе продолжается //Центральная Азия и Кавказ, 2000, № 6.
240. Нуриев Э. Внешнеполитическая стратегия Азербайджана и проблемы национальной безопасности// Центральная Азия и Кавказ, 2003, № 4.
241. Ознобищев С. Южный Кавказ: тенденции и проблемы развития// Россия в глобальной политике, 2009, № 1.
242. Папаева В. «Центральная Кавказия» вместо «Центральной Евразии» // Центральная Азия и Кавказ, 2008, № 2.

243. Панин В.Н. Проблема региональной безопасности на Кавказе в ситуации турбулентности мирового политического процесса // Вестник Института стратегических исследований. Вып. 1, 2011.
244. Период полураздела // газ. «Коммерсант», 19 ноября 2010 г.
245. Петров С. П. Каспийская нефть как фактор мировой и региональной политики (конец XX - начало XXI вв.). Дис. канд. ист. наук. Москва, 2005.
246. Права человека. Сборник международных документов. Варшава, 2001, 458 с.Прогрессивный блок НАТО// газ. «Известия, 22 ноября 2010 г.
247. Плотников В.С. Социальная безопасность в транзитивном обществе: содержание и механизм обеспечения. Автореф. дисс. на соискание ученой степени кандидата социологических наук. Новосбириск, 2004.
248. Раджабли А. Национальные интересы и международная безопасность. Баку, «Китаб Алеми», 2004, 400 с.
249. Редкоус В.М. Правовое регулирование обеспечения национальной безопасности в Республике Азербайджан //Вестник Московского университета МВД России, 2008, № 2.
250. Рзаев И.Б. Вооруженные силы Азербайджана как составляющая государственной системы обеспечения национальной безопасности //Вестник Российского университета дружбы народов. Серия «Международные отношения», 2006, № 2.

251. Русско-германский добавочный договор к Мирному договору между Россией, с одной стороны, и Германией, Австро-Венгрией, Болгарией и Турцией – с другой. 27 августа 1918 г.- Документы внешней политики СССР, т. 1, Москва, 1957.
252. Салимов С.М. Энергетические индикаторы устойчивого развития Азербайджана – экологический аспект //Проблемы экономики и управления нефтегазовым комплексом, 2010, № 3.
253. Самедов А. Механизмы влияния Российской Федерации на разрешение конфликтов на Кавказе. Баку, 2007, 191 с.
254. Семедов С. Кавказ во внешней политике США //Обозреватель, 2007, № 8.
255. Семедов С. Основные аспекты современной политики Турции на Кавказе //Вестник Московского университета. Серия «Социология и политология», 2008, № 2.
256. Соловьев Э.Г. Национальные интересы и основные политические силы современной России. Москва, «Наука», 2004, 198 с.
257. Состояние и перспективы взаимодействия России со странами Центральной Азии и Закавказья. Отв. ред. чл.-корр. РАН Г. И. Чуфрин. М., ИМЭМО РАН, 2009, 139 с.
258. Сохранение биологического разнообразия в Росии. Проекты главного экологического фонда. “Сохранение биоразнообразия”, Москва, 1997.
259. Старченков Г. Каспийская нефть в региональной экономике и мировой политике // Центральная Азия и Кавказ, 2006, № 1.

260. Степанов Е.А., Корнеев И.К. Информационная безопасность и защита информации. Москва, “ИНФРА”, 2001, 304 с.
261. Стратегическая стабильность после холодной войны. Москва, ИМЭМО РАН, 2010, 60 с.
262. Сулейманов А.В. Политика Турции и Ирана в Закавказье: сопоставительный анализ // Вестник Российского университета дружбы народов. Серия «Международные отношения», 2010, № 1.
263. США в поисках ответов на вызовы XXI века (социально-экономический аспект). Под ред. Э.В. Кириченко. Москва, ИМЭМО РАН, 2010, 290 с.
264. Тузиков А. Р.Основы Геополитики. Москва, «Кнорус», 2004, 269 с.
265. Федоров Ф.В. Информационная безопасность в мировом политическом процессе. Москва, «МГИМО-Университет», 2006, 220 с.
266. Федулова Н. Правовой статус Каспийского моря: позиции прибрежных государств //Мировая экономика и международные отношения, 2008, № 8.
267. Хантингтон С. Столкновение цивилизаций. Москва, 2005.
268. Центральная Азия. Кавказ. Балканы: региональные подсистемы и региональные проблемы безопасности. Дипломат. акад. МИД России, Ин-т актуальных междунар. проблем. Под ред. Г.А.Рудова, Е.Г. Пономаревой. Москва, “Научная книга”, 2005, 479 с.
269. Чернявский С.И. Формирование внешнеполитической стратегии Азербайджана (1988-2003). Дис. д-ра ист. наук. Москва, 2004.

270. Чернявский С.И. Кавказская стратегия Вашингтона// Международная жизнь, 1999, № 31.
271. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., 1911.
272. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., 1911.
273. Шатунов А.А. Диверсификация энергетических поставок в геополитическом измерении. Автореф. дис. канд. полит. наук. Москва, 2008 г.
274. Шеварднадзе Э. Мой выбор. В защиту демократиии и свободы, Москва, «Новости», 1991.
275. Шмелев Н.П. Страны Каспия и Закавказья – государства СНГ: перспективы устойчивого роста// Европа и Россия: проблемы южного направления. Средиземноморье – Черноморье – Каспий. Москва, 1999.
276. Эжиев И. Политические риски в Кавказско-Каспийском регионе // Власть, 2007, № 5.
277. Эйвазов Джаннатхан. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, «Нурлан», 2004, 352 с.
278. Экологические проблемы добычи и транспортировки углеводородов Каспия и каспийского региона. Москва, ИМЭМО РАН, 2004, 132 с.
279. Явчуновская Р. А. Глобальная и региональная безопасность. Курс лекций. Москва, «РАГС», 2009, 184 с.
280. Язькова А. Государства Закавказья и Россия в новом геополитическом измерении // Россия и современный мир, 2003, №2.

İngilis dilində

281. Allison Graham T. U.S. policy on Caspian energy development and exports: mini-case and illustrative paradigm. Cambridge, MA: Harvard University, John F. Kennedy School of Government, Caspian Studies Program, 2001, 27 p.
282. Ariel Cohen. Ethnic Conflicts Threaten US Interests in the Caucasus// Heritage Foundation Backgrounder, №1222, September 25, 1998.
283. Brenda Shaffer. The Formation of Azerbaijani Collective Identity in Iran, Nationalities Papers, Volume 28, №3, 2000.
284. Central Asia and the South Caucasus: reorientations, internal transitions, and strategic dynamics: conference report. Washington, D.C: National Intelligence Council, 2000, 85 p.
285. Chandler William. Energy and Environment in the Transition Economies. Between Cold War and Global Warming. Westview Press, 2000, 248 p.
286. Crandall Maureen S. Energy, economics, and politics in the Caspian region: dreams and realities. Westport, CT: Praeger Security International, 2006, 245 p.
287. Croissant Cynthia. Azerbaijan, oil and geopolitics. NY: Science Publishers, 1998, 117 p.
288. De Waal Thomas. The Caucasus: an introduction. Oxford University Press, 2010, 259 p.
289. Doug Stokes and Sam Raphael. Global energy security and American hegemony. Baltimore, Md: Johns Hopkins University Press, 2010, 280 p.

290. Energy and conflict in Central Asia and the Caucasus / edited by Robert Ebel and Rajan Menon. Lanham, MD: Rowman & Littlefield Publishers, 2000, 267 p.
291. Energy and security: toward a new foreign policy strategy / edited by Jan H. Kalicki and David L. Goldwyn. Johns Hopkins University Press, 2005, 604 p.
292. Greg Hansen, Humanitarian Action in the Caucasus: A Guide for the Practitioners // The Thomas J. Watson Jr. Institute for International Studies, Brown University, USA, 1998.
293. Hasanov A.M. Stages of ethnic cleansing and genocide against the azerbaijanis // "Science and world" International scientific journal, Russia, Volgograd, 2015, №9 (25), Vol I стр.93-98.
294. Hasanov A.M. Armenian policy of ethnic cleansing and genocide against the Azerbaijanis in the early 20th century. // Территориальная целосность государсв и соблюдение прав человека. - Материалы Международной научно-практической конференции. Кишинэу, Республика Молдава, 17 сентября 2014 года, стр. 21-26.
295. Hasanov A.M. Stages of ethnic cleansing and genocide against the azerbaijanis // "Law and Politology". International scientific journal, Moldova, Chisinau, September, 2015, №31, s.37-44.
296. Hooman Peimani. Conflict and security in Central Asia and the Caucasus. Santa Barbara, Calif: ABC-CLIO, 2009, 373 p.
297. Michael Cohen. The effect of oil revenues on transition economics: the case of Azerbaijan // "Geopolitics of energy" Journal, № 6, June, 2006.

298. Nation R. Craig. Russia, the United States, and the Caucasus. Strategic Studies Institute, Washington, 2007.
299. Notes of Meeting Held at President Wilson' s House in the Place des Etats-Unis, Paris, on Friday, May 2, 1919, at 11 a.m. - Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Confenrence. Volume V. Washington, United States Government Printing Office, 1946, p. 407.
300. Notes of a Meeting of the Ministers of Foreign Affairs, held at the Quai d'Orsay, Paris, Saturday, January 10, 1920, at 11: 30 a.m. - Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Confenrence. Volume IX. Washington, United States Government Printing Office, 1946, p. 835.
301. Notes of a Meeting Held in M. Pichon's Room, Quai d'Orsay, Paris, Monday, January 19, 1920, at 10: 30 a.m. - Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Confenrence. Volume IX, p. 889-904.
302. Oil and geopolitics in the Caspian Sea Region / edited by Michael P. Croissant and Bülent Aras; foreword by Patrick Clawson. Westport, Conn: Praeger, 2000, 305 p.
303. Security sector governance in Southern Caucasus: challenges and visions / Study Groups, Regional Stability in Southern Caucasus. Geneva Centre for the Democratic Control of Armed Forces, 2004, 214 p.
304. Statistical Review of World Energy, june 2010.
305. Svante E. Cornell. Geopolitics and strategic alignments in the Caucasus and Central Asia // Jurnal of International Affairs, june-august 1999

306. The Baku-Tbilisi-Ceyhan pipeline: oil window to the West / edited by S. Frederick Starr and Svante E. Cornell. Washington, D.C: Central Asia-Caucasus Institute; Uppsala, Sweden: Silk Road Studies Program, 2005,150 p.
307. The Organization for Security and Co-operation in Europe (OSCE) (Global Institutions) by David J. Galbreath (Jun 20, 2007), p.65.
308. The security of the Caspian Sea Region / edited by Gennady Chufrin. Oxford University Press, 2001, 375 p.
309. The South Caucasus: a challenge for the EU / edited by Dov Lynch. Paris: Institute for Security Studies, 2003, 205 p.

İnformasiya resursları

Azərbaycan dilində

310. **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi saytı**
Əliyev İ.H. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları. Tam külliyyat. http://www.president.az/
311. **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kitabxanası**
Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Elektron külliyyat (1-46-cı cildlər): http://heydaraliyev.preslib.az
312. **Azərbaycan Respublikası normativ hüquqi aktlarının rəsmi mətnləri**
http://e-qanun.az/

313. **Dağlıq Qarabağ münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi**.
http://www.elibrary.az/docs/karabakh/gl1.pdf
314. **Heydər Əliyev İrsini Araşdırma Mərkəzi**
Elektron kitabxana: Ümummilli lider Heydər Əliyevin çıxış, müsahibə, görüş, bəyanat və məktublarının mətni: http://www.aliyev-heritage.org/
315. **Ekologiya və Təbii Sərvətlər Nazirliyi**
http://www.eco.gov.az/
316. **Xarici İşlər Nazirliyi**
http://www.mfa.gov.az/
317. **Milli Təhlükəsizlik Nazirliyi**
http://www.mns.gov.az/
318. **Nəqliyyat Nazirliyi. Nəqliyyat siyasəti, nəqliyyat dəhlizləri:**
http://www.mot.gov.az
http://www.mot.gov.az/?mod=inside&lang=az&menu=138
http://www.mot.gov.az/?mod=inside&lang=az&menu=119
319. **Sənaye və Energetika Nazirliyi.** Hesabatlar:
http://www.mie.gov.az/cgi-bin/min/main.cgi?s=9;s2=1
320. **İqtisadiyyat və Sənaye Nazirliyi**
http://www.economy.gov.az
321. **Dövlət Statistika Komitəsi**
http://www.stat.gov.az
322. **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi**
http://www.refugees-idps-committee.gov.az
323. **Azərbaycan Respublikası Dövlət Neft Şirkəti**
http://www.socar.az

324. **Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin nəşrləri**
http://sam.gov.az/nesrler
325. **Elektron Təhlükəsizlik Mərkəzi**
http://www.cert.az
326. **Azərbaycan Milli Elmlər Akademiyası**
Dissertasiyalar, dövri nəşrlər:
http://www.science.gov.az/az/referat.php
http://www.science.gov.az/az/cat.php?fid=publications
327. **Azərbaycan Milli Kitabxanası. Elektron Kitabxana**
http://www.anl.az/el.php\
328. **İnformasiya agentliklərinin xəbər bülletenləri:**
AzərTAc – http://azertag.az/
"Trend" – http://www.trend.az/
APA - http://apa.az/
"İnterfaks" - http://www.interfax.az/

Rus dilində

329. **Московский государственный институт международных отношений**
Публикации
http://www.mgimo.ru/publications/index.phtml
330. **Институт международных организаций и международного сотрудничества Государственного университета – Высшей школы экономики**
Монографии, Вестник международных организаций
http://www.iori.hse.ru/publications/monograf.shtm
http://www.iori.hse.ru/publications/herald.shtm

331. **Институт проблем международной безопасности РАН**
Международные договоры и соглашения, стратегическое управление в сфере обороны и безопасности
http://www.ipmb.ru/index.html

332. **Институт мировой экономики и международных отношений РАН**
http://www.imemo.ru/

333. **Институт США и Канады РАН**
Журналы:
«США - Канада: экономика, политика, культура»
http://www.iskran.ru/journal.
«Россия и Америка в XXI веке»
http://www.rusus.ru/

330. **Институт экономики РАН**
Книги, монографии, сборники
http://inecon.ru/ru/index.php?go=Content&id=25

331. **Институт Европы РАН**
Доклады, книги, журнал "Современная Европа"
http://www.ieras.ru/info8.htm

332. **Социологический институт РАН**
Книги, публикации
http://www.si.ras.ru/index.php?pid=9&lid=1

333. **Институт всеобщей истории РАН**
Публикации, авторефераты и программы
http://www.igh.ru/

334. **Научная электронная библиотека – диссертации и авторефераты**
http://www.scholar.ru/

335. **Научная электронная библиотека LIBRARY.RU**
http://elibrary.ru/defaultx.asp
336. **Научные ресурсы - Научная литература в интернете**
http://www.scintific.narod.ru/literature.htm
337. **Электронная библиотека - книги, журналы, диссертации, авторефераты**
http://www.lib.ua-ru.net/
338. **Электронный каталог библиотек МГУ**
http://www.msu.ru/libraries/
339. **Диссертации России.**
Электронный каталог: диссертация, автореферат
http://www.lib.ua-ru.net/disser/ru.html
340. **LITRU.RU - Электронная Библиотека**
http://www.litru.ru/
341. **Русский Гуманитарный Интернет – Университет**
Библиотека учебной и научной литературы
http://www.i-u.ru/biblio/
342. **Информационные агентства**
Агентство РИА Новости - http://ria.ru/
Агентство “РБК” - http://www.rbc.ru/
Агентство УНИАН – http://www.unian.net/
Агентство Ukranews – http://ukranews.com/
Агентство Новости Армения -
http://www.newsarmenia.ru/
Lenta.ru - http://lenta.ru/
ИА Regnum - http://www.regnum.ru/
РИА Новости - http://ria.ru/
Новости Грузия - http://newsgeorgia.ru/

İngilis dilində

343. **Harvard Libraries** http://lib.harvard.edu
344. **Questia – Online Library**
http://www.questia.com/Index.jsp
345. **The Internet Public Library** http://www.ipl.org
346. **The Library of Congress** http://catalog.loc.gov
347. **The British Library** http://www.bl.uk
348. **United Nations Office on Drugs and Crime**
www.unodc.org
349. **The Financial Times** http://www.ft.com/home/uk
350. **«Reuters" News Agency -** http://www.reuters.com/
351. **Euronews** - http://euronews.com/

Dövri mətbuat

Azərbaycan dilində

352. "Azərbaycan" qəzeti, 1994-2015-ci illər.
353. "Xalq qəzeti" 1994-2015-ci illər.
354. "Kaspi" qəzeti, 16 sentyabr 2007-ci il; 20 dekabr 2012-ci il; 8 oktyabr, 3, 14 dekabr 2013-cü il; 24 sentyabr 2014-cü il.
355. "Ekspress" qəzeti, 16 sentyabr 2010-cu il.
356. "Bizim yol" qəzeti, 17 sentyabr 2011-ci il; 29 noyabr 2013-cü il; 29 sentyabr 2014-cü il.
357. "İki sahil" qəzeti, 20 senytabr 2013-cü il, 26 fevral 2010-cu il.
358. "Bakı xəbər" qəzeti, 7 mart 2012-ci il; 20 noyabr 2013-cü il.
359. "525-ci qəzet", 14 noyabr 2010-cu il.

360. “Bizim dövr” qəzeti, 19 fevral 2014-cü il.
361. “Şərq” qəzeti, 30 yanvar, 20 fevral 2010-cu il; 30 sentyabr 2010-cu il.
362. “Səs” qəzeti, 23 fevral 2010-ci il.
363. “Olaylar” qəzeti, 25 oktyabr 2013-cü il.
364. “Gündəlik Teleqraf” qəzeti, 7 fevral 2012-ci il.
365. “Yeni Müsavat” qəzeti, 24 fevral 2010-cu il; 5 aprel 2012-ci il; 20, 30 noyabr 2013-cü il.
366. “Geostrategiya” jurnalı, mart-avqust 2011-2014-cü il.
367. “Azerbaijan Focus” jurnalı, № 1, 2, 2009.
368. “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı, 2012-2014 cü illər.

Rus dilində

369. “Зеркало”, 26 января; 11,12, 24 февраля, 22 июля; 27 августа, 2, 24 сентября, 9, 23 октября, 3 ноября 2010 г.
370. «Известия», 9 июня 1920 г; 18 , 22 ноября 2010 г.
371. “Красная звезда», 1 марта 2003 г.
372. “Независимая газета”, 6 декабря 1997 г., 10 февраля 2004 г., 20 июля 1997, 19 ноября 2010 г.
373. “Российская газета”, 7 декабря 1997 г.

Normativ-hüquqi sənədlər

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu
3. "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanunu
4. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu
5. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu
6. "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanunu
7. "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu
8. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanunu
9. "Energetika haqqında" Azərbaycan Respublikasının Qanunu
10. "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu
11. "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu
12. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası
13. Azərbaycan Respublikasının Hərbi Doktrinası
14. Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya
15. "Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
16. Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı

17. Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı
18. Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı
19. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı
20. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişafı üzrə Dövlət Proqramı
21. Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı
22. Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı
23. Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər Planı
24. Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı

РЕЗЮМЕ

В книге **«Основы политики национального развития и безопасности Азербайджанской Республики»** анализируются основы современной политики национального развития и безопасности Азербайджана, излагаются многочисленные геополитические и военно-геостратегические вопросы, в том числе, выявление геополитического кода государства, разработка закона о безопасности и концепции национальной и внешней политики в области безопасности, определение рамок национальных интересов и обеспечение их защиты.

В книге исследуются и такие важные аспекты политики безопасности, как перспективы будущего развития государства, его отношения с мировыми и региональными центрами силы, обеспечение безопасности эксплуатации энергетических ресурсов Каспия и транспортировки их на мировой рынок, а также транспортно-коммуникационного коридора Север-Юг, Восток-Запад и других транснациональных проектов.

Помимо этого, в книге исследуются потенциальные угрозы национальному развитию и безопасности Азербайджана, связанные с деятельностью местных, региональных и глобальных акторов, процессы, наблюдаемые на современном этапе в таких жизненно важных сферах, как военно-геостратегическая, политическая, экономическая, энергетическая, демографическая, экологическая, информационная и др.

В книге также анализируется политика безопасности, проводимая Азербайджаном в мировом, региональном и локальном масштабе, затрагиваются вопросы участия государства в системе безопасности и военно-геостратегических процессах транснационального мира.

Концептуальные основы политики национального развития и безопасности Азербайджана, ее принципы, цели и основные направления изложены **в шести главах.**

Формирование, основные задачи и требования политики национального развития Азербайджана нашли свое отражение **в первой главе** и составляют основной объект исследования. В данной главе под названием **«Современная политика национального развития Азербайджанской Республики: характеристика, основные задачи и требования»**, на фоне процессов, происходивших в регионе и на международной арене, исследуются особенности взаимовлияния и взаимосвязи между требованиями национального развития Азербайджана и системой международной безопасности, анализируются процесс распада СССР и исторические условия восстановления государственной независимости в конце XX столетия, указываются основные задачи политики развития и национальной стратегии государства, в число которых входят – установление сильного и эффективного государственного управления, создание общественно-политической стабильности, достижение экономического развития, обеспечение целостности общества и гражданского единства, воспитание граждан с национальной волей и твердыми убеждениями, их объединение вокруг национальной идеи – азербайджанства и т.д.

Вторая глава книги называется «**Политика национальной безопасности Азербайджана: основные параметры национальных интересов, геополитический код и перспективы безопасности».** В данной главе анализируются основные задачи и механизмы политики национальной безопасности государства. В этой главе исследуются задачи, вытекающие из национальных интересов и безопасности, связанные со строительством независимого государства, социально-экономическими и общественно-политическими отношениями.

Международная, региональная и национальная политика, а также отношения с региональными и ведущими государствами мира играют значительную роль в определении геополитического кода страны. Необходимость разработки комплексной программы действий по геополитическим взаимоотношениям с внешним миром, по мнению автора, требует от любого независимого государства решения важных задач, в том числе проведения специальных исследований о геополитических проблемах и преимуществах страны, определения геополитического кода и кодекса, места и роли государства в международном и региональном сообществе.

В третьей главе, носящей название **«Основные направления национальной политики безопасности»** особое внимание уделяется основным направлением политики безопасности Азербайджанской Республики, рассматриваются внешние и внутренние угрозы, влияющие на военную безопасность, роль военно-геостратегической и оборонной политики в обеспечении национальной безопасности, создание благоприятных внутренних и внешних условий вокруг страны, разъясняются задачи, стоящие перед оборонной политикой государства в случае возникновения угрозы безопасности.

В разделе, посвященном пограничной безопасности и ее основным направлениям, указаны наиболее уязвимые территории на границах Азербайджана, обоснована необходимость разработки Концепции Пограничной Безопасности, отражающей основы пограничной политики Азербайджана с учетом актуализации вопросов пограничной безопасности и требований пространственной безопасности государства в глобализирующемся мире.

В параграфах данной главы излагаются также основные задачи и направления политики национальной безопасности

государства в устойчивом экономическом, политическом, социальном, энергетическом, транспортном, продовольственном, информационном и.т.д сферах жизни республики, рассматриваются политика защиты суверенитета и безопасности населения, превращения природных ресурсов в национальные богатства, обеспечение геополитического, геоэкономического, геостратегического контроля над ними и интеграция в мировое сообщество,

В IV главе под названием **«Внешнеполитическая стратегия Азербайджана в сфере международной безопасности»** нашли свое отражение вопросы, касающиеся международной системы безопасности и ее основных требований, стратегии внешней политики Азербайджана в данной сфере. Здесь анализируются основные принципы, задачи, приоритеты, ресурсы и направления внешней политики, связанные с политикой безопасности, исследуется роль внешней политики государства в устойчивом и мирном развитии страны, защите ее суверенитета, безопасности и территориальной целостности. В этой главе также рассматриваются вопросы формирования и реализации концепции геополитической деятельности Азербайджана, основные задачи, стоящие перед соответствующими государственными структурами в области внешней политики и безопасности.

В V главе носящей название **«Каспийско-Черноморский бассейн и военно-геостратегические отношения на Южном Кавказе и политика региональной безопасности Азербайджана»** исследуются среда безопасности Южного Кавказа и Каспийско-Черноморского бассейна, международные, региональные и локальные интересы Азербайджана, особенности влияния США и России на региональную безопасность страны и т.д. Раскрываются схожие и отличительные черты геополитических целей двух могущественных государств региона, проводится сравнительный анализ по-

зиций международных экспертов и политологов по вопросам безопасности Южного Кавказа, Каспийско-Черноморского бассейна и всей Евразии. В этой главе одновременно исследуются тенденции к созданию военно-геостратегических блоков на Южном Кавказе, рассматривается политика Азербайджана по обеспечению региональной и международной безопасности, вопросы сотрудничества государства с Россией, США, ЕС, Турцией, Ираном, Грузией, Украиной, государствами Средней Азии и высказываются определенные прогнозы.

Здесь также на фоне геополитических целей различных военно-геостратегических группировок на Южном Кавказе и в Каспийско-Черноморском бассейне анализируются новые тенденции в военно-геостратегическом положении и геополитической конфигурации региона, основы международной политики и политики национальной безопасности Азербайджана, излагаются инициативы республики, направленные на обеспечение мирного, безопасного и благополучного проживания населения стран региона.

Vl глава под названием **«Армяно-Азербайджанский, Нагорно-Карабахский конфликт как основная проблема безопасности на Южном Кавказе: международные, региональные, местные интересы и вопрос территориальной целостности Азербайджана»** в отдельности посвящена Армяно-Азербайджанскому, Нагорно-Карабахскому конфликту и влиянию данного конфликта на международную, региональную и национальную безопасность Азербайджана. Помимо этого**,** в этой главе рассматривается также политика различных международных и региональных акторов вокруг Армяно-Азербайджанского, Нагорно-Карабахского конфликта и широко освещается ее влияние на национальную безопасность страны. Особое внимание уделено выявлению угроз международному миру и безопасности, связанных с Армяно-Азербайджанским, Нагорно-Карабахским конф-

ликтом, а также всестороннему исследованию исторических корней конфликта. Здесь рассматриваются территориальные притязания Армении к Азербайджану в конце XX века и проармянская политика советского руководства на Кавказе, оккупация азербайджанских земель армянскими вооруженными формированиями, обсуждение данного вопроса в Совете Безопасности ООН, создание и начало деятельности Минской группы ОБСЕ по урегулированию конфликта, а также позиция других международных организаций относительно этой проблемы. Здесь также рассматривается внешняя политика Азербайджана по урегулированию конфликта на уровне таких авторитетных международных организаций, как ООН, ОБСЕ, Совет Европы, НАТО, Европейский Союз, Организации Исламской Конференции и Содружества Независимых Государств, анализируются выдвинутые ОБСЕ предложения и связанная с этим официальная позиция Азербайджана и Армении.

В монографии особое внимание уделяется целям, задачам и основным направлениям политики национальной безопасности государства. По мнению автора книги, современные требования и вызовы глобализации, а также геополитические процессы, протекающие в регионе, делают необходимым проведение государством тонкой и гибкой политики безопасности в политической, экономической, социальной, энергетической, транспортной, транзитной, информационной и др. сферах жизни Азербайджана. На фоне всего этого, в заключении автор во всех вышеназванных областях обобщает уровень реализации и результатов политики безопасности страны, дает некоторые практические рекомендации о перспективах данной сферы.

Монография открывает новые направления в научной сфере Азербайджана, которые в будущем, по мере развития определенных процессов, будут ставить перед учеными новые научные и практические вопросы.

Summary

The book entitled **"The basis of National Development and Security Policy of the Republic of Azerbaijan**" analysis the basis of the Modern National Development and Security Policy of the Republic of Azerbaijan. Explaining geopolitical and military-geostrategic issues as the country's geopolitical code, preparation of its national and foreign policy concept in the security field, determination and guaranty of the limits of its national interests.

The assessment of important aspects that ensure the security of state's future development perspectives, its relationship with the world and region's geopolitical power centers, exploring the Caspian energy transporters and their delivery to the world market and East-West transport-communication corridor and other transnational projects have also been investigated.

The book also reveals local, regional and global activities that might be a threat to the Azerbaijan's national development and security in the future and the processes observed in the military-geostrategic, political, economic, energy, demographic, ecological, information and other crucial areas of the country. Furthermore, state's security policy demonstrated both within the country and in the region and in the world, its role at the transnational world's military-geostrategic and security policy are analyzed in the monograph as well.

Azerbaijan's national development and security policy, its principles, objectives and main directions are introduced **in 6 chapters**.

Chapter 1 entitled **"Modern national development policy of the Republic of Azerbaijan: characteristics, main objectives and demands"**. The following issues are presented in this chapter: investigation of the mutual relationship between Azerbaijan's national development needs and international security systems; analysis of the collapse of the USSR at the end of 1980s and the beginning of the 1990 s; preliminary historical conditions fostering restoration of Azerbaijan's state independence in the background of the processes happening in the region and in the world. In addition, the author sheds a light on the main tasks of Azerbaijan's national strategy and development policy, including comments on building strong and efficient state governance, public-political stability, achieving economic growth, guaranteeing indivisibility of the society and civil society, cultivating citizens with national will and sensible belief, pulling them together to stand by one national idea-Azerbaijanism and etc.

Chapter 2 entitled **"The national security policy of Azerbaijan: the basic parameters of national interests, geopolitical code and the security prospects"**. The main goals and mechanisms of the state's national security policy are investigated in this chapter. Also, investigation on independent state building, then, social-economic and public-political missions that derive from national interests and the formation of the national security system on the base of new principles have been reflected in the chapter .

Special attention is paid to the country's military and border security policy in one of the sections of this chapter. Here, the Azerbaijan Republic's military doctrine, and main directions and goals of its military security policy have been analyzed, too.

Chapter 3 entitled **"The main directions of national security policy"** examines internal and external threats affecting military security and the role of military-geostrategic and defense policy in the assurance of Azerbaijan's military security, formation of favorable internal and external conditions around the country as well. The main goals of the defense policy in case of threat to military security standing on agenda are also analyzed .

In the paragraph, devoted to the border security and its main directions Azerbaijan's most sensitive areas in terms of border security are analyzed too. Emphasizing the issues of border security in the globalized world and country's land security, the author concludes that creation of Border Security Concept expressing the basis of Azerbaijan's border policy is highly significant.

Chapter 4 entitled "**Azerbaijan's foreign policy strategy in the field of international security reflects**" the international security system and its main needs, and Azerbaijan's foreign policy strategy carried out in this field and other issues. In this chapter the main principles, objectives, priorities, resources and directions of Azerbaijan's foreign policy concerning security are analyzed. Furthermore, the role of foreign policy in countries' integration into world community, state's sustainable development, shift from natural resources to national ones, guaranty of political, economic and geostrategic control over the sovereign state rights, security of the people and national resources has been examined.

Chapter 5 entitled **"Caspian-Black Sea basin and the military- strategic relations of the South Caucasus region and regional security policy of Azerbaijan"** deals about the

following issues: formation of Azerbaijan's geopolitical action concept; establishment of practical action in this area; significant tasks arising in front of relevant state institutions related to the security and foreign policy action.

International, regional and national policy carried out by Azerbaijan and its relations with the regional and world's major powers plays a significant role in determination of country's geopolitical code. According to the author, preparation of complex action program concerning geopolitical relations with external world raises important goals in front of Azerbaijan and demands a special research on the role of country's geopolitical problems and priorities, geopolitical code and practical action codex.

The Caspian-Black Sea basin and security of the South Caucasus, international, regional and local interests of Azerbaijan, the US and Russian influence upon regional security of the country and its features are investigated in the chapter headlined "Regional security policy of Azerbaijan". The different and overlapping features of these countries, playing a significant role in determination of world politics, geopolitical goals related to region are investigated. The comparative analysis of politicians and international experts' positions on the Caucasus, Caspian-Black Sea basin, and Eurasia as a whole is provided in this chapter. The military-geostrategic alignment trends in the South Caucasus are investigated, and related predictions are made in this chapter. Azerbaijan's policy of ensuring regional and international security and its relations with the USA, Russia, Turkey, Iran, Georgia, Ukraine and Central Asian countries are investigated. New trends observed in the region's geopolitical configuration, Azerbaijan's inter-

national and national security policy and its bases in the shadow of different military-geostrategic alliances established around the South Caucasus, Caspian-Black Sea basin and military-geostrategic conditions of the region are analyzed. Azerbaijan's initiatives regarding peace and security that is intended to guarantee prosperous and stable life conditions for the population of the region are commented.

Chapter 6 entitled **"The Armenian-Azerbaijan, Nagorno Karabakh conflict in the South Caucasus as a major security issue : international , regional and local interests and territorial integrity of Azerbaijan"**. Besides, the policies by different international and regional powers carried out around Armenia-Azerbaijan, Nagorno Karabakh conflict, and its effects on country's national security concerns have been reflected in this chapter. In this book special attention has been paid to the investigation of the threats to regional and international security posed by Armenia-Azerbaijan, Nagorno Karabakh conflict. In addition, historic roots of this conflict, Armenia's territorial claims to Azerbaijan in the end of XX century, Soviet leadership's pro-Armenian Caucasus policy, occupation of Azerbaijani territories by Armenian armed forces and the discussion of the conflict in the UN Security Council are examined. As well as establishment of OSCE Minsk Group and its onset on conflict resolution, and positions by other international organizations have been thoroughly investigated in the chapter. Azerbaijan's foreign policy on conflict resolution implemented by both with the world major powers and on the level of such influential organizations as the United Nations, OSCE, Council of Europe, NATO, European Union, Organization of Islamic Cooperation have been

researched in the book. Moreover, proposals of OSCE and official position of Azerbaijan and Armenia to those proposals have been analyzed.

The main attention in the book is given to the objectives and main directions the country's national security policy. According to the book's author the challenges and demands of both globalization in a modern world and geopolitical processes taking place in the region makes the implementation of the sensitive and dynamic security policy in economic, energy, transport, transit-corridor and information fields of the country inevitable. In conclusion, the author summarizing the level of implementation and result of security policy of the country gives some practical advice on the prospects of this spheres.

The book opens new directions in the field of science of Azerbaijan, which will gradually put forward new scientific and practical issues in front of the scientists in the future.

ƏLİ HƏSƏNOV

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ İNKİŞAF VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN ƏSASLARI

Mətbəənin direktoru: ***Elman Qasımov***
Dizayner: ***Mətanət Əliqızı***

Çapa imzalanmışdır: 22.01.2016
Formatı 60x90 1/16. Həcmi 43,75 ç.v.
Sifariş № 04. Tiraj 1000

«Zərdabi LTD» MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ iş (012) 514-73-73,
mob. (050; 055; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru